# HEYDƏR ƏLİYEV

MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*otuzuncu kitab*

***sentyabr, 2000 - noyabr, 2000***

**AZƏRNƏŞR**

**BAKI-2010**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 56 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2010, 512 səh.

Xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin çoxcildlik əsərlərinin oxuculara təqdim olunan bu növbəti cildində Nyu-Yorkda BMT-nin himayəsi altında keçirilən minilliyin zirvə görüşündə dərin məzmunlu çıxışı, GUÖAM dövlət başçıları ilə, ABŞ prezidenti Bill Klintonla, keçmiş prezident Corc Buşla, iri şirkətlərin rəhbərləri, nüfuzlu dairələrin nümayəndələri ilə keçirdiyi görüşlərə, danışıqlara dair materiallar, Amerika – Azərbaycan Ticarət Palatasının «Azərbaycan Avrasiyanın qapısı, strateji və iqtisadi Alyanslar ölkəsidir» mövzusunda təşkil etdiyi beynəlxalq konfransda çıxışı, mətbuat orqanlarına verdiyi bəyanat və müsahibələri toplanmışdır.

Kitabda Heydər Əliyevin ölkəmizdə bir sıra istehsal müəssisələrinin modernləşdirilərək yenidən qurulmasına, şəhid ailə və Qarabağ müharibəsi əlilləri üçün tikilmiş yaşayış binasının, «Bakı SOS Uşaq kəndi»nin istifadəyə verilməsinə həsr olunmuş mərasimlərdə çıxışları, Azərbaycan Milli Məclisinə seçkilərlə əlaqədar müşavirədə nitqi, seçkiləri müşahidə etmək üçün Bakıya gəlmiş Avropa Şurası və ATƏT-in Parlament Assambleyalarının, ABŞ, Türkiyə, İran, Rusiyanın nüfuzlu dairələrinin nümayəndələri ilə görüşləri və s. öz əksini tapmışdır.

Bu cilddə də dövlətimizin başçısının Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsinə aid ATƏT, Avropa Şurası rəhbərləri ilə görüşləri, bu münaqişə ilə əlaqədar onun prinsipial mövqeyi öz əksini tapmışdır.

**VVK -32**

$Я \frac{0801000000}{M - 651(07) - 2010}$ **BBK-32**

© Azərnəşr, 2010

# MÜNDƏRİCAT

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏRİ**........ *10*

**GUÖAM DÖVLƏTLƏRİ BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ**
*6 sentyabr 2000-ci il*........ *11*

**MİNİLLİYİN ZİRVƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ**
*7 sentyabr 2000-ci il*........ *13*

**BMT-nin İNSAN HÜQUQLARI ÜZRƏ ALİ KOMİSSARI XANIM MERİ ROBİNSON İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*7 sentyabr 2000-ci il*........ *15*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏRİ**........ *16*

**AMERİKANIN NÜFUZLU YƏHUDİ TƏŞKİLATLARININ – YƏHUDİ KOMİTƏSİNİN, PREZİDENTLƏR KONFRANSININ, YƏHUDİ KONQRESİNİN, SOVET YƏHUDİLƏRİ MİLLİ KOMİTƏSİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*8 sentyabr 2000-ci il*........ *18*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏRİ**........ *23*

**BÖYÜK İPƏK YOLU ÜZƏRİNDƏ YERLƏŞƏN ÖLKƏLƏRİN REGİONAL ƏMƏKDAŞLIĞIN ZİRVƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ**
*8 sentyabr 2000-ci il*........ *24*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KEÇMİŞ PREZİDENTİ CORC BUŞLA GÖRÜŞÜ**
*9 sentyabr 2000-ci il*........ *26*

**AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏRİ**........ *29*

**AMERİKA – AZƏRBAYCAN TİCARƏT PALATASININ «AZƏRBAYCAN AVRASİYANIN QAPISI, STRATEJİ VƏ İQTİSADİ ALYANSLAR ÖLKƏSİDİR» MÖVZUSUNDA TƏŞKİL ETDİYİ BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ**
*11 sentyabr 2000-ci il*........ *30*

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ AMERİKANIN «MONKRİF OYL» VƏ TÜRKİYƏNİN «TÜRK PETROLLARI» ŞİRKƏTLƏRİ ARASINDA «MİŞOVDAĞ» VƏ «KƏLAMƏDDİN» YATAQLARINDA HASİLATIN PAY BÖLGÜSÜNƏ DAİR SAZİŞİN İMZALANMA MƏRASİMİNDƏ NİTQ**
*12 sentyabr 2000-ci il*........ *38*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FERNANDO HENRİKE KORDOSOYA**
*9 sentyabr 2000-ci il*........ *41*

**KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ**
*10 sentyabr 2000-ci il*........ *42*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ**

**RƏHMONOVA**
*11 sentyabr 2000-ci il…………………………………………………………………………* 43

**TƏŞKİLAT KOMİTƏSİNİN SƏDRİ – RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ V.MATVİYENKOYA**
*12 sentyabr 2000-ci il…………………………………………………………………………* 44

**ÇİLİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RİKARDO LAQOS ESKOBARA**
*15 sentyabr 2000-ci il…………………………………………………………………………* 45

**VOKALÇILARIN BÜLBÜL ADINA II BEYNƏLXALQ MÜSABİQƏSİNƏ**
*18 sentyabr 2000-ci il…………………………………………………………………………* 46

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ERNESTO ZEDİLYO PONSE DE LEONA**
*20 sentyabr 2000-ci il…………………………………………………………………………* 47

**MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ÖLKƏLƏRİNİN İNŞAAT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI ŞURASININ XIII TOPLANTISINA**
*21 sentyabr 2000-ci il…………………………………………………………………………* 48

**MALİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏLFA ÖMƏR KONARİYƏ……………………………………………………………………………………** 49

**SƏUDİYYƏ ƏRƏBİSTANI MƏMLƏKƏTİNİN MƏLİKİ ƏLAHƏZRƏT FƏHD BİN ƏBDÜLƏZİZ AL SƏUDA…………………………………………………………………………** 50

**SƏUDİYYƏ ƏRƏBİSTANI MƏMLƏKƏTİNİN VƏLİƏHDİ, BAŞ NAZİRİN BİRİNCİ MÜAVİNİ, MİLLİ QVARDİYANIN RƏİSİ ƏLAHƏZRƏT ŞAHZADƏ ABDULLA BİN ƏDBÜLƏZİZ AL SƏUDA……………………………………………………………………...** 51

**QAFQAZIN ARXEOLOGİYA VƏ ETNOQRAFİYASINA HƏSR OLUNMUŞ BEYNƏLXALQ ELMİ KONFRANSA**
*26 sentyabr 2000-ci il…………………………………………………………………………* 52

**ANS YAYIM VƏ MEDİA ŞİRKƏTİNİN ƏMƏKDAŞI MİRŞAHİN AĞAYEVƏ ABŞ-ın KLİVLEND ŞƏHƏRİNDƏN TELEFONLA MÜSAHİBƏ**
*26 sentyabr 2000-ci il…………………………………………………………………………* 53

**İTAR-TASS AGENTLİYİNƏ MÜSAHİBƏ**
*27 sentyabr 2000-ci il…………………………………………………………………………* 55

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BİLL KLİNTONA**
*27 sentyabr 2000-ci il…………………………………………………………………………* 56

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ VİTSE-PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALBERT QORA**
*27 sentyabr 2000-ci il…………………………………………………………………………* 57

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ XANIM MADLEN OLBRAYTA**
*27 sentyabr 2000-ci il…………………………………………………………………………* 58

**LONDONDAN BAKIYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL RUSİYA İCTİMAİ TELEVİZİYASININ /ORT/ BÖYÜK BRİTANİYADAKI XÜSUSİ MÜXBİRİNƏ MÜSAHİBƏ**
*29 sentyabr 2000-ci il…………………………………………………………………………* 59

LONDONDAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA ÇOXSAYLI JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*29 sentyabr 2000-ci il………………………………………………………………………………….. 60*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOHANNES RAUYA
*30 sentyabr 2000-ci il………………………………………………………………………………….. 64*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB GERHARD ŞRÖDERƏ
*30 sentyabr 2000-ci il………………………………………………………………………………….. 65*

QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LANSANA KONTEYƏ
*30 sentyabr 2000-ci il………………………………………………………………………………….. 66*

LESOTONUN KRALI ƏLAHƏZRƏT III LETSİYEYƏ
*30 sentyabr 2000-ci il………………………………………………………………………………….. 67*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB TSZYAN TSZEMİNƏ
*30 sentyabr 2000-ci il………………………………………………………………………………….. 68*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA
*30 sentyabr 2000-ci il………………………………………………………………………………….. 69*

PREZİDENT SARAYINDA KEÇİRİLƏN MÜŞAVİRƏDƏ NİTQ
*2 oktyabr 2000-ci il…………………………………………………………………………………….. 70*
YEKUN NİTQİ

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA
*3 oktyabr 2000-ci il…………………………………………………………………………………….. 80*

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏSGƏR AKAYEVƏ
*3 oktyabr 2000-ci il…………………………………………………………………………………….. 81*

XALQ ARTİSTİ XƏYYAM MİRZƏZADƏYƏ
*4 oktyabr 2000-ci il…………………………………………………………………………………….. 82*

VATİKAN DÖVLƏTİNİN BAŞÇISI PAPA II İOHANN PAVEL HƏZRƏTLƏRİNƏ
*5 oktyabr 2000-ci il…………………………………………………………………………………….. 83*

EKVATORİAL QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OBİANQ MBASOQOYA
*5 oktyabr 2000-ci il…………………………………………………………………………………….. 84*

AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINA
*5 oktyabr 2000-ci il…………………………………………………………………………………….. 85*

İSPANİYANIN KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA
*5 oktyabr 2000-ci il…………………………………………………………………………………….. 86*

İSPANİYA KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE MARİA AZNARA
*5 oktyabr 2000-ci il…………………………………………………………………………………….. 87*

MÜASİR DÖVRÜN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV ROSTROPOVİÇ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*7 oktyabr 2000-ci il………………………………………………………………………………….. 88*

**ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV POSTROPOVİÇİN İŞTİRAKI İLƏ KONSERTDƏN SONRA MAESTRO İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*9 oktyabr 2000-ci il…………………………………………………………………………………. 90*

**YUQOSLAVİYA İTTİFAQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BOİSLAV KOŞTUNİTSAYA**
*9 oktyabr 2000-ci il………………………………………………………………………………….. 91*

**SNN TÜRK TELEVİZİYA KANALININ ƏMƏKDAŞLARINA**
*9 oktyabr 2000-ci il…………………………………………………………………………………… 92*

**«BOİNQ» KORPORASİYASININ VİTSE-PREZİDENTİ ROBERT SPİTZER İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*10 oktyabr 2000-ci il…………………………………………………………………………………. 93*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ**
*10 oktyabr 2000-ci il…………………………………………………………………………………. 95*

**RUSİYA FEDERASİYASI MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ SƏDRİ ALEKSANDR VEŞNYAKOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*12 oktyabr 2000-ci il…………………………………………………………………………………. 96*

**«BAKI-KASTEL» XIRDALAN PİVƏ ZAVODUNUN TAM İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ**
*16 oktyabr 2000-ci il…………………………………………………………………………………. 99*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİCƏNAB BİLL KLİNTONA**
*16 oktyabr 2000-ci il…………………………………………………………………………………. 103*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KİM DE ÇJUNA**
*16 oktyabr 2000-ci il…………………………………………………………………………………. 104*

**MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FERENS MADLA**
*16 oktyabr 2000-ci il…………………………………………………………………………………. 105*

**ZAMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FREDERİK ÇULUBAYA**
*16 oktyabr 2000-ci il…………………………………………………………………………………. 106*

**«AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ ƏSAS İXRAC BORU KƏMƏRİ İŞTİRAKÇILARI ARASINDA TRANZİT ƏRAZİSİNƏ MALİK ÖLKƏNİN HÖKUMƏTİ İLƏ SAZİŞ»İN VƏ «BAKI–TBİLİSİ–CEYHAN XAM NEFT KƏMƏRİ LAYİHƏSİNİN MÜHƏNDİS İŞLƏRİ VƏ LAYİHƏLƏŞDİRİLMƏSİ ÜÇÜN MALİYYƏLƏŞDİRMƏ VƏ ƏMƏKDAŞLIQ SAZİŞİ»NİN İMZALANMASI MƏRASİMİNDƏ NİTQ**
*17 oktyabr 2000-ci il…………………………………………………………………………………. 107*
**YEKUN NİTQİ**

**AVSTRALİYANIN SİDNEY ŞƏHƏRİNDƏ KEÇİRİLƏN XXVII YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILARIMIZLA GÖRÜŞDƏ NITQ**
*18 oktyabr 2000-ci il……………………………………………………………………………..... 110*
**YEKUN NİTQİ**

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN**

NAZARBAYEVƏ
*18 oktyabr 2000-ci il*............................................................................................ *115*

FRANSANIN KARYER-SU-PUASI ŞƏHƏRİNİN «SÜLH NAMİNƏ MÜRACİƏT»LƏ ÇIXIŞ ETMİŞ GƏNC SAKİNLƏRİNƏ
*18 oktyabr 2000-ci il*............................................................................................ *116*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR İZQİYƏ
*19 oktyabr 2000-ci il*............................................................................................ *117*

1 NÖMRƏLİ BAKI İSTİLİK-ELEKTRİK MƏRKƏZİNİN (İEM) BİRİNCİ NÖVBƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR EDİLMİŞ MƏRASİMDƏ NİTQ
*19 oktyabr 2000-ci il*............................................................................................ *118*

AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOMAS KLESTİLƏ
*20 oktyabr 2000-ci il*............................................................................................ *121*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ
*20 oktyabr 2000-ci il*............................................................................................ *122*

TÜRKMƏNİSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAPARMURAD NİYAZOVA
*20 oktyabr 2000-ci il*............................................................................................ *123*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV HAVELƏ
*20 oktyabr 2000-ci il*............................................................................................ *124*

BMT-nin UŞAQ FONDUNUN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA, MDB VƏ BALTİK ÖLKƏLƏRİ ÜZRƏ REGİONAL NÜMAYƏNDƏSİ FİLİP OBRAYAN İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*20 oktyabr 2000-ci il*............................................................................................ *125*

AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN İDMAN-SAĞLAMLIQ KOMPLEKSİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*21 oktyabr 2000-ci il*............................................................................................ *128*

İRAN İSLAM RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ƏLİRZA BİKDELİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*24 oktyabr 2000-ci il*............................................................................................ *132*

RUSİYA FEDERASİYASININ ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ NİKOLAY RYABOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*24 oktyabr 2000-ci il*............................................................................................ *136*

GÜRCÜSTANIN MARNEULİ RAYONUNUN KƏPƏNƏKÇİ KƏNDİNƏ
*27 oktyabr 2000-ci il*............................................................................................ *138*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*27 oktyabr 2000-ci il*............................................................................................ *139*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ROSS UİLSON İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*27 oktyabr 2000-ci il*............................................................................................ *143*

AZƏRBAYCAN MİLLİ MƏCLİSİ SEÇKİLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*29 oktyabr 2000-ci il*………………………………………………………………………………… *145*
**YEKUN SÖZÜ**

**QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏSGƏR AKAYEVƏ**
*30 oktyabr 2000-ci il*………………………………………………………………………….... *152*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI SENATININ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN RUSİYA VƏ AVROPA ÖLKƏLƏRİ ÜZRƏ MƏSUL ƏMƏKDAŞLARI MAYKL VESFAL VƏ YAN BJEZİNSKİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*30 oktyabr 2000-ci il*………………………………………………………………………….... *153*

**İSVEÇRƏ KONFEDERASİYASI FEDERAL ŞURASININ ÜZVÜ, VİTSE-PREZİDENT, FEDERAL MALİYYƏ DEPARTAMENTİNİN RƏHBƏRİ KASPAR VİLLİGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*30 oktyabr 2000-ci il*........................................................................................................... *156*

**MƏRMƏRƏ QRUPU STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VƏ QFİNİN SƏDRİ CƏNAB AKKAN SUVERƏ**
*28 oktyabr 2000-ci il*........................................................................................................... *159*

**TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ BAYRAMI – CÜMHURİYYƏT ELAN OLUNMASININ 77-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TÜRKİYƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
*30 oktyabr 2000-ci il*........................................................................................................... *160*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİNİN MDB ÖLKƏLƏRİ ÜZRƏ XÜSUSİ MÜŞAVİRİ, SƏFİR STEFAN SESTANOVİÇ, ATƏT-in MİNSK QRUPUNUN ABŞ TƏRƏFDƏN HƏMSƏDRİ, SƏFİR KERRİ KAVANO VƏ ONLARI MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*31 oktyabr 2000-ci il*........................................................................................................... *163*

**YAPONİYA–AZƏRBAYCAN İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN SƏDRİ, «NİÇİMEN KORPOREYŞN» ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ CƏNAB VATARİ AKİRANIN BAŞÇILIĞI İLƏ BU KOMİTƏNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*31 oktyabr 2000-ci il*........................................................................................................... *166*

**BEYNƏLXALQ MİQRASİYA TƏŞKİLATININ BAŞ KATİBİ BRUNSON MAK KİNLİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*31 oktyabr 2000-ci il*........................................................................................................... *168*

**ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ ÜÇÜN TİKİLMİŞ YAŞAYIŞ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ**
*1 noyabr 2000-ci il*............................................................................................................. *170*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKƏ**
*2 noyabr 2000-ci il*............................................................................................................. *173*

**AVTOMATLAŞDIRILMIŞ «SEÇKİLƏR» İNFORMASİYA MƏRKƏZİ İLƏ TANIŞLIQ**
*2 noyabr 2000-ci il*............................................................................................................. *174*

**«BAKI SOS UŞAQ KƏNDİ»NİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ**
*2 noyabr 2000-ci il*............................................................................................................. *178*

**«AZƏRNEFTYAĞ» İSTEHSALAT BİRLİYİNDƏ NƏHƏNG BİTUM QURĞUSUNUN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ**

*3 noyabr 2000-ci il*............................................................................................................................ *181*

**AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ (AŞPA) ÖLKƏMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏRİ MÜŞAHİDƏ ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*4 noyabr 2000-ci il*……………………………………………………………………………….. *186*

**ATƏT-in PARLAMENT ASSAMBLEYASININ ÖLKƏMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏRİ MÜŞAHİDƏ ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*4 noyabr 2000-ci il*………………………………………………………………………………. *191*

**ABŞ MİLLİ DEMOKRATİYA İNSTİTUTUNUN ÖLKƏMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏRİ MÜŞAHİDƏ ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*4 noyabr 2000-ci il*……………………………………………………………………………….. *195*

**TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN DEPUTATI, QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI PARLAMENT ASSAMBLEYASININ ÜZVÜ NECATİ ÇƏTİNQAYANIN RƏHBƏRLİYİ İLƏ ÖLKƏMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏRİ MÜŞAHİDƏ ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*4 noyabr 2000-ci il*……………………………………………………………………………….. *199*

**İRAN İSLAM RESPUBLİKASI PARLAMENTİNİN – İSLAM ŞURASI MƏCLİSİNİN ÖLKƏMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏRİ MÜŞAHİDƏ ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*4 noyabr 2000-ci il*………………………………………………………………………………. *203*

**MDB ÖLKƏLƏRİ PARLAMENTLƏRARASI ASSAMBLEYASI ŞURASININ, RUSİYA FEDERASİYASI FEDERASİYA ŞURASININ VƏ DÖVLƏT DUMASININ ÖLKƏMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏRİ MÜŞAHİDƏ ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*4 noyabr 2000-ci il*……………………………………………………………………………….. *205*

***Q E Y D L Ə R***…………………………………………………………………………………… ***209***

***ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ***………………………………………………………………… ***230***

***COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ***……………………………………………………………….. ***234***

**AZƏRBAYCAN PREZİDENTİ**
**HEYDƏR ƏLİYEVİN**
**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA**
**İŞGÜZAR SƏFƏRİ**

*Nyu-Yorkda, BMT-nin iqamətgahında Birləşmiş Millətlər Təşkilatının himayəsi altında keçirilən minilliyin zirvə görüşündə iştirak etmək üçün Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 2000-ci il sentyabrın 4-də xüsusi təyyarə ilə Nyu-Yorka gəlmişdi.*

*Dövlətimizin başçısı Heydər Əliyevi Nyu-York hava limanında Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev, ölkəmizin Birləşmiş Millətlər Təşkilatı yanındakı daimi nümayəndəsi Eldar Quliyev və BMT-nin rəsmi şəxsləri qarşıladılar.*

*Heydər Əliyev hava limanından Nyu-Yorkda onun üçün ayrılmış iqamətgaha gəldi.*

* * *

*Sentyabrın 6-da minilliyin zirvə görüşünün açılış mərasimi olmuşdur*[*].

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev zirvə görüşündə iştirak etmək üçün BMT Baş Məclisinin iclas salonuna gəldi. Dövlətimizin başçısını BMT-nin Baş katibi Kofi Annan səmimiyyətlə qarşıladı.*

*Tədbiri BMT-nin Baş katibi Kofi Annan giriş sözü ilə açaraq, salona toplaşanları səmimi təbrik etdi, zirvə görüşünə işində uğurlar arzuladı.*

*Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klinton minilliyin zirvə görüşündə geniş nitq söylədi.*

*Günorta zirvə görüşündə iştirak edən ölkələrin dövlət və hökumət başçılarının şərəfinə BMT-nin Baş katibi Kofi Annanın adından rəsmi ziyafət verildi.*

---

[*] Zirvə görüşündə 156 ölkənin dövlət və hökumət başçıları iştirak edirdilər. 4 ölkə Baş nazirin müavini, 21 ölkə nazirlər, 9 ölkə isə yüksək vəzifəli şəxslərdən ibarət nümayəndə heyətləri ilə təmsil olunmuşdu.

## GUÖAM DÖVLƏTLƏRİ BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ

*Nyu-York,*
*BMT-nin Baş qərargahı*

*6 sentyabr 2000-ci il*

*Görüşdə bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin genişləndirilməsi ilə bağlı və tərəfləri maraqlandıran bir sıra digər məsələlər müzakirə edildi.*

*Yeni mərhələyə qədəm qoyan GUÖAM-ın geniş perspektivlərə malik olduğunu bir daha nəzərə çatdıran dövlət başçıları ticarət əlaqələrinin daha da möhkəmləndirilməsinə, vizasız gediş-gəlişlərin təşkili sahəsində qarşıya çıxan problemlərin aradan qaldırılmasına dair fikir mübadiləsi apardılar. Zirvə görüşündə memorandum imzalandı. Sənədi Ukrayna prezidenti Leonid Kuçma, Azərbaycan prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze və Moldova prezidenti Petru Luçinski imzaladılar. İclasda Özbəkistanı bu ölkənin BMT yanında daimi nümayəndəsi Əlişir Vahidov təmsil edirdi.*

* * *

### BMT-nin minilliyin sammiti çərçivəsində GUÖAM prezidentləri görüşünün rəsmi məlumatı

*Nyu-York*

*6 sentyabr 2000-ci il*

*GUÖAM qrupu adlanan Azərbaycan Respublikası, Gürcüstan, Moldova Respublikası, Özbəkistan Respublikası və Ukraynanın prezidentlərinin BMT-nin üzvü olan ölkələrin dövlət və hökumət başçılarının minilliyin sammiti çərçivəsində növbəti görüşü keçirilmişdir.*

*Görüşün yekunlarına əsasən GUÖAM qrupu dövlətləri prezidentlərinin Nyu-York memorandumu qəbul olunmuşdur. GUÖAM dövlətlərinin başçıları GUÖAM çərçivəsində çoxtərəfli əməkdaşlığa çoxsəviyyəli xarakter verərək, onu fəallaşdırmaq barədə razılığa gəlmiş və müvafiq qərarlar qəbul etmişlər.*

*Forum dövlətlərinin başçıları iqtisadi artımı sürətləndirmək və iştirakçı ölkələrin xalqlarının rifahını yüksəltmək üçün əlverişli şərait yaradılmasını, Avropa–Qafqaz–Asiya təhlükəsiz və səmərəli nəqliyyat–kommunikasiya dəhlizinin daha da inkişaf etdirilməsini, habelə azad ticarət prinsipləri əsasında onların arasında qarşılıqlı surətdə faydalı ticarət münasibətlərinin dərinləşdirilməsini GUÖAM çərçivəsində əməkdaşlığın əsas vəzifələri kimi müəyyənləşdirmişlər. Bu məqsədlə tərəflər GUÖAM çərçivəsində azad ticarət rejimi yaradılması işinə başlamağı qərara almışlar.*

*GUÖAM qrupu dövlətlərinin prezidentləri regionda münaqişələrin aradan qaldırılması prosesinin uzanması ilə əlaqədar dərindən narahat olduqlarını bildirmiş və bu münaqişələrin hamılıqla qəbul edilmiş prinsiplər, BMT-nin və ATƏT-in qətnamələri və qərarları əsasında dinc vasitələrlə həllinə sadiq olduqlarını təsdiqləmişlər. Prezidentlər dövlətlər və xalqlar arasında dostluq münasibətlərini təhlükə qarşısında qoyan, dövlətlərin ərazi bütövlüyünə, təhlükəsizliyinə və sabitliyinə qorxu törədən, beynəlxalq əməkdaşlığa mane olan, insan hüquqlarının, əsas azadlıqlarının və cəmiyyətin demokratik əsaslarının pozulmasına doğru aparan təcavüzkar separatizmi, terrorizmi və digər hüquqa zidd əməlləri qətiyyətlə pisləmişlər.*

*Tərəflər dünya siyasi və iqtisadi proseslərində daha fəal iştirak etmək məqsədi ilə beynəlxalq təşkilatlar, forumlar, iqtisadi ittifaqlar və ticarət ittifaqları çərçivəsində öz əməkdaşlığını inkişaf etdirmək istədiklərini bildirmişlər.*

*GUÖAM qrupu dövlətlərinin başçıları əmin olduqlarını bildirirlər ki, Strasburq rəsmi məlumatı, Vaşinqton bəyannaməsi və Nyu-York memorandumu əsasında GUÖAM çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi bu regionda və ətraf regionlarda sülhün və təhlükəsizliyin qorunub saxlanmasına, Birləşmiş Millətlər Təşkilatının prinsipləri və normalarının tamamilə həyata keçirilməsinə kömək edəcəkdir. Prezidentlər minilliyin zirvə görüşünün dünya proseslərində BMT-nin mərkəzi rolunu təsdiqləməsini məmnunluqla vurğulamışlar və müasir dövrün ümdə problemlərinin həllində BMT-nin əhəmiyyətinin daha da artacağına ümid bəslədiklərini bildirirlər.*

* * *

### İmzalanma mərasimindən sonra dövlət başçılarının jurnalistlərin suallarına cavabları

**J u r n a l i s t:** Cənab prezidentlər, sualım qısadır – sizcə, bugünkü görüşdən sonra GUÖAM-da nə dəyişmişdir? Xahiş edirəm, hamınız cavab verəsiniz.

**L e o n i d  K u ç m a** *(Ukrayna prezidenti)*: Məncə, dəyişikliklər var. Ən başlıcası tərəflərdən hər birinin bu təşkilata münasibətidir. Üçillik qeyri-formal mövcudluğu, hər halda, onun həyatiliyini göstərmişdir. Çünki bu təşkilatda ən əvvəl, iqtisadi əməkdaşlıq baxımından qarşılıqlı marağı olan ölkələr toplaşmışdır. Mən əsas nəqliyyat yollarından, xüsusən İpək yolu problemindən başlayaraq, bu barədə müfəssəl danışmayacağam. Bütün bunlardan Bakıda keçirilmiş konfransda geniş söhbət getmişdir. Biz artıq başa düşürük ki, bütün bunları iş planı olan, işin nəticələri üçün məsuliyyət daşıyan təşkilata tapşırmaq lazımdır. İkincisi, bütün dünya da görür və ən əvvəl biz, Avropa qitəsində olanlar – mən inteqrasiyanın ən yüksək pilləsinə çatmış Avropa Birliyini nəzərdə tutmuram – görürük ki, MDB-də artıq bir çox illər ərzində haqqında söhbət gedən azad ticarət zonaları ancaq söz olaraq qalır. GUÖAM-a qarşı çıxan ölkələrin liderlərindən heç birində zərrə qədər də şübhə yoxdur ki, gələcək inkişaf məhz azad ticarət zonasından keçir. Biz malların, kapitalların və insanların hərəkəti yolundakı bütün məhdudiyyətləri aradan götürməliyik. Diqqətinizi cəlb etmək istədiyim başlıca məsələ, bax, budur.

**H e y d ə r  Ə l i y e v** *(Azərbaycan prezidenti)*: Mən prezident Leonid Kuçma ilə razıyam və geniş danışmaq istəmirəm. Yalnız bunu deyəcəyəm ki, ötən üç ili, görünür, GUÖAM-ın təşəkkül dövrü hesab etmək lazımdır, indi isə biz artıq elə bir səviyyəyə çatmışıq ki, bu təşkilata daha məqsədyönlü, daha mütəşəkkil xarakter verə bilərik. Əslinə qalsa, bugünkü görüşümüz, imzalanmış protokol və rəsmi məlumat məhz buna sübutdur. Yəni, söhbət bundan gedir ki, təşkilatımız gərəkdir, zamanın müəyyən sınağından keçibdir, konkret məqsədlər – Ukrayna prezidenti onların haqqında danışdı – güdür ki, ondan böyük səmərə götürək, eləcə təşkilat olaraq qalmasın. Bugünkü görüşdən razıyıq, o, zəruri idi. Ümidvaram ki, bu görüş GUÖAM-ın fəaliyyətinin artıq yeni mərhələsinin bünövrəsini qoyur və bu mərhələdə işlər konkret surətdə planlaşdırılacaq və fəaliyyətimiz konkret olaraq, əsasən, Leonid Daniloviçin dediyi üç istiqamətdə həyata keçiriləcəkdir.

**E d u a r d  Ş e v a r d n a d z e** *(Gürcüstan prezidenti)*: Artıq hər şey deyildi. Zənnimcə, ən vacib olan budur ki, biz dövlət başçılarının, xarici işlər nazirlərinin və ticarət nazirlərinin müntəzəm görüşləri barədə müəyyən qərara gəldik. Bu gün mən çıxışımda dedim ki, Avrasiya dəhlizi layihəsinin – TRASEKA layihəsinin gerçəkləşdirilməsi bizim üçün çox mühüm problemdir. Məhz bu vəzifə təşkilatımız üçün başlıca və aparıcı vəzifə olacaqdır. Leonid Daniloviç doğru dedi, nəzərdə tutduğumuz işlər malların, insanların sərbəst hərəkət etməsinə imkan verəcəkdir. Özü də Rusiyanın rəsmi bəyanat verərək Bişkek sazişindən çıxdığını bildirdiyi, bununla da MDB üçün, o cümlədən Gürcüstan üçün yeni problemlər yaratdığı bir vaxtda. Mən MDB məkanında insanların sərbəst hərəkət etməsi prinsipini nəzərdə tuturam.

**P e t r u  L u ç i n s k i** *(Moldova prezidenti)*: Bu görüşün nəyi həll etdiyi və ondan sonra nəyin dəyişdiyi barədə suala cavab vermək bəlkə də bir qədər çətindir. Əvvəla, biz təsdiqlədik ki, düz edirik ki, görüşür, təşkilatımızın gələcək fəaliyyəti barədə fikir mübadiləsi aparır və öz mülahizələrimizi söyləyirik. Bu gün mən belə deyərdim: biz öz səylərimizi konkret layihələr ətrafında birləşdiririk, bu layihələr ümumi şəkildə formalaşdırılmayıb – Leonid Daniloviç bu barədə danışdı – lakin biz onları hələ konkretləşdirəcəyik. Yəni, biz öz maraqlarımızı hansısa konkret məsələlər ətrafında yaxınlaşdırmaq fikrindəyik. Bizim təşkilatımız daxil olduğumuz və fəaliyyət göstərdiyimiz digər təşkilatlar tərəfindən göstərilmiş reaksiyaya və ya ifadə edilmiş narazılığa cavab deyildir. O, sadəcə olaraq, mənafelərimizi konkret problemlər ətrafında birləşdirir. İlk növbədə qlobal vəziyyətlə – Orta Asiyada olan sərvətlərin Qafqaz vasitəsilə Avropaya nəqli ilə bağlı problem ətrafında. Bizim ölkələrimiz isə bu yolun üstündə yerləşir. Sonrasına isə baxarıq, görək hansı problemlərdə ümumi mənafelərimiz olacaq, axtaracağıq.

* * *

*Sentyabrın 6-da Nyu-Yorkda, BMT-nin iqamətgahında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin İsrailin Baş naziri Ehud Barak ilə təkbətək görüşü keçirildi.*

*Səmimilik və dostluq şəraitində keçən görüşdə Azərbaycan – İsrail əlaqələrinin inkişaf etdirilməsi və hər iki ölkəni maraqlandıran bir sıra məsələlər barədə ətraflı müzakirələr aparıldı.*

## MİNİLLİYİN ZİRVƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ

*Nyu-York,*
*BMT-nin Baş qərargahı*

*7 sentyabr 2000-ci il*

Hörmətli cənab sədr!
Hörmətli həmkarlar!
Xanımlar və cənablar!

XX əsr başa çatır. Bu yüzillik bəşəriyyətin yaddaşında mənəvi-intellektual tərəqqi ilə və iki dünya müharibəsində tökülmüş qanlarla, imperiyaların süqutu və onlarca yeni suveren dövlətlərin yaranması ilə, «soyuq müharibə»nin doğurduğu gərginlik və sülh, sabitlik naminə göstərilən kollektiv səylərlə qalacaqdır. Bəs qarşıdan gələn yüzillikdə dünya necə olacaqdır?

İki sistemin qarşıdurmasının tarixə qovuşması, demokratiya və sərbəst bazar ideyalarının üstünlük qazanıb yayılması elə bir dünyanın qurulmasına kömək etməlidir ki, orada bütün dövlətlərin mənafeləri nəzərə alınacaq və həqiqətən bərabərhüquqlu tərəfdaşlıq sahmana salınacaqdır. Amma beynəlxalq vəziyyətin inkişafının təhlili bizi belə bir acı nəticəyə gətirir ki, rəqabət stereotipləri hələ də mövcuddur. Biz çox çətin dövrdə yaşayırıq, düzgün olmayan bircə addım vəziyyəti alt-üst edə və keçmişə, faciəli qayıdışa səbəb ola bilər. Ədalətli və təhlükəsiz dünya qaydası yaratmaq üçün çətin yol keçmək lazım gələcək və biz hamımız bu məqsədə can atmalıyıq.

Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir. Beynəlxalq hüququn prinsipləri və normalarının aliliyi, dəyişikliklərin təkamül xarakteri, tərəfdaşlıq və daha çox inkişaf etmiş dövlətlərin daha az inkişaf etmiş dövlətlərə köməyi, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşı milli fərqlərin də qəbul olunması bu prosesin müəyyənedici istiqamətləri olmalıdır. Demokratik inkişafın gücü onun rəngarəngliyindədir.

Azərbaycan qloballaşmanın müsbət mənada inkişafına öz töhfəsini verir. Mənim ölkəm dünya miqyasında geostrateji əhəmiyyətə malik öz coğrafi mövqeyindən, ehtiyatlarından və potensialından istifadə edərək, Şərq ilə Qərb arasında zəngin tarixi keçmişdən başlanan və gələcəyə istiqamətlənən körpü rolunu səmərəli surətdə həyata keçirir. Biz Böyük İpək yolunun bərpası, Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün çox böyük səylər göstəririk. Dünyanın bir neçə regionunun dövlətlərinin azad və mükəmməl inkişafı üçün bu layihələrin həlledici əhəmiyyəti var, bunlar fövqəlmilli əməkdaşlığa təkan verəcək və qlobal şəraitin inkişafına müəyyənedici təsir göstərəcəkdir.

Ancaq xaricdən olan təhlükələr və daxili problemlər, təzyiq göstərilməsi və nüfuz dairələri uğrunda mübarizəyə cəlbetmə hələ bərkiməmiş gənc demokratlara öz xalqlarının mənafelərinə və arzularına cavab verən xətlərini sərbəst şəkildə həyata keçirməyə, öz dövlətçiliyini möhkəmləndirməyə və inkişaf etdirməyə, dinc quruculuqla məşğul olmağa imkan vermir. Onlar mövcud olduqları ilk gündən özlərinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda amansız mübarizəyə başlamağa məcbur olmuşlar.

Təcavüzlərdən, ərazi işğallarından və etnik təmizləmələrdən, təcavüzkar separatizmdən və terrorizmdən əzab çəkən dövlətlər tam hüquqla gözləyirlər ki, Birləşmiş Millətlər Təşkilatı ədalətli sülhün və təhlükəsizliyin bərqərar edilməsi və BMT nizamnaməsi prinsiplərinin müdafiəsi üçün maksimum səmərəli tədbirlər görəcəkdir.

Təəssüflər olsun ki, Cənubi Qafqaz həmin problemlərin, hədələrin və risklərin aydın şəkildə təzahür etdiyi regiona çevrilmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzü–milyonlarla insana saysız-hesabsız fəlakətlər gətirmiş təcavüz Cənubi Qafqazda vəziyyətin sabitliyini pozan başlıca amil olmuşdur.

Bu təcavüzün gedişində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, etnik təmizləmə aparmış və bir milyon azərbaycanlını öz doğma yerindən-yurdundan zorla qovub çıxarmışlar. Bununla əlaqədar BMT-nin Təhlükəsizlik Şurası qəbul etdiyi dörd qətnamədə Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin pozulmazlığını birmənalı şəkildə təsdiqləmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Ancaq Təhlükəsizlik Şurasının qərarları 1993-cü ildən bu günə qədər hələ də kağız üzərində qalmaqdadır.

1992-ci ildən etibarən Ermənistan–Azərbaycan münaqişəsinin aradan qaldırılması məsələsi ilə ATƏT məşğul olur, amma onun fəaliyyətinin nəticəsi yoxdur. Azərbaycan və Ermənistan prezidentlərinin ikitərəfli danışıqları davam edir, ancaq hələlik bunlar da bir nəticə verməmişdir. Altı ildən çoxdur ki, biz atəşkəsə əməl edirik, amma bu, problemi həll etmir. Mən Birləşmiş Millətlər Təşkilatını Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi üçün bütün lazımi tədbirləri görməyə çağırıram.

Ermənistan–Azərbaycan münaqişəsini həll etmədən və digər münaqişələri aradan qaldırmadan, xaricdən təzyiq amillərinə, o cümlədən xarici hərbi qüvvələrin olmasına son qoymadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir.

Cənubi Qafqaz regionuna siyasi tamlıq və bitərəflik statusu verilməsi Cənubi Qafqaz dövlətlərinin normal qarşılıqlı münasibətlərini qaydaya salmağa və onların dünya iqtisadi sisteminə ahəngdar inteqrasiyasını təmin etməyə imkan verər.

Səkkiz ildən bəri fəlakətli vəziyyətdə yaşayan Azərbaycanın qaçqın və köçkünlərinə göstərilən köməyə görə mən BMT sistemindəki təşkilatlara və donor ölkələrə minnətdarlığımı bildirirəm. Biz son dərəcə vacib olan humanitar yardımın həmin insanlar öz yaşayış yerlərinə qayıdana qədər davam etdirilməsinə və artırılmasına kəskin ehtiyac duyuruq.

Birləşmiş Millətlər Təşkilatının üzərinə dünyanın taleyi üçün çox böyük məsuliyyət düşür, biz ümidlərimizi ona bəsləyirik. Ciddi və rasional islahat təşkilatın, o cümlədən Təhlükəsizlik Şurasının səmərəliliyini artırmalıdır.

Sözümün sonunda planetimizdə sülh və təhlükəsizlik üçün kollektiv məsuliyyət daşıdığımızı vurğulamaq və əmin olduğumu bildirmək istəyirəm ki, «Minilliyin zirvə görüşü»nün yekunları XXI əsrə doğru yolumuzun etibarlı bünövrəsi olacaqdır.

* * *

*Elə həmin gün Azərbaycan prezidenti Heydər Əliyev BMT-nin Baş qərargahında «XXI əsrə baxış» adlı bəyannaməni imzaladı.*

## BMT-nin İNSAN HÜQUQLARI ÜZRƏ ALİ KOMİSSARI XANIM MERİ ROBİNSON İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Nyu-York,*
*BMT-nin Baş qərargahı*

*7 sentyabr 2000-ci il*

**M e r i  R o b i n s o n:** Hörmətli cənab Prezident, Sizi səmimiyyətlə salamlayıram. Görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşməkdən məmnun qaldığımı bildirirəm. Siz «XXI əsrə baxış» adlı bəyannaməyə böyük dəstək vermisiniz. Cənubi Afrika Respublikasının keçmiş prezidenti Nelson Mandela tərəfindən artıq imzalanıbdır. Mən də bu sənədi BMT-nin Baş katibinin təmsilçisi kimi imzalamışam. İndi çoxsaylı dövlət və hökumət başçıları da Sizin kimi bu bəyannaməni imzalayırlar. Hesab edirəm ki, Sizin bu sənədi imzalamağınız müasir dünyamızda dözümlülüyə diqqət göstərilməsində böyük liderlik nümunəsidir.

Cənab Prezident, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının iqamətgahında Sizi bir daha salamlayıram, alqışlayıram və bu sənədi iki nüsxədə imzalamağınızı xahiş edirəm. Həmin sənədin bir nüsxəsi Sizdə, digər nüsxəsi isə bizdə qalacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Səmimi sözlərə görə Sizə təşəkkürümü bildirirəm. Mən bu sənədə çox əhəmiyyət verirəm. Gənc və müstəqil Azərbaycan Respublikası hüquqi, demokratik, dünyəvi dövlət kimi öz həyatını, daxili qanunlarını bu beynəlxalq normalara, qanunlara uyğunlaşdırmağa çalışır. Təbiidir ki, biz beynəlxalq hüquqa, demokratiyaya, insan hüquqlarına aid olan hər bir sənədə qoşulmağa həmişə hazırıq.

**M e r i  R o b i n s o n:** Cənab Prezident, mən Sizin bu bəyanatınızı çox yüksək qiymətləndirirəm.

Hörmətli prezident, mən Sizə bildirmək istəyirəm ki, imzaladığınız bu sənədin bir nüsxəsi məndə qalacaqdır, bütün dövlət başçıları onu imzaladıqdan sonra biz onu kitab şəklində çap edəcəyik. Ümidvaram ki, Siz öz ölkənizdə bu sənədin təbliğinə də diqqət yetirəcəksiniz.

Cənab Prezident, bir daha çox sağ olun, biz bunu çox yüksək qiymətləndiririk. Çox məmnunam ki, Cənubi Afrika Respublikasının prezidenti Tabo Mbeki bu sənədi imzalayıbdır. Bilirsiniz ki, qarşıdakı beynəlxalq konfransda Cənubi Afrika Respublikası ev sahibi olan ölkə kimi çıxış edəcəkdir. Biz həmin beynəlxalq konfransda bu sənədin təqdimat mərasimini keçirəcəyik. Mən cənab Tabo Mbekiyə söz vermişdim ki, beynəlxalq konfransın Cənubi Afrika Respublikasında keçirilməsi nəzərdə tutulduğuna görə, bu sənədi birinci o imzalayacaqdır. Sonra isə digər ölkələrin dövlət başçıları əlifba sırası ilə bu sənədə imza atacaqlar.

Cənab Prezident, çox şadam ki, əlifba sırasında Azərbaycanın bəxti yaxşı gətiribdir.

**H e y d ə r  Ə l i y e v:** Bəli, Azərbaycan birinci yerlərdədir.

Bu sənədi çoxlu dövlət başçıları imzalayıb?

**M e r i  R o b i n s o n:** Bəli. Amerika prezidenti Bill Klinton və dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan bir çox ölkələrinin dövlət başçıları bu bəyannaməni imzalayıblar.

(*Azərbaycan prezidenti Heydər Əliyev «XXI əsrə baxış» adlı bəyannaməni imzaladı*).

**M e r i  R o b i n s o n:** Cənab Prezident, çox sağ olun. Bu bəyannaməni imzaladığınıza görə mən Sizə bir daha təşəkkür edirəm.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun, mən də sizi təbrik edirəm.

**M e r i  R o b i n s o n:** Cənab Prezident, çox sağ olun.

Hörmətli Prezident, əgər imkanınız olsa, biz Cenevrədəki iqamətgahımızda da Sizi görməkdən çox məmnun olardıq. Sizi yaxşı tanıyıram, mən İrlandiyanın prezidenti olarkən biz Sizinlə Davosda görüşmüşdük.

**H e y d ə r  Ə l i y e v:** Bəli, düz deyirsiniz, biz Davosda ziyafətdə sizinlə birgə iştirak edirdik. Ondan sonra mən sizi aradım, öyrəndim ki, siz indi bu vəzifədə işləyirsiniz.

**M e r i  R o b i n s o n:** Mənə çox ağır vəzifə veriblər.

**H e y d ə r  Ə l i y e v:** Amma çox şərəfli bir vəzifədir.

**M e r i  R o b i n s o n:** Cənab Prezident, bu bəyannaməyə dəstək verməyiniz bizim işimizi asanlaşdırır. Gələn il bu vaxt biz Cənubi Afrikada insan hüquqlarına dair beynəlxalq konfrans keçirəcəyik.

**H e y d ə r  Ə l i y e v:** Biz də orada iştirak edəcəyik?

**M e r i  R o b i n s o n:** Bəli, cənab Prezident.

**H e y d ə r  Ə l i y e v:** Onda görüşəcəyik. Sağ olun. Sizə işlərinizdə uğurlar arzulayıram.

**AZƏRBAYCAN PREZİDENTİ**
**HEYDƏR ƏLİYEVİN**
**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA**
**İŞGÜZAR SƏFƏRİ**

*Sentyabrın 7-də Nyu-Yorkda «Voldorf Astoriya» mehmanxanasında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin ABŞ-ın dövlət katibi xanım Madlen Olbrayt ilə görüşü oldu. Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycan–Amerika əməkdaşlığının daha da sıxlaşdırılması, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların gedişi barədə ətraflı fikir mübadiləsi edildi.*

*Dövlətimizin başçısı ilə hər bir görüşündən böyük məmnunluq duyduğunu söyləyən xanım Olbrayt prezident Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda demokratiyanın böyük sürətlə inkişaf etməsini yüksək dəyərləndirdi.*

*Görüşdə Xəzər dənizinin zəngin enerji ehtiyatlarından birgə istifadə edilməsi sahəsində aparılan işlər, Azərbaycan –Amerika tərəfdaşlığının daha da genişləndirilməsi, bölgədə vəziyyət və hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.*

* * *

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev sentyabrın 7-də Nyu-Yorkda, onun üçün ayrılmış iqamətgahda ABŞ-ın yüksək səviyyəli dövlət nümayəndələri – bu ölkənin MDB məsələlərinə dair xüsusi tapşırıqlar üzrə səfiri Stiv Sestanoviç və ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Kerri Kavano ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı amerikalı diplomatları mehribanlıqla, səmimiyyətlə salamladı. Səmimilik və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə Azərbaycan ilə ABŞ-ın dostluq və əməkdaşlıq münasibətlərinin, strateji tərəfdaşlığının daha da möhkəmləndirilməsi, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların gedişi barədə geniş müzakirələr aparıldı.*

* * *

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev sentyabrın 7-də Nyu-Yorkda, onun üçün ayrılmış iqamətgahda ABŞ-ın keçmiş dövlət katibi Henri Kissencer ilə görüşmüşdür.*

*Respublikamızın rəhbərini hərarətlə salamlayan, əziz dostunun səhhətinin çox yaxşı olduğunu görməkdən hədsiz məmnunluq duyduğunu bildirən cənab Kissincer son illər Azərbaycan–Amerika əməkdaşlığının sürətlə inkişaf etməsindən razılıqla söhbət açdı. Müstəqil Azərbaycan Respublikasında bütün sahələrdə uğurla aparılan islahatları diqqətlə izlədiyini vurğulayan Kissincer Xəzərin enerji ehtiyatlarının dünya ölkələri üçün açılmasında görkəmli dövlət xadimi, prezident Heydər Əliyevin əvəzsiz xidmətləri olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Heydər Əliyev Amerikada, ümumən dünyada çox nüfuzlu siyasi xadim kimi tanınan sabiq dövlət katibi Henri Kissincerə səmimi sözlərinə görə təşəkkür etdi.*

*Söhbət zamanı Azərbaycan–Amerika əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məsələləri barədə fikir mübadiləsi aparıldı.*

* * *

*Sentyabrın 7-də BMT-nin Baş qərargahında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin və Ermənistan Respublikasının prezidenti Robert Köçəryanın təkbətək görüşü oldu.*

*Münaqişənin həlli yolları barədə bir daha geniş müzakirələr aparan prezidentlər ənənəvi dialoqun davam etdirilməsinin vacib olduğunu nəzərə çatdırdılar.*

*Bir saatdan çox davam edən danışıqlardan sonra Azərbaycan prezidenti Heydər Əliyev və Ermənistan prezidenti Robert Köçəryan jurnalistlər qarşısında qısa bəyanatla çıxış etdilər.*

**Azərbaycan Prezidenti Heydər Əliyevin Bəyanatı**

Bu, Ermənistan prezidentinin və Azərbaycan prezidentinin növbəti görüşüdür. Siz bilirsiniz ki, birbaşa dialoq keçən ilin əvvəlində başlayıb, indi davam edir. Şəxsən mən bu gün deyə bilərəm ki, bu faydalıdır, lazımdır. Baxmayaraq ki, ötən vaxt razılığa gəlmək üçün kifayət qədər idi, amma təəssüf ki, hələlik bu, mümkün olmamışdır.

Ancaq müsbət cəhət budur ki, biz müxtəlif variantları müzakirə edirik, aramızda daha çox qarşılıqlı anlaşma, etimad yaranır. Biz bunu əsas tuturuq ki, əvvəla, münaqişənin həlli sülh yolu ilə olmalıdır, bundan sonra hansısa

böyük və hətta kiçik hərbi əməliyyatlara başlamaq yolverilməzdir. İkincisi, konkret əməli nəticələrə nail olmaq üçün kompromislər lazımdır.

Biz bu kompromislər barəsində hər dəfə danışırıq, amma şəxsən mən hələlik kompromislər haqqında razılığa gələ bildiyimizi deyə bilmərəm. Qarşılıqlı kompromislərə getməli olduğumuzu biz çoxdan həll etmişik. Ancaq həm bu tərəfdən, həm də digər tərəfdən kompromislərin həddi və bunların hansı sahələrdə ola biləcəyi məsələsinə gəldikdə isə, hələlik öyünə bilmərik.

Prezident Robert Köçəryan və mən bu dialoqu davam etdirmək barədə razılığa gəlmişik. Əlbəttə, problemin həllini tapmaq üçün bütün başqa imkanlardan, o cümlədən həmsədrlərin, Minsk qrupunun imkanlarından istifadə edəcəyik. Şəxsən mənim qəti mövqeyim belədir ki, tarix bizim üzərimizə çox mühüm, məsul missiya – Ermənistan–Azərbaycan münaqişəsini həll etmək, Ermənistanla Azərbaycan arasında sülhə nail olmaq missiyası qoymuşdur. Bu, Cənubi Qafqazda tam sülh və sabitliyin yaranması üçün çox mühüm amil olacaqdır. Bu həm erməni xalqına, həm də Azərbaycan xalqına böyük fayda gətirəcəkdir.

Biz bu istiqamətdə işi davam etdirmək barədə razılığa gəlmişik.

**Ermənistan Prezidenti Robert Köçəryanın bəyanatı**

Mən Heydər Əliyeviçin fikirlərinə şərikəm. Bu görüşləri faydalı hesab edirəm. Təəssüf ki, hələlik biz bu görüşlərin nəticə verdiyini deyə bilmərik. Ancaq mən hesab edirəm ki, biz sadəcə, hövsələli olmalıyıq, əks halda nəticələr əldə etmək çətin olacaqdır. Həqiqətən də kompromislərə gəlmək çox çətin məsələdir və bizim hər birimiz başa düşürük ki, bu kompromislərin dairəsi kifayət qədər genişdir. Ona görə də həmin dairə çərçivəsində hər bir addım həm Ermənistan tərəfi üçün, hər də Azərbaycan tərəfi üçün çox mühümdür.

Belə məsələlər, münaqişələr asanlıqla həll olunmur və mən başa düşürəm ki, biz həqiqətən dialoqu davam etdirməli və münaqişənin qəti, şübhəsiz ki, sülh yolu ilə həlli üçün bütün imkanlardan istifadə etməliyik. Kompromislər əsasında bütün bunlar mümkün olacaqdır.

Mən də təkrar edirəm, hər iki prezident narahatlıq keçirir və həqiqətən həmin yolları tapmağı ürəkdən arzulayır. Şübhə etmirəm ki, məsələnin qəti həllindən sonra biz regionda doğrudan da mehriban qonşu ola bilərik.

* * *

*Sentyabrın 7-də axşam Nyu-Yorkdakı Metropoliten-muzeyin böyük salonunda BMT-nin üzvü olan ölkələrin dövlət və hökumət başçılarının şərəfinə ABŞ prezidenti Bill Klintonun adından rəsmi ziyafət verildi. Azərbaycan prezidenti Heydər Əliyev və qızı Sevil xanım Əliyeva ziyafətdə iştirak edirdilər.*

## AMERİKANIN NÜFUZLU YƏHUDİ TƏŞKİLATLARININ – YƏHUDİ KOMİTƏSİNİN, PREZİDENTLƏR KONFRANSININ, YƏHUDİ KONQRESİNİN, SOVET YƏHUDİLƏRİ MİLLİ KOMİTƏSİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Nyu-York,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*8 sentyabr 2000-ci il*

Mən sizi ürəkdən salamlayıram. Sizinlə yenidən görüşməyimdən çox məmnunam. Bizim bu görüşlərimiz artıq müəyyən qədər ənənəvi xarakter daşıyır. Mən həmişə Amerika Birləşmiş Ştatlarına gələndə Nyu-Yorkda da, Vaşinqtonda da belə görüşlər keçirirəm. Çox məmnunam ki, sizin bəziləriniz Azərbaycanı ziyarət edə bilmisiniz və Azərbaycan ilə tanışsınız.

Bizim sizinlə dostluğumuz xüsusi xarakter daşıyır. Çünki biz sizin təşkilatların və hər bir şəxsin simasında Azərbaycanın dünyada, o cümlədən Amerika Birləşmiş Ştatlarında yaxın dostunu görürük. İstəyirəm ki, bizim bu dostluğumuz həmişə etibarlı olsun və davam etsin. Bizim buna ehtiyacımız var. Amma güman edirəm ki, siz də, dünyanın yəhudi təşkilatları, xüsusən Amerika Birləşmiş Ştatlarındakı yəhudi icması, əlbəttə ki, Azərbaycan ilə həmişə maraqlanmısınız və bundan sonra da maraqlanacaqsınız.

Keçən görüşlərimizdə mən sizə bildirmişdim ki, Azərbaycanda yəhudilər əsrlər boyu, bəlkə minilliklər boyu yaşayıblar, çox dəyərli izlər qoyublar. Xüsusilə XX əsrdə Azərbaycanın sosial, iqtisadi inkişafında, mədəniyyətinin, elminin, təhsilinin, incəsənətinin inkişafında da yəhudi millətinə mənsub olan Azərbaycan vətəndaşları çox iş görüblər. Biz bunları həmişə yüksək qiymətləndirmişik. Zaman keçdikcə, hadisələrin bəziləri tarixə çevrildikcə onların qiyməti daha da çox artır. Hesab edirəm ki, Azərbaycandakı yəhudilər bu gün də yaxşı şəraitdə yaşayırlar.

Bilirsiniz, təxminən 1988, 1989-cu illərdən başlayaraq Sovetlər İttifaqından Qərb ölkələrinə, Amerikaya, İsrailə yəhudilərin axını güclü olmuşdur. Azərbaycandakı bu proses, eyni zamanda Azərbaycanda gedən ictimai-siyasi proseslər Ermənistan–Azərbaycan müharibəsinə görə və daxildə vəziyyət çox gərgin olduğuna görə daha da çətin olmuşdur. Ancaq 1993-cü ildən biz Azərbaycanda daxili ictimai-siyasi sabitliyi təmin edə bildik və insanların miqrasiyası çox kəskin şəkildə dayandı. Hətta sizə deyə bilərəm ki, vaxtilə Azərbaycandan İsrailə köçmüş insanlar – yəhudilər indi artıq Azərbaycana dönürlər. Son zamanlar Azərbaycana 40 belə ailə dönübdür.

Təbiidir ki, onlar İsraildə olduqlarından narazı deyillər. Amma Bakının, Azərbaycanın həyatına keçmişdə o qədər bağlı idilər ki, ona görə də nostalgiya hissi onları yenidən geriyə qaytarıbdır. Amma o ailələr ki, yerlərindən tərpənməyiblər, qalıblar, onların yaşayışı günü-gündən yaxşılaşır.

İndi Azərbaycanda dörd sinaqoq fəaliyyət göstərir. Onun biri Bakıdadır, biri Qubadadır, ikisi də Oğuz, Şəki zonasındadır. Həm də bilirsiniz ki, Azərbaycanda yəhudilərin üç icması vardır. Birincisi, bizim öz yəhudilərimizdir. Onlara dağ yəhudiləri deyirlər. Əgər o yəhudilərin kökünü axtarmaq istəyirsinizsə, onların orada nə vaxtdan yaşamasını müəyyənləşdirmək lazımdır. Bu kök çox dərindir.

Mən ayın 7-də Baş nazir Barak ilə görüşdüm. Çox yaxşı, mehriban, dostcasına söhbətimiz oldu. Mən keçən il noyabrda onunla İstanbulda da görüşdüm, çox yaxşı söhbət etdik. O mənə dedi ki, biz yəhudilərin hələ 11 tayfasının kökünü tapa bilməmişik. Onda dedim ki, gəlin Azərbaycanda axtarışlar aparın. Orada mütləq taparsınız. Dağ yəhudiləri həm paytaxtda, Bakıda yaşayırlar, həm də bizim Bakının yaxınlığında rayonlar var, orada yaşayırlar.

Məsələn, Bakının yaxınlığında Quba rayonu var, orada Qırmızı qəsəbə deyilən bir yer vardır. Orada yalnız onlar yaşayırlar. Mən xatırlayıram, Qırmızı qəsəbədə ilk dəfə 1952-ci ildə olmuşdum. Sonra bir il bundan qabaq oraya getdim, oranı tanımadım. Elə villalar tikdiriblər ki, heç burada, sizdə elə villalar yoxdur. Çox yaxşı yaşayırlar.

Demək, bizdə üç yəhudi icması vardır. Birincisi, dağ yəhudiləri, ikincisi, Avropa yəhudiləri, üçüncüsü, gürcü yəhudiləri. Hər icmanın öz başçısı vardır. Amma mən onlarla görüşəndə üç icmanın başçıları bir yerdə gəlirlər. Ancaq xarakterik cəhət bir də ondan ibarətdir ki, bizdə müsəlman konfessiyası, xristian, provaslav konfessiyası – əsasən ruslardır – bir də yəhudi konfessiyası var. Demək, bizim üç dini rəhbərimiz vardır. Həmişə üçü də qol-qola gəzirlər. Bizim dövlət tədbirlərində həmişə üçü də yan-yana otururlar.

1998-ci ildə prezident seçkilərində onlar üçü də bir yerə yığışıb bəyanat verdilər ki, Heydər Əliyevin namizədliyini dəstəkləyirlər və axıra qədər də dəstəklədilər. Mən yəhudilərdən 100 faiz səs aldım. Bu bizim

əlaqələrimizə aid kiçik bir xülasədir. Mən bununla bir daha bəyan etmək istəyirəm ki, bizim dostluğumuz sarsılmazdır.

Mən keçən dəfələrdə də demişəm – bizim sizə ehtiyacımız ondan ibarətdir ki, siz Amerika Birləşmiş Ştatlarında çox böyük lobbiyə, böyük gücə malik olan bir icma kimi Azərbaycana yardım edəsiniz.

Azərbaycan ilə Amerika Birləşmiş Ştatlarının münasibətləri çox yaxşıdır. Son beş-altı ildə çox sürətlə inkişaf edibdir. Birinci növbədə, iqtisadi sahədə. Çünki Amerikanın ən böyük neft şirkətlərinin hamısı Azərbaycanda böyük işlər görürlər.

Azərbaycanın Xəzər dənizindəki sektoru çox böyük neft və qaz ehtiyatlarına malikdir. Biz 19 böyük müqavilə imzalamışıq. Bu müqavilələrdə ümumi həcmi 60 milyard dollar olan sərmayə qoyulması nəzərdə tutulur. Bunun təxminən 30 faizi Amerika Birləşmiş Ştatlarının şirkətlərinin payına düşür. Bir-iki şirkət də var ki, mən bilirəm, onlar məhz yəhudilərə məxsusdur: «Amirada hers» və sabah biz bir dənə də müqavilə imzalayacağıq – «Monkrift oyl».

Biz aprel ayında burada, Vaşinqtonda, Senatda bir müqavilə imzalamışdıq. Sabah birini də imzalayacağıq. Mənə o şirkətin tarixini danışıblar. O, bir ailənin şirkətidir, bir ailəyə məxsusdur. Bu ailə də yəhudi ailəsidir.

Amerika ilə Azərbaycan arasında iqtisadi əlaqələr sürətlə inkişaf edir. Amma bizim bu əlaqələrimizin inkişaf etməsinə maneçilik törədən – keçən dəfələrdə də demişəm – Azərbaycana qarşı ədalətsiz ayrı-seçkilik aktıdır.

1992-ci ildə Ermənistan–Azərbaycan münaqişəsi ilə əlaqədar olaraq burada, Konqresdə ermənipərəst konqresmenlər Azərbaycana qarşı ədalətsiz 907-ci maddə tətbiq ediblər və buna görə də Amerikanın Azərbaycana hər türlü yardımına embarqo qoyulubdur. Biz neçə ildir mübarizə aparırıq ki, 907-ci maddə götürülsün. Hökumət, prezident Klinton, xanım Olbrayt, başqaları dəfələrlə bəyan ediblər ki, bu, ədalətsiz bir aktdır, bunu aradan götürmək lazımdır. Bu barədə Konqresdə bir-iki dəfə müəyyən layihələr verilibdir.

Məsələn, Nyu-Yorkdan olan konqresmen cənab Kinq belə bir layihə vermişdir və çox da çalışmışdır. Ancaq Konqresdə cəmi bir neçə səs çatmamışdır ki, o qanun, yəni 907-ci maddənin ləğv olunması təmin olunsun. Yaxud da, məsələn, bilirsiniz ki, senator Braunbək keçən il böyük bir təşəbbüslə bağlı – qədim İpək yolunun bərpası ilə əlaqədar Amerika Konqresinin, Senatının qanun layihəsini təqdim etmişdir. Keçən ilin aprel ayında biz – İpək yolunun üzərində olan 11 dövlətin prezidentləri Braunbəkin rəhbərliyi altında Senatın binasında böyük bir müşavirə keçirdik. Orada hökumətdən cənab Sendi Berger də çıxış etdi. Cənab Bjezinski də çıxış etdi. Keçmiş dövlət naziri cənab Beyker də çıxış etdi. Bütün prezidentlər, o cümlədən mən də çıxış etdim. Hamımız Braunbəkin bu layihəsini dəstəklədik. Layihədə 907-ci maddənin götürülməsi nəzərdə tutulmuşdu, amma Senatdan keçərkən yenə bəzi ermənipərəstlər o hissənin əleyhinə çıxdılar.

Doğrudur, artıq Senatda da səslərin nisbəti bizim xeyrimizə dəyişibdir. Orada bizim lehimizə 47, amma əleyhimizə 53 səs verildi. Demək, üç səs çatmadı. Amma əvvəldən senatorlar söz vermişdilər ki, 60 səs verəcəklər. Hətta mənə deyirlər ki, ermənipərəst konqresmenlər keçmiş konqresmen Doulu ora gətiriblər. O öz dostları Sarbonesə, Makkeynə, Abrahama təsir edibdir, onlar da bizim əleyhimizə səs veriblər.

Bu qanunda 907-ci maddənin götürülməsi məsələsi bizim xeyrimizə həll olunmasa da, biz 47 səs almağı özümüz üçün müəyyən bir irəliləyiş hesab edirik. Bu işlərdə sizin, yəhudi icmasının bizim xeyrimizə olan təsirini də qiymətləndiririk. Ona görə də arzu edərdim ki, bizim bu əməkdaşlıq prosesi davam etsin. Siz öz təsirinizi daha da artırasınız. Ancaq ədalət naminə. Biz ədalətsiz heç bir şey istəmirik. İş bundadır ki, kiminlə danışırsan, deyirlər, 907-ci maddə ədalətsizlikdir. Amma səs verməyə gələndə... Siz buna demokratiya deyirsiniz. Amma biz buna güclünün gücsüzə olan münasibəti deyirik.

Əlbəttə ki, biz günahkar deyilik. Yaxud Allaha şikayət edə bilmərik ki, Amerikada nə üçün Azərbaycanın ermənilər qədər lobbisi yoxdur. Allah hər millətə bir şey bəxş edir. Allah Azərbaycana çox gözəl təbiət bəxş edibdir, zəngin təbii sərvətlər bəxş edibdir və XXI əsrdə Xəzər dənizi, Xəzər hövzəsi dünyanın ən böyük neft regionlarından biri olacaqdır. Bunun da təşəbbüskarı Azərbaycandır. Amma Allah ermənilərə dağ-daş qismət edibdir. Bu dağ-daşda da onlar yaşamadığına görə dünyanın çox yerinə səpələniblər. O cümlədən Amerikaya gəliblər. Burada zənginləşiblər. İndi nə edək? Bu bizim taleyimizdir.

Amma eyni zamanda bizim sizin kimi dostlarımız vardır. Hesab edirəm ki, sizin kimi dostlarla biz irəliyə gedə bilərik. Doğrudur, bu, çətin yoldur. Amma hesab edirəm ki, biz irəliyə gedə bilərik.

Ayın 7-də hörmətli Baş nazir Barak ilə də bizim bu barədə çox yaxşı söhbətimiz oldu. Mən sizə qısa məlumatlar verdim. Amma indi sizi də dinləməyə hazıram.

### Görüş iştirakçılarının suallarına cavab

**R o z e n b l a t t  P i t e r** (*Amerika Yəhudi Komitəsi İcraiyyə Komitəsinin və Qubernatorlar Kollegiyasının rəhbəri*): Cənab Prezident, hər şeydən öncə bizimlə görüşmək üçün şərait yaratdığınıza görə sizə təşəkkürümüzü bildiririk. Baxmayaraq ki, indi Nyu-Yorkda çoxsaylı dövlət rəhbərləri var, həmişə olduğu kimi, sizinlə görüşü önəmli sayırıq. Sizinlə münasibətlərimizə çox böyük önəm və dəyər veririk. Biz Azərbaycanın coğrafi-strateji, coğrafi-siyasi, ümumiyyətlə, siyasi mövqeyini anlayırıq və bunu çox yüksək qiymətləndiririk. Şübhəsiz ki, Sizi

burada görməkdən məmnunuq, amma Sizinlə Azərbaycanda Prezident sarayında keçirdiyimiz görüşü də məmnuniyyətlə xatırlayırıq.

Şübhəsiz ki, Sizinlə görüşə Amerikada olan bir çox yəhudi təşkilatlarının nümayəndələri gəliblər. Məsələn, yəhudi təşkilatları konfransının üzvləri, Sovet Yəhudiləri Milli Komitəsinin və başqa yəhudi təşkilatlarının nümayəndələri vardır. Sizinlə keçən dəfəki görüşlərimiz zamanı Azərbaycanla İsrail arasında iqtisadi münasibətlərin inkişaf etdirilməsi ilə maraqlanmışdıq. Bilmək istərdik ki, bu sahədə hansı irəliləyişlər əldə olunubdur.

Biz Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətləri olduqca əhəmiyyətli və vacib hesab edirik. Hesab edirik ki, bu çox mühüm regionda Amerika Birləşmiş Ştatlarının böyük maraqları vardır. Bu baxımdan Amerika Birləşmiş Ştatları, Azərbaycan və İsrail münasibətlərinin inkişaf etdirilməsi bu üç ölkənin bölüşdüyü ümumi məqsədlərə çatmaq üçün çox böyük əhəmiyyət daşıyır.

Biz çox şadıq ki, Baş nazir Barak ilə görüşmüsünüz. O da sizin regionunuzun böyük əhəmiyyət daşıdığı barədə fikrini bizimlə bölüşür. Hesab edirəm ki, İsraildə mövcud olmuş bütün hökumətlər bu fikirdə olublar.

Cənab Prezident, ümid edirik ki, sülh prosesinin irəli aparılması üçün mühitin formalaşdırılmasına da yardımçı ola bilərsiniz. Sizə bir daha təşəkkürümüzü bildiririk.

* * *

**X o e n L e y n M a l k O l m** *(Prezidentlər konfransının vitse-sədri)***:** Cənab Prezident, Sizcə Tacikistan, Qırğızıstan və Özbəkistan sərhədlərində baş verən hadisələrin, beynəlxalq terrorizmlə bağlı olan proseslərin Qafqaza, Sizin regionunuza hansı təsirləri ola bilər və qarşıdan gələn həftələr, aylar ərzində bu proseslər hansı istiqamətdə inkişaf edə bilər? İstərdim ki, bu barədə fikirlərinizi bizimlə bölüşəsiniz.

**H e y d ə r Ə l i y e v:** Mən sizin suallarınıza cavab verirəm.

Azərbaycanla İsrail arasında iqtisadi əlaqələr inkişaf edir. Deyə bilmərəm ki, biz böyük nailiyyətlər əldə etmişik. Amma ayın 7-də Baş nazir Barakla görüşümüzdə də müəyyən irəliləyişi qeyd etdik. Mən ondan bir neçə sahələrə İsrailin iş adamlarının gəlməsini xahiş etdim. O da bu fikirdədir. Dedi ki, neft sahəsində o qədər böyük texnologiyamız yoxdur, amma kənd təsərrüfatında çox böyük nailiyyətlərimiz vardır.

Vaxtilə kənd təsərrüfatı sahəsində bəzi işlər görmək üçün bir şirkət gəlmişdi. Ancaq o, yarımçıq qaldı. «Merhaq» şirkəti var, bəlkə bilirsiniz. Ancaq biz Baş nazirlə danışdıq, indi bu barədə yeni bir proqram müəyyən edəcəyik.

Sizə onu da bildirmək istəyirəm ki, biz Azərbaycanın 1994-cü ildə imzaladığı müqavilədən alınan iki tanker nefti «Eksson» şirkəti vasitəsilə Qara dənizin Supsa limanından İsrailə satmışıq. Bilirsiniz ki, orada bütün satış işləri ilə konsorsium məşğuldur.

İndi biz böyük bir neft kəməri – Bakı–Ceyhan neft kəməri çəkmək məsələsi üzərində işləyirik. Ceyhan Aralıq dənizində Türkiyənin limanıdır. Oradan İsrailə məsafə çox yaxındır. Əgər biz onu 2002-ci, 2003-cü ildə işə sala bilsək, neft artıq Qara dənizin Supsa limanından yox, Ceyhandan İsrailə gedəcəkdir.

Bir neçə rabitə şirkəti vardır. İsrailin başqa şirkətləri də Azərbaycanda fəaliyyət göstərir. Məsələn, bizim rabitə işində «Motorolla» şirkəti çox böyük işlər görür. «Motorolla»nın məhz İsraildə olan şöbəsi bu işlərlə məşğul olur. Mən 1997-ci ildə burada olanda Çikaqoda «Motorolla»nın rəhbərləri ilə görüşdüm. Biz onlarla yeni bir böyük proqram hazırlamışıq. Çox əhəmiyyətli proqramdır. Əlbəttə, deyə bilmərəm ki, biz çox iş görmüşük, amma irəliyə gedirik.

Yaxın vaxtlarda bizim Xarici İşlər Naziri İsrailə səfər edəcəkdir. Mən Baş nazir Barakı Azərbaycana dəvət etmişəm. O da məni İsrailə dəvət edibdir. Mən ona deyəndə ki, Netanyahu Azərbaycana gəlmişdi, o dedi ki, mən də mütləq gələcəyəm. Beləliklə, bu barədə biz dövlət səviyyəsində də əlaqələrimizi genişləndirəcəyik. Azərbaycanda İsrail səfirliyi çox yaxşı fəaliyyət göstərir. Biz də İsraildə Azərbaycan səfirliyi açmağa hazırlaşırıq. Ona görə yaxın zamanlarda biz daha da böyük nailiyyətlər əldə edəcəyik.

Təbiidir ki, Mərkəzi Asiyada gedən proseslər bizi narahat edir. Amma bizi bundan öncə narahat edən odur ki, Çeçenistanda gedən proseslər məhz vəhhabistlərin, terroristlərin, ekstremistlərin orada olması ilə əlaqədardır. Vəhhabistlər artıq Dağıstana da öz təsirlərini artırırlar. Bilirsiniz ki, Dağıstanda da dağ yəhudiləri yaşayırlar. Bunu siz bilirsiniz. Ona görə bizim təhlükəmiz bu tərəfdəndir.

İkinci tərəfdən, sizə məlumdur ki, İslam fundamentalizmi Azərbaycana qarşı həmişə böyük təhlükədir. Mən dünən prezident İslam Kərimov ilə söhbət edirdim – Özbəkistanın cənubunda, Fərqanədə təxminən 300–400 terrorist toplaşıbdır. Onlar, taliblər Əfqanıstandan Tacikistana keçirlər, oradan isə Qırğızıstanın ərazisindən Özbəkistanın cənub hissəsinə getməyə çalışırlar. Prezident İslam Kərimovun sözlərindən belə başa düşdüm ki, Tacikistanla Özbəkistan birləşib bunların qarşısını almalıdır.

Hər halda deyə bilərəm ki, bu, Mərkəzi Asiya üçün yeni bir təhlükədir. Onun qarşısı alınmalıdır. Çünki bu, Mərkəzi Asiyanın başqa hissələrinə də yayıla bilər. Həmin ölkələrin özündə–Tacikistanda da, Qırğızıstanda da, Özbəkistanda da İslam fundamentalistləri, xüsusən Ben Ladenin Əfqanıstandan keçən adamları təbiidir ki, get-gedə öz imkanlarını genişləndirirlər.

**M a r y a ş i n  D a n***(«Bnai Bris» yəhudi təşkilatları konfransının icraçı vitse-prezidenti)***:** Cənab prezident, bildirmək istəyirəm ki, ilk dəfə Azərbaycanda həmkarım Cerodyan ilə olmuşdum. O, Beyker İnstitutunda çalışır. O zaman Siz xəstələndiniz və bizimlə görüşə bilmədiniz. Amma indi Sizi, şübhəsiz, çox sağlam bir vəziyyətdə görürük və bundan məmnunuq.

Keçən ilin iyulunda mən Amerikadan olan yəhudi nümayəndə heyətinin rəhbəri kimi Azərbaycanı ziyarət edəndə Siz lütfkarlıq göstərərək bizi qəbul etdiniz, görüşdünüz. O vaxt bizə Azərbaycanda yaşayan yəhudilərin vəziyyəti barədə məlumat verdilər. Biz Bakıda yerləşən yəhudilərin rəhbərləri ilə görüşdük. Sonra isə Qubada olduq. Yəhudilərin Azərbaycan cəmiyyətindəki rolu barədə Sizdən eşitdiklərimizin onların dilindən təsdiqlənməsi bizi çox məmnun etdi.

Səfir Cerodyan və mən iki ildir ki, bu və ya digər formada sülh məsələləri ilə məşğul oluruq. Bilmək istərdik ki, Sizin çox böyük cəsarətlə Ermənistanın prezidenti Köçəryan ilə başladığınız birbaşa danışıqların istiqaməti necədir, bu sahədə hansı irəliləyişləri əldə edə bilmisiniz? Bilirik ki, Siz dünən burada, Nyu-Yorkda prezident Köçəryan ilə yenidən görüşmüsünüz. İki prezident arasında gedən danışıqlar barədə bizə məlumat versəniz məmnun olardıq.

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz ki, bu proses 1988-ci ildən gedir. 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatı, onun Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib ki, Ermənistan silahlı qüvvələri işğal etdiyi Azərbaycan torpaqlarından qeyri-şərtsiz çıxmalıdırlar. Amma Ermənistan bu qətnamələri yerinə yetirmir.

1992-ci ildən bu məsələnin sülh vasitəsilə həll olunması ilə ATƏT-in Minsk qrupu məşğuldur. 1997-ci ildən ATƏT-in Minsk qrupuna Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa rəhbərlik edir. O vaxt, 1997-ci ildə onlar fəal oldular, iki təklif verdilər. Biz qəbul etdik, amma Ermənistan qəbul etmədi. Nəhayət, 1997-ci ilin sonunda prezident Ter-Petrosyan ikinci təklifi qəbul etdi. Amma 1998-ci ilin yanvar–fevral aylarında onun ətrafında olanlar, o cümlədən o vaxt Baş nazir olan Köçəryan, Müdafiə naziri Vazgen Sarkisyan və digərləri Ter-Petrosyanla razı olmadılar. Çünki o vaxt məsələnin həll olunması üçün real imkanlar yaranmışdı. Baxmayaraq ki, Minsk qrupunun təklifi Azərbaycan üçün o qədər də məqbul deyildi, ancaq biz onu qəbul etdik. Nəhayət, müəyyən müqavimətdən sonra Ter-Petrosyan da bunu qəbul etdi. Amma dediyim kimi, Ter-Petrosyanın ətrafındakılar bu fürsətdən istifadə edib onun əleyhinə çıxdılar. Ter-Petrosyan 1998-ci ilin fevral ayında istefa verdi. Ondan sonra Köçəryan prezident seçildi. Mən Köçəryanla bir neçə görüşlər keçirdim. Nəhayət, 1999-cu ilin aprel ayında burada, Vaşinqtonda biz onunla birbaşa dialoqa başladıq. Bir neçə dəfə görüşdük. İki dəfə Cenevrədə, Yaltada görüşdük. Sonra Azərbaycan–Ermənistan sərhədində görüşdük. İkimiz də belə fikirdə olduq ki, gərək qarşılıqlı kompromislər olsun. Azərbaycan kompromisə getdi, Ermənistan da müəyyən kompromisə getdi.

Ancaq 1999-cu ilin oktyabr ayında orada parlamentdə terror hadisəsi baş verdi. Ondan sonra Köçəryan dedi ki, daxili vəziyyəti gərək sabitləşdirsin. Bir müddətdən sonra o, bizim razılaşdığımız variantdan imtina etdi. Təbiidir ki, o variant da çox ideal variant deyildi. Ancaq hər halda, məsələnin həll olunması üçün bir yol açırdı.

Sonra bizim bir neçə danışıqlarımız olubdur. Bir ay bundan öncə Yaltada görüşmüşdük. Dünən burada görüşdük. Hələ ki, bir nəticəyə gələ bilməmişik. Hesab edirəm ki, Ermənistan öz yaranmış üstünlüyündən sui-istifadə edir. Yəni onlar Azərbaycan torpaqlarını, Dağlıq Qarabağı və onun ətrafındakı ərazilərimizin 20 faizini işğal ediblər. İşğal olunmuş torpaqlardan bir milyon azərbaycanlını zorla çıxarıblar, onlar səkkiz ildir ki, çadırlarda yaşayırlar. Ermənilər üstünlükdən istifadə edərək Dağlıq Qarabağa dövlət müstəqilliyi statusu almağa çalışırlar. Bu da mümkün deyildir. Biz də buna gedə bilmərik və beynəlxalq hüquq normaları da buna imkan verə bilməz.

Azərbaycan üçün də vəziyyət çətindir. Çünki torpaqlarımızın 20 faizi işğal altındadır. Bir milyon vətəndaşımız çadırlarda yaşayır. Amma indi Ermənistan üçün də o qədər asan deyil, çətindir. Çünki onlar çox böyük iqtisadi çətinliklər keçirirlər. Əgər məsələ həll olunsa, onların Türkiyə ilə sərhədləri açılacaqdır, Türkiyə ilə böyük ticarət gedəcəkdir. Azərbaycan ilə sülh yaranacaqdır. Azərbaycan ilə yollar açılacaqdır və burada da ticarət üçün böyük imkanlar çoxdur. Ermənistan iqtisadi cəhətdən indiki ağır vəziyyətdən çıxa biləcəkdir. Amma onlar indi Amerikada, başqa ölkələrdə yaşayan zəngin ermənilərin maddi yardımı ilə yaşayırlar. Onların öz daxili iqtisadi imkanları məhduddur. Onlar bunu nəzərə almalıdırlar. Ancaq təəssüf ki, hələ bu barədə elə bir dəyişiklik yoxdur.

Dünən bir daha danışdıq ki, biz gərək atəşkəs rejimini davam etdirək. Yəni məsələnin yalnız sülh yolu ilə həll edilməsinə nail olaq. Prezidentlər arasındakı dialoqu davam etdirək. Qarşılıqlı kompromislər təmin edək. Eyni zamanda ATƏT-in Minsk qrupunun imkanlarından bundan sonra daha da çox istifadə edək. Danışığımız bundan ibarət oldu.

**R o z e n b l a t t  P i t e r:** Cənab Prezident, Sizə bir daha təşəkkür edirik. Ümid edirik ki, gələcək səfərlərinizdə də bizimlə görüşəcəksiniz. Ümid edirik ki, Azərbaycana gələcəkdəki səfərlərimiz zamanı Sizinlə görüşmək imkanımız olacaqdır. Ümidvarıq ki, biz Sizinlə birgə Yerusəlimdə – Qüdsdə səfirliyin açılmasını bayram edə biləcəyik. Əgər lazım olsa, səfirliyi müvəqqəti olaraq Təl-Əvivdə də açmaq olar.

İstəyirik biləsiniz ki, bizim timsalımızda Sizin burada dostlarınız vardır. Biz Sizin qarşınıza qoyduğunuz məqsədləri – bizim də şərik olduğumuz məqsədləri anlayırıq və bunlara nail olmaq üçün Sizinlə birgə səylərimizi davam etdirəcəyik.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Mən də bu görüşə görə təşəkkür edirəm. Zəhmət çəkmisiniz. Mən sizdən yenə böyük ümidlərlə ayrılıram. Siz dediyim məsələlərdə bizə yardım edəcəksiniz. Mənim, prezidentin şəxsi qonağı kimi hamınızı Azərbaycana dəvət edirəm. Orada danışmaq üçün bizim daha da çox imkanlarımız olacaqdır. Burada görüşlər çoxdur, protokol məhdudlaşdırır. Amma orada bir neçə saat danışmaq olar. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ
## HEYDƏR ƏLİYEVİN
## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA
## İŞGÜZAR SƏFƏRİ

*Azərbaycan prezidenti Heydər Əliyev sentyabrın 8-də BMT-nin Baş qərargahında beynəlxalq hüquq sahəsində mühüm sənədləri – Uşaqların Hüquqları Haqqında Konvensiyanın 2 fakultativ protokolunu imzaladı.*

* * *

*Sentyabrın 8-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Nyu-Yorkda Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klinton ilə görüşdü.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycan–Amerika əməkdaşlığının perspektivləri, 907-ci düzəlişin aradan qaldırılması, Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil edilən neftin dünya bazarına çıxarılması, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi barədə geniş fikir mübadiləsi aparıldı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi məsələsi müzakirə olunarkən cənab Bill Klinton bir daha bəyan etdi ki, o, prezidentlik vəzifəsi başa çatanadək münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün səylərini davam etdirəcək və bu səylərin müsbət nəticə verəcəyinə əmindir.*

*Prezidentlər beynəlxalq aləmdə, o cümlədən Qafqazda vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər haqqında da ətraflı fikir mübadiləsi etdilər.*

* * *

*Sentyabrın 8-də BMT-nin iqamətgahında prezident Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezər ilə təkbətək görüşü oldu.*

*Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə dost, qardaş ölkələrin prezidentləri minilliyin zirvə görüşünün yekunları, Azərbaycan–Türkiyə əməkdaşlığının daha da möhkəmləndirilməsi, bölgədə vəziyyət və hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi etdilər.*

* * *

*Sentyabrın 8-də BMT-nin iqamətgahında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin İran İslam Respublikasının prezidenti Məhəmməd Xatəmi ilə görüşü oldu.*

*Prezident Heydər Əliyevi mehribanlıqla salamlayan, onu çox gümrah görməkdən məmnunluq duyduğunu söyləyən cənab Xatəmi Azərbaycan rəhbərinin İrana səfərini səbirsizliklə gözlədiklərini vurğuladı.*

*Səmimi sözlərə görə cənab Xatəmiyə təşəkkür edən prezident Heydər Əliyev əmin olduğunu bildirdi ki, onun İrana qarşıdakı səfəri qonşu və dost ölkələrimizin bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrinin sıxlaşdırılmasına yeni təkan verəcəkdir.*

*Görüşdə Azərbaycan–İran əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi oldu.*

## BÖYÜK İPƏK YOLU ÜZƏRİNDƏ YERLƏŞƏN ÖLKƏLƏRİN REGİONAL ƏMƏKDAŞLIĞIN ZİRVƏ GÖRÜŞÜNDƏ[*] ÇIXIŞ

*Nyu-York,*
*«BMT Plaza» mehmanxanası*

*8 sentyabr 2000-ci il*

Hörmətli senator Sem Braunbək!
Hörmətli həmkarlar!
Xanımlar və cənablar!

Bu gün biz möhtəşəm bir proqramın – Böyük İpək Yolunun bərpası proqramının əməli surətdə gerçəkləşdirilməsindən söhbət gedən çox mühüm bir hadisədə iştirak edirik. Biz – dövlət xadimləri, siyasətçilər, şübhəsiz, o cümlədən də mən, yəqin ki, bu problemin daha çox siyasi-iqtisadi cəhətindən danışa bilərik, nəinki elmi-texniki cəhətindən. Bu barədə burada kifayət qədər danışıldı və yəqin ki, başqa natiqlər də danışacaqlar.

Böyük İpək Yolu keçmişdə bəşər sivilizasiyasının inkişafında həqiqətən çox böyük rol oynamışdır. Bizim əsrimizdə, artıq XX əsrin sonunda isə bəşəriyyət Böyük İpək Yolu ideeyasına, yəni Qərblə Şərq arasında çox mühüm nəqliyyat kommunikasiyası kimi Böyük İpək Yolunun bərpası ideyasına yenidən müraciət etmişdir. Bununla əlaqədar mən mübaliğəsiz bildirməliyəm ki, biz – Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri bu işdə, necə deyərlər, əvvəldən çox fəal iştirak etmişik. Ona görə ki, Cənubi Qafqazda və Mərkəzi Asiyada – Sovetlər İttifaqının süqutundan sonra müstəqilliyə qovuşan ölkələrdə, bir tərəfdən, çox ciddi problemlər meydana çıxmış, digər tərəfdən isə onlar üçün son dərəcə böyük imkanlar açılmışdır. Məsələn, bizim üçün bu, Xəzər dənizinin enerji ehtiyatlarından fəal istifadə etməkdən və karbohidrogen xammalını Xəzər hövzəsindən başqa ölkələrə, beynəlxalq bazarlara nəql etməkdən ibarətdir.

Xəzər hövzəsindəki çox zəngin neft və qaz ehtiyatlarının mənimsənilməsinin təşəbbüsçüsü məhz Azərbaycan olub və hələ 1994-cü ildə «Əsrin müqaviləsi» adlandırılan çox iri müqavilə imzalamışdır. İndi Xəzər dənizinin Azərbaycan sektorundakı işlərə 30-dək iri neft şirkəti cəlb edilmişdir. Bağlanmış müqavilələrə əsasən onlar 30 il ərzində 60 milyard Amerika dollarından artıq məbləğdə sərmayə qoymalıdırlar.

Biz artıq iki neft kəməri – Rusiya ərazisi ilə Qara dəniz sahilinədək Bakı–Novorossiysk və Gürcüstanın Qara dəniz limanına qədər Bakı–Supsa kəmərlərini çəkmişik və onlarla neft ixrac edirik. Lakin indi biz çox iri Bakı–Tbilisi–Ceyhan boru kəmərini yaratmaq haqqında qərar qəbul etmişik və bu kəmərlə gələcəkdə hər il azı 50–60 milyon ton neft ixrac ediləcəkdir. Ancaq təbii ki, gələcəkdə başqa marşrutlar da tələb olunacaqdır. Bu, özlüyündə Böyük İpək Yolu proqramının bir hissəsidir.

Amma biz təkcə bununla kifayətlənmirik. Mən mübaliğəsiz deyə bilərəm ki, Gürcüstanın prezidenti, dostum cənab Eduard Şevardnadze və Azərbaycanın prezidenti Böyük İpək Yolunun bərpası haqqında 1998-ci ilin sentyabrında Bakıda mötəbər Beynəlxalq konfrans çağırılmasının təşəbbüsçüləri olmuşlar.

Bu konfransda Yaponiyadan başlayaraq, Avropanın ən ucqar ölkəsinədək dünyanın 32 dövlətinin nümayəndələri və 14 beynəlxalq təşkilatın təmsilçiləri iştirak edirdilər. Biz bu məsələni ətraflı müzakirədən keçirib sənəd qəbul etdik. Sənədi 12 ölkə – bu İpək Yolunun mərkəzi hissəsində, yəni, Mərkəzi Asiyada, Cənubi Qafqazda yerləşən ölkələr, Rumıniyadan başlayaraq, Avropa ölkələri və digər ölkələr imzaladılar.

Bu konfrans öz rolunu oynadı. Mən hesab edirəm ki, bu konfransın nəticələrinə əsasən gələcəkdə çox işlər görüləcəkdir.

Ancaq qeyd etmək xoş idi ki, Amerika Birləşmiş Ştatlarında senator cənab Sem Braunbək bu mövzuya çox fəal qoşuldu və deməliyəm, çox çətinlikləri dəf edərək, Böyük İpək yolu proqramını irəli sürdü və layihə

---

[*] Sammit senator Sem Braunbək, Merilend Universitetinin Şərq-Qərb Kosmik Elmlər Mərkəzi və Şərq-Qərb İnstitutu tərəfindən təşkil olunmuşdu.

Zirvə görüşünü ABŞ-ın Şərq-Qərb İnstitutunun prezidenti Con Mroz açdı. Sədrlik edən senator Cem Braunbək iştirakçıları salamladı, sammitə öz işində uğurlar arzuladı. Merilend Universitetinin prezidenti Den Mout, Şərq-Qərb Kosmik Elmlər Mərkəzinin direktoru Roald Saqdeyev «Silkset» («İpək yolu») layihəsi barədə məlumat verdilər.

Gürcüstan prezidenti Eduard Şevardnadze, Moldova prezidenti Petru Luçinski, Rumıniya prezidenti Emil Konstantinesku, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə sabiq müşaviri Brend Skoukroft, Qazaxıstanın Xarici İşlər naziri Erlan İdrisov, Qırğızıstanın Xarici İşlər naziri Muradbəy İmanəliyev, Ermənistanın Xarici İşlər naziri Vardan Oskanyan, Ukraynanın Xarici İşlər naziri Boris Tarasyuk da zirvə görüşündə çıxış etdilər.

hazırladı ki, Amerika Senatı bu məsələyə – ümumiyyətlə, xüsusən də haqqında burada çox yaxşı danışılan sistemin yaradılması üçün, şübhəsiz, böyük əhəmiyyəti olan məsələyə dair qanun qəbul etsin.

Biz bu məsələdə senator cənab Sem Braunbəki fəal dəstəkləyirdik və qanun hazırlandı, çox şadıq ki, Amerika Senatı onu, nəhayət, qəbul etdi. İndi bu qanun əsasında özü də ilk növbədə, telekommunikasiyalar və "Silk sat" proqramı sahəsində işlər genişlənir.

Mən köhnə dostum, görkəmli alim, bu çox böyük layihənin müəllifi cənab Saqdeyevi alqışlayıram. Xatirimdədir, bir neçə il öncə o, Azərbaycanda, eləcə də başqa ölkələrdə olmuş və zənnimcə, bu ideyanı irəli sürmüşdü. İndi bu ideya artıq qəbul edilmişdir və biz fəal surətdə onun həyata keçirilməsinə başlayırıq.

Əlbəttə, mən Amerika Senatının qəbul etdiyi qanunu alqışlayıram. Amma təəssüfləndiyimi deməyə bilmərəm ki, Konqresdə məhz bu qanun layihəsi haqqında məsələnin müzakirəsi zamanı Azərbaycan barəsində yenə ədalətsizlik göstərilmişdir. Axı paradoksal haldır ki, Böyük İpək Yolunun bərpasının təşəbbüskarlarından biri olan Azərbaycan Konqresin 1992-ci ildə qəbul etdiyi 907-ci maddəyə əsasən bu layihənin və ya digər layihələrin həyata keçirilməsi üçün yardımdan yenidən, növbəti dəfə məhrum edilmişdir. Amerika Birləşmiş Ştatları Konqresinin Azərbaycan barəsində bu ayrı-seçkilik aktı bəzi konqresmenlərin ən subyektiv mülahizələrinə əsasən, guya Azərbaycanın Ermənistanı blokadaya alması ilə əlaqədar qəbul edilmişdir. Halbuki, Amerika Birləşmiş Ştatlarının hökuməti dəfələrlə bəyan etmişdir ki, bu ayrı-seçkilik aktı – 907-ci maddə ləğv olunmalıdır. Amma təəssüflər olsun ki, bunun üçün əməli tədbirlər görülməmişdir.

Senator cənab Sem Braunbəkin təqdim etdiyi qanunda nəzərdə tutulan müddəalar Böyük İpək Yolu haqqında qanun layihəsinin, Amerika Birləşmiş Ştatları Senatının qanun layihəsinin həyata keçirilməsi Azərbaycan üçün 907-ci maddədən yan keçməyə imkan verirdi, o mənada ki, Azərbaycan bu proqramın gerçəkləşdirilməsində bərabər hüquqlardan istifadə edəcəkdi. Amma bəzi senatorlar, konqresmenlər Azərbaycan barəsində yenə də ədalətsizlik etdilər, ayrı-seçkiliyə yol verdilər.

Azərbaycan həmin layihədə yeganə respublikadır ki, bu qanun layihəsinə əsasən Böyük İpək Yolunun üstündə yerləşən ölkələrə Amerika Birləşmiş Ştatlarının göstərməli olduğu yardımdan məhrum edilmişdir.

Əlbəttə, bu məni məyus edir, kədərləndirir. Buna baxmayaraq, biz ruhdan düşmürük. Biz senator Sem Braunbəkin bu barədə təşəbbüsünü və dünyanın görkəmli alimlərinin burada təqdim etdikləri layihəni indi də fəal dəstəkləyirik. Hər halda, ümidvaram ki, senator Sem Braunbək haqq-ədalət uğrunda və 907-ci maddənin Azərbaycan barəsində ayrı-seçkilik salan müddəasının aradan qaldırılması uğrunda mübarizəsini davam etdirəcəkdir.

Azərbaycan mərkəzi mövqedə yerləşir. Burada bəzi slaydlar nümayiş etdirildi. Hər şeydən göründüyü kimi, Xəzər dənizi bu layihəni əhatə edən Böyük İpək Yolunun mərkəzindədir. Azərbaycan isə məhz Qafqazın da, Xəzər dənizinin də ən mühüm strateji regionunda yerləşərək, Avropanı Asiya ilə, Qərbi Şərqlə birləşdirir.

Ona görə də bu çox mühüm layihənin həyata keçirilməsində Azərbaycanın rolu, şübhəsiz, olduqca böyükdür. Biz üzərimizə düşən missiyanı yerinə yetirmək üçün hər şeyi edəcəyik. Bu gün mən Amerika Birləşmiş Ştatlarının Konqresini və Amerika Birləşmiş Ştatlarının hökumətini bir daha Azərbaycan barəsində ayrı-seçkiliyi aradan qaldırmağa və ədalətsiz 907-ci maddənin ləğvinə nail olmağa çağırıram.

Mən bugünkü müzakirədə iştirak etməyimə şadam. Sizin hamınızı salamlayıram və bu layihəyə uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KEÇMİŞ PREZİDENTİ CORC BUŞLA GÖRÜŞÜ**

*9 sentyabr 2000-ci il*

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ABŞ-ın keçmiş prezidenti Corc Buşun dəvəti ilə sentyabrın 9-da Nyu-Yorkdan Portlend şəhərinə yola düşmüş, oradan avtomobil karvanının müşayiəti ilə Kennibunkport şəhərinə gəldi. Sənab Corc Buş respublikamızın rəhbəri Heydər Əliyevin görüşünə gələrək onu böyük hörmət və mehribanlıqla qarşıladı.*

**C o r c B u ş:** Cənab Prezident, Sizinlə görüşməyi özüm üçün şərəf hesab edirəm.

**H e y d ə r Ə l i y e v:** Çox məmnunam.

**C o r c B u ş:** Çox məmnunam ki, dəvətimi qəbul edib mənim görüşümə gəlmisiniz.

**H e y d ə r Ə l i y e v:** Mən Sizinlə görüşməyimdən çox şadam.

**C o r c B u ş:** Cənab Prezident, Men ştatına xoş gəlmisiniz.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun.

**C o r c B u ş:** Cənab Prezident, mənim şəxsi katerimə buyurun. Biz bununla gedəcəyik. Bu çox sürətli katerdir.

*Prezident Heydər Əliyev və Corc Buş katerlə malikanəyə yola düşdülər.*

*Ətraf ərazinin əsrarəngiz gözəlliyi insanı heyran edirdi. Yalçın qayalar, yaşıl meşə zolaqları, zümrüd kimi bərq vuran sular burada təbiətə böyük qayğı ilə yanaşıldığından xəbər verir. Kater təkrarsız bir gözəlliyin əhatəsində irəliləyirdi. Azərbaycan prezidenti Heydər Əliyev ətrafı heyranlıqla seyr edirdi.*

*Qarşıda isə müasir dünyanın iki nəhəng dövlət xadiminin tarixi bir görüşü dururdu. Qərbin və Qədim Şərqin bu iki böyük dövlət xadimi XXI əsrin astanasında gələcək qarşılıqlı münasibətlərin və bərabərhüquqlu əməkdaşlığın prinsiplərinə dair məhz bu gün ətraflı fikir mübadiləsi aparacaqdılar.*

*Ali qonağı gətirən kater malikanəyə yan aldı. Cənab Buş prezident Heydər Əliyevi yaşadığı evlə tanış etdi. Hər gün balıq tutduğunu bildirdi.*

**C o r c B u ş**: Görürsünüz, burada çoxlu balıqlar var. Mən indi onlardan birini tutmağa çalışacağam. Baxın, xırda balıqlar suda atılıb-düşürlər. Bu o deməkdir ki, böyük balıqlar kiçiklərin dalınca düşüblər, onlar da yaxalarını qurtarmaq istəyirlər.

Deyəsən birinci dəfə bir şey alınmadı. İndi tilovu yenə atıram, yəqin bu dəfə bir şey alınacaq. Burada gecələr çox gözəl olur. Cənab Prezident, indi Azərbaycanda havalar necədir?

**H e y d ə r Ə l i y e v:** Azərbaycanda indi havalar hələ istidir.

**C o r c B u ş:** Cənab Prezident, bizim balıq tutmaq «layihəmiz» alınmadı.

Mənim oğlum, Amerika Birləşmiş Ştatları prezidentliyinə indiki namizəd Corc və digər oğlum Nil – hər ikisi Texasda yaşayırlar.

Cənab Prezident, Siz özünüzlə bərabər bizə çox gözəl, günəşli bir gün də gətirmisiniz.

Hörmətli Prezident, bizim bu görüşümüzdə Amerika tərəfdən milli təhlükəsizlik məsələləri üzrə keçmiş müşavir, general Brend Skoukroft da iştirak edəcəkdir. Səhv etmirəmsə, o, dünən gecə sizinlə görüşübdür.

**H e y d ə r Ə l i y e v:** Bəli, biz dünən görüşmüşük. O, Azərbaycana da gəlmişdi.

**C o r c B u ş:** ABŞ-ın sabiq dövlət katibi Lari İqlberger də bu gün bizimlə bir yerdədir.

**H e y d ə r Ə l i y e v:** Bəli, o da bizim dostumuzdur.

**C o r c B u ş:** Cənab Prezident, mənim bacım da bizim görüşümüzdə iştirak edəcəkdir.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl.

**C o r c B u ş:** Xanım Ales Bostonda yaşayır. Gördüyünüz bu yerdə ev var idi. Ailə üzvlərimizdən biri yüksək vergiləri ödəmək istəmədiyinə görə, evi söküb burada hovuz düzəltdik.

**H e y d ə r Ə l i y e v:** Sizin malikanənin üstündə Azərbaycan Respublikasının və Amerika Birləşmiş Ştatlarının dövlət bayraqları dalğalanır. Mən bundan çox böyük qürur duyuram.

**C o r c B u ş:** Cənab Prezident, mən Sizə onu da söyləyim ki, 1920-ci ildə atamla anam evlənəndə bu evi onlara toy hədiyyəsi kimi bağışlamışdılar. Babam bu evi mənim anama, yəni öz qızına vermişdi. Biz hamımız bu evdə böyümüşük.

Bu evin yuxarı mərtəbəsində bir otaq var, orada yeddi ədəd çarpayı qoymuşuq. Nəvələrim çoxalanda çarpayıların da sayını artıracağıq.

Cənab Prezident, indi biz Sizinlə otağa keçəcəyik. Əvvəlcə söhbət edəcəyik, gecə isə şam edəcəyik.

**Heydər Əliyev:** Necə məsləhət bilirsinizsə, elə edək.

**Corc Buş:** Cənab Prezident, bu bizim qeyri-rəsmi görüşümüzdür.

**Heydər Əliyev:** Elədir.

**Corc Buş:** Yəni mən hökumətdə işləmirəm, bu barədə hesabat da yazmıram.

Cənab Prezident, bu dəvətimi qəbul edib, evimdə məni ziyarət etməyinizi özüm üçün ən böyük şərəf sayıram. Siz Nyu-Yorkdan xüsusi olaraq buraya gəlmisiniz, sonra Vaşinqtona gedəcəksiniz. Yenə deyirəm ki, buraya gəlməyinizi mənə göstərdiyiniz böyük şərəf kimi dəyərləndirirəm. Ona görə də Sizə çox böyük təşəkkürümü bildirirəm.

**Heydər Əliyev:** Cənab Corc Buş, mən də bu imkandan istifadə edib, çox böyük təşəkkürümü bildirmək istəyirəm ki, Siz məni öz şəxsi evinizə dəvət etmisiniz.

Siz Amerika Birləşmiş Ştatlarının ən dəyərli, ən hörmətli və tarixdə böyük hadisələrlə mühüm yer tutmuş prezidenti olmusunuz. Sizin vitse-prezident, prezident olduğunuz, ondan əvvəl Mərkəzi Kəşfiyyat İdarəsinə rəhbərlik etdiyiniz, ondan da qabaq Çində işlədiyiniz vaxt mənim yaxşı yadımdadır. O vaxtlar mən Sovetlər İttifaqının rəhbərlərindən biri idim, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü idim. Biz Amerikada kimin kim olduğunu həmişə izləyirdik.

Corc Buş həm vitse-prezident, həm Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbəri, həm də prezident kimi həmişə məşhur olmuşdur. Ona görə də o vaxtlar Sizin şəxsiyyətinizə çox böyük maraq var idi. Həmin dövrdə mən Sizinlə görüşə bilməmişdim. Amma indi çox məmnunam ki, Sizinlə görüşürəm. Mən bir daha Sizə təşəkkür edirəm ki, zəhmət çəkib məni öz evinizə dəvət etmisiniz. Əgər siz məni Ağ evə dəvət etsəydiniz, mən bugünkü görüşümüzü ondan qiymətli hesab edərdim.

**Corc Buş:** Doğrudur, bugünkü görüş qeyri-rəsmi bir görüşdür.

**Heydər Əliyev:** Cənab Buş, mən Sizi şəxsi qonağım kimi Azərbaycana dəvət edirəm.

Cənab İqlberger, cənab Skoukroft mənim qonağım olublar. Ancaq Azərbaycanda az bir müddətdə qalıblar. Mən xahiş edirəm ki, onlar yenə də Bakıya gəlsinlər.

Cənab Corc Buş, mən Sizi xanımınızla, nəvələrinizlə birgə Azərbaycana dəvət edirəm.

**Corc Buş:** Neçəsini gətirə bilərəm? Mənim 14 nəvəm vardır.

**Heydər Əliyev:** Siz nəvənizin 14-nü də Azərbaycana gətirə bilərsiniz.

**Corc Buş:** Nəvələrimdən birini gətirə bilərəm.

**Heydər Əliyev:** Mənim 6 nəvəm vardır. Sizin isə 14 nəvəniz var. Hamısını Azərbaycana gətirin.

**Corc Buş:** Yox-yox, nəvələrimdən birini Azərbaycana gətirə bilərəm. Həqiqətən, özümə böyük şərəf hesab edirəm ki, bir gün Azərbaycana gəlim.

**Heydər Əliyev:** Bəli, bu Sizin üçün çox maraqlı olacaqdır. Siz bununla mənə də, Azərbaycan xalqına da böyük şərəf vermiş olarsınız.

Siz bu yaxın vaxtlarda Türkiyədə oldunuz. Türkiyənin keçmiş prezidenti Süleyman Dəmirəl mənim şəxsi dostumdur. Siz Türkiyədə səfərdə olanda o mənə telefon etdi, görüşləriniz və bir yerdə mühazirə oxumağınız barədə söhbət açdı. Sizin oraya səfəriniz Türkiyə üçün böyük bir hadisə oldu. O vaxt mən düşündüm ki, bu, Azərbaycana nə vaxt nəsib olacaqdır.

**Heydər Əliyev:** Süleyman Dəmirəl mənim çox böyük dostumdur. Mən Dəmirəl ilə 32 il bundan əvvəl tanış olmuşam. O çox böyük şəxsiyyətdir, mənim də yaxın dostumdur.

**Corc Buş:** Bilmirsiniz, Süleyman Dəmirəl indi nə işlə məşğul olacaqdır?

**Heydər Əliyev:** Mən onunla tez-tez telefonla danışıram. Onun yanına çox adam gedir. Amma güman edirəm ki, o, siyasətdən uzaqlaşmayacaqdır.

**Corc Buş:** Mən də Sizinlə razıyam. Mənə belə gəlir ki, o, partiya siyasətinə qoşulacaqdır.

**Heydər Əliyev:** Mən də belə düşünürəm. Çünki o, ömrü boyu siyasətlə məşğul olub, indi siyasətsiz yaşaya bilməz.

**Corc Buş:** Mənə belə gəlir ki, Siz doğru deyirsiniz.

Cənab Prezident, Siz Türkiyənin keçmiş prezidenti Turqut Özalı yaxşı tanıyırdınızmı?

**Heydər Əliyev:** Bəli, Turqut Özal mənim yaxşı dostum idi. Onun vəfatı məni çox sarsıtdı. Mən Türkiyəyə getdim, onun dəfnində iştirak etdim.

**Corc Buş:** Siz çox yaxşı iş görmüsünüz.

**Heydər Əliyev:** Turqut Özal Türkiyənin iqtisadiyyatını qaldırmaq üçün çox işlər gördü.

**Corc Buş:** Biz onu da çox sevirdik. Cənab Prezident, buyurun, evə keçək.

* * *

*Daha sonra Azərbaycan prezidenti Heydər Əliyev ilə ABŞ-ın keçmiş prezidenti Corc Buş arasında görüş oldu. Görüşdə Amerikanın sabiq dövlət katibi Lari İqlberger, milli təhlükəsizlik məsələləri üzrə keçmiş müşavir, general Brend Skoukroft iştirak edirdilər.*

*Görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşdən şərəf duyduğunu söyləyən cənab Buş Azərbaycan prezidentinin rəhbərliyi ilə ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində həyata keçirilən islahatlara, respublikamız üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan münaqişəsinin nizama salınması istiqamətində görülən işlərə böyük maraq göstərdi.*

*Dəvətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən prezident Heydər Əliyev bu görüşdə Amerikanın görkəmli siyasi xadimləri cənab İqlbergerin və general Skoukroftun iştirak etmələrindən çox məmnun qaldığını nəzərə çatdırdı.*

*Azərbaycanda aparılan demokratik islahatlar nəticəsində əldə edilmiş uğurlardan, siyasi plüralizmin, söz azadlığının bərqərar olmasından bəhs edən respublikamızın rəhbəri qarşıdakı parlament seçkilərinin ölkəmizdə demokratiyanın inkişafında yeni mərhələ yaradacağına əmin olduğunu bildirdi.*

*Azərbaycan ilə Amerika arasında bütün sahələrdə əlaqələrin böyük sürətlə inkişaf etdiyini, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsinə dair imzalanmış müqavilələrdə ABŞ şirkətlərinin xüsusi yer tutduğunu xatırladan dövlətimizin başçısı respublikamızın öz iqtisadiyyatını dünya iqtisadiyyatı ilə sıx bağlamağa böyük əhəmiyyət verdiyini vurğuladı.*

*Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyini, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda ağır şəraitdə yaşadığını nəzərə çatdıran prezident Heydər Əliyev ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların gedişindən söhbət açdı, bu münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün beynəlxalq ictimaiyyətin, böyük dövlətlərin, xüsusən Minsk qrupunun həmsədri olan ABŞ, Rusiya və Fransanın səylərinin artırılmasına ehtiyac duyulduğunu bildirdi.*

*Görüşdə Azərbaycan–Amerika münasibətlərinin daha da sıxlaşdırılması, bölgədə vəziyyət və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

*Prezident Heydər Əliyev cənab Corc Buşu bir daha Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

* * *

*Azərbaycan prezidenti Heydər Əliyev sentyabrın 10-da Portlend şəhərindən Vaşinqtona gəldi.*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏRİ

*Sentyabrın 11-də Vaşinqtonda, dövlətimizin başçısı üçün ayrılmış iqamətgahın – «Meyflauer Renessans» mehmanxanasının salonunda Amerika–Azərbaycan Ticarət Palatasının təşkil etdiyi sərginin açılış mərasimi olmuşdur.*

*Mərasimdə Amerika–Azərbaycan Ticarət Palatasının həmsədrləri Riçard Matske, Rza Vəziri, Amerikanın və bir sıra digər ölkələrin nüfuzlu şirkətlərinin rəhbərləri, tanınmış ictimai-siyasi xadimlər, xarici ölkələrin Vaşinqtondakı səfirliklərinin əməkdaşları, Azərbaycan nümayəndə heyətinin üzvləri, jurnalistlər iştirak edirdilər.*

*Respublikamızın rəhbəri sərginin açılışını bildirən qırmızı lenti kəsdi.*

*Azərbaycan prezidenti Heydər Əliyev «Eksson Mobil», «Şevron», «BP AMOKO», «Emst ənd Yanq», «Bertlinq», «Beyker Bots» və Azərbaycanda tanınan bir sıra digər şirkətlərin stendlərinə baxdı. Həmin şirkətlərin nümayəndələri Azərbaycanda gördükləri işlər və gələcək fəaliyyətləri barədə prezident Heydər Əliyevə məlumat verdilər.*

*Dövlətimizin başçısı sərgidə Azərbaycanda həyata keçiriləcək bir sıra layihələrlə, «Spirhed Ekzibişnz» şirkəti və Azərbaycan Ticarət-Sənaye Palatası tərəfindən 2001-ci ildə respublikamızda birgə təşkil olunacaq «Xəzərneftqaz» sərgisinin proqramı ilə, ölkəmizin ictimai-siyasi, iqtisadi həyatından, Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzündən, yerindən-yurdundan didərgin düşmüş bir milyondan çox vətəndaşımızın çadırlarda ağır vəziyyətdə yaşamasından bəhs edən kitablarla maraqla tanış oldu.*

*Respublikamızın rəhbərinə Cənubi Qafqazda ən iri kompüter şirkəti olan «Azərbaycan Elektroniks»in gördüyü işlər barədə də məlumat verildi. Bildirildi ki, bu şirkət Amerikanın «Maykrosvt», «Orkl», «Kompakt», «Ay-Bi-Em», «En-Bi-Si» kimi iri şirkətləri ilə əməkdaşlıq edir. Azərbaycana kompüterlərin 45 faizi bu şirkət vasitəsilə gətirilir. Amerika səfirliyi, «Britiş Petreoleum», «Eksson», «Şell», «Şevron», «Prokter ənd Qembl», «Coca-Cola» bu şirkətin daimi müştəriləridir. Həmin şirkət Bakı Banklararası Valyuta Birjasını, Dövlət Standartlaşdırma Komitəsini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyini, Vergilər Nazirliyini tamAmilə kompüterləşdirmək üçün layihə hazırlamışdır. Şirkət oktyabrın 2-də açılacaq Bakı Qiymətli Kağızlar Birjasını da tamamilə kompüterləşdirəcəkdir.*

*Sərgidə iştirak edən digər şirkətlər də Azərbaycanda gördükləri işlər haqqında prezident Heydər Əliyevə ətraflı məlumat verdilər.*

## AMERİKA – AZƏRBAYCAN TİCARƏT PALATASININ «AZƏRBAYCAN AVRASİYANIN QAPISI, STRATEJİ VƏ İQTİSADİ ALYANSLAR ÖLKƏSİDİR» MÖVZUSUNDA TƏŞKİL ETDİYİ BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ*

*Vaşinqton,«Meyflauer Renessans» mehmanxanasının Şərq salonu*

*11 sentyabr 2000-ci il*

Hörmətli sədr!

Hörmətli xanımlar və cənablar!

Mən sizi Amerika Birləşmiş Ştatları–Azərbaycan Ticarət Palatasının beşinci ildönümü münasibətilə və bu palatanın dördüncü konfransının açılışı münasibətilə ürəkdən təbrik edirəm. Konfransın işinə və ümumiyyətlə, Amerika Birləşmiş Ştatları–Azərbaycan Ticarət Palatasına gələcəkdə bütün işlərində uğurlar arzulayıram.

Amerika Birləşmiş Ştatları–Azərbaycan Ticarət Palatasının yaranması heç də təsadüfi hadisə deyildir. Azərbaycan 1991-ci ilin sonunda dövlət müstəqilliyi əldə etdikdən sonra həyatın çox çətin sınaqlarından keçmişdir. Bunu bilirsiniz, Azərbaycanı o vaxtlar görmüş və onun vəziyyəti ilə tanış olmuş adamlar yəqin ki, bunu xatırlayırlar.

İnsan elə bir məxluqdur ki, o, pis şeyi, mənfi şeyi tez unudur. Amma tarix bu şeyləri unutmur, öz səhifələrinə yazır və maraqlanmaq istəyənlər həmişə bunlarla tanış ola bilərlər.

Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman çox ağır bir vəziyyət içərisində idi. Birincisi, bir neçə il idi ki, Ermənistan ilə Azərbaycan arasında müharibə gedirdi və müharibənin də səbəbi hələ 1988-ci ildə Ermənistanın Azərbaycana etdiyi torpaq iddiası ilə əlaqədar idi. Yəni Ermənistan Azərbaycanın qədim torpağı olan Dağlıq Qarabağ Vilayətini Azərbaycandan qopardıb Ermənistana birləşdirmək məqsədi ilə münaqişəyə başlamışdı. Bu münaqişə sonra müharibəyə çevrilmiş, qan tökülmüş, on minlərlə insan tələf olmuş, bir o qədər də insan əlil olmuş, xəsarət almışdır. On minlərlə ailə övladsız, qadınlar ərsiz qalmışdır. Təbiidir ki, bu, Azərbaycan üçün böyük faciə olmuşdur. Bunların nəticəsində və bir neçə başqa səbəblərə görə – açığını desək, bəzi dövlətlər tərəfindən Ermənistana o vaxt göstərilən hərbi yardıma görə və eyni zamanda Azərbaycanın daxilində də ictimai-siyasi sabitlik olmadığına görə – Ermənistanın silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal etməyə nail olmuşlar. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı – kişi, qadın, uşaq zorla çıxarılmışdır. Bu xəritədə siz yaşıl, qırmızı, bir də sarı rənglə rənglənmiş bir hissəni görürsünüz. Bu, Azərbaycan ərazisinin 20 faizidir. Qırmızı rənglə rənglənən ərazi Dağlıq Qarabağ Muxtar Vilayətidir. Bu vilayət 1923-cü ildə qeyri-qanuni olaraq yaradılmışdı. Azərbaycanın daxilində bir muxtar vilayət yaratmaq, elə o vaxt, demək olar ki, Azərbaycanın kürəyinə süngü sancılması kimi bir şey idi.

Ancaq o vaxt, Sovetlər İttifaqı təzəcə qurulduğu zaman onun tərkibində olan müttəfiq respublikaların xəritələrini təəssüf ki, xalqın iradəsi ilə yox, tarixi həqiqətə görə yox, istədikləri kimi yaradırdılar. O vaxt da Sovetlər İttifaqının rəhbərlərinin içərisində erməni millətinə mənsub olan insanlar az deyildilər.

Münaqişə başlayan zaman, yəni 1988-ci ildə Dağlıq Qarabağda cəmi 170 min insan yaşayırdı. Bunun 30 faizi azərbaycanlı, 70 faizi erməni idi. İndi təsəvvür edin ki, 80 il bundan öncə orada nə qədər əhali olubdur. Yəqin ki, bir on dəfə az. Amma buna baxmayaraq, ermənilərin iddialarına əsasən belə bir muxtar vilayət yaranıbdır.

Sovetlər İttifaqının tərkibində muxtar vilayətlər, muxtar respublikalar, ümumiyyətlə, Sovetlər İttifaqının strukturuna daxil olan qurumlar idi. Sovet hakimiyyəti dövründə, təbiidir ki, hər bir muxtar vilayət, muxtar respublika öz hüdudları çərçivəsində və öz səlahiyyətləri içərisində yaşayırdı. Ancaq 1987–1988-ci illərdə Sovetlər İttifaqı, kommunist hakimiyyəti artıq laxlamağa başladı. Bu zaman da Ermənistanın təcavüzkar separatçıları Dağlıq Qarabağın Azərbaycandan qoparılması, Ermənistana verilməsi üçün fürsət əldə etdilər. Buna görə də həmin münaqişə başladı.

Bu münaqişə getdiyi zaman Azərbaycanın daxilində xalqı birləşdirib münaqişənin qarşısını birlikdə almaq, torpaqların qorunması üçün müharibə aparmaq əvəzinə, təəssüflər olsun ki, ayrı-ayrı siyasi qüvvələr silahlı dəstələrinin olmasından istifadə edərək daxildə hakimiyyət mübarizəsi apardılar. Bütün bunların hamısı Ermənistan silahlı qüvvələrinin həmin böyük bir ərazini işğal etməsinə səbəb olmuşdur.

---

* Amerika–Azərbaycan Ticarət Palatasının həmsədri, «Şevron» şirkətinin vitse-prezidenti Riçard Matske mərasimi giriş sözü ilə açaraq konfrans iştirakçılarını səmimiyyətlə salamladı, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin bu beynəlxalq konfransda iştirakından böyük şərəf duyduğunu bildirdi.

Onu da bildirmək istəyirəm ki, Dağlıq Qarabağın ətrafında olan yaşıl və sarı rənglə rənglənmiş ərazilərin Dağlıq Qarabağ Muxtar Vilayətinə heç bir aidiyyatı yoxdur. Burada sırf azərbaycanlılar yaşayıblar və Azərbaycan rayonlarıdır. Dağlıq Qarabağ da Azərbaycanındır, amma orada əhalinin bir az çoxu erməni olduğuna görə, onlara muxtar vilayət statusu verilmişdir.

Beləliklə, gördüyünüz bütün bu ərazidən əhali–bir milyondan artıq azərbaycanlı çıxarılıbdır. Dağlıq Qarabağda olan azərbaycanlılar oradan, təbiidir ki, hələ 1989-cu ildə çıxarılmışlar. Ancaq Dağlıq Qarabağın ətrafında olan rayonların əhalisi müharibənin sonrakı gedişi zamanı, təxminən 1992–1993-cü illərdə oralar işğal olunarkən çıxarılmışdır. Yəni bir milyon azərbaycanlı, bizim vətəndaşımız öz yerindən-yurdundan məhrum olub və 8 ildir ki, çadırlarda yaşayır. Dünyada analoqu olan belə bir şey yoxdur.

İndi dünyanın bəzi bölgələrində, müxtəlif regionlarında da iki il, üç il, dörd il davam edən münaqişələr vardır. Amma bu qədər böyük tarixi olan münaqişə və eyni zamanda 8 milyon əhalisi olan Azərbaycanın əhalisinin bir milyonunun öz ölkəsinin içərisində köçkün vəziyyətində, çadırlarda yaşaması, təbiidir ki, dünyada analoqu olmayan bir haldır.

Bütün bunlara baxmayaraq, biz 1994-cü ilin may ayında müharibənin dayandırılmasının tərəfdarı olduq. Ermənistanla Azərbaycan arasında atəşin kəsilməsi və sülh danışıqları aparılması haqqında saziş imzalandı.

Altı ildən artıqdır ki, biz məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Ancaq, təəssüflər olsun ki, hələ ki, məsələni həll edə bilməmişik.

1992–1993-cü illərdə Ermənistan silahlı qüvvələri Azərbaycanın bir neçə rayonunu işğal etdikləri zaman Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası qətnamələr qəbul edibdir. Dörd dəfə qətnamə qəbul olunub və bu qətnamələrdə göstərilibdir ki, birincisi, Azərbaycanın ərazi bütövlüyü, sərhədləri toxunulmazdır və Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş rayonlarından qeyd-şərtsiz çıxmalıdırlar. Ancaq, təəssüflər olsun ki, Birləşmiş Millətlər Təşkilatının bu qətnamələri indiyə qədər kağız üzərində qalıb və məhz buna görə bir neçə gün bundan öncə Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin iclasında mən BMT-ni və onun Təhlükəsizlik Şurasını bu qədər acizliyinə görə və öz qərarlarının yerinə yetirilməsini təmin edə bilmədiklərinə görə ciddi tənqid etmişəm.

Məsələnin həll olunması üçün 1992-ci ildə ATƏT-in Minsk qrupu yaranıbdır və bu qrupa həvalə edilibdir ki, sülh danışıqları aparsın. Minsk qrupu bir neçə dəfə müvafiq təkliflər veribdir. Azərbaycan həmin təklifləri qəbul etmişdir. Buna baxmayaraq, Ermənistan tərəfi öz üstünlüyündən, yəni Azərbaycan torpaqlarını işğal etməsindən sui-istifadə edərək bu təkliflərdən imtina etmişdir.

1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşündə məsələnin həlli üçün – deyə bilərəm ki, Azərbaycan üçün o qədər xeyirli olmasa da – bu vəziyyətdən çıxmaq üçün bir sənəd qəbul olundu. Biz bu sənədi qəbul etdik. Amma Ermənistan qəbul etmədi. Bu sənədin məğzi ondan ibarət idi ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunur. Deməli, bütün işğalçı ordu dəstələri Azərbaycandan çıxmalıdır. Dağlıq Qarabağa Azərbaycan dövlətinin daxilində ən yüksək dərəcəli özünüidarə statusu verilir. Bu, Ermənistan üçün çox xeyirli bir şeydir. Amma onlar bunu da qəbul etmədilər. Ondan sonra Minsk qrupunun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa – dünyanın böyük ümidlər bəslədiyimiz üç böyük dövləti təəssüf ki, indiyə qədər bu məsələnin həll edilməsinə nail olmamışlar. Hər dəfə vədlər vermişlər, amma onu yerinə yetirməmişlər.

Keçən il, yəni 1999-cu ilin əvvəlindən bu vəziyyətdən çıxmaq üçün Ermənistan və Azərbaycan prezidentləri arasında bilavasitə görüşlər başlandı. Bundan öncə onu demək istəyirəm ki, həmin Lissabon zirvə görüşündə verilən təklifləri Ermənistanın keçmiş prezidenti Ter-Petrosyan qəbul edirdi. 1997-ci ilin sonunda biz artıq saziş bağlaya bilərdik. O bu barədə bəyanatlar da verdi. Amma Ermənistanın daxilində və ətrafında olan bəzi qüvvələr ona bu imkanı vermədilər. O öz vəzifəsindən, yəni Ermənistanın prezidenti vəzifəsindən istefa verdi. Bundan sonra onun yerinə bugünkü prezident Robert Köçəryan seçildi. O, Ter-Petrosyanın o vaxtkı qərarının əleyhinə idi.

1998-ci ildə Ermənistanda yeni prezident seçildiyinə görə danışıqlar olmadı. Amma 1999-cu ildə Azərbaycan və Ermənistan prezidentləri – Əliyev və Köçəryan arasında danışıqlar başlandı. Bu danışıqlar müəyyən bir mərhələdə, deyə bilərəm ki, uğurlu oldu və hər iki prezident belə fikirdədir ki, məsələni həll etmək üçün ikitərəfli kompromislərə getmək lazımdır. Yəni Ermənistan da, Azərbaycan da gərək kompromislərə getsin. Hesab edirəm ki, indi bu, doğru yoldur. Başqa cür mümkün deyil. Ancaq təəssüflər olsun ki, 1999-cu ilin oktyabr ayında Ermənistanda sizə məlum olan böyük bir terror hadisəsi baş verdi.

Orada terroristlər parlamentə gələrək parlamentin başçısını, Baş naziri və parlamentin bir neçə üzvünü öldürdülər. Ermənistanın daxilində vəziyyət çox gərginləşdi. Bizim bu danışıqlarımız müəyyən qədər dayandı. Ancaq biz danışıqları davam etdiririk. Nyu-Yorkda da biz – Ermənistan, Azərbaycan prezidentləri görüşdük və danışdıq. Qərara gəldik ki, danışıqları davam etdirək.

Mən bu gün bəyan edirəm ki, Azərbaycan müharibənin yenidən başlanmasının tərəfdarı deyildir. Məsələnin sülh yolu ilə həll olunmasına çalışır və çalışacaqdır. Amma Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisindən çıxmalıdır. Dağlıq Qarabağa Azərbaycanın daxilində yüksək dərəcəli özünüidarə statusu verilə bilər.

Bu mənim sizə verəcəyim vacib bir məlumatdır. Çünki əgər bunu bilməsəniz, dövlət müstəqilliyi əldə edəndən sonra Azərbaycanın keçdiyi yolu yaxşı bilməzsiniz.

Onu da əlavə edim ki, – burada cənab Matske də bunu qeyd etdi – Amerika Birləşmiş Ştatlarının Konqresi də bu işdə ədalətli olmaq əvəzinə, məsələlərin həllinə səy göstərmək əvəzinə, 1992-ci ilin oktyabr ayında Azərbaycana qarşı ədalətsiz, ayrı-seçkilik xarakteri daşıyan bir qanun düzəlişi etdi. Həmin düzəlişə əsasən, guya Azərbaycan Ermənistanı blokadaya aldığına görə, Konqres Azərbaycanı Amerika Birləşmiş Ştatlarının yeni müstəqillik əldə etmiş dövlətlərə göstərdiyi yardımlardan tamamilə məhrum etmişdir.

Bu paradoksdur. Ermənistan Azərbaycanın torpaqlarını işğal edibdir. Əgər blokadadan söhbət gedirsə, Azərbaycandan keçən dəmir yolu, bax, görürsünüzmü, oradan İran sərhədi ilə keçir, gəlib buradan Ermənistana gedir. Bu xəritədə görürsünüz ki, həmin dəmir yolunun 130 kilometri Ermənistanın işğalı altındadır. Həmin yolu işğal etdiklərinə görə Azərbaycan bu dəmir yolundan istifadə edə bilmir. Azərbaycanın bir hissəsi olan Naxçıvan Muxtar Respublikası bütün kommunikasiya xətlərindən məhrum olubdur. Biz Naxçıvanla yalnız hava yolu ilə, təyyarələr vasitəsilə əlaqə saxlayırıq. İndi təsəvvür edin, kim kimi blokadaya alıbdır, Azərbaycan Ermənistanı, yoxsa Ermənistan Azərbaycanı? Amma Amerikanın Konqresində məsələ tərsinə qəbul olunubdur. Neçə illərdir ki, biz bu sahədə çalışırıq. Amerikanın hökuməti deyir ki, bu, ədalətsiz bir maddədir, bunu ləğv etmək lazımdır. Konqresin bir çox üzvləri deyirlər ki, ədalətsiz maddədir, ləğv etmək lazımdır.

1997-ci ildə mən Amerika prezidenti cənab Klintonla bəyanat imzalamışam. Orada onun da, mənim də imzam vardır ki, 907-ci maddə ləğv olunmalıdır. Bizim dostlarımız, bizimlə əməkdaşlıq edən neft şirkətləri də bu barədə çox çalışırlar. Mən buraya gələndən bir gün əvvəl, «Eksson Mobil» şirkəti hansısa qəzetdə bu barədə, yəni 907-ci maddənin götürülməsi üçün bir məqalə də vermişdi. Ancaq həmin maddəni götürmək mümkün deyildir.

Nə üçün? Hər dəfə bizə cavab verirlər ki, Konqresdə ermənipərəst üzvlər çoxdur, səsvermə zamanı səsin çoxunu onlar götürürlər. Ona görə də 907-ci maddəni götürmək olmur.

Bilirsiniz, mən bu gün sizinlə açıq danışıram. Bunu təkcə sizə demirəm, bütün Amerika cəmiyyətinə deyirəm. Amerikanı dünyada ən ədalətli dövlət hesab edirlər. Mən də belə fikirdəyəm.

Həm demokratik, həm ədalətli, həm humanist bir dövlətdir. Ancaq ədalətli, demokratik, humanist dövlətdə bu qədər ədalətsiz qanun qəbul olunursa və Amerika Birləşmiş Ştatlarının hakimiyyət orqanları, hökuməti Konqresi ayrı-ayrı deputatların, yaxud konqresmenlərin, necə deyərlər, subyektiv fikirlərinə görə bu məsələnin ədalətli həllinə nail ola bilmirsə, onda bilin ki, burada biz çox şey itirmişik. Amma Amerika Birləşmiş Ştatları da çox şey itirir. Çünki o, ədalətlilik imicini itirir. Amerika Birləşmiş Ştatlarının hökuməti bunu bilməlidir.

Biz bu gün də çalışırıq və çalışacağıq. İş onda deyil ki, məsələn, Amerika Birləşmiş Ştatları Ermənistana ildə yüz milyon dollar birbaşa yardım göstərir, Gürcüstana, Orta Asiya ölkələrinə yardım edir, bizə isə bu qanun qadağan etdiyinə görə yardım göstərmir.

Əlbəttə ki, ildə yüz milyon dollar ağır iqtisadi vəziyyətdə yaşayan Azərbaycan üçün, elə həmin o qaçqınlarımıza çox vacibdir. Ancaq biz çox çətin dövrlər yaşamışıq, bunu da yaşayarıq. Məsələ bunda deyil, məsələ bunun mənəvi tərəfindədir. Məsələ maddi tərəfində deyil, ondadır ki, biz ayrı-seçkiliyə məruz qaldıq. Bizə qarşı ayrıseçkiliyə heç bir əsas yoxdur.

Bax, belə bir şəraitdə Azərbaycan müstəqil bir dövlət kimi yaşamağa başlamışdır. Belə bir vəziyyətdə, dediyim kimi, Azərbaycanın daxilində müxtəlif silahlı qüvvələr çalışmışdılar ki, hakimiyyəti ələ keçirsinlər, dövlət çevrilişlərinə silahlı cəhd etmişdilər.

1993-cü ildə Azərbaycanda artıq vətəndaş müharibəsi başlanmışdı və ölkə dağılmaq təhlükəsi qarşısında idi. Bilirsiniz ki, mən o vaxt Bakıda yaşamırdım. Xalq məni Azərbaycana dəvət etdi. Azərbaycana rəhbərlik etmək vəzifəsini öz üzərimə götürməyi xalq məndən xahiş etdi. Mən də bununla razı oldum, o vaxtdan da Azərbaycan Respublikasının prezidentiyəm.

Ancaq ondan sonra da biz çətin dövrlər yaşadıq. Mənim yenidən hakimiyyətdə olduğum zaman ayrı-ayrı silahlı qüvvələr iki dəfə dövləti çevirmək istədilər. Ancaq biz bunun qarşısını xalqın gücü ilə aldıq. Silah gücü ilə yox, xalqın gücü ilə aldıq. Azərbaycanda daxili vəziyyəti sabitləşdirməyə başladıq. 1994-cü il, 1995-ci il, demək olar ki, dönüş illəri oldu. Ondan sonrakı illər Azərbaycanda ictimai-siyasi sabitlik tamamilə təmin olundu.

Məhz belə şəraitdə, 1994-cü ilin sentyabr ayında, deməli, altı il bundan öncə ilk dəfə dünyanın böyük neft şirkətləri ilə, xüsusən Amerika Birləşmiş Ştatlarının şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektoruna aid hissəsində ölkəmizin zəngin neft yataqlarının müştərək işlənilməsi üçün müqavilə imzaladıq. O müqavilənin imzalanmasından altı il keçir. Bu o qədər də böyük vaxt deyildir. Ancaq o müqavilə həm bizim ölkəmiz üçün, həm də onu imzalamış 11 böyük neft şirkəti üçün, o cümlədən Amerika Birləşmiş Ştatlarının şirkətləri üçün böyük hadisə oldu. O müqavilə, ümumiyyətlə Xəzər dənizinin enerji ehtiyatlarını – neft və qaz resurslarını dünya ölkələrinin istifadə etməsi üçün yol açdı.

Azərbaycan geoloqları Xəzər dənizini çox yaxşı bilirlər. Azərbaycanda biz hələ 50 il bundan öncə, Sovetlər İttifaqı dövründə dənizdə neft hasil edirdik. O vaxt nə Şimal dənizində, nə Meksika körfəzində, nə də başqa yerdə dənizdən neft çıxarılmırdı.

Azərbaycan 1848-ci ildə dünyada ilk dəfə dənizdə neft fontanı alıbdır, yəni sənaye üsulu ilə neft çıxarmağa başlayıbdır. 1949-cu ildə isə ölkəmiz dünyada ilk dəfə olaraq dənizin dərinliklərindən neft hasil etməyə başlayıbdır. Bizim alimlərimiz, geoloqlarımız, mütəxəssislərimiz, neftçilərimiz görün nə qədər böyük potensiala malikdir. Ona görə də biz Xəzər dənizini çox yaxşı öyrənmişdik.

Sovetlər İttifaqının tərkibində olarkən sovet hökuməti başqa yerlərdə, məsələn, Sibirdə və sair yerlərdə neft daha ucuz başa gəldiyinə görə neft çıxarırdı, bizim açdığımız bu yataqlar elə belə də qalırdı. Amma bizim də imkanımız yox idi ki, bu yataqlardan istədiyimiz kimi istifadə edək. Məhz Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi, xalqımızın azad olması və öz taleyinin sahibi olması, öz məsələlərini müstəqil həll etmək imkanı qazanması respublikamıza bu addımı atmağa imkan verdi. Biz bu addımı atdıq.

İndi məlumdur ki, həmin o birinci müqavilə üzrə on milyon tondan çox neft hasil edilmişdir. Həmin neft əvvəlcə Bakı–Novorossiysk xətti ilə ixrac olunurdu. Ancaq o vaxt biz düşündük ki, alternativ boru xətti də lazımdır. Bakı–Supsa neft kəmərini çəkdik. İndi hasil olunan neft bu iki kəmərlə xaricə çıxarılır. Ümumiyyətlə, indiyə qədər biz 19 müqavilə imzalamışıq. Sabah birini də imzalayacağıq. Bu, iyirminci müqavilə olacaqdır.

1997-ci ildə mən burada rəsmi səfərdə olduğum zaman Ağ evdə ABŞ administrasiyasının iştirakı ilə biz dörd müqavilə imzaladıq. Onun da biri bizim «Şevron» şirkəti ilə Ağ evdə imzaladığımız müqavilədir. 1997-ci ildən artıq üç il keçibdir, dostum Matske mənə deyir ki, yaxın zamanlarda «Abşeron» neft yatağından çox böyük miqdarda neft və qaz alacağıq. Mən buna inanıram. Çünki inanmasaydım o neft yatağını təklif etməzdim. Əgər cənab Matske və onun mütəxəssisləri buna inanmasaydılar, onlar «Abşeron» neft yatağı uğrunda o qədər mübarizə aparmazdılar. Amma onlar çox çalışdılar. Mən gözləyirəm və tamamilə inanıram ki, biz buna nail olacağıq. Amma bu bir müqavilədir.

Digəri mənim dediyim «Əsrin müqaviləsi»dir. Neft şirkətləri oradan artıq gəlir götürürlər. 1 milyard 200 milyon dollar gəlir götürülübdür. O cümlədən Amerika şirkətləri 350 milyon dollar gəlir götürüblər. Bilirsinizmi, investisiya qoyulub, ancaq gəlir də götürülübdür. Əgər Amerika şirkətlərini götürsək, onlar cəmisi 1 milyard 200 milyon dollar investisiya qoyublar. İnvestisiyaların ümumi həcmi 3 milyard 200 milyon dollardır. Ondan 1 milyard 200 milyon dollarını Amerika şirkətləri qoyubdur. Ancaq 350 milyon dollar gəlir götürürlər. İndi neft hasilatı artacaqdır. Qoyduqları bütün sərmayəni 2–3 il ərzində çıxaracaq və neftdən gəlir əldə edəcəklər. Yəni dediyim bu misal göstərir ki, o biri müqavilələrdə biz nə qədər uğurlar əldə edəcəyik.

Ümumiyyətlə, indiyə qədər imzalanmış 19 müqavilə üzrə Azərbaycana təxminən 60 milyard dollar sərmayə gəlməlidir.

Təbiidir ki, neft hasilatı artdıqca onun dünya bazarlarına çıxarılması üçün yeni, böyük neft boru kəmərinin tikilməsi də lazımdır. Bunun üçün biz hələ bir neçə il bundan öncə Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin tikilməsi haqqında qərar qəbul etdik. Doğrudur, bu çox böyük müqavimətlərə rast gəldi. Bir tərəfdən, Azərbaycanın Xəzər dənizində bu qədər böyük iş görməsi və Amerika şirkətlərinin, Qərb ölkələri şirkətlərinin Xəzər dənizinə gətirilməsi qonşularımız tərəfindən bizə qarşı narazılıq yaradır. Bunu siz bilməlisiniz. İkincisi, bizim bu layihələrə çox şübhələrlə baxırlar. Bəzən Amerikanın qəzetlərində də yazırlar ki, Xəzər dənizində o qədər neft yoxdur.

Yalan şeylər yazırlar, biri də budur. Ona görə də həmin neft kəmərinin tikilməsi bir də bununla bağlıdır. İkincisi də ondan ibarətdir ki, Azərbaycanda fəaliyyət göstərən neft şirkətləri bu işdə bir balaca mühafizəkar mövqe tutublar. Yəni, hələ tələsməyək, bir az da gözləyək, neft daha da çox çıxsın. Amma biz bunlara baxmadıq, işimizi davam etdirdik. Keçən ilin noyabr ayında İstanbulda ATƏT-in zirvə görüşündə dörd prezident – Türkiyə, Azərbaycan, Gürcüstan və Qazaxıstan prezidentləri Bakı–Ceyhan neft kəmərinin tikilməsi haqqında son müqaviləni imzaladılar. Bizim parlamentlərimiz bunu təsdiq edibdir. İndi biz əməli işə başlamışıq.

Doğrudur, yenə də ABƏŞ-də – biz ona Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti deyirik, bu bir yerə cəmləşmiş şirkətlərin adıdır – bu işə bəzi maneçilik törətmək istəyirlər. Ona görə də mən bu gün müraciət edirəm, o cümlədən «Ekson» şirkətinə müraciət edirəm. Çünki onlar da elə bu məsələyə bir az badalaq vurmaq istəyirlər. Müraciət edirəm ki, onlar düşünsünlər. Düşünsünlər ki görülən bu iş lazımlı işdir və bunu etmək vacibdir və bunu biz edəcəyik.

Əvvəllər bunun qiyməti haqqında düzgün məlumatlar verilməmişdir. Deyilmişdi ki, guya bu boru xəttinə 3 milyard 200 milyon dollar lazımdır. Bu qiyməti də konsorsium vermişdi. Ancaq hesablayandan sonra bu rəqəm 2 milyard 200 milyon dollara gəlib düşdü. Türkiyə öhdəlik götürüb ki, əgər bu boru xətti tikiləndə 2 milyard 200 milyon dollardan artıq olan vəsaiti Türkiyə verəcəkdir. Yəni biz hər bir şeyi həll etmişik.

Beləliklə, görürsünüz ki, Azərbaycan qısa bir zamanda – 6 il müddətində Xəzər dənizinin enerji resurslarından istifadə olunması üçün böyük işlər görübdür. Bu işlər təkcə bizim üçün deyil, həm də Amerika, Avropa şirkətləri üçündür. İndi artıq bir neçə yapon şirkəti Azərbaycana gəlibdir.

Tarixi hadisədir ki, Xəzər dənizində olan bu zəngin neft-qaz yataqlarının bəşəriyyət üçün, dünya üçün açılmasının müəllifi Azərbaycandır. Biz bunu etmişik. Çünki indi Xəzər dənizinin Qazaxıstan sektorunda da işlər görülübdür. Məlumat veriblər ki, böyük bir yataq açıblar. Xəzərin Türkmənistan sektorunda da ayrı-ayrı işlər görülməyə başlayır. Məsələn, mənə məlumat veriblər ki, Xəzərin Rusiya sektorunda «LUKoyl» şirkəti bir quyu qazıb və oradan yaxşı nəticələr əldə edibdir. Bunlar təbiidir. Biz bilirik ki, Xəzər dənizinin hər yerində – bəzisində çox, bəzisində az – belə neft və qaz yataqları vardır. Biz bununla fəxr edirik. Biz bu işin çox gözəl gələcəyini görürük. İmzalanmış müqavilələr 30 il müddətinədir. Ancaq biz onları vaxtından əvvəl yerinə yetiririk.

Amerika–Azərbaycan palatasının işi haqqında. Güman edirəm ki, bu gün bizim baxdığımız sərgi yaxşı məlumatlar verir. Sonra Amerika–Azərbaycan palatasının rəhbərləri, bizim nazirlərimiz burada çıxış edəcəklər, konkret misallar gətirəcəklər. Amma onu demək istəyirəm ki, bu illərdə Amerika–Azərbaycan iqtisadi əlaqələri çox inkişaf edibdir. Birincisi neft sektorunda, ikincisi də qeyri-neft sektorunda. Əgər ötən dövrdə Amerika Birləşmiş Ştatlarının şirkətləri Azərbaycana 1 milyard 600 milyon dollar sərmayə qoyublarsa, gərək ki, onun 1 milyard 400 milyon dolları neft sektoruna, 200 milyon dolları isə qeyri-neft sektorunadır.

İndi Azərbaycanda ABŞ-ın müxtəlif xarakterli 200-ə qədər şirkəti fəaliyyət göstərir. Onların bəziləri Amerika–Azərbaycan birgə şirkətləri, müəssisələridir. Bəziləri böyük işlər, bəziləri isə kiçik işlər görürlər. Məsələn, mən sərgidə baxdım ki, burada bir şirkət tərcümə işləri görür, yaxud başqa işlər görür. Mən bunların çoxunu heç tanımıram. Amma görürəm ki, əgər buradan şirkət gəlib Azərbaycanda tərcümə işləri ilə məşğul olursa – amma deyim ki, bizdə də tərcümə etmək istəyən adamlar çoxdur, amma rəqabətdir. Onlar gəlib bazarı tutublar, bizimkilər üçün çətin olacaqdır – bu onu göstərir ki, Azərbaycanda investisiya şəraiti indi çox yaxşıdır. Orada mənə verilən məlumatlar, Azərbaycanın investisiya imkanları barədə xüsusi bir kitab çıxıbdır. Bunları deməklə mən istədim ki, Amerika Birləşmiş Ştatları ilə bizim əlaqələrimizin əsas hissəsinə toxunum.

Ancaq bizim bugünkü konfransın mövzusu Avropa, Asiya və Azərbaycanın burada coğrafi-strateji vəziyyətidir. Bunlar haqqında onu deyə bilərəm ki, çətinliklərə baxmayaraq, artıq doqquz ildir ki, ölkəmiz müstəqil yaşayaraq inkişaf edir. Bu, iki mərhələdədir. Məsələn, 1995-ci ilə qədər Azərbaycanın iqtisadiyyatı ildən-ilə tənəzzül edirdi. Sənaye və kənd təsərrüfatı istehsalı, ümumi daxili məhsul ildə təxminən 10, 15, 20 faiz aşağı düşürdü. 1995-ci ildə biz vəziyyəti sabitləşdirdik. 1996-cı ildən inkişaf başlayıbdır. İndi bizdə ümumi daxili məhsul, məsələn, bu il təxminən 9 faiz artıbdır, sənaye istehsalı 4,5 faiz artıbdır. Kənd təsərrüfatı istehsalı təxminən 8 faiz artıbdır və başqa sahələr. Səbəbi nədir? Səbəbi ondan ibarətdir ki, Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra və xüsusən biz ölkəmizin daxilində ictimai-siyasi sabitlik yaradandan sonra respublikamız iqtisadi islahatların həyata keçirilməsi ilə ciddi məşğul olur. Amma iqtisadi islahatları həyata keçirmək üçün gərək Azərbaycanda dövlət quruluşu prosesini təmin edəydik. Gərək qanunlar qəbul edəydik. Azərbaycan tutduğu yolla gedir. Bu da ondan ibarətdir ki, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi gedir. 1995-ci ildə qəbul etdiyimiz Konstitusiyada bunların hamısı öz əksini tapıbdır. Ötən beş ildə biz bu yolla gedirik və bundan sonra da gedəcəyik.

Olduqca çoxlu qanunlar qəbul edilibdir. Birincisi, qanunvericilik, icra və məhkəmə orqanları arasında hakimiyyət bölgüsü təmin olunubdur. Son illərə qədər biz keçmiş Sovetlər İttifaqının ayrı-ayrı qanun məcəllələri ilə işləyirdik. Ancaq biz bu il, keçən il bir çox məcəllələr, qanunlar qəbul etdik. Bunlar həm dövlət quruculuğu prosesini, həm məhkəmə hakimiyyətini təmin edir, həm də ki, iqtisadi islahatların həyata keçirilməsini təmin edir.

Noyabr ayında bizdə yeni parlament seçkiləri keçiriləcəkdir. Ona ciddi hazırlıq gedir və demək istəyirəm ki, bəzən burada qeyri-obyektiv məlumatlar verilir. Ona görə də mən bildirmək istəyirəm ki, seçkiqabağı proses çox normaldır, demokratik şəraitdədir. İndi artıq 15 siyasi partiya seçkidə iştirak etmək üçün qeydiyyatdan keçibdir. Onlar imza toplayırlar ki, seçkilərdə iştirak etmək hüququ alsınlar. Birmandatlı seçki dairələri üzrə 800 namizəd irəli sürülübdür. Deməli, bir yerə 8 namizəd verilibdir. İndi görün, seçkilərin azad, sərbəst, demokratik keçməsi üçün nə qədər əsas yaranıbdır.

Azərbaycanda tam mətbuat azadlığı yaranıbdır. İnsan hüquqları qorunur. Bunların hamısı var. Təəssüflər olsun ki, burada ayrı-ayrı qəzetlər qeyri-obyektiv məlumatlar verirlər. Bunlar bizi incidir, narahat edir. Bilirsiniz, heç kəsin qarşısında cavabdeh deyilik. Biz müstəqil dövlətik. Heç kəs bizi məcbur etmir ki, demokratiya yolu ilə gedək. Demokratiya, bazar iqtisadiyyatı yolu ilə gedək. Heç kəs də buna bizi məcbur edə bilməz. Bu bizim özümüzün tutduğumuz yoldur. Biz bu yolla gedirik. Amma bu yolla gedən hər bir ölkənin özünəməxsus xüsusiyyəti var. Amerika Birləşmiş Ştatlarının, yaxud da Avropanın ayrı-ayrı inkişaf etmiş ölkələrinin mənzərəsinin surətini çıxarıb gətirib hər bir ölkəyə tətbiq etmək olmaz. Bu yolda bizim çətinliklərimiz, anlaşılmazlıqlarımız var. Amma biz bu yolla gedirik və gedəcəyik.

Məsələn, son altı-yeddi ay ərzində biz Azərbaycanın məhkəmə sistemini tamamilə müasir səviyyəyə qaldırdıq və demokratik prinsiplər əsasında yaratdıq. Bütün hakimlər test üsulu ilə imtahandan, yarışdan keçdilər və kim qalib gəldi, o da hakim təyin olundu. Bu, Azərbaycanın tarixində birinci dəfədir. Onu da deyim ki, məsələn, test üsulu ilə imtahan zamanı uzun illər – 20 il, 30 il hakim işləmiş bəzi insanlar testdən keçə

bilmədilər, kənarda qaldılar. Yəni biz bunun çox müsbət tərəfini görürük və əvvəl də görürdük. Amma indi nəticəsinə görə bunu daha çox görürük.

İqtisadiyyatda müxtəlif islahatlar həyata keçirilir. Bilirsiniz ki, Azərbaycanda torpaq islahatı həyata keçirilibdir. Bütün torpaqlar kəndlilərə verilibdir. Özəlləşdirmə proqramı həyata keçirilir, biz onun da nəticələrini görürük. İqtisadiyyat sərbəstləşibdir. İndi Azərbaycanda kənd təsərrüfatı istehsalının 98 faizi özəl sektorun payına düşür. Bilin ki, MDB dövlətləri arasında biz bu sahədə ön sıralarda gedirik. Yaxud da ki, ticarətin 99 faizi özəl sektordadır. Sənaye istehsalının təxminən 40 faizi özəl sektordadır. Eləcə də yükdaşımalarda və başqa sahələrdə.

Biz özəlləşdirmənin birinci mərhələsini keçmişik. İndi ikinci mərhələni keçmək üçün qanun qəbul etmişik. Mən öz fərmanımla proqram təsdiq etmişəm və bunu biz həyata keçiririk. Yəni burada da biz öz iqtisadiyyatımızı sərbəst iqtisadiyyata malik ölkələrin iqtisadiyyatı ilə uyğunlaşdırır, inteqrasiya edirik, xarici investisiyanın Azərbaycana gəlməsini təmin edirik.

Son beş ildə Azərbaycana 5 milyard dollardan artıq xarici investisiya gəlibdir. MDB dövlətləri içərisində adambaşına düşən investisiyanın məbləğinə görə Azərbaycan birinci yerdədir. Bu nəyə görədir? Birincisi ona görədir ki, Azərbaycanda investisiya qoymaq üçün şərait yaratmışıq. Sabitlik, qanunlar, qaydalar – əgər bunlar olmasaydı, ölkəmizə investisiya gəlməzdi. İkincisi də, biz iqtisadiyyatı liberallaşdırmışıq, insanlara sərbəstlik vermişik. Biz sahibkarlığın inkişafına kömək edirik. Bunların hamısının nəticəsində Azərbaycana həm xaricdən investisiya gəlir, həm də daxili istehsal daha da çox inkişaf edir.

Ancaq bu bizim, Azərbaycanın daxili işləridir. Eyni zamanda bilirsiniz ki, öz coğrafi vəziyyətinə görə Azərbaycan çox vacib rol oynayır. Mən artıq dedim ki, dünya üçün, o cümlədən Amerika Birləşmiş Ştatları üçün Azərbaycanın xidməti – indi kim bunu necə qiymətləndirəcəksə, özü bilər – ondan ibarətdir ki, Azərbaycan Xəzər dənizinin və hövzəsinin imkanlarını açdı, dünyaya göstərdi. İndi oradan istifadə etmək lazımdır. Xəzər dənizinin zəngin neft-qaz yataqlarının Xəzəryanı ölkələr üçün istifadə edilməsi lazım deyil, çünki bizim tələbatımız o qədər deyildir. Deməli, bu, dünya üçün lazımdır. Biz bunu etmişik. İkincisi isə, ondan ibarətdir ki, Azərbaycan Böyük İpək yolunun bərpasında çox mühüm mövqedədir, həm strateji mövqedədir, həm də ki, fəal iştirak edir.

Bilirsiniz ki, Böyük İpək yolu tarixdə böyük izlər qoymuşdur. Bu, təkcə iqtisadiyyatın inkişafı üçün, dövlətlər arasında mal dövriyyəsinin təmin olunması üçün yox, eyni zamanda sivilizasiyaların bir-birinə yaxınlaşması, yəni Şərq sivilizasiyası ilə Qərb sivilizasiyasının bir-birinə yaxınlaşması üçündür.

Bu yol öz tarixi rolunu oynayıbdır. Sonra, təbiidir ki, tarixə çevrilibdir. İndi bu yolun bərpa olunmasına hər yerdə maraq göstərirlər. Yaponiyada da, Orta Asiyada da, Qafqazda da, Avropada da maraq göstərirlər. Bunun üçün Avropa Birliyi TRASEKA proqramı yaradıbdır. Təbiidir ki, TRASEKA proqramı İpək yolunun bir hissəsini, yəni Qafqaz–Orta Asiya, bir də ki, Balkan ölkələrini – Rumıniyanı, Bolqarıstanı əhatə edir. Amma İpək yolunun bütöv bərpası məsələsi çox böyük bir proqramdır. Biz burada da təşəbbüskarlıq etmişik. 1998-ci ilin sentyabr ayında bizim təşəbbüsümüzlə və Gürcüstanın təşəbbüsü ilə Azərbaycanda, Bakıda beynəlxalq konfrans keçirildi. Belə bir beynəlxalq konfransı ilk dəfə biz təşkil etdik. Bu beynəlxalq konfransa 32 ölkədən yüksək səviyyəli nümayəndələr gəldi. O cümlədən Yaponiyadan da, Amerika Birləşmiş Ştatlarından da. Baxmayaraq ki, Amerika Birləşmiş Ştatları İpək yolunun üzərində deyil, amma marağı böyükdür. Nümayəndə heyətlərinin doqquzuna prezidentlər rəhbərlik edirdilər. Orada 14 beynəlxalq təşkilat iştirak edirdi. Biz məsələni müzakirə etdik, hamımız eyni fikirdəyik. Biz sənəd qəbul etdik. TRASEKA proqramı çərçivəsində olan on iki dövlət bu sənədi imzaladı. Təbiidir ki, bu, Şərqdən–Qərbə gedən yolları çox qısaldır, təxminən iki min kilometr qısaldır. Ancaq məsələ təkcə məsafənin qısalmasında deyil, bir də ondan ibarətdir ki, bu, alternativ yoldur. Əgər əvvəllər Şərqdən yalnız okeanlar, dənizlər vasitəsilə Qərbə gedirdilərsə, yaxud da ki, Rusiya ərazisindən Qərbə gedirdilərsə, indi okeanlardan da, Rusiya ərazisindən də istifadə oluna bilər, ancaq bu keçmiş İpək yolu marşrutu da istifadə oluna bilər. Bu sahədə biz öz rolumuzu oynamışıq, oynayırıq və bundan sonra da oynayacağıq.

Sizə Qafqaz, xüsusən Cənubi Qafqaz haqqında bir neçə kəlmə demək istəyirəm. Cənubi Qafqaz, xüsusilə Azərbaycan Şərqlə Qərb arasında bir qapıdır. Eyni zamanda Cənubi Qafqaz çox mürəkkəb bir regiondur. Burada indi üç müstəqil dövlət vardır – Gürcüstan, Azərbaycan, Ermənistan. Təəssüflər olsun ki, hamısında münaqişə vardır. Ən ağır münaqişə Ermənistan–Azərbaycan münaqişəsidir. Çünki bu, iki dövlət arasında olan münaqişədir. Gürcüstanda Abxaziya münaqişəsi, Osetiya münaqişəsi vardır. Bu münaqişələr aradan götürülərsə, Cənubi Qafqaz həm öz strateji imkanlarına görə, həm də ki, təbii sərvətlərinə görə çox sürətlə inkişaf edə bilər.

Birincisi, Cənubi Qafqaz ölkələri arasında iqtisadi əlaqələr inkişaf edə bilər. İkincisi də, İpək yolundan istifadə olunması, başqa ölkələrlə iqtisadi əlaqələrin inkişaf etdirilməsi çox vacib olardı. Ancaq bunun kökü Ermənistan–Azərbaycan münaqişəsindədir. Əgər Ermənistan–Azərbaycan münaqişəsinə son qoyulsa, hesab edirəm ki, gürcü–abxaz münaqişəsi də həll oluna bilər. Ondan sonra Şimali Qafqazdakı Çeçenistan münaqişəsi də həll oluna bilər.

Sizin nəzərinizə onu çatdırmaq istəyirəm ki, keçmiş Sovetlər İttifaqı ərazisində, sovet məkanında birinci münaqişə 1988-ci ildə başlayan Dağlıq Qarabağ münaqişəsi olubdur. O münaqişə, necə deyərlər, zəncirvarı reaksiya veribdir. Ondan sonra Gürcüstanda Abxaziya, Osetiya münaqişəsi başlayıbdır. Nəhayət, Çeçenistan münaqişəsi başlayıbdır. Çeçenistan münaqişəsi də, təbiidir ki, Şimali Qafqazda çox mürəkkəb bir vəziyyət yaradıbdır.

Burada bir tərəfdən münaqişələr həll olunmalıdır, ikinci tərəfdən bütün Qafqaz, o cümlədən Cənubi Qafqaz da gərək bu terrorizmdən, ekstremizmdən, aqressiv separatizmdən xilas olsun.

Cənab Sestanoviç, buyurun. Təəssüf edirəm ki, siz mənim çıxışımın axırında gəlmisiniz. Amma eybi yoxdur, sonra sizə danışarlar. Çünki bu hadisələr, yəni bu amillər – beynəlxalq terrorizm, ekstremizm və aqressiv separatizm indi dünya üçün ən təhlükəli hallardan biridir. Bu, Cənubi Qafqazda da özünü göstərir, Şimali Qafqazda, Çeçenistanda da özünü göstərir. İndi artıq Orta Asiya ölkələrinin – Özbəkistan, Qırğızıstan, Tacikistan, – onların cənub hissəsində özünü göstərir və çox böyük təhlükədir.

Azərbaycan islam fundamentalizminin əleyhinədir. Amma ondan da təhlükəli islam fundamentalizminin bir cinahı vəhhabilikdir. Vəhhabizm həm Əfqanıstanda olan talibanlar tərəfindən idarə olunur, məşhur terrorist Ben Laden tərəfindən idarə olunur, həm də ayrı-ayrı ölkələr tərəfindən maliyyələşdirilir. Rusiya kimi böyük bir dövlət neçə ildir ki, Çeçenistanda terroristlərin qarşısını ala bilmir. Çünki həmin o vəhhabizm hərəkatı müxtəlif kanallarla orada insanlarda dini fanatizm yaradıbdır. Bu fanatizm də insanları elə vəziyyətə gətiribdir ki, o özünü öldürür, amma ideyasını həyata keçirmək istəyir. İndi vəhhabizm bizim qonşumuz olan Dağıstana da müəyyən qədər siraət edir. Bu bizi çox narahat edir, ora Rusiyanın ən cənub hissəsidir. Bizi narahat edir ki, ola bilər, o, Azərbaycanın da bəzi regionlarına keçsin. Biz bununla mübarizə aparırıq. Biz bilirik ki, Amerika Birləşmiş Ştatları beynəlxalq terrorizmə qarşı həmişə çox ciddi mübarizə aparıbdır və aparır. Ancaq hesab edirəm ki, Amerika Birləşmiş Ştatlarının hökuməti gərək bizim bölgədə olan vəziyyətə də daha çox diqqət yetirsin.

Ümumiyyətlə, bir halda ki, dünyanın böyük neft şirkətlərinin və başqa şirkətlərinin iştirakı ilə Xəzər dənizi hövzəsinin ehtiyatlarının istifadə olunması prosesi güclənməyə başlanıb, biz üç neft kəməri tikmişik, görün Xəzərin Azərbaycan sektorunda nə qədər yataqlar vardır. Amma bunların da bəziləri təhlükə altındadır.

Bilirsiniz ki, biz 1994-cü ildə Xəzər dənizinin ehtiyatlarını istifadə etməyə başlayanda əleyhimizə güclü təbliğat getdi. O da ondan ibarət idi ki, Xəzər dənizinin hüquqi statusu müəyyən olunmayana qədər Xəzər dənizində heç bir iş görmək olmaz. Biz bunun əleyhinə olduq və buna cavab verdik. Nə cür cavab verdik?

Hələ 1970-ci ildə, sovet hökuməti zamanı Xəzər dənizi sektorlara bölünmüşdü. Bilirsiniz ki, Xəzər dənizinin İran hissəsi vaxtilə bu xətt üzrə bölünübdür. İranın bu xətdən yuxarıya çıxmağa ixtiyarı yoxdur. Çünki bu xətt hələ 1921-ci ildə, sonra 1940-cı ildə İran ilə SSRİ arasında imzalanmış sənədə görə SSRİ-nin və İranın sərhədi hesab olunurdu. Bu sərhəd həmişə SSRİ Sərhəd Qoşunları tərəfindən mühafizə edilibdir. Bu xətdən yuxarı hissə Sovetlər İttifaqına, keçmişdə isə Rusiya imperiyasına məxsus olubdur. Ancaq biz, Azərbaycan – mən sizə dedim – 1949-cu ildən Xəzər dənizində neft yataqlarını istismar etməyə başlayanda, təbiidir ki, sovet hökuməti belə qərar qəbul etdi ki, Xəzər dənizi sektorlara bölünsün. Bax, bu, Azərbaycan sektorudur, o biri Türkmənistan sektorudur. O hissə Qazaxıstan sektorudur, bu isə Rusiya sektorudur.

Biz bu prinsipləri əsas götürmüşük. Başqa prinsip yoxdur və bu prinsiplər əsasında da biz işimizi görürük. Amma vaxtilə Rusiya, Türkmənistan, İran bu prinsiplərin əleyhinə çıxdılar. Biz isə öz işimizi görürdük. Bilirdik ki, başqa prinsipə gəlmək mümkün deyildir. Gördülər ki, biz işimizi görmüşük, Qazaxıstan da, Rusiya da, Türkmənistan da öz sektorunda iş görməyə başladı. Hətta Rusiya ilə Qazaxıstan arasında orta xətt haqqında saziş imzalanıbdır. Bu orta xətt müəyyən olunubdu. Orta xətt çox əhəmiyyətlidir, Xəzərin o tərəfi ilə bu tərəfində olan Xəzəryanı dövlətlərə mənsub olan sektorların sərhədidir. Ancaq indi bəziləri deyirlər ki, gərək Xəzər dənizi beş bərabər yerə bölünsün və beş Xəzəryanı dövlətin hər birinin eyni bərabərdə sektoru olsun. Bu nə cür eyni ola bilər?

Təsəvvür edin, İran üçün bir sektor yaratmaqdan ötrü gərək elə bölünsün ki, onun 20 faiz payı olsun. Onda Azərbaycan üçün nə qalacaq? Onda gərək Azərbaycan ya Qazaxıstandan, ya da Türkmənistandan götürsün. Bu, real bir şey deyildir. Ancaq, hər halda, məsələni belə qoyurlar.

Son vaxtlara qədər Rusiya o qədər dəqiq mövqedə deyildi. Amma son 5–6 ayda Rusiyanın yeni prezidenti cənab Putin Xəzər dənizi üzrə öz xüsusi nümayəndəsini təyin etdi. Keçmiş Energetika naziri Viktor Kalyujnı Xəzər dənizi üzrə Rusiya prezidentinin nümayəndəsi təyin olundu. O, Xəzəryanı ölkələrin hamısında oldu. Azərbaycana da gəldi. Rusiya Xəzərin bu sektorlara bölünməsinə indi razıdır. Amma iki il bundan qabaq razı deyildi. Lakin onlar İranla dil tapa bilməyiblər. Mən də onlara demişəm ki, siz gedin İranla dil tapın. Çünki indi İran ilə Rusiya çox sıx əməkdaşlıq edir, dostluq edir. Gərək dost dosta kömək etsin.

Bir sözlə, Xəzər dənizində indi bizim apardığımız işlər təkcə ondan ibarət deyil ki, biz oradan çoxlu neft, qaz götürəcəyik. Bir də təkrar edirəm, bu ondan ibarətdir ki, biz Xəzər dənizini dünyaya açdıq. Bizim yaratdığımız bu nümunə Xəzər dənizinin sərvətlərindən Xəzəryanı dövlətlər tərəfindən ədalətli istifadə olunması üçün böyük imkanlar açır.

Bunlar hamısı birlikdə – İpək yolunun istifadə olunması, Xəzəryanı ölkələrin dünyanın başqa şirkətləri ilə birlikdə Xəzərin ehtiyatlarını istifadə etməsi Avropa ilə Asiya arasında həm iqtisadi, həm elmi, həm də mədəni əlaqələrin inkişaf etməsi üçün yeni bir mərhələ açıbdır. Biz Azərbaycan olaraq qürur hissi keçiririk ki, bu işin yaranmasında təşəbbüslər göstərmişik, cəsarətli hərəkətlər etmişik və başqa dövlətlərin də bu yolla getməsi üçün nümunə göstərmişik və bundan sonra da göstərəcəyik.

Mən sizinlə bu görüşümdən çox məmnun olduğumu bir daha bildirmək istəyirəm və Amerika Birləşmiş Ştatları–Azərbaycan Ticarət Palatasını artıq böyümüş, ayaq üstə möhkəm dayanan bir təşkilat kimi görürəm. Hesab edirəm ki, bu palatanın gələcəkdə uğurla işləməsi üçün Amerikanın bütün şirkətləri ona qatılmalıdır. Ancaq ona ən çox Azərbaycanda fəaliyyət göstərən böyük neft şirkətləri qatılmalıdır.

Cənab Matskenin indiki vaxtda palatanın həmsədri olması mənə çox böyük ümidlər verir. Çünki cənab Matske ilə, «Şevron» ilə bizim münasibətlərimiz həmişə çox gözəl olubdur. O çox mütərəqqi bir insandır. «Şevron» da Azərbaycanda, Xəzər dənizində çox yerlər götürübdür.

Mən arzu edirəm ki, birincisi, biz tezliklə «Abşeron» yatağından nəticə alaq. İkinci də arzu edirəm ki, siz və başqa böyük neft şirkətləri Amerika Birləşmiş Ştatları–Azərbaycan palatasının gələcək fəaliyyətində daha fəal iştirak edəsiniz və hər cür yardımlar göstərəsiniz.

Diqqətinizə görə sizə təşəkkür edirəm. Hamınıza cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

Mənim bir suvenirim var. Bu, Bakı şəhərinin keçmiş hissəsini təsvir edən istedadlı Azərbaycan rəssamının əsəridir. Azərbaycan prezidenti kimi mən bunu Amerika Birləşmiş Ştatları–Azərbaycan Ticarət Palatasına hədiyyə verirəm. Sağ olun. *

---

* Konfransda Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev Amerikanın ölkəmizdə fəaliyyət göstərən «İtn-hap internəşnl ənd medikal internəşnl rilif», «Finka internəşnl», «Hat-tu-hat internəşnl» «İnternəşnl reskyu kommiti», «Mersi korps internəşrnl», «Haylats ənd akkomplişments», «Pilif internəşnl» «YUNİSQF Azərbaycan», «Yold houp internəşnl», «Kaspian procekt», «Sitizen demokrasi korps» humanitar təşkilatların nümayəndələrinə Azərbaycan prezidenti Heydər Əliyevin adından fəxri fərmanlar təqdim etdi.

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ AMERİKANIN «MONKRİF OYL» VƏ TÜRKİYƏNİN «TÜRK PETROLLARI» ŞİRKƏTLƏRİ ARASINDA «MİŞOVDAĞ» VƏ «KƏLAMƏDDİN» YATAQLARINDA HASİLATIN PAY BÖLGÜSÜNƏ DAİR SAZİŞİN İMZALANMA MƏRASİMİNDƏ* NİTQ

*ABŞ Konqresi binasının Kapitolinin «Mənsfild» otağı*

*12 sentyabr 2000-ci il*

Hörmətli senator xanım Hadçison!
Hörmətli senator cənab Qrem!
Hörmətli senator cənab Stivens!
Hörmətli dostlar!
Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı burada, Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda, Kapitolidə, bu tarixi binada, tarixi bir təşkilatın yerləşdiyi yerdə səmimi-qəlbdən salamlayıram. Sizə həm öz salamımı, həm də bütün müstəqil Azərbaycanın salamını çatdırıram və hamınıza ən xoş arzularımı bildirirəm.

Biz bu gün Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsi və irəliyə getməsində yeni bir əlamətdar hadisənin şahidiyik. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra, 1994-cü ildən etibarən ölkəmizin enerji ehtiyatlarının – həm Xəzər dənizinin Azərbaycan sektorunda olan neft və qaz yataqlarının, həm də quruda olan neft və qaz yataqlarının dünyanın böyük neft şirkətləri ilə, birinci növbədə Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətləri ilə müştərək işlənilməsi prosesinə başlamışıq. İlk addımlarımız çox çətin, ağır olubdur. Böyük müqavimətlərlə, böyük təzyiqlərlə rastlaşmışıq. Ancaq bunlara baxmayaraq, biz öz iradəmizdən dönməmişik və bu sahədə tutduğumuz yolun doğru olduğunu dərk edərək bu yol ilə getmişik və bu gün də gedirik.

1994-cü il sentyabr ayının 20-də biz ilk böyük müqavilə imzaladıq. Dünyanın 11 böyük neft şirkəti – onların əksəriyyətini Amerika Birləşmiş Ştatlarının şirkətləri təşkil edirdilər, –bir yerə toplaşıb konsorsium təşkil etdilər və Azərbaycan dövləti ilə, Azərbaycan Dövlət Neft Şirkəti ilə ilk müqavilə imzaladılar. Bu müqavilə dünyada böyük əks-səda doğurdu, hay-küyə səbəb oldu və heç bilmirəm, kimsə bu müqavilənin adını «Əsrin müqaviləsi» qoydu. Hər halda, bu ifadəni mən ilk dəfə Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonun bu müqavilə münasibətilə mənə yazdığı məktubda gördüm. Ondan sonra «Əsrin müqaviləsi» adı, demək olar ki, dünyada «Vətəndaşlıq» qazandı.

Çətin bir dövr idi. Biz cəmi üç il idi müstəqil dövlət idik. Ermənistan ilə Azərbaycan arasında müharibə gedirdi. Bilirsiniz ki, müharibə Ermənistanın Azərbaycana qarşı torpaq iddiası ilə əlaqədardır və təəssüflər olsun ki, müxtəlif səbəblərdən bu müharibə nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etməyə nail oldular. İşğal olunmuş ərazilərdən bir milyondan artıq azərbaycanlı zorla yerindən-yurdundan çıxarıldı. Onlar indiyə qədər çadırlarda yaşayırlar.

Mən xatırlayıram. 1994-cü il sentyabr ayının 20-də biz bu müqaviləni Bakıda «Gülüstan» sarayında təntənə ilə imzalayanda o vaxt Azərbaycanda Baş nazir olan, amma həqiqətən çox mənfi bir şəxs söyləmişdi ki, biz bunu bir-iki günə cırıb atacağıq. Müqaviləni cırıb ata bilmədilər. Ancaq həmin qüvvələr bu müqavilənin qarşısını almaq üçün, Amerika Birləşmiş Ştatları ilə bizim əlaqələrimizin yaranmasının qarşısını almaq üçün bir həftədən sonra Azərbaycanda silahlı dövlət çevrilişi cəhdi göstərdilər. Ancaq bizim xalqımız müstəqil Azərbaycan dövlətini, onun prezidentini müdafiə etdi. Silahsız bir milyon vətəndaş Prezident sarayının ətrafına toplaşdı. Ona görə silahlı adamlar bizə heç bir şey edə bilmədilər.

Sonrakı dövrlər də bizim üçün çox çətin idi. Çünki həm Azərbaycanın daxilində olan bəzi qüvvələr, həm də Azərbaycanı öz təsir dairəsində saxlamaq istəyən ölkələr Azərbaycanın Amerika Birləşmiş Ştatları ilə yaranmış və sürətlə inkişaf edən əlaqələrini istəmirdilər, bunun qarşısını almaq istəyirdilər.

---

* Mərasimi senator xanım Key Beli Hadçison giriş sözü ilə açaraq iştirakçıları səmimiyyətlə salamladı, dünyanın görkəmli dövlət xadimlərindən biri olan prezident Heydər Əliyevin burada iştirak etməsindən şərəf duyduğunu söylədi.

Mərasimdə ABŞ Ticarət nazirinin xüsusi müşaviri Yan Kalitski, Amerika prezidenti və dövlət katibinin Xəzərin enerji məsələləri üzrə xüsusi müşaviri Con Vulf, senatorlar Fil Qrem, Ted Stivens çıxış etdilər. Birləşmiş Ştatların Energetika nazirinin müavini Devid Qoldman nazir Bill Riçardsonun Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə təbrik məktubunu oxudu.

Ötən altı il müddətində biz bu yol ilə gedərək çox böyük müqavimətlərlə rastlaşdıq. Əgər bu tarixi sizə danışsam, gərək məni beş-altı saat dinləyəsiniz. Amma mən bunu etmərəm. Sadəcə, onu demək istəyirəm ki, biz bu işləri nə qədər ağır vəziyyətdə başlamışıq. İndi isə biz qalibik. Tutduğumuz yolda çox böyük nailiyyətlər əldə etmişik.

Bu gün 20-ci müqavilə imzalanır. Onlardan bir qismi Azərbaycanda imzalanıbdır. Mən 1997-ci ildə Vaşinqtonda olarkən Ağ evdə dörd müqavilə imzalandı. "Monkrif oyl" ilə müqavilə keçən il bu binada imzalandı. İndiyədək bunların sayı 19 idi. 20-cisi bu gün imzalanır. Bunların böyük gələcəyi vardır. XX1 əsrdə bizim övladlarımız, bizdən sonra gələn nəsil bunlardan çox səmərəli istifadə edəcəkdir. Ancaq indi də biz bunun müsbət nəticələrini görürük.

Bəli, «Çıraq» yatağından ilk neftin alınmasını biz qarşımıza məqsəd qoyduq və 1997-ci ildə oradan ilk neft aldıq. Çox gözəl, müasir bir platforma yaratdıq. Artıq indi orada 10 milyon tondan çox neft hasil olunub və iki boru kəməri ilə – Bakı–Novorosiysk, Bakı–Supsa boru kəmərləri ilə bu nefti birlikdə ixrac edirik.

Əsas ixrac boru kəməri isə Bakı–Tbilisi–Ceyhandır. Bunun üzərində biz bir neçə il işlədik və Amerika Birləşmiş Ştatlarının hökuməti, prezidenti və nazirləri bu sahədə çox çalışdılar. Nəhayət, biz keçən ilin noyabr ayında İstanbulda, ATƏT-in zirvə görüşü zamanı bu müqaviləni imzaladıq. Dörd respublikanın prezidenti ilə bərabər, Amerikanın prezidenti cənab Bill Klinton da imzaladı.

Bizim parlamentdə artıq bu müqaviləni ratifikasiya ediblər. İndi biz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinə başlayırıq. Bu proqramın da qarşısını almaq istəyirlər. Ancaq bizim iradəmiz möhkəmdir. Xüsusən Amerika Birləşmiş Ştatları, onun hökuməti, Konqresi bu proqrama çox böyük əhəmiyyət verir. İndi artıq bizim üçün çətinliklərin qarşısını almaq əvvəlkilərə nisbətən asandır. O vaxt tək idik. Amma indi dünyanın 14 ölkəsini təmsil edən 30 böyük neft şirkəti Azərbaycanda iş görür.

İmzalanmış müqavilələr üzrə Azərbaycana bu sahədə 60 milyard dollara qədər investisiya qoyulacaqdır. Bu işlərin təxminən 30 faizi Amerika Birləşmiş Ştatlarının şirkətlərinə aiddir. Siz bəzi şirkətlərinizi əlinizdə saxlaya bilmədiniz. Çünki «Əsrin müqaviləsi»nin əsasını qoyanlardan biri olan «AMOKO» şirkəti «Bi Pi» ilə birləşdi. «Arko»da «Bi Pi» ilə birləşdi. Amma bu, sizin işinizdir. Biz buna qarışmırıq. Əsas odur ki, biz bu şirkətlərlə əməkdaşlıq edirik. Amma hansı şirkət daha çox başqa şirkəti əlinə alırsa, təbiidir ki, o, hər şeyə nəzarət edir. Dünən öyrəndim ki, «Şevron» şirkəti hələ ki, öz müstəqilliyini qoruyubdur.

Müstəqillik bizim üçün çox müqəddəs anlayışdır. Biz dövlət müstəqilliyini göz bəbəyimiz kimi qoruyuruq və qoruyacağıq. Əgər Azərbaycan öz dövlət müstəqilliyini əldə etməsəydi, indi biz bu cür böyük işlər görə bilməzdik. Mən də Vaşinqtonda, Kapitolidə sizinlə bərabər otura bilməzdim. Azərbaycanın dövlət müstəqilliyi, Azərbaycan–Amerika dostluq, əməkdaşlıq əlaqələri bütün bu müqavilələrin həyata keçirilməsinin əsas təminatıdır.

Son beş ildə Amerika Birləşmiş Ştatlarının şirkətləri Azərbaycana 1 milyard 600 milyon dollar investisiya qoyublar. Bunun 1 milyard 400 milyon dolları neft sektoruna aiddir. Ümumiyyətlə, beş ildə Azərbaycana 5,2 milyard dollar xarici investisiya gəlibdir. Yəni inkişafımız üçün çox gözəl əsas yaratmışıq. Bu işlərimizdə biz Amerika Birləşmiş Ştatlarına arxalanırıq, güvənirik. Hesab edirik ki, Amerika Birləşmiş Ştatlarının dövləti, hökuməti bizi heç vaxt çətinlikdə qoymayacaqlar.

Keçən il biz burada «Monkrif oyl» şirkəti ilə bir müqavilə imzaladıq. Bu şirkəti mənə təqdim edəndə bir çox mötəbər insanlar şirkət haqqında, onun tarixi barədə çox gözəl fikirlər söylədilər. Bu şirkət bir ailəyə məxsus olan şirkətdir və bu ailə də Amerika Birləşmiş Ştatlarında çox böyük hörmətə malikdir. Bu bizim üçün çox əhəmiyyətlidir. Müqaviləni imzalamaq haqqında təklif gələndə, təbiidir ki, bizim müəyyən suallarımız var idi. Amma onları da həll etdik və bu gün böyük məmnuniyyətlə ikinci müqavilənin imzalanmasında sizinlə bərabər iştirak edirəm.

«Monkrif oyl»un həm birinci, həm də ikinci müqaviləsi Azərbaycanın quru sektorunda olan neft yataqlarına aiddir. Bizim mütəxəssislər, geoloqlar hesab edirlər ki, 1848-ci ildən Azərbaycanda sənaye üsulu ilə neft hasil olur. İndiyə qədər Azərbaycanın quru hissəsində neftin 70 faizi hələ çıxarılmayıbdır. Ona görə «Monkrif oyl» şirkətinin məhz bu yataqlara maraq göstərməsi bizim üçün həm konkret bu fakta görə, həm də gələcək işlərimiz üçün çox əhəmiyyətlidir. Əmin ola bilərsiniz ki, başqa müqavilələrdən fərqli olaraq, mən bu müqavilənin həyata keçirilməsinə xüsusi diqqət verəcəyəm və lazım olan bütün yardımları edəcəyəm.

Mən bu hadisə münasibətilə sizi təbrik edirəm. «Monkrif oyl» şirkətinə Azərbaycanda böyük uğurlar arzulayıram. Şübhə etmirəm ki, bu gün imzalanmış müqavilənin əməli nəticələrini yaxın vaxtlarda görəcəyik.

Sağ olun. Təşəkkür edirəm.

**K e y  B e l i  H a d ç i s o n:** Cənab Prezident, bu mötəbər hadisənin yaddaşınızdan silinməməsi üçün, icazə verin, senator Qremin adından və öz adımdan bu hədiyyəni Sizə təqdim edim.

* * *

*Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri başa çatdı.*

*Heydər Əliyev ABŞ-a səfəri zamanı soyuqladığından müalicə üçün Klivlend şəhərindəki klinikaya müraciət etmiş və oraya yola düşmüşdü. O klinikada tam müayinədən keçmiş, soyuqdəymədən müalicə olunmuş, özünü tam gümrah və sağlam hiss etdiyindən sentyabrın 27-də Klivlenddən Bakıya yola düşmüşdü.*

*Lakin bu müddətdə Rusiyanın bəzi kütləvi informasiya vasitələri naməlum qaynaqlara istinad edərək, Azərbaycan prezidentinin səhhəti haqqında xoşagəlməz və təxribat xarakterli məlumatlar yayırdılar.*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FERNANDO HENRİKE KORDOSOYA**

Hörmətli cənab Prezident!

Braziliya Federativ Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Braziliya xalqını səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Braziliya Federativ Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələri getdikcə daha da genişlənərək xalqlarımızın rifahının yüksəlməsinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edib Sizə işlərinizdə uğurlar diləyir, Braziliya xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 sentyabr 2000-ci il*

**KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ**

Hörmətli cənab Prezident!

Koreya Xalq Demokratik Respublikasının milli bayramı – Respublikanın təsis günü münasibətilə Sizə və dost Koreya xalqına salamlarımı və səmimi təbriklərimi yetirir, ölkənizə tərəqqi və firavanlıq arzulayıram.

Biz Koreya Xalq Demokratik Respublikası ilə hərtərəfli dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndiririk.

Əminəm ki, əlaqələrimizin inkişafı xalqlarımızın rifahının yüksəlməsinə, sülh və sabitlik işinə xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 sentyabr 2000-ci il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EMOMƏLİ RƏHMONOVA**

Hörmətli cənab Prezident!

Tacikistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost tacik xalqını səmimi-qəlbdən təbrik edir, Sizə cansağlığı və dövləti fəaliyyətinizdə uğurlar, Tacikistan xalqına sülh, tərəqqi və əmin-amanlıq arzulayıram.

Biz Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk.

İnanıram ki, qarşılıqlı səylər sayəsində əlaqələrimiz inkişaf edəcək, xalqlarımızın rifahının yüksəlməsinə, regionda sülh və sabitliyin möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 sentyabr 2000-ci il*

**TƏŞKİLAT KOMİTƏSİNİN SƏDRİ – RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ V.MATVİYENKOYA**

Hörmətli Valentina İvanovna!

MDB-nin üzvü olan dövlətlərin və Baltikyanı dövlətlərin Anapa şəhərində keçirilən doqquzuncu açıq kinofestivalının iştirakılarına mənim təbriklərimi və salamlarımı qəbul edin.

Bu festivalın MDB-nin üzvü olan dövlətlərin və Baltikyanı dövlətlərin xalqlarının mənəvi həyatında mühüm hadisə olması barədə sizin fikrinizə şərik çıxaraq, inanıram ki, o, humanitar əməkdaşlığın dərinləşməsinə layiqli töhfə verəcək və mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə kömək edəcəkdir.

Azərbaycan bu festivalda tanınmış Azərbaycan rejissoru Eldar Quliyevin «Nə gözəldir bu dünya» filmi ilə təmsil olunmuşdur. Əminəm ki, tamaşaçılar bu filmi layiqincə qiymətləndirəcəklər.

Kinofestivala xeyirxah missiyasında uğurlu iş, sizə isə, hörmətli Valentina İvanovna, hər cür nemətlər və fəaliyyətinizdə uğurlar arzulamaq istəyirəm.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 sentyabr 2000-ci il*

**ÇİLİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RİKARDO LAQOS ESKOBARA**

Hörmətli cənab Prezident!

Çili Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və dost Çili xalqını səmimi-qəlbdən təbrik edir, Sizə cansağlığı və səadət, ölkənizə əmin-amanlıq və daimi tərəqqi arzulayıram.

Əminəm ki, Azərbaycan Respublikası ilə Çili Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafı xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 sentyabr 2000-ci il*

**VOKALÇILARIN BÜLBÜL ADINA**
**II BEYNƏLXALQ MÜSABİQƏSİNƏ**

Vokalçıların Bülbül adına II Beynəlxalq müsabiqəsinin bütün iştirakçılarını qonaqpərvər Azərbaycan torpağında səmimi-qəlbdən salamlayır və müsabiqəyə böyük uğurlar arzulayıram.

Azərbaycan peşəkar vokal sənətinin banisi Bülbülün adını daşıyan bu mötəbər müsabiqənin müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilməsi artıq gözəl bir ənənəyə çevrilmişdir. Belə böyük miqyaslı müsabiqə gənc vokalçılara öz istedadlarını nümayiş etdirmək və musiqi aləmində tanınmaq üçün geniş imkanlar yaradır. Müsabiqədə Azərbaycan musiqi mədəniyyətinin beynəlxalq aləmdə tanınması, dünya xalqlarının mədəni əlaqələrinin möhkəmləndirilməsi, musiqi sahəsində əldə olunmuş nailiyyətlərlə qarşılıqlı tanışlıq işinə də yaxından xidmət edir.

XX əsrin görkəmli musiqi xadimi İrina Arxipovanın başçılıq etdiyi münsiflər heyətinin tanınmış musiqiçilərdən və pedaqoqlardan ibarət olan tərkibi müsabiqənin nüfuzuna və ona verilən yüksək qiymətə dəlalət edir.

Müstəqil respublikamızın paytaxtının mədəni həyatında mühüm hadisə olan müsabiqəyə maraq olduqca böyükdür. İnanıram ki, üçüncü minilliyin astanasında keçirilən müsabiqə musiqisevərlərin ona bəslədikləri ümidləri doğruldacaq və yeni istedadlar üzə çıxarmaqla dünya musiqi mədəniyyətini daha da zənginləşdirəcəkdir.

Müsabiqə iştirakçılarının hər birinə cansağlığı və xoşbəxtlik diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 sentyabr 2000-ci il*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ERNESTO ZEDİLYO PONSE DE LEONA**

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik elan edilməsi gününün növbəti ildönümü münasibətilə Sizi və dost Meksika xalqını salamlayır və ürəkdən təbrik edir, ölkənizə əmin-amanlıq və tərəqqi arzulayıram.

Əminəm ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyi naminə daim genişlənib möhkəmlənəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 sentyabr 2000-ci il*

**MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ÖLKƏLƏRİNİN İNŞAAT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI ŞURASININ XIII TOPLANTISINA**

Hörmətli toplantı iştirakçıları!

Sizi – Müstəqil Dövlətlər Birliyi Ölkələrinin İnşaat Sahəsində Əməkdaşlıq üzrə Hökumətlərarası Şurasının XIII toplantısının iştirakçılarını qonaqpərvər Azərbaycan torpağında səmimi-qəlbdən salamlayır, dövlətlərimizin və xalqlarımızın tərəqqisinə yönəldilmiş nəcib fəaliyyətinizdə uğurlar diləyirəm.

Şuranızın XX əsrdə son toplantısının memarlıq və inşaat sahəsində özünəməxsus qədim və zəngin ənənələri olan Azərbaycanda keçirilməsi rəmzi məna daşıyır. Dahi sələflərimizin əsrlər boyu, o cümlədən başa vurduğumuz əsr ərzində yaratdıqları nadir sənət inciləri dünya memarlıq və inşaat tarixinin parlaq səhifələrini təşkil edərək, bu faydalı və vacib sahənin perspektivləri ilə bağlı strateji planların hazırlanmasını zəruri edir.

Toplantının keçirildiyi günlər ərzində siz Azərbaycanın tarix və mədəniyyət abidələri ilə yanaşı, inşaat sahəsində respublikamızın əldə etdiyi son nailiyyətlərlə, habelə ölkəmizdə həyata keçirilən investisiya siyasəti ilə tanış olmaq imkanına malik olacaqsınız. Bu da xalqlarımız arasında qarşılıqlı anlaşma və səmərəli əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəkdir.

Ümidvar olduğumu bildirirəm ki, Hökumətlərarası Şuranın XIII toplantısı ölkələrimiz arasındakı əlaqələrin inkişaf etdirilməsi, vahid normativ bazanın yaradılması, elmi-texniki nailiyyətlərin və müasir texnologiyaların istehsalata tətbiq edilməsi yolunda mühüm rol oynayacaq, inşaat sahəsinin bir çox ümumi problemlərinin həllinə öz töhfəsini verəcəkdir.

Toplantınızın işinə müvəffəqiyyətlər, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 sentyabr 2000-ci il*

**MALİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏLFA ÖMƏR KONARİYƏ**

Hörmətli cənab Prezident!

Mali Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Mali xalqını ürəkdən təbrik edir, Sizə cansağlığı və səadət, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Əminəm ki, Azərbaycan Respublikası ilə Mali Respublikasının qarşılıqlı münasibətləri xalqlarımızın rifahının getdikcə yaxşılaşmasına xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**SƏUDİYYƏ ƏRƏBİSTANI MƏMLƏKƏTİNİN**
**MƏLİKİ ƏLAHƏZRƏT**
**FƏHD BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Səudiyyə Ərəbistanı Məmləkətinin milli bayramı – Məmləkətin təsis günü münasibətilə Sizə və qardaş Səudiyyə Ərəbistanı xalqına səmimi salamlarımı və təbriklərimi yetirir, Sizə möhkəm cansağlığı və səadət, ölkənizə firavanlıq və tərəqqi arzulayıram.

Biz Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Məmləkəti arasında səmimi və mehriban dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk.

Əminəm ki, ölkələrimizin əlaqələrinin inkişafı xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Əlahəzrət, Sizə bir daha öz hörmət və ehtiramımı bildirirəm.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**SƏUDİYYƏ ƏRƏBİSTANI MƏMLƏKƏTİNİN VƏLİƏHDİ, BAŞ NAZİRİN BİRİNCİ MÜAVİNİ, MİLLİ QVARDİYANIN RƏİSİ**
**ƏLAHƏZRƏT ŞAHZADƏ ABDULLA BİN ƏDBÜLƏZİZ AL – SƏUDA**

Əlahəzrət!

Səudiyyə Ərəbistanı Məmləkətinin milli bayramı – Məmləkətin təsis günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

İnanıram ki, ölkələrimizin əməkdaşlığı bütün sahələrdə inkişaf edib möhkəmlənərək xalqlarımızın mənafeyinə, dünyada sülh və tərəqqi işinə xidmət edəcəkdir.

Əlahəzrət, Sizə möhkəm cansağlığı və səadət, Səudiyyə Ərəbistanı Məmləkətinin xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**QAFQAZIN ARXEOLOGİYA VƏ ETNOQRAFİYASINA HƏSR OLUNMUŞ BEYNƏLXALQ ELMİ KONFRANSA**

Hörmətli konfrans iştirakçıları!

Sizi – Qafqazşünas alimləri müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində səmimi-qəlbdən salamlayır və konfransınızın işinə müvəffəqiyyətlər diləyirəm.

Bəşər sivilizasiyasının ən qədim mərkəzlərindən olan Qafqaz dünyada nadir xüsusiyyətləri ilə seçilən bir regiondur. Təsadüfi deyildir ki, dünya arxeologiya və etnoqrafiya elminin nümayəndələrinin yekdil rəyinə görə, Qafqaz insan sivilizasiyasını araşdırmaq üçün ən zəngin və maraqlı bölgə hesab olunur. Uzun əsrlər boyu bütün Avrasiya məkanının birləşdirilməsində mühüm rol oynamış Qafqaz həm də müxtəlif dillərdə danışan, ayrı-ayrı dinlərə mənsub olan, özünəməxsus tarixi və mədəniyyəti ilə səciyyələnən onlarca böyük və kiçik xalqların ümumi evi olmuşdur.

Hal-hazırda Qafqaz xalqları öz tarixinin bəlkə də ən mürəkkəb dövrlərindən birini yaşayır. SSRİ-nin dağılması bir tərəfdən, regionun bəzi xalqlarının uzun illər həsrətində olduğu müstəqilliyə qovuşması ilə nəticələndisə də, digər tərəfdən, onların həyatında çoxsaylı problemlərin meydana çıxmasına səbəb oldu. Bu problemlərdən ən faciəlisi millətlərarası münaqişələrdir. Sovet rejiminin ideoloqları imperiyanın dağılmasının qarşısını almağa cəhd göstərərək millətlərarası münasibətləri gərginləşdirmək, Qafqaz xalqlarını bir-biri ilə toqquşdurmaq yoluna rəvac verdilər. Bu məqsədlə onlar nəcib bəşəri mərama xidmət edən arxeologiya və etnoqrafiya elminin nailiyyətlərinin də təftiş və təhrif olunması, kobud şəkildə saxtalaşdırılması kimi çirkin vasitəyə əl atdılar. Təəssüf ki, belə bir şəraitdə xalqlarımızı bu bəladan qorumaq mümkün olmadı və millətlərarası münaqişələr Qafqaz xalqlarının ümumi faciəsinə çevrildi.

Bu gün «Dinc Qafqaz» ideyası həmişəkindən daha aktual və mühümdür. XXI əsrdə Qafqaz xalqları üçün sülh və mehriban qonşuluq prinsiplərinin, dinc yanaşı yaşamanın alternativi yoxdur. Bütün Qafqaz xalqlarının dinc, parlaq, firavan gələcəyinə dərin inamımı bildirərək hamınızı əmin etmək istəyirəm ki, Qafqazda bütün millətlərarası münaqişələrin, mübahisəli məsələlərin dinc yolla həll edilməsi üçün bütün səylərimi, siyasi təcrübəmi və nüfuzumu axıra qədər sərf edəcəyəm. Şübhə etmirəm ki, siyasətçilərlə birlikdə siz də bu prosesdə mühüm rol oynayacaqsınız. Alim sözü tarixən xalqlarımızın içərisində böyük təsir gücünə malik olmuşdur. Qafqaz xalqlarının öz tarixinin faciəli səhifələrini birdəfəlik çevirib bağlaması, bütün Qafqazda əzəli sülhün və əmin-amanlığın bərpa olunması sizin fəaliyyətinizdən də çox asılıdır.

Bu yoldakı nəcib işlərinizdə sizə uğurlar, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 sentyabr 2000-ci il*

## ANS YAYIM VƏ MEDİA ŞİRKƏTİNİN ƏMƏKDAŞI MİRŞAHİN AĞAYEVƏ ABŞ-ın KLİVLEND ŞƏHƏRİNDƏN TELEFONLA MÜSAHİBƏ

*26 sentyabr 2000-ci il*

**J u r n a l i s t:** Salam, cənab Prezident!

**H e y d ə r  Ə l i y e v:** Salam, salam. Aranı niyə qarışdırmısınız?

**J u r n a l i s t:** Cənab Prezident, əksinə, biz aranı qarışdıranların qarşısına sipər çəkmək niyyətindəyik. Ona görə də sizdən müsahibə almaq istəyirik.

Cənab Prezident, necəsiniz, özünüzü necə hiss edirsiniz?

**H e y d ə r  Ə l i y e v:** Özümü yaxşı hiss edirəm. Sabah buradan çıxıram. Mənə Avstraliyadan İlham zəng edib dedi ki, Mirşahin telefon eləmişdi. Ona görə də bildirdim ki, qoy Mirşahin mənim özümə telefon etsin, mən ona deyim. Hesab edirəm, bu müsahibəni bu gün öz televiziyanız ilə versəniz pis olmazdı.

**J u r n a l i s t:** Cənab Prezident, mən də belə fikirləşirəm ki, bu müsahibə Azərbaycanda əsası olmadan yaranmış vəziyyətə bir qədər sakitlik gətirəcəkdir.

Cənab Prezident, Sizə nə olmuşdu, ümumiyyətlə, nə baş vermişdi?

**H e y d ə r  Ə l i y e v:** Bilirsən, heç bir şey baş verməyibdir. Mən sentyabrın 13-nə qədər Nyu-Yorkda və Vaşinqtonda öz səfər proqramımı həyata keçirirdim. Buraya gələndə, əvvəlcədən planlaşdırmışdım ki, bir günlüyə Klivlendə gedim, müayinə olunum. Bilirsiniz ki, keçən ilin aprelində mən burada cərrahiyyə əməliyyatı keçirmişdim. Mən həkimlərlə danışdım, onlar dedilər ki, birgünlük buraya gəlsəniz pis olmaz, sizi müayinə edərik. Ancaq iş bundadır ki, buraya gələndə mənə həm bərk soyuq dəymişdi, həm də qrip idim. Haqqına demək lazımdır ki, mən həmişə özümü işə qurban etmişəm.

Soyuqdəymə, qrip, öskürək məndə hələ sentyabrın 10-da başlamışdı. Mənim burada həkimlərim var, onlar dedilər ki, hansısa virus keçibdir, çünki burada minlərlə adamla əl verib görüşmüsünüz. Birləşmiş Millətlər Təşkilatının salonu soyuq idi, bəlkə orada bir şey olubdur.

Həkimlər mənə deyirdilər ki, bu qrip çox viruslu qripdir. Amma buna baxmayaraq, mən sentyabrın 11-də Amerika–Azərbaycan Ticarət Palatasının böyük bir konfransında iştirak etdim. Bu konfrans Amerika–Azərbaycan Ticarət Palatasının beşilliyinə həsr olunmuşdu. Həmin konfransa çox mötəbər adamlar – 300-ə qədər adam – çağırılmışdı. Mən həmin konfransda çıxış etdim. Mənim həmin çıxışımı yəqin ki, televiziyada veriblər.

Həmin gün bu konfransdan sonra mən Azərbaycanın Vaşinqtondakı Ticarət və Mədəniyyət Mərkəzinin yeni binasının açılışında iştirak etdim. Axşam isə mənim şərəfimə böyük bir ziyafət verdilər. Təxminən 350–400 adamın iştirak etdiyi həmin ziyafətdə mən çıxış etdim. Doğrudur, mən həm üşüyürdüm, həm də özümü bir az yaxşı hiss etmirdim. Ona görə də həkim gəlib mənə dedi ki, siz çıxış etdiniz, bəlkə çıxıb gedəsiniz? Ancaq yenə də deyirəm, mən hər şeyi axıra qədər çatdıran adamam. Mən ziyafətdən çıxıb getmədim, orada 2–3 saat oturdum, söhbət etdim. Həmin ziyafətdə çox böyük, mötəbər siyasi xadimlər, Dövlət Departamentindən, nazirliklərdən yüksək vəzifəli şəxslər iştirak edirdilər.

Mən oradan hotelə gəldim. Səhəri gün də bir tədbirdə iştirak etdim. Sonra isə təyyarə ilə Klivlendə yola düşdüm. Buraya gələn kimi məni müayinə edərək bildirdilər ki, gərək əvvəlcə qrip və soyuqdəymə müalicə olunsun. Sonra belə məlum oldu ki, məndə müəyyən qədər pnevmaniya əmələ gəlibdir. Ona görə də həkimlər dedilər ki, biz əvvəlcə bunu müalicə etməliyik, eyni zamanda, sizi müayinədən keçirməliyik. Bu müalicə də bir az vaxt aparır. Çünki mən çox ciddi pnevmaniya olmuşdum.

Həkimlər müalicəni də apardılar, yoxladılar da. Həm müalicə çox uğurla keçdi, həm də cərrahiyyə əməliyyatı ilə əlaqədar mənim vəziyyətimi yoxladılar. Dedilər ki, indi sənin ürəyin cərrahiyyə əməliyyatından əvvəlkindən daha da yaxşı işləyir. Həkimlər mənə belə yaxşı sözlər dedilər.

Mən sabah buradan Londona gedirəm. Bir gecə Londonda qalacağam – bilirsiniz ki, mənim nəvələrim oradadırlar. O birisi gün Bakıya gələcəyəm.

Bu fitnəkarlığı, təxribatı kim yayıb, nə üçün edib? Yəqin ki, onu orada araşdırarlar. Ancaq mən sağ-salamatam, kefim də yaxşıdır. Biz Amerikada da çox dəyərli işlər gördük. Bu cür xoş əhval–ruhiyyə ilə ölkəmizə qayıdıram.

**J u r n a l i s t:** Cənab Prezident, əvvəla, mən maraqlı bir müşahidəm haqqında Sizə söhbət açmaq istəyirəm. Gülhanədə və Klivlenddə müalicə olunduğunuz ötən illərdən fərqli olaraq, bu dəfə Azərbaycan mətbuatı bu məsələyə son dərəcə təmkinlə yanaşıb və hər şey nəzarət altındadır. Yəni kütləvi informasiya vasitələri

peşəkarlıqla işləyirlər. Bu fitnəkarlığın kökü isə Rusiyanın «Qazeta.Ru» deyilən bir İnternet səhifəsində dərc olunmuş məqalədən gəlir. Onlar yazıblar, Azərbaycan mətbuatı da çox ehtiyyatlı şəkildə ona istinad edibdir.

Cənab Prezident, Rusiyanın «Qazeta.Ru» İnternet səhifəsində dərc olunmuş informasiyaya münasibətinizi bilmək istərdik.

**H e y d ə r Ə l i y e v:** Bunları bilirəm. Ramiz Mehdiyev Moskva ilə, Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey İvanovla danışmışdı, o da prezident Putinlə məsləhətləşmişdi. Onlar da oradan təkzib veriblər ki, bunlar hamısı yalandır. Mən bunları bilirəm.

Mənim dediyim bu sözləri də, mümkün hesab edirsənsə, televiziya ilə ver, qoy camaat rahat olsun. Bəziləri isə başa düşsün ki, insan ağılla hərəkət etməlidir.

**J u r n a l i s t:** Cənab Prezident, dərc edilmiş elə həmin məlumatlardan birində ölkənin idarə olunmasında yaranmış mürəkkəbliklərdən söhbət gedir. Şübhə edilirdi ki, Azərbaycan prezidenti Heydər Əliyev ölkəmizdə baş verən hadisələrə müdaxilə etməyə bir balaca çətinlik çəkir.

**H e y d ə r Ə l i y e v:** Çətinlik çəkir?

**J u r n a l i s t:** Ölkənin idarə olunmasında guya Sizin imkanlarınız bir az aşağı düşübdür.

**H e y d ə r Ə l i y e v:** Heç biri aşağı düşməyibdir. Mən gündə iki-üç dəfə həm Ramiz Mehdiyevlə, həm Murtuz Ələsgərovla, həm Artur Rasizadə ilə, həm də güc nazirlikləri ilə əlaqə saxlayırdım. Onlar mənə məlumatlar verirdilər. Hesab edirəm ki, mən müəyyən qədər burada olduğum zaman respublikada işlər yaxşı gedibdir. Mən öz həmkarlarımdan, yəni o sahədə işləyən adamlardan – birincisi, aparatın rəhbəri Ramiz Mehdiyevdən çox razıyam. Təbiidir ki, bütün bu siyasi məsələlərlə o məşğul olur. Sonra Baş nazir Artur Rasizadə ilə neçə dəfə danışmışam. O, ölkəmizin iqtisadiyyatı haqqında mənə məlumatlar verir. Bilirsiniz ki, indi doqquz ay qurtarır. Proqnozlara görə ölkəmizin iqtisadiyyatı yenə də inkişaf dövrünü keçirir, yeni nəticələr əldə olunur. Mən hər şeylə məşğulam.

Burada respublika ilə mənim əlaqəm bir gün də belə kəsilməyibdir. Təbiidir ki, orada görülən işlərin əksəriyyəti mənim göstərişimlə olubdur. Mən eyni zamanda, hesab edirəm ki, müəyyən yüksək vəzifələrdəki insanlar da orada çox namusla, qeyrətlə çalışıblar və təşəbbüskar olublar, çox işləri də görüblər, sonra mənə məruzə ediblər.

**J u r n a l i s t:** Cənab Prezident, əgər sirr deyilsə, bu saatın özündə nə ilə məşğulsunuz?

**H e y d ə r Ə l i y e v:** Bu saatın özündə, indi burada səhər saat 10-dur. Başa düşdün? İndi bu dəqiqə mən səhər yeməyini yeyəcəyəm, ondan sonra da burada bir az gəzəcəyəm. Sonra axşam yeməyi yeyəcəyəm. Sabah isə buradan yola düşürəm. Sabah buradan hava limanına gedəcəyəm, oradan təyyarə ilə Londona uçacağam.

**J u r n a l i s t:** Cənab Prezident, nəhayət, olimpiadanın gedişini izləyirsinizmi?

**H e y d ə r Ə l i y e v:** Bəs necə, izləyirəm. İlham hər gün oradan mənə məlumat verir. Bizim Azərbaycan idmançısı ilk dəfə olaraq olimpiadada qızıl medal alıbdır. İndi bu dəqiqə danışırdım, bir boksçumuz da orada çox yüksək nəticələr göstəribdir. Ümidvaram ki, o da medal alacaqdır. Hesab edirəm, orada da vəziyyət çox yaxşıdır. Çünki bizim komandamız indi-indi formalaşır. Belə olan halda, bu cür yüksək göstəricilər əldə etmək, təbiidir ki, sevindiricidir.

**J u r n a l i s t:** Cənab Prezident, bu, ilk növbədə Azərbaycan bayrağının qələbəsidir. Çünki hər şeydən əvvəl Azərbaycan bayrağı qaldırılıbdır.

Cənab Prezident, mən bir şeyi də dəqiqləşdirmək istəyirəm. Belə başa düşdüm ki, bu, Klivlenddən Sizin ilk müsahibənizdir.

**H e y d ə r Ə l i y e v:** Bu, ilk müsahibəmdir. Ancaq dünən də çox dedilər ki, bəlkə mən özüm buradan bir məlumat verim. Mən buna imkan vermədim. Dedim ki, indi nə məlumat verəcəyəm ki? Mən sağ-salamatam.

Respublikada aparılan işlər barədə bu gün mənə məlumat veriləndən sonra Ramiz Mehdiyevə telefon edib dedim ki, Mirşahini tap, qoy mənə telefon eləsin. Bu mənim birinci müsahibəmdir. Buna görə də sizin televiziya birincilik qazanıbdır.

**J u r n a l i s t:** Olimpiadaçılarımızın ənənəsini davam etdiririk. Cənab Prezident, sağ olun. İnşallah, tezliklə Bakıda görüşərik.

**H e y d ə r Ə l i y e v:** Sən televiziya vasitəsilə bütün Azərbaycan xalqına, vətəndaşlarına mənim adımdan salam yetir və de ki, mən yaxın iki gündə Bakıdayam. Hər şey çox gözəldir. Mən çox məmnunam ki, bizim vətəndaşlarımız, Azərbaycan xalqı belə bir fitnəkarlıqdan o qədər də çaşmayıbdır. Düzdür, şayiələr yayılıb, amma çaşmayıblar. Hamıya salam və mənim xoş arzularımı söylə.

## İTAR-TASS AGENTLİYİNƏ MÜSAHİBƏ

*Ohayo statı,Klivlend şəhəri*

*27 sentyabr 2000-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev tamamilə sağlamdır, gümrah əhval-ruhiyyədədir və bu gün axşam Bakıya yola düşür. Yolüstü bir gün Londonda qalmaq niyyətindədir. Bu, sentyabrın 26-da prezident İTAR-TASS-ın müxbiri ilə söhbət edərkən məlum olmuşdur. Prezident müxbiri müayinə kursunu başa çatdırdığı Klivlend Ürək-Damar Xəstəliklərinin Müalicəsi Mərkəzinə dəvət etmişdi. Azərbaycan lideri bir sıra kütləvi informasiya vasitələrinin onun vəfatı barədə yaydığı şayiələrdən hiddətlə danışmış, azərbaycanlılarda çox böyük narahatlıq doğurmuş bu şayiələri «antihumanist fitnəkarlıq» adlandırmışdır.*

*Heydər Əliyev bildirmişdir: «Mənə dedilər ki, İTAR-TASS agentliyi Baş direktorunun birinci müavini Mixail Qusman bizim səfirliyimizə zəng vurmuş – özü də bu, Vaşinqtona ilk zəng idi – və belə şayiələr barədə xəbərdarlıq etmişdi». Heydər Əliyevin dediyinə görə, yayılmış yalan xəbərləri təkzib etmək üçün tədbirlər görülmüşdür. Azərbaycan prezidenti əlavə etmişdir ki, «artıq bu gün mənə çatdırdılar ki, xalq nə baş verdiyini başa düşmüş və sakitləşmişdir».*

*Bəs real olaraq nə baş vermişdi? – Heydər Əliyev İTAR-TASS müxbirinin bu sualına cavab verərək bildirmişdir ki, hələ ayın əvvəllərində Nyu-Yorkda minilliyin zirvə görüşündə iştirak edərkən ona soyuq dəymişdi. Buna baxmayaraq, Azərbaycan prezidenti Vaşinqtona yola düşmüş, daha bir neçə şəhərə getmiş, bu şəhərlərdə onun çoxsaylı görüşləri və digər tədbirləri olmuşdur. Özünün vurğuladığı kimi, həmin görüşləri və tədbirləri təxirə sala bilməzdi. Heydər Əliyev demişdir: «Özümü bir qədər pis hiss edirdim, öskürürdüm, hərarətim qalxmışdı. Klivlendə getmək səfərimin planına daxil idi. Ötən ilin aprelində orada ürəyimdə cərrahiyyə əməliyyatı aparılmışdı və həkimlər məni müayinə üçün gözləyirdilər». Buna baxmayaraq o, Klivlendə sentyabrın yalnız 12-də gəlib çıxmışdır. Azərbaycan prezidenti əlavə etmişdir: «Məlum oldu ki, qriplə xəstələnmişəm, hətta pnevmoniya əlamətləri vardı. Odur ki, buradaləngiməli oldum».*

*Lakin indi xəstəlik artıq arxada qalmışdır. Heydər Əliyev bildirmişdir ki, həkimlər onun ürəyini müayinə etmiş və özlərinin düşündüklərindən də yaxşı olduğunu söyləmişlər.*

*Azərbaycan prezidenti demişdir: «Axşam mən Londona yola düşürəm, bir gün orada qalacağam, nəvələrim orada oxuyurlar. Ertəsi gün isə Bakıya yola düşəcəyəm».*

*Heydər Əliyev İTAR–TASS-ın müxbiri ilə müsahibəsində Rusiya–Azərbaycan münasibətlərinin indiki vəziyyəti üzərində də dayanmışdır. Azərbaycan prezidenti Heydər Əliyev bildirmişdir ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər yaxşı inkişaf edir, bunda RF prezidenti Vladimir Putinin xidməti az deyildir. O buna böyük əhəmiyyət verir.*

*Heydər Əliyev demişdir: «Vladimir Putinlə bizim aramızda lap əvvəldən yaxşı ünsiyyət yaranmışdır. O buraya, xəstəxanaya mənə telefon etmişdi və təbii ki, səhhətimlə maraqlandı. Mən dedim: Narahat olmayın, tezliklə Bakıya qayıdıram. Lakin bizim digər məsələlərimiz də oldu və onların barəsində fikir mübadiləsi apardıq. Axı mən Vladimir Putini Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Biz səfərin vaxtını götür-qoy etdik və ümidvarıq ki, səfər noyabrda həyata keçiriləcəkdir. Bu, müstəqil Rusiya prezidentinin Azərbaycana ilk səfəri olacaqdır».*

*Azərbaycan lideri xatırlatmışdır ki, Boris Yeltsin Azərbaycana gələcəyini bir neçə dəfə vəd etmişdi, amma gələ bilmədi. O ki qaldı Vladimir Putinə, o, prezident vəzifəsinə nisbətən bu yaxınlarda başlasa da, səfər haqqında artıq razılığa gəlmişdir. Heydər Əliyev vurğulamışdır ki, «bunun isə dəlil-sübuta ehtiyacı yoxdur».*

### Azərbaycan Prezidenti Heydər Əliyev Klivlenddən Londona yola düşmüşdür

*Sentyabrın 27-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ABŞ-ın Klivlend şəhərinin «Hopkins intərnəşnl» hava limanından Londona yola düşmüşdür.*

*Heydər Əliyev Amerikanı tərk edərkən prezident Bill Klintona, vitse-prezident Albert Qora, dövlət katibi xanım Madlen Olbrayta məktublar göndərərək, ABŞ-da ona göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirmiş və ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələrin daha da möhkəmlənəcəyinə dərin inamını ifadə etmişdir.*

*Azərbaycan prezidenti Heydər Əliyev vətənə qayıdarkən sentyabrın 28-də yolüstü Londona gəlmişdir.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB BİLL KLİNTONA**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Birləşmiş Millətlər Təşkilatının keçirdiyi minilliyin zirvə görüşü zamanı Sizinlə yenidən görüşməyimdən məmnun oldum.

Nyu-Yorkda və Vaşinqtonda çox səmərəli görüşlərimi başa çatdırdıqdan sonra Klivlend klinikasında müayinədən keçdim.

Sizin gözəl ölkənizi tərk edərkən bir daha Amerika Birləşmiş Ştatlarında olduğum müddətdə mənə göstərdiyiniz qayğıya, diqqətə, hörmət və ehtirama görə Sizə dərin təşəkkürümü bildirirəm.

Əminəm ki, Sizinlə birlikdə möhkəm zəmin əsasında qurduğumuz Amerika–Azərbaycan dostluğu, dövlətlərimiz arasında mövcud olan strateji tərəfdaşlıq münasibətləri və geniş iqtisadi əlaqələr bundan sonra daha da güclənəcək və inkişaf edəcəkdir.

Sizə uzun ömür, cansağlığı və xoşbəxtlik arzu edirəm.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Klivlend şəhəri, *27 sentyabr 2000-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**VİTSE-PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ALBERT QORA**

Hörmətli cənab vitse-prezident!

Klivlend klinikasında müayinə olunduğum zaman işinizin çox olmasına baxmayaraq vaxt tapıb mənim səhhətim ilə maraqlandığınıza və lütfkarlıq edərək mənə göndərdiyiniz məktuba görə sizə dərin minnətdarlığımı bildirirəm.

Ölkənizdə olduğum müddətdə mənə göstərdiyiniz diqqətə və qayğıya görə də təşəkkür edirəm.

Ümidvar olduğumu bildirirəm ki, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında yaxın dostluq, sıx əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi sahəsində sizinlə birgə səylərimiz bundan sonra hələ uzun illər davam edəcəkdir.

Vətənə yola düşərkən bir daha sizə cansağlığı, xoşbəxtlik və işlərinizdə müvəffəqiyyətlər arzu edirəm.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Klivlend şəhəri, *27 sentyabr 2000-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**DÖVLƏT KATİBİ**
**XANIM MADLEN OLBRAYTA**

Əziz xanım Olbrayt!

Sentyabrın 7-də Nyu-Yorkda sizinlə yenidən görüşməyimdən məmnun oldum. Hesab edirəm ki, sizinlə çox əhəmiyyətli və səmərəli danışıqlarımız oldu.

Çox şadam ki, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün əlavə səylər göstərilməsinə ehtiyac olduğu barədə sizinlə eyni fikirdəyik.

Əminəm ki, ölkələrimiz arasında siyasi, iqtisadi və təhlükəsizlik sahələrində hərtərəfli əməkdaşlıq bundan sonra daha da güclənəcəkdir.

Ölkənizə səfərimin rəsmi hissəsini başa çatdırdıqdan sonra Klivlend klinikasında müayinə olunarkən mənə göstərdiyiniz daimi diqqətə, qayğıya, dostluq münasibətinə və ehtirama görə, zəhmət çəkib mənə telefon ilə zəng etdiyinizə görə sizə dərin minnətdarlığımı bildirirəm.

Ölkənizi tərk edərkən bir daha şəxsi dostluq münasibətlərimizi yüksək qiymətləndirdiyimi bildirir, sizə cansağlığı, uzun ömür və xoşbəxtlik arzu edirəm.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Klivlend şəhəri, *27 sentyabr 2000-ci il*

## LONDONDAN BAKIYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL RUSİYA İCTİMAİ TELEVİZİYASININ /ORT/ BÖYÜK BRİTANİYADAKI XÜSUSİ MÜXBİRİNƏ MÜSAHİBƏ*

*29 sentyabr 2000-ci il*

*Azərbaycan prezidenti Heydər Əliyev xaricə uzunmüddətli səfərdən sonra bu gün Bakıya qayıdır. O, Amerikanın Ohayo ştatındakı klinikalardan birində tibbi müayinədən keçmişdir. Bu isə Heydər Əliyevin səhhətinin guya pisləşdiyi barədə şayiələrin yayılmasına səbəb olmuşdur. Hətta bir neçə gün əvvəl Azərbaycan prezidentinin vəfat etdiyi barədə xəbərlər verilmişdir. Heydər Əliyev vəfat etməsi haqqında şayiələrə özü yumorla yanaşdı və yolüstü Londonda olarkən «Vremya» proqramının müxbirinə müsahibə verdi.*

**M ü x b i r:** Azərbaycan prezidenti Heydər Əliyev ABŞ-da ürəyində mürəkkəb cərrahiyyə əməliyyatı aparıldıqdan sonra, ötən ilin mayında məhz Londonun «Klaric» mehmanxanasında ilk dəfə televiziya kameraları qarşısında görünmüşdü. Azərbaycan prezidenti Amerikadan qayıdarkən bu dəfə də yolüstü Britaniya paytaxtında dayanmışdır.

Azərbaycan prezidenti ABŞ-ın Nyu-York, Vaşinqton şəhərlərində bir sıra işgüzar görüşlər, o cümlədən ölkənin sabiq prezidenti Buşla görüş keçirmişdir. Prezident Heydər Əliyev özünün vəfatı barədə xəbəri də ötən il ürəyində cərrahiyyə əməliyyatının aparıldığı Klivlenddə – əvvəlcədən planlaşdırılmış müayinədə olarkən eşitmişdir.

**H e y d ə r Ə l i y e v:** Cərrahiyyə əməliyyatından sonra özümü necə hiss etdiyimi müəyyənləşdirmək üçün 3–4 saatlıq müayinə lazım idi. Amma oraya yüksək hərarətlə gəldim. Odur ki, müayinə sonraya qaldı. Məni pnevmoniyadan müalicə etməyə başladılar. Buna görə də orada ləngidim. Amma, gördüyünüz kimi, bəzi yaramaz adamlar var, onlar müxtəlif şayiələr yaymışdılar... Bununla əlaqədar həmin gün çoxlu zənglər oldu, Azərbaycanda böyük narahatlıq yaranmışdı.

**M ü x b i r:** Siz bunu təsadüfi səhv hesab edirsiniz, yoxsa bu kimlərəsə sərfəlidir?

**H e y d ə r Ə l i y e v:** Xeyr, bu, təsadüfi bir səhv deyildir. Biz bunun haradan, necə baş verdiyini araşdıracağıq. Biz bəzi şeyləri bilirik.

**M ü x b i r:** Rusiyada belə bir inanc var: kimi ki, səhvən ölmüş hesab edirlər, onun ömrü uzun olur. Bu, Rusiyada özünü doğrultmuş inancdır.

**H e y d ə r Ə l i y e v:** Elə Azərbaycanda da belə bir inanc var ki, əgər kiminsə haqqında bu cür şayiələr yayırlarsa, deməli, onun ömrü xeyli uzanır. Bilirsinizmi, prinsipcə, mən bu şayiələrə sakit yanaşdım. Ona görə ki, sağlamam, mən sadəcə olaraq, öz xalqıma görə narahat idim. Ümumiyyətlə isə, dedim, qoy düşünsünlər ki, mən o dünyadayam, amma yenə qayıdacağam.

**M ü x b i r:** Azərbaycan prezidenti 20 dəqiqəyədək suallara cavab verdi. O, ikitərəfli əlaqələrin inkişafına nikbinliklə baxır və Rusiya prezidentinin Bakıya səfərini gözləyir.

**H e y d ə r Ə l i y e v:** Mən xəstəxanada olarkən Vladimir Vladimiroviç mənə zəng vurdu. Biz bəzi məsələləri müzakirə etdik, o cümlədən bir daha təsdiqlədik ki, o, noyabrda Azərbaycana rəsmi səfərə gələcəkdir.

---

* Həmin gün «Vremya» proqramında bu barədə verilmiş xəbərin mətni «Azərbaycan» qəzetində (1 oktyabr 2000-ci il) dərc edilmişdir.

## LONDONDAN BAKIYA QAYIDARKƏN
## BİNƏ HAVA LİMANINDA ÇOXSAYLI
## JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*29 sentyabr 2000-ci il*

**S u a l: Cənab Prezident, biz Sizi Azərbaycanda görməkdən çox şadıq. Sizin yolunuzu çox böyük həsrətlə gözləyirdik. Yayılan yalan şayiələrdən, qərəzli xəbərlərdən Azərbaycan xalqı böyük həyəcan içində idi. Sizə «Həmişə ayaq üstə» deyirik. Sizcə bu şayiələrin yayılması düşünülmüş təxribat idi, yoxsa təsadüfi xarakter daşıyırdı?**

**C a v a b:** Əlbəttə, bu, təsadüfi xarakter daşımır. Yəqin ki, bunu araşdırmaq lazımdır və biz araşdıracağıq. Bunlar ilk dəfə hansı mənbədən çıxıb, onu tapacağıq.

Londonda oteldə axşam gəlib mənimlə görüşmək istədilər. Amma gec idi. Mən səhər çıxanda beş-altı nəfər, o cümlədən ORT-dən nümayəndələr var idi, çəkirdilər. Onlar da soruşurlar ki, bu nə məsələdir, nədir? Mən də dedim – gülə-gülə – bilirsiniz nə var: iş bundadır ki, doğrudan mən orada olanda dedim, «Bir gedim o dünyanı görüm, nə var, nə yox. Getdim, iki gün gəzdim, onlarla tanış oldum. Azərbaycandakı vəziyyət haqqında söhbət etdik. Dedilər ki, narahat olmayın, biz buradan baxırıq. Azərbaycanda hər şey yaxşıdır və biz sənə deyirik ki, sənin işlərin həmişə yaxşı gedəcəkdir. Ancaq dedilər – oradakılar cəhənnəmlə cənnətin başçıları idilər – o bədxahlar, filanlar ki, var, biz qərar qəbul etmişik, onlar mütləq buraya gələcəklər. Gələndə onları cəhənnəmdə xüsusi bir kameraya yerləşdirəcəyik ki, bir dəqiqənin içində yox olsunlar».

**S u a l: Cənab Prezident, indi özünüzü necə hiss edirsiniz?**

**C a v a b:** Yaxşı hiss edirəm.

Rusiyanın müxbirləri mənə cürbəcür suallar verdilər ki, – Bəlkə indi siz vermirsiniz – bəs bu nədir, niyə belədir? Birincisi bildirir ki, deyirlər bunu Heydər Əliyev özü qəsdən edibdir. Görsün ki, orada nə var, nə yox. İkincisi deyir ki, Heydər Əliyev istəyibdir respublikada sabitliyi yoxlasın və s. Mən dedim ki, sabitlik Azərbaycanda sabitdir. Ona görə bunu yoxlamağa ehtiyac yox idi. Ancaq onlar dedilər, bizim Azərbaycanda da deyirlər: şər deməsən, xeyir gəlməz. Bu atalar sözü ondan ibarətdir ki, kiminsə sağlığında ölüm xəbəri çıxırsa, o adamın ömrü uzun olur.

Mənim Amerikaya getməyimi, səfərimin proqramını siz bilirsiniz. Bir də təkrar etmək istəyirəm, ümumiyyətlə, mən Amerikaya gedəndə fikrim var idi ki, geriyə dönəndə üç-dörd saatlıq Klivlendə gedim. Mən fevralda da oraya getmişdim. Çünki onlar da dedilər, mən də deyirdim, yaxşı olar ki, birinci müddət yoxlayaq, baxaq, görək nə var, nə yox. Amma mən ayın 6-da axşam, BMT-nin iclasının birinci günü özümdə üşütmə hiss etdim. Ancaq əvvəllər də dəfələrlə belə olubdur, mən belə hallara heç fikir verməmişəm.

Ayın 7-də səhər BMT-də mənim çıxışım var idi. Yəqin ki, onu veriblər, eşitmisiniz. Çıxış etdim, ondan sonra bir neçə görüşlərim var idi. Axşama qədər biz məşğul olduq. Axşam isə Amerikanın prezidenti cənab Klinton ziyafət verirdi. Qızımla oraya getmişdim. Ayın 8-də səhər həkim mənə baxdı, dedi ki, çox ciddi qrip var və bir də üşütmə var. Ola bilər, bunun pis nəticəsi olsun. Gəlin proqramı dayandıraq.

Ancaq mənim Vaşinqtonda proqramım var idi. Orada bizim Ticarət Palatasının beş illiyi qeyd olunurdu, konfrans keçiriləcəkdi. Oraya adamlar, çox böyük şirkətlərin nümayəndələrini çağırmışdılar. Dedim ki, onlar hamısı mənimlə görüşməyə, məni dinləməyə gəlirlər. Mən oraya getməsəm, düzgün olmaz. Dedim ki, gedirik.

Mən Amerikaya keçən dəfə, 1997-ci ildə gedəndə ABŞ-ın keçmiş prezidenti Corc Buş məktub göndərdi ki, əgər imkanınız olsa, mənim yaşadığım yerə gəlin, qonağım olun. O vaxt bunu edə bilmədim və məktub yazdım, üzr istədim. Vaxt olmadı. Amma indi yenə gördüm ki, bu məsələ qalxıbdır. O, Portlenddə olur, Vaşinqtondan daha da şimaldadır. Okeanın kənarında özünəməxsus bir malikanəsi var. Amma mən sizə deyim ki, bizim bu Maştağada, Bilgəhdə və s. tikilən malikanələrin yanında o, elə bil ki, birotaqlı panel evdir.

Bilirsiniz, insanlar belədir. Onlar zəngin adamlardır. Zəngin adamlar yüksək mədəniyyətə malik olurlar. Buş özü kasıb adam deyil, uzun illər böyük işlərdə işləyibdir. Ancaq onlar hesab etmirlər ki, bəzənmək, geyinmək, filan, feşməkan – bunlar həyatın mənasıdır. Həyatın mənası deyildir. Həyatın mənası – mənəviyyatdır.

Mən otelə gəldim. Bir saat sonra xəbər verdilər ki, Buş məni aparmağa gələcəkdir. Bir saatdan sonra dedilər, gəlibdir, ancaq otelin yaxınlığında qayıqdadır. İstəyir ki, sizi okeanda qayıqda gəzdirsin. Qayığı da özü sürür, heç kəs yoxdur. Gəldim, balaca bir qayıqdır. Orada bir o, bir mən, bir də iki-üç nəfər bizim uşaqlar idik. Sürdü, oraları göstərdi, izahat verdi. Bəzi hallarda da çox yüksək sürət verirdi ki, mən görüm, hansı sürətlə gedir.

Sonra onun evinə gəldik. Orada beş saat çox ətraflı söhbət elədik. Amerikanın bir neçə böyük siyasi xadimləri də var idi. Söhbət etdik. Ondan sonra mən otelə gəldim. Həkim mənə dedi ki, sizin vəziyyətiniz çətinləşir, üşütmə, ola bilər, daha da pis nəticə versin. Qrip də var, hərarətiniz də var. Gəlin Vaşinqtona

getməyək, elə buradan uçaq. Dedim, yox. Mən həyatım boyu öz sağlamlığımı, başqa şəxsi işlərimi ümumi işə qurban vermişəm. Mən bunu edə bilmərəm.

Getdik Vaşinqtona. Orada həftənin birinci günü, sentyabrın 11-də səhər tezdən Ticarət Palatasının konfransı idi. 400-ə qədər adam toplaşmışdı. Gəldim, orada nitq söylədim. Yəqin ki, televiziya ilə onu da veriblər. Gördünüz və hiss etdiniz ki, orada çox cəsarətli sözlər dedim.

Ticarət Palatası orada yeni bir bina götürübdür. Onun açılışı olmalı idi. Gəldilər ki, bəs, gərək onu Siz açasınız. Mən oraya getdim. Axşam da mənim şərəfimə böyük bir ziyafət verdilər. Təxminən 350-yə yaxın adam var idi. Mənə orada həkim də dedi, başqaları da dedilər ki, bilirsiniz, iki çıxış olacaqdır. Birini Bjezinski, birini də Siz edəcəksiniz. Siz danışandan sonra gedə bilərsiniz. Dedim, yaxşı.

Hörmətli Bjezinski danışdı, ondan sonra mən danışdım. Yəqin siz onu da eşitmisiniz. Bjezinskinin iki tezisi ilə mən həm sabitlik, həm də demokratiya haqqında Azərbaycana aid olan fikirlərimi söylədim. Oturandan sonra çox dedilər ki, gedin. Ancaq bilin, mənim xasiyyətim budur: fikirləşdim ki, buraya 350 adam gəlibdir, yemək yeyirlər, söhbət edirlər. Mən isə gəldim, nitq söylədim və çıxıb getdim. Bu, hörmətsizlik olacaqdır. Axıra qədər oturdum. Təxminən üç saat oturduq.

Axşam gəldik, gördüm ki, vəziyyətim yenə də ağırlaşır. Yəni hərarətim çox qalxdı. Səhər oradan Klivlendə gəldik. Əvvəl mən nəzərdə tuturdum ki, Klivlendə gəlib müayinə olunacağam. Ancaq Klivlenddə baxan kimi dedilər ki, yox, müayinə lazım deyil, əvvəlcə Sizi müalicə etmək lazımdır. Siz çox şiddətli qrip tutmusunuz, soyuqlamısınız və pnevmoniya başlayıbdır. Pnevmoniya elə xəstəlikdir ki, gərək onu bir ay müalicə edəsən. Ancaq orada çox yüksək səviyyəli mütəxəssislər var. Onlar intensiv müalicə apardılar. Əvvəlcə hərarətimi endirdilər. Sonra onlar təhqiqatlar apardılar, hamısını etdilər və hərarətim enəndən sonra başqa tədqiqatları da mənim ürəyimlə əlaqədar apardılar.

Bütün hamısını etdilər. Dedilər ki, bir-iki gün də burada qalın, istirahət edin, sonra gedərsiniz.

Bir şeyi də deyə bilərəm ki, mənim müayinəmlə əlaqədar oraya çox böyük kardioloqlar toplaşmışdılar.

Onlar həm mən cərrahiyyə əməliyyatından çıxandan sonrakı göstəricilərin, həm də fevral ayında müayinəm zamanı olan göstəricilərin hamısını görmüşdülər. Hamısı bir ağızdan dedi ki, indi sizin ürəyinizin vəziyyəti fevral ayındakından xeyli yaxşıdır.

Ondan sonra siz məlumat verdiniz ki, Heydər Əliyev «vəfat edibdir». Məni narahat edən o idi ki, bizim xalqımız burada narahatdır. Mən tez telefon etdim. Bakı vaxtı ilə gecə saat dörd idi. Ramiz Mehdiyevə telefon etdim və dedim, belə bir şey var. Bu şayiə bizə gəlibdir, bəlkə hələ sizə gəlməyibdir. Ancaq siz orada baxın, tədbirlər görün. Sonra yəqin ki, hər şey aydın oldu.

Mən bunda da mənfi heç bir şey görmürəm. Mənim üçün çox əhəmiyyətli o idi ki, ölkəmizin vətəndaşları Heydər Əliyevi nə cür qiymətləndirir və münasibəti nədən ibarətdir. Mənə verilən məlumatlara görə vətəndaşlarımızın tam əksəriyyəti böyük çaşqınlıq, böyük təlaş içində idilər. Sevinənlər də var idi. Onların bəziləri məlumdur, bəziləri məlum deyil. Elə bu fakt əsas verir ki, məlum olmayanları araşdırıb tapaq.

Bunu mənim barəmdə xalqın fikrinin bir daha yoxlanması hesab edirəm və müsbət nəticəsi təbiidir ki, təkcə mənə yox, bütün millətimizə, dövlətimizə, bizim xalqımıza lazımdır. Ona görə də bu bir macəra olubdur və ola bilər, indiyə qədər analoqu olmayan macəra olubdur. Amma mən elə adamam ki, başıma çox macəralar gəlibdir. Yəqin, bu da olmalı idi.

**S u a l: Cənab Prezident, ömrü insana Allah verir. Biz də Sizə Allahdan uzun ömür, cansağlığı arzulayırıq.**

**Sizin ABŞ-a səfəriniz Qərb mətbuatının, Rusiya mətbuatının diqqət mərkəzində oldu. Xüsusən də Corc Buşla görüşləriniz Rusiya mətbuatında böyük maraq doğurdu. Hətta bunu kiçik Corc Buşun prezidentliyə namizədliyə ilə də əlaqələndirirlər. Yəni Azərbaycanın xeyrinə. Bunu necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bilirsiniz, mən orada seçkiyə təsir edən deyiləm, yaxud da gözləyəm ki, indi gənc Corc Buş seçiləndən sonra Azərbaycana nə münasibət göstərəcəkdir. Heç mənim ağlıma da gəlmirdi. Sadəcə, gənc Corc Buşun atası ilə mən keçmiş zamandan tanışam. Ona görə də yenə də deyirəm, o ikinci dəfə müraciət edəndə ki, gəl, mən oraya getdim.

**S u a l: Cənab Prezident, yayılmış şayiəni Siz daxili, yoxsa xarici qüvvələrin cəhdi kimi qiymətləndirirsiniz?**

**C a v a b:** Bilirsiniz, indi mən qəti bir fikir deyə bilmərəm. Təbiidir ki, burada həm xarici qüvvələrin… bilirsiniz də, prezident iddiası ilə xarici ölkələrdə yaşayan bir nəfər Amerikada oturubdur, o birisi Moskvada oturubdur. Mən orada qəzetlərə baxırdım. Son zamanlar onlar daha da fəallaşıblar. Bu, onlar – imanımı itirə bilmərəm – bəlkə başqa kiminsə tərəfindən olubdur. Hər halda bu, xüsusi məqsəd üçün edilmişdir. Məqsədi də dedim, öz «müsbət» nəticələrini verdi.

**S u a l: Cənab Prezident, Sizinlə Robert Köçəryanın Amerikadakı görüşündən sonra Köçəryan Rusiyanın ORT televiziyası ilə belə bir çıxış etdi ki, Dağlıq Qarabağ münaqişəsi danışıqlar yolu ilə həll**

**oluna bilər. Amma bir şərtlə ki, Dağlıq Qarabağ danışıqlarda tərəf kimi iştirak etsin. Azərbaycan bu şərtlə razılaşacaqmı?**

**C a v a b:** Bilirsiniz ki, bu şərt birinci dəfə deyil, bunu 5–6 ildir qoyurlar ki, Dağlıq Qarabağ tərəf kimi çıxış etsin. Hətta mənə məlumat verdilər ki, Mütəllibov – Azərbaycanı dağıdıb gedib – orada otura-otura, deyir ki, bəli, Dağlıq Qarabağ tərəf kimi iştirak etməlidir. Əgər tərəf kimi iştirak etməlidirsə, bəs onda sən bunu niyə tərəf kimi qəbul etmirdin? Onlar torpaqları işğal edirdilər. Sən də, sənin adamların da Bakını dağıdırdınız.

Görürəm, indi müxalifət qəzetləri çox böyük yazılar verirlər, onun portretlərini verirlər ki, o, Azərbaycana gələcək, nə bilim, milyon imza toplanıbdır. Mən tapşıracağam, deyəcəyəm ki, milyon yox, heç olmasa 50 min imzanı gətirin baxaq, görək, haradandır. Bunlar hamısı uydurmalardır, yalanlardır.

**S u a l: Cənab Prezident, bəs Putinin sözlərinə münasibətiniz necədir? O belə bir ifadə işlədib ki, bu problemin həllini Rusiyadan gözləyirlər, yəni Rusiyadan çox şey asılıdır, lakin Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyadan asılı heç nə yoxdur.**

**C a v a b:** Asılı heç nə yoxdur deməyibdir. Bu, təbii cavabdır. Çünki heç bir ölkə istəmir ki, desinlər, o hansısa bir ölkənin daxili işinə qarışır. Bu cavab tamamilə normal cavabdır və bundan narahat olmağa dəyməz.

Mən təyyarədə qəzetlərə baxırdım. Elə bu fikri o yana, bu yana fırladırlar. Məsələn, mən xəstələnib Klivlenddə olduğum ikinci gün idi ki, Putin mənə telefon etdi. Narahatlığını bildirdi ki, nə olubdur. Çünki biz onunla Nyu-Yorkda bir neçə dəfə görüşmüşdük. Mən ona izah etdim. Sonra bir-iki başqa məsələ də var idi. Mən onu Azərbaycana dəvət etmişəm. O da söz vermişdi ki, noyabr ayında gələcəkdir. İndi bəlkə ürəyinə gəlib ki, bir halda, Heydər Əliyev xəstədir, bəlkə noyabr ayında gəlmək mümkün deyildir. Dedim, yox, noyabr ayında biz Sizi gözləyirik. O, Azərbaycana gələcəkdir.

Ümumiyyətlə, mənə çox zənglər olurdu, teleqramlar gəlirdi. Məsələn, Eduard Şevardnadze zəng elədi, dedi ki, bu xəbəri eşidəndə şok vəziyyətinə düşmüşdüm. Süleyman Dəmirəl tez-tez zəng edirdi. Türkiyənin prezidenti Əhməd Necdət Sezər, çox adamlar zəng edirdi. Bilirsiniz, adam xəstəxanada olanda bu şeyləri heç o qədər də qəbul etmir, yəni bunlara o qədər fikir vermir.

**S u a l: Cənab Prezident, əgər Amerika Birləşmiş Ştatlarının Konqresi «erməni soyqırımı»nın tanınması barədə qərar qəbul etsə, Azərbaycan Amerika ilə münasibətlərində nəsə bir dəyişiklik etmək fikrində olacaqmı?**

**C a v a b:** Təbiidir ki, bu bir az narahatedici məsələdir. Narahatedici məsələdir ona görə ki, son 10–15 ilə qədər Ermənistan heç vaxt – ola bilər öz aralarında, qəzetlərində olub – belə şeyləri qaldırmamışdır. Türkiyə onlara qarşı soyqırımı edibdir, və s. Amma son vaxtlar bu məsələni qaldırıblar. Konqresdə bir komitə var. O komitənin bir kiçik hissəsi, bir də böyük hissəsi var. Onun da başında duran konqresmen Smitdir. O, Azərbaycanın, Türkiyənin bir nömrəli düşmənidir və 907-ci maddənin qəbul olunmasında əsas rol oynamış adamdır.

Məsələn, bilirsiniz ki, senator Braunbək İpək yolu ilə əlaqədar Nyu-Yorkda böyük bir konfrans keçirdi. Mən keçən dəfə, 1999-cu ilin aprel ayında orada olanda da Senatın binasında belə bir böyük konfrans keçirilmişdi. Görürsünüz, İpək yolunun bərpa olunmasında təşəbbüskarlardan biri bizik. Senator Braunbəkin qanun layihəsi müzakirəyə gələndə həmin Smit və başqaları canfəşanlıq ediblər və oradan Azərbaycanın adını çıxarıblar. Hətta mənə dedilər ki, Pop Doul var, bilirsiniz, keçən dəfə Klinton ilə bərabər öz namizədliyini vermişdi. İndi o, heç konqresmen də deyil, heç bir şey deyildir. Amma həmişə orada olan konqresmenlərin, vəzifədə olan ermənipərəst adamların başında durubdur. Hətta o öz tərəfdaşlarını daha da gücləndirmək üçün həmin müzakirəyə gəlib ki, siz mütləq bunu etməlisiniz.

Mən bu Smit haqqında niyə deyirəm, dərd, bax bundadır: o, Azərbaycanın düşmənidir, Azərbaycandan gedən müxalifət nümayəndələri də birinci onunla görüşürlər. Başqaları görüşmək istəmir. Amma o görüşür. Ona görə görüşmür ki, Azərbaycana məhəbbəti var. Yaxud görüşür ona görə yox ki, Azərbaycanda həqiqətən onların anlayışı ilə tam demokratiya yaratmaq lazımdır. Sadəcə, ona belə bir fürsət lazımdır.

Məsələn, bilirsiniz ki, bir neçə ay bundan qabaq oraya getmişdilər. Mərhum Əbülfəz Elçibəy də, Rəsul Quliyev də, İsa Qəmbərov da, Nazim İmanov da gedib o adamın qabağında oturmuşdular ki, azərbaycanlıların başını kəsmək lazımdır. Orada hər biri yarışa girib «sübut» edirlər ki, Azərbaycanda demokratiya yoxdur, diktaturadır. İndi gəlin açıq danışaq. Elə hər şeyi demokratiya həll edir? Azərbaycanda demokratiya var və artıq dərəcədə var. Mən bunu Vaşinqtondakı çıxışımda dedim. Amma indi siz hansı demokratiyanı istəyirsiniz? Bu, birincisi. İkincisi, yeddi ildir ki, bu sabitliyi yaratmışıq. Yeddi ildir ki, ölkəmiz, xalqımız rahat yaşayır.

Məsələn, indi mən təyyarə ilə gələndə illüminatordan baxırdım. Bizim şəhərimiz nə qədər gözəl görünür! Mənim ürəyim dağa döndü.

İndi görün, bu adamlar gedib orada Dağlıq Qarabağın işğal olunması haqqında mübarizə aparsaydılar, ona 907-ci maddə ilə bağlı sözlər desəydilər – çünki bu maddənin təşəbbüskarı odur... Amma bunlar gedib onun qabağında uşaq kimi oturublar, hər biri də yazdıqları mətni oxuyublar. Biri istəyib ki, ingilis dilində oxusun. Amma deyiblər, biz başa düşmədik, bu, çin dilindədir, ya ingilis dilindədir. O birisi özü oxumayıb, kiməsə veribdir.

İndi həyatımız belədir. Bunun eybəcərliyi ondan ibarətdir ki, bizim ən böyük problemlərimiz kənarda qalıbdır. Məsələn, Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması. Siz görürsünüz, 1999-cu ilin aprel ayından indiyə qədər mən səkkiz dəfə, bilmirəm, neçə dəfə Köçəryan ilə görüşmüşəm. Amma təkcə Köçəryan deyil axı. Mən Putin ilə də bu barədə çox geniş söhbət aparmışam. Klinton ilə də keçən il noyabr ayında İstanbulda zirvə görüşündə çox geniş söhbətlər aparmışam. Başqalarını demirəm.

Yəqin bilirsiniz, burada televiziyada veriblər. Xanım Olbrayt ilə görüş oldu. Mən orada Azərbaycanın mənafeyinə çox açıq-aydın sözlər dedim. Dedim, neçə ildir siz deyirsiniz ki, 907-ci maddə ləğv olunacaq, ləğv olunmur. Biz ümid edirdik ki, siz Minsk qrupunun həmsədri olandan sonra həqiqətən bu işdə daha da fəal olacaqsınız, amma fəallığınızı görmürəm.

Bilirsiniz, deyirlər burda bunun hüququ tapdalanıb, onun hüququ pozulubdur. Ola bilər, beş–on adamın hüququ pozulsun. Mən onlara deyirdim, bəs bir milyon adamın hüquqları pozulub, onlar səkkiz ildir çadırlarda yaşayırlar. Əgər doğrudan da siz həqiqətən hüquq tərəfdarısınızsa, insan hüquqları tərəfdarısınızsa, bu məsələni həll edin. Müxalifətdən kiminsə nəsə bir balaca xoşuna gəlmədi, tezcə o Smitdir, nə bilim, kimdir, ona xəbər verir. Onlar da deyirlər ki, Azərbaycanda insan hüquqları pozulur. Mən orada dedim – nə düşmüsünüz? Azərbaycanda insan hüquqları pozulmur. Azərbaycanda demokratiya inkişaf edir və Azərbaycanın xüsusiyyətinə görə, milli ənənələrinə görə bu inkişaf prosesi davam edəcəkdir.

Məsələn, Bjezinski dedi ki, 30 il bundan əvvəl Amerikada əhalinin bir hissəsi səsvermə hüququndan məhrum idi. Orada təkcə qaralar deyil, qadınlar da səsvermə hüququndan məhrum idilər. Dedim, görün Amerika – ən inkişaf etmiş dövlət və demokratiya sahəsində ən yüksəkdə duran dövlət 30 il bundan qabaq nə işlər görübdür. İndi siz istəyirsiniz ki, biz 7–8-9 ildə elə edək ki, buradakı demokratiya Amerika demokratiyasından yüksəkdə dursun. Amerikanın özündə də demokratiya o qədər yoxdur. Bilirsinizmi? Ona görə mənim dərdim, mənim bütün məqsədim, gördüyüm işlər və bundan sonra görəcəyim işlər yalnız və yalnız Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, o insanları öz yerlərinə qaytarmaqdır. Ondan sonra gəlsinlər, kimin hüququ pozulubdur, biz ona cavabdeh olacağıq.

**S u a l: Cənab Prezident, Sizin tənqidi çıxışlarınızdan biri də Vaşinqtonda olubdur. ABƏŞ-ə daxil olan bəzi şirkətləri tənqid etmisiniz ki, Bakı–Ceyhan layihəsi ilə bağlı işləri ləngidirlər. «Eksson Mobil»dən sonra «LUKoyl» şirkəti də Bakı–Ceyhandan imtina edir. Sizcə, bu, Bakı–Ceyhanın tikintisini ləngidə bilərmi?**

**C a v a b:** Mən «LUKoyl» haqqında heç bir şey bilmirəm. Mən orada «Eksson»un adını çəkdim. «Eksson»un prezidenti orada idi. O hətta Amerika–Azərbaycan Ticarət Palatasının həmsədridir. Orada elədir ki, bir müddətdən sonra sədr dəyişir. Ona orada bir mükafat da verdilər. Mən dedim ki, sizin şirkətlər, xüsusən «Eksson» şirkəti Bakı–Ceyhanın tezliklə başlanmasını əngəlləyirlər. Amma «LUKoyl» haqqında eşitməmişəm. İnanmıram ki, belə şey eləsin.

**J u r n a l i s t: Cənab Prezident, bədxahlarınız Sizin haqqınızda nə qədər şayiələr yaysalar da, əmin ola bilərsiniz ki, Azərbaycan xalqı bunların heç birinə inanmırdı. Çünki Azərbaycan televiziyası bu yaxınlarda Sizin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəriniz barədə silsilə verilişlər verdi. Bu verilişlərdə Siz cəsarətlə, əzmlə çıxış edirdiniz. Bu gün də sübut etdiniz ki, bəli, Sizin cəsarətiniz yerindədir, Siz həmişə əzmkarsınız.**

**H e y d ə r Ə l i y e v:** Sağ ol. Çox sağ ol. Mən də belə düşünürəm.

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOHANNES RAUYA**

Hörmətli cənab Prezident!

Almaniya Federativ Respublikasının milli bayramı – Alman Birliyi gününün 10-cu ildönümü münasibətilə Sizi və dost alman xalqını səmimi-qəlbdən təbrik edirəm.

Biz Almaniya Federativ Respublikasının müvəffəqiyyətlərini rəğbətlə izləyir, onunla dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafını yüksək qiymətləndiririk.

Birləşməsindən keçən illər ərzində Avropada və dünyada sülhün və tərəqqinin mühüm amilinə çevrilmiş vahid Almaniya Federativ Respublikası ilə Azərbaycan Respublikası arasında səmimi əməkdaşlıq və dostluq əlaqələri mövcuddur və əminəm ki, ölkələrimizin qarşılıqlı münasibətləri getdikcə genişlənib dərinləşərək xalqlarımızın rifahına xidmət edəcəkdir.

Cənab Prezident, Sizə cansağlığı və uğurlar, ölkənizə firavanlıq və əmin-amanlıq arzulayıram.

*Hörmət və ehtiramla,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 sentyabr 2000-ci il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB GERHARD ŞRÖDERƏ**

Hörmətli cənab kansler!

Almaniya Federativ Respublikasının milli bayramı – Alman Birliyi gününün 10-cu ildönümü münasibətilə Sizi və dost alman xalqını salamlayır və ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və səadət, alman xalqına sülh, əmin-amanlıq və daha böyük tərəqqi diləyirəm.

Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında səmimi dostluq və əməkdaşlıq əlaqələri yaranıbdır. Biz bunu yüksək qiymətləndiririk, bu əlaqələrin daim genişlənməsinə çalışırıq.

Əminəm ki, ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətləri hərtərəfli genişlənərək xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Zati-aliləri, bayram münasibətilə Sizi bir daha təbrik edir, alman xalqına uğurlu gələcək və xoş günlər, böyük imkanları olan Almaniya Federativ Respublikasına, onun hökumətinə, dövlətinə Avropada, bütün dünyada sülhün, əmin-amanlığın qorunub saxlanmasında müvəffəqiyyətlər arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 sentyabr 2000-ci il*

**QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LANSANA KONTEYƏ**

Hörmətli cənab Prezident!

Qvineya Respublikasının milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizə və dost Qvineya xalqına səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Qvineya Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələri inkişaf edib genişlənərək hər iki ölkənin mənafeyinə, bütün dünyada sülhün və əmin-amanlığın möhkəmlənməsinə xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 sentyabr 2000-ci il*

**LESOTONUN KRALI**
**ƏLAHƏZRƏT III LETSİYEYƏ**

Əlahəzrət!

Lesoto Krallığının milli bayramı – Müstəqillik günü ilə əlaqədar olaraq Sizi, kral ailəsinin üzvlərini və dost Lesoto xalqını səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, ölkələrimiz arasındakı əlaqələr genişlənərək xalqlarımızın rifahının yüksəlməsinə, dünyada sülhün və əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edib Sizə cansağlığı və səadət, ölkənizin bütün vətəndaşlarına sülh, tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 sentyabr 2000-ci il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TSZYAN TSZEMİNƏ**

Hörmətli cənab sədr!

Çin Xalq Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə sizi və dost çin xalqını ürəkdən salamlayır və təbrik edirəm.

Böyük intellektual və iqtisadi potensialı olan Çin Xalq Respublikasının Dünya Birliyində sanballı yeri vardır və o, beynəlxalq həyatda mühüm rol oynayır.

Dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycan Respublikası Çin Xalq Respublikası ilə münasibətlərinin hərtərəfli inkişafına böyük əhəmiyyət verir.

Əminəm ki, son illərdə ardıcıl surətdə genişlənən əməkdaşlığımız xalqlarımızın mənafeyi naminə getdikcə möhkəmlənəcəkdir.

Hörmətli cənab sədr, fürsətdən istifadə edib sizə cansağlığı və uğurlar, Çinin bütün vətəndaşlarına sülh, tərəqqi və firavanlıq arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 sentyabr 2000-ci il*

**NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Mustəqillik günü münasibətilə Sizi və dost Nigeriya Federativ Respublikasının xalqını səmimi-qəlbdən təbrik edir, Sizə cansağlığı və səadət, ölkənizə sülh, tərəqqi və firavanlıq arzulayıram.

Ümidvaram ki, ölkələrimiz arasında qarşılıqlı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyi naminə getdikcə genişlənəcək, bütün dünyada sülhün və əmin-amanlığın möhkəmlənməsinə xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 sentyabr 2000-ci il*

## PREZİDENT SARAYINDA KEÇİRİLƏN MÜŞAVİRƏDƏ* NİTQ

*2 oktyabr 2000-ci il*

Hörmətli xanımlar və cənablar! Sizi xoş gördük.

Mən ən əvvəl istəyirəm sizi, bütün Azərbaycan xalqını, millətimizi olimpiya oyunlarında əldə edilən nailiyyətlərə görə təbrik edim. Azərbaycan ilk dəfədir ki, olimpiya oyunlarında belə yüksək səviyyəyə qalxmışdır.

Azərbaycan keçmiş Sovetlər İttifaqının tərkibində olarkən respublikamızın idmançıları olimpiya oyunlarında iştirak etmişdilər. Elə vaxtilə Avstraliyada keçirilmiş olimpiya oyunlarında iştirak etmişdilər. Xatirimdədir, 1980-ci ildə olimpiya oyunları Moskvada keçirilirdi, mən orada idim. Bizim idmançılarımız orada da çıxış etmişdilər. İdmançılarımız dörd il bundan öncə Atlantada keçirilən olimpiya yarışlarında olmuşdular. Ancaq heç vaxt bu cür – Sidneydə olduğu kimi, gözəl nailiyyətlər əldə edilməmişdir.

Bu, birinci növbədə bizim dövlət müstəqilliyimizin bəhrəsidir. Çünki insanlar həmin insanlardır, idmançılar həmin idmançılardır. Ancaq onlar öz vətənini, torpağını, dövlətini sevərək fədakarcasına çalışmışlar və bu nailiyyətlə bizi – hamımızı, bütün Azərbaycan xalqını sevindirmişlər.

Onlar gələcək, biz görüşəcəyik, lazım olan sözləri də deyəcəyik. Amma indi mən olimpiya oyunlarında iştirak edən bütün Azərbaycan nümayəndələrinə və xüsusən iki qızıl, bir bürünc medal əldə edərək Azərbaycanın bayrağının qaldırılmasına, himninin çalınmasına görə idmançıların hamısına təşəkkür edirəm.

Təbiidir ki, bu, son illər Azərbaycanda idmana, bədən tərbiyəsinə göstərilən qayğının nəticəsidir. Amma eyni zamanda, bu qayğı keçmişdə də olubdur. Mən onu demək istəyirəm ki, indi idmançılarımız bizim bu qayğıdan səmərəli istifadə edə biliblər, yaxşı işlər görüblər. Azərbaycanda idman inkişaf edibdir. Bu cür nailliyyətlər əldə etmək heç də asan deyildir. Məsələn, mən bu gün cədvələ baxıram, Azərbaycan 198 dövlətin idmançıları içərisində 34-cü yeri tutubdur. Bu, böyük hadisədir, tarixi hadisədir.

Yaxud, MDB dövlətlərini götürək. Rusiya, Ukrayna, Belarus, Qazaxıstan, ondan sonra Azərbaycandır. Amma vaxtilə biz Sovetlər İttifaqının tərkibində olanda azərbaycanlılar heç Ümumittifaq yarışlarında da bu cür yüksək göstəricilərə nail ola bilmirdilər.

Bunun əsası odur ki, xalqımız vətəninə, millətinə sadiqdir. Xalqımız və onun bir hissəsi olan gənclər, idmançılar ləyaqətlə çalışıblar, mübarizə aparıblar və bu nailiyyətləri əldə ediblər.

Son bir neçə ildə Azərbaycan dövlətinin, hökumətinin idmana, bədən tərbiyəsinə qayğısı ilə yanaşı, təbiidir ki, bu məsələ ilə bilavasitə məşğul olan adamların xidmətləri xüsusi qeyd olunmalıdır. Azərbaycan Milli Olimpiya komitəsinin və onun prezidenti İlham Əliyevin, Gənclər və İdman Nazirliyinin, nazir Əbülfəs Qarayevin, onlarla əməkdaşlıq etmiş, müxtəlif yardımlar göstərmiş bir çox təşkilatların bu nailiyyətlərin qazanılmasında xüsusi rolu vardır.

Yenə də deyirəm, bu, sevindirici bir hadisədir. Bildiyimə görə, onlar sabah vətənə dönürlər. Hesab edirəm ki, gərək onlar təntənə ilə qarşılansınlar. Mən Ramiz Mehdiyevə, Fatma Abdullazadəyə və şəhər icra hakimiyyətinin başçısı Rəfael Allahverdiyevə tapşırıram ki, bunu necə etmək barədə fikirləşsinlər. Bu gün bunu müəyyənləşdirmək lazımdır.

Mən bu günlər burada olmamışam, amma siz buradakı əhval-ruhiyyəni görmüsünüz. İdmançılarımız birinci qızıl medal alanda mənə telefon edərək dedilər ki, insanlar küçəyə çıxıb sevinirlər. Sonra bir neçə görüşlərdə, yəni yarışlarda bizim idmançılar beşinci, altıncı, yeddinci yerə çıxdılar. Bu da böyük nailiyyətdir. 198 ölkədən çoxunun idmançılarının sayı Azərbaycan idmançılarından bir neçə qat artıq olmasına baxmayaraq, bizim idmançılarımız bu cür yerlər qazandılar. Nəhayət, ikinci qızıl medalın alınması bu məsələyə tam yekun vurdu.

Mən xəstəxanada idim, lakin təbiidir ki, maraqlanırdım, Sidneylə hər gün telefonla danışırdım. İlham Əliyev mənə məlumatlar verirdi. Olimpiada axıra çatırdı, mən soruşdum ki, bəs, nə oldu? Bir qızıl, bir bürünc medal qazanmısınız, sonra? Dedi ki, narahat olmayın. Mənə yenə telefon edərək məlumat verdilər ki, bizim idmançımız Namiq Abdullayev də qızıl medal qazandı.

Təkrar edirəm, biz onları layiqincə qarşılamalıyıq. Sonra yəqin ki, onlarla görüşlər keçirəcəyik. Bizim ölkəmizdə idman, bədən tərbiyəsi, gənclərin fiziki hazırlığı bu nailiyyətlərin əsasında bundan sonra daha da yaxşı təşkil oluna bilər. Çünki gənclərdə ruh yüksəkliyi əmələ gəlibdir. Bilirsiniz ki, bu da çox böyük amildir. Bəzən insan çalışır, ancaq nail olduğu qiyməti ala bilmir, sonra həvəsdən düşür. Sidneydə bizim komandamız

* Müşavirədə Milli Məclis sədrinin müavinləri, Baş nazirin müavinləri, Prezidentin İcra Aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri və digər rəsmi şəxslər iştirak edirdilər.

say hesabı ilə böyük tərkibdə deyildi. Amma baxın, görün necə gözəl nəticələr əldə ediblər. Bizim komandamız 198 ölkə içərisində 34-cü yerdədir. Bununla fəxr etmək olar.

İkinci məsələ. Mən bir müddətdir ki, ölkədə olmamışam, uzaqda, Amerikada olmuşam. Mən bu barədə məlumatlar vermişəm, bizim televiziya, radio bunları yayıbdır. Nyu-Yorkda, Vaşinqtonda bütün proqramlarımı həyata keçirəndən sonra – baxmayaraq ki, Nyu-Yorkda axırıncı gün xəstə idim – mən Klivlendə getdim. Doğrudur, bu mənim proqramımda var idi. Mən dörd-beş saatlıq orada olmalı idim. Vaşiqtondan Klivlendə təyyarə ilə bir saatlıq yol var. Mən həkim müayinəsindən keçməli idim. Bizim məqsədimiz məhz belə idi.

Amma xəstəlik ağır oldu, soyuqdəymə, qrip bir-birinə qarışdı, hərarətim qalxdı. Məndə pnevmoniya başladı. Yaxşı ki, mən orada yüksək səviyyəli klinikada oldum. Onlar mənə çox böyük hörmətlə, diqqətlə qayğı göstərdilər, məni müalicə etdilər. Onu da sizə deyim ki, Amerika Birləşmiş Ştatlarının hökuməti mənim səhhətim və müalicəmin gedişi haqqında daim, hər gün məlumatlar alırdı. Bilirsiniz ki, xanım Olbrayt mənə telefon etdi, biz xeyli danışdıq. Prezident Bill Klinton mənə telefon etdi, öz narahatlığını bildirdi, eyni zamanda dedi ki, Klivlenddə hər şey müalicə olunur. Vitse-prezident Albert Qor mənə məktub yazdı. Təbiidir ki, mənə başqa ölkələrdən də telefon zəngləri oldu, məktublar aldım. Amma əsas bu deyil, əsas odur ki, müalicə olunub qurtardım.

Bir daha qeyd edirəm, Amerika Birləşmiş Ştatlarının hökuməti – prezidentdən başlayaraq, aşağı təbəqəyə, mərtəbəyə qədər – mənə orada çox böyük qayğı və diqqət göstərdilər.

Mən bir müddət ölkədə olmamışam. Burada olmadığım zaman mən Ramiz Mehdiyev ilə, Artur Rasizadə ilə, Murtuz Ələsgərov ilə daim əlaqə saxlayırdım. Ola bilər, iki gün – çox yüksək hərarətim olan zaman danışa bilməmişdim. Mən məlumatlar alırdım və çox məmnun idim ki, Azərbaycanda işlər normal məcrada gedir.

Mən bu gün sizi buraya topladım ki, birincisi, sizinlə görüşüm. Yəqin ki, siz də məni görmək istəyirdiniz. İkincisi də, istəyirdim qısa bir məlumat alım ki, mən burada olmayanda hansı işlər görülüb və bundan sonra nə etmək lazımdır.

* * *

### Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyevin çıxışı

Cənab Prezident!

Bu müddətdə respublikada bütün işlər, demək olar ki, Sizin fərmanlarınız, sərəncamlarınız, tapşırıqlarınız əsasında qurulmuş və həyata keçirilmişdir. Bütün orqanlarla sıx əlaqə saxlanılmış və məsələlər aidiyyati təşkilatlarla birlikdə operativ qaydada, məsləhət əsasında həll olunmuşdur. Bütün bunlar barədə Sizə müntəzəm məruzə olunmuş və bu işlər Sizin tövsiyələriniz əsasında davam etdirilmişdir.

Məşğul olduğumuz məsələlər haqqında Sizə qısa məlumat vermək istəyirəm. Bu gün ölkəni maraqlandıran ən əsas məsələ parlamentə seçkilər məsələsidir. Milli Məclisə seçkilərlə əlaqədar nəzərdə tutulmuş işlərin yerli icra orqanları tərəfindən vaxtında həyata keçirilməsinə nəzarət edilmiş, seçki məntəqələrinin formalaşdırılmasına yardım göstərilmiş, məntəqə seçki komissiyaları üçün bina və otaqlar ayrılması, onların avadanlıqla, rabitə xidməti ilə təchiz edilməsi üçün lazımi işlər görülmüşdür.

Məntəqələrin avtomatlaşdırılması və kompüterləşdirilməsi, seçki siyahılarını tərtib edərək bu məqsədlə yaradılmış mərkəzlərə çatdırılması, seçki dairələrinin hər birinin kompüterlə təmin edilməsi üçün rayon və şəhər icra hakimiyyətlərinə müvafiq tapşırıqlar verilmiş və bunların icrası təmin olunmuşdur.

Cənab Prezident, Sizin tapşırığınıza əsasən ölkədə demokratik seçkilərin keçirilməsini təmin etmək üçün işlər müasir texnologiya əsasında həyata keçirilir. Bu müddətdə çox geniş işlər görülübdür. Mərkəzi Seçki Komissiyasının İnformasiya Mərkəzi yaradılıb, bütün dairələrdə elektron sistem yaradılır. Hazırda onlar kompüterlə təmin olunur. Seçki prosesini izləyib təhlil etmək üçün 20 analitik mərkəz təsis edilibdir.

Seçicilərin siyahıya alınması məsələsi çox ağır problemdir. Bildirmək istəyirəm ki, bu məsələni Sizinlə razılaşdırdıqdan sonra ölkədə çox geniş miqyasda iş təşkil edilibdir. Mən bu gün Sizə məruzə edə bilərəm ki, dörd milyondan artıq seçici həm siyahıya alınıb, həm də kompüterə salınıbdır.

**H e y d ə r Ə l i y e v:** Dörd milyon?

**R a m i z M e h d i y e v:** Bəli, dörd milyon.

**H e y d ə r Ə l i y e v:** Siz bunu tamamilə dəqiqləşdirmisiniz?

**R a m i z M e h d i y e v:** Bəli, biz bunu tamamilə dəqiqləşdirmişik. Bizim bu sahədə hələ iki günlük də işimiz var. Ola bilsin, bu rəqəm artacaqdır. Nə qədər olacağını hələ dəqiq deyə bilmərəm. Hər halda, bu rəqəm artacaqdır.

**H e y d ə r Ə l i y e v:** Bütün bunlar kompüterdədir?

**R a m i z M e h d i y e v:** Bu dörd milyon seçicinin siyahısı artıq kompüterdədir.

**H e y d ə r Ə l i y e v:** Onların içərisində vəfat etmiş, ölkəmizdən kənarda olan adamlar müəyyənləşdirilibdirmi?

**R a m i z M e h d i y e v:** Cənab Prezident, onların hamısı yoxlanaraq dəqiqləşdirilibdir. Məsələn, kənarda yaşayan, ölkə ilə heç bir əlaqəsi olmayanların hamısının adları siyahıdan çıxarılıbdır. Azərbaycanda yaşayan və bu müddətdə, yəni seçki ərəfəsində ölkəyə qayıdıb gələnlərin sayı dörd milyondan çox olacaqdır. Artıq dörd milyon insan kompüterdə siyahıya salınıbdır.

**H e y d ə r Ə l i y e v:** Bu çox vacibdir. Çünki bəziləri daim şübhə edirdilər ki, bizdə o qədər seçici var, yoxsa yox. Bəziləri isə, necə deyərlər, havadan məlumatlar götürürdülər ki, iki milyon azərbaycanlı vəziyyət çətin olduğuna görə başqa yerlərdə yaşayır. Ona görə də sizin gördüyünüz bu iş – xüsusilə kompüterlər, texnika vasitəsilə gördüyünüz iş – çox əhəmiyyətlidir.

**R a m i z M e h d i y e v:** Cənab Prezident, çox sağ olun.

Rayon və şəhərlərlə mütəmadi olaraq operativ əlaqə saxlanılmış, orada gedən ictimai-siyasi proseslərə nəzarət olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasında dövlət və bələdiyyə idarəçiliyinə dair əyani və qiyabi təhsil üçün xüsusi proqram üzrə tədris təşkil edilmişdir. Rayon və şəhərlərdə sosial-iqtisadi inkişafın təmin olunması, vergilərin vaxtında toplanması, elektrik enerjisindən qənaətlə istifadə edilməsi və onun dəyərinin vaxtında ödənilməsi üçün icra hakimiyyətlərinin məsuliyyəti artırılmış və onlara bu istiqamətdə lazımi tapşırıqlar verilmişdir.

Sentyabrın sonlarında Qax-Zaqatala bölgəsində yağmış yağışlar və dolu nəticəsində əhaliyə və təsərrüfatlara dəymiş ziyanın aradan qaldırılması üçün Nazirlər Kabineti ilə birlikdə müvafiq təşkilati işlər müəyyənləşdirilib həyata keçirilmişdir.

Torpaq islahatı ilə əlaqədar Şamaxı, Qəbələ və digər rayonlarda qarşıya çıxan problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlər görülmüşdür və bu işlər başa çatdırılmaqdadır.

Azərbaycan Respublikasının 2001-ci il dövlət büdcəsinin layihəsinə Prezidentin İcra Aparatında Nazirlər Kabineti və əlaqədar nazirliklərlə birlikdə baxılıbdır. Bu layihənin Nazirlər Kabinetində müzakirəsi təşkil edilmiş və həmin sənəd Azərbaycan prezidentinə təqdim olunmuşdur.

Prezidentin İcra Aparatının şöbəsi tərəfindən Azərbaycanın 2000-ci il üçün statistik göstəriciləri nəşr olunmuşdur. Dövlət qəzetlərində Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı mövzusunda geniş analitik material dərc olunmuş və bunun əsasında televiziya və radioda verilişlər hazırlanmış, mətbuatda bir sıra yazılar verilmişdir.

**H e y d ə r Ə l i y e v:** Həmin material barədə mənə məlumat vermişdiniz.

**R a m i z M e h d i y e v:** Bəli, cənab Prezident, Sizin tapşırığınızla həmin material qəzetlərdə dərc olundu və onun tezisləri əsasında işlər təşkil edilir.

**H e y d ə r Ə l i y e v:** Seçki kampaniyasında təbliğat aparmaq üçün bu çox vacibdir. Yəni iqtidarı dəstəkləyən deputatlığa namizədlər ümumi sözlərdən yox, konkret rəqəmlərdən, məlumatlardan istifadə edib təbliğat apara bilərlər.

Kimsə daim deyir ki, Azərbaycanda xalq batdı, nə bilim, səfalət içindədir və sair. Əgər onlarda vicdan qalıbsa, qoy, hər halda bundan bir nəticə çıxarsınlar. Həmin material mətbuatda dərc olunmamışdan qabaq mən ona baxmışdım. O tam dəqiq, analitik materialdır.

**R a m i z M e h d i y e v:** Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun missiyaları ilə Azərbaycanın bir sıra dövlət orqanlarında, o cümlədən Prezidentin İcra Aparatında, Nazirlər Kabinetində, Maliyyə Nazirliyində iqtisadi problemlərə dair müzakirələr aparılmış, müvafiq tədbirlər görülmüşdür.

2000-ci il sentyabrın 26–29-da Bakı İdman Kompleksində YI Azərbaycan beynəlxalq sərgisi keçirilmişdir. Bu sərgi «Bakı–telekom», «Bakı–ərzaq», «Bakı–tikinti», «Bakı–səhiyyə» mövzularına həsr olunmuşdur.

TASİS proqramı çərçivəsində İNOQEYT layihəsinin icraçıları sentyabrın 7–19-da Bakıda olmuş, Azərbaycan Dövlət Neft Şirkətində, Dövlət Dəmir Yolu İdarəsində, Xəzər Dəniz Gəmiçiliyi İdarəsində və digər orqanlarda mütəxəssislərimizlə onların görüşləri və müzakirələri təşkil edilmişdir.

Sentyabrda Dünya Türk Gəncləri Birliyinin X qurultayı keçirildi. Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onlardan daha da səmərəli istifadə yolları mövzusunda beynəlxalq simpozium təşkil olunub keçirilibdir.

Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi akademik Bəkir Nəbiyevin 70 illik yubileyi qeyd edilibdir. Musiqi bayramı ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilibdir. Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin inşaat sahəsində Əməkdaşlıq Üzrə Hökumətlərarası Şurasının XIII toplantısı təşkil olunub, keçirilib və Sizin bu toplantı iştirakçılarına məktubunuz orada oxunubdur.

Sentyabrın 27–28-də Qafqazın arxeologiya və etnoqrafiyasına həsr olunmuş beynəlxalq elmi konfransın keçirilməsinə, təşkilinə Prezidentin İcra Aparatı tərəfindən lazımi yardım göstərilmişdir. Sentyabrın 18–30-da vokalçıların Bülbül adına II beynəlxalq müsabiqəsi keçirilibdir. Bu müsabiqənin münsiflər heyətinə SSRİ xalq artisti İrina Arxipova başçılıq etmişdir.

Bu müddətdə respublikanın daxili ictimai-siyasi vəziyyəti mütəmadi təhlil olunub, proseslər izlənilib, araşdırılıb, gündəlik lazımi tədbirlər həyata keçirilibdir. Azərbaycan Respublikasının parlament seçkilərinə humanitar yardım göstərilməsi sahəsində də müəyyən işlər görülübdür. Seçkiqabağı vəziyyət, partiyalararası və partiyalardaxili proseslər diqqət mərkəzində saxlanılıbdır. Əsas radikal müxalifət partiyalarından yerlərdə insanların üz döndərməsi, bu partiyaları tərk edərək Yeni Azərbaycan Partiyasına üz tutmaları televiziyada, mətbuat səhifələrində geniş təbliğ olunubdur.

Seçki mərkəzlərinin yaradılması, seçki texnologiyalarının öyrənilməsi, tətbiqi və təbliği ilə əlaqədar müəyyən işlər görülüb həyata keçirilir. Bu sahədə konkret plan hazırlanıb və bu iş bundan sonra da davam etdiriləcəkdir.

Beynəlxalq qurumlarla, səfirliklərlə, xarici ölkələrdən gələn ekspertlərlə çox ciddi iş aparılmış, həm daxili proseslər, həm də hakimiyyətin beynəlxalq hüquq normalarına uyğun demokratiya istiqamətində atdığı addımlar onlara geniş izah edilmişdir.

Cənab Prezident, bildiyiniz kimi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu tərəfindən «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» qanuna rəy verilmişdir. Lakin onu da qeyd etmək istəyirik ki, həmin rəy bizim tərəfimizdən qeyri-professional rəy kimi qəbul olunmuşdur. Biz ATƏT-in nümayəndələri ilə buradakı görüşümüzdə öz fikrimizi onlara bildirmişdik. Həmin rəyə münasibət respublika Xarici İşlər Nazirliyi tərəfindən ATƏT-in sədrinə və Avropa Birliyinə çatdırılmışdır.

Demək lazımdır ki, Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun rəyini həmin büronun direktoru Jerar Ştudman yox, onun müavini imzalamışdır. Jerar Ştudman rəyimizi alandan sonra bizə bildirdi ki, bu sənədə o yox, onun müavini imza atmışdır.

«Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» qanunun tətbiqinə dair Avropa Şurasının Venesiya Komissiyasının tövsiyələri Mərkəzi Seçki Komissiyasının bir sıra təlimatlarında nəzərə alınmışdır. Bu iş haqqında müvafiq arayış əlaqədar şəxslərə təqdim edilmək üçün Nazirlər Komitəsinin 4 oktyabr tarixli iclası ərəfəsində Azərbaycan Respublikasının Avropa Şurası nəzdindəki missiyasına göndərilmişdir.

Qarşıdakı parlament seçkilərində ATƏT-in müşahidəçilər missiyasının rəhbəri Nikolay Vulçanov artıq bir neçə gündür ki, Azərbaycandadır. Onunla bir neçə görüş keçirilmiş və müvafiq izahat işləri aparılmışdır.

Onu da demək istəyirəm ki, oktyabrın 6-da ATƏT-in 18 müşahidəçisi Azərbaycana gələcəkdir. 5 noyabr seçkiləri ərəfəsində isə 150 müşahidəçi ölkəmizdə olacaqdır.

Milli Demokratiya İnstitutunun Azərbaycandakı nümayəndəsi ilə görüşlər keçirilmişdir. Bu görüşlər nəticəsində aydın olmuşdur ki, seçkilərdə müşahidəçi kimi iştirak etmək üçün onlara müvafiq dəvətnamələr göndərilməyibdir. Bu institut Azərbaycana 40–50 müşahidəçi göndərməyi nəzərdə tutubdur. Bu məsələ ilə əlaqədar ona həm bizim tərəfimizdən, həm də Xarici İşlər Nazirliyi tərəfindən lazımi izahat verilmişdir.

Cənab Prezident, ümumiyyətlə, bu müddət ərzində Avropa Şurası ilə çox geniş işlər aparılıbdır. Azərbaycan Respublikasının Avropa Şurası üzvlüyünə qəbulu ilə əlaqədar Sizin tapşırığınızla tədbirlər planı hazırlanıb və onun üzərində iş gedir.

Azərbaycanın üzvlük məsələsi ilə əlaqədar üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi sahəsində işlər Avropa Şurası Parlament Assambleyasının rəyi əsasında ümumiləşdirilmiş və Avropa Şurasının Nazirlər Komitəsinə və Parlament Assambleyasına təqdim edilmişdir.

«Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi haqqında» Azərbaycan Respublikası prezidentinin 2000-ci il 8 iyun tarixli fərmanının icrası ilə əlaqədar korrupsiyaya qarşı mübarizə haqqında qanunun və korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının hazırlanması üçün Nazirlər Kabineti və Prezidentin İcra Aparatı tərəfindən işçi qrupu yaradılmışdır. Avropa Şurası ilə Azərbaycan Respublikası arasında hüquq məsələləri və yerli demokratiya üzrə 2001-ci il üçün nəzərdə tutulmuş proqram layihəsi hazırlanmışdır.

«Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» qanunla əlaqədar Avropa Şurası Venesiya Komissiyasının tövsiyələrinin yerinə yetirilməsi barədə Avropa Şurasının Nazirlər Komitəsinə məlumat göndərilmişdir. Bir neçə qanun – «Vəkillər və vəkillik fəaliyyəti haqqında», «Cinayət cəzalarının icrası məsələləri haqqında» qanun layihələri Avropa Şurasına ekspertizaya göndərilmişdir.

Avropa Şurası Hüquq Departamentinin müdiri Gi De Velin Azərbaycana səfəri təşkil olunmuşdur. O, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarını yüksək qiymətləndirmiş və müvafiq məruzə hazırlamışdır. Onu da deyim ki, cənab Gi De Vel mənim adıma bir məktub göndərib və Azərbaycanda gedən islahatlara çox yüksək qiymət veribdir.

Avropa Şurası Parlament Assambleyasının 5 nəfərdən ibarət nümayəndə heyəti Azərbaycana səfərə gəlmiş, seçkiqabağı vəziyyətlə tanış olmuş və çox müsbət təəssüratla geri qayıtmışdır. Həmin nümayəndə heyəti bu barədə məruzə hazırlayacaqdır.

2000-ci il sentyabrın 29-da Azərbaycanın Avropa Şurasına qəbul edilməsi məsələsinə Demokratik sabitlik qrupunda baxılmışdır. Məlum olduğu kimi, heç bir qərar qəbul edilməmişdir. Qrupun növbəti iclası oktyabrın 20-də keçiriləcəkdir.

Oktyabrın 4–5-də Avropa Şurası Nazirlər Komitəsinin iclası keçirilməlidir. Prezidentin İcra Aparatı və Milli Məclis bununla bağlı aidiyyatı işlər görürlər. Avropa Şurası Beynəlxalq Amnistiya Təşkilatının Azərbaycana dair hesabatı üzrə araşdırmalar aparılmış, müvafiq arayış hazırlanmış və bu beynəlxalq təşkilatın rəhbərlərinə cavab məktubları göndərilmişdir. Onu da bildirim ki, Beynəlxalq Amnistiya Təşkilatının hesabatında Ermənistan ilə müqayisədə Azərbaycan barədə müsbət işlərə daha çox yer verilmişdir.

Bayaq dediyim kimi, Cənab Vulçanovla Azərbaycan Milli Məclisinə seçkilərə dair bir neçə görüşlər keçirilib və onu maraqlandıran məsələlər ətrafında müzakirələr aparılıbdır.

Cənab Prezident, Sizin tapşırığınız əsasında məhkəmə-hüquq islahatı ilə bağlı görülən işlər ümumiləşdirilmiş və Avropa Şurasının Nazirlər Komitəsinə bu barədə geniş arayış göndərilmişdir. Bu müddətdə yeni təyin edilmiş hakimlər fəaliyyətə başlamış, Ali Məhkəmə, Apelyasiya Məhkəməsi yeni binalara köçürülmüşdür.

Cənab Prezident, əfv, məhbuslarla bağlı məsələlər öyrənilmiş, bütün materiallar toplanmış və ümumiləşdirilmişdir. Avropa Şurası Parlament Assambleyasının deputatları Erik Yurgens və Corc Klerfaytın təqdim etdikləri məhbusların siyahıları üzrə məsələyə bu gün Əfv Komissiyasının iclasında baxılacaqdır.

Ağır cinayət işləri üzrə məhkəmə artıq öz işinə başlayıbdır. Bir neçə rayonun prokurorlarının təyinatı məsələsi həll olunmuşdur.

Cənab Prezident, cəza yerlərində problem yaradan məsələlər Sizin tapşırığınızla araşdırılır. Ədliyyə naziri Fikrət Məmmədov və Prezidentin İcra Aparatının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov bir neçə koloniyada vəziyyətlə tanış olmuş və bu məsələ ilə bağlı operativ qərarlar qəbul edilibdir.

Cənab Prezident, sadəcə, informasiya üçün bir məsələyə də toxunmaq istəyirəm. Seçki ilə bağlı imza vərəqələrinin götürülməsi vaxtı sentyabrın 29-da başa çatıbdır. İndiyə qədər 1008 nəfər imza vərəqi götürübdür.

**H e y d ə r Ə l i y e v:** Birmandatlı seçki dairələri üzrə?

**R a m i z M e h d i y e v:** Bəli, birmandatlı seçki dairələri üzrə 1008 nəfər imza vərəqi götürübdür.

**H e y d ə r Ə l i y e v:** Yəni 100 yerə 1008 nəfər?

**R a m i z M e h d i y e v:** Bəli, 100 yerə 1008 nəfər. Təxminən bir yerə 11 nəfər düşür. Elə dairələr vardır ki, bir yerə 18–19–20 nəfər imza vərəqi götürübdür və seçkilərdə iştirak etmək istəyir. Bu imza vərəqlərini götürənlər dairələrə müraciət edib, qeydiyyatdan keçirlər. Mən Sizə məruzə edə bilərəm ki, bu gün birmandatlı seçki dairəsi üzrə 165 nəfər qeydiyyata alınıbdır.

**H e y d ə r Ə l i y e v:** İmzaları toplayıblar?

**R a m i z M e h d i y e v:** Bəli, imzaları toplayıblar, gətirib seçki dairələrinə təqdim ediblər və qeydiyyatdan keçiblər.

Onu da bildirim ki, 165 nəfərdən 38 faizi bitərəfdir, 62 faizi partiya üzvləridir. Bunların təxminən 7 faizi qadınlardır. 11 faizi hüquqşünas, 15 faizi iqtisadçı, 1 faizi politoloqlardır, 3 faizi orta təhsillidir.

**H e y d ə r Ə l i y e v:** Deməк, bunlar qeydiyyata alınanlardır?

**R a m i z M e h d i y e v:** Bəli, onlar qeydiyyata alınanlardır. Siyasi partiyalar tərəfindən irəli sürülənlərin təxminən 23 faizi qeydiyyata alınıbdır.

**H e y d ə r Ə l i y e v:** Baş nazir Artur Rasizadə, bu ilin ötən 9 ayı tamam oldu, iqtisadi göstəricilər nə yerdədir? Buyurun.

## Azərbaycan Respublikasının Baş Naziri Artur Rasizadənin çıxışı

Möhtərəm cənab Prezident!

İlk növbədə, icazə verin, Amerika Birləşmiş Ştatlarına tarixi işgüzar səfərinizi uğurla başa çatdıraraq vətənə dönməyiniz münasibətilə Sizi ürəkdən təbrik edim.

ABŞ-da keçirdiyiniz bütün görüşləri, apardığınız danışıqları, xüsusilə BMT-nin minilliyin sammitindəki dərin məzmunlu çıxışınızı böyük maraqla və diqqətlə izləyirdik. Sizin oradakı hər bir uğurunuz bizi burada ruhlandırır və məsuliyyətimizi qat-qat artırırdı.

Siz müşavirəni açanda olimpiya oyunları ilə əlaqədar hamımızı təbrik etdiniz. Cənab Prezident, icazə verin, biz hamımız Sizi təbrik edək. Çünki Sizin nəinki idmana, bütün sahələrə bu qədər qayğınız olmasaydı, bəlkə də medallar da əldə olunmazdı. Ona görə də, cənab Prezident, olimpiya oyunlarındakı uğurlarımızla əlaqədar Sizi təbrik edirik.

Cənab Prezident, biz Sizinlə daim əlaqə saxlayırdıq və Sizin tapşırıqlarınızın hamısını həyata keçirməklə məşğul idik. Sizin tapşırıqlarınızı deyirəm ki, burada iştirak edənlər də eşitsinlər.

Cari ilin 9 ayının yekunları göstərir ki, keçən illərdə olduğu kimi, ölkə iqtisadiyyatının dinamik inkişafı davam edir. 9 ay ərzində ümumi daxili məhsulun artımı 9,3–9,5 faiz olacaqdır. Bu göstəriciyə görə biz MDB-yə daxil olan ölkələr sırasında birinci yerdəyik.

**H e y d ə r Ə l i y e v:** Birinci yerdəyik?

**A r t u r  R a s i z a d ə:** Bəli. Səkkiz ayın nəticələrinə görə birinci yerdəyik. Amma 9 ayın ilkin nəticələri də göstərir ki, biz buna nail olacağıq.

Cənab Prezident, sənaye məhsulu 5,2 faiz artmışdır.

**H e y d ə r  Ə l i y e v:** 5,2 faiz?

**A r t u r  R a s i z a d ə:** Bəli. Özü də xüsusi vurğulamaq istəyirəm ki, neçə ildir maşınqayırma, yüngül, yeyinti, metallurgiya sənayeləri geridə idi. 9 ayın təxmini nəticələri göstərir ki, neft maşınqayırması müəssisələrində 70 faiz artım vardır. Neft və kimya sənayesində artım təxminən 20–21 faiz, metallurgiya sənayesində 3 dəfədən çoxdur.

**H e y d ə r  Ə l i y e v:** Boru prokat zavodu...

**A r t u r  R a s i z a d ə:** Bəli. O cümlədən həmin zavod da. Yeyinti, yüngül sənaye sahələrində və bütün başqa sənayelərdə artım nəzərə çarpır.

Onu da bildirmək istəyirəm ki, bəzi müxalifət qüvvələri deyirlər ki, dövlət, İcra Aparatı ancaq neft və neft sənayesi ilə məşğuldurlar. Bu, qətiyyən düzgün deyildir. Ramiz müəllim burada dedi. Beynəlxalq Valyuta Fondunun nümayəndələri Bakıda olmuşdular. Onlar sonra məruzə hazırlayırlar. Orada xüsusi qeyd edirlər ki, başqa sahələrdə də artım vardır.

**H e y d ə r  Ə l i y e v:** Sən tamamilə düz deyirsən. Həmin fikri söyləyən adamlara bildirmək istəyirəm ki, mən – prezident, habelə Baş nazir, nazirlər hamısından az neft sənayesi ilə məşğul oluruq. Çünki müqavilələr imzalanıbdır, böyük şirkətlərlə işlər gedir, investisiya gəlir. Azərbaycan Dövlət Neft Şirkəti işini yaxşı təşkil edibdir, gəlirlər əldə olunur, vergilər verilir. Ona görə də biz neftlə bir elə məşğul olmuruq. Nə olub ki, biz ancaq neftlə məşğul olaq? Neftlə məşğul olmaq üçün bir ay müddətində mənə cəmi 4–5 saat lazımdır. Əgər xaricdən gələn neft şirkətlərini mən qəbul edirəmsə, söhbət edirəmsə, bunu da onun üstünə gəlsək, olsun 10 saat.

Bilirsiniz, buna xainlik deyim, nə deyim. Çünki neft sənayesindəki inkişafı – bu, göz qabağındadır – inkar edə bilmirlər. Amma o birisi sahələrdə də inkişaf var. Bu o qədər görünmür, ona görə bundan yapışıblar. Belə çıxır ki, həm iqtisadiyyatdan, həm sənayedən, həm də kənd təsərrüfatından bir kilometr uzaqda olan adamlar Azərbaycanın iqtisadiyyatının hansı sahəsinin inkişaf etdirilməsini, ya inkişaf etdirilməməsini bizdən yaxşı bilirlər. İqtisadiyyat sahəsində onların hamısının birlikdə bir faiz təcrübəsi yoxdur. Amma bizim Baş nazir, müavinləri, nazirlər, neft şirkətinin rəhbərləri...

Məsələn, maşınqayırma sənayesini deyirsən. Bizdə əsas maşınqayırma neft maşınqayırmasıdır.

**A r t u r  R a s i z a d ə:** Cənab Prezident, elədir.

**H e y d ə r  Ə l i y e v:** Həqiqətən, neft maşınqayırması son iki ilə qədər tamamilə durğunluq vəziyyətində idi. Səbəb də məlum idi. Çünki keçmişdə Azərbaycanın maşınqayırma, neft maşınqayırma sənayesi SSRİ-nin tələbatının 70 faizini verirdi. Hələ xaricə də satırdı. Sonra isə Rusiyada, əsas neft çıxan yerlərdə hərbi sənaye müəssisələrində aparılan konversiya nəticəsində zavodları özlərinə bu gün lazım olan məhsulların istehsalına keçirdilər. Ona görə də biz bazarlarımızı itirdik. İtirdik ona görə yox ki, adamlar pis işlədilər. Bu, təbii bir proses idi. İndi əgər maşınqayırma sənayesi 70 faiz artıbsa, bu o demək deyil ki, nəyisə, hansısa cihazı qayırmısan, anbara qoymusan. Satılır. Amma yenə də deyirəm, həmin adamların heç biri maşınqayırma zavodunun yanından da keçməyiblər. Düzdür, vaxtilə onların işlərini pozmaqla məşğul olublar, amma qayğı nöqteyi-nəzərdən yanından da keçməyiblər. Buyur, davam et.

**A r t u r  R a s i z a d ə:** Cənab Prezident, kənd təsərrüfatı sahəsində də böyük nailiyyətlər əldə olunubdur. Taxıl yığımı rekord səviyyəyə yüksəlib – 1,5 milyon ton taxıl yığılıbdır.

**H e y d ə r  Ə l i y e v:** Biz heç vaxt bu qədər taxıl yığmamışıq. SSRİ vaxtında, kənd təsərrüfatının ən yüksək iqtisadi göstəriciləri olduğu vaxtda da biz bu qədər taxıl yığmamışıq.

**A r t u r  R a s i z a d ə:** Bəli. Başqa növləri də götürək. Məsələn, təxminən 300 min ton kartof yığılmışdır.

**H e y d ə r  Ə l i y e v:** 300 min ton?

**A r t u r  R a s i z a d ə:** Bəli. Keçən illə müqayisədə 109 min ton, yaxud 58 faiz artıq yığılmışdır.

**H e y d ə r  Ə l i y e v:** Mən indi xatırlayıram. Yəqin sənin də xatirində olmalıdır ki, 70-ci illərdə biz heç 100 min ton yığa bilmirdik.

**A r t u r  R a s i z a d ə:** Çoxu kənardan gəlirdi.

**H e y d ə r  Ə l i y e v:** Bəli, kənardan gəlirdi. Onda haradan gəlirdi? Ukraynadan, Belarusiyadan.

**A r t u r  R a s i z a d ə:** Cənab Prezident, Polşadan.

**H e y d ə r  Ə l i y e v:** Yox, Polşadan bizə vermirdilər.

**A r t u r  R a s i z a d ə:** Cənab Prezident, sovet vaxtı bir az gəlirdi.

**H e y d ə r  Ə l i y e v:** Oradan gəlirdi, bəzən çox keyfiyyətsiz gəlirdi. SSRİ dağılandan sonra bəzi adamlar bundan da fırıldaqçılıq üçün istifadə edirdilər. Nefti satıblar, guya Polşadan kartof gətiriblər. Nefti satıb pullarını ciblərinə qoyublar, amma kartofu da gətirməyiblər.

İndi isə 300 min ton kartof yığılıbdır. Bu, böyük bir şeydir və Azərbaycanı tam təmin edir.

**A r t u r  R a s i z a d ə:** Bəli, cənab Prezident. Bütövlükdə kənd təsərrüfatının artımı təxminən 9 faizə bərabərdir. Orta əmək haqqı 15,2 faiz qalxıbdır.

**H e y d ə r Ə l i y e v:** 9 ay müddətində 15,2 faiz?

**A r t u r R a s i z a d ə:** Bəli. Hər ay, hər rüb artıb, keçən illə müqayisədə doqquz ay ərzində 15,2 faiz artım müşahidə edirik.

Cənab Prezident, ümumiyyətlə, 14–15 əsas göstərici ki, var, onların hamısında nailiyyətlər və artım vardır. Sağlıq olsun, biz 15 gündən sonra MDB-yə daxil olan ölkələrin göstəricilərinə baxacağıq. Müqayisələr barədə Sizə daha ətraflı məlumat verərik.

Cənab Prezident, 9 ay ərzində büdcəyə daxilolmalar 100 faiz təmin olunubdur. 40 faiz artım vardır.

**H e y d ə r Ə l i y e v:** Keçən ilə nisbətən 40 faiz?

**A r t u r R a s i z a d ə:** Bəli, ötən ilə nisbətən. İstəyirəm bunu da deyim ki, burada olanlar eşitsinlər.

Bizi tənqid edirlər ki, bəli, neftin qiyməti qalxır, ona görə bu daxilolmalar yerinə yetirilir. Əlbəttə, sözsüz ki, neftin və neft məhsullarının qiyməti qalxanda bu bizə kömək edir. Neftin qiyməti 8–9 dollar olanda da dövlət, hökumət öz öhdəliklərini həyata keçirirdi, bəs onda harada idiniz? Bunu demirlər.

İndi həm neft sahəsində, həm də qeyri-dövlət sektorunda yığımlar 50 faiz artıbdır.

Büdcədən maliyyələşdirilən təşkilatlarda əmək haqlarının, habelə pensiyaların ödənilməsi sentyabr ayı üzrə yüz faiz yerinə yetirilmişdir. Başqa ölkələrdən gələnlər var. Onlar bizə söyləyirlər. Cənab Prezident, Avropa ölkələrində də bu sahədə beş-altı aylarla gecikdirilmə vardır.

**H e y d ə r Ə l i y e v:** Beş-altı aylarla, özü də nəinki adi vətəndaşların, hətta hərbi qulluqda olan adamların, polisdə işləyənlərin. İndi Usubovun kefi sazdır, çünki əmək haqqını vaxtında verir.

Mən bilirəm, o respublikaların adlarını çəkmək istəmirəm. Beş-altı ay polis məvacib almır. Mənə dedilər ki, bizə yaxın bir ölkədə yol polisi rüşvəti çörəklə alır. Məsələn, bir buxanka çörək ver və keç get.

**A r t u r R a s i z a d ə:** Cənab Prezident, 9 ayın yekunları bizi əmin edir ki, ilin nəticələri də, sözsüz, yaxşı olacaqdır.

Siz iyun ayında payız–qış mövsümünə hazırlıqla əlaqədar böyük bir fərman imzaladınız. Bu barədə də Sizə məlumat vermək istəyirəm.

**H e y d ə r Ə l i y e v:** Bəli, bəli, bu çox vacibdir. Bu barədə nə iş görülübdür?

**A r t u r R a s i z a d ə:** Ciddi işlər aparılır. Biz sabah bu məsələyə Nazirlər Kabinetində ətraflı baxacağıq.

**H e y d ə r Ə l i y e v:** Bəli. Mən dedim, siz orada yığışın, bu məsələyə çox geniş baxın.

**A r t u r R a s i z a d ə:** Cənab Prezident, Sizə ətraflı məlumat verəcəyik. Amma onu demək istəyirəm ki, bu, görünməmiş bir hadisədir. Əgər təkcə Bakı şəhərində 500 ev istiliklə təmin olunacaqsa, bütün istilik verən rayon qazanxanaları təmir olunacaqsa, enerji sistemində bərpa işləri tamamlanacaqsa, bu bizə əsas verir ki, payız–qış mövsümünü lazım olan səviyyədə keçirək. Təəssüflər olsun ki, hələlik ödəniş faizi aşağıdır.

**H e y d ə r Ə l i y e v:** Əvvəlki kimi?

**A r t u r R a s i z a d ə:** Yox, bir az artım var, amma yenə də qənaətbəxş deyildir. Bu sahədə işləyirlər.

**H e y d ə r Ə l i y e v:** İşləmək lazımdır. Ancaq mən MDB ölkələrini demirəm, eşitdiyimə görə, başqa ölkələrdə də ödənişlər zəifdir, problemlər vardır.

**A r t u r R a s i z a d ə:** Cənab Prezident, Ramiz müəllim gələn ilin büdcəsi ilə əlaqədar dedi. Bu, Nazirlər Kabinetində geniş müzakirə olunub və Sizə təqdim edilibdir. Xahiş edəcəyik, Siz rəyinizi verəndən sonra Milli Məclis oktyabr ayında baxsın və imkan daxilində onu təsdiqləsin.

**H e y d ə r Ə l i y e v:** Ona iki-üç günə baxacağıq, Milli Məclisə göndərəcəyik. Murtuz müəllim deyir ki, Milli Məclisdə işimiz yoxdur, biz onlara iş verəcəyik.

**A r t u r R a s i z a d ə:** Cənab Prezident, qalan məsələlər ilə də məşğuluq və Sizə daim məlumat veriləcəkdir.

## Azərbaycan Respublikası Milli Məclisin sədri Murtuz Ələsgərovun çıxışı

Hörmətli cənab Prezident!

Mən də Amerika Birləşmiş Ştatlarında keçirdiyiniz çox səmərəli görüşlər, eləcə də ABŞ-da müalicə olunub vətənə qayıtmağınız münasibətilə Sizi təbrik edirəm. Biz Milli Məclisdə də təbrik etdik. Deputatların hamısı çıxış etdi və bunu alqışladılar.

Cənab Prezident, mən Milli Məclislə bağlı bir neçə məsələ haqqında məlumat vermək istəyirəm. Ayın 30-da Milli Məclisin növbəti, yəni 2000-ci ilin payız sessiyası öz işinə başlamışdır. Gündəlikdə iki məsələ dururdu. Birincisi, bundan sonra Məclisin iş qaydasının təşkili, ikincisi də İqtisad və Ali Məhkəmə üzvlərinin vəsiqə nümunələrinin təsdiqi. Onu da deyim ki, gündəliyə cari məsələləri, qanun layihələrinin müzakirələrini daxil etmədik. Çünki nəzərə alırıq ki, Milli Məclisin indiki deputatlarının böyük əksəriyyəti seçkilərə qatılıb, seçkilərdə proporsional və majoritar qaydada iştirak edirlər. Nəzərə aldıq ki, Milli Məclis zəruri hallarda yığılacaqdır, toplanacaqdır və lazım olan məsələləri müzakirə edəcəkdir. Birinci növbədə büdcə məsələsi. Qanuna

görə bu, oktyabrın 15-də Milli Məclisə təqdim olunmalıdır və biz yeni seçkilərə qədər büdcəni müzakirə edib təsdiq etməliyik.

**H e y d ə r  Ə l i y e v:** Vaxtından qabaq təqdim olunacaqdır.

**M u r t u z  Ə l ə s g ə r o v:** Bəli. Biz də vaxtından əvvəl müzakirə edib təsdiq edəcəyik.

Cənab Prezident, məhz ona görə də başqa məsələlər də olsa, Sizin verdiyiniz, qanunvericilik qaydasında göndərəcəyiniz sənədləri də biz müzakirə edib bu sessiyada, noyabrın 5-dək təsdiq edə bilərik.

Azərbaycan Milli Məclisinin nümayəndə heyəti Avropa Şurasının sessiyasında iştirak etmişdir. Deputatlarımız həm sessiyada, həm komitələrin iclaslarında, həm də ümumi iclaslarda çıxış etmişlər. Yenə də Azərbaycanın Avropa Şurasına qəbulu ilə bağlı məsələlər haqqında fikir mübadiləsi olmuşdur.

Bir məsələni də demək istəyirəm. Bu yaxınlarda Avropa Şurasının böyük nümayəndə heyəti Ermənistan parlament üzvləri ilə Azərbaycana gəlməli idi. Biz razılıq verdik və hazırlıq işləri də gördük. Hətta Əli Həsənovdan xahiş etdik, qaçqınlarla görüşə getmək üçün vertolyot da ayrıldı. Nümayəndə heyəti buradan Ermənistana getməli idi. «Azərbaycan Hava Yolları» Dövlət Konsernindən xahiş etdik, təyyarə ayrıldı. Ancaq Avropa Şurasında bu məsələyə çox laqeyd yanaşdılar. Xüsusilə Ermənistan nümayəndə heyəti gəlmək istəmədi.

Onlar istəyirdilər təqsiri bizim üzərimizə qoysunlar ki, Azərbaycan görüşü təşkil etməyibdir. Biz dəfələrlə məlumat verdik ki, belə görüşə hazırıq və buyurub gələ bilərlər. Avropa Şurasının 20 nəfərlik nümayəndə heyəti gəlməli idi. Komitədə müzakirələr zamanı deyiblər ki, guya Siyasi Komitənin sədri gedə bilmir. Ermənilər də deyib ki, əgər Siyasi Komitənin sədri Terri Devis gedə bilmirsə, biz də getmək istəmirik. Ona görə də qərara alıblar ki, bu məsələni seçkilərdən sonraya, noyabrın axırı – dekabrın əvvəlinə saxlasınlar. Yəni Bakıda və Yerevanda birgə seminarların keçirilməsi işçi qrupu tərəfindən qərara alınıbdır.

Cənab Prezident, bu müddətdə Milli Məclisdə çoxlu nümayəndə heyətləri olmuşdur. Mən ATƏT-in, Avropa Şurasının nümayəndə heyətləri, Amerika Birləşmiş Ştatlarının ekspertləri, Norveçin «Statoyl» şirkətinin rəhbərliyi ilə görüşlər keçirmişəm. Bu görüşlər zamanı yenə də Azərbaycanın beynəlxalq aləmdə, Avropa Şurasında fəal iştirakı və ölkəmizin AŞ-ya üzvlüyünün Nazirlər Komitəsində təsdiqi ilə əlaqədar məsələ qaldırmışıq.

Milli Məclisə seçkilərlə bağlı bir sıra beynəlxalq təşkilatlara dəvət məktubları göndərmişik. İndiyə qədər Avropa Şurasından 22 nəfərin gəlməsini bizə tövsiyə edirlər. Bəlkə də bu adamların sayı artıq olacaqdır. Biz ATƏT-ə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına məktublar göndərmişik. Artıq MDB-dən razılıq almışıq ki, onların da nümayəndələri gələcəkdir. Beləliklə, Milli Məclisə keçiriləcək seçkilərdə beynəlxalq təşkilatların müşahidəçiləri fəal iştirak edəcəklər.

Bu il oktyabr ayının 13-də Tbilisidə Avropa Şurasının «Şuman» fondu belə bir görüş keçirəcəkdir. Deyirlər ki, bu tədbiri «Şuman» fondu Gürcüstanın təşəbbüsü ilə təşkil edib və bizi də dəvət ediblər. Həm Ermənistan, həm də Azərbaycan orada iştirak edəcəkdir. Üç gün keçiriləcək iclaslara bir gün Gürcüstan, bir gün Azərbaycan, bir gün də Ermənistan spikerləri sədrlik edəcəklər. Bizə bir məruzə ayrılmışdır. Əli Rzayevin iqtisadi mövzuda məruzəsinin mətnini artıq göndərmişik. Orada bəyəniblər. Ayın 13-də nümayəndə heyətimiz Tbilisidə görüşdə olacaqdır.

Nəhayət, demək istəyirəm ki, oktyabrın 20-də Avropa Şurasının Nazirlər Komitəsində Azərbaycanın bu təşkilata qəbul olunması haqqında məsələnin müzakirəsi gözlənilir. Oradan gələn nümayəndə heyəti mənə bildirdi ki, bir sıra adamlarla, nümayəndə heyətləri ilə, Avropa Şurasının rəhbərliyi ilə görüşlər keçirilibdir. Onlar məsləhət görürlər ki, biz ayın 20-nə qədər bir sıra tədbirləri həyata keçirək. Xüsusilə də «siyasi məhbuslar» məsələsi ilə bağlı. Bu məsələ ilə bağlı onlara ciddi cavab verilibdir.

Cənab Prezident, diqqətinizə çatdırım ki, «Yeni Müsavat» qəzeti ilə əlaqədar Rassel Conson mənə məktub göndərmişdi. Biz Prezidentin İcra Aparatının rəhbəri Ramiz müəllimlə məsləhətləşdik, birlikdə o məktuba cavab hazırlayıb göndərdik.

Cənab Prezident, sentyabrın 27-də Milli Məclisin komissiya sədrləri və şöbə müdirləri ilə birlikdə müşavirə keçirib iş planımızı müzakirə etdik. Müəyyən etdik ki, bundan sonra komissiyalar hansı qanun layihələri üzərində işləyəcəklər. Şöbələr, komissiyalar artıq bir sıra qanun layihələri təqdim ediblər. Çox güman ki, o layihələr Milli Məclisin ikinci çağırış sessiyasında müzakirəyə veriləcəkdir.

### Bakı Şəhər İcra Hakimiyyətinin Başçısı
### Rəfael Allahverdiyevin çıxışı

Cənab Prezident! Mən bunu deməsəm, Bakı sakinlərinin üzünə baxa bilməzdim. Bu imkandan istifadə edib bütün Azərbaycan xalqına gözaydınlığı vermək istəyirəm ki, Siz sağ-salamat qayıdıb gəlmisiniz. Siz burada olmayan müddət çox şayiələr gəzirdi. Sentyabrın 27-si Azərbaycan xalqı üçün xüsusi bayram oldu. Radio və televiziya ilə Sizin səsinizi eşitdilər. Allah Sizinlədir.

İcazə versəydiniz, şəhərimizdə görülən işlər haqqında qısa məlumat verərdim.

Artur Rasizadə burada dedi. Siz burada olmadığınız müddətdə camaatda narazılıq olmasın deyə, şəhərin bütün təsərrüfatları gecə-gündüz işdə olublar. Külək də oldu, yağış da yağdı, bir dəqiqə də olsun şəhərdə iş ahəngi dayanmadı.

Bu müddətdə rayon icra hakimiyyətləri və biz seçki qanunu ilə icra hakimiyyətlərinə verilən səlahiyyətlərdən istifadə edərək, seçkilərə hazırlıq görmüşük. Biz seçki məntəqələrini hazırlamışıq.

Həyatdan getmiş insanlar var. Onların xatirəsinə ehtiram əlaməti olaraq məhəllələrdə bağçalar salır, bulaqlar tikirik. Xatirə bulaqlarının 50-dən çoxu hazırdır. Biz açılış etmək istəmişik. Amma heç kəs yığılmayıbdır. Sizin Bakıya qayıdışınızı gözləyirlər ki, həmin bulaqlar, xatirə bağçaları açılsın.

Bundan əlavə, Yeni Azərbaycan Partiyasının sədr müavini kimi deyə bilərəm ki, biz – partiyanın idarə heyəti və seçki qərargahı təbliğat kampaniyasına başlamışıq. Respublikanın və şəhərin bütün ərazisində təbliğat plakatlarımız asılıbdır. İndi də partiyanın qərargahında namizədliyini irəli sürmüş şəxslərin proqramları ilə məşğuluq. Onları bu yaxınlarda xalqa, seçicilərə çatdıracağıq.

Cənab Prezident, Sizə onu da demək istəyirəm ki, yayılan məlumatların şayiə olduğunu bildikdən sonra camaat küçələrə çıxdılar. Hətta Sizi qarşılamaq üçün hava limanına da getmək istədilər. Bakı kəndlərində və respublikada bütün insanlar məscidlərdə qurbanlar kəsiblər.

**H e y d ə r Ə l i y e v:** Mən Ramiz Mehdiyevə göstəriş verdim ki, qayıtmağım münasibətilə heç kəs narahat olmasın. Protokol üzrə, adətən, kim hava limanında olur, onlar olsun.

**R a m i z M e h d i y e v:** Cənab Prezident, biz elə də etdik.

**R ə f a e l A l l a h v e r d i y e v:** Mən camaatın dediyi sözləri deyirəm: Sizi istəyənlər, Azərbaycan xalqının əksəriyyəti Sizin səsinizi eşidəndə sevindi. Amma istəməyənlər kor oldular, yandılar. Sizi inandırıram ki, onlar bundan sonra yanıb kül olacaqlar.

Sizə uzun ömür, cansağlığı arzulayıram. Məndən bunu bütün Bakı sakinləri xahiş ediblər. Ona görə Sizdən xahiş etdim ki, mənə söz verəsiniz. Sağ olun.

## YEKUN NİTQİ

Burada dinlənilən məruzələr, verilən məlumatlar bir daha onu təsdiq edir ki, Azərbaycanda ictimai-siyasi sabitlik böyük kök salıb, bərqərar olubdur. Və prezident ölkədə oldu-olmadı, insanlar artıq o keçmiş zamanlardakı kimi deyil ki, kimsə bu fürsətdən öz məqsədi üçün istifadə etməyə cəhd göstərsin. Mən bununla demək istəmirəm ki, belələri yoxdur. Təəssüf ki, hələ belələri də var. Ancaq onlar nə qədər çalışsalar, xalqın tam əksəriyyətinin fikrinin əleyhinə gedə bilməyəcəklər.

Mən bunu gələndə, hava limanında da dedim. Bir də təkrar edirəm. Bu məsəl ruslarda da varmış, bunu mənə Londonda müxbirlər dedilər. Bizdə, Azərbaycanda da belə bir söz var ki, əgər kimin haqqında deyilir ki, ölüb, sonra görünür ki, ölməyib, onun ömrü uzanacaq, çox yaşayacaqdır.

Mən şayiədən heç narahat deyildim, eşidən kimi, gecə ikən Ramiz Mehdiyevə telefon etdim. Dedim, narahat olmayın, mən sağ-salamatam. Ancaq elə edin ki, camaat narahat olmasın. Camaatın narahatçılığı xalqın tam əksəriyyətinin Azərbaycan iqtidarına olan inamını, Azərbaycan iqtidarına olan sədaqətini bir daha göstərdi. Belə bir atalar sözü vardır: «Şər deməsən, xeyir gəlməz». Bəlkə də bu lazım imiş ki, hər şey daha aydın olsun.

Yenə də deyirəm, verilən məlumatlar onu göstərir ki, burada iş öz ahəngi ilə gedib, çox iş görülüb və yaxşı nəticələr əldə olunubdur. İctimai-siyasi sahədə aparılan böyük işlər haqqında Ramiz Mehdiyev ətraflı məlumat verdi. İqtisadiyyatımız haqqında Artur Rasizadə və Milli Məclisin işi haqqında Murtuz müəllim məlumat verdilər.

Mən çox sevinirəm ki, biz bu ilin doqquz ayında bu səviyyəyə çatmışıq. Təbiidir, hesab etmirəm ki, bu bizim üçün istənilən səviyyədir. Heç vaxt hesab etmirəm. Ancaq əldə olunan nailiyyətlərə görə məmnunam, təşəkkur edirəm. Eyni zamanda heç kəs bu nailiyyətlərlə arxayınlaşmamalıdır. Hələ qarşımızda payız var, qış var. Yay vaxtı insanların çoxu kənd təsərrüfatı ilə məşğul olur. Şəhər yerlərində kimsə istirahət edir, kimsə, hər halda, daha rahat yaşayır. Ancaq qarşımızda olan aylar daha da gərgin aylardır. O mənada ki, gərgin iş tələb edən aylardır.

Mən bütün bu görülən işlərlə əlaqədar Prezidentin İcra Aparatına və onun başçısı Ramiz Mehdiyevə təşəkkür edirəm. Nazirlər Kabinetinə və Baş nazir Artur Rasizadəyə təşəkkür edirəm. Milli Məclisin işlərini yaxşı apardığına görə biz həmişə Murtuz müəllimə təşəkkür edirik. Ümidvaram ki, bundan sonra da belə olacaqdır. Təşəkkür edirəm. Sizin hamınıza təşəkkür edirəm. Görülən işlər bir adamın işi deyildir. Yəni ölçsən, heç burada oturanların da işi deyildir. Bu, xalqın işidir, insanların işidir, fədakar adamların işidir.

Əgər indi bizim zavodlarda fəhlələr yeni iş yerləri alıblarsa, işləyir, məhsul istehsal edir və pul qazanırlarsa, təbiidir ki, bu, son 9–10 ildə birinci dəfə olan şeydir. Bütün başqa sahələrdə də belədir. Mən bundan məmnunam. Ancaq yenə də, yenə də deyirəm – heç kəs arxayın olmamalıdır. Mənim bu müsbət fikirlərim və verdiyim müsbət qiymət heç kəsin başını gicəlləndirməməlidir. Hər kəs bu nailiyyətlərdən ruhlanaraq, bundan sonra daha da yaxşı işləməlidir.

Mən iyun ayında qışa hazırlıqla əlaqədar fərman verdim. Xatirinizdədir ki, fevralda ciddi müşavirə keçirdik və bəzilərini cəzalandırdıq. Ancaq sonra Baş nazir, digərləri gəldilər, mənə müraciət etdilər ki, dediyiniz haqdır, amma bizim üçün vəsait lazımdır, başqa şeylər lazımdır. Elektrik stansiyalarını, elektrik xətlərini təmir etmək lazımdır. Çünki bunlar uzun illər təmir olunmayıbdır. Elə o vaxt, SSRİ-nin vaxtında nə yaradılıbsa, ondan sonra əlavə heç bir şey olmayıbdır.

Fərmanı hazırladılar, mənə gətirdilər ki, siz 18 milyon dollar əlavə pul verməlisiniz. Dedim, bir dollar da verməyəcəyəm. Amma mən bu pulların harada olduğunu bilirəm. Yerini göstərdim, dedim: oradadır, oradadır, oradadır. Gedin, götürün. Sonra Artur Rasizadə mənə dedi ki, tamamilə düz demisiniz. İndi mən inanıram ki, siz verdiyiniz öhdəliyi yerinə yetirəcəksiniz və payız–qış mövsümündə biz insanları çətin vəziyyətdə qoymayacağıq.

Bayıldakı sürüşmə ilə əlaqədar. Oraya da pul tapdınız?

**A r t u r  R a s i z a d ə:** Bəli, cənab Prezident, vəsait tapdıq. Bunu Sizinlə müzakirə etdik.

**H e y d ə r  Ə l i y e v:** Tapdınız. O vaxt da gəlmişdilər ki, siz ondan ötəri 8 milyon dollar ayırın. Dedim, yox, tapın. Tapdılar. Yəni indi bizim iqtisadiyyatımız yaxşı inkişaf etdiyinə görə, onun müxtəlif sahələrində vəsaitlərimiz vardır. Nazirlər Kabinetinin vəzifəsi ondan ibarətdir ki, hər yerə nəzarət etsin və hər yerdə olan ehtiyatlardan istifadə etsin. Belə olmayanda müəssisə rəhbərləri, nazirlər, başqa vəzifəli şəxslər onları götürüb lazım olmayan yerlərə xərcləyirlər. İndi bazar iqtisadiyyatıdır, müəssisələrə sərbəstlik verilibdir, nazirlərə çox böyük hüquqlar verilibdir. Bunlar hamısı lazımlı şeydir. Amma eyni zamanda o da lazımdır ki, gərək hər bir kəs ölkə haqqında, xalqımız haqqında, millətimiz haqqında düşünsün. Güman edirəm ki, mənim maliyyə barəsində verdiyim göstərişlərdən bundan sonra hamı nəticə çıxaracaqdır. Əminəm ki, işlər bundan sonra da yaxşı gedəcəkdir.

Seçkilərlə əlaqədar Ramiz Mehdiyevin verdiyi məlumat çox böyük aydınlıq yaradır. Əgər yüz yerə mindən artıq ərizə verilibdirsə, bu, birinci növbədə, vətəndaşların siyasi fəallığını göstərir, eyni zamanda Azərbaycanda demokratiyanın mövcudluğunu və demokratiyanın inkişafını göstərir.

Mən bunu Amerikada da demişəm. Gələndə burada, hava limanında da dedim. Azərbaycanda demokratiya var və bundan sonra daha yaxşı olacaqdır. Ancaq o kəslər ki, hər şeyi qoyublar kənara, öz məqsədlərinə nail olmaq üçün bütün dünyaya car çəkirlər ki, Azərbaycanda demokratiya yoxdur, onlar müstəqil Azərbaycan dövlətinə, Azərbaycan xalqına böyük zərbələr vururlar. Amma qoy heç də düşünməsinlər ki, bu zərbələr bizi sarsıda bilər. Biz öz işimizi bilirik, demokratiya yolu ilə gedirik, dövlət quruculuğu prosesi normal gedir və bundan sonra da gedəcəkdir.

Beləliklə, bugünkü söhbətimizi qurtaraq. Hesab edirəm ki, bu mənim üçün də, sizin üçün də çox əhəmiyyətli oldu. Sizin hamınıza cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

**AZƏRBAYCANIN YƏHUDİ İCMASINA**

Əziz həmvətənlər!

Yəhudi təqvimi ilə Yeni il – Roş-ha-şana bayramı münasibətilə sizi ürəkdən təbrik edir, respublikamızın bütün yəhudi vətəndaşlarına xoşbəxtlik və səadət arzulayıram.

Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin iştirakı ilə keçirilən milli bayramların və mərasimlərin əsl el şənlikləri kimi geniş qeyd edilməsi respublikamızda xoş bir ənənə halını almışdır. Belə bayramlar insanları bir-birinə daha da yaxınlaşdırır və doğmalaşdırır. Bu, müstəqil Azərbaycan Respublikasında demokratik cəmiyyətin, vətəndaş həmrəyliyinin, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının sərbəst və azad şəraitdə yaşamasının göstəricisidir.

Çoxmillətli cəmiyyətimizin tam və bərabərhüquqlu üzvləri olan yəhudilər öz milli adət və ənənələrini qoruyub saxlamaqla, tarixən olduğu kimi, bu gün də Azərbaycanın ictimai-siyasi, elmi-mədəni həyatında yaxından iştirak edir, respublikamızın tərəqqisi və inkişafı üçün vətəndaşlıq borclarını yerinə yetirirlər.

Yeniləşmə, paklaşma, xeyirxahlıq və şəfqət bayramı olan Roş-ha-şana günlərində sevincinizə şərik olur, ailələrinizə əmin-amanlıq və firavanlıq arzularımı yetirirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 oktyabr 2000-ci il*

**QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏSGƏR AKAYEVƏ**

Hörmətli cənab Prezident!

Şərqin qədim mədəniyyət mərkəzlərindən biri olan Oş şəhərinin 3000 illik yubileyi münasibətilə Sizi və qardaş qırğız xalqını ürəkdən təbrik edirəm.

YUNESKO-nun təqvimi ilə keçirilən bu yubiley şənlikləri təkcə qırğız xalqının deyil, bütün türk xalqlarının dərin tarixi kökləri olan zəngin mənəvi-mədəni irsini bir daha bütün dünyaya nümayiş etdirir.

Bu gün müstəqillik yolu ilə inamla addımlayan, milli-mənəvi və maddi dəyərlərini ləyaqətlə qoruyub saxlayan və yaşadan xalqlarımızın öz tarixi keçmişi ilə fəxr etməyə tam haqqı vardır.

Əminəm ki, Oş şəhərinin 3000 illiyinə həsr olunmuş yubiley təntənələri xalqlarımızın dostluq və qardaşlıq münasibətlərinin inkişafına və möhkəmlənməsinə, əsrlər boyu ölkələrimizi birləşdirmiş, regionumuzda sabitliyin, sülhün və əmin-amanlığın bərqərar olunmasına xidmət etmiş böyük tarixi İpək yolunun nəcib ənənələrinin bərpasına öz töhfəsini verəcəkdir.

Bir daha Sizi və dost qırğız xalqını səmimi-qəlbdən təbrik edir, hamınıza xoşbəxtlik və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 oktyabr 2000-ci il*

## XALQ ARTİSTİ XƏYYAM MİRZƏZADƏYƏ

Hörmətli Xəyyam Mirzəzadə!

Sizi – müasir Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsini 65 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz 50–60-cı illərdə böyük sənət aləminə gələrək, Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamış bəstəkarlar nəslinin tanınmış nümayəndələrindənsiniz. Böyük Azərbaycan bəstəkarı Qara Qarayev məktəbinin istedadlı yetirməsi və davamçısı kimi, hələ gənc yaşlarınızdan yaratdığınız əsərlərlə musiqi həvəskarlarının dərin hörmət və rəğbətini qazanmısınız. Klassik musiqi ənənələrinin milli musiqi ilə üzvi əlaqəsinə əsaslanan yaradıcılığınız öz müasirliyi və dinamizmi ilə seçilərək Azərbaycanın XX əsr musiqi salnaməsinə həmişəlik daxil olmuşdur.

Sizin bəstəkarlıq istedadınız musiqinin müxtəlif janrlarında yazdığınız əsərlərdə özünü eyni dərəcədə büruzə vermişdir. Simfonik əsərləriniz, estrada musiqiniz, dram tamaşalarına və kinofilmlərə bəstələdiyiniz musiqi məzmun dolğunluğu, ifadə vasitələrinin rəngarəngliyi və zənginliyi ilə həmişə dinləyicilərin zövqünü oxşamış, mütəxəssislər tərəfindən musiqi mədəniyyətimizin gözəl nümunələri kimi yüksək qiymətləndirilmişdir. Ayrı-ayrı xarici ölkələrdə uğurla ifa edilən əsərləriniz Azərbaycan bəstəkarlıq məktəbinə şöhrət gətirmişdir.

Ölkəmizdə gənc bəstəkarlar nəslinin yetişdirilməsi sahəsində Bakı Musiqi Akademiyasının professoru kimi göstərdiyiniz səmərəli pedaqoji fəaliyyət də yüksək təqdirə layiqdir.

Ümidvaram ki, yaradıcılıq yollarında qazandığınız zəngin təcrübədən istifadə edərək, bundan sonra da Azərbaycan musiqi mədəniyyətini yeni əsərlərinizlə zənginləşdirəcək, ölkəmizdə gənc musiqiçi kadrların yetişdirilməsi üçün əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 oktyabr 2000-ci il*

**VATİKAN DÖVLƏTİNİN BAŞÇISI**
**PAPA II İOHANN PAVEL HƏZRƏTLƏRİNƏ**

Möhtərəm papa həzrətləri!

Vatikan dövlətinin milli bayramı – Müqəddəs taxta əyləşmə günü münasibətilə Sizi və bütün katolikləri ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Vatikan arasında əlaqələrin inkişafı beynəlxalq münasibətlərdə mənəvi dəyərlərin daha möhkəm bərqərar olmasına, insanlar arasında qarşılıqlı anlaşmanın yaxşılaşmasına xidmət edəcəkdir.

Fürsətdən istifadə edib Sizə uzun ömür, möhkəm cansağlığı və müvəffəqiyyətlər arzulayıram.

*Hörmət və ehtiramla,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 oktyabr 2000-ci il*

**EKVATORİAL QVİNEYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OBİANQ MBASOQOYA**

Hörmətli cənab Prezident!

Ekvatorial Qvineya Respublikasının milli bayramı – Müstəqillik günü ilə əlaqədar olaraq salamlarımı və səmimi təbriklərimi yetirir, Sizə cansağlığı və uğurlar, ölkənizə sülh, tərəqqi və firavanlıq arzulayıram.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Ekvatorial Qvineya Respublikası arasında qarşılıqlı dostluq və əməkdaşlıq münasibətləri genişlənib möhkəmlənərək xalqlarımızın rifahının yaxşılaşmasına, ölkələrimizin yüksəlişinə xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 oktyabr 2000-ci il*

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINA**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bu ilin noyabr ayının 5-də keçirilməsi nəzərdə tutulmuş parlament seçkiləri ilə əlaqədar «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» və «Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası haqqında» qanunlardan irəli gələn bütün zəruri tədbirləri həyata keçirmiş və bu sahədə öz işini davam etdirir.

Mərkəzi Seçki Komissiyasının seçkilərlə bağlı nüfuzlu beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla öz səlahiyyətləri çərçivəsində qəbul etdiyi təlimatlar və digər qərarlar ümumiliklə tanınmış beynəlxalq standartlara cavab verən demokratik parlament seçkilərinin keçirilməsi üçün lazımi zəmin yaradır.

Məlum olduğu kimi, vahid çoxmandatlı seçki dairəsi üzrə proporsional sistemi əsasında parlament seçkilərində iştirak etmək üçün Mərkəzi Seçki Komissiyasına müraciət edən 14 siyasi partiya və siyasi partiyaların blokları tərəfindən təqdim olunmuş namizədlər siyahısından cəmi 5 siyasi partiyanın siyahısı qeydə alınmışdır. Mərkəzi Seçki Komissiyasının digər siyasi partiyaların namizədlər siyahısının qeydə alınmasından imtina haqqında qərarlarının obyektiv dəlillərə əsaslanması heç bir şübhə doğurmur və bir sıra hallarda bu haqda qərar müvafiq məhkəmə tərəfindən də təsdiqlənmişdir. Lakin hesab edirəm ki, siyasi partiyaların proporsional seçki sistemi əsasında 25 deputat mandatı uğrunda mübarizədən kənarlaşdırılması əhalinin bütün təbəqələrinin siyasi baxışlarını azad ifadə etmək imkanlarını bir qədər məhdudlaşdırır. Seçkilərdə əsas siyasi qərar seçicilər tərəfindən çıxarılmalı və məhz seçicilər müəyyən etməlidir ki, hansı siyasi partiya müstəqil Azərbaycanın parlamentində təmsil olunmağa layiqdir. Hər bir siyasi partiyanın parlamentdə təmsil olunması hansısa orqandan deyil, partiyanın sosial bazasından və əhali tərəfindən nə dərəcədə dəstəklənməsindən asılı olmalıdır.

Zənnimcə, gələcək parlament seçkilərində Azərbaycan Respublikasının siyasi palitrası mümkün olduğu qədər geniş təmsil olunmalıdır. Bu addım ölkəmizdə aparılan demokratik islahatlara əlavə təkan verər, ictimaiyyətin siyasi fəallığını daha da artırır və cəmiyyətdə vətəndaş həmrəyliyini möhkəmləndirər.

Yalnız seçkilərin nəticələri siyasi partiyaların nə dərəcədə vətəndaşların iradələrini ifalə etmələrinin obyektiv meyarıdır.

Bütün bunları nəzərə alaraq, Mərkəzi Seçki Komissiyasının qəbul etdiyi qərarları heç bir şübhə altına almayaraq və onlara hörmətlə yanaşaraq, xahiş edirəm Azərbaycanın siyasi partiyalarının qarşıdan gələn parlament seçkilərində proporsional seçki sistemi üzrə iştirakını məhdudlaşdıran qərarlara yenidən baxmaq imkanını müzakirə edəsiniz.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 oktyabr 2000-ci il*

**İSPANİYANIN KRALI**
**ƏLAHƏZRƏT I XUAN KARLOSA**

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı – İspan milləti günü münasibətilə Sizi, kral ailəsinin üzvlərini və dost ispan xalqını səmimi-qəlbdən təbrik edir, Sizə cansağlığı və səadət, ölkənizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Əminəm ki, Azərbaycan Respublikası ilə İspaniya Krallığı arasında dostluq və əməkdaşlıq münasibətləri ölkələrimizin və xalqlarımızın mənafeyi naminə hərtərəfli inkişaf edib genişlənəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 oktyabr 2000-ci il*

**İSPANİYA KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB XOSE MARİA AZNARA**

Hörmətli cənab Baş nazir!

İspaniya Krallığının milli bayramı – İspan milləti günü münasibətilə Sizi və dost ispan xalqını salamlayır və ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar, ölkənizə firavanlıq və tərəqqi arzulayıram.

Mən Azərbaycan Respublikası ilə İspaniya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafını yüksək qiymətləndirir və əmin olduğumu bildirirəm ki, qarşılıqlı səylər sayəsində ölkələrimizin əlaqələri getdikcə yaxşılaşacaq, xalqlarımızın mənafeyinə, ümumi sülhə və sabitliyə xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 oktyabr 2000-ci il*

**MÜASİR DÖVRÜN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV ROSTROPOVİÇ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*7 oktyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Vədinizi yerinə yetirdiyinizə görə sağ olun. Bilirəm ki, iş cədvəliniz çox gərgindir, səfər cədvəliniz də gərgindir. Ümumiyyətlə, açığını desək, bütün dünyanı bu qədər çox gəzib-dolaşan və bu qədər işləyən ikinci bir adamı təsəvvürümə gətirmirəm. Biz, dövlət başçıları da səfərlər etməli oluruq, amma bu qədər yox. Özünüzü necə hiss edirsiniz?

**M s t i s l a v R o s t r o p o v i ç:** Yaxşı, ona görə ki, buraya gəlmişəm.

**H e y d ə r Ə l i y e v:** Çox xoşdur. Mən Nyu-Yorkda, Klintonun verdiyi ziyafət zamanı – o, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin sessiyasına gəlmiş dövlət başçıları üçün ziyafət təşkil etmişdi – ümumi dostumuz Vulfensonla görüşdüm. Soruşdum ki, «Slava necədir?». Dedi ki, «Mən onu çoxdandır görmürəm». Dedim ki, «Mən də çoxdandır görməmişəm». Dedi: «Görsəniz, ona salam söyləyin». Dedim, «Yəqin ki, mən onu tezliklə görəcəyəm». Sonra mən Fransanın prezidenti Şirakla da görüşdüm, işgüzar söhbətimiz oldu, soruşdum: «Slava necədir?». Dedi ki, «Çox yaxşıdır».

Şadam ki, sizin hər il Azərbaycana gəlməyiniz və burada ustad dərsləri keçmək barədə üzərinizə götürdüyünüz öhdəliklərin yerinə yetirilməsi möhkəm, sabit ənənə şəklini almışdır. Əlbəttə, siz öz konsertlərinizlə bakılıları və ümumiyyətlə, Azərbaycanda hamını həmişə sevindirirsiniz. Ona görə də hesab edirəm ki, bu dəfəki konsertiniz də Azərbaycanda hadisə olacaq, böyük hadisə olacaqdır. Mən nəinki sizin üçün, həm də sizin musiqiniz üçün darıxmışdım. Təşəkkür edirəm.

**M s t i s l a v R o s t r o p o v i ç:** Mən bu dəfə Dvorjakın konsertini ifa edəcəyəm. Dvorjak bizim konsertlərin tacıdır. Onun konserti, ümumiyyətlə, violonçel üçün bəstələnmiş bəlkə də ən mühüm, dramatik konsertdir.

Mən dünən gəldim. Təəssüf ki, başqa təyyarə ilə gəldim, beş saat gecikdim. Hətta ümid edirdim ki, Tofiq Quliyevin dəfn mərasiminə çatacağam. Mən dərhal onun evinə getdim. Bu gün səhər isə Fəxri xiyabanı ziyarət etdim. Bütün dostlarımın məzarlarını ziyarət etdim. Zərifə Əzizovanın məzarını ziyarət etdim. Mən bunu etməyi heç vaxt unutmuram.

**H e y d ə r Ə l i y e v:** Sağ olun, mənə dedilər. Qalina Pavlovna necədir?

**M s t i s l a v R o s t r o p o v i ç:** Hər şey yaxşıdır.

**H e y d ə r Ə l i y e v:** Uşaqlar, nəvələr necədir?

**M s t i s l a v R o s t r o p o v i ç:** İki böyük oğlum Almaniyaya gediblər, indi kollecə qəbul olunublar. Yeri gəlmişkən, ingilis kraliçası Yelizavetanın əri şahzadə Filipp də orada təhsil almışdır. İspaniya kraliçası Sofiya da bu məktəbi bitirmişdir. Çox mötəbər məktəbdir. Orada xoşuma gələn budur ki, uşaqlara hətta valideynlərin də pul verməsi qadağandır.

**H e y d ə r Ə l i y e v:** Onlar pansionda yaşayırlar?

**M s t i s l a v R o s t r o p o v i ç:** Bəli, indi dərsləri başlayır, mən oraya gedəcəyəm. Ayın 18-də Danimarkada iki kraliçanın ad günləri qeyd ediləcəkdir. Bu il onlardan birinin – indi taxt-tacda olan II Marqretenin 60 yaşı, onun anasının, çox sevdiyim İnqridin isə 90 yaşı tamam olmuşdur. Mən oktyabrın 12-də Kopenhagendə onların şərəfinə konsert verəcəyəm. Ertəsi gün isə Fransada konsertim olacaqdır. Orada ilk dəfə olaraq musiqi alətləri üzrə ustadlar üçün ümumdünya konfransı keçiriləcəkdir.

**H e y d ə r Ə l i y e v:** Sizin bütün konsertləriniz möhtəşəmdir, görürsünüz, kraliçalar...

**M s t i s l a v R o s t r o p o v i ç:** Bilirsinizmi, mən Çindən yenicə gəlmişəm. Ötən ay ilk dəfə olaraq Çinə getmişdim. Tayvanda dörd dəfə olmuşam, Çinə isə ilk dəfə getmişdim. Ona görə də bir qədər ehtiyatlıydım, çünki onlar sovetləri lap çox xatırladırdılar. Lakin gəlib orada – Şanxayda da, Pekində də ustad dərsləri verdim. Pekinsayağı bişirilmiş ördək əti də yedim. Gördüyünüz kimi, həmişə səfərdəyəm və bütün dünyanı gəzib-dolaşıram.

**H e y d ə r Ə l i y e v:** Dünyanı sizin qədər gəzib-dolaşan adam çətin ki, tapılsın.

**M s t i s l a v R o s t r o p o v i ç:** Bilirsinizmi, vaxt fərqi mənim üçün problem deyildir. Mənim üçün belə şeylər yoxdur.

**H e y d ə r  Ə l i y e v:** Az adam tapılar ki, vaxt fərqini belə asanlıqla dözsün. Yeri gəlmişkən, bu baxımdan mənim üçün də fərqi yoxdur. Məsələn, şikayətlənirlər ki, Birləşmiş Ştatlara gedib-gəldim, üç gecə yata bilmədim, çünki vaxt fərqi var. Amma məndən ötrü belə problem yoxdur.

Bildiyiniz kimi, mən Amerikada bir balaca xəstələnmişdim...

**M s t i s l a v  R o s t r o p o v i ç:** Bilirəm. Mətbuat bunu düzgün şərh etməmişdi. Eşitdikdə ki, Sizin həyatınızla əlaqədar deyilənlər şayiədir – bu, doğrudan da şayiə idi – mən çox sevindim. Bilirsiniz niyə sevindim? Bunun şayiə olduğuna görə. Çünki rusların inancına görə, sağlığında ölüm xəbəri çıxan adam olduqca çox yaşayacaqdır. Bu, rusların inancıdır. Hər şey çox gözəldir. İndi mən Sizin sağlamlığınız sarıdan arxayınam.

**H e y d ə r  Ə l i y e v:** Bilirsinizmi, bu inanc azərbaycanlılarda da var. Mən hələ Klivlenddə olarkən İTAR-TASS-ın müxbiri mənimlə görüşməyi xahiş etdi. O, yanıma gəldi. Mən ona hər şeyi danışdım və o bunu mənə dedi. Londonda olarkən yenə də moskvalı müxbirlər yanıma gəldilər. Bunu mənə onlardan biri də dedi. Azərbaycanda da belə inanc var. Mən bu yaxınlarda dostum, Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəllə danışdım. O da dedi ki, bizdə, Türkiyədə də belə bir inanc var – kiminsə oldüyü barədə xəbər yayıldıqda, onun ömrü uzanır. Bir sözlə, bu şayiələri yayan adamlar mənə kömək etmiş oldular.

**M s t i s l a v  R o s t r o p o v i ç:** Mən də istərdim ki, mənim barəmdə də belə şayiələr yaysınlar, ömrüm uzansın.

**H e y d ə r  Ə l i y e v:** Əlbəttə, gözlənilməz hadisə idi. Bilirsinizmi, belə düşünürəm ki, mən həyatda elə hadisələrlə qarşılaşmışam, nəhayət, bunu da hiss etdim. Nə isə, Slava. Hesab edirəm ki, sizin səfər proqramınız gərgindir. İstəyirəm ki, siz bütün proqramı yerinə yetirəsiniz.

**M s t i s l a v  R o s t r o p o v i ç:** Hələlik hər şey çox gözəl gedir.

**H e y d ə r  Ə l i y e v:** Mən konsertə hökmən gələcəyəm. Axı sizə dedim ki, sizin üçün, sizin ifanız, musiqiniz üçün darıxmışdım. Odur ki, sizin burada vaxtınızın xoş keçməsi üçün nə lazımdırsa, hər şeyi edirik. Mən bizimkilərə həmişə demişəm ki, çalışın, çalışın, çalışın...

**M s t i s l a v  R o s t r o p o v i ç**: Hər şey öz qaydasındadır. Axı mənim himayədarım buradadır...

**H e y d ə r  Ə l i y e v:** Görürsünüz, siz artıq onu himayədar kimi qəbul edirsiniz...

**M s t i s l a v  R o s t r o p o v i ç:** Mədəniyyət naziri Polad Bülbüloğlu da mənim üçün hər şeyi edir. Dünən məni Rusiyanın buraya gəlmiş yeni səfiri qarşıladı. Mən onu tanıyıram, ona inanıram. O elə bu gün mənə Azərbaycana olan məhəbbətindən danışdı.

**H e y d ə r  Ə l i y e v:** Mən onu hələ qəbul etməmişəm, çünki o buraya gələndə burada deyildim. Mən onu bu yaxın günlərdə qəbul edəcəyəm. O öz etimadnaməsini mənə təqdim edib işə başlamalıdır. Yeri gəlmişkən, Amerika Birləşmiş Ştatlarının bizdəki səfiri də yenidir. Mənə dedilər ki, o sizin şərəfinizə ziyafət verəcəkdir. Mən onu da qəbul etməliyəm. Mən bütün bunları yaxın günlərdə həyata keçirəcəyəm.

## ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV POSTROPOVİÇİN İŞTİRAKI İLƏ KONSERTDƏN SONRA MAESTRO İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Respublika sarayı*

*9 oktyabr 2000-ci il*

**H e y d ə r  Ə l i y e v:** Mən salonda əyləşib dinləyirdim və düşünürdüm ki, bu, hər hansı dəmirçinin zəhmətindən ağır zəhmətdir, hər hansı poladəridənin zəhmətindən ağır zəhmətdir, hər hansı bənnanın zəhmətindən, ən çətin fiziki işdən ağır zəhmətdir. Mən görürəm, ancaq siz bütün bunları böyük coşğunluqla, çox şövqlə və qüvvə ilə edirdiniz. Özü də siz konserti necə başladınızsa, o cür də tamamladınız. Mən cüzi də olsa, zəifləmə hiss etmədim. Bir sözlə, mən sizi təbrik edirəm.

**M s t i s l a v  R o s t r o p o v i ç:** Elə Siz də prezidentliyinizin əvvəlindən bu günə qədər beləsiniz. Bizim hamımız belə olmalıyıq.

**H e y d ə r  Ə l i y e v:** Mən sizi təbrik etmək istəyirəm. Sizə təşəkkür etmək istəyirəm, ona görə ki, hər bir gəlişinizlə və görüşlərinizlə, keçdiyiniz ustad dərsləri ilə, nəhayət, şübhəsiz ki, konsertlə xalqımızın, Azərbaycanın mənəvi, mədəni həyatını zənginləşdirirsiniz. Bizim xalqımızın, sizin vətəninizin həyatını zənginləşdirirsiniz. Açığını deyəcəyəm, siz buraya gəlməyə başlayan vaxtdan bəri çox şey dəyişmişdir. Baxın, orkestr necə də dəyişmişdir. Biz ona nə qədər qayğı göstərsək də – əmək haqqını qaldırdıq, geyim tikdirdik, alətlər aldıq – bunlar hələ hər şey demək deyildir. Başlıcası odur ki, siz hər dəfə gəlişinizlə orkestrin səviyyəsini qaldırırsınız, qaldırırsınız...

**M s t i s l a v  P o s t r o p o v i ç:** Bura yeganə ölkədir ki, mən hər il gəlirəm və ustad dərsləri keçirəm.

**H e y d ə r  Ə l i y e v:** Bu bizim üçün fəxrdir, sevincdir. Ona görə də sizə xüsusi minnətdarlıq edirik. Mən çox böyük zövq aldım. Birinci hissədə siz violonçeldə ifa edəndə də və sonra – Çaykovskinin əsəri səsləndiriləndə də. Mən belə başa düşdüm ki, bu, Çaykovskinin ən mürəkkəb əsərlərindən biridir. Bir sözlə, incəsənət xadimlərimizə və bizə – sıravi dinləyicilərə böyük sevinc bəxş etdiniz.

**YUQOSLAVİYA İTTİFAQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BOİSLAV KOŞTUNİTSAYA**

Hörmətli cənab Prezident!

Yuqoslaviya İttifaq Respublikasının prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Yuqoslaviya arasında təşəkkül tapan dostluq münasibətlərinə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yuqoslaviya xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 oktyabr 2000-ci il*

**SNN TÜRK TELEVİZİYA**
**KANALININ ƏMƏKDAŞLARINA**

SNN türk televiziya kanalının yaradılmasının birinci ildönümü münasibətilə sizi ürəkdən təbrik edirəm.

XXI əsrə qədəm qoyduğumuz bir zamanda qlobal rabitə və informasiya mübadiləsi məsələləri həyatımızın mühüm amilinə çevrilmişdir. Dünyada baş verən hadisələr barədə tez, dəqiq və obyektiv informasiya çatdırılmasına bu gün bütün bəşəriyyət böyük ehtiyac duyur.

SNN televiziya kanalı bu sahədə çox səmərəli fəaliyyət göstərir. Türkiyənin qabaqcıl media strukturu olan Doğan Media Holdinq və SNN televiziya kanalının bir il bundan əvvəl birgə yaratdıqları SNN türk televiziya kanalı Türkiyə ilə bərabər balkanlar, Qafqaz və Orta Asiya regionunda xəbər mübadiləsinin sürətləndirilməsi, xalqların yaxınlaşması, onlar arasında əlaqələrin artırılması kimi nəcib işə xidmət edir.

Əminəm ki, böyük bir regiona yayımlanmaq məqsədi daşıyan SNN türk televiziya kanalı özünü operativ və obyektiv informasiyası ilə auditoriyasını gündən-günə genişləndirəcək, tamaşaçı kütləsinin rəğbətini qazanacaqdır.

Fəaliyyətinizin birinci ildönümü ilə bağlı bu əlamətdar gündə sizin hamınıza möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 oktyabr 2000-ci il*

### «BOİNQ» KORPORASİYASININ VİTSE-PREZİDENTİ ROBERT SPİTZER İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*10 oktyabr 2000-ci il*

**H e y d ə r   Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Siz Azərbaycana elə belə gəlməmisiniz, ölkəmiz üçün böyük bir «Boinq» təyyarəsi gətirmisiniz. Bu bizim üçün böyük hadisədir.

Bilirsiniz ki, Azərbaycan gənc, müstəqil dövlətdir, vəsaiti də o qədər çox deyildir. Ancaq sizin, xüsusən Amerikanın «Eksimbank»ının köməyi ilə kredit əldə etmək, «Boinq» almaq bizə də nəsib oldu. Doğrudur, bu proses bizim üçün sadə olmadı. Mənim özüm də bir az şübhə edirdim ki, bunu etmək lazımdır, yoxsa yox. Çünki vəsait çatışmazlığı var. Ancaq, nəhayət, biz qərar qəbul etdik. Yenə də deyirəm, siz də, banklar da bizə kömək etdiniz və «Boinq» Azərbaycana gəlibdir. Mən bu hadisənin qeyd olunmasını televiziya vasitəsilə seyr etdim və insanların necə sevindiyini gördüm. Sizə təşəkkür edirəm.

**R o b e r t   S p i t z e r:** Səmimi sözlərə görə Sizə minnətdarlığımı bildirirəm. Cənab Prezident, biz bu əlamətdar hadisə münasibətilə Azərbaycana gəlməyimizdən məmnunuq. Onu da bilirəm ki, bugünkü günün özü də xüsusi bir gündür. Bildiyimə görə, bu gün Sizin prezident kimi and içməyinizin yeddinci ildönümüdür.

**H e y d ə r   Ə l i y e v:** Siz bunu haradan bilirsiniz? Bu mənim yadımdan çıxıbdır.

**R o b e r t   S p i t z e r:** Cənab Prezident, yolu var, bir vasitə tapıb öyrəndik. Kim bilir, bəlkə də biz bu «Boinq-757» təyyarəsini Sizin prezidentliyinizin ildönümü gününə hədiyyə gətirmişik.

**H e y d ə r   Ə l i y e v:** Çox sağ olun.

**R o b e r t   S p i t z e r:** Bizim korporasiyamız təptəzə «Boinq» təyyarəsini Azərbaycana gətirməkdən məmnundur. Sevinirik ki, biz bu təyyarəni «Azərbaycan Hava Yolları» Dövlət Konserninin sərəncamına verdikdən sonra konsern onun xidmətindən istifadə edərək, dünyanı Azərbaycana və Bakıya daha da yaxınlaşdıracaqdır.

Cənab Prezident, bizə göstərilən qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm. Biz təyyarəmiz buraya gələndən bəri həm «Azərbaycan Hava Yolları» Dövlət Konsernində, həm də, ümumiyyətlə, bu sahədə çalışanların sevinc hisslərinin şahidi olmuşuq.

«Boinq» təyyarəsinin Azərbaycana gətirilməsi mənə həmçinin bu ölkə ilə tanış olmaq imkanı da yaratdı. Dünən gecə şam yeməyində mən görkəmli musiqiçi Rostropoviç ilə görüşmək şərəfinə nail oldum. O, qeyri-adi bir insandır.

**H e y d ə r   Ə l i y e v:** Elədir. Rostropoviç mənim çox yaxın dostumdur.

**R o b e r t   S p i t z e r:** Bilirəm. Biz hesab edirik ki, Azərbaycan adının mənalarından biri olan «od» adı bu ölkəyə gələcəyə parlayan işıq kimi baxmağa, nur saçmağa imkan verəcəkdir. Azərbaycanın çiçəklənən bir ölkə kimi inkişaf etməsində «Boinq» təyyarələrinin və «Azərbaycan Hava Yolları» Dövlət Konserninin xüsusi rolu olacaqdır.

Biz çoxlu insanların Azərbaycanı ziyarət etməsinin təmin olunmasında və ölkənizin gələcəyinin formalaşmasında Hava Yolları Dövlət Konserni ilə bərabər çalışacaq və onun inkişaf etməsinə yardım edəcəyik.

Cənab Prezident, mən onu da bildirmək istəyirəm ki, biz «Azərbaycan Hava Yolları» Dövlət Konsernini sərəncamında olan təyyarələri təzələməsi, eyni zamanda, Bakıda yeni, müasir tipli hava limanının tikintisini başa çatdırması münasibətilə alqışlayırıq. Mən bir daha bildirmək istəyirəm ki, müasir nəqliyyat sistemləri dünyanı Azərbaycana gətirəcəkdir.

Cənab Prezident, mən Azərbaycanda olmağımdan məmnunluq duyduğumu bir daha bildirirəm və Sizə dərindən təşəkkür edirəm.

**H e y d ə r   Ə l i y e v:** Sağ olun. Mən də sizə təşəkkür edirəm. Biz bir il bundan öncə yeni aeroport binasının tikintisini başa çatdırdıq. Görürsünüz ki, həmin hava limanı beynəlxalq standartlara uyğundur və beynəlxalq uçuşları təmin edən bir binadır. Bizim bu cür hava limanımıza köhnə təyyarələr yaraşmır. Bu ona bənzəyər ki, insan yaxşı kostyum geyib, amma onun cırıq ayaqqabısı vardır. Ona görə də «Boinq» təyyarəsinin Azərbaycana gəlməsi bizim hava limanı ilə təyyarə parkı arasında müəyyən uyğunluq yaradıbdır. Əlbəttə, imkanımız olsaydı, biz bir yox, bir neçə təyyarə alıb gətirərdik. Ancaq güman edirəm ki, bu başlanğıc gələcək üçün də uğurlu olacaqdır.

Mənə dedilər ki, ikinci «Boinq» noyabr ayında gələcəkdir.

**R o b e r t   S p i t z e r:** Doğrudur.

**H e y d ə r Ə l i y e v:** Bu təyyarə bizim hava yollarının təyyarə parkını zənginləşdirir. Təbiidir ki, «Azərbaycan Hava Yolları» Dövlət Konserninin əsas vəzifəsi belə yüksək keyfiyyətli, müasir tipli təyyarələrdən səmərəli istifadə etməkdən ibarətdir.

Mənə bildirdilər ki, təyyarənin uçuş heyəti sizin tərəfinizdən yaxşı hazırlaşdırılıbdır. Onlar yaxşı səviyyədədirlərmi?

**R o b e r t S p i t z e r:** Bəli. Biz ikinci təyyarə üçün də uçuş heyətinə təlim keçilməsi və onların hazırlıqlarının artırılması ilə məşğul oluruq. Mən azərbaycanlı təyyarəçilərə təlim verən proqramın rəhbəri ilə şəxsən danışdım. O, azərbaycanlı təyyarəçilərə ən yüksək qiymət verdi. Azərbaycanlı təyyarəçilər çox əla təlim keçiblər.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl. Bu məni çox sevindirir. Təyyarəni almaq olar, amma onu işlətmək, həm də yüksək səviyyədə işlətmək lazımdır.

**R o b e r t S p i t z e r:** Cənab Prezident, mən onu da bildirmək istəyirəm ki, biz işimizi təkcə təyyarənin satılması ilə qurtarmırıq. Biz azərbaycanlı təyyarəçilərə təlim keçməklə bərabər, həm də uçuş dövründə onlara kömək göstərmək üçün buraya öz təyyarəçilərimizi gətirmişik. Bundan əlavə, ilk vaxtlar «Boinq» təyyarəsinə xidmət işlərini də biz həyata keçirəcəyik. Təyyarə üçün əlavə hissələr, mexaniki qurğular gətirmişik. Biz hətta təyyarədə xidmətçi rolunu oynayacaq şəxslərin də təlimini keçid dövründə birgə həyata keçirəcəyik.

**H e y d ə r Ə l i y e v:** Bu çox yaxşıdır.

**R o b e r t S p i t z e r:** Cənab Prezident, həmin təyyarələrə xidmət göstərilməsini biz daim davam etdiririk. Yəni bu təyyarələri gətirib buraya qoyub çıxıb getmirik. Bizim Sizinlə işimiz hələ uzun olacaqdır.

**H e y d ə r Ə l i y e v:** Bu məni çox sevindirir. Çünki gedib mağazadan bir avtomobil alanda, ondan necə istifadə etmək sənin öz işindir. Amma bu böyüklükdə, çoxsaylı sərnişinləri daşıyan təyyarənin istismar olunması, ona xidmətin və onun təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsi çox mühüm məsələdir.

**V l a d i m i r S i l v e r s t o n:** Cənab Prezident, bizim «Boinq» Korporasiyasında belə bir məsəl tez-tez işlədilir ki, təyyarənin bir ölkəyə verilməsi hələ toy mərasiminə oxşayır. Bu toydan sonra ailə qurulmağa başlayır və bu ailənin üzvləri bütün sevincli, kədərli, xoş günləri birlikdə yaşayırlar.

**H e y d ə r Ə l i y e v:** Çox yaxşı sözdür. Çünki bəzən toydan sonra ailə yaxşı yaşaya bilmir.

**R o b e r t S p i t z e r:** Amma biz elə edəcəyik ki, bu ailə yaxşı yaşasın.

**H e y d ə r Ə l i y e v:** Bəli, mən də belə düşünürəm ki, dünən toy olubdur. «Azərbaycan Hava Yolları» Dövlət Konserni «Boinq» Korporasiyası ilə qohum olubdur.

**R o b e r t S p i t z e r:** Tamamilə doğrudur.

**H e y d ə r Ə l i y ev:** (*zarafatla*) Kimin kimlə evləndiyini deyə bilmərəm, amma indi lazımdır ki, bu ailə yaxşı yaşasın, tərəflər bir-birindən razı qalsın, həyatları xoşbəxt olsun. Bizim üçün bu, «Boinq»in yüksək səviyyədə istismar edilməsidir.

Sizin verdiyiniz məlumatlar məni çox sevindirir. Sağ olun.

* * *

**R o b e r t S p i t z e r:** Cənab Prezident, bu, «Boinq»in ilk təyyarəsinin modelidir. Biz bu hədiyyəni xatirə olaraq Sizə təqdim edirik. İcazə verin, bu modelin üzərində yazılmış sözləri də Sizə oxuyum:

*«Azərbaycan Respublikasının prezidenti zati-aliləri cənab Heydər Əliyevə ilk «Boinq-757» təyyarəsinin Azərbaycana gətirilməsindən xatirə olaraq.*

*Oktyabr 2000-ci il».*

Cənab Prezident, bu model şüşədən hazırlanıbdır.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Təşəkkür edirəm.

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Seçkilərdə sizin inamlı qələbəniz yeritdiyiniz siyasətin qardaş Polşa xalqı tərəfindən dəstəkləndiyini bariz şəkildə nümayiş etdirir.

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Polşa xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 oktyabr 2000-ci il*

## RUSİYA FEDERASİYASI MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ SƏDRİ ALEKSANDR VEŞNYAKOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*12 oktyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Aleksandr Albertoviç, mən sizi Azərbaycanda, Bakıda salamlayıram. Bilmirəm, siz əvvəl burada olubsunuz, ya yox, hər halda, əgər olubsunuzsa, bu yaqin çoxdan olubdur, mən bilmirəm. Mənə elə gəlir ki, siz Azərbaycanda, Bakıda ilk dəfəsiniz. Çox şadam ki, təklifimizi qəbul etdiniz və Azərbaycana gəldiniz.

**A l e k s a n d r V e ş n y a k o v:** Səmimi sözlərə görə Sizə minnətdarlığımı bildirirəm. Mən Azərbaycana, sizin gözəl şəhərinizə həqiqətən ilk dəfədir gəlmişəm. Biz dəvəti məmnuniyyətlə qəbul etdik və buraya bu tarixi məqamda, parlament seçkilərinə hazırlıq dövründə gəldik. Sizin təcrübənizlə və mövqeyinizlə, qanunvericiliyinizlə, seçki komissiyasının işi ilə tanış olmaq bizim üçün maraqlı idi. Biz seçki komissiyamızın iş təcrübəsini bölüşmək ümidindəyik. Son illər biz iki böyük seçki kampaniyası keçirmişik. Həmkarlarımız sağ olsunlar ki, bu səfəri təşkil etdilər.

**H e y d ə r Ə l i y e v:** Xoş sözlərə görə Sizə təşəkkür edirəm. Əlbəttə, sizin də təcrübəniz var, bizim də təcrübəmiz var. Ancaq sizin təcrübəniz, təbii ki, daha çoxdur. Sizin ölkəniz də böyükdür, elə demokratikləşdirmə təcrübəsi də ilk dəfə Rusiyada başlanmışdır. Təbii ki, sizin təcrübəniz bizim üçün daha qiymətlidir. Lakin zənnimcə, bizim təcrübəmizdə də elə cəhətlər var ki, onlarla tanış olmaq gərəksiz olmazdı. Məsələn, biz Rusiyanın Azərbaycandakı səfiri Nikolay Timofeyeviçlə görüşdük. O bundan əvvəl Rusiya Mərkəzi Seçki Komissiyasının sədri olmuş və estafeti sizə vermişdir. Mən çox şadam ki, o bizə səfir gəlmişdir. Beləliklə, bir çox digər məsələlərlə yanaşı, o bizə Mərkəzi Seçki Komissiyasının iş təcrübəsi baxımından da faydalı olacaqdır. Biz müşahidə edirik, siz artıq beş il olar ki işləyirsiniz.

**A l e k s a n d r V e ş n y a k o v:** Mən üç il katib oldum, son il yarımda isə Mərkəzi Seçki Komissiyasının sədriyəm.

**H e y d ə r Ə l i y e v:** Siz çox böyük iş görmüsünüz – Dumaya seçkilər, prezident seçkiləri keçirmisiniz. Bu, mühüm mərhələdir. Əlbəttə, Mərkəzi Seçki Komissiyası daim işləyir. Onun ən gərgin işi isə seçki kampaniyalarıdır: seçkilərə hazırlıq, seçkilərin keçirilməsi və sair. Bir sözlə, siz onları uğurla keçirmisiniz. Bir vaxtlar Nikolay Timofeyeviç, indi də siz. Biz bütün bunları müşahidə edirik. Təbii olaraq, bizdə vəziyyət elədir ki, televiziyamız, radiomuz Rusiya televiziyasının bütün proqramlarını bütünlüklə translyasiya edir. Lakin biz bir çox məlumatları təkcə Rusiyadan almırıq, dünyada, digər MDB ölkələrində baş verən hadisələrdən də xəbər tuturuq. Buna görə də biz sizdə Dövlət Dumasına seçkilərinə də, prezident seçkilərinə də hazırlığın necə aparıldığını, onların necə keçirildiyini müşahidə edirdik. Siz onları uğurla keçirdiniz. Xalq da razıdır, seçilmiş şəxslər də razıdırlar, siz də razısınız. Mənə elə gəlir ki, bu, fəaliyyətinizə verilmiş başlıca qiymətdir. Biz isə noyabrın 5-də parlamentimizə seçkilər keçirməliyik. Bu, növbəti seçkilərdir. Əlbəttə, bizim öz xüsusiyyətimiz var. Ölkə nə qədər kiçik olursa, bir o qədər çox partiya olur.

Birləşmiş Ştatlar kimi çox böyük ölkədə iki partiya var. Yaxud Böyük Britaniyada da iki partiya var – leyboiristlər və mühafizəkarlar. Hakimiyyətə gah biri, gah da digəri gəlir. Amma kiçik ölkələrdə partiyalar yaratmaq xəstəliyə çevrilmişdir. Məncə, bizdə qırx partiya var.

**R a m i z M e h d i y e v** (*Prezidentin İcra Aparatının rəhbəri*): Hazırda təxminən qırx partiya dövlət qeydiyyatından keçmişdir.

**H e y d ə r Ə l i y e v:** Bəli, qeydiyyatdan keçiblər. Ancaq seçkilərdə onlardan, məncə, 14-ü iştirak edir, bu isə Rusiyada olduğundan çoxdur. Bir sözlə, təkrar edirəm, bizim faktiki olaraq öz xüsusiyyətlərimiz var. Lakin biz bu cür şəraitdə də seçkiləri demokratiyanın tələblərinə tam müvafiq surətdə keçirməyə çalışırıq. Əlbəttə, demokratiya geniş mənalı anlayışdır. Baxır, kim onu hansı çərçivədə başa düşür və sair. Amma bununla belə, demokratiyanın hansısa ümumi prinsipləri var – bunlar düzgün seçkilərdir, ədalətli seçkilərdir, şəffaf seçkilərdir. Biz bunu təmin etməyə çalışırıq. Bizim Mərkəzi Seçki Komissiyamız da təzələnmişdir, yenidir, əvvəlki artıq istefaya getmişdir və biz yeni Mərkəzi Seçki Komissiyası yaratdıq. Hesab edirəm ki, Mərkəzi Seçki Komissiyasının yaxşı strukturunu yaratmışıq. İndi sizin buraya səfəriniz, əlbəttə, çox faydalıdır. Mənə dedilər ki, siz artıq Mərkəzi Seçki Komissiyasında da, bizim aparatda da, mənim aparatımın rəhbəri ilə də, parlamentdə də bir çox görüşlər keçirmisiniz. Odur ki, biz bütun bunlardan, əlbəttə, çox faydalı cəhətlər öyrənəcəyik.

**A l e k s a n d r   V e ş n y a k o v:** Biz də faydalı cəhətləri öyrənəcəyik. Məsələn, sizin qanunvericiliklə tanış olduq. Açığını deyim ki, o, kifayət qədər demokratikdir. Məsələn, mən hesab edirəm ki, o, indiki dövrdə mövcud olan bütün beynəlxalq standartlara uyğundur. Özü də bizim əxz edə billəcəyimiz iki məqam var. Bax, sizdə seçkiqabağı təbliğatın keçirilməsi müddəti dəqiq şəkildə göstərilmişdir: partiyalar üçün – səsvermə gününədək 45 gün, birmandatlı dairələrdəki namizədlər üçün – seçkiyə bir ay qalana qədər. Bizdə isə başqa cürdür – kim daha tez qeydə alınmışdırsa, təbliğat kampaniyasına başlaya bilər. İndi biz öz təkliflərimizi parlamentə veririk. Ötən seçki kampaniyalarının təcrübəsinə əsasən təklif edirik ki, gəlin seçki kampaniyasını, ümumiyyətlə, qısaldaq. Onu dörd ayda keçirməyək, üç ay tamamilə kifayətdir. Seçkiləri əsaslı surətdə hazırlamaq lazımdır, daha son günlərdə yox. Bir seçkini qurtaran kimi, növbəti seçkiyə hazırlaşmaq gərəkdir. Biz namizədlərimizə deyirik ki, əgər siz ciddi demokratik partiyasınızsa, əgər ciddi demokratik lidersinizsə, bu, düz olacaqdır. Sizin qanunvericilikdə yazılmış daha bir məqam: komissiyalarınız aşağı komissiyaları formalaşdırır, çünki seçkiləri onlar təşkil edirlər, müvafiq dövlət vəzifələri onlara həvalə olunmuşdur. Bizdə belə idi. Lakin sonra bizdə bunu ləğv etdilər. İndi bizdə sahə seçki komissiyalarını yerli özünüidarə orqanları yaradır. Bəzən lazımınca yaratmağa, sadəcə olaraq, macal tapmırlar. Çünki buna yerlərdə nümayəndəli orqanlar formal yanaşırlar. Bəzən isə yerli xarakterli əyintilər də olur.

**N i k o l a y   R y a b o v** (*Rusiyanın Azərbaycandakı səfiri*): Heydər Əliyeviç, Trotskinin permanent inqilab şüarı var, Veşnyakov isə onu seçki prosesinin permanentliyi şüarı ilə əvəz etmək istəyir.

**A l e k s a n d r   V e ş n y a k o v:** Heydər Əliyeviç, mən onu əsas tuturam ki, indi bizdə, bizim ölkələrimizdə yaxın on ildə mükəmməl seçki sistemi olacağını demək olmaz. Ona görə ki, biz inkişafdayıq – bir vəziyyətdən digərinə doğru və təbii ki, yüksələn xətt üzrə irəliləməliyik, demokratik prosesləri inkişaf etdirməliyik, amma bu proseslərin üzərindən tullanmamalıyıq. Çünki tullananda ayağımızı sındıra bilərik.

**H e y d ə r   Ə l i y e v:** Doğrudur. Amma, təəssüflər olsun, bəzi ölkələrdə, bəzi beynəlxalq təşkilatlarda hesab edirlər ki, hər yerdə eyni cür olmalıdır. Axı bu seçkilərin 200 ildən bəri keçirildiyi, təcrübə toplandığı ölkələr belə səviyyəyə birdən-birə gəlib çıxmayıblar. Amma burada, Azərbaycanda – xüsusən də müxalifət – istəyirlər ki, belə olsun. Kənarda da bəziləri istəyir ki, belə olsun. Mən bu yaxınlarda Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində oldum, sonra Vaşinqtonda proqramım, görüşlərim və sairə oldu, mənim şərəfimə böyük bir ziyafət verildi, məşhur politoloq Bjezinski orada çıxış edərək, demokratiyadan danışdı. Çox ağıllı danışdı, çox düzgün danışdı. O deyirdi ki, hər bir ölkənin şəraitini nəzərə almaq lazımdır, bizdə, Birləşmiş Ştatlarda 30 il əvvəl vətəndaşların çox böyük bir qisminin səsvermə hüququ yox idi, nəinki zəncilər, qaralar, hətta qadınlar da səsvermə hüququna malik deyildilər.

**A l e k s a n d r   V e ş n y a k o v:** İsveçrədə  ayrı-ayrı kantonlarda qadınlara bu hüquq yalnız 50-ci illərdə verilmişdir.

**H e y d ə r   Ə l i y e v:** Bizdə isə qadınlar çoxdan azaddır və çoxdan bəri bütün seçkilərdə iştirak edirlər. Buna görə də bu işə fərqli, inkişaf, milli ənənələr, mənəvi dəyərlər və sairə baxımından yanaşılmalıdır. Təəssüf ki, bunu heç də həmişə başa düşmürlər. Lakin bununla belə, biz bu mövqelərdə durmuşuq ki, şübhəsiz, seçkiləri elə keçirmək lazımdır ki, onlar demokratik, düzgün, təmiz, şəffaf olsun. Bununla yanaşı, biz o iddiada ola bilmərik ki, bizdə seçkilər Amerika Birləşmiş Ştatlarının və ya Fransanın, İngiltərənin və Almaniyanın səviyyəsində keçirilsin. Biz hələ çox inkişaf etməliyik. Biz iqtisadi cəhətdən o səviyyəyə gəlib çatdıqdan, dövlət quruluşumuz möhkəmləndikdən sonra, əlbəttə, buna gəlib çıxmaq olar. Lakin onların 100 ilə, 200 ilə keçdiyi yolu biz, hər halda  20 ilə, 30 ilə keçəcəyik. Amma daha üç ilə yox, beş ilə yox.

**A l e k s a n d r   V e ş n y a k o v:** Heydər Əliyeviç, bəzi məsələlərdə Azərbaycanda da demokratiya Birləşmiş Ştatlarda olduğundan çoxdur. Bir qayda olaraq, bizdə prezident seçkilərində seçicilərin təxminən 70 faizi iştirak edir. Zənnimcə, sizdə də belədir, Birləşmiş Ştatlarda isə prezident seçkilərində səsvermə hüququna malik olanların uzağı 30–40 faizi iştirak edir. Onlarda sistem belədir, əgər vətəndaş özünü seçici kimi qeydə aldırıbsa, seçkilərdə iştirak edir. Əks halda heç kim onu yada salmır. Biz isə hər bir vətəndaş barəsində narahatıq ki, o, 18 yaşından başlayaraq səs vermək üçün bütün imkanlara malik olsun. O harada olursa-olsun – hərbi xidmətdə də, xəstəxanada da, məhkəməsi olmayıbsa,  həbsxana təcridxanasında olsa da seçki qutusunu onun yanına gətirirlər. O hətta xaricdə olduqda da səs verir. Məsələn, Moskvada sizin səfirliyiniz seçki məntəqəsi təşkil edir. Bunu biz də təşkil edirik. Yeri gəlmişkən, Xarici İşlər Nazirliyinin bizə təqdim etdiyi siyahılar üzrə Rusiya Federasiyasının hüdudlarından kənarda səs verənlərin sayı 800 min nəfərdir. Əslində isə bunlardan müxtəlif ölkələrdə 350–400 min vətəndaş səs verir. Xaricdəki nümayəndəliklərimiz arzu edənlər üçün seçki məntəqələri açırlar. Lakin biz bu işi görmək üçün səyləri birləşdirməliyik. Əlbəttə, bunu ancaq səyləri birləşdirməklə həll etmək olar. Odur ki, deyirəm: kimin daha demokratik olduğu barədə hələ mübahisə etmək olar.

Bizdə – mən Rusiyanı nəzərdə tuturam – həqiqətən çatışmayan yeganə bir cəhət varsa, o da seçkilərin keçirilməsinin lazımi demokratik ənənələrinin olmamasıdır. Lakin biz bu təcrübəni toplayırıq, onu zənginləşdiririk. Bizdə hətta xüsusi proqram, seçicilərin, seçkilərin təşkilatçılarının hüquqi mədəniyyətini yüksəltmək proqramı mövcuddur. Biz onlarla təkcə seçkilər ərəfəsində deyil, həmişə məşğul oluruq. Bu çox vacibdir.

**N i k o l a y  R y a b o v:** Hamının unutduğu bir mühüm məqam. Siyasi partiyalar öz fəaliyyətləri üçün maksimum azadlıq tələb edir, lakin partiyaların özlərinin təşəkkülündən tutmuş, ümumiyyətlə, partiya quruculuğu proseslərini yaddan çıxarırlar. Onlar belə düşünürlər: partiyanı yaratdım, tələblərimi isə sonra irəli sürə bilərəm. Axı mərkəzində partiya strukturları duran vətəndaş cəmiyyəti bir ilə yaranmır. Partiya möhkəmlənənədək on illər keçir. Onlar bunu daim unudurlar. Bizim komissiya siyasi partiyalar haqqında qanun təklif etməyə məcbur olmuşdur. Onlar hətta bunu da başa düşmədilər.

**A l e k s a n d r  V e ş n y a k o v:** Yeri gəlmişkən, partiya quruculuğunun şərtlərindən biri belə olacaq – partiyanın başlıca vəzifəsi seçkilərdə iştirak etməkdir. Əgər bir seçkini buraxırsansa, deməli, sən siyasi partiya statusunu itirirsən, bu işə, sadəcə olaraq, hazır deyilsən. Belədirsə, siyasət meydanında əl-ayağa dolaşma. Yaxud başqa bir misal. Əgər sən seçkilərin nəticələrinə görə seçicilərin səslərinin 2 faizini qazanmısansa, onda cəmiyyət tərəfindən həqiqətən dəstəkləndiyinə görə, dövlət sənə maddi yardım göstərir. Yox, əgər belə deyilsə, konkret insanlar, cəmiyyət tərəfindən dəstəklənməyən ayrı-ayrı adamları saxlamaq, onların hansısa iddialarının nazı ilə oynamaq nəyə lazımdır? Bu da dövlət məsələsidir. Demokratik dövlət hakimiyyətə leqal namizəd olmaq hüququnu kimə verəcəyi barədə düşünməlidir. Biz siyasi partiyalarımızla, bax, bu dildə danışırıq. Şükürlər olsun ki, indiki mərhələdə bizi başa düşürlər.

**H e y d ə r  Ə l i y e v:** Düzdür. Əlbəttə, bu proses inkişaf prosesidir, təşəkkül prosesidir, yüksəliş prosesidir və ona qısa müddətdə nail olmaq qeyri-mümkündür. Başlıcası budur ki, Rusiya da bu yolla gedir, Azərbaycan da bu yolla gedir. Biz nəyə çalışırıqsa, ona da nail olacağıq, çətinlikləri mücərrəd şəkildə başa düşmək deyil, reallıqları əsas tutmaq lazımdır.

**A l e k s a n d r  V e ş n y a k o v:** Bizi bu sahədə də bir çox cəhətlər birləşdirir və niyyət protokolu, seçki komissiyalarının informasiya mübadiləsi sahəsində, qanunvericiliklərimizin, gələcəyə baxışlarımızın mübadiləsi sahəsində, işgüzar əlaqələr sahəsində əməkdaşlıq haqqında protokol imzalamaq fikrindəyik. Biz dəvət almışıq və seçkilərdə beynəlxalq müşahidəçilər kimi iştirak edəcəyik. Bu imkandan məmnuniyyətlə istifadə edəcəyik. Nəzərə çatdırmaq istəyirəm ki, həqiqətən, təcrübəni axtaranda tapacaqsan, öz təcrübəni bölüşəcəksən, bütün bunlar dövlətlərimiz arasında münasibətlərin inkişafına kömək edəcəkdir. Qapşılıqlı fəaliyyət, Rusiya Federasiyasında yaradılmış informasiya sistemində Azərbaycana kömək göstərilməsi sahəsində niyyətlərimiz var, əməli addımlar atmışıq. Həm də biz özümüzün bütün zəif cəhətlərimizi bilirik. Biz deyə bilərik ki, nəyi etməmək, nədən yan keçmək daha yaxşıdır və başqa bir xüsusiyyətə yiyələnmək lazımdır. Özü də biz bu informasiya sistemini təkcə seçkilərdə deyil, həm də Rusiya Federasiyasının bütün əhalisinin uçotu üçün tətbiq etmək istəyirik.

Sizin regionda konkret olaraq kimlərin yaşadığını bilmək demoqrafiya siyasəti, təyinatlı sosial yardım üçün çox vacibdir. Belədə, ümumiyyətlə, hamını deyil, bu yardıma həqiqətən ehtiyacı olanları dəstəkləmək mümkündür. Ona görə də bizdə inkişaf etmiş bu proseslərin təcrübəsini bölüşməyə, təcrübə mübadiləsi aparmağa hazırıq. Bunların çox vacib olduğuna Yuqoslaviya parlaq misaldır, orada seçkilər keçirilmişdi. Sanki böyük iradlar olmamışdı, amma seçkilərə, bütün dünyada edildiyi kimi, operativ, aşkar, açıq surətdə yekun vura bilmədilər ki, nəticələr heç kimdə şəkk-şübhə doğurmasın. Bu çox məsuliyyətli praktikadır, işi keyfiyyətlə görməyi bacarmamaq toqquşmalara gətirib çıxardı. Nəticədə bütün dünya müşahidə edir və çox narahat idi ki, bundan sonra nələr baş verəcəkdir. Buna görə də seçkilərdə dəqiq, açıq işləmək çox vacibdir.

Sizin komissiyanın iş üslubu xoşumuza gəldi. Hətta mənə dedilər ki, kütləvi informasiya vasitələri komissiyanın bütün iclaslarını lentə çəkirlər, sonra isə bu, film kimi göstərilir. Bu, komissiyanın üzvlərini nizam-intizamlı edir, öz rəylərində də, qəbul etdikləri qərarlarda da daha təmkinli olmağa imkan verir.

Digər tərəfdən isə bu, seçiciləri tərbiyə etmək üçün yaxşı məktəbdir.

**H e y d ə r  Ə l i y e v:** Hər şey aşkarlıq, açıqlıq şəraitində gedir, heç nə gizlədilmir. Hər halda, televiziya hər şeyi göstərir və hər bir vətəndaş kimin hansı mövqeyi tutduğunu, kimin nə dediyini, kimin nə təklif etdiyini, kimin haqlı, kimin haqsız olduğunu görür. Bir sözlə, biz Mərkəzi Seçki Komissiyasının işinə bütün vətəndaşlar tərəfindən ictimai nəzarət üçün şərait yaradırıq.

**A l e k s a n d r  V e ş n y a k o v:** Bu olduqca böyük məsuliyyətdir. Biz bir vaxtlar, 1994-cü ildə təkid edirdik qanunda göstərilsin ki, seçki komissiyası müstəqil təşkilat kimi daimi əsasda işləməlidir. Bəziləri bunun əleyhinə çıxaraq deyirdilər – nə üçün? Sovet dövründə olduğu kimi, komissiya yaradarıq, seçkilər qurtardı, daha sizlik bir iş qalmadı, dağılışa bilərsiniz. Əvvələ, bu, Rusiyada daha mümkün deyildir. Çünki bizdə təkcə federal seçkilər deyil, həm də Rusiya Federasiyasının subyektlərində seçkilər keçirilir, biz hər bazar günü kimisə seçirik, müxtəlif münaqişələr meydana çıxır, onları isə həll etmək lazımdır. Əvvəllər belə idi – seçkiləri elan edirdilər, bütün icra hakimiyyəti, bütün partiya orqanları, yerli hakimiyyət işləyirdi. İndi isə hər şey başqa cürdür. Bir halda ki, seçki komissiyası var, deməli, bu onların məsələsidir, onlar məsuliyyət daşımalıdır, məhz onlardan tələb edilməlidir. Qalanları, sadəcə olaraq, kömək edirlər, amma artıq tamam başqa səpgidə kömək edirlər. Ona görə də, zənnimizcə, biz düzgün addım atmışıq, o özünü doğrultmuşdur. İndi Rusiyada heç kim bu barədə mübahisə edə bilməz. Amma bu, əzab-əziyyət bahasına başa gəldi.

Biz burada komissiya ilə əməkdaşlıq etmək niyyətindəyik, buna vaxt və maraq var. Biz nəinki Azərbaycanın seçki komissiyası ilə əməkdaşlıq etmək niyyətindəyik, həm də bütün MDB ölkələri ilə əlaqələri genişləndiririk, bəzən hətta öz mənafelərimizi qoruyuruq. Bəzən də bizi başqa ölkələrdə heç də hamı başa düşmür.

**N i k o l a y R y a b o v:** Başqa ölkələrlə və MDB-nin digər ölkələri ilə əməkdaşlıq edə bilərsiniz, amma Azərbaycanla ilk növbədə etməlisiniz.

**H e y d ə r Ə l i y e v:** Sağ olun.

## «BAKI-KASTEL» XIRDALAN PİVƏ ZAVODUNUN TAM İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*16 oktyabr 2000-ci il*

Hörmətli prezident cənab Kastel!
Hörmətli qonaqlar!
Hörmətli səfir!
Hörmətli xanımlar və cənablar!

Mən hamınızı bugünkü bu əlamətdar hadisə – Azərbaycandakı pivə zavodunun özəlləşdirildikdən sonra yenidən qurularaq, modernləşdirilib tam istismara verilməsi münasibətilə təbrik edirəm və «Kastel» şirkətinə, eyni zamanda bu müəssisənin əməkçilərinə, bütün işçilərinə yeni-yeni uğurlar arzulayıram.

Bu müəssisənin tarixi mənə bəlkə də hamıdan çox məlumdur. Biz vaxtilə, 70-ci illərin əvvəlində Azərbaycanda əhalini pivə ilə təmin etmək üçün burada böyük bir zavod tikdik və istismara verdik. Pivə elə bir içkidir ki, əhalinin bir qismi bundan istifadə edir. Ancaq lazımdır ki, pivə keyfiyyətli olsun. Keçmiş zamanlarda da Azərbaycanda pivə istehsal olunub və insanlar bundan istifadə ediblər. Yəqin, xatırlamaq olar, vaxtilə Zığda kiçik bir pivə zavodu var idi. Orada pivə istehsal olunurdu. Bunlar hamısı keçmiş tarixdir. Ancaq o vaxt biz belə qərara gəldik ki, yeni böyük bir müəssisə tikək və nəinki Azərbaycanın tələbatını, eyni zamanda keçmiş Sovetlər İttifaqının Azərbaycana qonşu olan bir neçə respublikasının tələbatını təmin edək.

Mənim xatirimdədir, o vaxt bu zavod tikilərkən onun gücü 10 milyon dekalitr idi. Təbiidir ki, bu qədər istehsal olunmadı, amma, hər halda, pivə istehsal edilirdi. Təəssüflər olsun ki, son on il içərisində Azərbaycanda istehsalın çox sahələri dağıdıldığı kimi, bu pivə zavoduna da böyük zərbələr vuruldu. Dövlət əmlakı naziri burada bildirdi ki, son illər bu zavod istehsal həcminin cəmisi 1 faiz miqdarında pivə istehsal edibdir. Təbiidir ki, onun da keyfiyyəti bugünkü tələbata, yaxud beynəlxalq standartlara uyğun deyildi.

Vaxtilə Azərbaycanda böyük Yeyinti Sənayesi Nazirliyi, onun müəssisələri olmuşdur. Sonra həmin Yeyinti Sənayesi Nazirliyi böyük bir birliyə çevrilmişdi. Üç il bundan öncə mən sərəncam imzaladım, özəlləşdirmə prosesinə daha da təkan vermək üçün həmin birliyi ləğv etdim və oraya daxil olan müəssisələrin, o cümlədən pivə zavodunun özəlləşdirilməsi haqqında qərar qəbul etdim.

Burada işləyənlər yəqin xatırlayırlar ki, o vaxt bu pivə zavodunun özəlləşdirilməsi bir az çətin oldu. Çünki təbiidir, burada yeni müəssisə yaradılmalı, müasir texnologiya ilə təmin olunmalı və yüksək keyfiyyətli pivə istehsal olunmalı idi. Əgər belə olmasa, keçmiş səviyyədə olan zavod nə Azərbaycana lazımdır, nə pivə içmək istəyən insanlara.

Son illər bazar iqtisadiyyatını inkişaf etdirdiyimizə görə Azərbaycana xarici ölkələrdən çox miqdarda pivə gətirilib, satılıb və bu gün də gətirilib satılır. Sovet İttifaqı vaxtı daxili istehsal, o cümlədən bu pivə zavodu Azərbaycanı təmin edirdi. Ancaq keyfiyyət o qədər yüksək deyildi. Ona görə də pivəpərəstlər məcbur olub, xüsusən imkanı olan adamlar Çexoslovakiyadan gələn pivədən daha çox istifadə edirdilər, yaxud da Moskvadan gətirilən pivədən istifadə edirdilər.

Xatirimdədir, 70-ci illərdə Azərbaycanda bir ifadə vardı: «Çexoslovakiya pivəsi». Amma «Çexoslovakiya pivə»sini hamı içə bilmirdi. Ancaq müəyyən bir qrup, imkanlı adamlar bunu içə bilirdi. Amma əhalinin hamısını təmin etmək lazım idi. O da bu zavod vasitəsilə təmin olunurdu.

Qeyd etdim ki, bu zavod get-gedə öz gücünü itirdi və nəhayət, istehsal həcminin bir faizinə gəlib çıxdı. Bunun yeganə yolu o idi ki, biz dövlət mülkiyyətini ləğv edirik, belə müəssisələri özəlləşdiririk və özəl sektora imkan veririk ki, bu müəssisələri yenidən qursunlar, modernləşdirsinlər, beynəlxalq standartlara uyğun etsinlər və istehsal olunan hər bir məhsulun keyfiyyətini yüksəltsinlər.

İndi insanlar keçmişdəki kimi deyildirlər, yüksək keyfiyyət tələb edirlər. Biz dünya iqtisadiyyatına qatıldığımıza, bazar iqtisadiyyatına keçdiyimizə görə Azərbaycana hər yerdən istehlak malları gəlir, o cümlədən pivə də gətirilir. Əgər biz köhnə vəziyyətdə olsaydıq, təbiidir ki, heç bir şey edə bilməzdik. Təəssüflər olsun ki, bu zavodun özəlləşdirmə prosesi bir az ağır keçdi.

Xatirimdədir, mən Fransada səfərdə olarkən – mən 1993-cü ilin sonunda, ondan sonrakı zamanlarda və xüsusən 1997-ci ilin yanvar ayında prezident Jak Şirakın dəvəti ilə Fransada rəsmi səfərdə olan zaman – bu ölkənin ən böyük iş adamları ilə görüşdüm. Mən hər dəfə onları Azərbaycana gəlməyə dəvət etdim. Fransanın böyük şirkətləri birinci növbədə Azərbaycanın neft yataqlarına maraq göstərirdilər və biz onların xahişlərini ödədik. İndi dünyada məşhur olan fransız şirkətləri – «Total», «Elf Agiten» şirkətləri – Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlarda müştərək iş görürlər, çoxlu investisiya qoyublar.

Bu sahəyə maraq göstərənlər çoxdur. Biz isə çalışırdıq ki, xarici və xüsusən yüksək ada malik olan şirkətlər Azərbaycan iqtisadiyyatının bütün başqa sahələrinə də gəlsinlər. Bu sırada Fransanın «Kastel» şirkəti Azərbaycana maraq göstərməyə başladı.

Mən Fransada olarkən dostum prezident Jak Şirak da bunu hiss etdi. Fransanın bu şirkəti öz sahəsində, yəni şərab istehsalı, yaxud alkoqolsuz içkilər istehsalı sahəsində dünyada ən böyük şirkətlərdən biridir.

Ona görə də təbiidir ki, belə bir şirkətin Azərbaycana gəlməsi bizim üçün, iqtisadiyyatımızın gələcəyi üçün çox maraqlı və əhəmiyyətli idi. Mən də bunu istəyirdim. Cənab Kastel üç il bundan əvvəl Azərbaycana gəldi. Mən şəxsən hörmətli prezidenti, ondan sonra bu şirkətin başqa nümayəndələrini qəbul etdim. Bizim Azərbaycan ifadəsi ilə desək, xeyir-dua verdim ki, onlar ölkəmizdə geniş iş aparsınlar.

Onlar birinci növbədə pivə zavoduna maraq göstərdilər. Mən tapşırdım ki, bu şirkət üçün bütün imkanlar yaradılsın. Ancaq bizim o vaxtkı danışığımız belə olmuşdu ki, «Kastel» şirkəti Azərbaycanda şərab istehsalı ilə də məşğul olacaqdır. Cənab Prezident, bunu xatırlayırsınızmı? Hətta biz sizinlə o vaxt danışanda mən deyirdim ki, keçmişdə Azərbaycanda çoxlu şərab məhsulları istehsal olunubdur. Amma indi onu bərpa etmək, keyfiyyəti yüksəltmək lazımdır. Sizinlə bizim danışığımız belə oldu ki, siz burada ya yeni bir şərab zavodu tikəcəksiniz, yaxud da mövcud zavodlardan birini alacaqsınız, özəlləşdirəcəksiniz, Azərbaycanda üzüm yetişdirilən müəyyən sahələri götürəcəksiniz, özünüz yüksək keyfiyyətli tənəklər əkəcəksiniz və keyfiyyətli şərab istehsal edəcəksiniz. Bunlar xatirimdədir.

**P y e r K a s t e l** (*«Kastel» şirkətinin prezidenti*): Cənab Prezident, bu mənim çox yaxşı yadımdadır. Biz səfirlə birlikdə Şamaxıya getmişdik.

**H e y d ə r Ə l i y e v:** Bəli, siz Şamaxıya getmişdiniz. Bunları ona görə yadınıza salıram ki, çünki bu bizim gələcəkdə sizinlə müştərək işimiz olmalıdır.

**P y e r K a s t e l:** Cənab Prezident, mən də belə fikirləşirəm.

**H e y d ə r Ə l i y e v:** Hər halda, «Kastel» Azərbaycanda pivə zavodundan başladı, mən də bundan çox məmnun idim. Ona görə də lazımi imkanlar yaradılması barədə göstərişlər verildi.

Ancaq bu gün burada hər şeyi açıq demək lazımdır. Təəssüflər olsun ki, bunun üçün üç il vaxt gedibdir. «Kastel» elə bir şirkətdir ki, onlar lazım olan zavodu bir il içərisində yüksək səviyyəyə çatdıra bilərlər. Mən bunu doğru deyirəm. Ancaq niyə belə olubdur? Çünki – burada açıq demək lazımdır – Azərbaycanda bəzi qüvvələr xarici şirkətlərin ölkəmizdə iş görməsinə maneçilik törədirlər, şəxsi mənfəətlərini təmin etmək üçün cürbəcür yollarla onların qarşısını alırlar. Bu məsələ Azərbaycanda «Kastel»in də, bu pivə zavodunun da başına gəlibdir.

Dövlət əmlakı naziri, zavodun nümayəndəsi indi burada çıxış etdilər. Onlar elə təsvir etdilər ki, hər şey, necə deyərlər, yağ kimi gedibdir. Amma belə deyildir. Bu şirkət respublikamızda bir çox çətinliklərlə rastlaşıb, amma mənim bunlardan xəbərim olmayıbdır. Bu məsələni bilən kimi mən bu cənabı – Jan-Pol Lanfrankini qəbul etdim. Ona dedim ki, utanmayın, mənə hər şeyi açıq deyin. Xatirindədir, sən də mənə hər şeyi dedin. Soruşdum ki, niyə sən bunları gəlib mənə deməmisən?

**J a n- P o l L a n f r a n k i** (*«Kastel» şirkətinin vəkili*): Cənab Prezident, o vaxt elə bir çətinlik var idi ki, biz sözümüzü deyə bilməzdik.

**H e y d ə r Ə l i y e v:** Bəli. İndi mən həmin çətinliyin nə olduğunu açıq deyim. Bu işə prokurorluq qarışmışdı. Hətta baş prokuror bunu çağırıb qorxutmuşdu. Bu da qorxub geri çəkilmişdi. O bunları mənə dedi. Elədirmi, yoxsa yox?

**J a n- P o l L a n f r a n k i:** Bəli, cənab Prezident.

**H e y d ə r Ə l i y e v:** Ondan sonra mən bu işə qarışdım. Görürsünüz, qısa bir müddətdə – biz altı ay bundan əvvəl görüşmüşük – hər şey qaydasına düşdü.

**J a n- P o l L a n f r a n k i:** Bəli, cənab Prezident, Siz hər şeyi o dəqiqə həll etdiniz.

**H e y d ə r Ə l i y e v:** Məsələlər o dəqiqə həll olundu. Görürsünüz, bunlar bu məsələləri qısa müddətdə həll etdilər. İndi özləri də sevinirlər, biz də sevinirik və buraya gəlmişik, bu yeni zavodun açılışında iştirak edirik.

«Kastel» şirkəti tərəfindən bu zavoda nə qədər investisiya qoyulduğu və bundan sonra nə qədər sərmayə qoyula bilməsi barədə burada deyildi. Biz əvvəlcədən də danışmışdıq – bu zavodda istehsal edilən pivənin keyfiyyəti çox yüksək olmalıdır. Söz veriblər ki, keyfiyyət çox yüksək olacaqdır. Bu zavodun məhsulları həm Azərbaycanı təmin etməlidir, həm də qonşu ölkələrə ixrac edilməlidir. Çünki məndə olan məlumatlara görə, Azərbaycanın tələbatı ildə təxminən 2 milyon dekalitrdir. Ancaq hörmətli prezident cənab Kastel burada dedi ki, onlar ildə 6 milyon dekalitr istehsal edəcəklər, hətta istehsalı ildə 10 milyon dekalitrə də qaldıra bilərlər. Mən buna inanıram. Ancaq biz gərək şərait yaradaq ki, onlar istehsalı artırsınlar və Azərbaycanda hamı Xırdalan pivəsi, Azərbaycan pivəsi, «Kastel» pivəsi içsin.

Baxın, orada şüar yazıblar: «Xırdalan pivəsi –bizim pivə, adı da bizim, dadı da bizim». Amma mən ona bir düzəliş vermək istəyirəm, «Xırdalan pivəsi – bizim pivə, adı bizim, dadı hamının». Qoy təkcə Azərbaycanda yox, başqa ölkələrdə də bu pivənin dadı hamını cəlb etsin ki, «Kastel» şirkəti burada pivə istehsalını artıra bilsin və biz bu məhsulu ixrac edə bilək. Təbiidir ki, bunun üçün də biz imkanlar yaradacağıq.

Mən çox məmnunam ki, son vaxtlar görülən tədbirlər nəticəsində bu işin birinci mərhələsi başa çatıbdır və bu gün biz buraya toplaşmışıq. Bilirəm ki, «Kastel» şirkətinin prezidenti xüsusi təyyarə ilə respublikamıza gəlibdir. O, saat 3-də Bakıda olmalı idi, bir az gecikib, biz də onu gözlədik. Amma xaricdən buraya xüsusi təyyarə ilə gəlmək nə deməkdir? Bu o deməkdir ki, «Kastel» şirkəti Azərbaycanda özəlləşdirilmiş pivə zavoduna çox böyük əhəmiyyət verir.

Mən bu münasibətlə hamınızı bir daha təbrik edirəm və ümidvaram ki, «Kastel» şirkəti sizinlə, kollektivlə birlikdə bu zavodun istehsal həcmini artıracaq, məhsulun keyfiyyəti də gündən-günə yüksələcəkdir.

Ancaq bizə məlumdur ki, istehsalın həcminin artması üçün gərək biz birinci növbədə Azərbaycanın daxili bazarını qoruyaq. Ümumiyyətlə, mən bu gün bəyan etmək istəyirəm – bunu əvvəllər də demişəm – indi Azərbaycanda bazar iqtisadiyyatı o səviyyəyə gəlib çatıbdır ki, biz bu məsələləri uyğunlaşdırmalıyıq. Biz Azərbaycanda istehsal edilən malların qorunmasına, istehsalın artırılmasına şərait yaratmalıyıq. Onun üçün də əgər «Kastel» şirkəti Azərbaycanda yüksək keyfiyyətli pivə istehsal edirsə və respublikamızın əhalisinin tələbatını ödəyirsə, başqa ölkələrdən pivənin Azərbaycana idxalına qoyulan rüsumlar qaldırılmalıdır.

Kim Azərbaycan, «Kastel», «Xırdalan» pivəsi içmək istəyirsə, burada onun qiyməti var, içsin. Amma kim istəyirsə ki, Çexiya pivəsi, yaxud da ki, Rusiya pivəsi içsin, o pivələrin rüsumlarını qaldırmaq lazımdır. Əgər rüsumlar qalxandan sonra bu pivələr Azərbaycan bazarına gələ bilərsə, qoy gəlsin. Amma rüsumlar qaldırılmasa, idxalçılar onu gətirəcək, Azərbaycan bazarını indi necə tutublarsa, eləcə də tutacaqlar. Təbiidir ki, bizim öz istehsalımız da bazarın bir hissəsini itirmiş olacaqdır.

Bu təkcə pivəyə deyil, bütün məhsullara aiddir. Mən bu barədə göstəriş vermişəm. Bu gün sizin və bütün ictimaiyyətin qarşısında bu göstərişi bir daha verirəm. Mən respublikanın Baş nazirinə tapşırmışam və bu gün bir daha tapşırıram. Azərbaycanda daxili istehsalın inkişaf etdirilməsi üçün, özəl sektora imkanlar yaratmaq üçün gərək biz yaxın zamanlarda xüsusi tədbirlər görək. Bu tədbirlər ondan ibarətdir ki, daxili istehsal qorunmalıdır, istehsalı inkişaf etdirmək üçün özəl sektora şərait yaradılmalıdır. Azərbaycanda hansı mallar yüksək keyfiyyətdə istehsal olunursa, onlara oxşar malların ölkəmizə idxal edilməsinə rüsumlar artırılmalıdır. Beləliklə, biz Azərbaycanda istehsalı inkişaf etdirməliyik.

Bütün özəlləşdirmənin əsas məqsədi, nəticəsi ondan ibarətdir ki, keçmişdə dövlət mülkiyyətində olan müəssisələr ayrı-ayrı şirkətlərə, iş adamlarına satılsın, verilsin, özəlləşdirilsin. Amma bu, məsələnin bir tərəfidir. Əgər kimsə, hansısa müəssisəni alıb, orada mal istehsal etməyə başlayırsa, eyni zamanda belə məhsulu xaricdən gətirib bütün bazarı doldururlarsa, o, istehsalını təmin edə bilməyəcəkdir.

İndi respublikamızda daxili istehsal inkişaf dövründədir. Biz buna şərait yaratmalıyıq və Azərbaycan bazarını qorumalıyıq. Respublika Nazirlər Kabineti bu barədə lazımi tədbirlər görməlidir.

Mən pivə zavodunun istifadəyə verilməsinin gecikdirilməsinin səbəbləri barədə burada danışdım. Mən bunu əvvəl də demişəm, bu gün də deyirəm. Hüquq-mühafizə orqanları, xüsusilə prokurorluq özəl sektorun işinə qarışmamalıdır. Özəl sektor məhsul istehsal edir və öz işini özü görməlidir. Özəl sektorun əsas işinə Vergilər Nazirliyi nəzarət etməlidir. Özəl sektorda insanlara imkan yaratmaq lazımdır ki, onlar işləsinlər, məhsul istehsal etsinlər, vergilərini versinlər. Qalan məsələlərlə bizim işimiz yoxdur.

Açıq demək lazımdır, hüquq-mühafizə orqanları, xüsusən prokurorluq indiyə qədər Azərbaycanda bazar iqtisadiyyatının inkişafına çox zərərlər vurublar. Mən bu barədə fərmanlar vermişəm, bu işlərə qarışmağı qadağan etmişəm. Mən qadağan edirəm, amma gedib əlaltdan o şirkəti, bu şirkəti yoxlayırlar. Bu nəyə lazımdır? Onların hamısını ancaq Vergilər Nazirliyi yoxlaya bilər. Əgər həmin şirkət qanunsuz iş görürsə, istehsal etdiyi, satdığı malı vergidən gizlədirsə və yaxud başqa qanunsuz işlər edirsə, onda Vergilər Nazirliyinin lazımi tədbirlər görməyə səlahiyyəti vardır. Hər bir hüquq-mühafizə orqanı – bir yandan prokuror, o biri yandan polis, yaxud başqası – icra hakimiyyəti başçısı və sairə gəlib şirkətin işinə qarışsa, onda biz Azərbaycanda bazar iqtisadiyyatını inkişaf etdirə bilmərik. Ona görə də mən bu barədə fikrimi bir daha bildirirəm, xəbərdar edirəm və iş adamlarına da deyirəm ki, belə halların qarşısını alın, ala bilmirsinizsə şikayət edin, qorxmayın, biz sizin arxanızdayıq.

Bilirsiniz ki, ikinci özəlləşdirmə proqramı qəbul olunubdur. O, həyata keçirilir. İndi atılan ilk addımlar onu göstərir ki, bu, yaxşı həyata keçirilir. Biz bu məsələni bir neçə dəfə müzakirə etmişdik, ancaq bəzi səbəblərə görə onu həll edə bilməmişdik. Bir neçə gün bundan öncə biz toplaşdıq, müzakirə etdik. Mən qəti qərar qəbul etdim ki, özəlləşdirilən müəssisələrin, kolxozların, sovxozların, başqa müəssisələrin indiyə qədər olan borclarının hamısı silinsin.

Bilirsiniz, bu da özəlləşdirməni əngəlləyən amillərdən biridir. Doğrudur, mən bir il, iki il bundan öncə bu məsələni qaldırmışdım. Amma bəzi iqtisadçılar, mütəxəssislər deyirdilər ki, necə ola bilər, axı bu müəssisənin borcu var. Axı reallıq odur ki, bu borc 10–20–30 ildir yığılıbdır. Bu borc sovet hakimiyyəti dövründən yığılıbdır. Bu müəssisəni özəlləşdirən adam əgər bütün borcları versə və həmin müəssisənin haqqını ödəsə, onda özünə nə qalır ki? Bunun xeyri nədir?

Mən ona görə Milli Məclisə qanun layihəsi göndərmişəm. Həmin qanun layihəsi bu günlərdə qəbul olunacaqdır. Kim özəlləşdirmədə iştirak edə bilərsə və etmək istəyirsə, bilsin ki, bütün müəssisələrin borclarının

hamısı silinəcəkdir. Yəni kim hansı müəssisəni özəlləşdirirsə, o, necə deyərlər, ağ vərəqdən başlayacaqdır. Müəssisənin indiyə qədər nə qədər borcu varsa silinir, beləliklə, müəssisəni alıb inkişaf etdirəcəklər.

Hesab edirəm ki, bu, özəlləşdirmənin sürətləndirilməsi üçün çox mühüm, hətta çox cəsarətli bir addımdır. Biz bu addımı atmışıq və özəlləşdirmənin sürətlə inkişaf etdirilməsi üçün böyük imkanlar yaratmışıq. Kim özəlləşdirmədə iştirak etmək istəyirsə – həm xarici şirkətlər, həm də Azərbaycanın daxili iş adamları – buyursun, gəlsin, bu imkanlardan istifadə etsin.

Hörmətli dostlar!

Hörmətli qonaqlar!

Bu gün biz pivə zavodunun açılışı, eyni zamanda, Fransa–Azərbaycan iqtisadi əlaqələrinin inkişaf etdirilməsi üçün yeni böyük bir addımın atılması ilə əlaqədar buraya toplaşmışıq. Mən Fransanın iş adamlarına və bu ölkənin Azərbaycandakı səfirinə üzümü tutaraq deyirəm ki, Fransa şirkətlərinin respublikamızda sərmayə qoyub çox iş görmələri üçün böyük sahələr vardır. Bu sahələrdən istifadə etmək lazımdır. «Kastel» şirkəti bu barədə nümunə göstərir.

Təbiidir ki, neft sektorunda iştirak edirlər və onların da gözəl nəticələri vardır. Amma bizim qeyri-neft sektorunda Fransanın iş adamları üçün çox böyük imkanlar vardır. Qoy «Kastel» şirkətinin bu addımı Fransanın bütün şirkətləri üçün, təkcə Fransa yox, başqa xarici ölkələrin bütün investorları üçün də nümunə olsun. Mən onları bir daha, bir daha Azərbaycana dəvət edirəm.

Bu əlamətdar hadisə münasibətilə sizi bir daha təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, «Kastel» şirkəti belə nümunələri daha da artıracaq, hörmətli prezidentə dediyim kimi, biz şərabçılıq sahəsində də yeni-yeni işlər quracağıq. Sağ olun.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BİLL KLİNTONA**

Hörmətli cənab Prezident!

Ədən limanında hərbi gəmidə baş vermiş partlayış nəticəsində insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların qohumlarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 oktyabr 2000-ci il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KİM DE ÇJUNA**

Hörmətli cənab Prezident!

Dünyada sülhün möhkəmləndirilməsi sahəsində xidmətlərinizə görə Nobel sülh mükafatına layiq görülməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Koreya xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 oktyabr 2000-ci il*

**MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB FERENS MADLA**

Hörmətli cənab Prezident!

Macarıstan Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizə və dost macar xalqına ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Macarıstan arasında mövcud olan mehriban dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə getdikcə möhkəmlənərək ölkələrimizin inkişafına kömək edəcəkdir.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar, ölkənizə sülh, daimi tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 oktyabr 2000-ci il*

**ZAMBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FREDERİK ÇULUBAYA**

Hörmətli cənab Prezident!

Zambiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Zambiya xalqını ürəkdən təbrik edir, Sizə cansağlığı və səadət, ölkənizə sülh və tərəqqi arzulayıram.

İnanıram ki, Azərbaycan Respublikası ilə Zambiya Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahının yüksəlməsi, ölkələrimizin çiçəklənməsi naminə inkişaf edib genişlənəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *16 oktyabr 2000-ci il*

## «AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ ƏSAS İXRAC BORU KƏMƏRİ İŞTİRAKÇILARI ARASINDA TRANZİT ƏRAZİSİNƏ MALİK ÖLKƏNİN HÖKUMƏTİ İLƏ SAZİŞ»İN VƏ «BAKI–TBİLİSİ–CEYHAN XAM NEFT KƏMƏRİ LAYİHƏSİNİN MÜHƏNDİS İŞLƏRİ VƏ LAYİHƏLƏŞDİRİLMƏSİ ÜÇÜN MALİYYƏLƏŞDİRMƏ VƏ ƏMƏKDAŞLIQ SAZİŞİ»NİN İMZALANMASI MƏRASİMİNDƏ* NİTQ

*Prezident sarayı*

*17 oktyabr 2000-ci il*

Hörmətli xanımlar və cənablar!

Sabah, oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktının qəbul olunmasının 9-cu ildönümüdür. 9 il bundan öncə Konstitusiya aktı qəbul olunandan sonra Azərbaycan öz müstəqilliyini əldə edib və 9 ildir ki, müstəqil dövlət kimi yaşayır. Mən bu bayram, Azərbaycanın istiqlaliyyət günü münasibətilə sizi, bütün xalqımızı, vətəndaşlarımızı ürəkdən təbrik edirəm. Azərbaycan xalqına sülh, əmin-amanlıq, rifah, dövlətimizin müstəqilliyinin əbədi olmasını arzulayıram.

Biz bu gün buraya tarixi bir hadisə münasibətilə toplaşmışıq. Məlumdur ki, 1994-cü ilin sentyabr ayında Xəzərin Azərbaycan sektorundakı zəngin neft yataqlarının müştərək işlənilməsi üçün dünyanın bir çox böyük neft şirkətləri ilə ilk müqavilə imzalanmışdır. Biz o vaxtdan bu müqavilənin həyata keçirilməsi ilə məşğuluq. Beləliklə, Azərbaycanın yeni neft strategiyası başlamışdır. 1994-cü ilin sentyabr ayında «Əsrin müqaviləsi»nin imzalanması məhz Azərbaycan xalqının azadlığının, dövlət müstəqilliyinin bəhrəsidir.

Bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, imzalanmış bu neft müqaviləsi ardıcıl surətdə həyata keçirilir, öz nəticələrini verir.

Birinci müqavilə Xəzər dənizinin böyük neft və qaz imkanlarını dünyaya açıbdır. İndi Azərbaycanda 20 böyük neft müqaviləsi imzalanıbdır.

«Əsrin müqaviləsi»ndə – Xəzərin Azərbaycan sektorundakı «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi barədə müqavilədə Azərbaycan Dövlət Neft Şirkətinin 11 xarici ölkə neft şirkəti ilə birgə əməkdaşlıq etməsi nəzərdə tutulurdu. Bu əməkdaşlıq uğurla həyata keçirilir, «Çıraq» yatağından 1997-ci ildə neft hasil olunubdur. Həmin yataqdan alınan neft dünya bazarlarına ixrac edilir. Beləliklə, biz imzaladığımız müqavilənin əməli nəticəsini görürük.

Təbiidir ki, belə bir müqavilənin həyata keçirilməsi zamanı böyük miqdarda neft hasil olunması nəzərdə tutulduğuna görə, bu neftin dünya bazarlarına ixracı da müqavilədə nəzərə alınmalı idi. Ona görə də ilk müqavilədən hasil edilən neftin dünya bazarlarına ixrac olunması üçün müxtəlif neft borularının, o cümlədən Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin tikilməsi nəzərdə tutulmuşdu.

Biz xarici neft şirkətləri ilə birlikdə elə o vaxtdan, 1994-cü ildən başlayaraq əsas ixrac neft kəmərinin – Bakı–Ceyhan kəmərinin, sonra biz onu Bakı–Tbilisi–Ceyhan adlandırdıq – yaradılması üçün çox işlər gördük.

Məlumdur ki, bu istiqamətdə apardığımız işlər çox böyük müqavimətlərlə, çətinliklərlə rastlaşmışdı. Çoxları belə bir ixrac kəmərinin tikilməsinin real olmadığını bəyan edirdilər. Hər halda, Bakı–Tbilisi–Ceyhan neft kəməri ötən illər bütün dünya ictimaiyyətinin nəzər-diqqəti altında olubdur. Lakin biz – Azərbaycan, Türkiyə, Gürcüstan dövlətləri, konsorsiumda iştirak edən neft şirkətləri Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikilməsi işi ilə ardıcıl məşğul olmuşuq, mübarizə aparmışıq və buna da nail olmuşuq.

Gördüyümüz bütün bu işlərin zirvəsini də 1999-cu ilin noyabrında İstanbulda ATƏT-in zirvə görüşü zamanı imzalanmış saziş təşkil edir. Həmin sazişi Azərbaycan Respublikasının prezidenti, Türkiyə Cümhuriyyətinin prezidenti, Gürcüstan prezidenti, Qazaxıstan prezidenti imzalamışlar və o sazişə Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton da öz imzasını qoymuşdur.

Beləliklə, bizim çoxillik işlərimiz belə bir siyasi sənədin qəbul olunması ilə başa çatmışdır. Ancaq ondan sonrakı dövrdən bu günədək o qədər də asan olmamışdır. Çünki Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikilməsi, onun qiyməti, başqa kommersiya-texniki məsələləri ilə əlaqədar müxtəlif fikirlər olmuşdur. Bu, müxtəlif fikirlər hətta konsorsiuma daxil olan şirkətlər arasında da mövcud idi. Ona görə də bu sahədə də çox işlər görmək lazım idi.

---

* Mərasimdə imzalanacaq sənədlərin mahiyyəti haqqında, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Devid Vudvord məlumat verdilər.

Bu işlər Azərbaycan, Türkiyə, Gürcüstan dövlətləri və onların müvafiq orqanları tərəfindən aparılmışdır. Amerika Birləşmiş Ştatlarının dövləti, hökuməti də bu prosesə daim dəstək vermişdir. Bütün texniki, kommersiya məsələləri barəsində razılıqlar əldə edilmişdir. Bunların nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan şirkətlər birlikdə Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi haqqında kommersiya-texniki sazişlər hazırlamışdır. Bu gün biz bu sazişlərin imzalanması üçün buraya toplaşmışıq.

Nəzərdə tutulur ki, həmin sazişlər bu gün Azərbaycanda, onun paytaxtı Bakıda, sabah Gürcüstanda, Tbilisidə, o biri gün isə Türkiyədə imzalanacaqdır. Təbiidir ki, sazişlərin imzalanması bu sahədə yeni bir mərhələ açacaqdır, Bakı-Tbilisi–Ceyhan əsas ixrac neft boru kəmərinin əməli surətdə tikilməsinə başlanacaqdır.

## YEKUN NİTQİ

Hörmətli xanımlar və cənablar, dostlar!

Bu gün hamımız həqiqətən eyni fikirdəyik ki, tarixi bir gün yaşayırıq, tarixi dəqiqələr keçiririk.

1994-cü ilin sentyabrında Azərbaycanda ilk neft müqaviləsi imzalananda biz böyük qürur, xoşbəxtlik hissi keçirirdik, bu istiqamətdə Azərbaycanın gözəl gələcəyini görürdük.

Məlumdur ki, buna şübhə ilə yanaşanlar da, inanmayanlar da, mane olanlar da var idi. Azərbaycanın həm daxilində, həm də xaricində bu müqavilə bir tərəfdən qısqanclıq, o biri tərəfdən narazılıq doğurmuşdu. Ancaq Azərbaycan xalqı, hər halda onun tam əksəriyyəti, bu hadisəni tarixi hadisə və müstəqil ölkəmizin gələcəyi üçün ən önəmli, ən mühüm iş kimi qiymətləndirir.

Ondan sonrakı dövr bizim üçün asan olmadı. Biz xaricdən çox təzyiqlərə məruz qaldıq. Bir sıra ölkələrin mətbuatında, qəzetlərində bu barədə müxtəlif fikirlər – əksəriyyəti isə əks fikirlər dərc olunurdu. Beləliklə, bizim gördüyümüz bu işlərə həm beynəlxalq ictimaiyyətdə, həm də Azərbaycanda şübhə yaratmaq istəyirdilər.

Ölkəmizin həm xaricdə, həm də daxildə olan düşmənləri yaxşı dərk edirdilər ki, bu müqavilə Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi üçün ən mühüm hadisələrdən biridir. Təsadüfi deyil ki, bu müqavilə imzalanandan bir gün sonra Azərbaycana qarşı böyük bir təxribat baş verdi. Respublikamızın Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasında cəza çəkən çox təhlükəli cinayətkar məhbuslar müxtəlif qüvvələrin köməyi ilə oradan çıxarıldı, qaçırıldı və Azərbaycanın daxilində sabitliyin pozulması üçün müəyyən imkanlar yarandı. Bundan bir həftə sonra Azərbaycanda iki dövlət xadiminə, siyasi xadimə qarşı terror baş verdi, onlar qətlə yetirildi.

Bunların məntiqi davamı olaraq, 1994-cü il oktyabrın 3–4-də Azərbaycanda silahlı dövlət çevrilişinə cəhd göstərildi. Biz bu cəhdin qarşısını xalqımızın, millətimizin birliyi, gücü ilə aldıq. Ancaq Azərbaycanın daxili və xarici düşmənləri ölkəmizin bu qədər müstəqil siyasət aparmasına, müstəqil inkişaf etməsinə maneçilik törətməkdən əl çəkmirdilər.

Həmin hadisədən altı ay sonra Azərbaycanda yenidən silahlı dövlət çevrilişinə cəhd göstərildi. Bu həm xaricdən idarə olunurdu, həm də daxildəki cinayətkar qüvvələr tərəfindən təşkil edilmişdi. Çox təəssüflər olsun ki, bu gün müxalifətdə olan bəzi siyasi partiyalar da həmin dövlət çevrilişinə cəhddə fəal iştirak edirdilər. Biz bu dövlət çevrilişinə cəhdin də qarşısını aldıq. Qan töküldü, şəhidlər verdik, ancaq Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin əleyhinə çıxan qüvvələri darmadağın etdik.

Sonrakı illərdə də Azərbaycanın qarşısına bir çox çətinliklər çıxmışdı. Bunlar hamısı sizə məlumdur. Bunların hamısının bir səbəbi vardır. Həm xaricdə, həm də daxildə olan düşmənlər görürdülər ki, Azərbaycan müstəqil bir dövlət kimi yaşayır, ölkəmizin müstəqilliyi gündən-günə möhkəmlənir, respublikamızın yeni dövlət neft strategiyası böyük gələcəkdən xəbər verir. Məhz həmin adamlar bunların qarşısını almaq, Azərbaycanı zəiflətmək və ayrı-ayrı cinayətkar qruplar tərəfindən ölkəmizi ələ keçirmək üçün bu cür dəhşətli yollara düşdülər.

Biz ötən illər çox ağır, çətin yollar keçdik, Azərbaycan xalqını bir çox təhlükələrdən xilas etdik və ölkəmizin müstəqilliyini, dövlətçiliyini qoruduq. Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün dövlət neft strategiyasını ardıcıl surətdə həyata keçirdik.

Burada deyildi ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin yaradılması da dövlət neft strategiyamızın əsas hissəsini təşkil edir. Bütün təxribatlar, xaricdən bizə qarşı olan təzyiqlər heç bir nəticə vermədi. Son illər isə Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin çəkilməsinə qarşı müxtəlif təbliğatlar aparıldı, təxribat hərəkətləri edildi. Amma bizim iradəmiz, müstəqil, demokratik Azərbaycanın iqtisadi, xarici siyasəti və dünyanın böyük dövlətləri, onların neft şirkətləri ilə əməkdaşlığı – bütün bunlar bizi bugünkü günə gətirib çıxardı.

Beləliklə, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri ağır bir yol keçibdir. Amma bu gün artıq hamı görür ki, biz bu yolu uğurla keçmişik. Biz – Türkiyə Cümhuriyyəti, Gürcüstan, Azərbaycan Amerika Birləşmiş Ştatlarının daimi dəstəyi nəticəsində bu ağır, çətin yolu birlikdə uğurla keçdik və bu gün artıq son sazişlər imzalandı.

İndi yeni mərhələ açılır. Bu gün burada verilən bəyanatlar və xüsusən Devid Vudvordun verdiyi bəyanatlar onu göstərir ki, biz əməli işə başlayırıq, bu əməli iş də uğurla həyata keçiriləcək və 2004-cü ildə Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri ilə Xəzər dənizinin nefti Aralıq dənizinə axacaqdır. Biz buna inanırıq. Biz hamımız birlikdə – Türkiyə, Gürcüstan, Azərbaycan, xarici neft şirkətləri, onların təmsil etdikləri dövlətlər Amerika Birləşmiş Ştatlarının dəstəyi ilə bu proqramı da gələcəkdə uğurla həyata keçirəcəyik.

Bizim bu işlərimizə maneçilik törədənlərə – həm daxildə, həm xaricdə – mən bildirmək istəyirəm ki, qoy onlar müstəqil Azərbaycan dövlətinin son illər, son 7 ildə keçirdiyi ağır, çətin, amma çox uğurlu yolu düzgün qiymətləndirə bilsinlər və özlərinə nəticə çıxarsınlar.

Biz bütün bu işləri Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün edirik. Biz bütün bu işləri Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq üçün edirik. Biz bütün bu işləri Azərbaycana parlaq gələcək yaratmaq üçün edirik. Biz bütün bu işləri müxtəlif dövlətlərlə uzunmüddətli əməkdaşlıq üçün edirik. Ona görə də mən inanıram ki, bizim bütün bu işlərimiz uğurla həyata keçiriləcəkdir.

Mən bu sənədlərin imzalanması münasibətilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini, Azərbaycan Dövlət Neft Şirkətini, Azərbaycan dövlətini, hökumətini, bütün Azərbaycan xalqını təbrik edirəm.

Biz estafeti Gürcüstana, sonra isə Türkiyəyə veririk. Mən cənab Vudvorddan xahiş edirəm ki, bizim salamlarımızı, mənim xüsusi salamımı, hörmət və ehtiramımı Gürcüstanın prezidenti, mənim dostum Eduard Şevardnadzeyə və bütün gürcü xalqına çatdırasınız.

Bizim salamlarımızı və xoş arzularımızı Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Əhməd Necdət Sezərə, Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli Bülənd Ecevitə, qardaş türk xalqına çatdırasınız.

Mən hamınızı bir daha təbrik edirəm və bu yolda hamıya uğurlar arzulayıram.

## AVSTRALİYANIN SİDNEY ŞƏHƏRİNDƏ KEÇİRİLƏN XXVII YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILARIMIZLA GÖRÜŞDƏ NITQ

*Prezident sarayı*

*18 oktyabr 2000-ci il*

Əziz idmançılar!

Hörmətli xanımlar, cənablar və dostlar!

Bu gün Azərbaycan xalqının böyük bayramıdır. Azərbaycanın dövlət müstəqilliyi haqqında qəbul olunmuş Konstitusiya Aktının 9-cu ildönümüdür. Bu möhtəşəm bayram münasibətilə mən sizi, bütün Azərbaycan xalqını, Azərbaycan vətəndaşlarını səmimi-qəlbdən təbrik edirəm, xalqımıza, millətimizə sülh, əmin-amanlıq, rifah, tərəqqi və daimi müstəqillik arzulayıram.

Bu gün eyni zamanda bizim idmanımızın bayramıdır. Xalqımızın idman qələbələri ilə əlaqədar olan bayramıdır. Biz bu gün buraya Sidneydə XXVII yay olimpiya oyunlarında iştirak etmiş, böyük nailiyyətlər əldə etmiş və böyük qələbə ilə vətəninə, Azərbaycana qayıtmış idmançılarımızı salamlamaq üçün, onlarla görüş üçün toplaşmışıq. Tamamilə təbiidir ki, müstəqillik günü bayramımızda biz müstəqilliyin Azərbaycana bəxş etdiyi bir çox nemətlər və əldə etdiyimiz bir çox nailiyyətlər sırasında idman sahəsində də böyük nailiyyətlər əldə etmişik. Bu gün bu nailiyyətlərin bayramını biz müstəqillik bayramı münasibətilə bir yerdə keçiririk.

Biz avqustun 25-də Zuğulbadakı «Gənclik» kompleksində XXVI yay olimpiya oyunlarına gedən idmançılarımız ilə görüşdük, onlara öz məsləhətlərimizi, tövsiyələrimizi verdik və öz arzularımızı bildirdik. Bizim arzularımız onların arzuları idi. Bizim arzularımız bütün Azərbaycan xalqının arzuları idi. O da ondan ibarət idi ki, Azərbaycan nümayəndə heyəti, Azərbaycanın nümayəndələri müstəqil Azərbaycanı dünyanın ən böyük idman yarışında təmsil edərək qələbələr, nailiyyətlər əldə etsinlər. Azərbaycan bayrağını uzaq Avstraliyada qaldırsınlar.

Mən bu gün bütün xalqımızın iftixar hissini ifadə edərək deyirəm ki, Azərbaycan idmançıları, Azərbaycanı təmsil edən bizim nümayəndə heyəti verdikləri sözə sadiq olmuşlar, çalışmışlar, yarışmışlar, vuruşmuşlar və böyük qələbələr əldə etmişlər.

Azərbaycan xalqının tarixində bu böyük qələbə ilk qələbədir. Biz indiyə qədər heç vaxt idman sahəsində bu qədər yüksək zirvələrə çatmamışıq. 200-ə qədər ölkənin nümayəndələrinin, idmançılarının – demək, bütün dünyanın, bütün Yer kürəsinin idmançılarının toplaşıb yarış keçirdiyi bir prosesdə gənc müstəqil Azərbaycanın, o qədər də böyük olmayan bir ölkənin idmançıları iki qızıl medal, bir bürünc medal aldılar və bir neçə idmançımız da çox yaxşı yerlər tutdu. Onlar Azərbaycanın şan-şöhrətini qaldırdılar. Onlar buradadırlar. Biz onlarla görüşə gəlmişik.

Əziz dostlar!

Əziz idmançılar!

Əziz gənclərimiz!

Mən sizi bu qələbə münasibətilə bütün Azərbaycan xalqı adından, millətimiz adından, dövlətimiz adından ürəkdən təbrik edirəm və sizə hədsiz minnətdarlığımızı və təşəkkürümü bildirirəm.

Ötən doqquz ildə Azərbaycanın müstəqillik dövründə bizim nailiyyətlərimiz az olmayıbdır. Ancaq indiyə qədər bütün xalqımızı, bütün vətəndaşlarımızı bu qələbə qədər, bu nailiyyət qədər sevindirən heç bir şey olmamışdır. Bütün xalq sevinmişdir. Siz bizə sevinc gətirmisiniz. Siz bizim xalqımızda böyük ruh yüksəkliyi yaratmısınız. Siz Azərbaycan xalqının, Azərbaycan övladının nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirmisiniz. Sizə bir daha təşəkkür edirəm. Sizi bir daha təbrik edirəm.

Amma eyni zamanda siz avqustun 25-də verdiyiniz sözlərin yerinə yetirilməsi haqqında yəqin ki, raport vermək istəyirsiniz. Doğrudur, siz raportunuzu uzaq Sidneydə verdiniz və oradan gələn sədalar artıq sizin verdiyiniz sözlərə sadiq olduğunuzu göstərdi. Eyni zamanda bu gün biz sizinlə görüşə gəlmişik. Sizi görmək istəyirik və sizin sözlərinizi eşitmək istəyirik.

### Y E K U N  N İ T Q İ

Əziz idmançılar, əziz olimpiyaçılar!

Mən sizə dedim ki, verdiyim sözə artıqlaması ilə əməl etdim. Sizə verilən zərflərin içərisindəki kağızdır, çekdir. Çünki o qədər pulu oraya yerləşdirmək mümkün deyildir. Bilirsiniz ki, gedib müəyyən yerlərdən,

bankdan alacaqsınız. Mən bunları ona görə etdim ki, siz bizim gözlədiyimizdən də artıq nailiyyətlər əldə etmisiniz.

Siz Sidneyə yola düşərkən mən dedim ki, hər bir idmançımız qızıl medal alsın. Bu, təbii bir arzudur. Bu təkcə mənim yox, bütün millətimizin arzusudur. Ancaq eyni zamanda, biz yaxşı dərk edirik ki, 199 dövlətin, bütün Yer kürəsinin idmançılarının bir yerə toplaşdığını, bəzi ölkələrin idmançılarının olimpiya yarışlarının başlanmasından indiyə qədər bu oyunlarda iştirak etməsini və bu ölkələrin əksəriyyətinin çox böyük, nəhəng olmasını nəzərə alaraq, gənc, müstəqil Azərbaycanın idmançılarının hamısının medal alması, təbiidir ki, real deyildi, bu bizim arzumuz idi. Biz bunu arzulayırdıq. Ancaq siz Sidneydə çıxış edən zaman ürəyimiz tıp-tıp vururdu ki, necə, nə cür olacaq? Mən hər gün maraqlanırdım, məlumat alırdım. Nəhayət, siz xalqımızı, bizi, vətənimizi sevindirdiniz.

Zemfiranın birinci qızıl medal alması böyük bir ruh yüksəkliyi yaratdı, bayram oldu. Ondan sonra Vüqar bürünc medal aldı. Amma biz yenə də gözləyirdik. Namiq Abdullayevin, demək lazımdır ki, çox çətin bir yarışda dünya çempionuna, Amerika kimi böyük bir dövlətin güləşçisinə qalib gəlməsi və qızıl medal əldə etməsi təbiidir ki, bizim sevincimizin ən yüksək zirvəsi oldu. Buna görə də mən bir daha deyirəm ki, siz dövlətimizin, xalqımızın etimadını doğrultdunuz. Siz bizim arzularımızı çin etdiniz. Siz müstəqil Azərbaycana böyük nemət bəxş etdiniz. Siz Azərbaycan xalqının nə qədər böyük işlərə qadir olduğunu dünyaya bir daha nümayiş etdirdiniz. Məhz buna görə də sizin hamınız mükafata layiqsiniz və hətta pul mükafatından əlavə, gördünüz ki, dövlət orden və medalı ilə də təltif edildiniz. Siz bunlara layiqsiniz. Hesab edirəm ki, siz və bütün idmançılarımız bundan sonra daha da həvəslə, əzmlə idmanla, bədən tərbiyəsi ilə məşğul olacaq, həm dünya yarışlarında Azərbaycanın bayrağını qaldıracaqsınız, həm də millətimizin gənclərinin fiziki, mənəvi möhkəmliyini təmin edəcəksiniz.

Ən qədim zamanlardan idman bəşəriyyətin sevdiyi və çox hörmət etdiyi bir sahədir. İdman, bədən tərbiyəsi çox böyük məna daşıyır. Təsadüfi deyildir ki, hələ çox qədim zamanlarda idman icad olunub, ona qayğı göstərilibdir. Bütün bunların nəticəsində dünyada birinci olimpiya oyunları mövcud olubdur. Ona görə də idman, bədən tərbiyəsi Azərbaycan gənclərinin hamısı üçün lazımdır. Bu bizim millətimizin fiziki sağlamlığı, müstəqil Azərbaycanın gələcəyi üçün lazımdır. Bu heç də kiminsə xoşuna gəlmək üçün deyildir.

Mən hesab edirəm ki, sizin bu qələbəniz idmana, bədən tərbiyəsinə daha çox gənclər cəlb edəcək, idman daha kütləvi, Azərbaycan gəncliyi fiziki və mənəvi cəhətdən daha da sağlam olacaqdır.

Sizin hər biriniz böyük zəhmət çəkmisiniz, yarışda iştirak etmisiniz. Siz dövlətin idmançılara qayğısı haqqında burada danışdınız, bizə öz təşəkkürlərinizi bildirdiniz. Ancaq bu bizim borcumuzdur. Bu, dövlətin borcudur. Dövlətin, hökumətin hər bir sahədə çox böyük vəzifələri vardır. Əgər biz hansı sahədəsə nəyəsə nail ola biliriksə, demək, biz öz borcumuzu yerinə yetirə bilirik. Mən bu gün böyük qürur hissi ilə deyirəm ki, biz idmana, bədən tərbiyəsinə qayğı göstərərək millət, xalq, vətən qarşısında öz borcumuzu yerinə yetiririk.

Təbiidir ki, hər bir kütləvi iş təşkilatçılıqdan da çox asılıdır. Bizim qayğımızı hiss edən hər bir idmançı təbiidir ki, öz nailiyyətlərini artırmaq istəyir. Ancaq eyni zamanda, təşkilatçılıq idmançıları, gəncləri bir-birinə daha da yaxınlaşdırır, onlara yardım edir.

Azərbaycanda Milli Olimpiya Komitəsinin yaranması ölkəmizin dövlət müstəqilliyinin xüsusi əlamətlərindən biridir. Milli Olimpiya Komitəsi əvvəlki illərdə, təəssüf ki, öz vəzifəsini layiqincə yerinə yetirə bilmirdi. Son illər Milli Olimpiya Komitəsi fəaliyyətini artırıb, genişləndirib, idmançıları, gəncləri daha da səfərbər edib, həvəsləndirib, onlara yardımlar göstəribdir. Ona görə də qələbələri qeyd edərkən Milli Olimpiya Komitəsinin üzvlərinin və onun prezidenti İlham Əliyevin xüsusi xidmətlərini vurğulamaq lazımdır.

Biz bir neçə il bundan əvvəl Azərbaycanda ilk dəfə olaraq Gənclər və İdman Nazirliyi yaratdıq. Bu, təsadüfi hal deyildir. Biz bu nazirliyi yaradarkən onu nə üçün yaratdığımızı bilirdik. Ona görə yaradırdıq ki, gənclərin tərbiyəsi, gənclərin işi ilə xüsusi məşğul olan bir nazirlik olsun. Biz bunu ona görə yaradırdıq ki, Azərbaycanda bədən tərbiyəsinin, idmanın inkişafı ilə məşğul olan bir nazirlik olsun.

Bizim bu təşəbbüsümüz özünü doğrultdu. Gənclər və İdman Nazirliyi də bu sahədə çox işlər gördü və XXYII olimpiya oyunlarına hazırlıq zamanı da onların fəaliyyəti yüksək olmuşdur. Ona görə də mən Gənclər və İdman Nazirliyinin və nazir Əbülfəs Qarayevin də xidmətlərini qeyd edirəm.

Təbiidir ki, idmançıların bu nailiyyətlərinin qazanılmasında onların məşqçilərindən də çox şey asılıdır. Böyük məmnuniyyətlə demək olar ki, indi Azərbaycanda yüksək peşəkar biliyə, təcrübəyə malik məşqçilər dəstəsi yetişmişdir. Onlar olimpiya oyunlarında idmançılarımızın nailiyyətlər qazanması üçün çox xidmətlər göstərmişlər. Təsadüfi deyildir ki, onlar da mükafatlandırıldı və onlara da dövlət mükafatı verildi. Bunlar hamısı tam əsaslıdır. Hörmətli dostlar, siz bunlara layiqsiniz.

Bu gün idman sahəsində bizim əldə etdiyimiz nailiyyət Azərbaycanın dövlət müstəqilliyi ilə birbaşa bağlıdır. Əgər Azərbaycan dövlət müstəqilliyini əldə edə bilməsəydi, əgər respublikamız azad olmasaydı, ölkəmiz milli azadlığa çıxmasaydı, bu nailiyyətlər əldə edilə bilməzdi. Mən bunu bir dəfə demişəm və bir daha təkrar etmək istəyirəm. Azərbaycan Sovet İttifaqının tərkibində olanda da respublikamızda çox səriştəli gənclər, idmançılar vardı. Onlar Ümumittifaq yarışlarında iştirak edirdilər, beynəlxalq yarışlarda SSRİ yığma komandasının tərkibində yarışırdılar. Ancaq o vaxt onlar bugünkü nailiyyətləri əldə edə bilməyiblər. Birincisi, ona görə ki,

onlar öz xalqına, öz dövlətinə xidmət etmək hissini hələ bilmirdilər. Çünki müstəqil dövlət yox idi. İkincisi, açıq demək lazımdır ki, bizim idmançılara çox vaxt ədalətsiz münasibət göstərirdilər.

Xatirinizdədir, o dövrdə çempion, olimpiya çempionu adını bir çox başqa müttəfiq respublikalardan olan idmançılar alırdı, azərbaycanlı idmançılar isə yox. Əgər Cənubi Qafqaz respublikalarını götürsək, bu qonşu ölkələrin idmançıları həmişə bizim idmançılardan daha çox medallar alırdılar, görkəmli yerlər tuturdular. Amma indi Azərbaycan müstəqil dövlət olubdur. Görürsünüz, Azərbaycan öz müstəqilliyindən istifadə edərək və xalqımız öz millətinə, vətəninə xidmət göstərdiyini hiss edərək, nə qədər böyük sıçrayışa nail olmuşdur.

İlham Əliyev bu barədə dedi ki, ən önəmli nəticələrdən biri odur ki, Azərbaycan idmançıları Ermənistan idmançılarını çox geridə qoydular. Amma təkcə bu deyil. Azərbaycan idmançıları olimpiya oyunlarında MDB ölkələri arasında beşinci yerə çıxdılar. Bizdən irəlidə MDB-nin dörd böyük respublikası, müstəqil dövləti vardır. Əziz dostlar, bunların hamısı bizim müstəqilliyimizin, milli azadlığımızın bəhrəsidir.

Mən sizin hamınıza bir daha təşəkkür edirəm. Milli Olimpiya Komitəsinə, Gənclər və İdman Nazirliyinə, komandanın hər bir üzvünə təşəkkür edirəm. Mən qızıl medal almış idmançılarımıza xüsusi minnətdarlığımı bildirirəm. Digər idmançılarımıza təşəkkür edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, siz bunlarla arxayınlaşmayacaqsınız.

Milli Olimpiya Komitəsinin böyük planları vardır. İlham Əliyev burada dedi ki, Milli Olimpiya Komitəsi üçün böyük bir kompleks tikilibdir. Biz bir neçə gündən sonra onun açılışında iştirak edəcəyik. Güclü maddi-texniki baza yaradılıbdır. Təbiidir ki, hər bir iş üçün müvafiq maddi-texniki bazanın yaranması əsas şərtlərdən biridir. Milli Olimpiya Komitəsinin böyük xidmətlərindən biridir ki, komitə bu işlə ciddi məşğul olur və dövlətdən heç bir vəsait almadan, öz imkanları ilə idman üçün, olimpiyaçılar üçün yeni-yeni böyük müəssisələr yaradır. Biz bunu alqışlayırıq, dəstəkləyirik. Biz lazım olan köməyi bundan sonra da edəcəyik. Yenə də deyirəm, ümidvaram ki, siz bu nailiyyətlə qane olmayacaqsınız, çalışacaqsınız, gələn olimpiya oyunlarına qədər olan müddətdə müxtəlif dünya yarışlarında iştirak edəcəksiniz və böyük nailiyyətlərinizlə bizi daim sevindirəcəksiniz.

Bu gün Azərbaycanın müstəqilliyinin, yəni müstəqillik haqqında qəbul olunmuş Konstitusiya Aktının 9-cu ildönümüdür. Xalqımız bunu bayram edir. Biz bayram əhval-ruhiyyəsindəyik. Siz bizim bayramımızı daha da yüksəklərə qaldırdınız, bəzədiniz, gözəlləşdirdiniz. Ona görə də sizə bir daha təşəkkür edirəm.

Bu doqquz il ərzində Azərbaycan xalqı ağır, çətin, eyni zamanda, çox şərəfli yol keçibdir. Doqquz il bundan öncəki Azərbaycanın vəziyyətini xatırlayın. İlham Əliyev burada doğru dedi ki, bugünkü idmançılarımız – 18–19 yaşında olan, qələbə qazanmış idmançılarımız o vaxt 10–11 yaşında idilər, yaşları bəlkə bundan da az idi. Demək, onlar Azərbaycanın müstəqilliyi dövründə böyümüş və bu səviyyəyə çatmış gənclərdir. Ancaq doqquz il bundan öncə Azərbaycanda belə şeylər üçün şərait yox idi. Çünki Azərbaycan od içində yanırdı, dağılırdı, parçalanırdı.

İndi müstəqilliyimizin doqquzuncu ildönümünü hamımız iftixar hissi ilə qeyd edirik. Amma bir az arxaya baxmaq lazımdır. Bu doqquz illik tarixin hər ilinə, hər ayına baxmaq lazımdır. Onda hamı üçün aydın olar ki, bu müstəqillikdən sonra keçdiyimiz yol nə qədər ağır, çətin, eyni zamanda, nə qədər şərəfli olmuşdur. Biz xoşbəxtik ki, o ağır, çətin dövrdən uğurla keçdik, indi Azərbaycan müstəqil dövlət kimi yaşayır və inkişaf edir.

Bu illərdə bizim ən böyük nailiyyətimiz o olub ki, Azərbaycanda ictimai-siyasi sabitlik yarada bildik, 1993-cü ildə ölkəmizi vətəndaş müharibəsindən xilas etdik, Azərbaycanın parçalanmasının qarşısını aldıq, respublikamızda daxili çəkişmələrə, silahlı dəstələrin bir-biri ilə hakimiyyət mübarizəsinə son qoyduq. Qarşımıza çıxan çətinliklər çox olubdur. Amma ən böyüyü ondan ibarət idi ki, bilirsiniz, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında Azərbaycan yenidən böyük təhlükə altında idi. Çünki dövlətimizə, müstəqilliyimizə qarşı dövlət çevrilişi cəhdi göstərilirdi. Həmin qüvvələr çox güclü, silahlı idi. Amma xalq buna imkan vermədi. Xalq dövlət çerilişi cəhdinin qarşısını aldı. Dövlət bunların qarşısını ala bildi. Nə üçün? Çünki dövlət ilə xalqın birliyi yaranmışdı. Çünki xalq dövləti dəstəkləyirdi, apardığımız siyasəti bəyənirdi və ona görə də dövlətin, dövlətçiliyin mübarizəsində sinəsini qabağa verdi.

Azərbaycan ötən doqquz il ərzində böyük inkişaf yolu keçibdir. Bəli, altı il bundan öncə atəşin dayandırılması böyük nailiyyətdir. Çünki təsəvvür edin, əgər müharibə, o vaxta qədər aparılan uğursuz müharibə davam etsəydi, bax bu gün oxuyan, təhsil alan, idmançı olan, istedadlarını göstərən nə qədər gənclərimiz həlak, şəhid olmuşdu. Ona görə də 1994-cü ilin mayında atəşkəsin yaranması Azərbaycanın gələcəyi, bu günü üçün ən böyük şərtlərdən biri idi.

Azərbaycan hüquqi, demokratik, dünyəvi dövlətdir. Biz bu yolu uğurla keçirik. Azərbaycanda demokratiya inkişaf edibdir. Azərbaycanda bütün insanlara azadlıq verilibdir. Azərbaycanda söz, vicdan, insan azadlığı tamamilə təmin olunubdur. Azərbaycanın iqtisadiyyatı 1995-ci ildə tənəzzülə son qoydu, o vaxtdan indiyə qədər inkişaf yolu keçibdir.

Bizim dövlət nümayəndələri, nazirlər ayrı-ayrı analitik materiallarda bu barədə çoxlu rəqəmlər göstəriblər. Bütün bu inkişaf yolumuzun rəqəmləri, konkret sübutları göz qabağındadır, biz bu yolu uğurla gedirik və gedəcəyik.

Təbiidir ki, biz əldə etdiyimiz nailiyyətlərlə də kifayətlənmirik, razı deyilik. Bunlar Azərbaycanı ancaq siyasi-iqtisadi böhrandan çıxartdı, ölkəmizin iqtisadiyyatında tənəzzülün qarşısını aldı, respublikamızın iqtisadiyyatının inkişafını və Azərbaycan xalqının rifah halının ardıcıl, davamlı surətdə yaxşılaşdırılmasını təmin etdi.

Bizim hələ görüləsi çox işlərimiz var. Biz Azərbaycanın güclü, hüquqi, demokratik, dünyəvi və iqtisadi cəhətdən inkişaf etmiş ölkə olmasına çalışırıq. Azərbaycanın Milli Ordusu yaranıbdır. Bu Milli Orduda bizim gənclərimiz xidmət edir və çox da yaxşı xidmət edirlər.

Azərbaycan bir dövlət kimi artıq formalaşıbdır. Bu bizim doqquz illik nailiyyətimizdir. Xalqımız bunu bilir, qiymətləndirir və ona görə də öz dövlətinə, vətəninə sədaqətini və Azərbaycanın demokratiya yolu ilə gedən dövlətinə öz dəstəyini göstərir. Bu da bizi, Azərbaycan prezidenti kimi şəxsən məni daha da çox iş görməyə məcbur edir, yəni mənim qarşımda, dövlətin, hökumətin qarşısında yeni-yeni vəzifələr qoyur. Mən sizi əmin edə bilərəm ki, biz bu vəzifələri yerinə yetirəcəyik, Azərbaycan ilbəil inkişaf edəcəkdir.

Noyabrın 5-də Azərbaycanda növbəti parlament seçkiləri keçiriləcəkdir. 1995-ci ilin noyabrında müstəqil Azərbaycanın ilk demokratik Konstitusiyasının qəbul olunması tarixi hadisədir. O vaxt, eyni zamanda, müstəqil Azərbaycanın yeni Milli Məclisi seçildi. Həmin Milli Məclis ötən beş ildə çox işlər gördü. İndi Azərbaycan hüquqi dövlətdir, bizdə hər şey qanunla tənzimlənir. Amma bu qanunları yaratmaq, işlətmək lazımdır. Biz bunları etmişik.

Bizim Milli Məclisimiz çox qanunlar qəbul edibdir, işini uğurla başa çatdırır. Azərbaycanın hakimiyyət, icra orqanları bu qanunların yerinə yetirilməsi üçün çalışır və çoxlu nailiyyətlər əldə edibdir. Bu nailiyyətlər bundan sonra daha da çox olacaqdır.

Mən inanıram ki, noyabrın 5-dəki seçkilərdə xalq yenə də ədaləti, haqqı, əldə olunan nailiyyətləri dəstəkləyəcəkdir, ayrı-ayrı təxribatçıların, yaxud müxalifətçilərin yalan, böhtan sözlərinə uymayacaqdır. İndi demokratiyadır. Bütün müxalifət partiyalarına imkan verilibdir ki, seçkiqabağı televiziyada çıxış etsinlər – onlar onsuz da qəzetlərdə istədiklərini daim yazırlar – öz seçiciləri ilə görüşsünlər, danışsınlar. Ancaq nə müşahidə olunur? Seçkilərə qoşulan partiyaların tam əksəriyyəti müxalifət mövqeyində duranlardır. Onların hamısı iqtidarı tənqid edir. Tənqid bizə lazımdır, amma təhrif, yalan, böhtan lazım deyildir. Bu, xalqımıza, millətimizə lazım deyildir. Ancaq onlar bu yola düşüblər. Bunların sözünün əvvəli də, axırı da ondan ibarətdir ki, Azərbaycanda demokratiya yoxdur.

Əgər demokratiya yoxdursa, müxalifət partiyaları nə üçün bu qədər qəzetlər çıxarırlar və bu qəzetlərdə olmazın yalanlar, böhtanlar, iftiralar dərc olunur? Əgər demokratiya yoxdursa, müxalifət partiyaları televiziyada, radioda necə sərbəst çıxış edir, iqtidara qarşı böhtan yağdırırlar?

Bəli, məhz Azərbaycanda ictimai-siyasi vəziyyət sabit olandan bir neçə vaxt sonra bu partiyalar yavaş-yavaş canlandı və indi onlara bütün imkanlar yaradılıbdır. Amma onlar da, hamı da düşünməlidir ki, bu imkanları kim, hansı hakimiyyət, iqtidar yaradıbdır? Bunu bizim iqtidar yaradıbdır. Bunu biz yaratmışıq.

Mən bu günlər televiziyada çıxış edənləri müşahidə edirəm. Müxalifət partiyalarının televiziyada çıxış edən hər bir nümayəndəsi xalqı, milləti müstəqillik aktının doqquz illiyi münasibətilə təbrik edir. Çox gözəl. Bu onların haqlarıdır. Mən bundan çox məmnunam. Amma onlardan soruşmaq lazımdır, bu doqquz illik müddətin yeddi il beş ayı Azərbaycanın bugünkü iqtidarının üzərinə düşür. Əgər Azərbaycan 1991-ci ilin sonunda müstəqilliyini əldə edibsə, ondan sonrakı bir il altı ay müddətində ölkəmizdə hakimiyyətsizlik, hərc-mərclik davam edib və nəhayət, 1992-ci ilin iyununda Xalq Cəbhəsi – Müsavat hakimiyyətə gələndən sonra Azərbaycanın dağıdılması daha da sürətləndi. Bunlar da axırda gətirib vətəndaş müharibəsinə çıxartdı.

1990-cı ilin yanvar hadisələrindən sonra, ondan qabaq da Azərbaycanda ictimai-siyasi sabitlik pozulmuşdu, hərc-mərclik idi. Dövlətin on illərlə qazandığı sərvətlər dağıdılırdı və Azərbaycan bir neçə dəfə fövqəladə vəziyyətdə, avtomatçıların qarşısında yaşayıbdır.

1990-cı ilin 20 Yanvar hadisəsindən sonra Azərbaycanda fövqəladə vəziyyət elan olundu. Bu fövqəladə vəziyyət 1991-ci ilin axırınadək davam etdi. Yalnız müstəqillik elan olunandan sonra Azərbaycanda, Bakıda fövqəladə vəziyyət aradan götürüldü. Ancaq ondan sonra nə oldu? Xalq Cəbhəsi – Müsavat hakimiyyətə gəldi, bir ilin içərisində Azərbaycanda daxili sabitliyi daha da pozdu. Xatırlayın, əvvəllər fövqəladə vəziyyətin əleyhinə çıxan adamlar 1993-cü ilin aprelində Kəlbəcər Ermənistan silahlı qüvvələri tərəfindən işğal ediləndən sonra, hakimiyyətdə ola-ola, bütün Azərbaycanda fövqəladə vəziyyət rejimi yaratdılar. Həmin fövqəladə vəziyyət rejimində də hakimiyyəti saxlaya bilmədilər. 1993-cü ildə ölkəmizdə vətəndaş müharibəsi başlandı.

Ölkənin daxilində müxtəlif proseslər ola bilər. Əgər dövlət, hakimiyyət güclüdürsə və xalqın dəstəyinə malikdirsə, o hər bir şeyin qarşısını ala bilər. 1993-cü ilin iyununda nə üçün Azərbaycanda vətəndaş müharibəsi, siyasi böhran başlandı, nəhayət, həmin hakimiyyət dağıldı? Ona görə ki, onlar xalqın dəstəyini, inamını əldə edə bilmədilər. Əksinə, bir ilin içərisində xalqı özlərindən diksindirdilər, uzaqlaşdırdılar və xalq belə bir hakimiyyətə artıq dözə bilmirdi.

Hakimiyyət dağıldı. Hakimiyyətdə olan şəxslər, yəni Azərbaycanın prezidenti, Baş naziri, Milli Məclisin sədri, nazirlər qaçdılar, dağıldılar, gizləndilər. Bəziləri ayrı-ayrı yerlərdə 2–3–4 il gizləndilər. Əgər siz doğrudan

da hakimiyyət adamısınızsa, doğrudan da xalq uğrunda mübarizə aparırsınızsa, doğrudan da hakimiyyətə gələrək Azərbaycanı idarə etmək istəyirdinizsə, niyə qaçırdınız, niyə gizlənirdiniz?

1995–1996-cı ildən sonra, Azərbaycanda ictimai-siyasi sabitlik tamam bərqərar olunandan sonra onlar yavaş-yavaş peyda oldular, deyə bilərəm ki, gizləndikləri yuvalarından çıxdılar, indi sərbəstdirlər. Bu sərbəstliyi, bu ictimai-siyasi sabitliyi kim yaradıb? Onu bugünkü iqtidar yaradıbdır. Bugünkü iqtidar bunu yaradaraq, onlara imkan veribdir ki, yenidən həyata qayıtsınlar, öz siyasi fəaliyyətlərini aparsınlar, bunu da qiymətləndirsinlər. Ancaq bunun əvəzində onlar öz çıxışlarında deyirlər ki, yeddi il müddətində heç bir şey görülməyibdir. Bəs onda bu müstəqillik dövründə nə görülübdür? Bəs onda bu müstəqillik münasibətilə siz xalqı niyə təbrik edirsiniz?

Mən yenə də deyirəm, bu doqquz ilin yeddi il beş ayı bugünkü iqtidarın rəhbərliyi altında gedibdir. Ondan əvvəl, müstəqillik elan olunandan sonrakı bir il yarım ərzində bir neçə hakimiyyət dəyişilib, hərc-mərclik olubdur və Azərbaycan dağılırdı. Deməli, bunları görməyən, yaxud görərək inkar edən adamlar, heç təsəvvür etmək mümkün deyil ki, hansı psixologiyaya malikdirlər. Bir daha deyirəm ki, bu doqquz ildə Azərbaycanın müstəqilliyini təmin edən, yaşadan bugünkü iqtidardır.

Azərbaycanın dövlət müstəqilliyinin elan olunması tarixi zərurətdən meydana gəlmiş bir hadisədir. Bu, o illərdə, ondan əvvəlki bir neçə ildə SSRİ-də və bütün dünyada gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsidir. Bu müstəqillik talenin bizə bəxş etdiyi nemətdir. Əgər SSRİ dağılmasaydı, heç bir qüvvə, heç bir respublika heç bir müstəqillik əldə edə bilməzdi. Amma indi həmin müxalifətdə olan adamlar döşlərinə vururlar ki, biz mübarizə etmişik, Azərbaycanın müstəqilliyini əldə etmişik. Onda Türkmənistan, Özbəkistan, Ukrayna, Belarus, Qazaxıstan öz müstəqilliklərini necə əldə ediblər?

Bəli, SSRİ hökumətinin Dağlıq Qarabağ problemi ilə əlaqədar ədalətsiz mövqeyinə görə xalq etiraz səsini qaldırdı. Bu etiraz səsini təkcə özü yox, kütlələr bildirib, küçələrə, meydanlara çıxıbdır. Bəli, belə bir xalq hərəkatı olubdur. Ancaq indi bəziləri döşünə döyür ki, biz milli azadlıq hərəkatının liderləri olmuşuq və bunun nəticəsində Azərbaycanın müstəqilliyinə nail olmuşuq. Bu cür yalan heç bir şeyə sığışmır.

Yenə də deyirəm, bizim xoşbəxtliyimizdir ki, SSRİ dağıldı. Təbiidir ki, SSRİ dağılanda bu ittifaqa daxil olan bütün müttəfiq respublikalar öz müstəqilliklərini elan etdilər. Onu da bilməlisiniz ki, digər respublikalar öz müstəqilliyini Azərbaycandan əvvəl – 1991-ci ilin iyununda, iyulunda, sentyabrında elan etdilər. Azərbaycan isə 1991-ci il oktyabrın 18-də müstəqillik haqqında akt qəbul etdi. Amma həqiqi müstəqillik 1991-ci il dekabrın 30-da ümumi referendum keçiriləndən sonra olubdur. Yəni biz o vaxt bu məsələdə də irəlidə deyildik. Əgər müstəqillik uğrunda mübarizə aparılırdısa, burada da o biri respublikalardan geri qalmışdıq. Bax, həqiqət budur. Gərək heç kəs bu tarixi həqiqətləri unutmasın və heç kəs də təhrif etməsin.

Bizim bugünkü nailiyyətimiz Azərbaycanda məhz son illər, yəni 1993-cü ilin iyunundan indiyədək aparılan işlərin nəticəsidir və biz bundan sonra daha da böyük nailiyyətlər əldə edəcəyik.

Mən bu fikirlərimi sizə çatdıraraq, olimpiya oyunlarında əldə etdiyiniz qələbə münasibətilə sizi təbrik edirəm. Mən bütün Azərbaycan xalqını təbrik edirəm. Bir daha deyirəm, sizin bu nailiyyətiniz Azərbaycanın dövlət müstəqilliyinin bəhrəsidir və 1993-cü ildən başlayaraq Azərbaycan iqtidarının apardığı doğru, düzgün daxili və xarici siyasətinin nəticəsidir.

Mən bütün Azərbaycan xalqını Müstəqillik günü münasibətilə təbrik edirəm və Azərbaycana bir daha, bir daha əbədi müstəqillik arzulayıram. Sağ olun.

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Möhtərəm cənab Prezident!

Şərqin qədim şəhərlərindən olan Türküstanın 1500 illik yubileyi münasibətilə Sizi və bütün qazax xalqını ürəkdən təbrik edirəm.

Dövlət müstəqilliyinin əldə olunması bəşər sivilizasiyasının inkişafında mühüm rol oynamış xalqlarımızın qarşısında tarixi ədalətin bərqərar edilməsi – onların dərin köklərə malik öz zəngin mənəvi-tarixi və mədəni irsini bərpa etməsi, dünya xalqları ailəsində öz layiqli yerini tutması üçün geniş imkanlar yaradır. Bu baxımdan orta əsrlərdə İslam mədəniyyətinin mühüm mərkəzlərindən birinə çevrilmiş, tarixə Xoca Əhməd Yəsəvi kimi görkəmli şəxsiyyətlər vermiş Türküstan şəhərinin 1500 illiyinin keçirilməsi qardaş qazax xalqının, türk xalqlarının, bütün müsəlman Şərqi xalqlarının həyatında mühüm hadisədir.

YUNESKO-nun xatirə və yubiley günləri təqviminə uyğun olaraq təşkil edilən bu təntənələr xalqlarımızın çoxəsrlik milli-mənəvi və mədəni dəyərlərinin zənginliyini dünyaya nümayiş etdirmək baxımından böyük əhəmiyyət kəsb edir. Bu yubiley tədbirləri müasir dövrdə xalqlar arasında dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilib inkişaf etdirilməsi, onların mədəniyyətlərinin rəngarəngliyinin qorunub saxlanılması işinə də xidmət edir.

İnanıram ki, bu yubiley tədbirləri türk xalqlarının adət və ənənələrinin, maddi və mənəvi dəyərlərinin təbliğ edilməsində mühüm mərhələ olacaq, xalqlarımız arasında qardaşlıq tellərinin və əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Sizə və qardaş qazax xalqına ən səmimi arzularımı bildirir, Qazaxıstanın tərəqqisi naminə göstərdiyiniz fəaliyyətdə Sizə yeni böyük uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 oktyabr 2000-ci il*

**FRANSANIN KARYER-SU-PUASI ŞƏHƏRİNİN**
**«SÜLH NAMİNƏ MÜRACİƏT»LƏ**
**ÇIXIŞ ETMİŞ GƏNC SAKİNLƏRİNƏ**

Əziz uşaqlar!

Dünyada sülhün əbədi bərqərar olması naminə göstərdiyiniz təşəbbüsü səmimi-qəlbdən dəstəkləyirəm. Mən də, Azərbaycan Respublikasının bütün uşaqları da müraciətinizə məmnuniyyətlə qoşulur və bu istiqamətdə zəruri olan bütün tədbirləri həyata keçirməyə hazır olduğumuzu bəyan edirik.

Xalqların sülh və əmin-amanlıq şəraitində yaşaması uğrunda mübarizə milliyyətindən, irqindən, siyasi və dini mənsubiyyətindən asılı olmayaraq, bütün insanların həmişə ən ümdə vəzifələrindən biri olmuşdur. Bu yolda mühüm nailiyyətlər əldə edilsə də, dünyanın bir çox ölkələrində sülhün tam bərqərar olunması ən aktual məsələ olaraq qalmaqdadır. Görürəm ki, belə vəziyyət sizdə də haqlı narahatlıq doğurur.

Təəssüflə qeyd etməliyəm ki, qonşu Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycanda da dinc həyat pozulmuş, günahsuz qanlar tökülmüş, torpaqlarımızın 20 faizi işğal olunmuş, bir milyondan artıq soydaşımız, o cümlədən qadın, qoca və uşaqlar öz yurdlarından didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmiş və hal-hazırda onların bir çoxu çadır düşərgələrində olduqca ağır şəraitdə yaşayır.

Altı ildən artıqdır ki, atəşkəs əldə edilmiş, hərbi əməliyyatlar dayandırılmışdır, lakin bütün səylərimizə baxmayaraq, hələ də sülhə nail ola bilməmişik. Azərbaycan dövləti regionda sülhün bərqərar edilməsi üçün öz səylərini davam etdirir və XXI əsri əmin-amanlıq şəraitində qarşılayacağına böyük ümidlər bəsləyir. İnanıram ki, dünya ictimaiyyətinin, o cümlədən siz uşaqların birgə səyləri nəticəsində üzümüzə gələn üçüncü minillik münaqişəsiz və müharibəsiz olacaqdır.

2000-ci beynəlxalq sülh mədəniyyəti ili çərçivəsində göstərdiyiniz fəaliyyəti yüksək qiymətləndirir və bu yolda sizə böyük uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 oktyabr 2000-ci il*

**TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ÖMƏR İZQİYƏ**

Hörmətli cənab sədr!

Türkiyə Böyük Millət Məclisinin sədri seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Türkiyə arasında dərin tarixi kökləri olan dostluq və qardaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *19 oktyabr 2000-ci il*

## 1 NÖMRƏLİ BAKI İSTİLİK-ELEKTRİK MƏRKƏZİNİN (İEM) BİRİNCİ NÖVBƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR EDİLMİŞ MƏRASİMDƏ NİTQ

*19 oktyabr 2000-ci il*

Hörmətli qonaqlar!
Hörmətli səfir!
Hörmətli xanımlar və cənablar!
Əziz energetiklər, inşaatçılar!

Bu gün artıq tikilib başa çatmış və istismara verilən istilik-elektrik mərkəzinin açılışı münasibətilə sizin hamınızı ürəkdən təbrik edir və bu gözəl elektrik enerjisi müəssisəsində çalışan və gələcəkdə çalışacaq insanlara uğurlar arzulayıram.

Keçən ilin avqust ayında biz bura toplaşaraq yeni istilik-elektrik mərkəzinin tikintisinin təməlini qoyduq. O vaxt bu elektrik mərkəzinin tikilməsi üçün maraq göstərmiş şirkətlər – «ABB Alstom Pover» və başqa xarici şirkətlər, banklar, maliyyə mərkəzləri və onlarla bərabər bizim energetiklər, inşaatçılar söz verdilər ki, bu böyük elektrik müəssisəsinin inşasını qısa bir zamanda başa çatdıracaq və oktyabr ayında istismara verəcəklər.

Mən böyük minnətdarlıq hissi ilə bildirirəm ki, həm xarici şirkətlərin, həm də Azərbaycanın energetiklərinin, inşaatçılarının, bu tikintiyə cəlb olunmuş təşkilatların hamısı verdikləri sözü yerinə yetirdilər, uğur qazandılar və bu gün biz istilik-elektrik mərkəzinin açılışına toplaşmışıq.

Mən bu istilik-elektrik mərkəzinin tikilib müasir texnologiyaya malik, bu cür gözəl, yüksək keyfiyyətli avadanlıqla Azərbaycana verilməsi üçün zəhmət çəkmiş, səylər qoymuş maliyyə mərkəzlərinə səmimi-qəlbdən təşəkkür edirəm. Bu tikintidə iştirak etmiş, zəhmət çəkmiş və qurğunu vaxtında istismara vermiş Azərbaycan energetiklərinə və inşaatçılarına da təşəkkür edirəm.

Bizim bugünkü toplantımız və bu nəhəng istilik-elektrik mərkəzinin açılışı tarixi bir hadisədir. Burada, həmin bu yerdə əsrin əvvəlində – 1902-ci ildə bax, orada gördüyünüz, artıq köhnəlmiş, çürümüş, qaralmış istilik-elektrik mərkəzi tikilmişdir. Təbiidir ki, o zaman üçün bu, böyük hadisə idi. O vaxt Azərbaycanda neft sənayesi xarici şirkətlərin iştirakı ilə güclü inkişaf edirdi, neftayırma zavodları yaranmışdı, burada həm elektrik enerjisinə, həm də buxara ehtiyac vardı. Təbiidir ki, o vaxta görə həmin stansiyanın öz dəyəri vardı. Ancaq o vaxtdan 100 il keçibdir. Doğrudur, 50-ci illərdə, 70-ci illərdə stansiyanın modernləşdirilməsi üçün çox iş görülübdür. O öz missiyasını, demək olar ki, həyata keçirib, Azərbaycana xidmət göstəribdir. Artıq indi qocalıb, daha xidmət göstərə bilmir.

Demək, bizim qarşımızda məsələ durmuşdu: nə etməli? Buna bizim ehtiyacımız var. Biz bu barədə məsələni müzakirə edərkən, «ABB Alstom Pover» şirkəti, başqa şirkətlər və xarici banklar öz təkliflərini verdilər. Biz bunlara baxdıq. Bu iş 55 milyon dollar vəsait tələb edirdi. Amma bizdə bu vəsait yox idi. Yəni vardı, amma biz onu bura sərf edə bilməzdik. Çünki başqa işlər də vardır. Bundan vacib başqa işlər, sahələr də vardır. Onlar kredit təklif etdilər. Bu kreditdən biz istifadə etdik. 55 milyon dollar kredit götürdük. Həmin şirkətlər çox böyük həvəslə və maraqla bu tikintiyə başladılar. Dediyim kimi, vaxtında, hamınız bir yerdə bunu başa çatdırdınız. İndi bizim gözümüzün önündə gözəl, müasir texnologiyaya malik, yüksək keyfiyyətli məhsul istehsal edən bir müəssisə durur.

Ona görə də mən deyirəm ki, bu bizim həyatımızda tarixi hadisədir. 100 ildən sonra biz belə bir yeni elektrik stansiyası yaratdıq. Demək, XXI əsrə biz bax, belə gözəl, müasir texnologiyalı müəssisələrlə gedirik. Onlardan biri də budur.

Bu, istilik-elektrik mərkəzi nəyə xidmət edəcəkdir? Birinci növbədə, Azərbaycan xalqına, ölkəmizin iqtisadiyyatına, onun daha da səmərəli işləməsinə xidmət edəcəkdir. Mənə dedilər ki, bu stansiya işə düşən kimi, noyabrın 15-dən Əhmədli qəsəbəsində 16 min mənzil birbaşa buradan istiliklə təmin olunacaqdır. Bizim burada olan nəhəng neftayırma zavodumuz ona lazım olan buxarla təmin ediləcəkdir. Buxarla bizim başqa sahələr də təmin olunacaqdır. Bu, böyük hadisədir.

Bilirsiniz ki, Azərbaycanda 70–80-ci illərdə çox böyük elektrik enerjisi potensialı yaranıbdır. Bu gün mən bir daha qeyd etmək istəyirəm ki, əgər o illər biz Sovetlər İttifaqının imkanlarından istifadə edib hazırda mövcud olan elektrik stansiyalarını, su elektrik stansiyalarını yaratmasaydıq, indi müstəqil Azərbaycan böyük enerji böhranı içində idi. O vaxt biz çox uzaqgörənlik etdik. O vaxt biz Sovetlər İttifaqının proqramına riayət etmədik. Yəni ümumittifaq enerji sistemi yaranmışdı, SSRİ-nin hər bir respublikasını təmin edirdi. Stansiyaların da əksəriyyəti, şimalda – Rusiyada toplanmışdı. Əgər biz ona arxayın olsaydıq, təbiidir ki, SSRİ dağılandan sonra,

Azərbaycan müstəqil olandan sonra biz oradan elektrik enerjisini ala bilməzdik. Almaq üçün də böyük vəsait lazım olardı. Bu da indiki zamanda yoxdur.

Demək, 70–80-ci illərdə Azərbaycan Sovetlər İttifaqının tərkibində olan zaman ölkəmizdə böyük elektrik enerjisi potensialının yaranması bizim tarixi nailiyyətimizdir və bu günümüzün, sabahımızın, müstəqil Azərbaycanın müstəqil yaşaması üçün əsas şərtlərdən biridir.

Ancaq təbiidir ki, su elektrik stansiyalarının bəziləri uzun müddət təmir olunmadığına, müəyyən dərəcədə modernləşdirilmədiyinə görə öz əvvəlki gücünü bir qədər itiriblər. Ona görə də indi Azərbaycanda elektroenergetika kompleksinin yenidən qurulmasının ikinci mərhələsi başlayıbdır. Onu da biz başlamışıq. Bunu müstəqil Azərbaycan başlayıbdır. Bunu müstəqil Azərbaycanın bugünkü iqtidarı başlayıbdır.

Bildiyiniz kimi, bir neçə ay bundan öncə biz Yenikənd Su Elektrik Stansiyasını tikib başa çatdırdıq və istismara verdik. Beləliklə, Azərbaycanın elektrik enerjisi sisteminə 112 meqavat əlavə elektrik enerjisi verdik. Burada bugünkü istilik elektrik mərkəzi 55 meqavat elektrik enerjisi verəcəkdir və dedim ki, 16 min mənzilin istiliklə təmin olunmasını həll edəcəkdir. Ancaq bunlar bizim bu sahədə gördüyümüz işlərin başlanğıcıdır. Biz Şimal Dövlət Elektrik Stansiyasını Yaponiyadan alınmış çox güzəştli kreditlərlə yenidən tikəcəyik. Onun üçün biz Yaponiya hökumətindən 40 il müddətinə 360 milyon dollar kredit alırıq. Mingəçevir Su Elektrik Stansiyasının bir neçə məsələlərini həll edib, onun potensialını artırmaq üçün də tədbirlər görürük. Başqa işlər də görürük.

Beləliklə, indiyə qədər görülən və bundan sonra görüləcək işlər təxminən 690–700 milyon dollar həcmində görüləcək işlərdir. Təsəvvür edin, əgər biz iqtisadiyyatımızın bu hissəsinə bu qədər vəsait tapıb onu istifadə edə biliriksə, onda görün Azərbaycanın dövlət müstəqilliyi nədir və ölkəmizin iqtidarı – biz müstəqil dövlətimizi, ölkəmizi necə gözəl idarə edirik, həm iqtisadiyyatımızın inkişaf etdirilməsi üçün, həm də xalqımızın rifah halının yaxşılaşdırılması üçün nə qədər böyük işlər görürük.

Bu ilin iyun ayında mən Azərbaycanda həm əhalinin, həm də bütün müəssisələrin elektrik enerjisi ilə təminatını təhlil edəndən sonra böyük fərman imzaladım. O fərman böyük bir proqram təşkil edir. O fərman ilə həm indi mövcud olan elektrik stansiyalarının təmiri, modernləşdirilməsi, həm də xarici kreditlər hesabına yeni elektrik stansiyalarının tikilməsi nəzərdə tutulurdu. Burada Müslüm İmanov məlumat verdi və Baş nazir də təsdiq etdi ki, həmin fərman yerinə yetirilir. Bu məqsəd üçün biz dövlət vəsaitlərindən 18 milyon dollar – burada İmanov dedi, 90 milyard manat – vəsait ayırmışıq və o, istifadə olunur. Bu gün sizin qarşınızda deyirəm, vəsaitdən bundan sonra da səmərəli istifadə etmək lazımdır və sizin qarşınızda qoyulan vəzifəni yerinə yetirmək, yəni 15 noyabra bu barədə mənə raport vermək lazımdır. Güman edirəm ki, əgər bizim energetiklər, inşaatçılar, hökumət orqanları bu tədbirləri layiqincə yerinə yetirə bilsələr, biz ölkəmizin elektrik enerjisi ilə təchizatını xeyli yaxşılaşdıracağıq. Amma qarşıdakı bir, iki, üç il ərzində həmin mən dediyim o proqramı yerinə yetirəcəyik və beləliklə, Azərbaycanda daha elektrik enerjisi problemi olmayacaqdır.

Bu gün bizim qonaqlarımız öz çıxışlarında Azərbaycana yeni sərmayələr, kreditlər verilməsini və gəlib burada iş görmələrini arzu etdilər. Bu çox sevindirici haldır. Onlar da öz çıxışlarında qeyd etdilər və bu da həqiqətdir ki, müstəqil Azərbaycanda bizim yaratdığımız ictimai-siyasi sabitlik olmasaydı, əgər müstəqil dövlət kimi Azərbaycan Dünya Birliyində etibar qazanmasaydı, əgər xarici banklar, Avropanın çox böyük, nəhəng şirkətləri Azərbaycan hökumətinə, dövlətinə inanmasaydılar, onları, necə deyərlər, zəncirlə də dartıb buraya gətirmək mümkün deyildi. Amma indi özləri gəlirlər, xahiş edirlər, özləri müraciət edirlər. Çünki xarici şirkətlərin Azərbaycanda səmərəli işləməsi üçün, təbiidir ki, özlərinin fayda götürməsi üçün və ölkəmizə vəsait qoyması üçün çox gözəl, münbit şərait yaranıbdır. Bu şəraiti biz yaratmışıq. Bu da Azərbaycanın müstəqilliyinin yeni böyük nailiyyətidir.

Burada bəyan edildi ki, bu istilik-elektrik mərkəzinin ikinci hissəsinin tikintisinə başlanacaqdır. O vaxt biz bunun təməlini qoyanda mən düşünürdüm: nə cür edəcəklər? Görürsünüz, onlar bu yeri seçdilər, belə gözəl müəssisə yaratdılar. Onun yanında da 100 il yaşayan istilik-elektrik mərkəzi durur. İndi ona da baxın, buna da baxın. Fərqi görürsünüz. İndi o dağılacaq, elədirmi?

**M ü s l ü m İ m a n o v:** Yox. Ehtiyat üçün iki il saxlayacağıq. İki ildən sonra olmayacaq.

**H e y d ə r Ə l i y e v:** Deyirlər ki, ehtiyat üçün iki il saxlayacağıq. Amma sonra dağıdılacaqdır. Burada, biz durduğumuz yerdə ikinci blok qoyulacaqdır. Onun da qiyməti 50 milyon dollardır. Deməli, biz 50 milyon dollar da kredit götürürük. İndiki qədər güclü olan istilik-elektrik mərkəzi yaradırıq. Beləliklə, stansiyanın gücünü iki dəfə artırırıq.

Ancaq energetiklərimiz bilməlidirlər ki, bu kreditləri biz qaytarmalıyıq. Özü də bu gün mən hər şeyi açıq demək istəyirəm ki, bu kredit bizə 14 illiyinə verilibdir. Müəssisənin istismara verildiyi gündən 6 ay keçəndən sonra kreditlərin geri qaytarılması 14 il müddətində təmin olunmalıdır. Ona görə də gərək bu istilik-elektrik mərkəzindən, birincisi, səmərəli istifadə edilsin. İkincisi də, bunun istifadəsindən əldə olunan gəlirlər hesabına o kreditlər qaytarılmalıdır.

Heç kəs düşünməsin ki, biz kreditləri alırıq, onları qaytarmaq üçün başqa mənbələr axtarmalıyıq. Başqa mənbələr yoxdur. Deməli, istehsal olunan, satılan elektrik enerjisinin, buxarın pulu gərək vaxtında ödənilsin, dövlətə gəlsin və dövlət də ondan istifadə edərək kreditləri qaytarmağa başlasın. Bunu heç kəs unutmasın. Bunu

həm bizim energetiklər bilsinlər, həm də hər bir vətəndaş bilsin. Əgər biz Əhmədli qəsəbəsində 16 min mənzili bu stansiya vasitəsilə istiliklə təmin ediriksə, onlar onun haqqını verməlidirlər.

Əgər bizim neftayırma zavodu buradan aldığı buxarla öz istehsalını daha da səmərələşdirəcək və ildə 100 min tondan artıq yanacaq az sərf edəcəksə, deməк, bunların hamısının haqq-hesabı olmalıdır. İnanıram ki, bizim insanlar, vətəndaşlarımız bu dediklərimi dərk edirlər. Biz həm istehsalı, iqtisadiyyatımızı inkişaf etdirmək üçün, həm də əhalini elektrik enerjisi ilə, istiliklə təmin etmək üçün bax, bu işləri görürük. Ancaq bizim müəssisələr də, vətəndaşlarımız da gərək bunları qiymətləndirsinlər. Bunun müqabilində öz üzərlərinə düşən vəzifələri yerinə yetirsinlər.

Biz artıq bu cür böyük işləri görməyə başlamışıq. Qeyd etdiyimiz kimi, bizim böyük proqramımız vardır. Bunu bütün xalqımız, millətimiz qiymətləndirir. Amma bəzi bədxahlar, bizim bu nailiyyətlərimizi istəməyənlər, Azərbaycanı yenə 7–8 il bundan əvvəlki bərbad vəziyyətə qoymuş adamlar bunların hamısını inkar edirlər. İndi bəziləri bu seçkiqabağı dövrdə çıxış edərək deyirlər ki, bu 7 ildə nə olubdur? Çox şey olubdur. İctimai-siyasi sabitlik təmin olunubdur, iqtisadiyyat inkişaf edibdir. İnsanlar rahat yaşayırlar. Biz belə böyük müəssisələr yaradırıq. Budur bizim etdiklərimiz, budur bizim xalqa verdiklərimiz! Budur Azərbaycanın müstəqilliyinin bəhrələri və gözəl nəticələri!

Mən bu hadisə münasibətilə bir daha hamınızı təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, burada verilən vədlərə əməl edilərək, istilik-elektrik mərkəzinin ikinci növbəsi də vaxtında tikilib istismara veriləcək və biz yenə buraya toplaşacağıq, yenə də bir hadisəni qeyd edəcəyik.

Sizi bir daha təbrik edirəm. Sizə cansağlığı, səadət, yeni-yeni uğurlar arzulayıram.

**AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TOMAS KLESTİLƏ**

Hörmətli cənab Prezident!

Avstriya Respublikasının milli bayramı – daimi bitərəflik elan edilməsi günü münasibətilə Sizi və dost Avstriya xalqını salamlayır və səmimiyyətlə təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasınla əsasını qoyduğumuz dostluq və əməkdaşlıq münasibətləri inkişaf edib genişlənərək hər iki ölkənin xalqlarının mənafeyinə, Avropada və bütün dünyada sülh və tərəqqi işinə xidmət edəcəkdir.

Cənab Prezident, Sizə cansağlığı və səadət, ölkənizə firavanlıq və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 oktyabr 2000-ci il*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli cənab Prezident!

Qazaxıstan Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizi və qardaş qazax xalqını ürəkdən təbrik edir, sizə möhkəm cansağlığı və səadət, Qazaxıstanın xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Azərbaycanda biz ölkələrimiz və xalqlarımız arasında ənənəvi dostluq, hərtərəfli əməkdaşlıq və qarşılıqlı yardım münasibətlərinə böyük əhəmiyyət veririk və onların daha da inkişaf etməsi üçün hər cür səy göstəririk.

Əminəm ki, Azərbaycanla Qazaxıstan arasında dostluq əlaqələri xalqlarımızın rifahı naminə genişlənəcək və dərinləşəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 oktyabr 2000-ci il*

**TÜRKMƏNİSTANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SAPARMURAD NİYAZOVA**

Hörmətli cənab Prezident!

Türkmənistanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və qardaş türkmən xalqını ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və səadət, Türkmənistanın bütün vətəndaşlarına əmin-amanlıq və çiçəklənmə arzulayıram.

Əminəm ki, Azərbaycanla Türkmənistan xalqları arasında qədimdən mövcud olan qarşılıqlı işgüzar münasibətlər, müstəqil ölkələrimizin bugünkü çoxtərəfli əməkdaşlığı dövlətlərimizin mənafeyi, regionda sülh və tərəqqi naminə möhkəmlənəcək və imkişaf edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 oktyabr 2000-ci il*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VATSLAV HAVELƏ**

Hörmətli cənab Prezident!

Çexiya Respublikasının milli bayramı – İstiqlaliyyət elan edilməsi günü münasibətilə Sizi və dost çex xalqını salamlayır və ürəkdən təbrik edirəm.

Biz Azərbaycan Respublikası ilə Çexiya Respublikası arasında münasibətlərin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk və əminəm ki, qarşılıqlı əlaqələrimiz getdikcə genişlənərək xalqlarımızın rifahına, sülh və tərəqqi işinə xidmət edəcəkdir.

Cənab Prezident, bayram münasibətilə Sizə bir daha cansağlığı və səadət, Çexiyanın bütün vətəndaşlarına sülh və xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 oktyabr 2000-ci il*

**BMT-nin UŞAQ FONDUNUN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA, MDB VƏ BALTİK ÖLKƏLƏRİ ÜZRƏ REGİONAL NÜMAYƏNDƏSİ FİLİP OBRAYAN İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*20 oktyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. YUNİSEF ilə Azərbaycan arasındakı əlaqələrə və əməkdaşlığa biz çox böyük əhəmiyyət veririk. Ümumiyyətlə, YUNİSEF kimi bir təşkilatın Birləşmiş Millətlər Təşkilatı çərçivəsində yaranması, təbii ki, çox böyük hadisədir. Onun gördüyü işlər olduqca əhəmiyyətlidir.

Azərbaycanın YUNİSEF-lə əməkdaşlığı 1993-cü ildən başlayıbdır. Xatirimdədir, 1994-cü ildə Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində olarkən mən YUNİSEF ilə Azərbaycan arasında bir sənədə imza atdım. Son illər Azərbaycanda bir çox məsələlərə, xüsusən, difteriyanın, poliomielitin qarşısının alınmasına və başqa sahələrə YUNİSEF yardımlar edibdir. Mən YUNİSEF-in bu fəaliyyətini də yüksək qiymətləndirirəm.

YUNİSEF-in Azərbaycanla daha da səmərəli, Azərbaycan üçün çox faydalı əməkdaşlıq etmək üçün hələ böyük imkanları vardır. Güman edirəm ki, siz bu səfəriniz zamanı respublikamızda vəziyyətlə tanış olarkən mənim bu fikirlərimin nə qədər düzgün olduğunu da təsdiq edə bilərsiniz.

Biz istəyirik ki, YUNİSEF ilə Azərbaycanın əməkdaşlığı daha da geniş olsun. Çünki buna böyük ehtiyac vardır. Xüsusən qaçqın, köçkün vəziyyətində olan uşaqların, çadırlarda olan uşaqların vəziyyəti ilə əlaqədar. Buyurun.

**F i l i p O b r a y a n:** Zati-aliləri, təşəkkür edirəm. Bu gün burada olmağımdan böyük şərəf duyuram. Sizin ölkənizdə bir çox sahələrdə YUNİSEF missiyasının həyata keçirilməsində təşkilatımıza qarşılıqlı yardımçı oldunuz. Mən hər şeydən öncə Sizi iki hadisə münasibətilə təbrik etmək istəyirəm.

Birincisi, müstəqilliyinizin 9-cu ildönümünü bayram etməniz münasibətilə Sizi təbrik edirəm. Çox məmnun oldum ki, Siz müstəqillik bayramınızı qeyd etdiyiniz dövrdə mən də Sizin ölkənizdə olmuşam.

İkinci təbrikim olimpiya oyunlarında Azərbaycanın yaxşı yer tutması ilə əlaqədardır.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm.

**F i l i p O b r a y a n:** Bilirəm ki, bizim təşkilatımızın yardımçı olduğu, kömək göstərdiyi bir çox layihələrin Azərbaycanda həyata keçirilməsində Siz şəxsən iştirak etmisiniz. Azərbaycanda çoxsaylı qaçqın uşaqlarının olması ilə əlaqədar Sizin keçirdiyiniz narahatçılıqları biz bölüşürük.

Mən Azərbaycanın BMT-dəki təmsilçiliyinin YUNİSEF-in Direktorlar Şurasında sədr müavini vəzifəsində göstərdiyi müsbət fəaliyyətinə görə də Sizə YUNİSEF Təşkilatının icraçı direktorunun adından təşəkkürlərimi bildirmək istəyirəm. YUNİSEF-in uşaqların hüquqlarının müdafiəsi ilə məşğul olan daimi komitəsində Azərbaycanın daimi yer əldə etmək üçün namizədliyini irəli sürdüyünü eşidəndə çox məmnun oldum.

Zati-aliləri, Sizə məlum olduğu kimi, YUNİSEF gələn ilin sentyabr ayında Birləşmiş Millətlər Təşkilatı çərçivəsində uşaqların hüquqlarına aid sammit, zirvə görüşü keçirəcəkdir. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Sizi bu zirvə görüşündə iştirak etmək üçün dəvət edibdir. Mən də öz növbəmdə YUNİSEF Təşkilatının icraçı direktoru adından bu dəvəti Sizə bir daha təkrar etməkdən, yetirməkdən məmnunluq duyuram. Hesab edirik ki, bu zirvə görüşü XXI əsrdə uşaqların hüquqlarının daha yaxşı qorunması və onların həyatının daha yaxşı təmin olunması baxımından fikir mübadiləsi aparılması üçün yaxşı imkan olacaqdır. Mən ümidvaram ki, qarşıdan gələn bir neçə il ərzində indiki vəzifəmdə Azərbaycan ilə daha sıx təmaslar saxlayacağam və Azərbaycanı, Sizin ölkənizi daha yaxından tanımaq imkanı əldə edəcəyəm.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Əvvəla, Müstəqillik günü bayramı münasibətilə və Azərbaycanın olimpiya oyunlarında əldə etdiyi nailiyyətlərə görə təbrikinizlə bağlı təşəkkür edirəm. Həqiqətən, Azərbaycan ilk dəfə olaraq XXVII yay olimpiya oyunlarında belə yüksək səviyyəyə gəlib çatmışdır. Şübhəsiz ki, bu, Azərbaycanda uşaqlara, gənclərə göstərilən qayğının nəticəsində olmuşdur. Çünki olimpiadanın iştirakçıları və xüsusən uğurlu nailiyyətlər əldə edənlər hamısı gənclərdir. Biz iki qızıl medal və bir bürünc medal almağımızdan fəxr edirik. 199 ölkənin içərisində 34-cü yer tutmuşuq. Azərbaycandan həm ərazi nöqteyi-nəzərdən, həm əhalinin sayına, həm də iqtisadi vəziyyətinə görə güclü olan bir çox dövlətlər bizdən arxada qalıblar.

Bizim bürünc medal alan boksçumuz Vüqar Ələkbərovun cəmi 19 yaşı var. Qızıl medalı alanlar da gəncdirlər. Deməli, Azərbaycanda gənclərə qayğı var, diqqət var və gənclər də öz imkanlarını nümayiş etdirə bilirlər.

Eyni zamanda, siz bilirsiniz ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bir milyondan artıq Azərbaycan vətəndaşı işğal edilmiş torpaqlardan zorla çıxarılıb və çox ağır şəraitdə, əksəriyyəti isə xeyli vaxtdır, 7–8 ildir ki, çadırlarda yaşayır.

Təsəvvür edin, XX əsr sona çatır, amma bizim insanların bir hissəsi çadırda yaşayır, çadırda uşaqlar doğulur, çadırda gənclər böyüyür, çadırda təhsil alırlar, ailə qururlar. Bütün bunlara görə Azərbaycandakı uşaqların vəziyyəti sizin əhatə etdiyiniz bir çox ölkələrdə olan uşaqların vəziyyətindən daha da ağırdır.

Biz bilirik, Afrikada, Asiyada elə ölkələr var ki, orada həm böyüklər, həm uşaqlar çox ağır xəstəliklərə düçar olurlar, çətinliklər keçirirlər. Bunlar bizə məlumdur. Ancaq Avropa qitəsində yerləşən Azərbaycan kimi bir ölkənin ərazisində olan bu vəziyyət təbiidir ki, dözülməzdir. Ona görə sizin təşkilatınız, yəni YUNİSEF gərək ölkələrin hamısına bərabər gözlə baxmasın. YUNİSEF hər bir ölkəyə onun vəziyyətinə görə münasibət göstərməlidir, yardım etməlidir.

Mən çox arzu edərdim ki, siz üç-dörd saat vaxt sərf edib – bunu vertolyot vasitəsilə etmək olar – çadır şəhərciklərinin birini gedib görəsiniz. Onda sizi dəhşət bürüyər. İndi görürsünüz, küçədə yağış yağır və bu birinci gün deyildir. Sabah qar yağacaqdır. Sonra yay gələndə qızmar istilər başlayacaqdır. Çadırlarda yaşayan insanlar üçün hər fəslin öz çətinliyi vardır. Yağışın altında çadırda yaşamaq və çadırdan çıxan kimi palçığın içində hərəkət etmək böyüklər üçün çətindir, amma uşaqlar üçün nə qədər çətindir!

Mən bilirəm ki, bu problemlərin həll edilməsində sizin imkanlarınız yoxdur. Ancaq köçkün vəziyyətində yaşayan, çadırlarda yaşayan uşaqlara xüsusi diqqət göstərmək, onlara xüsusi qayğı göstərmək və onlara yardımı artırmaq, hesab edirəm ki, sizin üçün mümkündür. Arzu edərdim ki, siz, ümumiyyətlə, YUNİSEF Azərbaycan ilə əlaqədar proqramında mənim dediyim bu səbəblərə görə müəyyən dəyişikliklər etsinlər.

Siz bəyan etdiyiniz kimi, 2001-ci ilin sentyabr ayında Birləşmiş Millətlər Təşkilatının uşaqlarla əlaqədar sammit keçirməsi çox təqdirəlayiq haldır. Mən bu dəvəti qəbul edirəm və mütləq bu sammitdə iştirak edəcəyəm. Çünki bizim orada deyiləcək sözlərimiz vardır. Bütün bunları nəzərə alaraq, bir daha deyirəm, sizin bu gün Azərbaycanda olmağınız, ölkəmizlə daha da yaxından tanışlığınız bizim üçün çox əhəmiyyətlidir. Ancaq arzu edərdim ki, sizin bu səfəriniz, mənim dediyim sözlər nəzərə alınmaqla, Azərbaycana olan münasibətinizi, yəni yardımınızı, burada iş fəaliyyətinizi genişləndirməyinizi təmin etsin. Mən bu arzularımı sizə bildirirəm.

**F i l i p  O b r a y a n:** Zati-aliləri, mən Sizin bu arzularınızı məmnuniyyətlə təşkilatımızın icraçı direktoruna çatdıracağam. Onu da demək istəyirəm ki, Sizin olduqca səmimi şəkildə, xüsusən Azərbaycanda olan qaçqın uşaqların dözülməz şəraiti barədə söylədikləriniz bizə çox təsir etdi. Elə bu sözləri söyləməyiniz onu göstərir ki, Siz o uşaqların vəziyyətinin yaxşılaşdırılması işinə sadiqsiniz. Hesab edirəm ki, Siz bu sadiqliyinizi Nyu-Yorkda olarkən bizim təşkilatımızla əlaqədar iki sənədə imza atmanızla bir daha təsdiq etmisiniz.

Zati-aliləri, arzu edərdim ki, YUNİSEF-in regional direktoru kimi mənim elə bir gücüm, qüvvəm olaydı ki, bütün bu münaqişələrə son qoyaydım. Amma doğru buyurdunuz ki, bu işlərin hamısını görmək heç də mənim imkanım daxilində deyildir. Müharibənin uşaqların vəziyyətinə etdiyi təsir göz önündədir və bu bizi ağrıdır.

Siz doğru dediniz. Əslində, YUNİSEF-də elə biz də aypı-ayrı ölkələrə, hətta uşaqlara eyni gözlə baxmırıq. Təşkilatımızın gücünü göstərən amillərdən biri də məhz ondan ibarətdir ki, biz ehtiyacı olan uşaqlara yardım əlimizi uzadırıq. Təşkilatımızın burada təmsil olunmuş nümayəndələri, mənim həmkarlarım sizin hökumətinizlə sıx əlaqələr quraraq, azərbaycanlı qaçqın uşaqların ehtiyaclarının öyrənilməsi və onlara yardım edilməsi işinə səylə çalışırlar. Mən Sizi əmin etmək istəyirəm ki, bu gün burada qaldırdığınız ağrılı, ciddi problemlərin həll olunması üçün öz tərəfimizdən əlavə ehtiyatların tapılması və Azərbaycana yardımların artırılması üçün də əlimizdən gələni edəcəyik.

Əminəm ki, YUNİSEF Təşkilatının icraçı direktoru və Birləşmiş Millətlər Təşkilatının Baş katibi zirvə görüşündə iştiraka dəvəti qəbul etməyiniz barədə xəbəri məmnuniyyətlə qarşılayacaqlar. Mən də çox məmnunam ki, Siz bu dəvəti qəbul etdiniz. Çünki indi burada mənə dediyiniz kövrəkliklə, həssaslıqla danışdığınız, azərbaycanlı qaçqın uşaqların vəziyyətini təsvir etdiyiniz kimi, həmin zirvə görüşündə də çıxış etsəniz, əminəm ki, bizim ümumi tədbirimizə töhfə vermiş olacaqsınız. Bir daha təkrar edirəm ki, YUNİSEF-in Bakıdakı ofisi Azərbaycan hökuməti və qeyri-hökumət təşkilatları ilə bərabər çalışaraq azərbaycanlı uşaqların həyatının inkişaf etdirilməsini, onların həyatına yenilik gətirilməsini istəyir. Mən də Sizi əmin edirəm ki, şəxsən bu işlərlə yaxından məşğul olacağam. Sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Təşəkkür edirəm. Sizin bu sözləriniz məndə ümid yaradır. Arzu edirəm ki, bu ümidlər yerinə yetsin.

Təbiidir, siz dediniz ki, arzu edirsiniz münaqişələr həll olunsun, münaqişələrə son qoyulsun. Bunu hamıdan çox biz istəyirik, Azərbaycan istəyir. Çünki Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulubdur.

Qeyd etdiyim kimi, ölkəmizin ərazisinin 20 faizi işğal altındadır və darmadağın olunubdur. Bir milyon insan yerindən-yurdundan didərgin düşübdür. Biz bunlara son qoymaq istəyirik və Ermənistanla sülh əldə etmək

istəyirik. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək istəyirik. Köçkünlərin, qaçqınların öz yerlərinə qaytarılmasını təmin etmək istəyirik. Ancaq təəssüf ki, Ermənistan bu barədə çox anlaşılmaz və təcavüzkar bir mövqe tutur.

Sizə onu da bildirmək istəyirəm ki, Ermənistan Azərbaycan torpaqlarını geniş şəkildə işğal etdiyi zaman, 1992–1993-cü illərdə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bu məsələləri dəfələrlə müzakirə edibdir və dörd qətnamə çıxarıbdır. Təəssüf ki, Təhlükəsizlik Şurasının qətnamələri – hansılar ki, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş rayonlardan dərhal, qeyd-şərtsiz çıxarılmasını tələb edir – indiyə qədər Ermənistan tərəfindən həyata keçirilmir. Dözülməz vəziyyət haqqında mən bu yaxınlarda, sentyabr ayının 7-də Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının tribunasından yenə də Azərbaycanın sözünü dedim və Birləşmiş Millətlər Təşkilatını, onun Təhlükəsizlik Şurasını tənqid etdim ki, onlar özlərinin qəbul etdiyi qətnamələrin yerinə yetirilməsini təmin edə bilmirlər. Birləşmiş Millətlər Təşkilatı, təbiidir ki, tarixi əhəmiyyətə malik bir təşkilatdır. Biz buna inanırıq. Ancaq onun qərarları, qətnamələri hansı ölkə tərəfindən yerinə yetirilmirsə, demək, o bunun üçün müəyyən imkanlar tapmalıdır. Xahiş edirəm, mənim bu sözlərimi də çatdırasınız.

Mən gələn il sentyabr ayında gələcəyəm. Allah etsin ki, o vaxta qədər biz Ermənistan – Azərbaycan münaqişəsinə son qoya bilək. Əgər buna nail olsaq, ondan sonra hələ bir neçə il də lazımdır ki, yerindən-yurdundan didərgin düşmüş insanlar öz torpağına qayıtsınlar. Amma onların torpağında hər şey dağıdılıbdır, hər şey viran olubdur. Yaşayış məntəqələri, yaşayış evləri yenidən yaranmalıdır. Hələ bizim qarşımızda nə qədər vəzifələr durur. Mən mütləq gələcəyəm.

**Filip Obrayan:** Zati-aliləri, mən bundan olduqca məmnunam. Çox sağ olun.

**Heydər Əliyev:** Sağ olun.*

---

* Görüşdə prezident Heydər Əliyev respublikamızla BMT-nin əməkdaşlığından bəhs edən, ingilis dilində nəşr olunmuş «Azərbaycan BMT ailəsində» kitabını cənab Obrayana hədiyyə etdi.

## AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN İDMAN-SAĞLAMLIQ KOMPLEKSİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*Bakı, Nərimanov rayonu*

*21 oktyabr 2000-ci il*

Əziz idmançılar!

Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar! Sizi – Azərbaycanın bütün idman ictimaiyyətini Milli Olimpiya Komitəsinin qısa bir müddətdə tikib başa çatdırdığı və bu gün istifadəyə verdiyi gözəl olimpiya kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Milli Olimpiya Komitəsinə, bütün idmançılarımıza idmanda yeni-yeni uğurlar arzulayıram.

Hörmətli cənab Jak Roq, xanım Roq, hörmətli cənab Mario Peskanteni, mən sizi Azərbaycanda səmimi-qəlbdən salamlayıram. Sizin ilk dəfə ölkəmizə gəlməyinizin, bir tərəfdən, Azərbaycan Milli Olimpiya Komitəsinin nailiyyətləri ilə bağlı olduğunu düşünürəm, ikinci tərəfdən də, bunu daha çox sizin Azərbaycana, bizim ölkəmizə, xalqımıza, idmanımıza diqqətiniz kimi qəbul edirəm. Sağ olun.

Bu il dünyada, o cümlədən müstəqil Azərbaycanda ən sevindirici, ən əlamətdar hadisələrdən biri XXVII Sidney yay olimpiya oyunları oldu. Bütün dünyanın nəzər diqqəti Sidneyə cəlb edilmişdi. Dünyanın bütün televiziya şirkətləri olimpiya oyunlarının gedişini Yer kürəsinin hər bir guşəsinə canlı yayımlayırdılar. Bəlkə də dünyada heç bir hadisə bütün ölkələrin, Yer kürəsinin insanları tərəfindən bu qədər maraq doğurmamışdır.

Təbiidir ki, biz də Azərbaycanda oraya göndərdiyimiz nümayəndə heyətinin, idmançıların hər addımını izləyirdik və yarışlarda onların nailiyyətlər, qələbə əldə etməsini səbirsizliklə gözləyirdik. Ona görə gözləyirdik ki, Azərbaycanda idman, olimpiya hərəkatı yüksək səviyyəyə çatıbdır. Bizim çox gözəl, güclü və bacarıqlı idmançılarımız vardır. Biz ona görə gözləyirdik ki, yola salarkən onlar Azərbaycan dövlətinə, xalqına söz vermişdilər ki, qələbə qazanacaqlar, qələbə ilə də vətənə dönəcəklər.

Bizim arzularımız, istəklərimiz və Milli Olimpiya Komitəsinin, idmançılarımızın verdiyi söz yerinə yetirilibdir. Azərbaycan idmançıları, müstəqil Azərbaycan ilk dəfə dünya olimpiya oyunlarında, XXVII Sidney yay olimpiya oyunlarında misli görünməmiş nailiyyətlər əldə etdilər, qələbə qazandılar.

İki qızıl medal, bir gümüş medal, bir neçə oyunçumuzun onuncu yerə qədər müxtəlif yerlər tutması – bunlar həqiqətən böyük nailiyyətdir, böyük qələbədir. Bizim idmançılar bununla fəxr edirlər və buna da haqları vardır. Xalqımız bununla fəxr edir və müstəqil Azərbaycan indiyə qədər həmin hadisənin təsiri altında, bayram əhval-ruhiyyəsində yaşayır.

Müstəqil Azərbaycan son illər bütün sahələrdə dünya miqyasında özünü layiqincə təmsil etdiyi kimi, bizim idmançılarımız da ölkəmizi layiqincə təmsil etdilər və xalqımıza, millətimizə sevinc gətirdilər.

Bu kompleks Azərbaycan Milli Olimpiya Komitəsinin bizim idmançılara yeni bir hədiyyəsidir. Mən XXVII yay Sidney olimpiya oyunlarında uğurlar, medallar qazanmış idmançılarımızı, Milli Olimpiya Komitəmizi bir daha ürəkdən təbrik edirəm və onlara yeni-yeni qələbələr, nailiyyətlər arzu edirəm.

Milli olimpiya hərəkatı Azərbaycanda yeni yaranmağa başlamışdır. Keçmişdə Azərbaycanda belə hərəkat, belə təşkilat olmamışdır. Milli olimpiya hərəkatının və Milli Olimpiya Komitəsinin yaranması Azərbaycanın dövlət müstəqilliyinin, xalqımızın milli azadlığının bəhrəsidir, onun nəticəsidir.

Amma dəfələrlə deyildiyi kimi, mən bu gün də bildirmək istəyirəm ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra bir çox çətinliklərlə rastlaşmışdı və bu yolu asan keçməmişdi. Bu yol bu gün də asan deyildir. Azərbaycanda Milli Olimpiya Komitəsi 1992-ci ildə yaranmışdı. Ancaq bu gün hamı görür və hamı etiraf etməlidir ki, təəssüflər olsun, o illərdə bütün başqa sahələrdə pozuculuq quruculuqdan daha da üstün olduğuna görə, elə Milli Olimpiya Komitəmiz də bir iş görmürdü və idmanın çox nailiyyətlərini dağıdıbdır, parçalayıbdır. Ona görə də o vaxt Azərbaycan idmançıları Olimpiya Komitəsində olan bütün bu hərc-mərcliyə son qoymağı qərara aldılar.

Xalqa məlum olduğu kimi, o vaxt, o illər – Xalq Cəbhəsi hakimiyyətdə olduğu zaman Olimpiya Komitəsi və onun rəhbərləri Azərbaycanın Daxili İşlər naziri İsgəndər Həmidov kimi yaramazın əlində oyuncağa çevrilmişdi. Bu böyük komitə ayrı-ayrı mafioz qrupların əlində idi. Bizim idmançılar buna dözürdülər. Çünki o vaxt başqa yolları yox idi. Amma dözüm də gəlib müəyyən dərəcəyə çatdı və idmançılarımız, Olimpiya Komitəsinə daxil olan idman federasiyaları artıq buna dözə bilmədilər, seçki apardılar və Milli Olimpiya

Komitəsinin yeni tərkibini, yeni rəhbərliyini seçdilər. İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildi.

O vaxtdan çox keçməyibdir. Ancaq bu qısa bir zamanda Azərbaycanda Milli Olimpiya hərəkatı böyük vüsət alıbdır, yüksək nailiyyətlər əldə edibdir. Son illər idmanın müxtəlif növləri üzrə Avropa və dünya yarışlarında Azərbaycan idmançılarının əldə etdiyi nailiyyətlər buna əyani sübutdur. Bunların hamısının da zirvəsini XXVII yay olimpiya oyunlarında Azərbaycan idmançılarının, Milli Olimpiya Komitəsinin əldə etdiyi nailiyyətlər təşkil edir.

Azərbaycanda idmana qısa bir zamanda yüz minlərlə gənc cəlb olunubdur. Ancaq bütün gənclər idmana həvəs göstərir, idmanla məşğul olmaq istəyirlər. Bunun üçün maddi-texniki baza lazım idi. Keçmişdə yaranmış maddi-texniki bazanı vaxtilə dağıtdılar.

Mən bir dəfə demişəm. Xatirimdədir, 1952-ci ildə burada, bu yaxınlıqda Azərbaycanın mərkəzi stadionu açıldı. Mən o vaxt gənc olarkən həmin açılışda iştirak etmişdim. Ondan sonrakı illərdə o stadion Azərbaycan xalqına, gənclərinə, futbola xidmət etmişdir. Amma sonra nə oldu? 1990, 1991, 1992-ci illərdə və 1993-cü ildə, hətta 1994-cü ildə də o stadionu bazara döndərdilər, orada kababxanalar açdılar. Stadionu dağıtdılar və elə vəziyyətə gətirdilər ki, mən xatırlayıram, bir dəfə hansısa beynəlxalq yarış keçirilməli idi, beynəlxalq hakimlər gəlib dedilər ki, burada yarış keçirmək olmaz. Yarışı Sumqayıt stadionunda keçirdilər. Bax, biz bu cür keçmişi də görmüşük. Əvvəllər yaranmış idman potensialını, yəni idmanın maddi-texniki potensialını inkişaf etdirmək əvəzinə, onun dağıdılmasını, tarimar edilməsini görmüşük. Ancaq biz bunların qarşısını aldıq və indi həmin stadion bərpa edilibdir. Orada yarışlar gedir, istifadə olunur. Amma hesab edirəm ki, hələ onu tam yüksək səviyyəyə gətirib çıxara bilməmişik. Bizim Futbol Federasiyamız da hələ günün tələblərinə cavab verə bilmir.

İndi isə Milli Olimpiya Komitəsi öz imkanlarından istifadə edərək, dövlətdən heç bir vəsait almayaraq Azərbaycanda müxtəlif yerlərdə Olimpiya Komitəsinin idman komplekslərini tikməyə başlamışdır. Mən indi burada, bu salonda onların bir neçəsinin layihəsi ilə tanış oldum və İlham Əliyev məlumat verdi ki, o yerlərin hamısında tikintilər gedir. Burada qısa bir müddətdə, mənə dedilər, bir il içərisində bu cür müasir, beynəlxalq standartlara uyğun olan belə gözəl kompleks yaradılmışdır.

Biz bura gələrkən kompleksin birinci zalını gəzdik. Ondan sonra idmançılar üçün yaradılmış şəraitə baxdıq. Burada həm soyuq vaxtda istilik, həm də isti vaxtda sərinlik təmin edən böyük aqreqatlar qurulubdur. Yəni burada ilin 12 ayında idmançılarımız öz məşqlərini keçirə bilərlər, idmanla məşğul ola bilərlər, özlərini hazırlayıb inkişaf etdirə bilərlər. Mən qonşu zalda bizim gənclərimizi, 7–8 yaşında uşaqları gördüm. Onlar güləşirlər, onlar cüdo, karate ilə məşğul olurlar. Onlar ağırlıq qaldırırlar. Onlar öz əzələlərini möhkəmləndirirlər.

Mən bir idmançıya yanaşdım. Əzələsi elədir ki, onu heç iki əlimlə də tuta bilmədim. Görürsünüz, bizdə nə qədər güclü insanlar vardır. Soruşdum, neçə yaşın var? 18 yaşı. Demək, bax, bu adam müstəqil Azərbaycan dövründə böyüyüb, 18 yaşına çatıbdır. Əgər bu adam yaxşı yaşamasa, bunun güzəranı yaxşı olmasa, necə deyərlər, gəlib burada əzələlərini nə qədər tərpətsə də, bu vəziyyətə çatmaz. Demək, gənclərimizə həm yaxşı yaşamaq şəraiti yaratmışıq, həm də onların fiziki cəhətdən möhkəmlənməsi, inkişaf etməsi üçün və böyük idmanda iştirak etməsi üçün şərait yaradılıbdır.

Mən bir uşağa yanaşdım ki, neçə yaşın var? Dedi 8 yaşım var. Güləşir, özü də elə güləşir ki, mən təəccüb edirəm, rəqibini qaldırıb yerə vurur. Nə qədər sevindirici haldır. Bilirsiniz, bir insan kimi, vətəndaş kimi, eyni zamanda Azərbaycan prezidenti kimi, mənim sevincim heç yerə sığmır. Çünki qısa bir zamanda, görün, biz necə nailiyyətlər əldə etmişik. Ancaq hesab edirəm ki, bu, Milli Olimpiya Komitəsinin işinin hələ başlanğıcıdır. Milli Olimpiya Komitəsi əldə etdiyi təcrübədən və təbiidir ki, ictimaiyyətin bu işlərə verdiyi yüksək qiymətdən ruhlanaraq, bundan sonra öz iş dairəsini genişləndirəcək, maddi-texniki baza yaratmaq sahəsində çox işlər görəcəkdir. Hesab edirəm ki, gələn olimpiya oyunlarına qədər Azərbaycanda idman daha da yüksələcək, daha da inkişaf edəcəkdir.

Avropa Olimpiya Komitəsinin prezidenti cənab Jak Roq burada öz nitqində idmanın insana nə verdiyini, onun nə olduğunu çox gözəl dedi. Mən onun sözləri ilə tamamilə razıyam. Onu da demək lazımdır ki, əgər Avropa ölkələrində, Amerikada, inkişaf etmiş bir neçə başqa ölkələrdə idman çox yüksək səviyyədədirsə, bizim ölkəmizdə, Azərbaycanda, təkcə bizdə deyil, yəni Şərq ölkələrində hələ ki, bu səviyyəyə çatmayıbdır. Amma Azərbaycan gəncinin, Azərbaycan insanının potensial gücü çox böyükdür. Həm fiziki gücü böyükdür, həm də onun mənəvi iradəsi böyükdür. Ona görə də əgər biz hamımız bu işə kömək etsək, idmanın inkişafına şərait yaratsaq, idmanı kütləvi etsək və bütün insanlar üçün bədən tərbiyəsini mütləq onların həyatının bir hissəsinə çevirsək, xalqımızın fiziki sağlamlığını, mənəvi sağlamlığını təmin edəcəyik.

Azərbaycan gənclər ölkəsidir. Allaha şükürlər olsun ki, bizdə ailələr çoxuşaqlıdır, yeni-yeni uşaqlar dünyaya gəlir, bizim əhalimiz artır. Bir neçə il bundan öncə məlumat verirdik ki, 7 milyon əhalimiz var. İndi son siyahıyaalmada məlum oldu ki, Azərbaycanda 8 milyon əhali var. Kiçik bir ölkədə 8 milyon əhali az deyildir.

Təəssüf ki, Ermənistanın təcavüzü nəticəsində bizim torpaqlarımızın bir qismi işğal altındadır və gənclərimizin bir hissəsi çadırlarda yaşayır, ağır şəraitdə yaşayır və idman üçün yaranmış bu imkanlardan lazımi qədər istifadə edə bilmirlər. Ancaq mən bilirəm, o çadırlarda olmuşam, görürəm ki, gənclər hətta ağır şəraitdə

yaşasalar da, möhkəm fiziki gücə, iradəyə malikdirlər. Bilirlər ki, onlar öz doğma torpaqlarına qayıdacaqlar, öz evlərinə, yurdlarına qayıdacaqlar.

İdmanın, bədən tərbiyəsinin kütləvi olması xalqımızı dünyada mövcud olan bir çox bəlalardan da xilas edəcəkdir. Bu bəlaları bilirsiniz – spirtli içkilərdən istifadə edilməsi, narkotiklərin qəbul olunması, yaxud da başqa mənfi həyat tərzi keçirən gənclər, insanlar. Təəssüflər olsun ki, dünyada bu mənfi proses çox inkişaf edibdir və bir çox ölkələrə sirayət edir.

Bizdə də pozucu adamlar, dağıdıcı adamlar vaxtilə gəncləri təhsilə, tərbiyəyə, idmana cəlb etmək əvəzinə, hərəsi öz şəxsi məqsədləri üçün onları o siyasi işə, bu siyasi işə qoşub həm təhsildən, həm mədəniyyətdən, həm də idmandan ayırdılar və çoxları da, təəssüflər olsun ki, həmin mənfi proseslərin təsiri altına düşdü.

Biz bunların qarşısını almalıyıq. Bunların qarşısını almaq üçün bizim vəzifəmiz Azərbaycanda təhsili inkişaf etdirməkdir, bütün gəncləri təhsilə cəlb etməkdir. Bunun qarşısını almaq üçün bizim vəzifəmiz insanların rifah halını yaxşılaşdırmaqdır. Bunun qarşısını almaq üçün bizim vəzifəmiz idman hərəkatını genişləndirmək, idmanı kütləvi etmək və bütün insanlara anlatmaqdır ki, bədən tərbiyəsi ilə məşğul olsunlar. Budur bizim vəzifəmiz.

Mən bu gün deyə bilərəm ki, Azərbaycan dövləti bu vəzifələri ardıcıl surətdə həyata keçirir və keçirəcəkdir. Bizim apardığımız iqtisadi, xarici, daxili siyasət, iqtisadi islahatlar, təhsil, səhiyyə sahələrində həyata keçirdiyimiz islahatlar bu vəzifələrin yerinə yetirilməsini təmin edəcəkdir.

Ermənistanın təcavüzü ilə əlaqədar indi Azərbaycan çətin bir dövr yaşayır. 1988-ci ildən Ermənistanın Azərbaycana təcavüzü başlayıbdır. Heç də o qədər daxili gücə malik olmayan Ermənistan müxtəlif obyektiv və subyektiv səbəblərdən Azərbaycan torpaqlarının 20 faizini işğal edib və işğal olunmuş torpaqlarımızdan bir milyon vətəndaşımız didərgin düşüb, çadırlarda yaşayır.

Biz neçə ildir ki, bu məsələni sülh yolu ilə həll etməyə çalışırıq. Bunun üçün 1994-cü ilin may ayında biz atəşkəsi təmin etdik. Təsəvvür edin, 1994-cü ildən indiyə qədər biz gənclərimizi o uğursuz müharibədən, şəhidlikdən, qan tökülməsindən xilas etdik.

Biz münaqişənin sülh yolu ilə həll edilməsi ilə bu gün də məşğul oluruq, sabah da məşğul olacağıq. Bütün gənclər, Azərbaycan xalqı bilsin ki, hər gün bizim işimizin böyük bir hissəsi məhz Ermənistanın təcavüzünə son qoyulması, işğal olunmuş torpaqların azad edilməsi və bölgədə sülh yaranması, insanların öz yerinə-yurduna qayıtması ilə bağlıdır. Biz bununla məşğul olmuşuq, hər gün məşğul oluruq və bundan sonra da məşğul olacağıq.

İndi bizdə bəzi siyasətçilər müxalifətdə olaraq, özlərinə seçkiqabağı xal qazanmaq üçün çıxış edərək deyirlər ki, proqramları var. Biri deyir 10 proqramımız var, o biri deyir 20 proqramımız var, digəri deyir, nə bilim, 30 proqramımız var. Nə proqramınız var, ortaya qoyun. Onların çoxu 1992-ci ildə və 1993-cü ilin əvvəllərində hakimiyyətdə idilər, Azərbaycan dövlətində, hökumətində vəzifə tuturdular, bəs o vaxt bu proqramları niyə yerinə yetirmədilər, Azərbaycanın müstəqilliyini niyə saxlaya bilmədilər, ölkəmizdə niyə vətəndaş müharibəsi başladı, niyə onlar qaçıb dağıldılar? İndi müxalifətdə oturublar, heç bir şey etmirlər, ancaq və ancaq Azərbaycanda ictimai-siyasi vəziyyəti qeyri-normal hala salmağa, öz şəxsi məqsədlərinə nail olmağa çalışırlar.

Bu qüvvələr işğal olunmuş torpaqlar haqqında guya öz proqramlarının olduğunu bəyan edərək və qısa bir müddətdə bunu həll edəcəyinə söz verərək çalışırlar ki, kimsə onlara səs versin. Ancaq eyni zamanda, onların hərəkətlərinin çoxu Azərbaycanın düşmənlərinə ölkəmizə qarşı sanksiyalar qəbul etməkdə, respublikamızı əzməkdə kömək edir.

Bilirsiniz ki, Amerika Birləşmiş Ştatlarının Konqresində, başda konqresmen Smit olmaqla, ermənipərəst konqresmenlər Azərbaycana qarşı qanunlar qəbul edirlər. Onlar həmişə Azərbaycana qarşı cürbəcür ədalətsiz qanunlar qəbul edirlər. 1992-ci ildə həmin o 907-ci düzəliş konqresmen Smitin təşəbbüsü ilə qəbul olunubdur. İndi Amerika Birləşmiş Ştatlarının dövləti Azərbaycana heç bir kömək edə bilmir, çünki bu qadağandır. Onlar indi də ermənilərə kömək edirlər, Azərbaycanın əleyhinə iş görürlər.

Ermənipərəst konqresmenlər o dərəcəyə çatıblar ki, Türkiyə kimi böyük bir dövlət haqqında Konqresə Qətnamə layihəsi çıxarıblar. Guya 85 il bundan öncə Türkiyə erməni xalqına qarşı soyqırımı edibdir. Bu, yalan, uydurma bir şeydir. Bu olmayıbdır. Bu, tarixdən bizə məlumdur. Əksinə, ermənilər Azərbaycana, türklərə qarşı soyqırımı ediblər.

Mən bu prosesləri bilirəm. Türkiyənin ictimaiyyəti, dövləti son bir ayda böyük narahatlıq keçirir. Biz də, Azərbaycan da, Azərbaycanın prezidenti kimi mən də dost, qardaş Türkiyəyə qarşı bu qədər ədalətsizliyin olduğunu görərək, əlbəttə ki, çox narahat idik. Mən əlaqə saxlayırdım, işin nə yerdə olduğunu öyrənirdim.

Ermənipərəst konqresmenlər o qətnamə layihəsini Beynəlxalq Münasibətlər Komitəsindən keçirdilər. Sonra isə Konqresin ümumi iclasına çıxardılar. Hökumət tərəfindən neçə dəfə onlara müraciət olundu ki, bunu etməsinlər, Türkiyə Amerika Birləşmiş Ştatlarının etibarlı müttəfiqidir, Türkiyə Şərq aləmində, Qərb ilə Şərqin arasında böyük, güclü bir dövlətdir. Türkiyə NATO-nun üzvüdür. Amerika Birləşmiş Ştatlarının Konqresi tərəfindən Türkiyəyə qarşı bu cür ədalətsiz hərəkət, əlbəttə ki, Türkiyədə də, bizdə də, şəxsən məndə də çox narazılıq hissi doğurmuşdu.

Ancaq Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klintonun və hökumətin başqa üzvlərinin son iki gündə cəsarətli hərəkəti sayəsində həmin qətnamə layihəsi Konqresin gündəliyindən çıxarıldı. Amma ermənipərəst

konqresmenlər Amerikada və başqa ölkələrdə bu əməllərindən əl çəkmirlər. Onlar Türkiyədən, Azərbaycandan əl çəkmirlər.

Təəssüflər olsun ki, mən indi haqqında söhbət açdığım respublikamızın bəzi müxalifət nümayəndələri bir neçə ay bundan əvvəl gedib bizim düşmənimiz olan konqresmen Smitin qarşısında Türkiyənin, Azərbaycanın əleyhinə çıxış edirdilər, ölkəmiz haqqında olmazın yalanlar deyirdilər. Keçmiş prezident Əbülfəz Elçibəy, dörd ildir Azərbaycandan qaçıb Amerikada gizlənən Rəsul Quliyev, İsa Qəmbərov, Nazim İmanov gedib konqresmen Smitin qarşısında uşaq kimi oturublar, ona yaltaqlanıblar, Azərbaycanda demokratiyanın olmamasını ona sübut etməyə çalışıblar. Ona sübut etmək lazım deyildir. Azərbaycanda demokratiya nə qədər yüksək olsa da, həmin Smit buna razı olmayacaqdır. Çünki o, Azərbaycanın düşmənidir. Amma bunlar həmin o düşmənlərə kömək edirlər. Deməli, onlar həmin düşmənlərin Türkiyəyə qarşı bu cür hərəkətlərinə kömək edirlər.

Mən qardaş Türkiyənin, türk xalqının Azərbaycan xalqı ilə, ölkəmizlə qardaşlığını böyük məmnuniyyət hissi ilə bu gün bir daha təsdiq edirəm. Türk xalqına qarşı edilən hər bir təcavüz, yaxud hər bir ədalətsizlik, Azərbaycana qarşı edilən ədalətsizlikdir. Azərbaycana qarşı edilən hər bir ədalətsizlik, Türkiyəyə qarşı edilən ədalətsizlikdir. Təsadüfi deyildir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayandan Türkiyə Azərbaycanla bir yerdədir. Türkiyə Ermənistanı təcavüzkar sayıb, onunla heç bir əlaqə qurmayıb, erməni işğalçıları Azərbaycan torpaqlarından çıxmayınca, Ermənistanla sərhədlərini açmır.

Mən həmin o ermənipərəst konqresmenlərə və başqa qüvvələrə Azərbaycan xalqının etirazını bu gün bir daha bildirirəm, qardaş Türkiyə ilə bizim əbədi dostluğumuzu bəyan edirəm və özlərini siyasətçi adlandıran bəzi adamlara demək istəyirəm ki, bizim dostumuzun, düşmənimizin kim olduğunu bilsinlər, gedib düşmənimizin qarşısında yaltaqlıq etməsinlər.

Əziz dostlar!

Əziz idmançılar!

Mən bu gün sizinlə çox böyük sevinc hissi ilə görüşdüm. Ümumiyyətlə, gənclərlə görüşmək hər bir insana ruh verir, hər bir insanı sevindirir, məni isə xüsusi olaraq sevindirir. Bu cür gözəl bir kompleksin yaranması, təbiidir ki, Azərbaycanda quruculuq, yaradıcılıq işlərinin nümunəsidir. Biz bu quruculuq işlərini aparmışıq, aparırıq və gələcəkdə daha da sürətlə aparacağıq.

Mən sizi bir daha təbrik edirəm. Azərbaycan idmanına yeni-yeni uğurlar arzulayıram. Azərbaycan Milli Olimpiya Komitəsinə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

## İRAN İSLAM RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ƏLİRZA BİKDELİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*24 oktyabr 2000-ci il*

**H e y d ə r  Ə l i y e v:** Xoş gördük. Sizi səmimi-qəlbdən salamlayıram.

**Ə l i r z a  B i k d e l i:** Cənab Prezident, hər şeydən əvvəl, sabah müsəlmanların ən gözəl bayramı – həzrəti peyğəmbər Salavatullahın Merac günüdür.

Müsəlmanlar üçün çox böyük bayramdır. İcazə verin, bu bayram münasibətilə Sizi və Sizin simanızda qardaş Azərbaycan xalqını təbrik edim. Sizə təşəkkür edirəm ki, məni qəbul etdiniz. Həmişə olduğu kimi, nə vaxt xahiş etmişəm, Siz xahişimi qəbul etmisiniz və bu dəfə də Sizə minnətdarlığımı bildirirəm.

Bilirsiniz ki, mən beş ildən çoxdur Azərbaycanda səfir kimi çalışıram. Çox xoşbəxtlik hissi duyuram ki, bu beş il ərzində burada mənim fəaliyyətim yalnız Sizin, cənab Heydər Əliyevin, dünyada tanınmış siyasətçi və şəxsiyyətin prezident olduğu dövrə təsadüf edir. Mən bu illər Sizinlə birlikdə çalışmışam və bu məni çox sevindirir. Biz diplomatların işi bir gün başlayır və bir gün də qurtarır. Ancaq hiss edirəm ki, mən elə bu gündən öz yeni işimə Azərbaycanla başlamalıyam. Çünki İranın Xarici İşlər Nazirliyində mənə yeni vəzifə – MDB ölkələri üzrə idarə rəisi vəzifəsi təklif edilibdir. İnşallah, mən yenidən bu vəzifəmdə Azərbaycan Cümhuriyyəti ilə və Azərbaycan xalqı ilə yaxın təmasda olacağam.

Hər şeydən öncə Sizə və Sizin simanızda Azərbaycanın bütün məsul şəxslərinə təşəkkür edirəm ki, beş il ərzində mənim fəaliyyətimə dəstək, kömək və qayğı göstərilibdir. Eyni zamanda bu illərdə Allah-təala bizə kömək edibdir və biz də əlaqələrin inkişaf etməsinə nail ola bilmişik. Sizə bir daha təşəkkür edirəm.

Əsas məqsədim Sizə təşəkkür etmək, Azərbaycanı tərk etmək ərəfəsində Sizinlə görüşmək, danışmaq idi.

**H e y d ə r  Ə l i y e v**: Sağ olun. Mən də sizi və bütün İran xalqını, bütün müsəlmanları bu bayram münasibətilə təbrik edirəm. Sizin ölkənizə, İran xalqına səadət, sülh, əmin-amanlıq arzulayıram. Bu bayramlar bizim ümumi bayramlarımızdır. Çünki biz bir kökə və bir dinə malikik. Ona görə də bu bayram hamımızın bayramıdır.

Sizin burada işləməyiniz elə tez keçibdir ki, elə bil heç beş il deyildir. Ona görə mən düşünürdüm ki, bəlkə siz bir müddət də burada işləyəsiniz. Ancaq bilirəm, hər ölkədə Xarici İşlər Nazirliyinin qanunu vardır. Bəzi ölkələrdə səfir üç ildən artıq işləmir. Amma yaxşı ki, sizin Xarici İşlər Nazirliyi Azərbaycana güzəşt edibdir.

Siz burada beş il işləmisiniz. Ancaq eyni zamanda məni sevindirən odur ki, siz dediniz, İranın Xarici İşlər Nazirliyində MDB ölkələri üzrə idarənin rəisi olacaqsınız. Bu, təbii, bundan da yüksək bir vəzifədir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bu vəzifədə də İran – Azərbaycan əlaqələrinin inkişaf etməsinə çalışacaqsınız.

Bizim üçün bu çox əhəmiyyətlidir, ona görə ki, bütün MDB ölkələrinə cavabdeh olacaqsınız. Amma bildiyimə görə, Siz Qazaxıstanda da işləmisiniz.

**Ə l i r z a  B i k d e l i:** Cənab Prezident, Moskvada da işləmişəm.

**H e y d ə r  Ə l i y e v:** Bir də Moskvada. Amma digər ölkələri o qədər yaxşı tanımırsınız. Amma hamısından çox Azərbaycanda işləmisiniz. Elədirmi?

**Ə l i r z a  B i k d e l i:** Bəli, elədir.

**H e y d ə r  Ə l i y e v:** Ona görə Azərbaycan sizə başqa ölkələrə nisbətən daha çox tanışdır. Hesab edirəm ki, daha yaxındır, belə deyə bilərəm ki, bəlkə də daha doğmadır. Ona görə də sizin o vəzifədə işləməyiniz bizim üçün çox yaxşı xəbərdir. İnanıram ki, siz burada çalışdığınız dövrdə olduğu kimi, o böyük vəzifəni alandan sonra İran – Azərbaycan əlaqələrini inkişaf etdirməyə daha da çox səylər göstərəcəksiniz.

Hər bir dövlət özünün dövlət mexanizmini yaxşı bilir. Ümumi prinsiplər var. Bəzən dövlətin xarici siyasəti dövlətin müşavirləri, onun şöbələrinin təşəbbüsü, yaxud təklifi, onların verdiyi analitik materiallar əsasında qurulur. Ancaq siz o vəzifədə olanda, hesab edirəm ki, heç vaxt öz rəhbərliyinizə Azərbaycan haqqında səhv, yaxud da əsası olmayan məruzələr etməzsiniz. Mən demirəm ki, o biriləri qəsdən edirlər. Bəzən bilmirlər. Çünki, hər halda, mənim bu barədə keçmişdən də, indi də təcrübəm çoxdur.

Xatirimdədir, Moskvada işləyəndə bəzən ayrı-ayrı ölkələrdəki səfirlər o ölkənin vəziyyəti haqqında, bu ölkənin Sovetlər İttifaqı ilə əlaqələri haqqında məlumatlar yazırdılar. Amma biz başqa yerdən öyrənəndə görürdük, həmin məlumatlar o qədər də düz deyil, səhvdir, yaxud da subyektiv fikirlərdir və s. Siz artıq burada beş il işləmisiniz, beş il burada yaşamısınız. Bu ölkənin prezidentini anlayırsınız. Burada kim kimdir, onu da

yaxşı bilirsiniz. Ona görə də çox məmnunam ki, əgər siz buranı tərk etmək məcburiyyətindəsinizsə, demək, o idarənin rəisi olmaq da bizim üçün çox əhəmiyyətlidir.

Beş il müddətində bizim əlaqələrimizin inkişaf etdirilməsi üçün hər iki tərəfdən – həm İran tərəfindən, həm də Azərbaycan tərəfindən səylər göstərilibdir. Ancaq deyə bilmərəm ki, bu səylər bizi istənilən səviyyəyə qaldırıbdır. Buna mane olanlar da olub, yaxud başqa səbəblər də olubdur. Hər şeyi açıq, həqiqəti demək lazımdır.

Ancaq Siz də bilirsiniz və güman edirəm ki, İranın hökuməti, dövlət başçısı da bilir ki, Azərbaycan prezidenti kimi, mən Azərbaycan – İran əlaqələrinə xüsusi əhəmiyyət verirəm. Hesab edirəm ki, ölkələrimiz bir-biri ilə dost olmalıdır, qardaş olmalıdır və ölkələrimiz arasında heç bir nifaq, heç bir başqa şey olmamalıdır. Bəzi səbəblər var, məsələn, ona görə bizdə narazılıq törəyir, yaxud da Tehranda narazılıq törəyir. Ancaq bu səbəbləri də aradan götürmək olar. Əgər götürmək mümkün deyilsə, hər halda, bunu da qarşılıqlı anlaşma yolu ilə müəyyən bir məcraya salmaq olar. Amma strateji nöqteyi-nəzərdən Azərbaycanın dövlət siyasəti, Azərbaycan prezidenti kimi, mənim siyasətim bundan ibarətdir. Burada müxtəlif qüvvələrin, ayrı-ayrı şəxslərin, yaxud da siyasi qurumların və s. fikri Azərbaycan dövlətinin fikri deyildir.

Mənə bu gün bir məqalə verdilər. «Nezavisimaya qazeta»da bir erməni şayiələrlə dolu məqalə yazıbdır. Onu sənə verərlər, oxuyarsan, baxarsan. Təbiidir, bu müəllif nəyə xidmət edir. İran ilə Azərbaycanın arasını vurmağa xidmət edir. Doğrudur, o da istinad edir ki, guya Azərbaycanın «Zerkalo» qəzeti hansısa sorğu keçiribdir. Amma hesab etmirəm ki, «Zerkalo» qəzetinin də yazdığı hamısı düzdür. Bu qəzet o qədər səhvlər buraxır, o qədər yalanlar, olmayan şeylər yazır. Əgər bunlar – təkcə «Zerkalo» qəzeti deyil, başqaları da – öz dövləti, xalqı, ölkəsi haqqında yalanlar, böhtanlar yazırsa, onlar bizim əlaqələrimizi pozmaq üçün belə addımlar da atırlar. Amma bilmirəm, həqiqətənmi bu, «Zerkalo» qəzetindəndir, yaxud da erməni müəllif bunu özü uydurubdur və əsas kimi qələmə verir.

Yəni, bilirsiniz, bizim ölkələrimizin arasındakı əlaqələrin normal yolla və dostluq, mehribanlıq əlaqələri kimi inkişaf etməsinə qısqancluq edənlər çoxdur. Bu bizim ölkənin içərisində də var. Siz bunları beş ildə görmüsünüz. Başqa ölkələrdə də vardır. Bir çox qüvvələr istəmirlər ki, bizim ölkələrimizin əlaqələri daha da yaxın olsun, əməkdaşlığımız daha da geniş olsun, bir-birimizə çox dayaq olaq. Belə qüvvələr çoxdur.

Mən sizə deyə bilərəm ki, bəlkə də bunu elə Azərbaycana da, İrana da düşmən qüvvələr edir. Xüsusən İran – Azərbaycan əlaqələrini pozmağa çalışırlar. Bu barədə çox səylər göstərirlər. Həmin Moskva qəzetlərində çıxan o məqalələrin müəllifləri əksər hallarda ermənilərdir. Onlar, təbiidir ki, bu məqsədə xidmət edirlər. Ancaq mən bu gün bəyan edirəm ki, onlar heç bir şeyə nail ola bilməzlər, heç bir şey edə bilməzlər. Bizim İranla münasibətlərimiz dostluq münasibətidir, qardaşlıq münasibətidir, mehribanlıq münasibətidir.

Əgər sizin burada işlədiyiniz beş il müddətində bəzi məsələlər barəsində hər iki tərəfin istəyini, arzusunu yerinə yetirə bilməmişiksə, bu ondan irəli gəlmir ki, nə siz, nə də biz bunu yerinə yetirmək istəməmişik. Bu ondan irəli gəlir ki, buna müəyyən obyektiv səbəblər mane olubdur. İnanıram ki, biz bu səbəbləri getdikcə aradan qaldıracağıq. Bizim münasibətlərimiz inkişaf edəcək və mən İrana rəsmi səfərimi mütləq həyata keçirəcəyəm. Bilirsiniz, obyektiv səbəblərə görə bu bir az təxirə salındı. Mütləq həyata keçirəcəyəm. Güman edirəm ki, noyabr ayında Qətərdə İslam Konfransı Təşkilatının zirvə görüşü olacaqdır. Yəqin ki, İran prezidenti, hörmətli Xatəmi də orada olacaqdır. Biz orada da görüşüb söhbət edə biləcəyik və əlaqələrimizin inkişaf etdirilməsi üçün biz çox yeni-yeni addımlar atacağıq.

**Əlirza Bikdeli:** Cənab Prezident, təşəkkür edirəm. Mən Sizin dəyərli sözlərinizlə tamamilə razıyam. Çox şadam, artıq bizim xalqlarımız Sizin dilinizdən eşidir ki, əlaqələrimizi pozanlar, istəməyənlər çoxdurlar. Hesab edirəm, xalqlarımız bu dəyərli sözlərə söykənərək gərək hər bir münasibətə, əlaqələrimizin əleyhinə çalışanlara fikir versinlər ki, onlar kimlərdir və bunun arxasında nə məqsəd durur.

İranın xarici siyasətində münasibətləri tənzimləyən iki prinsip vardır. Birincisi, qonşu ölkələrlə yaxın əlaqə saxlamaq, ikincisi, islam ölkələri ilə yaxın əlaqə saxlamaqdır. Azərbaycan Cümhuriyyəti bizim üçün həm qonşu, həm də müsəlman ölkəsidir. Ona görə gərək biz Azərbaycanla münasibəti daha sıx saxlayaq. İran – Azərbaycan əlaqələri gərək MDB ölkələri çərçivəsində nümunə xarakteri daşısın. Bəlkə də əlaqələrimizin düşmənlərinin, bunu istəməyənlərin səyi elə bu nöqtədən başlayır. Bilirlər ki, həm Sizin, həm də bizim tərəfdən bu məqsədə doğru hərəkət vardır və onlar bu hərəkətin qarşısında dururlar. Çünki bilirlər ki, əgər Azərbaycan Cümhuriyyətinin İran İslam Cümhuriyyəti ilə əlaqələri genişlənsə və əksinə, İran İslam Cümhuriyyətinin Azərbaycan ilə əlaqələri genişlənsə, onların mənafeləri bu ölkələr arasında heç olmasa, bir faiz bölünəcəkdir. Ona görə də istəyirlər ki, bütün payı özləri götürsünlər.

Biz bunu dəfələrlə demişik. Siz, cənab Heydər Əliyev də bunu dəfələrlə qeyd etmisiniz. Siz indi də buyurdunuz və bu mənim üçün çox dəyərli analizdir. Mən həqiqətən bunu yüksək qiymətləndirirəm.

İstərdim ki, beş il ərzində iki ölkənin əlaqələrində müvəffəqiyyətlərə nail olmuş sahələri xatirinizə çatdırım. Əlbəttə, Siz hər şeydən xəbərdarsınız. Bu əlaqələrin memarı kimi Siz özünüz işləmisiniz. Həmişə demişəm ki, İran ilə Azərbaycan Cümhuriyyətinin bir hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında olan münasibəti elə edə bilək ki, bundan nümunə götürsünlər. Bu Sizin əldə etdiyiniz nailiyyətdir.

Beş il ərzində mənə tapşırılan vəzifəni müvəffəqiyyətlə həyata keçirmişik. Birincisi, xalqlarımızın əlaqələrini asanlaşdırmaq idi.

Allaha şükür olsun ki, bu əlaqələr ilbəil asanlaşıb və bizim xalqlarımız çox gözəl təmasdadırlar, bir ölkədən digərinə rahat gedib-gəlirlər. Artıq onlar hər şeyi görürlər, başa düşürlər, gedən əks-təbliğat düzgün deyildir, vəziyyət başqa cürdür. İndi ildə bir milyondan çox camaatımız qarşılıqlı səfər edir. Eşidənlərin çoxu buna inanmır. Bunun üçün getmək və görmək lazımdır.

Mən keçən həftə Naxçıvan Muxtar Respublikası ilə vidalaşmaq üçün oraya getdim. Cənab Vasif Talıbov ilə görüşdüm. Sağ olsunlar, bizi çox səmimiyyətlə qəbul etdilər. Sonra Culfaya getdim. Orada həm o tayda, həm bu tayda olan gömrük işçiləri ilə görüşdüm. Mənə deyirlər ki, camaat o qədər gedib-gəlir ki, onlara cavab verməyə gücümüz çatmır. Xahiş edirlər ki, İran məmurlarının sayını artırmaq barədə təklifi mən İran prezidenti cənab Xatəmiyə çatdırım. Onların xahişi bundan ibarətdir. Orada hər şey şəffaf, normal şəkildədir. Dediyim budur ki, əgər Culfada bu şəraiti yarada biliriksə, nə üçün Biləsuvarda, Astarada belə vəziyyət olmasın? İnşallah, bunları etməliyik. İndi gediş-gəliş çox asanlaşıb və bu, müsbət haldır. Mən sevinirəm ki, birinci vəzifə kimi bunu yerinə yetirmişəm.

Azərbaycanda İran səfirliyinin qarşısına iqtisadiyyat sahəsində mühüm vəzifə qoymuşdular. Bu illərdə ticarət bir az aşağıya düşsə də, kapital qoyuluşu artıbdır. Yəni əlaqələrimiz bir az sıxlaşıb və dərinləşibdir. Keçən ilin statistikası göstərir ki, istər İrandan, istərsə də başqa ölkələrdən gələn iranlılar Azərbaycana 600 milyon dollar sərmayə qoymuşlar. Bu, neftdən kənar sahələrə yönəldilibdir.

Neft sahəsində İranın «OİEK» şirkəti çalışır, o da sərmayə qoyur.

Gələn sərmayələr dərman, maşınqayırma, mebel, yol, tikinti və digər sahələrə qoyulmuşdur. Sizin himayəniz altında bizim tacirlərimiz burada çalışırlar. Həqiqətən, Sizin qayğınız, İran tacirlərinə göstərilən səmimiyyət onları cəlb edir. Bizim yaxşı tacirlərimiz yavaş-yavaş Azərbaycana gəlirlər.

Biz mədəniyyət sahəsində üstünlüyü alimlərimiz arasında olan əlaqəyə vermişik və buna da nail olmuşuq. Hər il Azərbaycandan İrana və İrandan Azərbaycana dəstə-dəstə alimlər gəlirlər, gedirlər.

Azərbaycanda böyük elmi potensial vardır. Bu yalnız Azərbaycanın deyil, bütün islam dünyasının, Şərq ölkələrinin sərvətidir. Gərək biz bundan istifadə edək. Çalışmışıq ki, Sizin ölkənizdə olan bu gözəl sərvətdən istifadə edək və Sizin alimləriniz buna zəmanət verə bilərlər.

Bizim üzərimizə düşən, bizə tapşırılan vəzifələrdən biri də İran ilə Naxçıvan arasında Sizin tərəfinizdən təməli qoyulmuş əlaqələri davam və inkişaf etdirmək idi. Allah-təalaya şükür edirik ki, bu sahədə də gözəl işlər görmüşük. Keçən həftə cənab Vasif Talıbov dedi ki, İran ilə nə imzalamışıqsa, hamısını həyata keçirmişik.

Artıq yeni sahələr axtarırıq. İndi Şərqi Azərbaycan ostandarı Culfa – Naxçıvan arasında yeni yol çəkir. Orada yol bərbad vəziyyətdə idi. Sağ olsunlar, əməkdaşlıq edirlər, onu çəkirlər və başqa sahələrdə də yaxşı işlər görürlər. Biz gərək bütün sahələrdə əlaqələrimizi bu səviyyəyə çatdıraq.

Konsulluq sahəsində də işlər görülmüşdür. Keçən illər ərzində çox mühüm əhəmiyyət daşıyan üç əsas müqavilə imzalanmışdır. Məhkumların təhvil verilməsi, hüquqi yardım haqqında və cinayətkarların mübadiləsinə dair imzalanmış müqavilələr qanun kimi həyata keçirilir və İran ilə Azərbaycanın konsulluq əlaqələrini tənzimləyir.

Cənab Prezident, Siz qeyd etdiniz, baxmayaraq ki, səkkiz ildə çox işlər görülüb, ancaq hələ görüləsi işlər də çoxdur. Bu illərdə bir neçə arzum var idi. Onların hamısına nail olmamışam. Birincisi bu idi ki, səfir kimi Sizinlə İrana rəsmi səfərə gedim. Bu mənə nəsib olmadı.

**Heydər Əliyev:** İrana getmişik.

**Əlirza Bikdeli:** Getmişik, ancaq rəsmi səfər olmayıbdır.

**Heydər Əliyev:** İndi mən oraya gələndə siz məni idarə rəisi kimi qarşılayacaqsınız.

**Əlirza Bikdeli:** Bəli, inşallah. Bizim hörmətli yeni səfirimiz ağayi Əhəd Qəzayini Siz yaxşı tanıyırsınız. İranda nüfuzlu bir şəxsiyyətdir və onu azərbaycanşünas kimi tanıyırlar. Bu, inşallah, ona qismət olacaqdır. Biz onunla danışanda dedi ki, Allah-təala Sizinlə İrana getməyi onun adına yazıbdır.

Bundan başqa, ölkələrimiz arasında viza məsələsinin aradan götürülməsi mənim arzum olubdur. Camaat da bunu çox tələb edir. Bunun razılığını ağayi prezident Xatəmidən və cənab Xərrazidən almışam. Arzu edirik ki, yaxın gələcəkdə Sizin tərəfinizdən buna müsbət cavab verilsin. Gərək elə olsun ki, insanlar sərhəddən sərbəst, rahat gedib-gəlsinlər. Bu, İran və Azərbaycan xalqlarının istəyidir.

Nəhayət, həqiqətən Azərbaycan xalqına hörmətimi və minnətdarlığımı bildirməliyəm. Mən ilk dəfə 1986-cı ildə Moskvadan Azərbaycana gəlmişəm. O zaman Azərbaycana gələrkən gördüklərimə inanmırdım. Çünki İranda deyirdilər ki, hamı kommunistdir, yəni Allahı tanımırlar, məzhəbləri, dinləri yoxdur. Bunu da heç kəs təkzib etmirdi. Hətta şura hökuməti bunu dəstəkləyirdi.

Mən Moskvada olan zaman orada bazarda olanlara deyirdim ki, əgər siz müsəlmansınızsa, məhərrəmlikdə haraya gedirsiniz? Deyirdilər ki, Bakıya gedirik. Soruşurdum ki, orada mərasim keçirilir? Deyirdilər, bəli. Soruşurdum ki, bəs kommunistlər mane olmurlar? Deyirdilər ki, mane olurlar, ancaq buna baxmayaraq biz keçiririk.

Sonra mən 1986-cı ildə Bakıya gəldim. İnanın ki, o səfər zamanı Azərbaycanda gördüklərim barədə öz hökumətimə göndərilən raport mənim Azərbaycana səfir təyin olunmağıma kömək etmişdi. Azərbaycan xalqı həmin vaxtdan mənə məhəbbət göstəribdir.

Mən o zaman bir dəfə qatarla İrana səfərə çıxdım. Bilirsiniz ki, qatar Naxçıvandan Culfa vasitəsilə İrana gedirdi. Mən Culfaya çatanda saat altı idi. Dedilər ki, İran tərəfi körpünü bağlayıbdır və Culfada qalmalı oldum. Yanımda xanımım və iki qızım da var idi. Bir sürücü xahiş etdi ki, gedək bizdə qalaq. Mən isə onu tanımırdım. Çox yalvarandan sonra biz onun evinə getdik. Bizi çox hörmətlə qarşıladılar. O gecə hamını dəvət etdi, bizə qoyun kəsdilər. Həmin vaxt Moskvada İran səfirinin müavini idim. Amma o məni tanımırdı.

Demək istəyirəm ki, mən bunu heç vaxt unutmuram. Arzum idi ki, səfir işlədiyim vaxt o adamı tanıyım. Ancaq onu tanıya bilmədim. Yəni o, tanımaya-tanımaya mənə hörmət edibdir. Bu xalq həmişə belə olubdur.

Beş il ərzində burada bizə güldən ağır bir söz deməyiblər.

Məsələn, biz qardaşlarımız, bacılarımız demişik, onlar da bizə cavab olaraq can, qardaş deyiblər. Xanımlarımıza bacı deyiblər. Artıq elə bir səmimiyyət var ki, bu heç vaxt qəlbimizdən, başımızdan çıxmaz.

Xalqlar, mədəniyyətlər asimandır, siyasət buluddur. Siyasət gəlib gedir. Amma xalq öz yerində qalır. Gərək biz xalqları nəzərə alaq.

Mən təşəkkür edirəm ki, bu xalqın nümayəndəsi kimi, Sizin İrana məhəbbətiniz səmimi olubdur. Heç vaxt heç kəs deyə bilməz ki, cənab prezident Heydər Əliyev İran – Azərbaycan əlaqələrinə aid mənfi bir söz deyibdir. Buna əsas yoxdur. İnşallah, bundan sonra da həm prezident Xatəminin, həm də Sizin rəhbərliyiniz nəticəsində əlaqələrin daha da möhkəmləndirilməsinə nail olacağıq. Artıq bu sahədə zaman da öz rolunu oynayır və camaatımız başa düşür ki, biz bir-birimizə söykənməliyik, bir-birimizdən enerji və güc almalıyıq. Əgər İran Azərbaycanla, Azərbaycan İranla bir yerdə olsa, deyə bilərəm ki, heç kəs nə Sizə, nə də bizə təcavüz edə bilər. Təşəkkür edirəm.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Mən də sizə həm bizim ölkələrimizin, xalqlarımızın arasındakı əlaqələrə dair, həm də sizin burada səfirlik fəaliyyətinizin həyata keçirilməsi ilə əlaqədar dediyiniz xoş sözlərə görə təşəkkür edirəm. Mən əvvəl də dedim, bunlar hamısı təbiidir.

Belə də olmalıdır və bundan sonra da belə olacaqdır.

Hesab edirəm ki, siz beş il müddətində İran – Azərbaycan əlaqələrinin genişlənməsində, inkişaf etməsində çox işlər görmüsünüz. Bunu sizin ölkəniz də yüksək qiymətləndirir, biz də yüksək qiymətləndiririk.

Görülən işlərə görə, xidmətlərinizə görə sizə təşəkkür edirəm.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bundan sonra da İran – Azərbaycan əlaqələrinin inkişaf etməsi üçün öz səylərinizi qoyacaqsınız. Yenə də deyirəm, bəlkə də bu sahədə siz İranda Azərbaycanın nümayəndəsi olacaqsınız. Çünki sizin qədər orada, Tehranda Azərbaycanın bugünkü reallığını öz gözü ilə görən, özü hiss edən adam yoxdur. Kitablardan, televiziyadan, radiodan və s. çox şey bilmək olar. Amma insan özü yaşayanda, özü hiss edəndə, özü görəndə, özü bu dövrü yaşayanda onun təəssüratları tamamilə başqa cür olur.

Deyə bilərəm ki, əksər hallarda doğru, düzgün, obyektiv olur. Bu baxımdan hesab edirəm ki, biz bundan sonra da əməkdaşlıq edəcəyik.

İndiyə qədər gördüyünüz işlərə görə bir daha təşəkkür edirəm.

**Ə l i r z a  B i k d e l i:** Cənab Prezident, mən bu barədə Sizə söz verirəm.

## RUSİYA FEDERASİYASININ ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ NİKOLAY RYABOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*24 oktyabr 2000-ci il*

**N i k o l a y R y a b o v:** Cənab Prezident, Sizinlə görüşmək imkanına görə təşəkkür edirəm.

Mənim üçün xoş olan bir sıra tapşırıqları yerinə yetirməkdən – Xarici İşlər nazirinizin Rusiya Federasiyasına səfərinin yekunları barədə Rusiya tərəfinin rəyi haqqında Sizə məlumat verməkdən və Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin buraya, Sizin ölkənizə səfəri ilə bağlı bəzi məsələləri müzakirə etməkdən ötrü qiymətli vaxtınızı almağı özümə rəva gördüm.

Hər şeydən öncə Vladimir Vladimiroviç Putinin təşəkkür teleqramını Sizə çatdırmaq istəyirəm, icazə verin onu oxuyum:

*«Hörmətli Heydər Əliyeviç! Ad günüm münasibətilə göndərdiyiniz teleqrama görə ürəkdən təşəkkür edirəm. Sizin belə bir inamınıza şərikəm ki, ölkələrimiz və xalqlarımız arasında dostluq, əməkdaşlıq və qarşılıqlı anlaşma Qafqazda sülh, sabitlik və təhlükəsizlik işinə bundan sonra da kömək edəcəkdir. Hörmətli Heydər Əliyeviç, Azərbaycan Respublikasına səfərə gəlmək barədə dəvətinizə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Qonaqpərvər Azərbaycan torpağında Sizinlə tezliklə görüşəcəyimə ümid bəsləyirəm.*

*Hörmətlə,*

*Vladimir Putin*

*Moskva, Kreml,*
*17 oktyabr 2000-ci il»*

Bu, Sizə yetirmək istədiyimin birincisidir. İkincisi, Rusiyanın birinci prezidentinin özünün qısa avtoqraf yazılmış xatirələr kitabını Azərbaycan Respublikasının böyük prezidentinə təqdim etmək xahişidir: *«Demokratik MDB uğrunda birgə mübarizəmiz barədə Heydər Əliyeviçə müəllifdən yadigar.*

*16 oktyabr 2000-ci il. Boris Yeltsin».*

Baxın, kitabın 191-ci səhifəsində Sizin haqqınızda çox səmimi sözlər deyilmişdir.

**H e y d ə r Ə l i y e v:** Vladimir Vladimiroviç Putinin məktubuna görə də, Boris Nikolayeviç Yeltsinin kitabına görə də çox sağ olun. Əlbəttə, belə bir kitabın çıxdığını bilirdim, ancaq bu kitabı onun öz şəxsi avtoqrafı ilə almaq mənim üçün çox xoşdur. Biz bir çox illər – keçmiş vaxtlarda, Sovetlər İttifaqı dövründə də, 1993-cü ildən başlayaraq müstəqil dövlətlər kimi əməkdaşlıq etdiyimiz vaxtlarda da birgə işləmişik.

**N i k o l a y R y a b o v:** Çox mürəkkəb və çətin dövr idi, lakin o, kitabında prezident vəzifəsində Sizin səylərinizə və fəaliyyətinizə yüksək qiymət verir.

Hörmətli cənab Prezident, hər şeydən öncə, Xarici İşlər nazirinizin Moskvaya səfərini mümkün bildiyinizə görə Sizə təşəkkür etmək istərdim. Rusiya tərəfi, ilk öncə Rusiya prezidenti Putinin buraya səfərinə hazırlıq baxımından, bunu çox vaxtında həyata keçirilmiş və faydalı səfər sayır. Siz bilirsiniz ki, Qafqaz regionu və ölkələrimizin beynəlxalq aləmdə qarşılıqlı fəaliyyəti çərçivəsində ikitərəfli, çoxtərəfli münasibətlərlə bağlı bir çox məsələlər müzakirə olunmuşdur. Əgər bu səfərin ümumi nəticəsindən danışsaq, onu səmimilik, açıqlıq, hər cür anlaşılmazlıqların aradan qaldırılması, nəzakət leytmotivi səciyyələndirir. Mən bu görüşlərdə, danışıqlarda iştirak edirdim, oraya mən də getmişdim və bunu real şəkildə duyurdum.

Hesab edirəm ki, bu yaxşı əlamətdir və zənnimcə, o, münasibətlərimizdə ənənəvi olaraq möhkəmlənəcəkdir. Şübhəsiz, Qarabağ problemindən başlamış iqtisadi əməkdaşlıq məsələlərinə qədər çox mühüm məsələlər müzakirə olunmuşdur. Mən, hər şeydən öncə, konkret söhbətə keçməzdən əvvəl demək istərdim ki, Vilayət Quliyev Xarici İşlər Nazirliyində də, parlamentin yuxarı palatasında da, aşağı palatasında da, hökumətdə də görüşlər keçirdi, Moskva meriyasında Lujkovla da görüşdü. Heydər Əliyeviç, bilirsinizmi, mən Rusiya – Azərbaycan münasibətlərində təzə adamam, mən heyran qalmışdım, sadəcə olaraq, özüm üçün qeydlər edirdim. Parlamentimizin yuxarı palatasının sədri Yeqor Semyonoviç Stroyevlə görüş zamanı o, hər şeydən öncə, Sizə özünün salamını və ən dərin ehtiramını yetirməyi məndən xahiş etdi. Mən onun sözlərini yazdım: «*Heydər Əliyeviçin müdrik siyasəti şərəfinə! Heydər Əliyeviçin xidməti bundadır ki, o, müharibəni dayandırdı və heçliyə aparan yolu bağladı, minlərlə gəncin həyatını xilas etdi və vəziyyəti – Qarabağ probleminə dair vəziyyət nəzərdə tutulur – çətin və uzun sürən siyasi dialoqa, sülhə yönəltdi. Bunu hamı dərhal hiss etdi*». Bunlar

Stroyevin sözləridir: «*O vaxt Heydər Əliyeviç dedi ki, biz gələcək nəsillər haqqında düşünməliyik. Yəni, müharibənin dayandırılması üçün səylər göstərilməsi nəzərdə tutulur. Mən Naxçıvana, ona zəng etdim*». Mən bunu bilmirdim. O bir qədər fikirləşib dedi: «*Yadımdadır, o, Qorbaçovun onu təqsirləndirməsinə imkan vermədi. O çox müdrik və güclü insandır və indi də belə olaraq qalır. Məndən ona salam yetir. Mən Azərbaycan prezidentinə dərin hörmət bəslədiyimi bir daha bildirirəm*». Bunlar bizim parlamentin yuxarı palatası sədrinin sözləridir və mən onları Sizə çatdırdım.

**H e y d ə r  Ə l i y e v**: Təşəkkür edirəm. O çox gözəl insandır. Biz bir-birimizi hələ Sovetlər İttifaqı dövründən yaxşı tanıyırıq. O, Vilayət Partiya Komitəsinin, sonra isə Sov.İKP MK-nın katibi olmuşdur. O vaxtlar mən Siyasi Büronun üzvü idim. Budur, o, Qorbaçovun Sov.İKP MK-nın 110 üzvünü, o cümlədən Siyasi Büronun bir çox üzvlərini, məsələn, Qromıkonu, Tixonovu, məni və başqalarını birdəfəyə oradan çıxardığını xatırlayır. O vaxt bəziləri bir çox illər birgə işlədiklərinə görə təşəkkür etdilər, mən isə Qorbaçova tutarlı sözlər dedim və bildirdim ki, vaxt gələcək, siz hər şeyə görə cavab verəcəksiniz. Stroyev bunu xatırlayır. Bunu o mənə ilk görüşümüz zamanı söyləmişdi. Ümumiyyətlə, deməliyəm ki, o, Rusiyanın ən müdrik adamlarından biridir, ən müdriklərindən biridir. O öz vilayətində olduqca böyük nüfuza malikdir, vilayət Partiya Komitəsinin birinci katibi, sonralar dəfələrlə seçildiyi qubernator kimi işlədiyi dövrdə də belə nüfuza malik olmuşdur. O, təkcə Federasiya Şurasında deyil, həm də Rusiya Federasiyasının rəhbərliyini sıx birləşdirmək üçün böyük iş görür. Mən ona təşəkkür edirəm, mənim salamımı və ən xoş arzularımı ona yetirin.

**N i k o l a y  R y a b o v:** Yuri Mixayloviç Lujkov məni təəccübləndirdi. Mən onu yaxşı tanıyıram və o məni özünün dostu adlandırır. O, ilk növbədə Sizin haqqınızda, özü də mübaliğəsiz, eyhamlarsız danışdı, dedi: «Mən münasibətlərimizin inkişafı üçün hər şeyi edəcəyəm, lakin hər şeydən əvvəl ona görə ki, Azərbaycanda Heydər Əliyeviç Əliyev var. O, böyük və müdrik insandır. Mən MDB-nin digər dövlət başçılarının xətrinə dəymək istəmirəm. Amma o çox böyük dövlət intellektinə malik insandır, təbiətin yüksək ilhamlı dövlət təfəkkürlü kompüterdir – bağışlayın, bu onun sözüdür. Bilirsinizmi, Rusiyanın Azərbaycandakı səfiri kimi, fəaliyyət göstərəcəyim ölkənin rəhbəri haqqında bu cür sözlər eşitmək mənim üçün necə xoşdur. Bu, təminat verir ki, bizim münasibətlərimizdə Moskva fəal iştirak edəcəkdir. Lujkov Sizin həmkarlarınızın xahişinə cavab olaraq, elə mənim yanımda mədəniyyət mərkəzi üçün Moskvada torpaq ayrılmasına razılıq verdi. Orada teatr, restoran, kitabxana, sərgi salonu da olacaqdır. Bu gözəldir.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Biz Yuri Mixayloviçlə də bir-birimizi çoxdan tanıyırıq. Mən onun Sovetlər İttifaqı dövründəki dövlət və təsərrüfat fəaliyyətini həmişə qiymətləndirmişəm. O, Moskvanın meri olduqdan sonra isə şəhərin simasını dəyişdirmişdir. Onun nə qədər ağıllı, bacarıqlı insan olduğunu təsəvvür etmək, sadəcə, çətindir. O dövrün adamı olsa da, müasir şəraitdə özündə cəsarət taparaq, Moskva şəhərinin potensialından istifadə etdi və uğurlar qazandı. O burada olubdur, biz onunla Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirdik, mən Moskvada ona tez-tez baş çəkirəm. Odur ki, mənim salamımı, ən xoş arzularımı yetirə bilərsiniz, o, Azərbaycanda həmişə əziz qonaqdır.

Azərbaycan – Rusiya münasibətlərini məhz belə adamlar möhkəmləndirir.

**N i k o l a y  R y a b o v:** Biz Moskvadan olan qonaqları burada gördük.

Onun birinci müavini Bakı ilə Moskva arasında əlaqələri inkişaf etdirmək və möhkəmlətmək üçün buraya gəlmişdi. Dedi, Heydər Əliyeviçə çatdırın ki, mənim limanlarım Azərbaycandan gətirilən yüklərin nəqli üçün açıqdır, biz 5 min tonadək yük götürən gəmiləri günü bu gün qəbul etməyə hazırıq. Moskva gəmiləri özü üçün də, yükləri daha uzağa daşımaq üçün də qəbul etməyə hazırdır.

İcazə versəydiniz, prezidentimizin səfəri ilə bağlı bəzi məsələlərə keçərdim və eyni zamanda Xarici İşlər nazirinin görüşlərində qaldırılmış məsələlərə toxunardım.

**GÜRCÜSTANIN MARNEULİ RAYONUNUN**
**KƏPƏNƏKÇİ KƏNDİNƏ**

Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, respublikanın Əməkdar mədəniyyət işçisi aşıq Kamandarın vəfat etməsi xəbəri məni ürəkdən kədərləndirdi.

Bu itki münasibətilə Azərbaycan xalqına, Gürcüstanda yaşayan soydaşlarımıza, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 oktyabr 2000-ci il*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*27 oktyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Mənə verilən məlumatlara görə, siz bir neçə gündür buradasınız. Təbiidir ki, biz buna çox müsbət münasibət bəsləyirik. Çünki gənc, müstəqil dövlət kimi Azərbaycan həmişə çalışır ki, öz ölkəsini tanıtsın. Bu da böyük və uzun sürən bir prosesdir. Hansısa bir ölkə öz müstəqilliyini əldə edəndən sonra elə düşünməlidir ki, müstəqilliyini elan etdisə, onu bütün dünyada tanıya bilərlər. Biz belə düşünmürük.

Azərbaycan öz dövlət müstəqilliyini 9 ildir ki, elan edibdir. Deyə bilərəm, biz bu illərdə çox işlər görmüşük ki, Azərbaycan Dünya Birliyində layiqli yer tutsun, ölkəmizi, onun həm tarixi keçmişini, həm müasir həyatını, həm zəngin mədəniyyətini, elmini, həm də yeni demokratik dövlət quruculuğu prosesini olduğu kimi tanısınlar.

Azərbaycanın prezidenti kimi mən hər bir qonağın ölkəmizə gəlməsinə sevinirəm. Doğrudur, bəzi qonaqlar gəlib Azərbaycanda yalnız mənfi şeyləri görürlər, müsbət işləri görmək istəmirlər. Çalışırlar ki, mənsub olduqları ictimaiyyətdə Azərbaycan haqqında mənfi fikir yaratsınlar. Ancaq onlar azlıq təşkil edir.

Hər bir ölkədə mənfi cəhət vardır. Kim desə yoxdur, bu yəqin ki, ədalətli olmaz. Amma həmişə ölçmək lazımdır ki, nə qədər mənfi, nə qədər müsbət var. Mən qərəzli fikirli insanların Azərbaycana gəlməsinə də heç vaxt etiraz etməmişəm. Təbiidir, Azərbaycana gələn qonaqların əksəriyyəti ölkəmiz haqqında ədalətli təəssüratlar toplayırlar, bu da ölkəmizi daha yaxşı tanımağa imkanlar yaradır.

Sizin bu ziyarətiniz adi, turist ziyarəti deyildir. Sizin bu ziyarətiniz bizim üçün çox əhəmiyyətlidir və siyasi xarakter daşıyır. Ona görə də mən sizin bu ziyarətinizi başqa ziyarətlərlə müqayisə etmək fikrində deyiləm.

Azərbaycan demokratik dövlət qurur, demokratik təsisatları təmin etməyə çalışır. Bu bizim tutduğumuz yoldur. Bizi bu yolu tutmağa heç kəs məcbur etməyibdir. Biz vaxtilə sovet hakimiyyəti dövründə yaşamışıq. O vaxt xalqdan soruşmayıblar ki, siz bu sistemi istəyirsiniz, yoxsa yox, 1917-ci ildə oktyabr inqilabı baş verib, bolşeviklər qalib gəliblər. Onlar keçmiş rus imperiyasının yerində yeni bir dövlət qurublar. Doğrudur, onlarla mübarizə aparanlar çox olubdur. Ancaq mübarizə aparanlar məğlub olublar, sistem qalib gəlibdir. Biz də bu sistemin içərisində dünyaya gəlmiş, yaşamış insanlarıq.

O vaxt bizim seçimimiz yox idi, həmin sistem nə idisə, biz də onun içində yaşayırdıq və ona öyrənmişdik. Biz başqa sistemlərə, aparılan təbliğatlara da o qədər müsbət münasibət göstərmirdik. Ancaq hamımızı narahat edən o idi ki, biz müstəqil millət, müstəqil dövlət deyildik. Təbiidir ki, müstəqillik əldə edəndən sonra biz keçmiş sistemdən imtina etdik. Hansı yolla getməliyik? Dünyada müxtəlif yollar var. Amma biz demokratiya yolunu seçdik. Bu yol asan yol deyildir. Özünü demokratik ölkə elan edib düşünmək olmaz ki, artıq bu ölkədə demokratiya tətbiq edildi və hər yerdə yayıldı.

Hər bir ictimai-siyasi proses, o cümlədən demokratik prinsiplər heç də asan həyata keçirilmir. Biz bir tərəfdən bunu öyrənirik. Çünki bu bizim üçün o qədər də yaxın, tanış bir sistem deyildir. İkinci tərəfdən, biz bunu tətbiq edirik. Tətbiq etmək isə tədrici xarakter daşıyır, bu birdən-birə ola bilməz. Belə olsa, qeyri-təbii alınar. Ancaq bu yolda bizim nailiyyətlərimiz vardır. Biz bu yolla gedərək indi yeni bir mərhələyə, parlament seçkilərinə gəlib çatmışıq.

Müstəqil dövlət kimi Azərbaycan birinci demokratik parlament seçkilərini 1995-ci ildə keçirdi. Biz ilk müstəqil, demokratik Konstitusiyamızı yaratdıq və ötən beş ildə bütün demokratik prinsipləri tətbiq edirik. Azərbaycanda hakimiyyətin bütün qanadları öz yerini tapıbdır. Ölkəmizin Milli Məclisi bu beş ildə 900-ə qədər qanun qəbul edibdir. Onların böyük bir hissəsi Azərbaycan prezidentinin təşəbbüsü ilə qəbul olunubdur.

Təbiidir ki, biz keçmişdə sovet qanunları ilə yaşayırdıq. Yeni qanunların, demokratik prinsiplərə söykənən qanunların qəbul edilməsi əsas şərtlərdən biridir. Biz bu sahədə çox iş görmüşük.

Qanunu qəbul etmək dünya təcrübəsi, bilik, zəka tələb edir. Amma bu o qədər çətin deyildir. Ancaq qanunu yerinə yetirmək ondan çox-çox çətindir. Eləcə də Azərbaycanın müstəqilliyinin elan edilməsi çətinliklə başa gəlməyibdir. Sovetlər İttifaqı dağıldı, onun tərkibində olan 15 müttəfiq respublikanın hər biri bu fürsətdən istifadə edib öz müstəqilliyini elan etdi. Burada birinci nümunəni Rusiya göstərdi. Sovetlər İttifaqının əsasını Rusiya təşkil edirdi. Sovetlər İttifaqı Rusiyanın əlində idi. Ona görə də Sovetlər İttifaqına imperiya deyəndə, Rusiya imperiyası nəzərdə tutulurdu. Amma Rusiya bütün müttəfiq respublikalardan əvvəl öz müstəqilliyini, suverenliyini elan etdi. Beləliklə də, başqa respublikalara, millətlərə yol açdı.

Bir daha qeyd etmək istəyirəm ki, müstəqillik o qədər də çətinliklə başa gəlməyibdir. Amma müstəqilliyi saxlamaq, qorumaq və müstəqil dövləti inkişaf etdirmək, təbiidir ki, onu əldə etməkdən çox çətindir. Hesab edirik ki, biz bu sahədə çox iş görmüşük, gələcəkdə daha da çox iş görmək üçün əsas yaratmışıq.

Biz müstəqillik dövründə ikinci parlament seçkilərinə hazırlaşırıq. Mən belə anlayıram ki, sizin də buraya gəlişinizin məqsədi Azərbaycanda seçkiqabağı vəziyyəti öyrənməkdən ibarətdir. Sizə təşəkkür edirəm ki, zəhmət çəkib buraya gəlmisiniz, bizim ölkəmizi görürsünüz. Güman edirəm, necə var, elə görürsünüz. Hesab edirəm ki, sizin bu təəssüratlarınız və eyni zamanda, burada olduğunuz zaman verdiyiniz tövsiyələr, məsləhətlər, təcrübəniz noyabrın 5-də olacaq parlament seçkilərinin uğurla keçirilməsinə kömək edəcəkdir. Mən sizi bir daha salamlayıram.

**D a d l i   S m i t** (*Böyük Britaniya, Avropa Şurası Parlament Assambleyası nümayəndə heyətinin başçısı*): Cənab Prezident, hər şeydən öncə icazə verin, qiymətli vaxtınızı ayırıb bizi qəbul etdiyiniz üçün Sizə təşəkkürümü bildirim. Bilirəm ki, dövlət başçısı kimi Sizin iş cədvəliniz çox gərgindir və bu günlər Sizi görmək istəyənlərin sayı da yəqin ki, həddindən çoxdur.

Mən bu yaxınlarda oteldə bir köhnə tanışımla rastlaşdım. Biz görüşən kimi o məndən soruşdu ki, burada nə edirsiniz? Mən ona cavab verdim ki, Azərbaycana səfərə gəlmişəm. Dedim, bəs siz nə edirsiniz? Bildirdi ki, mən prezidenti görmək istəyirəm. Ona dedim ki, sabah biz prezidentlə görüşəcəyik.

Cənab Prezident, doğru buyurdunuz, ölkənizi ziyarət etməkdə bizim iki əsas məqsədimiz var. Birincisi, biz – bu nümayəndə heyətinin üzvləri Avropa Şurasının fəxri üzvləriyik. Biz Azərbaycanın Avropa Şurasına qəbul olunması üçün tövsiyə vermək və Sizi bu işə daha da ruhlandırmaq məqsədi ilə ölkənizə gəlmişik.

Səfərimizin ikinci məqsədi isə, Azərbaycanın Mərkəzi Seçki Komissiyası ilə sıx təmaslar qurmaqdan ibarətdir. Məmnuniyyətlə bildirmək istəyirəm ki, biz onlarla olduqca yaxşı, gözəl əməkdaşlıq münasibətləri qurmağa nail olmuşuq. Ümidvarıq ki, görüşlərimiz və söhbətlərimiz zamanı verdiyimiz tövsiyələr qarşıdan gələn parlament seçkilərinin müvəffəqiyyətlə keçirilməsi işində onlara yardımçı olacaqdır.

Cənab Prezident, beş həftə bundan öncə biz Sizin ölkənizdə olmuşduq. O zaman Sizinlə görüşmək arzusunda idik. Amma biz Bakıda olarkən Siz səfərdə idiniz və Amerika prezidenti cənab Bill Klinton ilə görüşürdünüz. Görürsünüz, biz yenidən qayıtmışıq, məmnunuq ki, budəfəki səfərimiz zamanı Sizinlə görüşmək imkanı yaranıbdır. Bildirmək istəyirəm ki, indi biz vətənimizə yola düşmək ərəfəsində olsaq da, noyabrın 5-nə çox az qalmış yenidən Azərbaycana qayıdacağıq və seçkilərdə müşahidəçi kimi iştirak edəcəyik.

Yüz illərlə öncə öz müstəqilliyini qazanmış azad, suveren şəkildə yaşamış ölkələrin təmsilçiləri kimi bizə bəzən anlamaq çətin idi ki, totalitar rejimdən yaxa qurtarmış, azadlığını əldə etmiş bir ölkə öz həyatını necə qurur və hansı işləri görür. Totalitarizm şəraitində yaşamamış və belə bir təcrübəyə malik olmayan ölkələrin təmsilçiləri üçün burada nailiyyətləri, müvəffəqiyyətləri əldə etməyin və işləri başa çatdırmağın nə qədər çətin olduğunu anlamaq bəzən asan olmur.

Biz – ömrünü siyasətlə, dövlət işləri ilə məşğul olmağa həsr etmiş insanlar yaxşı anlayırıq ki, demokratiyaya gedən yol asan deyildir. Bu yol tufanlı, boranlı yollardır və burada çox böyük çətinliklər meydana çıxır.

Onu da bildirmək istəyirəm ki, əgər biz ölkənizin indi qarşılaşdığı obyektiv çətinlikləri nəzərə almasaq, Azərbaycanı dünyanın inkişaf etmiş dövlətləri ilə müqayisə etməyə cəhd göstərsək, yanılmış olarıq. Bəyan etmək istəyirəm ki, biz müstəqillik qazandıqdan sonra Azərbaycanın əldə etdiyi nailiyyətləri, müvəffəqiyyətləri görməkdən çox məmnun olmuşuq, ruhlanmışıq. Ölkənizə hər iki ziyarətimiz Azərbaycanın bu nailiyyətləri barədə təsəvvürümüzü bir daha təsdiqlədi.

Onu da bildirim ki, bir həftə bundan əvvəl mən Londonda olarkən Sizin region – Azərbaycan, Gürcüstan barədə yazılmış bir məlumat bülleteni ilə tanış oldum. Bu məni yaxşı mənada çox təsirləndirdi. Həmin bülletendə Əfqanıstanda baş verən hadisələr barədə də məlumat var idi. Bülletenin Azərbaycanla bağlı hissəsində deyilir ki, sovet dövrünün xarabalıqları üzərində qurulmuş bir məmləkətdə böyük tərəqqi var və insanlar gələcəyə nikbinliklə baxırlar.

Məhz bütün bunlara görə də biz bu fikri dəstəkləyirik ki, Azərbaycan Avropa Şurasının fəal, tam hüquqlu üzvünə çevrilsin. Hesab edirəm ki, Azərbaycanın Avropa Şurasına qəbul olunması sizin ölkə üçün geniş imkanlar açmaqla bərabər, eyni zamanda, Avropa və dünya üçün də əhəmiyyətlidir.

Bildirmək istəyirəm ki, biz öz ölkələrimizdə müxtəlif siyasi partiyaların nümayəndələriyik. Məsələn, mən Mühafizəkarlar partiyasındanam, sol tərəfimdə əyləşən cənab Almaniya sosialistlərini təmsil edir, bu xanım liberal-demokratdır, sağ tərəfimdə əyləşən cənab isə xristian-demokratdır. Amma biz dünyada bir şeyə – azadlığa inanırıq. Hesab edirik ki, bu azadlığa nail olmaq üçün biz hər hansı bir dəstəyi verə biləriksə, yardım göstərəriksə, demək, onun uğrunda mübarizə aparmaq işində eyni mövqedən çıxış edirik. Amma Azərbaycana səfərimizdə isə biz siyasi cəhətdən bitərəf mövqedəyik, yəni Azərbaycanda hər hansı bir siyasi partiyanı dəstəkləmirik.

Cənab Prezident, ona görə də tam bitərəflik mövqeyindən çıxış edərək, biz noyabrın 5-də ölkənizdə keçiriləcək parlament seçkilərinin müvəffəqiyyətlə başa çatmasını arzulayırıq. Arzu edirik ki, bu seçkilər Azərbaycan üçün müvəffəqiyyətli seçkilər olsun.

Ümidvar olduğumuzu bildiririk ki, bu seçkilər Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması prosesinə öz töhfəsini, yardımını verəcəkdir. Beləliklə də biz gələcəkdə Sizinlə əməkdaşlığımızı daha yaxından, sıx surətdə davam etdirəcəyik.

Cənab Prezident, bu gün bizimlə görüşə vaxt ayırdığınıza görə Sizə bir daha təşəkkürümüzü bildiririk.

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab Smit, dediyiniz bu sözlərə görə mən sizə təşəkkür edirəm. Məni çox sevindirən odur ki, deyirsiniz, bitərəf mövqedən çıxış edirsiniz. Sizin ondan öncə dediyiniz sözlər də məndə belə təəssürat yaradır ki, Azərbaycandakı vəziyyəti həqiqətən obyektiv təhlil edə, qiymətləndirə bilirsiniz. Bunlar bizim üçün bəsdir. Mən nə üçün belə deyirəm? Çünki təəssüflər olsun ki, biz bir çox hallarda qərəzli fikirlərlə rastlaşırıq. Biz o qədər qərəzli fikirlərlə rastlaşmışıq ki, obyektiv, bitərəf bir fikir eşidəndə o bizim üçün böyük sevinc gətirir.

Siz doğru dediniz, Londonda bülletendə oxumusunuz ki, totalitar rejimi dağıntıları içərisində demokratik bir dövlət qurmaq və burada müəyyən nailiyyətlər əldə etmək özlüyündə böyük bir hadisədir.

Mən sovet hakimiyyətinin tarixi haqqında sizə qısaca olaraq bir neçə kəlmə söz dedim. Bildirdim ki, o vaxt bu rejimi insanlara zorla qəbul etdiriblər. İnsanlar bunu qəbul edib, amma həqiqi demokratiyanı – çünki hesab edirdik ki, sovet rejimi də demokratikdir və biz də belə təsəvvür edirdik – görməyiblər. Həmin rejimə uyğunlaşmaq necə çətin idisə, eləcə də bugünkü demokratiyaya, zorla olmasa da, uyğunlaşmaq asan deyildir. İndi insanların şüurunda, beynində dəyişikliklər prosesi gedir. Əsas odur ki, bu proses bizim istədiyimiz istiqamətdə gedir və zor işlədilmir. Sadəcə, insanlara anlatmaq, onları köhnə fikirlərdən yeni bir fikrə gətirmək lazımdır. Biz də bunu edirik.

Siz doğru dediniz ki, yüz illərlə demokratiya şəraitində yaşamış, inkişaf etmiş ölkələri yeni müstəqillik qazanmış, demokratiya yolu ilə gedən ölkələrlə müqayisə etmək olmaz. Ancaq təəssüf ki, respublikamızın daxilindəki bəzi qüvvələr öz şəxsi mənafelərinə görə – demokratiya naminə yox – hesab edirlər ki, məsələn, İngiltərədə, Fransada, Amerikada olan demokratiya bu gün Azərbaycanda da olmalıdır. Onlara həqiqi demokratiya lazım deyildir. Onlar sadəcə, bu şüardan istifadə edib öz mübarizələrini aparırlar. Amma bu, sağlam mübarizə deyildir. Beləlləri ölkəmizin daxilindədir. Ancaq bəzi xarici qüvvələr, dairələr, mərkəzlər Avropadakı, Amerikadakı demokratiyanın Azərbaycanda olmasını tələb edirlər, belə olmadığı halda, ölkəmiz haqqında mənfi fikirlər söyləyirlər.

Keçmiş sovet elmində belə bir mülahizə var idi ki, hər bir şeyə dialektik nöqteyi-nəzərdən baxmaq lazımdır. Amma bu, sovet fəlsəfəsi deyildir. Bu ən qədim insan fəlsəfəsidir. Təbiidir ki, tarixdə hər bir ölkə müəyyən bir yolla gedib, müəyyən bir mərhələyə çatıbdır. Dünyada təkcə əkizlərdən başqa bir-birinə bənzər iki adam tapmaq mümkün deyildir. Amma bəzən əkizlərin arasında da fərq tapmaq olur. Eləcə də dünyada hamısı, necə deyərlər, bir boyda, bir biçimdə, bir sifətdə, bir rəngdə olan ölkə tapmaq mümkün deyildir. Bunlar obyektiv xüsusiyyətlərdir. Onları nəzərə almayan, yaxud da Azərbaycanın reallığını, xalqımızın tarixini, millətimizin mentalitetini bilməyən, haradasa, Avropada, Amerikada oturan adam deyir ki, yox, Azərbaycanda da belə olmalıdır.

Azərbaycanda isə elə adamlar var ki, öz kəndindən, Azərbaycandan kənara çıxmayıblar, başqa yeri görmə-yiblər.Onlar xalqa, millətə, o cümlədən mənə də demokratiya dərsi vermək istəyirlər. Allaha şükürlər olsun ki, mən bütün dünyanı görmüşəm. Mənim dünyada görmədiyim az ölkə vardır. Təkrar edirəm, dünyada heç bir şey görməyən adam istəyir ki, mənə demokratiya dərsi versin. Bax, biz belə paradokslarla rastlaşırıq. Yenə də deyirəm, bunların səbəblərindən biri də ayrı-ayrı xarici dairələrdə Azərbaycana göstərilən qərəzli münasibətdir.

Dediniz ki, Avropa Şurası Parlament Assambleyasının fəxri üzvləri kimi, siz Azərbaycanın Avropa Şurasına daxil olmaq məsələləri ilə də məşğul olursunuz. Onu da deyim ki, Avropa Şurasına daxil olmaq prosesi bizim üçün uzun çəkibdir. Hələ bir il bundan öncə belə bir qərar qəbul olunub ki, Cənubi Qafqazda Azərbaycan və Ermənistan eyni vaxtda Avropa Şurasına qəbul edilsin. Bu çox yaxşı fikirdir. Çünki beləliklə, Avropa Şurası Ermənistanla Azərbaycan arasında olan münaqişənin aradan götürülməsi üçün yeni bir addım ata bilər.

Siz bilirsiniz ki, biz bu münaqişəyə son qoyulmasını istəyirik. Çünki bizim torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Azərbaycanın 8 milyon əhalisinin bir milyonu qaçqın vəziyyətində çadırlarda yaşayır. Bizim istəyimiz, arzumuzdur ki, bu məsələ sülh yolu ilə həll olunsun. Bu münaqişənin həll edilməsi də ondan ibarət olmalıdır ki, gərək Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin, Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlarımızdan çıxsın və həmin bir milyon insan darmadağın edilmiş o yerlərə qayıtsın, orada öz həyatını yenidən qursun. Ona görə də biz hər bir vasitədən istifadə edib məsələni bax, bu yolla həll etmək istəyirik.

Avropa Şurasının bəzi komissiyalarında bu məsələ müzakirə edilərkən Ermənistan haqqında bir dənə də etiraz olmayıbdır, ancaq Azərbaycan barədə etirazlar olubdur. Bu bizi incidir. Kim deyə bilərsə ki, Ermənistanda demokratiya Azərbaycandan üstündür, o çox böyük səhv etmiş olar.

Bəzən Azərbaycanda insan hüquqlarının pozulması haqqında danışırlar. Belə hallar hər bir ölkədə vardır. Mən istisna etmirəm, bizdə də vardır. Amma Ermənistan bir milyon azərbaycanlının hüququnu pozubdur, mənliyini tapdalayıbdır. Ona görə də bu məsələdə insanların hüquqlarının pozulmasını görməyənlərin və bunu görmək istəməyənlərin axtarıb Azərbaycanda həbsxanada bir nəfər cinayətkarın hüquqlarının pozulmasından,

onun azad edilməsindən danışması, əlbəttə, bizi incidir. Ona görə də biz, xüsusi qeyd edirəm, bəzi qüvvələr tərəfindən Azərbaycana qarşı ikili standartlar tətbiq olunmasını görürük. Həmin qüvvələr səhv edirlər.

Biz Avropa Şurasına daxil olmaq istəyirik. Amma dərk edirik ki, bu bizim üzərimizə daha da çox yeni vəzifələr qoyacaqdır. Hesab edirəm ki, Azərbaycanın Avropa Şurasına daxil olması Avropa Şurası üçün də çox əhəmiyyətlidir. Çünki Şərq ilə Qərbin qovuşuğunda, Avropanın son nöqtəsində yerləşən, Şərq və Qərb mədəniyyətlərinin sintezindən ibarət mədəniyyətə malik olan, öz milli, mənəvi dəyərləri ilə bərabər ümumbəşəri dəyərləri, Avropa dəyərlərini özündə əks etdirən bir xalqın, bir ölkənin Avropa Şurasından kənarda qalması bu şuraya heç də böyük hörmət gətirməz. Biz bu qərəzli qüvvələrlə mübarizəyə çox vaxt itiririk. Biz o qədər qərəzli hallara rast gəlirik ki, sizin kimi obyektiv adamları görəndə sevinirik.

Dediniz ki, seçkilərə hazırlıq prosesində artıq ikinci dəfədir buradasınız, ölkəmizin reallıqlarını görürsünüz. Təbiidir, bu proses elədir ki, orada hər şey ideal ola bilməz. Kim deyirsə ki, onun ölkəsində hər şey idealdır, o səhv edir.

Biz əlimizdən gələni edirik ki, noyabrın 5-də Azərbaycanda parlament seçkiləri demokratik keçsin, beynəlxalq standartlara uyğun olsun. Biz bunun üçün çalışırıq, qarşıdakı günlər də çalışacağıq.

Ümidvaram ki, siz yenidən Azərbaycana gəlib seçki prosesini müşahidə edəcəksiniz və öz obyektiv fikirlərinizlə bizə kömək göstərəcəksiniz. Vaxt çox getsə də, ürəyimdə olanları sizə dedim. Sağ olun.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ROSS UİLSON İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*27 oktyabr 2000-ci il*

**H e y d ə r  Ə l i y e v:** Sizi salamlayıram. Necəsiniz? Azərbaycan şəraitinə uyğunlaşa bilirsiniz, yoxsa yox?

**R o s s  U i l s o n:** Çox yaxşıyam və hədsiz məmnunam ki, bu gün axşam da olsa məni qəbul etməyə imkan tapdınız.

Üç həftədir ki, çox gərgin iş şəraitində çalışıram. Azərbaycan hökumətinin üzvləri, xalqınızın təmsilçiləri ilə çoxsaylı görüşlər keçirmişəm. Görüşlərin hamısında mənə çox mehriban münasibət göstərilibdir. Buna görə də özümü çox yaxşı hiss edirəm və Sizə təşəkkürlərimi bildirirəm.

**H e y d ə r  Ə l i y e v:** Çox yaxşı.

**R o s s  U i l s o n:** İddia etməzdim ki, ölkənizdə hər şeyi tam, axıra qədər anlayıram, amma çox yaxşı start götürmüşəm və ümidvaram ki, əla başlanğıc müvəffəqiyyətli işimə gətirib çıxaracaqdır.

**H e y d ə r  Ə l i y e v:** Əlbəttə, gətirib çıxaracaqdır.

**R o s s  U i l s o n:** Cənab Prezident, qarşıdakı bir neçə həftə ərzində Amerika–Azərbaycan münasibətlərinin işgüzar xarakteri artacaqdır. O mənada ki, bizim ölkəmizdən çoxsaylı ziyarətçilər Azərbaycana gələcəklər. Bu səfər zamanı biz Amerika Birləşmiş Ştatlarının Xəzərə yönəlmiş enerji strategiyası barədə müzakirələrimizi və məsləhətləşmələrimizi davam etdirəcəyik. Bizim hərbçilərlə Azərbaycan hərbçiləri arasında başlanmış dialoq davam etdiriləcəkdir. Eyni zamanda biz Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar danışıqları davam etdirəcəyik.

Keçən həftə Sizinlə birlikdə Azərbaycanın enerji ehtiyatlarının birgə istismar olunması və onların dünya bazarlarına ixracı işində böyük mərhələ olan bir hadisənin şahidləri olduq. Bu da bizim Azərbaycana və Xəzərə yönəlmiş enerji strategiyamızın tərkib hissəsidir. Prezident Bill Klinton da bu hadisəni eşidəndə son dərəcə məmnun oldu. O öz məmnunluğunu ifadə etmək üçün Sizə məktub göndərmişdir. Mən bu gün həmin məktubu Sizə təqdim etmək üçün gəlmişəm.

Prezident Klinton Bakı–Tbilisi–Ceyhan neft kəməri ilə əlaqədar son sazişlərin imzalanması münasibətilə həm Sizi, həm də Azərbaycan xalqını təbrik edir. Cənab Bill Klinton bu məktubunda keçən il İstanbulda hamının keçirdiyi o sevinc hisslərini yaxşı xatırladığını və Bakı–Tbilisi–Ceyhan kəmərinin gələcəyinə böyük ümidlər bəslədiyini bildirir. Prezident öz məktubunda yazır: «Tranzit ərazisinə malik ölkələrin hökumətləri ilə sazişlərin imzalanması Azərbaycan, Gürcüstan və Türkiyənin, eləcə də dünyanın bir neçə aparıcı neft şirkətlərinin ruhlandırıcı bir ideyanı reallığa çevirməyə sadiq olduqlarını əks etdirən mühüm bir mərhələdir». Prezident Klinton bu məktubunda Sizin liderliyinizi xüsusilə vurğulayır.

O yazır: «Gürcüstanın da bu layihədə iştirakını təmin etmək üçün bu ilin yazında şəxsən atdığınız addımlar da daxil olmaqla, dəfələrlə göstərdiyiniz liderliyinizə görə Sizə xüsusi minnətdarlığımı bildirirəm». Sizə ünvanladığı məktubunda prezident onu da bildirir ki, bizim hələ qarşıda görəcəyimiz çox böyük işlərimiz vardır. Xüsusilə, Qazaxıstanın bu layihəyə qoşulmasına onu ruhlandırmaq, həvəsləndirmək üçün birgə səylər göstərməyimizə ehtiyac vardır.

Prezident öz məktubunda bəyan edir ki, Amerika Birləşmiş Ştatları Bakı–Tbilisi–Ceyhan kəmərinə tamamilə sadiq olaraq qalır və Sizinlə birlikdə üstünlük verdiyimiz sahələr və digər məsələlər üzrə Sizinlə birgə tərəfdaşlığı bundan sonra da davam etdirmək əzmindədir.

Cənab Prezident, icazə verin, prezident Bill Klintonun təbriklərinə mən də öz təbriklərimi əlavə edim və Sizə bildirim ki, bu layihə üzərində bilavasitə çalışmış insanlarla burada görüşümdən məmnun oldum. Biz bu layihənin müvəffəqiyyətlə həyata keçirilməsi üçün birgə səylərimizi davam etdirmək əzmindəyik.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Məktub səndə qalacaq, yoxsa məndə?

**R o s s  U i l s o n:** Xeyr, Sizə çatacaq.

(*Səfir Ross Uilson prezidenti Bill Klintonun məktubunu Azərbaycan prezidenti Heydər Əliyevə təqdim etdi*).

**H e y d ə r  Ə l i y e v:** Təşəkkür edirəm. Əvvəla, hörmətli cənab Bill Klintonun gördüyümüz işlərə yüksək qiymət verməsini mən çox böyük hadisə hesab edirəm.

Bilirsiniz ki, Azərbaycan 1994-cü ilin sentyabrında ilk müqaviləni imzalayarkən, o vaxt hasil olunan neftin dünya bazarlarına çıxarılması haqqında düşünürdük və müqavilədə Bakı–Tbilisi–Ceyhan – indi buna Bakı–Tbilisi–Ceyhan kəməri deyirlər – kəmərinin çəkilməsi nəzərdə tutulmuşdu. Biz o vaxt bu müqaviləni

imzaladıqdan sonra prezident Bill Klinton mənə təbrik məktubu göndərmişdi. O, ilk məktubunda bu müqaviləni «Əsrin müqaviləsi» adlandırmışdı. Beləliklə, bu müqaviləyə «Əsrin müqaviləsi» adının verilməsinin müəllifi prezident cənab Bill Klintondur. O vaxtdan indiyə qədər biz Amerika Birləşmiş Ştatları ilə bu barədə çox sıx əməkdaşlıq etmişik və bərabər çalışırıq. Xatirimdədir, Bakı–Novorossiysk boru xətti bərpa olunandan sonra prezident Bill Klintonla biz başqa bir marşrutun – Bakı–Supsa neft boru xəttinin tikilməsi haqqında çox geniş fikir mübadiləsi apardıq. Bakı–Supsa boru xəttini də çəkdik. Biz 1997-ci ildə nefti iki xətt üzrə ixrac etməyə başladıq.

Beləliklə, Azərbaycan dövlətinin yeni neft strategiyası meydana çıxdı və onun həyata keçirilməsi ardıcıl təmin olundu. Prezident Klinton məktubunda – Siz oxudunuz, mən də belə anlayıram – deyir ki, məhz Azərbaycan tərəfindən Xəzər hövzəsinin neft və qaz yataqlarının işlənməyə başlanması Amerika Birləşmiş Ştatlarının dünya neft strategiyasına böyük bir töhfəsi olmuşdur. Ancaq 1994-cü ildən Bakı–Ceyhan neft kəmərinin tikilməsi, demək olar, böyük bir problemə dönmüşdü. Buna mane olanlar, buna inanmayanlar çox idi. Təbiidir ki, bizim üçün müxtəlif çətinliklər yaradırdılar. Ancaq biz – Azərbaycan bu işə daim sadiq olduq. Öz sadiqliyimizi keçən ilin noyabrında İstanbulda Bakı–Tbilisi–Ceyhan neft kəməri haqqında sazişin imzalanmasında nümayiş etdirdik.

Siz deyirsiniz ki, keçən ilin noyabrından indiyə qədər bu layihənin reallaşması üçün çox ağır və çətin işlər görülmüşdür.

Mən məmnunam ki, prezident Bill Klinton öz məktubunda bunu da göstərməyi unutmayıbdır ki, Gürcüstan bizim müttəfiqimiz olduğu halda, eyni zamanda çox real olmayan tariflər istəyirdi və bu da layihənin həyata keçirilməsinə mane olurdu. Mən layihənin reallaşması naminə Azərbaycanın tariflərini Gürcüstana, demək olar ki, hədiyyə etdim. Biz öz sadiqliyimizi axıra qədər göstərdik və Bakıda, Azərbaycanda saziş imzalandı. Bundan sonra saziş Tbilisidə, Ankarada da imzalandı. İndi isə biz əməli işə başlayırıq.

Mən bu gün iftixar hissi keçirirəm ki, bu böyük, tarixi hadisənin müəllifi məhz Azərbaycandır. Eyni zamanda Türkiyə Cümhuriyyəti ilə bu barədə əməkdaşlığımız və Türkiyə hökuməti, xüsusən bu ölkənin doqquzuncu prezidenti Süleyman Dəmirəlin bu barədə ardıcıl siyasəti də bizə çox kömək etdi.

Gürcüstan bizimlə dost, qonşu və bu xətt üçün tranzit ölkədir. Onların da səyləri, prezident Şevardnadzenin bu barədə göstərdiyi xidmətlər də mənim tərəfimdən yüksək qiymətləndirilir.

Xatirinizdədirsə, bu barədə müqavilə imzalanarkən mən dedim ki, əgər Amerika Birləşmiş Ştatlarının, şəxsən prezident Bill Klintonun bu işə daim diqqəti, qayğısı və dəstəyi olmasaydı, bunu həyata keçirmək bizim üçün çox çətin olardı. Buna görə də mən Amerika Birləşmiş Ştatlarına və xüsusən prezident cənab Bill Klintona bir daha təşəkkür edirəm. Mən onu da təbrik edirəm. Bu məktubdan sonra mən də cənab Bill Klintona təbrik məktubu göndərəcəyəm.

Qazaxıstan İstanbulda bizim müqaviləmizi imzalayıbdır. Ancaq prezident Bill Klintonun məktubunda göstərildiyi kimi, Qazaxıstanın bu işə əməli surətdə cəlb edilməsi çox lazımdır. Bu barədə biz Amerika Birləşmiş Ştatlarına, prezident Bill Klintona daha çox ümidlər bağlayırıq. Biz də öz tərəfimizdən müəyyən işlər görürük və görəcəyik.

Beləliklə, bizim 6 ildə gördüyümüz işlər yaxşı nəticələr verir. Bu, bugünkü reallıqdır. Bu, Azərbaycanla Amerika Birləşmiş Ştatlarının dostluğunun və əməkdaşlığının gözəl nümunəsidir. Mən bir daha təşəkkür edirəm.

**Ross Uilson:** Biz bu layihəni dəstəkləyirik və şübhəsiz, öncə ona görə dəstəkləyirik ki, bu, Amerika Birləşmiş Ştatlarının maraqlarına uyğundur, onun mənafeyinə xidmət edir. ABŞ-ın da marağı, mənafeyi ondadır ki, Azərbaycan çiçəklənən və güclü dövlətə çevrilsin. Ölkənizin beynəlxalq bazarlara çıxışlarının genişləndirilməsi Azərbaycanın güclü dövlət olmasına, çiçəklənən dövlətə çevrilməsinə çox böyük kömək edəcəkdir. Biz bundan sonra da bu layihə üzərində işimizi davam etdirəcəyik.

Cənab Prezident, mən Sizinlə bu sahədə davamlı çalışmalarımızı gözləməkdəyəm. Sizi bir daha təbrik edirəm.

**Heydər Əliyev:** Çox sağ olun. Mən də sizi təbrik edirəm.

## AZƏRBAYCAN MİLLİ MƏCLİSİ SEÇKİLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*Prezident sarayı*

*29 oktyabr 2000-ci il*

Hörmətli müşavirə iştirakçıları!

Bugünkü müşavirə Azərbaycanda qarşıdan gələn növbəti parlament seçkiləri ilə, Milli Məclisə seçkilərlə əlaqədardır.

Təbiidir ki, seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən aparılır və bu barədə çox işlər görülübdür. Ancaq eyni zamanda bu seçki prosesində icra orqanlarının da, xüsusən yerli icra orqanlarının – şəhər, rayon icra hakimiyyəti orqanlarının, nazirliklərin üzərinə düşən vəzifələr də vardır. Bu vəzifələr əsasən Mərkəzi Seçki Komissiyasına, dairə, məntəqə seçki komissiyalarına yardım göstərməkdən ibarətdir ki, bu seçkilər bizim Milli Məclisin qəbul etdiyi qanunlar əsasında, Mərkəzi Seçki Komissiyasının qəbul etdiyi qərarlar və təlimatlar əsasında keçirilə bilsin.

Seçkilərə bir həftə qalır, ona görə də mən bu gün sizi – icra hakimiyyəti orqanlarının başçılarını buraya dəvət etmişəm ki, bir daha bu vəzifələrinizi sizə bildirək. Siz vəzifələrinizi, vəzifələrinizin dairəsini, yəni səlahiyyətinizin dairəsini bilməlisiniz və bu dairədə, bu çərçivədə seçkilərin keçirilməsinə kömək etməlisiniz. Bir də deyirəm, seçkiləri Mərkəzi Seçki Komissiyası, yerli seçki orqanları aparır. İcra hakimiyyəti orqanlarının vəzifəsi onlara kömək etməkdən ibarətdir.

Biz Azərbaycanın müstəqilliyinin doqquzuncu ildönümünü qeyd etdik. Bu doqquz il müddətində Azərbaycan müstəqillik yolunda çox böyük uğurlar əldə edibdir. Ancaq bizim bu nailiyyətlərimiz asan başa gəlməyibdir. Biz ağır, çətin, əziyyətli bir yol keçmişik. Ancaq bu yolu keçmişik, indi bizim respublikamız artıq demokratik, hüquqi, dünyəvi dövlətdir. Ölkəmizdə quruculuq işləri aparılır. İnsanların həyat tərzi yaxşılaşır və ölkəmiz Dünya Birliyində özünə məxsus olan yeri tutubdur.

Bu doqquz il müddətində ən əsas mərhələlərdən biri müstəqil Azərbaycanın ilk demokratik Konstitusiyasının qəbul olunmasıdır, qəbul olunmuş Konstitusiya əsasında ilk dəfə Milli Məclisə demokratik seçkilərin keçirilməsidir. Biz bunu etdik. 1995-ci ilin noyabr ayında ümumxalq səsverməsi yolu ilə ilk demokratik Konstitusiyamızı qəbul etdik və beş ildir onun əsasında yaşayırıq, işləyirik, bütün işlərimizi görürük. O vaxt ilk dəfə müstəqil Azərbaycanın parlamentinə, Milli Məclisə demokratik seçkilər keçirdik. Bu seçkilərin nəticəsində Milli Məclis formalaşdı və ötən beş ildə fəaliyyət göstəribdir.

Fürsətdən istifadə edib demək istəyirəm ki, Azərbaycanın demokratik seçilmiş və demokratik prinsiplər əsasında fəaliyyət göstərən ilk Milli Məclisi beş ildə çox iş görmüş, əsas vəzifəsini, qanunvericilik vəzifəsini uğurla həyata keçirmişdir. Ölkəmizdə həm iqtisadiyyatın inkişafının təmin olunması üçün, həm bütün sahələrdə mühüm islahatların aparılması üçün, özəlləşdirmənin həyata keçirilməsi üçün, həm də demokratiyanın inkişaf etdirilməsi, vətəndaşlara bütün azadlıqların verilməsi üçün, vicdan, mətbuat azadlıqlarının təmin olunması üçün və bir çox başqa sahələrdə işimizi məhz qanunlar əsasında təmin etmək üçün çoxsaylı qanunlar qəbul olunubdur. Bu qanunlar icra olunur, bundan sonra da icra ediləcəkdir. Ona görə də hesab edirəm ki, biz 1995-ci ildə seçilmiş Milli Məclisin işinin artıq sona çatdığı vaxtda və Milli Məclisə yeni seçkilərə getdiyimiz vaxtda gərək Milli Məclisimizə, parlamentimizə təşəkkür edək. Onlar öz üzərinə düşən vəzifəni yerinə yetiriblər, öz missiyasını yerinə yetiriblər. Təbiidir ki, bu da Azərbaycanda demokratiyanın böyük bir mərhələsi olubdur və eyni zamanda ölkəmizdə ikinci dəfə Milli Məclisə tam demokratik şəraitdə seçkilərin keçirilməsi üçün yaxşı əsas yaradır.

Mən dedim ki, ötən doqquz il bizim üçün çox çətin, ağır illər olubdur. Ancaq xalqımız bunu qiymətləndirir və biz də bundan iftixar hissi duyuruq ki, bu yolu uğurla keçmişik və irəliləyirik. Ötən illər çox işlər görülübdür. Əgər qısa desək, biz 1993-cü ildən başlayaraq, ölkəmizin hər mərhələsi üçün qarşımıza çıxan vəzifələri yerinə yetirməyə çalışmışıq və bunların hamısına da nail olmuşuq. Əgər bu dövrə bir balaca nəzər salsaq, 1993-cü ildən 1995-ci ilə qədər, bəlkə də 1995-ci ilin payızına qədər Azərbaycan dövlətinin, hökumətinin və o cümlədən əvvəlki parlamentin vəzifəsi Azərbaycanda yaranmış bu ağır vəziyyəti aradan götürməkdən ibarət olmuşdur. Yəni biz 1993-cü ilin iyun ayında baş vermiş vətəndaş müharibəsinin qarşısını almaqla Ermənistanın təcavüzü ilə bərabər, separatçı qüvvələr tərəfindən Azərbaycanın parçalanmasının qarşısını aldıq.

Ondan sonra Azərbaycanda daxili ictimai-siyasi vəziyyəti sabitləşdirmək üçün çox işlər gördük. Qeyri-qanuni silahlı dəstələri zərərsizləşdirdik. Azərbaycanda, təəssüflər olsun ki, əvvəllər artıq ənənəyə çevrilmiş silahlı dövlət çevrilişləri cəhdlərinin qarşısını aldıq. Terror aktlarının qarşısını aldıq. Baxmayaraq ki, biz bəzi itkilər də verdik, ancaq, ümumiyyətlə, terrorçu qüvvələri zərərsizləşdirdik. Bu işlərin hamısı siyasi nöqteyi-nəzərdən bir tərəfdən, Azərbaycanda sabitliyi təmin etmək, ikinci tərəfdən, Azərbaycanın dağılmış

iqtisadiyyatını bərpa etmək və insanların həyat tərzini yaxşılaşdırmaq üçün aparılmışdır. Məhz bunların nəticəsində Azərbaycanda 1995-ci ilin payızına qədər – biz ölkəmizdə ictimai-siyasi sabitliyi təmin edəndən sonra, qanunsuz silahlı dəstələri zərərsizləşdirəndən sonra, Ermənistan–Azərbaycan münaqişəsində Ermənistan təcavüzünün qarşısını almaq məqsədi ilə 1994-cü ilin may ayında atəşkəs rejiminə razılıq verdikdən və onu təmin etdikdən sonra, iqtisadiyyatda müəyyən müsbət addımlar atdıqdan sonra Azərbaycanda demokratik dövlətin, hüquqi dövlətin demokratik Konstitusiyasının qəbul olunması və yeni parlament seçkiləri, Milli Məclisə seçkilər keçirilməsi üçün şərait yarandı.

Bu dövr çox çətin dövr oldu və bizim hamımızın gözünün qarşısındadır. Əgər kimsə onu unudursa, böyük səhv edir. Çünki o illər Azərbaycanın dövlət müstəqilliyinin müqəddəratı həll olunurdu: Azərbaycan bir müstəqil dövlət kimi yaşayacaq, ya yaşamayacaqdır? Azərbaycan xalqı uzun illər müstəqil ölkəyə malik olacaq, ya olmayacaqdır? Onun müqəddəratı həll edilirdi. Biz həqiqətən böyük təhlükələr qarşısında idik. Bunları heç vaxt unutmaq lazım deyildir. İnsan pis günü tez unudur. Mən demirəm ki, həmişə pis günü yada salıb inildəmək lazımdır. Ancaq eyni zamanda əgər bu gün o ağır dövrləri unutsaq, yaddan çıxarsaq, ondan sonra Azərbaycanda gedən proseslərin və bugünkü vəziyyətin qiymətini verə bilmərik.

1995-ci ildə Azərbaycanda məhz sabitlik yaranandan sonra, Ermənistan–Azərbaycan münaqişəsində atəşkəs əldə olunandan sonra və iqtisadiyyat sahəsində müəyyən irəliləməni təmin edəndən sonra biz dövlətimizin inkişafının ikinci mərhələsini keçdik. İkinci mərhələ də yeni, yəni ilk müstəqil dövlətin Konstitusiyasını qəbul etmək idi və ilk müstəqil dövlətin demokratik parlamentini, Milli Məclisini seçmək idi. Biz bunu etdik.

1995-ci ilin payızından sonrakı dövr isə Azərbaycanda artıq tədricən inkişaf dövrüdür. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu dövrüdür. Azərbaycanda demokratiyanın inkişafı, bütün insan hüquqlarının təmin olunması dövrüdür. Azərbaycana, vətəndaşlarımıza rahat yaşamaq imkanı verildiyi bir dövrüdür və bunların hər birinin də özünün qiyməti vardır.

Biz bu il bütün sahələrdə inkişafdayıq. Əvvəlki illər də belə olubdur. Amma bizim inkişafımız bu gün nədən ibarətdir? Birincisi, dövlət müstəqilliyimiz daha da möhkəmlənibdir. İkincisi, xarici siyasətimiz daha da uğurlu olubdur. Üçüncüsü, Ermənistan–Azərbaycan münaqişəsinə son qoyulmaq üçün çox intensiv danışıqlar aparılıbdır və aparılmaqdadır. Daha sonra Azərbaycanın iqtisadiyyatı inkişaf edibdir. İnsanların həyat tərzi, güzəranı yaxşılaşıbdır. Dediyim kimi, çoxsaylı qanunlar qəbul olunubdur və həyat normal məcrada inkişaf edir. İnsanlar qurur, yaradır, yaşayırlar. Amma bunlarla bərabər, bizim həyatımızda həll olunmamış çox problemlər vardır. Keçid dövrünün çətinlikləri vardır. Bizim bütün hakimiyyət orqanlarının işində ciddi nöqsanlar da, çatışmazlıqlar da vardır. Yəni biz hələ istədiyimiz səviyyəyə çata bilməmişik. Ona görə yox ki, biz bu sahədə əlimizdən gələni etməmişik. Ona görə ki, sadəcə, bizim istədiyimiz səviyyəyə çatmaq üçün hələ çox işlər görmək lazımdır, zaman lazımdır. Ancaq başlıcası ondan ibarətdir ki, biz indi ölkəmizi artıq elə bir relslər üzərinə qoymuşuq ki, o bundan sonra daha da sürətlə irəliləyəcək və təbiidir, zaman ölkəmizin istədiyimiz səviyyəyə qaldırılmasını təmin edəcəkdir.

Azərbaycanda bu il iqtisadiyyat yaxşı inkişaf edibdir. Bilirsiniz, bundan şikayətlənmək olmaz. Əgər biz dünyanın iqtisadiyyatına nəzər salsaq, məsələn, hər bir ölkənin iqtisadiyyatı hansı templərlə inkişaf edir? Bizim ölkəmiz doqquz il bundan öncə Sovetlər İttifaqının tərkibində olubdur. O illərin öz nailiyyətləri olubdur. Xatirimdədir, 70–80-ci illərdə sənayenin inkişaf tempi çox yüksək idi. Demək olar ki, iqtisadiyyatın inkişaf tempinə görə, artımına görə Azərbaycan bütün müttəfiq respublikalardan fərqlənirdi. Bax, bütün bunlarla da müqayisə etsək, bu ilin göstəriciləri çox sevindiricidir.

Təsəvvür edin, ümumi daxili məhsul 9,9 faiz artıbdır. Bilirsiniz, bəlkə də iqtisadiyyatı bilməyən adam üçün bu, böyük bir şey deyildir. Bəlkə də hesab edir ki, gərək 20–30 faiz artaydı. Amma inkişaf etmiş dövlətləri götürün. Orada artım 2-3-4 faizdən artıq olmur. Amma deyərsiniz ki, orada həyat yaxşıdır, iqtisadiyyat yaxşıdır. Bəli, iqtisadiyyat artıq orada çox inkişaf edibdir. İqtisadiyyat nə qədər yüksəyə qalxırsa, iqtisadiyyat nə qədər yüksəyə qalxaraq ölkənin əhalisinin həyat tərzini yaxşılaşdırırsa, yüksəldirsə, o zaman inkişaf templəri azalır. Ancaq bizim ölkədə təxminən 1988–1989-cu illərdən sonra 1995-ci ilə qədər dağıdılma dövrü olduğuna görə, indi, bu ilin doqquz ayında ümumi daxili məhsulun 9,9 faiz artması böyük hadisədir.

Mən xatırlayıram, biz 70-ci illərdə SSRİ respublikaları içərisində ən yüksək templərlə inkişaf edirdik. Onda bizim illik tempimiz orta hesabla 7–8, bəzən 9 faiz idi. Amma biz ölkəmizin iqtisadiyyatını inkişaf etdirdikcə temp azalırdı. Əgər 70-ci illərin əvvəllərində biz iqtisadiyyatı ildə 8-9-10 faiz artırırdıqsa, bunun da ümumiləşdirici göstəricisi ümumi daxili məhsulun həcmi idi.

1980–1983-cü illərdə artıq biz o qədər qalxa bilmirdik, ildə 6–7 faiz olurdu. Amma SSRİ-də 3–4 faiz. Mən Moskvada işlədiyim illərdə – bilirsiniz ki, mən o vaxt əsasən iqtisadiyyatla, sovet hökumətinin bütün iqtisadiyyatı ilə məşğul idim – biz hər il planları təshih edəndə nə qədər müzakirələr aparırdıq. Kənd təsərrüfatı məhsulları 2 faizdən artıq artmırdı. Ümumi daxili məhsulun artımı 3 faizdən çox olmurdu. O da təbii idi. Çünki o sistemin, o dövrün, necə deyərlər, ehtiyatları artıq tükənirdi. Ona görə də bu sistem dəyişilməli idi və dəyişildi. Çünki o sistem artıq staqnasiya, durğunluq səviyyəsinə gəlib çatmışdı.

İndi doqquz ayda 9,9 faiz artım yüksək göstəricidir. Əsas sənaye istehsalı doqquz ayda 5,8 faiz artıbdır. Bu da çox böyük göstəricidir. Kənd təsərrüfatı istehsalı 9,1 faiz artıbdır – çox yüksək göstəricidir. Doqquz ayda ümumi əmək haqqı 15 faiz artıbdır. Bunlar hamısı konkret görülən işlərin nəticəsi, bizim statistika orqanının apardığı hesablamaları və verdiyi faizlərdir.

Məsələn, bu il müstəqil dövlətlər içərisində orta əmək haqqının artımına görə Azərbaycan beşinci yerdədir. Bizdən öndə Rusiya, Belarus, Qazaxıstan, bir də Özbəkistandır. Azərbaycanda dollara çevirəndə orta əmək haqqının həcmi bu il 46 dollardır. Amma Ermənistanda 39, Qırğızıstanda 25, Moldovada 33, Tacikistanda 7,5 dollardır. Ukraynada 45 dollardır. Bizə yaxındır. Gürcüstanda 25 dollardır. Budur göstəricilər. Budur Azərbaycanın doqquz ay müddətində bugünkü həqiqəti, bugünkü reallığı.

Ancaq bununla bərabər, bir göstərici də çox vacibdir. Bu da inflyasiyanın səviyyəsidir.

Keçmişdə, sovet dövründə çoxları – bəziləri indi də – inflyasiya nədir bilmirdi. Çünki onda, sosialist sistemində bunun əhəmiyyəti yox idi. İnflyasiya həmişə təbiidir ki, insanın, yəni hər bir vətəndaşın aldığı əmək haqqının istifadə olunması ilə əlaqədardır. Bilirsiniz ki, bizdə inflyasiya – mən bu barədə də danışacağam – 1800 faizə çatmışdı. Amma indi, demək olar ki, 1,5–2 faizdir. Məsələn, Belarusda orta əmək haqqı bizdən yüksəkdir, amma inflyasiyanın səviyyəsi Azərbaycandakından 4 dəfə çoxdur. Demək, əgər orada əmək haqqını bizdəkindən çox alsalar da, ondan istifadə edəndə dəyəri aşağı düşür.

Mən özüm uzun illərdir sənayenin təşkilatçılarından biriyəm. Yaxşı bilirəm ki, Azərbaycanda, xüsusən 70-ci illərdə, 80-ci illərin ortalarına qədər çox güclü sənaye potensialı yaranmışdı. Neft sənayesi Azərbaycanda həmişə olmuşdur, tarixi bir şeydir. Amma maşınqayırma sənayesi, yaxud kimya sənayesi, yüngül sənaye, başqa sənaye sahələri – bunlar 70–80-ci illərdə çox yüksək inkişaf etmişdi. Amma sonra hamısı dağıldı, hamısı tənəzzül etdi.

İndi təsəvvür edin, bu doqquz ayda dediyim kimi, sənayenin ümumi istehsalı 5,8 faiz artıbdır. Maşınqayırma sahəsində doqquz ayda istehsal 70 faiz artıbdır. Deyərsiniz ki, bu möcüzədir, nədir? Yox, möcüzə deyildir.

Ona görə ki, ötən illər maşınqayırmada istehsal çox aşağı düşmüşdü. Bizim maşınqayırma zavodları gərək yeni bir sistemə keçəydilər, özlərinə bazar tapaydılar, yeni məhsul istehsal etməyə imkan əldə edəydilər və ondan sonra istehsalı artıra bilərdilər. Bax, bu dövr onlar üçün keçdi. İndi əgər doqquz ay müddətində maşınqayırma 70 faiz artıbsa, görün bizim maşınqayırma zavodlarının çoxu nə qədər böyük işlər görüblər.

Məsələn, Sumqayıtda Boru prokat zavodu var. Vaxtilə orada on min adam işləyirdi. O zavodun üzərində, 70-ci illərdə onun normal işləməsini təmin etmək üçün mənim nə qədər böyük zəhmətim vardır. Bizim üçün metallurgiya yeni bir sahə idi və mütəxəssislər də çatışmırdı. Xatirimdədir, 70-ci illərin əvvəllərində mən məcbur oldum Boru prokat zavodunun direktoru vəzifəsinə Uraldan böyük bir Boru prokat zavodunun direktorunu dəvət etdim ki, o, iki-üç il burada işləyib kollektivi yüksək səviyyəyə qaldıra bilsin. Ancaq sonra bu iş dağıldı. İndi o, bərpa olunur və artıq boru prokat zavodu işləməyə başlayıbdır.

Yaxud da Gəncədəki Gil-torpaq zavodu. Onun tikilməsi də, yaranması da – hamısı mənim həyatımdan keçibdir. O vaxt onu tikmək, yaratmaq üçün çətin bir dövr keçdik. Orada çoxlu adam işləyirdi, dörd minə qədər işçisi vardı. Son iki il içərisində o zavod da bərpa olundu. İndi iki min beş yüz adam işləyir və bundan sonra da işləyəcəkdir.

Mən bu günlərdə fərman verdim ki, ümumiyyətlə, gil-torpaq zavodu, alüminium zavodu, bütün alüminium istehsalı kompleksi xarici şirkətlərə icarəyə verilsin. Bizim Dövlət Əmlakı Nazirliyimiz tender elan etdi. Hollandiyanın bir şirkəti bu tenderi uddu. Mən onun prezidentini qəbul etdim, danışdıq. Onlar bu işə bir milyard dollar vəsait qoymaq istəyirlər.

Bəlkə də bu istehsalı çoxları bilmir. Mən Hollandiyanın həmin şirkətinin prezidenti ilə danışanda, istehsalın incəliklərini ona söyləyəndə, o təəccübləndi ki, siz bunu necə bilirsiniz. Çünki hamısı mənim xatirimdədir. Ona demişdim, bəlkə haradasa da demişəm, amma bir də demək istəyirəm. Gəncədə Gil-torpaq zavodunun tikilməsi necə olubdur, niyə tikilibdir? Çünki vaxtilə geoloqlar Gəncənin yaxınlığındakı Zəylikdə alunit yataqları kəşf ediblər. 1951–1952-ci illərdə Azərbaycana rəhbərlik edən şəxs, təbiidir ki, mütəxəssislər ilə məsləhətləşəndən sonra, hamısı təkliflər veriblər ki, alunit alüminium almaq üçün dəyərli bir xammaldır və bundan istifadə etmək lazımdır.

Keçmiş SSRİ Nazirlər Sovetinin sədri, rəhmətlik Kosıgin mənə danışırdı ki, o vaxtlar Azərbaycanın başçısı Stalinin yanına gəldi, alunitin nümunələrini gətirdi və dedi ki, bizə bu işi yaratmağa kömək edin. O özü danışırdı ki, Stalin məni çağırdı, bir yerdə baxdıq. Göstəriş verdi ki, kömək et və biz başladıq. Yəni bu, 1952-ci ildən başlayıbdır. Bu proses nədən ibarətdir?

Alunit həmin Gil-torpaq zavodunda emal olunur, gil-torpağa çevrilir. Gil-torpaq isə son məhsul – alüminium almaq üçün əsas xammaldır. Onun üçün də Sumqayıtda alüminium zavodu tikildi. Bu, bir prosesdir – Zəylik, Gəncə Gil-torpaq zavodu, Sumqayıt alüminium zavodu. Bu proses belə qurulmuşdu. Təbiidir ki, bunu layihələşdirənlər, mütəxəssislər etmişdilər. Ancaq sonra, təəssüflər olsun ki, Gəncədə bu Gil-torpaq zavodunun tikilməsi çox çətin oldu, ağır bir proses idi. Çünki Azərbaycan üçün bu, yeni bir sahə idi. Biz 70-ci illərdə bunun üzərində çox çalışdıq. Amma nail olduq və alüminium zavodu da tikilmişdi, onu da işlətdik.

Ancaq son dövrdə hamısı dayanmışdı. Alunit də orada qalıbdır, Gil-torpaq zavodu da dayanmışdı, Alüminium zavodunu da söküb dağıdıblar. Mən Hollandiya şirkətinin prezidenti ilə danışanda, bu prosesi ona deyəndə soruşdu ki, siz bunu haradan bilirsiniz? Dedim, biz bununla məşğul olmuşuq. İndi onlar bunu idarəetməyə götürürlər. Oraya – həm Zəylik mədəninə, həm Gəncə Gil-torpaq kompleksinə bir milyard dollar sərmayə qoyacaqlar və Sumqayıtdakı Alüminium zavodu da demək olar ki, yenidən tikiləcəkdir. Təbiidir ki, buna iki-üç il vaxt lazımdır. Amma o mənə söz verdi ki, 6 ay müddətində müəyyən qədər ilk məhsulu verəcəyik. İndi Gəncədə öz imkanları ilə Gil-torpaq zavodunu işlədirlər. Amma bir neçə il bundan əvvəl işləmirdi. Yadınızdadır, fəhlələr Gəncədə küçələri gəzirdilər, etirazlarını bildirirdilər. Yəni görülən işlər budur.

Bilirsiniz, bir var ki, hər şey yaranıb, onu irəliyə aparmaq lazımdır. Bir də var ki, çox şey yaranıb, amma sonra dağıdılıbdır, indi ağır bir vaxtda, tamam başqa şəraitdə bunları yenidən yaratmaq lazımdır. Yəni bu başqa iqtisadi sistemdə, başqa iqtisadi əsaslarda olmalıdır. Ona görə bu proses asan deyildir. Mən sənaye haqqında bu sözləri deyirəm ki, hər birinizdə daha dolğun, düzgün təsəvvür olsun. Sənaye bizim istehsalın bir hissəsidir.

Məsələn, kənd təsərrüfatı sahəsini götürək. Biz Azərbaycanda torpaq islahatı həyata keçirmişik. Ölkəmizdə nə qədər kənd təsərrüfatı məhsulları istehsal etmək mümkündür. Kimsə deyir ki, üzüm bağları dağıdılıbdır, pambıq tarlaları filandır və sairə. İndi azadlıqdır, hər kəs öz sözünü deyə bilər. Heç kəs, necə deyərlər, heç kimin sözünə etiraz etmir. Ancaq həqiqət nədən ibarətdir? Həqiqət ondan ibarətdir ki, Azərbaycanda üzüm bağlarının salınmasının təşəbbüskarı Heydər Əliyevdir. 1971-ci ildən başlayaraq Azərbaycanda böyük üzüm plantasiyaları yaradılıbdır. Bunun Azərbaycan kəndlisinə nə qədər xeyir verdiyini yaxşı bilirsiniz.

Amma sonra, Qorbaçovun antialkoqol siyasəti zamanı bunların bir hissəsini qırdılar, bir hissəsini isə Azərbaycanda hərc-mərclik dövründə dağıtdılar. İndi isə istehsal olunan üzüm məhsullarının satışı üçün istənilən səviyyədə bazar yoxdur. Məsələn, vaxtilə biz Naxçıvanda üzüm istehsalını ildə 120 min tona çatdırdıq. Biz nə qədər şərab zavodları tikdirdik. Təbiidir ki, həmin şərab zavodlarında istehsal edilən məhsulun hamısından Azərbaycanda istifadə olunmurdu. Bu məhsulun bir hissəsi Rusiyaya göndərilirdi. Rusiya bazarının, demək olar ki, böyük bir hissəsi Azərbaycan şərablarına məxsus idi. Yəni biz üzümü ilkin emal edib Rusiyadakı zavodlara göndərirdik, orada isə onlar artıq son emaldan sonra onu satırdılar. O vaxt Azərbaycanda 2 milyon ton üzüm istehsal olunurdu.

İndi Naxçıvanda üzüm bağlarının bir hissəsi qalıbdır. Orada üzüm yetişdirilir, şərab istehsal olunur, amma sata bilmirlər. Nə üçün sata bilmirlər? Çünki xarici bazarlara çıxışları yoxdur. Onların İranla ticarət etmək imkanları var, amma bilirlər ki, İran bu şərabı almayacaqdır. Türkiyədə də bu məhsulu almırlar, Rusiyaya isə şərab göndərməyə yolları yoxdur. Məcbur olurlar ki, şərab məhsulunu spirtə çevirsinlər. Onlar spirt hazırlayıb bir hissəsini Türkiyəyə satdılar, amma digər hissəsi çənlərdə yatıb qalır. Bax, real vəziyyət bundan ibarətdir.

Ona görə də torpaq islahatını həyata keçirməyimiz böyük inqilabi hadisədir. Mən sizə dedim, indi Azərbaycanda kənd təsərrüfatı məhsulu istehsalı ötən ilin 9 ayında 9,1 faiz artıbdır. Amma ötən beş illə müqayisə etsək, məhsul istehsalı bir neçə dəfə artıbdır. Hazırda Azərbaycanda kənd təsərrüfatı məhsulu istehsalının 98 faizi özəl sektorun payına düşür. Biz bu il kənd təsərrüfatına, yəni kəndliyə şərait yaratmaq üçün bütün vergiləri götürdük. Kəndli 8 növ vergi verməli idi. Biz torpaq vergisindən başqa, qalan hamısını götürdük. Fərdi təsərrüfatçılara öz işlərini görmək üçün yanacaq 50 faiz güzəştlə verilir. Bunların da nəticəsində kəndli torpaqda nə istəyirsə, onu da əkir.

Sovet hakimiyyəti vaxtında ixtisaslaşma var idi. Deyirdilər ki, Azərbaycanda ancaq pambıq əkilməlidir. Mən Azərbaycana rəhbərlik edəndə onlara sübut etdim ki, üzüm məhsulu SSRİ üçün pambıqdan da xeyirlidir. Çünki Orta Asiya respublikalarında da pambıq yetişdirilirdi, amma bir çox yerlərdə üzüm əkilmirdi. Azərbaycanda üzüm də, faraş tərəvəz də əkilməyə başladı. Biz aprel ayında faraş tərəvəzi Moskvaya və başqa şəhərlərə göndərirdik. Bunlardan hansı xeyir, hansı zərər verirdi, bu başqa məsələ idi. Amma indi nə əkmək lazım olduğunu kəndli özü bilir. Bu il bu məhsulu əkir, ondan xeyir götürür, amma sonra baxır ki, digər bitkidən daha çox xeyir götürəcək, onu əkir.

Məsələn, Azərbaycanda maldarlıq həmişə zərərlə işləyibdir, dövlət bu sahəyə dotatsiya veribdir. Vaxtilə respublikamızda yem zavodları var idi, mal-qaraya nə qədər qüvvəli yem verilirdi. Bunların hamısına çəkilən xərc dövlətin cibindən gedirdi ki, maldarlıq məhsulları istehsal edilsin və əhalinin tələbatı ödənsin.

Siz icra hakimiyyətinin başçılarısınız. Hansı kəndliyə bir şey verirsiniz? Yaxud Kənd Təsərrüfatı nazirindən soruşuram, o, kəndliyə bir şey verirmi? Yox. Kəndlinin torpağı da, texnikası da vardır, o, vergilərdən azad olunubdur. Hazırda kənddə o qədər mal, heyvan saxlayırlar ki, ət küçələrdə qalıbdır.

Bu günlərdə mən televiziyaya baxırdım, gördüm ki, küçələrdə sallaqxanalar yaradılıb, qoyun cəmdəklərini asıblar, alan yoxdur. Amma siz hamınız yaşlı adamlarsınız, bilirsiniz ki, 1980-ci illərdə, mən işlədiyim dövrdə – o vaxt ticarət naziri işləmiş Svetlana Qasımova buradadır – biz əhaliyə əti talonla verirdik. O zaman mən yeni il bayramı qabağı çalışırdım ki, camaata heç olmasa ət, kolbasa vaxtında verilsin. Çünki biz bu məhsulları mağazalara verirdik, onu orada gizlədirdilər. Məsələn, mən yeni il qabağı 3–4 gün bütün mağazaları gəzirdim ki, oğurlanıb anbarlarda gizlədilən əti, kolbasanı camaata satdıraq. Nə üçün? Çünki bu məhsullar yox idi, olanların da bir hissəsini mağazalarda gizlədirdilər, sonra isə çıxarıb üçqat artıq qiymətə satırdılar.

«Defisit» sözü yəqin ki, yadınızdadır. Arkadi Raykinin bir sözü var idi: «Defisit olmasa, yaşamaq mümkün deyil». O dövrdə, məsələn, əmtəəşünas işləyən ən hörmətli adam idi. Yəqin ki, bunlar xatirinizdədir. Amma indi kəndli nə əmtəəşünasdan, nə mağazadan asılıdır, nə qədər istəyir iribuynuzlu, xırdabuynuzlu heyvan, mal saxlayır. O bu məhsullardan özü də istifadə edir, harada istəyirsə, aparıb satır.

O cümlədən bitkiçilikdə də, taxılçılıqda da, digər sahələrdə də vəziyyət belədir. Yəni bizim 1996-cı ildə həyata keçirməyə başladığımız torpaq islahatı ölkəmizin iqtisadiyyatında inqilabdır. Sizin əksəriyyətiniz kənd təsərrüfatı ilə məşğul olan rayonların icra hakimiyyəti başçılarısınız, bütün bunları yaxşı bilirsiniz, bilirsiniz ki, bu inqilabdır.

Yəni mən bunları 1995-ci ildə ölkə iqtisadiyyatındakı tənəzzülü aradan götürdükdən sonrakı inkişafımız haqqında deyirəm. Mən bunları ona görə deyirəm ki, ötən beş ildə, yəni əvvəlki parlament seçkilərindən qarşıdakı parlament seçkilərinə qədər Azərbaycan hansı dövrünü və 1993-cü ildən 1995-ci ilədək hansı ağır dövrü yaşayıbdır. Ona görə də əgər biz ötən beş ilin rəqəmlərinə nəzər salsaq, görərik ki, ümumi daxili məhsul 39 faiz artıbdır. Bu çox yüksək göstəricidir. Ötən beş ildə orta əmək haqqı, orta həyat tərzi üç dəfə artıbdır. Amma 1990–94-cü illərdə orta həyat tərzi hər il 3,7 faiz aşağı düşürdü. İndi bizim 950 milyon dollar valyuta ehtiyatımız var. Bu bizim büdcədən çoxdur. Deməli, əgər Azərbaycanda heç bir şey istehsal olunmasa, biz 6–7 ay həmin valyuta ehtiyatından istifadə edib, idxal vasitəsilə ölkəmizi yaşada bilərik. Amma 1993-cü ildə mən Azərbaycana rəhbərlik etməyə başlayanda, bankda cəmisi 16 milyon 950 min dollar valyuta ehtiyatı var idi. Görürsünüz, bu ehtiyat artıb və artacaqdır.

Bilirsiniz ki, mən bu günlərdə bir neçə fərman vermişəm. Birincisi, dünən fərman verdim ki, aylıq əmək haqqının minimum məbləği beş dəfə artırılsın. Təbiidir ki, bəlkə də bu, ölkəmizdə orta əmək haqqını istənilən səviyyəyə gətirmir. Amma onu beş dəfə artırmaq üçün çalışmaq, işləmək, məhsul istehsal etmək, gəlir əldə etmək lazımdır. İndi aylıq əmək haqqının minimum məbləği 5500 manatdan 27500 manata çatdırıldı. Əlbəttə, mən çox şad olardım ki, onu 15 dəfə artıraq. Ancaq bizim belə bir atalar sözümüz var: «İnsan gərək ayağını yorğanına görə uzatsın». Bizim yorğanımız buna imkan verir. Əlbəttə, fantaziya ilə çox artırmaq olardı, amma bizim heç birimiz fantaziyaçı deyilik. Biz real iş görənlərik.

Mən qaçqınlara ödənilən çörək pulunu 25 min manata qaldırdım. Əlbəttə, mən istərdim ki, bu, 100 min manat olsun. Ancaq son iki ildə mən qaçqınların çörək pulunu üçüncü dəfədir ki, artırıram. Bu, iki il bundan qabaq 7 min manat idi, sonra biz onu 15 min manat, daha sonra 20 min manat etdik. Bu günlərdə isə mən fərman verdim, onu 25 min manata çatdırdıq. Niyə belə oldu? Çünki işlədikcə, istehsalı, gəliri ilbəil artıraraq, islahatları həyata keçirərək biz ölkəmizin maliyyə vəziyyətini inkişaf etdirdik. Ona görə də qaçqınlara verilən çörək pulunun miqdarını artırdıq. Mən bunu göydən götürməyəcəkdim ki? Yaxud, mən pensiyaları iki dəfə artırdım.

Ölkəmizin dövlət büdcəsi indi tamamilə yerinə yetirilir və bu il də yerinə yetiriləcəkdir, heç bir kəsir yoxdur. Dövlət büdcəsi yerinə yetirildiyinə görə maaşlar vaxtında verilir. Bunu siz də bilirsiniz, hamı da bilir. Oktyabr ayının pensiyaları hamıya verilibdir. Mən bugünkü müşavirədən əvvəl bunu bir daha yoxlamışam. Mənə deyiblər ki, oktyabr ayının maaşları – büdcədən maliyyələşən təşkilatların maaşları – noyabrın 3-nə qədər veriləcəkdir. Əgər haradasa – hansı rayondasa, bölgədəsə verilməyibsə, bu, dövlətimizin, hökumətimizin günahı deyildir. Bu, yerlərdəki nümayəndələrimizin, müvafiq təşkilatlarımızın günahıdır. Bizim imkanımız budur və biz də bunu təmin etmişik.

Biz beş il müddətində maaşları dalbadal artırmışıq. Məsələn, səhiyyə işçilərinin maaşı 2,8 dəfə, təhsil işçilərinin maaşı 3 dəfə, elmi işçilərin maaşı 2,5 dəfə, mədəniyyət işçilərinin maaşı 2,8 dəfə artırılıbdır. Çoxdur, azdır demək olmaz. Əlbəttə, mən istərdim ki, bu maaşların hamısını 5–6 dəfə artırım. Məsələn, balet işçiləri çox ağır vəziyyətdə idilər, onlar böyük bir kollektiv deyildir. Mən fərman verdim, onların maaşını 6 dəfə artırdım. Yaxud, Dövlət simfonik orkestrinin üzvlərinin maaşını artırdım. Amma səhiyyə, təhsil, elm, mədəniyyət böyük sahələrdir. Bunların hamısında maaşları artırmaq üçün vəsait olmalıdır. Əgər biz bu vəsaitləri əldə etməsəydik, bəs onda nə olardı? Bəli, biz bunu işimiz, islahatların həyata keçirilməsi, iqtisadiyyatın düzgün aparılması nəticəsində əldə etmişik və bu gün də əldə edirik.

Bunlar nəyə əsas verir? Bunlar ona əsas verir ki, biz iqtisadiyyatda, sosial-iqtisadi sahədə çox düzgün, doğru həm siyasət aparırıq, həm də əməli iş görürük. Bunlar da Azərbaycan vətəndaşlarının vəziyyətini aybaay, ilbəil daha da yaxşılaşdıracaqdır.

Ancaq bunları bilərək – çünki məni nəinki siz dinləyirsiniz, televiziya vasitəsilə bütün ölkə dinləyəcəkdir – heç də inkar etmirəm ki, bizdə çox ağır vəziyyətdə yaşayan insanlar vardır. Biz onları təmin edə bilməmişik. Ölkəmizdə işsizlər var. Biz hələ onları işlə təmin edə bilməmişik. Bir çox başqa problemlər də vardır ki, biz onları həll edə bilməmişik.

İşlərimizdə – yuxarıdan aşağıyadək – nöqsanlar çoxdur. Prezident Aparatının, Nazirlər Kabinetinin, nazirliklərin işində, sizin işinizdə nöqsanlar var, özü də az deyildir. Bunları aradan qaldırmaq lazımdır. Amma eyni zamanda, bütün bunlara obyektiv gözlə baxmaq lazımdır. Nə mümkündür edirik, nə edilməyibsə, deməli, o mümkün deyildir. Mümkün olmayan şeyi etmək olmaz. İndi mən sizin hansınızasa deyim ki, durun, iki metr yüksəkliyə tullanın. Mən

bunun üçün burada bir adam tapa bilmərəm. Elədir, yoxsa yox? Amma gedib haradasa oturub göplaya bilərsiniz ki, mən üç metr yüksəkliyə tullana bilərəm. Bəli, fantaziya ən asan bir şeydir. Amma çoxları həddindən çox fantaziyaya uyurlar. Ancaq həqiqət həqiqətdir.

Bu dövrdə təkcə iqtisadiyyat sahəsində deyil, həyatın bütün sahələrində nailiyyətlərimiz vardır. Mən bunu əvvəldə də dedim, ölkəmizdə demokratiya inkişaf edibdir, insanlar azaddır, sərbəstdir. Azərbaycanda söz, vicdan azadlıqları təmin olunubdur. Məsələn, indi seçkiqabağı kampaniya gedir. Hansı siyasi partiya seçkidə iştirak etmək istəyibsə, ona imkan verilibdir. Bəzi partiyaların qanunda tələb olunan müddəaları təmin edə bilməməsinə baxmayaraq, onlara da imkan yaradılıbdır.

Televiziyada danışırlar, qəzetlərdə öz fikirlərini, mülahizələrini yazırlar. Hərə öz ağlı səviyyəsində yazır. Mən heç kəsə irad tutmuram ki, nə üçün belə deyirsən, yazırsan və sair. Ölkəmizdə həqiqətən demokratiya inkişaf edir, söz azadlığı vardır, kim nə istəyirsə, onu deyə bilər, desin. Təki bunlar xalqın, millətin xeyrinə olsun. Biz belə bir demokratik şəraitdə, indi xalqın həm ümumi güzəranının yaxşılaşdığı, həm ölkəmizin qüdrətinin möhkəmləndiyi, həm də xarici siyasətimizdə əldə etdiyimiz uğurlar şəraitində ikinci dəfə Milli Məclisə seçkilərə gedirik.

Seçkiqabağı təbliğat, təşviqat, televiziyada, radioda, qəzetlərdə bununla əlaqədar aparılan işlər onu göstərir ki, Azərbaycan vətəndaşlarının tam əksəriyyəti ötən illərdə ölkəmizdə görülən işləri, əldə olunan nailiyyətləri görür, qiymətləndirir və bizim, iqtidarın işinə həm yüksək qiymət verir, həm də dəstəkləyir. Kim necə düşünür düşünsün, bu həqiqətdir. Mən də xalqla təmasdayam, bizim nümayəndələrimiz də hər yerdə xalqla görüşür, siz də görüşürsünüz. Bu, bu günün reallığıdır. Bütün bunlar da noyabrın 5-də parlament seçkilərinin yüksək səviyyədə, tam demokratik, şəffaflıq şəraitində keçirilməsi üçün möhkəm təməldir, əsas şərtdir. Ölkəmizdə insanlar sərbəstdir, azaddır. Onlar hər şeyi görür. Əgər kimsə gördüyünü inkar edirsə, bu onun öz işidir. Kimsə bizim bugünkü günümüzə qara gözlüklə baxırsa, bu da onun öz işidir.

Amma həqiqət bundan ibarətdir ki, xalqın ruh yüksəkliyi, iqtidarı dəstəkləməsi bu günün reallığıdır. Belə bir şəraitdə Mərkəzi Seçki Komissiyası çalışmalıdır ki, seçkilər tam demokratik, şəffaflıq şəraitində, ədalət prinsipi əsasında keçirilsin. Bizim hakimiyyət orqanları, xüsusən icra hakimiyyəti orqanları isə üzərlərinə düşən vəzifələri yerinə yetirsinlər ki, seçkilər mən dediyim prinsiplər əsasında həyata keçirilsin.

Amma onların səlahiyyətinə aid olmayan işlərə qarışmasınlar, müdaxilə etməsinlər, keçmiş zamanlarda bəzi hallarda buraxdıqları səhvləri təkrar etməsinlər. Bunlar qadağandır. Bilin, buna ehtiyac yoxdur. Əgər kimsə, hansısa icra hakimiyyəti başçısı hesab edirsə ki, buna ehtiyac var və guya bununla bugünkü hakimiyyətin, iqtidarın nümayəndələrini dəstəkləyirlər, böyük səhv edirlər. İqtidarın hansısa nümayəndəsi haradasa əgər xalqın dəstəyini qazanmayıbsa, seçilmirsə, bu da yaxşı haldır. Çünki biz görəcəyik ki, məsələn, iqtidarın həmin nümayəndəsi seçilmək istəyir, amma xalq dəstək vermir.

Bu sözləri deyərək, heç də iddia etmirəm ki, mən, yaxud bizim aparat, bütün hakimiyyət orqanları yerlərdə hər şeyi dəqiq bilir, yox. Mən bunu da etiraf edirəm. Amma mənə həqiqət lazımdır. Mənim bildiklərimə, təsəvvürümə görə xalqın, vətəndaşların əksəriyyəti Azərbaycan iqtidarının gördüyü işləri qiymətləndirir, dəstəkləyir və ona görə də öz səsini kimə verdiyini bilir.

Ancaq iqtidarın nümayəndələri içərisində qeyri-sağlam, xalqın arasında hörmət qazanmamış adamlar da var. Əgər belələrini biz görmürüksə, xalq bunu bizdən yaxşı görürsə, qoy xalq sözünü desin. Bu bizim üçün də xeyirdir. Çünki biz çalışmalıyıq ki, iqtidarın tərkibindəki hər bir insan demokratiya, dövlətçilik prinsiplərinə sadiq olsun, təmiz, saf və dəyərli vətəndaş olsun. Əgər belə deyilsə, o bizim hakimiyyətdə, bizim iqtidarda olmalıdır. Əgər belələri varsa, biz görmürüksə, onu bizdən yaxşı ancaq vətəndaşlar, seçicilər görərlər.

Bunları deməklə sizə bir daha anlatmaq istəyirəm ki, seçkilərdə ancaq öz üzərinizə düşən vəzifələri yerinə yetirməlisiniz. Sizin səlahiyyətinizin çərçivəsindən kənara çıxan başqa heç bir işə qarışmamalısınız. Bu, Mərkəzi Seçki Komissiyasının, yerli seçki komissiyalarının işidir. Seçkini onlar keçirirlər, onlar da məsuliyyət daşıyırlar. Siz də məsuliyyət daşıyırsınız. Ona görə ki, siz üzərinizə düşən vəzifələri yerinə yetirməlisiniz. Amma siz seçki prosesinə qarışmamalısınız.

İndi mən bu barədə müəyyən sözlər dedim. Ancaq konkret olaraq nə edə bilərsiniz, nə etməlisiniz və nə etməməlisiniz – bu barədə danışmaq üçün İcra Aparatının rəhbəri Ramiz Mehdiyevə söz verirəm.

## YEKUN SÖZÜ

İndi saata baxıram, təxminən 2 saatdır ki, bizim qarşımızda duran vəzifələr haqqında danışırıq. Bunun özü göstərir ki, Azərbaycanın iqtidarı, Azərbaycanın ali icra orqanı, Azərbaycanın prezidenti noyabrın 5-də Azərbaycanın Milli Məclisinə keçiriləcək seçkilərə nə qədər böyük qayğı göstərir, nə qədər böyük diqqət verir və bu seçkilərin nə qədər yüksək səviyyədə, yəni tam demokratik şəraitdə, şəffaflıq şəraitində, azad şəraitdə keçirilməsi üçün lazımi tədbirlər görür.

Ramiz Mehdiyev dedi ki, buraya 300-dən artıq müşahidəçi gələcəkdir. Olsun. Amma mən müşahidəçilərə də demişəm və yenə də görüşsəm deyəcəyəm, sizə də deyirəm. Biz işlərimizi müşahidəçiyə görə etmirik. Biz sadəcə,

öz ölkəmizdə demokra- tik quruculuq prosesinin yeni bir mərhələsini keçirik. Kimsə hesab edir ki, müşahidəçi gəlsin, yaxşı fikir söyləsin, mən bunu ona görə edirəm, o, səhv edir. Müşahidəçi müşahidəsini edib gedəcəkdir. Allah eləsin ki, obyektiv olsunlar. Amma təəssüf ki, içində qeyri-obyektivlər də olur. Biz bunları görmüşük. Onlar bizim dövlətimiz haqqında düşünən adamlar deyillər. Onlar iki, üç, dörd günlüyə gəlib öz vəzifəsini yerinə yetirib gedəcəklər. Amma biz dövlət qururuq, demokratiyanı inkişaf etdiririk. Biz demokratik prinsipləri daha da dərinləşdirmək istəyirik. Ona görə bu bizə lazımdır, müşahidəçiyə yox. Bu bizim xalqımıza, millətimizə lazımdır. Bu bizim dövlətimizə lazımdır. Ona görə bax, bu nöqteyi-nəzərdən hərə öz vəzifəsini yerinə yetirməlidir.

Doğrudan da əgər hər bir şəxs, o cümlədən siz, buraya toplaşanlar bu barədə öz məsuliyyətinizi hiss etsəniz, bizim dövlət quruculuğuna öz töhfənizi vermək istəsəniz və bu işə sağlam münasibət göstərsəniz, təbiidir ki, biz Azərbaycanda demokratik dövlət quruculuğu prosesinin bir mərhələsini də uğurla keçə biləcəyik.

Mən əmin olduğumu bildirmək istəyirəm ki, sizin hamınız öz vəzifələrinizi yaxşı dərk edirsiniz və bu gün burada aparılan söhbət nəticəsində qarşıdakı günlərdə öz işlərinizi bir daha təhlil edəcəksiniz, çatışmayan məsələləri həll edəcək, nöqsanları aradan qaldıracaqsınız və noyabrın 5-də biz Azərbaycanda Milli Məclisə yeni, keçmiş seçkilərdən daha da yüksək səviyyədə, demokratik şəraitdə seçkilər keçirəcəyik. Yeni Milli Məclis seçəcəyik və bununla da daha bir addım irəliləyəcəyik. Sağ olun.

**QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏSGƏR AKAYEVƏ**

Hörmətli Əsgər Akayev!

Qırğızıstan Respublikasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Prezident seçkilərində Sizin qələbəniz ölkənin müstəqilliyi və suverenliyinin möhkəmlənməsinə, cəmiyyətin bütün sahələrində demokratik islahatlar aparılmasına yönəldilmiş xəttinizin qardaş qırğız xalqı tərəfindən dəstəkləndiyinə inandırıcı sübutdur.

Əminəm ki, ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətləri xalqlarımızın mənafeləri naminə, regionda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 oktyabr 2000-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI SENATININ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN RUSİYA VƏ AVROPA ÖLKƏLƏRİ ÜZRƏ MƏSUL ƏMƏKDAŞLARI MAYKL VESFAL VƏ YAN BJEZİNSKİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*30 oktyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli qonaqlar, xoş gəlmisiniz. Amerika Birləşmiş Ştatları Senatının Beynəlxalq Əlaqələr Komitəsinin nümayəndələrinin Azərbaycana gəlməsini mən çox məmnuniyyətlə qarşılayıram. Güman edirəm ki, siz artıq burada müəyyən işlər görmüsünüz və müəyyən təəssüratlar toplamısınız. Ona görə də sizi dinləmək istəyirəm.

**R o s s U i l s o n** (*ABŞ-ın Azərbaycandakı səfiri*): Cənab Prezident, mən Maykl Vesfalı və Yan Bjezinskini böyük məmnuniyyət hissi ilə Sizə təqdim etmək istəyirəm. Bilirəm ki, cənab Bjezinskinin atası ilə Sizin çox uzunmüddətli əlaqələriniz vardır.

**H e y d ə r Ə l i y e v:** Bəli.

**R o s s U i l s o n:** Onların Azərbaycana səfəri Amerika Birləşmiş Ştatları Senatının Xarici Əlaqələr Komitəsinin Azərbaycana olan marağını nümayiş etdirir, ABŞ–Azərbaycan münasibətlərinin inkişaf etdirilməsinin təzahürüdür. İcazə verin, mən sözü cənab Bjezinskiyə və Vesfala verim.

**H e y d ə r Ə l i y e v:** Buyurun.

**Y a n B j e z i n s k i:** Cənab Prezident, icazə verin bildirim ki, bu gün burada Sizinlə görüşmək bizim üçün olduqca böyük şərəfdir. Sizə deyim ki, mənim atam Sizə özünün ən səmimi salamlarını, dərin hörmət və ehtiram yetirməyi tapşırmışdır. O heç özü bilmirdi ki, biz Sizinlə belə görüşə biləcəyik. Amma mən bu səfərə hazırlaşarkən onunla söhbət etdikdə, çox böyük ruh yüksəkliyi ilə mənə Sizin barənizdə, Azərbaycan haqqında və ABŞ–Azərbaycan münasibətləri barədə söhbətlər etdi. Çox geniş söhbətimiz oldu.

Bildiyiniz kimi, cənab Vesfal Senator Helmsin Baş müşaviridir və o, əsasən senatorun Azərbaycan, Qafqaz, bu region üçün fikirlərinin, siyasətinin formalaşmasında cavabdeh olan şəxsdir. Mən isə senator Helmsin Rusiya, MDB dövlətləri və NATO ilə münasibətləri sahəsində cavabdehəm. Ona bununla bağlı yardımçılıq, müşavirlik edirəm.

Senator Helms məni və Vesfalı Azərbaycana göndərərək buradakı vəziyyətlə daha yaxından tanış olmağımızı, onun üçün məruzələr hazırlamağımızı tapşırdı. Çünki o, Azərbaycana, dünyanın bu bölgəsinə çox böyük maraq göstərir, ABŞ-ın burada çox böyük marağı olduğunu anlayır.

Bilirsiniz ki, noyabr ayındakı seçkilərdən sonra Vaşinqtonda yeni hökumət fəaliyyətə başlayacaqdır. Ona görə də həm Amerika Konqresində, həm də Ağ evdə bizim xarici siyasətimizin yenidən qiymətləndirilməsi və müəyyənləşdirilməsi prosesi başlayacaqdır.

Cənab senator Helms belə bir fikirdədir ki, xarici siyasətin formalaşdırılmasında Azərbaycan ilə ABŞ arasındakı münasibətlərə müvafiq reaksiya göstərilsin, bu əlaqələrə yüksək önəm verilsin.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Mən sizə təşəkkür edirəm. Birincisi, mənim dostum Zbiqnev Bjezinskidən gətirdiyiniz salama görə çox təşəkkür edirəm. Cənab Bjezinski həqiqətən mənim çox yaxın dostumdur və sevdiyim bir insandır.

Mən onu qiyabi olaraq çoxdan tanıyıram. Cənab Bjezinski ABŞ prezidentinin təhlükəsizlik məsələləri üzrə köməkçisi olanda Sovetlər İttifaqının ən çox qorxduğu adam o idi. Çünki o vaxtkı hakimiyyət dövründə Ağ evdə o çox böyük rol oynayırdı. Ona görə də onunla şəxsən tanış olmaq mənim üçün çox vacib idi. Bu, Azərbaycan artıq dövlət müstəqilliyini əldə etdikdən, mən Azərbaycanın prezidenti olduqdan sonra mümkün oldu. Dəfələrlə görüşlərimizdə mən həmişə daha çox dərk etmişəm ki, o nə qədər ağıllı, bilikli, dünya siyasətinə düzgün, ədalətli münasibət göstərən həm alimdir, həm siyasətçidir, həm də böyük bir şəxsiyyətdir.

Sentyabr ayının əvvəlində mən Vaşinqtonda olarkən ABŞ–Azərbaycan Ticarət Palatasının böyük toplantısında hörmətli dostum Bjezinski çox böyük bir nitq söylədi və yenə də Azərbaycanın Amerika Birləşmiş Ştatları üçün bu regionda nə qədər gərəkli və vacib bir ölkə olduğunu bütün toplaşanlara sübut etdi. Onun Azərbaycana səfərləri bizim üçün çox əhəmiyyətli olubdur. Xüsusən Azərbaycanda olarkən Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində ölkəmizin torpaqlarının 20 faizinin işğal olunması ilə öz yerindən-yurdundan didərgin düşmüş, çadırlarda yaşayan qaçqınların yanına gedib, onlarla görüşüb, öz təəssüratlarını danışmaq – bunlar bizim üçün çox qiymətlidir.

Xatirimdədir, o, çadır şəhərciklərində qaçqınlarla görüşəndən sonra çox böyük həyəcan hissi ilə mənə danışırdı ki, dünyada munaqişələr baş verən bir çox ölkələrdə – Əfqanıstanda, Afrikada, Hindistanda, Pakistanda və başqa yerlərdə olmuşam, amma hələ bu qədər ağır vəziyyətdə yaşayan insanları görməmişəm. Təbiidir ki, bu bizim üçün çox əhəmiyyətlidir. Cənab Bjezinski gördüyü şeyləri harada lazımdırsa, orada bildirir və ona görə çox əhəmiyyətlidir ki, ölkəmiz haqqında, torpaqlarımızın işğal edilməsi, bir milyon qaçqınımız olması haqqında Amerika Birləşmiş Ştatlarının bəzi dairələrində ya düzgün məlumat yoxdur, ya qərəzli münasibət var və belə bir vəziyyətə lazımi reaksiya verilmir.

Xatirimdədir, mən 1997-ci ildə ABŞ-da rəsmi səfərdə olarkən biz birlikdə Corctaun Universitetinə getdik və orada o, böyük mərasimi mənim dostum Bjezinski aparırdı. O çox realist fikirli adamdır. Orada da demokratiya haqqında, yeni demokratik yola düşmüş ölkələr haqqında çox realist fikirlər irəli sürmüşdü. Bu fikirləri daha da dəqiq şəkildə cənab Bjezinski sentyabr ayının 8-də ABŞ–Azərbaycan Ticarət Palatasının böyük toplantısında bir daha bildirdi. Gərək ki, cənab səfir orada var idi və bunları dinləyirdi. Bunlar ona görə qiymətlidir ki, bu insan hər şeyə realist nöqteyi-nəzərdən baxır. Bir var nəzəriyyə, bir var mücərrəd fikir, bir də var reallıq və real vəziyyət. Cənab Bjezinski onunla fərqlənir ki, çox realist bir siyasətçidir.

Mən Vaşinqtonda sizin evinizdə qonaq da oldum. Ailənizlə birlikdə biz yemək yedik. O vaxt təəssüf etdik ki, siz yox idiniz, siz də orada olmalıydınız. Sizin çox gözəl ananız var. O mənada ki, çox ağıllıdır, gözəl heykəltəraşdır, çox gözəl insandır. Ona görə də sizin ailənizə mənim xüsusi münasibətim var. Mən çox məmnunam ki, siz bu gün Azərbaycandasınız.

Senator Helmsin bizim bölgəyə olan münasibəti də, təbiidir ki, bizim üçün çox maraqlıdır. Biz həmişə istəmişik ki, ABŞ-ın rəsmi dairələrində, o cümlədən Konqresdə, Senatda Azərbaycanın reallığı, bugünkü vəziyyəti haqqında doğru-düzgün, ədalətli təsəvvür olsun. Təəssüf ki, bir çox hallarda biz bunu görə bilmirik. Ona görə də sizin bu səfəriniz, hesab edirəm ki, sizin obyektiv təəssüratınız və senator Helmsə verəcəyiniz məruzə Azərbaycanın reallığı haqqında daha da geniş təsəvvür yarada bilər. Mən güman edirəm ki, sizdə qarşıdakı prezident seçkilərinin nəticəsindən asılı olmayaraq, Azərbaycanla ABŞ arasındakı əlaqələr davam edəcəkdir. Biz istəyirik ki, bu əlaqələr daim geniş olsun. Daha da geniş, mehriban olsun və biz Amerika Birləşmiş Ştatlarının daha çox dəstəyini ala bilək. Güman edirəm ki, siz öz işlərinizlə bu sahədə bizə yardım edəcəksiniz. Atanıza, ananıza mənim səmimi salamlarımı, hədsiz hörmət və ehtiramımı çatdırın.

**Y a n B j e z i n s k i:** Cənab Prezident, mən atam haqqında Sizdən belə yüksək və xoş sözləri eşitməkdən olduqca məmnunam, böyük şərəf duyuram. Deyim ki, söylədiyiniz sözlərlə razılaşmamaq olmur.

Cənab Prezident, Siz evimizdə olduğunuz zaman həmin şam yeməyində olmamağımdan bir tərəfdən utanıram, digər tərəfdən də qürur duyuram. Utanıram ona görə ki, belə gözəl bir imkanı əldən verdim, Sizin oradakı dəyərli sözlərinizi dinləməkdən məhrum olmuşdum. Amma qürur da duyuram, yəni sevinirəm ona görə ki, mənim oğlum dünyaya təzəcə gəlmişdi və çətin anda həyat yoldaşımı qoyub ziyafətə getmiş olsaydım, o məni düzgün anlamazdı.

**H e y d ə r Ə l i y e v:** Təbiidir, tamamilə doğrudur.

**Y a n B j e z i n s k i:** Cənab Prezident, icazə versəydiniz, mən senator Helmsin Azərbaycan və region barədə düşüncələrini xarakterizə edən üç kateqoriyanı Sizin diqqətinizə çatdırardım. Birincisi, senator Helms Azərbaycanı və bu bölgədə olan dövlətləri də Rusiyanın təsiri altında qalmağa məcbur olmuş ölkələr kateqoriyasına salır. Əvvəllər ABŞ-da belə bir məfhum yalnız Şərqi Avropa ölkələrinə aid edilirdisə, senator Helms hesab edir ki, Azərbaycan kimi dövlətlər də uzun illər milli qürura mənsub olan, bu hissi daşıyıb yaşatmış xalqlardandır ki, onların Rusiyadan qurtulmasına kömək etmək lazımdır.

İkincisi, senator Helms Azərbaycana baxışlarında təhlükəsizlik məsələlərini önə çəkir. O hesab edir ki, Azərbaycanın təhlükəsizliyi bütün regionun təhlükəsizliyi üçün olduqca əhəmiyyətlidir. Bu, Azərbaycanda, bölgədə olan enerji ehtiyatlarının və zəngin təbii ehtiyatların dünya bazarlarına çatdırılması üçün ölkənin sabit və təhlükəsiz yaşamasının təmin olunmasına yardım etmək deməkdir.

Üçüncüsü isə, senator Helms Azərbaycanda demokratiyanın inkişafını bütün regiona demokratiyanın yayılması kimi görür. O, hesab edir ki, gələcək təhlükəsizliyin təmin olunmasının əsasını da məhz Azərbaycanda demokratiyanın kök atması, əsl demokratik, inkişaf edən bir dövlətə çevrilməsi təşkil edir.

**H e y d ə r Ə l i y e v:** Yaxşı. Buyurun, siz də bir söz demək istəyirsinizmi?

**M a y k l V e s f a l:** Cənab Prezident, düzdür, mənim cənab Bjezinskinin olduğu kimi, Sizi tanıya biləcək atam yoxdur. Amma mən də çox məmnunam və şərəf duyuram ki, Siz vaxt tapıb bu gün bizi qəbul etdiniz.

Cənab Prezident, həmkarım Yan Bjezinski ilə tamamilə razıyam ki, Azərbaycan ABŞ üçün olduqca böyük əhəmiyyətə malik bir dövlətdir. Cənab Helms Azərbaycana xüsusi maraq və diqqət göstərir. Bizi buraya göndərməsi, buradakı vəziyyəti düzgün dəyərləndirib, onun üçün hesabat hazırlamağımızı istəməsi də elə buraya olan marağının bir təzahürüdür. Mən hesab edirəm ki, biz geriyə dönüb öz hesabatımızı hazırlayarkən ölkənin prezidenti ilə də görüşmək imkanımız olduğunu yazarıq. Bu görüş hazırlayacağımız o hesabatın daha təfərrüatlı olmasına, ABŞ–Azərbaycan münasibətlərinin bütün cəhətlərini əhatə etməsinə təminat verəcəkdir və ona görə də Sizə təşəkkür edirik.

**H e y d ə r   Ə l i y e v:** Mən hesab edirəm, sizin sözlərinizdən belə nəticə çıxarıram ki, senator cənab Helmsin düşüncələri ilə razılaşmaq olar. Amma biri var ki, bu məlumatları almaq, bir də var ki, bu problemlərin həll olunmasına əməli kömək etmək. Azərbaycanın buna ehtiyacı var. Mən güman edirəm ki, sizin bu səfəriniz müsbət nəticə verəcəkdir və Azərbaycan sizin dediyiniz prinsiplər əsasında inkişaf etmək üçün ABŞ-ın daha çox dəstəyini alacaqdır. Sağ olun.

## İSVEÇRƏ KONFEDERASİYASI FEDERAL ŞURASININ ÜZVÜ, VİTSE-PREZİDENT, FEDERAL MALİYYƏ DEPARTAMENTİNİN RƏHBƏRİ KASPAR VİLLİGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*30 oktyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Sizin bu səfəriniz Azərbaycan–İsveçrə əlaqələrinin inkişaf etdirilməsinin nümayişidir.

Mən xatırlayıram ki, bu ilin yanvar ayında Davosda sizinlə çox yaxşı görüşüm oldu, biz Azərbaycan–İsveçrə əlaqələri haqqında yaxşı fikir mübadiləsi apardıq. Mən çox məmnunam ki, indi siz öz nümayəndə heyətinizlə ölkəmizə gəlmisiniz, Azərbaycanın Baş naziri Artur Rasizadə, Maliyyə naziri və Dövlət Əmlakı naziri ilə səmərəli görüşlər keçirmisiniz.

Baş nazir sizinlə danışıqlar barədə mənə ətraflı məlumat verdi. Mən hesab edirəm ki, ölkələrimiz arasında olan əlaqələr yaxşı səviyyədədir. Ancaq hələ böyük imkanlar vardır və onlardan istifadə etmək lazımdır.

Mən bu gün 1999-cu ildə, bu ilin ötən aylarında ölkələrimiz arasında ticarət mübadiləsinin vəziyyəti ilə maraqlandım. Bilirsinizmi, bir çox ölkələrlə müqayisə edəndə İsveçrə–Azərbaycan ticarət əlaqələri yaxşı səviyyədədir. Bizim bir çox ölkələrlə bu sahədə əlaqələrimizin vəziyyəti belədir ki, idxal həmişə ixracdan çox olur. Amma bu gün baxdım ki, 1999-cu ildə Azərbaycandan İsveçrəyə ixrac idxaldan çox olubdur. Doğrudur, bunlar böyük həcmdə deyil, amma göstəricilər yaxşıdır. Bu o deməkdir ki, biz bu işləri daha da genişləndirə bilərik.

Siz Beynəlxalq Valyuta Fondunda, Dünya Bankında Azərbaycanla bir qrupdasınız. Təbiidir ki, Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının Azərbaycanla əməkdaşlığında ölkənizin xüsusi yeri var. Biz bunu yüksək qiymətləndiririk. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bundan sonra da Azərbaycanın problemlərinin həll olunmasına daha çox yardım edəcəksiniz.

Siz bəzi sahələr üzrə ölkəmizə qrantlar verirsiniz. Mənə məlumat verdilər ki, Ermənistanın təcavüzündən zərər çəkmiş bizim Tərtər rayonunda 15 məktəb binası sizin ayırdığınız qrantlar hesabına bərpa olunubdur. Bu qrantın bir hissəsi qalır, hələ xərclənməyibdir. Söz veriblər ki, əlavə 10 məktəb də bərpa olunacaqdır. Bu qrantlar böyük məbləğdə deyildir. Amma bizim üçün əsas onun məbləği deyil. Bizim üçün əsas Azərbaycana sizin göstərdiyiniz qayğı və diqqətdir.

İsveçrə dünyanın ən inkişaf etmiş ölkələrindən biridir. Bitərəf, gözəl ölkədir. Sizdə insanlar çox yaxşı yaşayır. Hər halda, bir çox millətin İsveçrədə bərabər hüquqda yaşaması və ölkənizin iqtisadiyyatının inkişafı bütün dünya üçün nümunədir. Yenə də deyirəm, buna görə də biz sizin ölkənizlə əlaqələrimizi çox yüksək qiymətləndiririk və bunun genişlənməsini istəyirik. Bu ziyarətiniz onu göstərir ki, siz də bizim ölkəmizə çox maraq göstərirsiniz.

Siz bilirsiniz ki, Ermənistanla Azərbaycan arasında hərbi münaqişə vardır.

Ermənistan Azərbaycana təcavüz edib və Ermənistan silahlı qüvvələri müxtəlif səbəblərə görə Azərbaycan torpaqlarının 20 faizini işğal ediblər. İşğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxarılıbdır. Onların əksəriyyəti çadırlarda yaşayır.

Biz 1994-cü ildə müharibəni dayandırmışıq, atəşkəs barədə saziş imzalamışıq. Məsələni sülh yolu ilə həll etmək istəyirik. Bu sahədə biz birinci növbədə ATƏT-in Minsk qrupunun həmsədrlərinin – Rusiyanın, Amerika Birləşmiş Ştatlarının, Fransanın fəaliyyətini çox əhəmiyyətli hesab edirik və onlara ümidlər bəsləyirik. Eyni zamanda Dünya Birliyinə daxil olan, dünyada hörməti olan ölkələrin də bu məsələnin sülh yolu ilə həll olunması üçün səyləri bizim üçün çox qiymətlidir.

Mən 1996-cı ilin dekabrında ATƏT-in Lissabon sammitində İsveçrənin bu məsələdə çox ədalətli mövqe tutmasının şahidi oldum. Mən bu günlərdə sizin səfirlə görüşərkən bu barədə ona dedim. Amma bu hadisə bizim üçün o qədər tarixi əhəmiyyət daşıyır ki, mən bunu bir də demək istəyirəm. Məsələnin indiyə qədər sülh yolu ilə həll olunmamasının səbəbi, təbiidir ki, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyidir. Bu da 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə Ermənistan tərəfindən bir daha nümayiş etdirildi. Lissabon zirvə görüşünün yekun sənədində Ermənistan–Azərbaycan münaqişəsi ilə əlaqədar maddə, təbiidir ki, bizi o qədər də təmin etməyən, ancaq eyni zamanda sülh yolu ilə irəliləməyə imkan verən maddə yazılmışdı. O vaxt, o il ATƏT-ə sizin ölkə – İsveçrə sədrlik edirdi. Bu maddənin yazılmasında da, təbiidir ki, sizin ölkənizin münasibəti özünü göstərmişdir.

Ancaq Ermənistan bu maddənin qəbul olunmasının əleyhinə çıxdı. Bilirsiniz ki, orada qərar konsensusla qəbul olunur. Ermənistan razılıq vermədi. Biz məcburiyyət qarşısında qalaraq, ATƏT-in yekun sənədinin

hamısına razılıq verməkdən imtina etdik. Nəticədə ATƏT-in yekun sənədinin qəbul olunması böyük təhlükə altında qaldı. Bir çox dövlət başçıları bizə müraciət edərək çıxış yolu axtarırdılar. Onlar bizə müraciət edirdilər ki, sənədə razılıq verək. Mən isə onlara deyirdim ki, siz Ermənistandan razılıq alın. Ona görə böyük qarşıdurma yarandı. Yenə sizin ölkəniz və ATƏT-in o vaxtkı sədri, o dövrdə sizin ölkənin Xarici İşlər naziri olan Flavio Kotti çox bacarıq göstərdi, çox xidmətlər göstərdi. Həmin o yekun sənədində olan maddənin bütün müddəalarını ATƏT-in sədrinin bəyannaməsinə saldı. Sonra dövlət başçıları bir daha toplaşdılar və yekun sənədi qəbul olundu. Cənab Flavio Kotti də ATƏT-in bəyanatını elan etdi. 54 dövlətdən 53-ü bu bəyanata səs verdi. Təkcə Ermənistan səs vermədi. Amma buna onların səs verməməsinin əhəmiyyəti yox idi. Bəyanat qəbul olundu.

O günlər biz məsələnin sülh yolu ilə həllinə çox yaxınlaşdıq. Bunda sizin ölkənizin böyük rolu oldu. Təəssüf ki, sonra Ermənistan yenə də özünün qeyri-konstruktiv mövqeyi ilə həmin müddəaların həyata keçirilməsinə imkan vermədi. Ermənistanda ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş bu sənədi Ermənistana vurulan böyük bir zərbə kimi indi də xatırlayırlar. Əslində isə bu zərbə deyildi, sülhün təmin olunması üçün ciddi bir addım idi.

İsveçrə mənim o qədər xoşuma gəldi ki, sonra mən Ermənistan prezidenti Köçəryanla təkbətək görüşlərimi Cenevrədə keçirməyi təklif etdim. Keçən ilin yayında biz orada iki dəfə görüş keçirdik. Onlar faydalı oldu. Orada görüşlər keçirmək üçün sizin hökumətiniz yaxşı şərait yaratdı. Ona görə də mən təşəkkür edirəm.

Mənim o ziyarətimdən bir nişanə var. Orada sizin hökumət mənə bir saat bağışladı. Ümumiyyətlə, mən sadə saatları sevirəm. Bundan əvvəl mənim sadə bir saatım vardı. 15 il onu mən gəzdirdim. Amma sonra işləmədi. Bu saatı mənə bağışlayanda çox sevindim. Çünki bu həm sadədir, həm də çox yaxşı işləyir. Doğrudur, sizin ölkədə çox gözəl saatlar istehsal olunur – bu, ölkənizin qədim xüsusiyyətidir – bəzən qızıldan, çox təmtəraqlı, brilyantlarla bəzədilmiş. Səninki də ondandır? Mən onları xoşlamıram. Ancaq bu saat həm gözəldir, həm yaxşı işləyir, həm də mənim daxili mənəviyyatıma uyğundur. Siz məni düzgün başa düşün. Elə düşünərsiniz ki, mən yenə də sizdən saat istəyirəm. Görürsünüz, nə qədər əlamətlər vardır.

Sizin «ABB» şirkəti Azərbaycanda çox yaxşı işləyir. Qısa müddətdə, bir ilin içərisində bizə böyük bir İstilik-elektrik stansiyası tikdi və biz onu bu günlərdə açdıq. Bizim enerji şirkətinin başçısı dünən mənə deyirdi ki, artıq həmin stansiya işləyir və 55 meqavata qədər elektrik enerjisi verir. Bunların hamısı indiyə qədər görülən işlərdir. Amma hesab edirəm ki, bundan sonra, xüsusilə sizin Azərbaycana səfərinizdən sonra, nəzərdə tutulmuş sənədlərin imzalanmasından sonra bizim əlaqələrimiz daha da genişlənəcəkdir.

Mən bir daha sizi salamlayıram. Buyurun.

**K a s p a r  V i l l i g e r**: Çox hörmətli cənab Prezident!

İcazə verin Sizinlə ətraflı və maraqlı söhbət keçirmək imkanına görə Sizə ürəkdən təşəkkür edim. Mən Sizinlə üçüncü dəfədir görüşürəm. Davosdakı görüşümüzü xatırlayıram. 1997-ci ildə Azərbaycana ilk səfərim zamanı Sizinlə görüşmək imkanım oldu və mən o görüşü unutmamışam. Sizin dediyiniz kimi, ölkələrimiz arasında münasibətlər həqiqətən gözəldir. İqtisadi əlaqələr də yaxşıdır, lakin bu əlaqələri dərinləşdirmək olar. Mən Sizə təşəkkür edirəm və biz, şübhəsiz, sevinirik ki, Siz İsveçrənin 1996-cı ildə Lissabonda oynadığı rolu xatırlatdınız. Mən on il cənab Flavio Kotti ilə birlikdə hökumətin tərkibində olmuşam, biz birlikdə işləmişik və Sizin onun haqqında söylədiyiniz xoş sözləri sevinc hissi ilə ona çatdıracağam.

**H e y d ə r  Ə l i y e v:** Mənim çoxlu salamımı və təşəkkürümü ona yetirin.

**K a s p a r  V i l l i g e r:** Mən bunu sevinclə edəcəyəm. Bizi belə bir fakt dərindən narahat edir ki, Sizin xatırlatdığınız faciə – ölkənizdə yaşayan bir milyon qaçqının faciəsi hələ də davam edir və mənim axırıncı səfərimdən ötən üç ildə irəliləyiş yoxdur, hərçənd problemin həll ediləcəyinə ümid bəslədiyimiz və bu ümid üçün əsasa malik olduğumuz mərhələlər, dövrlər olmuşdur. Əgər bizim kiçik ölkəmiz bu problemin həlli üçün, Sizi və ya digər tərəfi qonaq kimi, yaxud hər hansı digər üsulla qəbul etmək üçün öz xidmətlərini göstərə bilərsə, biz bunu Sizə sevinclə xəbər verəcəyik. Biz Sizin üçün edə biləcəyimiz bütün xidmətləri göstərməyə hazırıq.

Mənim Azərbaycana gəlişimin iki məqsədi var. Azərbaycan Dünya Bankında və Beynəlxalq Valyuta Fondunda İsveçrənin başçılıq etdiyi səsvermə qrupuna daxildir. Biz bu təsisatlarda Sizin maraqlarınızı daha yaxşı və daha güclü təmsil etməyə çalışırıq. Ona görə də Sizin vəziyyətinizlə, problemlərinizlə, uğurlarınızla bir daha şəxsən tanış olmağı münasib bilirik. Bu gün səhər mən Sizin Baş nazirlə, Maliyyə naziri, Milli Bankın İdarə Heyətinin sədri ilə söhbət etdim. Bu söhbətlərin hamısı mənim üçün faydalı oldu. Mən çox şey öyrəndim və əminəm ki, bu Sizin maraqlarınızı daha dərindən anlamaq üçün bizim üçün faydalıdır.

İkinci məqsəd qarşılıqlı iqtisadi münasibətləri müəyyənləşdirmək üçün imkanları nazirlərinizlə birliklə araşdırmaqdır. Mən bunu son dərəcə fərəhli bir fakt hesab edirəm ki, bu gün bizim ticarət və iqtisadiyyat sahəsində əməkdaşlıq haqqında qarşılıqlı saziş imzalamağa imkanımız var. Bu, əlaqələrimizi gücləndirmək üçün ilk, çox mühüm addımdır. Təbii ki, hökumət azad iqtisadiyyatı bəzi addımlar atmağa məcbur edə bilməz. Hökumətin edə biləcəyi bir şey varsa, o da sizin iqtisadiyyatınıza sərmayə qoymaq istəyən sərmayəçilər üçün çərçivələri, əsas istiqamətləri müəyyənləşdirməkdir. Hesab edirəm ki, bu gün imzalayacağımız saziş münasibətlərimizin ümumi binasının bünövrəsinə qoyulmuş ilk, kiçik bir daşdır. Sizin Baş nazirlə və Maliyyə

naziri ilə görüşlərdə mən ikiqat vergi tutulmaması haqqında müqavilə imzalamaq üçün imkan olduğunu xatırlatdım. Məncə bu, kreditorlarımızın Sizin ölkənizə yeni sərmayələr qoyması üçün şəraitin qəti şəkildə yaxşılaşdırılması demək olardı. İndi İsveçrə 80 ölkə ilə bu cür sazişlərə malikdir və təcrübəmizdən göründüyü kimi, bu həmin ölkələrin iqtisadiyyatına müsbət təsir göstərir. Ticarət və iqtisadi əlaqələrimizin daha da dərinləşməsi üçün ekspertləriniz bu məsələni araşdırsalar, mən şad olardım.

Təbii ki, iş maliyyə sahəsi, iqtisadi sahə ilə bitmir, başqa sahələr, siyasi məsələlər, siyasi həyat da var. Böyük maraqla, böyük sevinclə öyrəndik ki, ölkəniz tezliklə Avropa Şurasının üzvü olacaqdır. İsveçrə hökuməti bu fakta çox müsbət yanaşır. Siz Avropa ilə Asiya arasında körpüsünüz və belə düşünürəm ki, bu mənada həmin təşkilatın daxilində mühüm rol oynamağa sizin çox böyük imkanlarınız var.

Sizinlə söhbət etmək imkanına görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim. Biz Sizin ölkənizə böyük nümayəndə heyəti ilə gəlmişik. Bunu bilərəkdən etmişik, çünki istəyirdik ki, ölkənizlə hər hansı şəkildə münasibətləri olan bütün nazirliklərimiz sizin haqqınızda məlumatı özləri alsınlar. Təəssüf ki, vaxtımız azdır, buna baxmayaraq, bu gün söhbət etdiyim nazirlərinizə, hökumət üzvlərinə olduqca minnətdaram. Keçirdiyimiz müzakirələr çox sərbəst, çox dərin və yaxşı müzakirələr idi. Mənim təəssüratlarım da son dərəcə yaxşıdır və Sizə bildirməyə şadam ki, bu səhər biz çox şey öyrəndik. Bu imkana görə Sizə təşəkkür edirik.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm. Bizim fikirlərimiz üst-üstə düşür. Ona görə də məni daha da ruhlandırır. Həqiqətən, bu gün imzalanacaq iki sənəd ölkələrimiz arasında ilk addımdır. Ona görə də İsveçrə–Azərbaycan əlaqələrinin normativ əsaslara keçirilməsində böyük rol oynayacaqdır. Bu bizim üçün əlamətdar hadisədir. Yeni sənədlər imzalamaq, o cümlədən ikiqat vergiqoymadan imtina olunması haqqında ölkələrimiz arasında sənəd imzalamaq barədə təklifləriniz, hesab edirəm ki, yaxşı təkliflərdir və mən bunları dəstəkləyirəm. 80 ölkə ilə sizin belə müqaviləniz var. Biz 81-ci olarıq. Fikirləşin, əgər gələcəkdə başqa təklifləriniz olarsa, onlara da baxarıq və hesab edirəm ki, bizim münasibətimiz müsbət olacaqdır.

Mən təşəkkür edirəm ki, siz Azərbaycana böyük heyətlə gəlmisiniz. Bizim arzumuz həmişə ondan ibarətdir ki, ölkəmizə gələn qonaqlar Azərbaycanın bu gününü, ölkəmizin reallığını görsünlər və onların şəxsi təəssüratları olsun. Çünki qəzetlər, mətbuat, televiziya vasitəsilə verilən məlumatlar bəzən obyektiv, dəqiq olmur, bəzən qərəzli olur. Amma şəxsi müşahidələr, təbiidir ki, hər bir insanda öz təəssüratını yaradır.

Mən çox məmnunam ki, bu gün həm Baş nazirlə, həm nazirlərlə, başqa vəzifəli şəxslərlə intensiv danışıqlarınız çox məhsuldar olubdur. Bu bizim üçün daha məhsuldar olubdur. Buna görə də təşəkkür edirəm.

İndi isə yəqin ki, sənədləri imzalamaq olar. Ancaq bundan öncə mən sizə bir hədiyyə vermək istəyirəm. Davos haqqında Azərbaycanda bir kitab çıxıbdır. Burada görüşlərimiz də vardır.

**K a s p a r V i l l i g e r:** Çox gözəl.

**H e y d ə r Ə l i y e v:** Burada mən imza da atmışam və bu kitabı sizə yadigar olaraq verirəm.

(*Dövlətimizin başçısı «Davos: qlobal iqtisadiyyatın üfüqləri» kitabını cənab Kaspar Villigerə təqdim etdi*).

**K a s p a r V i l l i g e r:** Hədiyyəyə görə Sizə təşəkkür edirəm.

Sizin hədiyyənizi qiymətləndirirəm və o mənim kitab rəfimdə fəxri bir yerdə olacaqdır.

Hörmətli cənab Prezident, mənim də hədiyyəm var. Təəssüf ki, indi o, yanımda deyil, çünki qablaşdırılıbdır. Sizi əmin edirəm ki, orada təhlükəli heç nə yoxdur. Sizin saatınız kimi, mənim saatım da sadədir, ona görə ki, sadə saatların üstünlüyü var, onlar, adətən, çox dəqiq işləyir. Mənim hədiyyəm bizim saatların, necə deyərlər, bədii qaydada istehsalıdır, onları gəzdirmək olduqca ağırdır. Buna baxmayaraq, Siz ona şad olacaqsınız. Əminəm ki, Sizin təhlükəsizlik xidmətləri onun qorxulu olmadığı barədə rəyə gəldikdən sonra, Siz bizim hədiyyəmizə şad olacaqsınız.

**H e y d ə r Ə l i y e v :** Təşəkkür edirəm. Hər halda, bu saat köhnələndən sonra sizdən xahiş edəcəyəm ki, birini də mənə verəsiniz. Sağ olun.

* * *

*Sonra Azərbaycan Respublikası hökuməti ilə İsveçrə Konfederasiyası hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında saziş və Azərbaycan Respublikası hökuməti ilə İsveçrə Konfederasiyası hökuməti arasında məhəllə su nasos stansiyalarının yenidən qurulması layihəsinə maliyyə yardımı haqqında saziş imzalandı.*

**H e y d ə r Ə l i y e v:** Biz artıq sizinlə birgə bəyan etdik ki, bunlar ölkələrimiz arasında imzalanmış ilk və çox əhəmiyyətli sənədlərdir. Baş nazirin müavini Abid Şərifovla imzaladığınız ikinci sənəd bizim üçün çox əhəmiyyətlidir.

Mən Bakının su təchizatının yaxşılaşdırılması, nasosların dəyişdirilməsi üçün Azərbaycana 5 milyon dollar məbləğində qrant ayırdığınıza görə sizə təşəkkür edirəm.

**K a s p a r V i l l i g e r:** Cənab Prezident, bu iki sazişi imzalamaqdan şərəf duyuram. Siz indicə saat haqqında danışanda doğru dediniz ki, sadə əşyalar düzgün işləməlidir. Əgər mənim ölkəm kiçik, lakin çox mühüm bir şeyin dəqiq işləməsi üçün öz köməyini göstərə bilərsə, onda biz inanırıq ki, bu, doğrudan sonralar da düzgün işləyəcəkdir.

Cənab Prezident, biz çox böyük təəssürat içindəyik. Son 4 il ərzində Azərbaycanda həqiqətən çox müsbət dəyişikliklər olubdur.

Mən İsveçrə hökuməti və xalqı adından, şəxsən öz adımdan Azərbaycan xalqına, cənab Prezident, şəxsən Sizə uğurlar, cansağlığı və səadət arzulayıram.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm. Mənim salamlarımı prezidentə və hökumətinizə çatdırın. Sağ olun.

**MƏRMƏRƏ QRUPU STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VƏQFİNİN SƏDRİ CƏNAB AKKAN SUVERƏ**

Hörmətli Akkan Suver!

3-cü Avrasiya iqtisadi zirvə görüşünə dəvətinizə görə sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm.

Bu gün regionumuzun zəngin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması üçün Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin, Transxəzər qaz boru kəmərinin çəkilişi, böyük tarixi İpək yolunun bərpası kimi qlobal iqtisadi layihələrin həyata keçirilməsi Avrasiya regionuna marağı son dərəcə artırmaqdadır. Xüsusi strateji əhəmiyyət kəsb edən həmin layihələr ölkəmizin rifahı və çiçəklənməsi, eyni zamanda regionumuzda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olunması məqsədlərinə xidmət edir.

Çox məmnunam ki, regional əlaqələrin möhkəmləndirilməsi və inkişaf etdirilməsi məsələləri Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin daim diqqət mərkəzindədir. Əminəm ki, Avrasiya iqtisadi zirvə görüşləri xalqlarımız və ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi işinə bundan sonra da mühüm töhfələr verəcəkdir.

3-cü Avrasiya iqtisadi zirvə görüşünün iştirakçılarını ürəkdən salamlayır, işinizdə uğurlar diləyir, qardaş Türkiyə xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *28 oktyabr 2000-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ BAYRAMI – CÜMHURİYYƏT ELAN OLUNMASININ 77-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TÜRKİYƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*Bakı, Əyləncə Mərkəzi*

*30 oktyabr 2000-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

Sizi, qardaş türk xalqını Türkiyə Cümhuriyyətinin 77-ci ildönümü münasibətilə, həm Türkiyə üçün, həm də bizim üçün çox böyük əhəmiyyəti olan bayram münasibətilə ürəkdən təbrik edirəm, türk xalqına səadət, tərəqqi, sülh və əmin-amanlıq arzulayıram.

Türk xalqının böyük, çoxəsrlik tarixi vardır. Bu tarixin də çox əhəmiyyətli mərhələləri var. Amma XX əsrdə türk xalqı üçün ən böyük hadisə 1923-cü ildə böyük Mustafa Kamal Atatürkün iradəsi, siyasi müdrikliyi, qəhrəmanlığı ilə yaranan Türkiyə Cümhuriyyəti olmuşdur. Bəşər tarixində Türkiyə Cümhuriyyətinin yaranması və onun 77 il yaşaması böyük bir hadisədir. Böyük Mustafa Kamal Atatürkü biz bu gün minnətdarlıq hissi ilə xatırlayırıq. Türk xalqı kimi, Azərbaycan xalqı da ona daim minnətdar olacaqdır. Böyük Atatürk Türkiyə Cümhuriyyətini yaratdı, onu yaşatdı, inkişaf etdirdi və etibarlı əllərə verdi. Türkiyə Cümhuriyyəti böyük Atatürkdən sonra onun ideyalarına, qoyduğu yola, yaratdığı cümhuriyyətə sadiq qalmışdır və heç şübhə yoxdur ki, daim sadiq olacaqdır.

Türkiyə Cümhuriyyətinin tarixində bəzi mərhələlərdə mürəkkəb proseslər olmuşdur. Amma türk xalqı, qəhrəman türk ordusu bütün bu proseslərin qarşısını almış, Türkiyə Cümhuriyyəti yaşamış, yaşayır və yaşayacaqdır.

Türkiyə Cümhuriyyəti indi dünyanın ən böyük, iqtisadi cəhətdən inkişaf etmiş, demokratik dəyərlərlə yaşayan ölkələrindən biridir. Türkiyə Cümhuriyyəti Dünya Birliyində öz yerini tutmuşdur və dünyada gedən proseslərə bilavasitə təsir etmək gücünə və imkanına malikdir.

Bizim üçün Türkiyə Cümhuriyyəti, türk xalqı qardaşdır, dostdur və bizi birləşdirən tellər qədim tarixi ilə bərabər, müasir dövrdə də sarsılmazdır, qırılmazdır.

Azərbaycan dövlət müstəqilliyini bəyan edəndə dünyada ölkəmizin müstəqilliyini tanıyan ilk dövlət Türkiyə Cümhuriyyəti olmuşdur. Biz bu günlərdə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktının 9-cu ildönümünü bayram etdik. Ötən 9 il ərzində Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, ölkəmizin daxili, çətin proseslərdən uğurla keçməsində, respublikamızın iqtisadiyyatının inkişaf etməsində, dövlətimizin Dünya Birliyində özünə layiq yer tutmasında Türkiyə Cümhuriyyəti həmişə Azərbaycanın yanında olmuş, ölkəmizə qardaşlıq yardımını göstərmişdir və bu gün də göstərir.

Azərbaycanın düçar olduğu Ermənistan təcavüzü və erməni silahlı qüvvələrinin müxtəlif səbəblərdən respublikamızın ərazisinin 20 faizini işğal etməsi və bu işğal nəticəsində bir milyondan çox vətəndaşımızın qaçqın və köçkün olması, çadırlarda yaşaması bizi incidən, narahat edən qədər Türkiyəni, türk xalqını da incidir, narahat edir. Biz bu çətinlikləri bir yerdə keçiririk. Ermənistanın təcavüzünün qarşısının alınmasında, bu münaqişənin sülh yolu ilə həll olunmasında biz daim Türkiyə Cümhuriyyətinin, türk xalqının dəstəyini hiss edirik.

Türkiyə Cümhuriyyəti bəyan edibdir ki, əgər Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmasa, Türkiyə ilə heç bir əlaqə qura bilməz. Bunu dünya dövlətləri içərisində yalnız Türkiyə Cümhuriyyəti elan edibdir. Biz bunu yüksək qiymətləndiririk. Amma bizə göstərilən dəstək dostluq, qardaşlıq münasibəti təkcə bununla bitmir. Biz bir çox sahələrdə əməkdaşlıq edirik. Bütün beynəlxalq təşkilatlarda biz bir yerdəyik, eyni mövqedən çıxış edirik. Mövqelərimiz isə sülh, ədalət, müstəqillikdir.

Türkiyə Cümhuriyyətinin ən böyük nailiyyəti ondan ibarətdir ki, o, 77 il yaşayaraq, bir çox düşmən qüvvələrlə dəfələrlə rastlaşaraq öz müstəqilliyini qorumuş, saxlamış, möhkəmləndirmiş, güclü ordu yaratmışdır və indi Türkiyə Cümhuriyyəti yenilməz bir qaladır. Bu bizdə iftixar hissi doğurur. Çünki Türkiyə bizim ən yaxın dostumuz, qardaşımızdır. Qardaşın, dostun nailiyyətini həmişə dost, qardaş qiymətləndirə bilər. Biz bunu yüksək qiymətləndiririk.

Burada hörmətli səfir keçən il bu bayramın keçirilməməsinin səbəblərini qeyd etdi və Türkiyədə baş vermiş zəlzələ haqqında danışdı. Mən təşəkkür edirəm ki, o günlər siz, yəni bütün türk xalqı, Türkiyə Cümhuriyyəti Azərbaycanın Türkiyə ilə nə qədər dost, qardaş olduğunu bir daha müşahidə etdiniz. Biz o yardımları etdik. Neftayırma zavodunda böyük yanğını söndürdük. Əlimizdən gələn nə mümkündürsə etdik. Hətta burada çox gözəl

xatırlandı ki, sadə insanlar Türkiyə Cümhuriyyətinin səfirliyinin qarşısında hərə öz yardımını təklif edirdi. Amma eyni zamanda bu, tamamilə təbii bir haldır. Çünki bizim münasibətlərimiz elədir ki, başqa cür ola da bilməz.

Mən zəlzələdən bir müddət sonra Türkiyəyə getdim. Zəlzələ baş vermiş o yerləri əziz dostum və qardaşım Süleyman Dəmirəl ilə bərabər gəzdim. Zəlzələdən zərər çəkmiş insanlarla görüşdüm, onlara ruh verdim. Bizim onlarla bir yerdə olduğumuzu bildirdim. Oraya yenə müəyyən yardımlar apardım. Orada gördüm ki, türk insanı nə qədər dözümlüdür, mətindir, hər cür fəlakətin içindən qəhrəmanlıqla çıxan bir insandır, xalqdır.

Türkiyə Cümhuriyyəti böyük bir iqtisadi potensiala malikdir. Təbiidir ki, həmin o vurulan yaraları Avropa Birliyinin, başqa ölkələrin yardımı ilə qısa müddətdə sağaltdı və bəlkə də indi o zəlzələdən az iz qalıbdır.

Bizim münasibətlərimizdə çox əhəmiyyətli cəhətlər vardır. Onların hamısını burada deməyə ehtiyac yoxdur. Çünki bunu Azərbaycanda da, Türkiyədə də bilirlər. Ancaq Azərbaycan Xəzər dənizinin, bu hövzənin neft və qaz yataqlarının, bütün enerji resurslarının işlənilməsi və dünyaya açılması tədbirlərini başlayanda, yəni ölkəmizin neft strategiyasını həyata keçirəndə yenə də biz Türkiyə Cümhuriyyəti ilə bir yerdə idik. O illər xatirimdədir. Hələ 1993-cü ildə, biz sadəcə bəzi müqavilələri bağlamağa hazırlaşanda mən hörmətli Süleyman Dəmirəllə, Türkiyənin 9-cu cümhur başkanı ilə dəfələrlə danışıqlar aparırdım, məsləhətləşirdik. İlk müqaviləni 1994-cü il sentyabrın 20-də imzalayanda biz bir yerdə idik.

Xatirimdədir, o vaxt Türkiyə Baş nazirinin müavini, vaxtilə kənd təsərrüfatı naziri işləmiş mənim çox yaxın dostum Nəcməddin Cöhəri idi. Mən Naxçıvanda işləyəndə hörmətli Süleyman Dəmirəl Naxçıvana yardım edirdi. Biz orada bir «Həsrət körpüsü», «Ümid körpüsü» tikdik. O vaxt Naxçıvan blokadada idi. İndi də həmin vəziyyətdədir, amma o vaxt bu bölgə çox çətin vəziyyətdə yaşayırdı. Hökumət qərar qəbul etmişdi və hörmətli Nəcməddin Cöhəri Türkiyənin Kənd Təsərrüfatı naziri kimi daim bizə yardım göstərirdi. Sonra isə mən Azərbaycanın prezidenti olanda, 1994-cü ildə hazırlanan müqavilədə onun da imzası var, o da bu müqavilədə iştirak edibdir. Bu işləri o vaxtdan biz bir yerdə görürük.

Burada hörmətli səfir Bakı–Ceyhan neft kəmərini xatırladı. Bakı–Ceyhan kəməri həqiqətən bir əfsanədir, əsrlər boyu yaşayacaqdır. Bunun təməlini biz 1994-cü ildə qoyduq. Ancaq nə qədər bunun əleyhinə çıxanlar, bizə təzyiq göstərənlər, mane olmaq istəyənlər vardı. Ona görə də bu layihənin reallaşacağına çox şübhələr yaranmışdı: olacaq, ya olmayacaq? Nə vaxt Türkiyəyə gəlirdimsə – bunu bir neçə dəfə demişəm – bütün qəzetçilər, jurnalistlər bir sual verirdilər: Bakı–Ceyhan kəməri olacaq, ya olmayacaq? Mən onlara deyirdim ki, Bakı–Ceyhan kəməri olacaqdır və siz də bunu görəcəksiniz.

Ondan sonra, 1998-ci ildə Türkiyə Cümhuriyyətinin 75-ci ildönümünü qeyd edəndə biz ilk dəfə Bakı–Ceyhan kəməri haqqında Ankara bəyannaməsini imzaladıq. Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəl, Gürcüstanın, Azərbaycanın, Qazaxıstanın, Özbəkistanın prezidentləri o bəyannaməni imzaladılar. Amma yenə də bizə mane olurdular. Yenə də çətinliklər vardı. Ondan sonra biz işləri sürətləndirdik. Ötən ilin noyabr ayında İstanbulda ATƏT-in zirvə görüşündə son saziş imzaladıq. Bakı–Ceyhan layihəsi barədə sazişi biz imzaladıq. Amma eyni zamanda Amerika Birləşmiş Ştatlarının prezidenti hörmətli cənab Bill Klinton da bu sazişə imzasını qoydu. Bu da son deyildi, bundan sonra yeni problemlər yarandı. Bu problemlər kommersiya problemləri idi, bir sıra başqa problemlər idi. Bunları da həll etdik.

Bu günlərdə mən Amerika Birləşmiş Ştatlarının prezidenti hörmətli cənab Bill Klintondan bu münasibətlə təbrik məktubu aldım. Çox məmnunam ki, bizim gördüyümüz işləri o, yüksək qiymətləndirir. Xüsusən onu da unutmayıbdır ki, Bakı–Ceyhan neft kəmərini reallaşdırmaq üçün mən bu ilin martında Gürcüstana, Tbilisiyə getdim və orada bəyan etdim ki, Bakı–Ceyhan neft kəmərindən Azərbaycana çatan tarifləri Gürcüstana hədiyyə verirəm. Ona görə ki, Gürcüstanın buna ehtiyacı vardır. Əgər bunu mən etməsəydim, bu müqaviləni, son qərarı qəbul etmək mümkün deyildi. Yəni görürsünüzmü, biz nə qədər çətinliklərdən keçdik. Bu sazişi oktyabrın 17-də Azərbaycanda imzaladıq, oktyabrın 18-də Tbilisidə, oktyabrın 19-da isə Ankarada imzaladıq. Bu problem artıq qurtarmışdır. Güman edirəm ki, mənə bu barədə daha sual verən olmayacaqdır.

Mən iftixar hissi keçirirəm ki, biz – müstəqil Azərbaycan Respublikası bütün təzyiqlərə, maneələrə sinə gərdik, tutduğumuz yolla getdik, vədimizi yerinə yetirdik və Xəzər dənizi bölgəsi, həmin bu Bakı–Ceyhan kəmərinin keçəcəyi ölkələr üçün, Azərbaycan üçün böyük tarixi əhəmiyyətə malik olan bir iş gördük. Gələcək nəsillər bunu daha da yüksək qiymətləndirəcək və bizim nəsillərə minnətdarlıqlarını bildirəcəklər.

Böyük Mustafa Kamal Atatürkün dediyi «Yurdda sülh, cahanda sülh!» sözləri Azərbaycan üçün də müqəddəs bir şüardır. Biz də istəyirik ki, yurdda, cahanda sülh olsun. Biz bunu daha çox istəyirik, ona görə ki, ölkəmiz Ermənistanın təcavüzündən hələ xilas ola bilməmişdir. Ancaq mən bu gün bəyan edirəm ki, apardığımız sülh danışıqları və Türkiyə Cümhuriyyətinin bu sahədə bizimlə bərabər fəaliyyəti, ATƏT-in Minsk qrupunun həmsədrləri – Rusiya, ABŞ və Fransanın nümayəndələri və bu dövlətlərin başçıları, başqa beynəlxalq təşkilatların iştirakı ilə biz bunu həll edəcək və buna nail olacağıq. Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcəkdir. Ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq və yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz yerlərinə qayıdacaqlar.

Mən bu gün Türkiyə Cümhuriyyətinin 77-ci ildönümü ilə bağlı keçirilən bayramda bütün bu illər ərzində, Azərbaycan müstəqillik əldə etdiyi andan bu günə qədər türk xalqının, Türkiyə Cümhuriyyətinin bizimlə bərabər olduğunu qeyd etdim. Ancaq bu bayram günü təkcə Bakı–Ceyhan layihəsində deyil, bütün sahələrdə

Türkiyə Cümhuriyyətinin 9-cu prezidenti hörmətli Süleyman Dəmirəlin xidmətlərini xüsusi qeyd edirəm. Yeni seçilmiş prezident hörmətli Əhməd Necdət Sezər xarici ölkələrə ilk səfərini Azərbaycana etdi. Bu, Mustafa Kamal Atatürk ideyalarına sadiqliyin nümunəsidir. Türkiyə ilə Azərbaycan arasında olan dostluğun doğrudan da, nə qədər yüksək səviyyədə olmasını göstərir. Yeni seçilmiş prezidentlə də indi bizim yaxın dostluq və qardaşlıq əlaqəmiz vardır. Hörmətli Baş nazir Bülənd Ecevitlə və digər hökumət başçıları və üzvləri ilə də biz daim təmasdayıq və bərabər işləyirik.

Nəhayət, bu bayram günü mən böyük minnətdarlıq hissi ilə xatırlayıram ki, Türkiyə Cümhuriyyətinin Atatürk Beynəlxalq Sülh Mükafatını almaq mənə nəsib oldu. Ankarada bütün hökumət və məclis üzvlərinin, ordu generallarının iştirakı ilə keçirilmiş böyük bir mərasimdə hörmətli Süleyman Dəmirəl bu mükafatı mənə təqdim edərkən dediyim sözləri bir də təkrar etmək istəyirəm. Mən həyatımda çox mükafatlar almışam. Həm keçmiş Sovetlər İttifaqının ordenlərini, medallarını və müxtəlif mükafatlarını, həm də bir çox başqa ölkələrin orden və medallarını almışam. Belə mükafatlarım çoxdur. Təbiidir ki, mən bununla fəxr edirəm. Amma məni ən çox sevindirən və məndə ən böyük iftixar hissi doğuran Mustafa Kamal Atatürk Sülh Mükafatını almağım olmuşdur.

Bunların hamısı bizim son illər, tarixi nöqteyi-nəzərdən qısa zamanda birgə əldə etdiyimiz nailiyyətlərdir. İqtisadi əlaqələrimiz də çox genişdir. Bu barədə hörmətli səfir danışdı. Ancaq bundan da geniş, indikindən də yaxşı olmalıdır. Bunu da biz edəcəyik. Azərbaycanın iqtisadiyyatı inkişaf etdikcə, ölkəmizdə islahatlar həyata keçirildikcə, respublikamızda özəlləşdirmə prosesi getdikcə geniş sahibkarlıq, sahibkarlar təbəqəsi yarandıqca, bu iqtisadi əlaqələrdə yeni-yeni uğurlar olacaqdır. Mən buna əminəm. Yəni bu barədə bizim hələ görüləsi çox böyük işlərimiz vardır.

Bu bayram günündə mən qardaş türk xalqına uğurlar arzulayıram. Sizi, qardaş türk xalqını, Türkiyə Cümhuriyyətini bu bayram münasibətilə bir daha təbrik edirəm və hamınıza da cansağlığı, səadət və bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİNİN MDB ÖLKƏLƏRİ ÜZRƏ XÜSUSİ MÜŞAVİRİ, SƏFİR STEFAN SESTANOVİÇ, ATƏT-in MİNSK QRUPUNUN ABŞ TƏRƏFDƏN HƏMSƏDRİ, SƏFİR KERRİ KAVANO VƏ ONLARI MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*31 oktyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli qonaqlar!

Bizim yaxın dostlarımız, tanışlarımız, siz Azərbaycana xoş gəlmisiniz. Sizinlə görüşlərimiz artıq çox ənənəvi xarakter daşıyır. Bu yaxşı haldır. Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinin belə yüksək səviyyəli nümayəndə heyətinin Azərbaycana, ümumiyyətlə, bizim bölgəyə gəlməsi ABŞ-ın həm Azərbaycana, həm də bu bölgəyə olan diqqətini və marağını bir daha nümayiş etdirir. Mən bundan məmnunam. Təbiidir ki, sizi dinləmək istəyirəm.

**S t e f a n S e s t a n o v i ç:** Cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. Mən indiki vəzifəmdə olarkən üç ildir ki, Azərbaycana səfərlər edirəm. Sizinlə tamamilə razıyam ki, bizim bu görüşlərimiz yaxşı bir ənənə xarakteri almışdır.

Bu, ABŞ-ın Azərbaycanda səfiri cənab Uilsonun da iştirak etdiyi nümayəndə heyətimizin Sizinlə ilk görüşüdür. Bilirsiniz ki, cənab Uilson bu vəzifəyə təyin olunana qədər mənim əsas müavinim işləyirdi.

**H e y d ə r Ə l i y e v:** Siz öz adamınızı buraya göndərmisiniz. Amma yaxşı olar ki, bu bizim üçün xeyirli olsun.

**S t e f a n S e s t a n o v i ç:** Hər halda, bu görüşümüzün protokolda yazısının, stenoqrafik məlumatının rəsmi qeydiyyatda, tarixdə qalacağını nəzərə alaraq mən deməliyəm ki, o, prezident Klintonun buradakı adamıdır. Amma onu bir az mən özüm də tanıyıram.

**H e y d ə r Ə l i y e v:** Bir az yox, yaxşı tanıyırsınız. Prezident Klintona da siz onu təqdim etmisiniz. Yəni, bunu mən yaxşı mənada deyirəm. Bizim xarici ölkələrdəki səfirlərimiz də təbiidir ki, mənim adamlarımdır. Amma onların çoxlarını mənə təqdim edirlər, mən də təqdimatla razı oluram və göndərirəm.

**S t e f a n S e s t a n o v i ç:** Əgər prezident Klinton özü seçim etmiş olsaydı, Sizi inandırıram ki, o da elə səfir Uilsonu seçərdi.

**H e y d ə r Ə l i y e v:** Mənə də seçmək ixtiyarı versəydilər, mən də Uilsonu seçərdim.

**S t e f a n S e s t a n o v i ç:** Siz və prezident Klinton çox məsələlərdə razılaşırsınız.

**H e y d ə r Ə l i y e v:** Bəli, biz eyni fikirdəyik.

**S t e f a n S e s t a n o v i ç:** Səfir Uilsonun etimadnaməsini tez bir zamanda qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Siz ona tez bir zamanda ABŞ-ın buradakı səfiri kimi səlahiyyətlərini icra etmək şəraiti yaratdınız. Buna görə Sizə minnətdarlığımızı bildiririk.

Nyu-Yorkda Sizinlə görüşmüş prezident Klintonun və xanım Olbraytın Sizə ən səmimi salamlarını gətirmişəm. Həmişə olduğu kimi, Nyu-Yorkda keçirilmiş görüş də çox faydalı və səmərəli oldu.

Cənab Prezident, bu günlər biz ABŞ-da ən çox seçki məsələləri ilə məşğul oluruq. Amma öz seçkilərimizlə. Amerikadakı seçkilərlə ciddi məşğul oluruq. Onu da bildirmək istəyirəm ki, bizim seçkilərdə çox böyük sayda müşahidəçilər monitorinq həyata keçirəcəklər. Ölkəmizdəki prezident seçkilərini ATƏT də müşahidə edəcəkdir.

**H e y d ə r Ə l i y e v:** Bəs Azərbaycandan müşahidəçi niyə dəvət etməmisiniz?

**S t e f a n S e s t a n o v i ç:** Onları orada məmnuniyyətlə görmək istərdik.

**H e y d ə r Ə l i y e v:** Yox, siz dəvət etməmisiniz. Dəvət etsəydiniz, biz də gəlib müşahidə edərdik.

**S t e f a n S e s t a n o v i ç:** Bu olsaydı, çox məmnun qalardıq. Düzdür, ümidvarıq ki, bu seçkilərin azad və ədalətliliyi barədə heç kimdə şübhə olmayacaqdır. Amma get-gedə dünyada sayı artmaqda olan insanların çoxu ABŞ-ın xarici siyasətinin hansı yönümdə olacağı ilə daha çox maraqlanır.

Cənab Prezident, bu baxımdan tam əminliklə Sizə deyə bilərəm ki, bizdəki seçkilərin nəticələrindən asılı olmayaraq, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında münasibətlər baxımından ölkəmizin xarici siyasətində davamlılıq müşahidə ediləcəkdir. Əlaqələrimizin davamlılığı ona görə təmin olunacaqdır ki, bu əməkdaşlıq qarşılıqlı maraq üzərində qurulmuşdur. Onu da deyim ki, ölkəmizdə Azərbaycana maraq və diqqət, demək olar ki, hər iki partiya tərəfindən eyni dərəcədə dəstəklənir. Məsələn, noyabr ayının ortalarında senator Makkeyn və onun həmkarları

Azərbaycana gələcəklər. Ümidvarıq ki, Azərbaycan ilə ABŞ arasında bizim indiyə qədər əldə etdiyimiz əməkdaşlıq gələcəkdə də genişləndiriləcək və digər sahələrdə əlaqələr yaranacaqdır.

Biz Azərbaycan ilə enerji sahəsində əməkdaşlığımızın gələcəkdə daha da genişləndirilməsini arzulayırıq. Bu yaxınlarda biz Azərbaycanda enerji şirkətləri ilə Bakı–Tbilisi–Ceyhan layihəsinə dair son sazişlərin böyük müvəffəqiyyətlə imzalanmasının şahidi olduq. Hesab edirəm, indi hamıya aydındır ki, bu boru kəməri artıq reallığa çevrilməkdədir.

Biz gələcək münasibətlərimizdə regional diplomatiyanın daha da inkişaf etdirilməsini də nəzərdə tuturuq. Bugünkü görüşümüz zamanı biz sizinlə Dağlıq Qarabağ münaqişəsini müzakirə etmək və prezident Köçəryanla Sizin danışıqlarınızı necə irəli aparmaq barədə fikir mübadiləsi aparmaq niyyətindəyik.

Səfir Kavano bu yaxınlarda ATƏT-in Minsk qrupunun iclasından geri dönübdür və noyabr ayının sonunda Dağlıq Qarabağ məsələsinin müzakirəsinin ATƏT-in nazirlər səviyyəsində də keçirilməsi gözlənilir.

Biz terrorizm əleyhinə mübarizənin aparılması sahəsində də Azərbaycanla əməkdaşlığımızı genişləndirmək niyyətindəyik. Məhz buna görə də xanım Olbrayt özünün Baş müşaviri səfir Şiyani Azərbaycana göndərmək qərarına gəlibdir. O bu yaxınlarda ölkənizi ziyarət edəcək və Sizinlə danışıqlar aparacaqdır.

Bildirmək istəyirəm ki, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında təhlükəsizlik sahəsində də əməkdaşlıq genişlənməkdədir. Bu gün səhər biz Müdafiə Nazirliyində general Əbiyevlə yaxşı danışıqlar apardıq və gələn ayın ortasında ən böyük və yüksək rütbəli hərbçilərdən ibarət nümayəndə heyəti Azərbaycana gələcəkdir.

Cənab Prezident, mən öz çıxışıma ölkəmizdəki seçkilərlə başladım. Bəlkə də Sizin ölkənizdə keçiriləcək seçkilər barədə də bir iki kəlmə deməyim lazımdır. Hesab edirik ki, bu seçkilər də bizim gələcək birgə maraqlarımıza söykənir və əməkdaşlığımız üçün əsasdır. Siz sentyabr ayında Vaşinqtonda olarkən sizinlə birlikdə bir ziyafətdə iştirak edirdik. Orada cənab Bjezinskinin çıxışını dinlədik. O söylədi ki, Azərbaycanın təkamül yolu ilə demokratik inkişafı ölkələrimiz arasında əlaqələri və təmasları daha da sıxlaşdıracaqdır.

Biz ümidvar olduğumuzu bildirmək istəyirik ki, bu həftə Azərbaycanda keçiriləcək seçkilər də ölkənizdə demokratiyanın inkişaf etdirilməsi sahəsində irəliyə doğru atılmış bir addım ola biləcəkdir. Ümidvarıq ki, müşahidəçilər Azərbaycanın bu sahədə irəliyə doğru bir addım atdığını demək imkanı əldə edə biləcəklər.

Cənab Prezident, icazə verin, bizi bu gün qəbul etdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirim. Bizi əvvəllər də dəfələrlə qəbul etdiyinizə görə Sizə minnətdarlığımızı ifadə etmək istəyirik. Ümidvaram ki, ötən görüşlərimiz zamanı biz Sizinlə yaxın təmaslar quraraq, ölkələrimiz arasındakı əlaqələrin qarşılıqlı, faydalı müstəvidə inkişaf etdirilməsi üçün müəyyən işlər görə bilmişik.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm, cənab Sestanoviç. Birincisi, mən prezident cənab Bill Klintonun və xanım Olbraytın sizin vasitənizlə mənə göndərdikləri salama görə təşəkkür edirəm. Bir daha bəyan edirəm ki, indiyə qədər olan Azərbaycan–ABŞ əlaqələrinə, bundan sonrakı əməkdaşlığımıza sadiqəm və prezident Klintonu, xanım Olbraytı özümün çox yaxın, mehriban dostlarım hesab edirəm.

Mən də Nyu-Yorkda xanım Olbraytla, prezident Klintonla görüşlərimi çox yüksək qiymətləndirirəm. Bu görüşlər sizin iştirakınızla keçmişdir. Hesab edirəm ki, biz yenidən, demək olar ki, bütün məsələlərdə eyni fikirdə olduğumuzu bəyan etdik və bundan sonra da əməkdaşlığımızı inkişaf etdirmək haqqında bəyanatlar verdik.

Mən Nyu-Yorkda, Vaşinqtonda olarkən sizinlə şəxsən görüşlərimdə və başqa bütün görüşlərdə Bakı–Ceyhan neft kəməri haqqında yenə də çoxlu fikirlər, mülahizələr irəli sürülürdü. İndi siz görürsünüz ki, Azərbaycan əvvəlcədən tərtib etdiyimiz proqramın həyata keçirilməsi üçün bütün imkanlardan istifadə etdi. Bir çox çətinliklərə, müqavimətlərə – xüsusən, bu çətinlikləri biz çəkirdik, müqavimətlər bizə qarşı idi – baxmayaraq, nəhayət, oktyabr ayının 17–19-da Bakıda, Tbilisidə və Ankarada Bakı–Ceyhan boru xəttinin son sazişlərinin imzalanmasına nail olduq. Bu bizim üçün tarixi hadisədir. Təbiidir ki, biz bunu öz proqramımızda bir mərhələ hesab edirik. Amma Azərbaycanın dövlət neft strategiyasının həyata keçirilməsi üçün bu çox böyük əhəmiyyət daşıyır.

Biz indi və gələcəkdə çox miqdarda hasil ediləcək neftin dünya bazarlarına çıxarılması üçün lazımi tədbiri görmüşük. Əminəm ki, indiyə qədər olduğu kimi, qarşıdan gələn illərdə də biz öz iradəmizi göstərəcəyik və Bakı–Ceyhan neft kəmərinin tikilib istifadəyə verilməsini təmin edəcəyik. Təbiidir ki, biz bu işi görərkən həmişə – başlanğıcdan sona qədər Amerika Birləşmiş Ştatlarının və şəxsən prezident Bill Klintonun dəstəyi bizimlə olmuşdur. Mən bunu dəfələrlə demişəm və bu gün bir daha bəyan etmək istəyirəm ki, əgər biz Amerika Birləşmiş Ştatlarının, şəxsən prezident Bill Klintonun bu məsələyə daim diqqət və qayğısını, dəstəyini hiss etməsəydik, yəni bu olmasaydı, həmin layihənin həyata keçirilməsi mümkün olmazdı.

Bəli, Bakı–Ceyhan neft kəməri Amerika Birləşmiş Ştatları üçün də çox əhəmiyyətlidir. Çünki ABŞ-ın Xəzər hövzəsində uzunmüddətli marağını təmin etmək üçün və gələcəkdə də bizim bu sahədə əməkdaşlığımızı təmin etmək üçün, ölkənizin çoxsaylı şirkətlərinin Azərbaycanda iş görməsi üçün bu layihənin çox böyük əhəmiyyəti vardır. Prezident Bill Klintonun bu münasibətlə mənə göndərdiyi təbrik məktubu və həmin məktubda Azərbaycanın, xüsusilə onun prezidentinin rolunun qiymətləndirilməsi, təbiidir ki, bizim üçün yeni bir

dəstəkdir. Mən təşəkkür edirəm, eyni zamanda sizi, Amerika Birləşmiş Ştatlarının hökumətini, şəxsən prezident Bill Klintonu bu münasibətlə təbrik edirəm.

Təbiidir ki, istərdik bütün başqa sahələrdə də bizim əməkdaşlığımız belə uğurlu olsun. Təhlükəsizlik, terrorizmə qarşı mübarizə sahəsində ABŞ-ın Azərbaycanla sıx əməkdaşlıq etməsinin bizim tərəfimizdən müsbət qarşılanmasını siz qeyd etdiniz. İnanıram ki, biz bu sahədə həqiqətən səmərəli əməkdaşlıq edə bilərik. Ancaq təbiidir ki, biz arzu edərdik, çox istərdik ki – şəxsən mən bunu dəfələrlə demişəm – Ermənistan– Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi üçün, bir milyondan çox azərbaycanlının, 8 il çadırlarda yaşayan vətəndaşlarımızın öz yerinə-yurduna qayıtması üçün bizim əməkdaşlığımız da belə uğurlu olsun, belə səmərəli olsun. Sizinlə bu barədə fikir mübadiləsi aparmağa mən yenə də hazıram.

Minsk qrupunun həmsədri səfir Kavanonun Vyanadakı görüşləri haqqında da mənim məlumatım vardır. Bu barədə verilən bəyanat da, hesab edirəm ki, yaxşı bir bəyanatdır. Siz məlumat verdiniz ki, noyabr ayında ATƏT-in, mən belə başa düşdüm ki, ATƏT-in Minsk qrupunun xarici işlər nazirləri də görüşəcəklər. Əgər bunlar həqiqətən həyata keçirilsə və bunlardan bir nəticə əldə olunsa, təbiidir ki, biz bu sahədə də irəliləyə bilərik.

Mən sizin qarşıdan gələn prezident seçkilərində ABŞ xalqına, Amerika dövlətinə uğurlar arzulayıram. Mən elə bilirdim ki, müşahidəçilər təkcə bizim ölkəyə gəlir, ABŞ-a getmirlər. Çünki dünyada hər yerdə bütün seçkilərə Amerika Birləşmiş Ştatları müşahidəçi göndərir. Amma bilirəm, sizdə demokratiya o qədər inkişaf edib, seçki ilə bağlı o qədər gözəl təcrübəniz var, inanmıram ki, müşahidəçilər hansısa bir qüsur tapa bilsinlər.

Mən də belə fikirdəyəm ki, bu seçkilərdə kimin prezident seçilməsindən asılı olmayaraq, Amerika Birləşmiş Ştatlarının indiyə qədər Azərbaycanla əlaqədar apardığı siyasət dəyişməyəcəkdir. Mən bəyan edirəm ki, biz də, Azərbaycan da, ölkənin prezidenti də bu seçkilərdə kimin qalib gəlməsindən asılı olmayaraq, ABŞ ilə indiyə qədər apardığımız əməkdaşlığı və siyasətimizi bundan sonra da ardıcıl surətdə davam etdirəcəyik.

Azərbaycanda noyabrın 5-də keçiriləcək parlament seçkiləri haqqında tövsiyələrinizə görə təşəkkür edirəm. Məqsədimiz bundan ibarətdir ki, bu seçkilər maksimum bizim imkanlarımız çərçivəsində demokratik prinsiplər əsasında keçirilsin. Vaşinqtonda sizin də, mənim də böyük bir ziyafətdə olduğumuz zaman hörmətli cənab Zbiqnev Bjezinskinin bu barədə söylədiyi fikirləri xatırlatdınız.

Xatırladınız və dediniz ki, cənab Bjezinski Azərbaycanda demokratiyanın təkamül yolu ilə inkişaf etməsi haqqında öz fikirlərini bildirdi. Mən bununla tam razıyam. Xatirinizdədir ki, cənab Bjezinskidən sonra mən də öz çıxışımda bu məsələyə geniş yer verdim. Cənab Bjezinskinin fikirləri ilə tam razı olduğumu bildirdim. Mən hesab edirəm ki, biz seçkilərdə demokratiya yolunda irəliyə doğru böyük bir addım ata biləcəyik.

İki gün bundan öncə mən burada, bu salonda Azərbaycanın icra hakimiyyəti orqanlarının başçıları ilə çox geniş bir müşavirə keçirdim. Onları bir daha xəbərdar etdim ki, keçmişdə bəzən buraxdıqları nöqsanlara bundan sonra yol verməsinlər. Seçki prosesinə müdaxilə etməsinlər, seçkini yalnız Mərkəzi Seçki Komissiyası və yerli seçki komissiyaları keçirməlidir. İcra hakimiyyəti orqanları isə onlara qanunda nəzərdə tutulmuş çərçivədə lazımi yardımlar etməlidir. Ciddi tapşırıqlar vermişəm. Amma məsələ təkcə bunda deyil, indiyədək görülən işlərdədir. Hər halda, mən hesab edirəm ki, Azərbaycanda seçkiqabağı kampaniya demokratik şəraitdə gedir. Bu da noyabrın 5-də seçkilərin demokratik şəraitdə keçirilməsi üçün əsas yaradır. Mən bunu istəyirəm və bunu Azərbaycan üçün çox əhəmiyyətli hadisə hesab edirəm. Təşəkkür edirəm.

Sözünüz yoxdursa, mətbuatı azad edək, sağ olsunlar.

## YAPONİYA–AZƏRBAYCAN İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN SƏDRİ, «NİÇİMEN KORPOREYŞN» ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ CƏNAB VATARİ AKİRANIN BAŞÇILIĞI İLƏ BU KOMİTƏNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*31 oktyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli qonaqlar, əziz dostlar!

Mən sizi Azərbaycanda salamlayıram və dərin məmnunluq hissi ilə bildirirəm ki, son illər Yaponiya ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf edir. Mən 1998-ci ildə Yaponiyaya rəsmi səfərimi və orada keçirdiyim çoxsaylı görüşləri böyük səmimiyyətlə xatırlayıram və xüsusilə şadam ki, bundan sonra münasibətlərimiz daha müvəffəqiyyətlə inkişaf etməyə başlamışdır. Yaponiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq bizim üçün böyük əhəmiyyətə malikdir. Biz şadıq ki, Yaponiya Azərbaycanda öz daimi səfirliyini açmışdır və səfir artıq buradadır. Yeri gəlmişkən, mən şadam ki, siz 1998-ci ildə Tokioda verdiyiniz vədi yerinə yetirmisiniz. Mən həmçinin bu fikirdəyəm ki, biz Yaponiya–Azərbaycan İqtisadi Əməkdaşlıq Komitəsi yaratmaqla çox düzgün hərəkət etmişik. Bu gün biz deyə bilərik ki, bu əməkdaşlıq artıq öz bəhrələrini verir. Sizin belə böyük və mötəbər nümayəndə heyəti ilə Azərbaycana gəlməyiniz göstərir ki, Yaponiyada Azərbaycanla iqtisadi əməkdaşlığa böyük əhəmiyyət verilir. Mən bunu alqışlayır və istəyirəm biləsiniz ki, biz bu əməkdaşlığa daha böyük maraq göstəririk və Yaponiya ilə Azərbaycan arasında həyata keçirilən işləri yüksək qiymətləndiririk.

Xəzər dənizinin enerji ehtiyatlarının hasilatı sahəsində əməkdaşlığımız geniş vüçət almışdır. Yaponiyanın kreditləri əsasında indi biz kimya kompleksimizdə çox mühüm qurğunun yaradılmasını başa çatdırmaqdayıq. Məncə, bu işlərin dəyəri 90 milyon dollardır. Yeri gəlmişkən, nəzərə çatdırmaq istəyirəm ki, hörmətli dost, siz Sumqayıtdakı həmin kompleksin inşasını maliyyələşdirən «Niçimen» şirkətinin prezidentisiniz. Mən bu tikintinin bünövrəsinin qoyulması mərasimində iştirak etmişəm və sizinlə birlikdə oraya getmək, açılışı bildirən lenti kəsmək üçün onun başa çatdırılmasını səbirsizliklə gözləyirəm.

Biz Şimal DRES-in tikintisi üçün ayrılmış güzəştli kreditlərə görə Yaponiya hökumətinə minnətdarıq, Yaponiya hökumətinin qrantlarına görə təşəkkür edirik. Bu qrantlardan bizdə səhiyyədə, kənd təsərrüfatında və başqa sahələrdə səmərəli istifadə edilir. Bütün bunlar mənə belə deməyə əsas verir ki, iqtisadi əməkdaşlığımız çox səmərəli olmuşdur. Biz bir-birimizi yaxşı tanıdıq, dostlaşdıq, bir-birimizi başa düşürük və siz işgüzar dairələr olaraq, indi Azərbaycanda müxtəlif sahələrə sərmayə qoyulması üçün çox böyük imkanlar olduğunu görürsünüz. Mən isə əvvəllər olduğu kimi, bu gün də bəyan edirəm ki, Azərbaycanda Yaponiya ilə hər hansı layihə üzrə işin uğurla həyata keçiriləcəyinə təminat verirəm. Mən sizi bir daha salamlayıram.

**V a t a r i A k i r a:** Çox hörmətli cənab Prezident!

İlk öncə Sizə təşəkkürümü bildirmək istərdim ki, çox məşğul olmağınıza baxmayaraq, bu gün bizi qəbul etməyə vaxt tapdınız. Buna görə Sizə ürəkdən təşəkkür etmək istəyirəm. Ötən ilin martında biz Yaponiya–Azərbaycan İqtisadi Əməkdaşlıq Komitəsinin yaradıldığı barədə rəsmən məlumat vermək üçün Bakıya gələndə də Sizinlə görüşmək şərəfinə nail olduq. Buraya gəldiyimiz o vaxtdan il yarım ötmüşdür. Sizin səhhətiniz sarıdan bir qədər narahatlıq da keçirdik, lakin bu gün mən çox şadam ki, Siz yaxşı görünürsünüz. Əməkdaşlığımızın indiki vəziyyətini nikbinliklə izah etdiniz. Bu bizim üçün böyük fərəhdir.

**H e y d ə r Ə l i y e v:** Mən sağ və salamatam. Yaponiyadakı kimi, hələ çox yaşayacağam. Bilirəm ki, dünyada ən yüksək orta uzunömürlülük Yaponiyadadır.

**V a t a r i A k i r a:** Biz də buna ümid bəsləyirik. Siz də qeyd etdiniz ki, bu ilin yanvarında Bakıda Yaponiyanın səfirliyi açıldı və cənab səfir Xirose may ayında gələrək fəaliyyətə başladı. Yaponiya biznesmenləri olaraq biz də çox şadıq ki, səfirlik açılmışdır və o, ölkələrimiz arasında iqtisadi və işgüzar münasibətlərin genişlənməsinə fəal kömək göstərir. Bu gün bizim heyətin üzvləri arasında Yaponiya hökumətinin nümayəndələri də var. Mən bilən, Yaponiya hökuməti Azərbaycanla əməkdaşlığa kömək göstərməyə və müxtəlif iqtisadi layihələr üçün iyena ilə kreditlər, habelə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankının kreditlərini verməyə hazırdır. Gələn ilin iyun ayında Tokioda üç Cənubi Qafqaz ölkəsinin sərgisini keçirmək planlaşdırılır. Sərgidə Yaponiya istehlakçılarına Sizin ölkənizin – Azərbaycanın malları, xüsusən qeyri-neft sahəsinə aid mallar təqdim ediləcəkdir.

Bildiyiniz kimi, bir çox Yaponiya firmaları Bakıda öz nümayəndəliklərinə malikdir və iqtisadi əməkdaşlığa dair layihələr, Azərbaycan mallarının, xüsusən qeyri-neft sektoru mallarının ixracı üçün imkan tapmağa çalışırlar. Çünki Yaponiyanın özəl dairələri də Azərbaycan iqtisadiyyatının inkişafında Sizə kömək göstərmək niyyətindədirlər. Dünən biz Yaponiya ilə Azərbaycan nümayəndələrinin iştirakı ilə İqtisadi Komitəmizin ikinci birgə iclasını keçirdik. Hər iki tərəf iqtisadi münasibətlərimizin daha da inkişaf etdirilməsinə çox fəal kömək etmək istədiyini bildirdi. Biz Sizə sevinc hissi ilə birdirmək istəyirik ki, cənab Baş nazir Artur Rasizadənin köməyi və komitənin Azərbaycan tərəfdən həmsədri olan cənab Şərifovun himayəsi ilə biz dünənki iclasımızı çox uğurla keçirdik, açıq fikir mübadiləsi oldu. Dünənki iclasda Yaponiya biznesmenləri üçün aldığımız məlumat çox dəyərli məlumat idi. Zənnimcə biz, komitəmizin bütün üzvləri öz komitəmizin əsas məqsədini – iqtisadi münasibətlərimizin yaxşılaşmasına kömək etmək məqsədini yaxşı bilirik. Həmsədr olaraq, biz öz tərəfimizdən bu məqsədin həyata keçirilməsinə çox salışırıq. Buna görə də Sizdən xahiş etmək istəyirik ki, işimizin daha səmərəli olması barədə bizə məsləhət verəsiniz.

Mən «Azərikimya» ilə birgə layihəmizdən bir qədər danışmaq istəyirəm. Dediyiniz kimi, bütün işlər plana uyğun olaraq çox dəqiq gedir, biz tikintini başa çatdırmışıq və hazırda, sınaq dövründə hər şeyi yoxlayırıq. Bu ayın sonunadək hər şeyi edəcəyik, məhz buna görə də bizimlə birlikdə işləmiş olan «Çioda» firmasının nümayəndələri buradadırlar. Mən də ümidvaram ki, açılış mərasimində sizinlə birlikdə iştirak edəcəyik. Əlbəttə, biz sizin çox məşğul olduğunuzu gözəl başa düşürük, amma icazə versəydiniz, biz Azərbaycan iqtisadiyyatının inkişafı işində Yaponiya firmalarının fayda verə biləcəyi sahələri Sizinlə müzakirə edərdik.

**H e y d ə r Ə l i y e v:** Söylədiyiniz bütün sözlərə görə sizə təşəkkür edirəm. Deməliyəm ki, əməkdaşlığımız haqqında rəylərimiz uyğun gəlir. Mən şadam ki, siz – Yaponiya biznesmenləri Azərbaycana getdikcə böyük maraq göstərirsiniz. Şadam ki, dünən siz birgə komitənin iclasını keçirdiniz və dediyiniz kimi, o, uğurlu və hər iki tərəf üçün faydalı oldu. Mən xüsusilə məmnunam, siz bildirdiniz ki, Yaponiya biznesi Azərbaycana, ilk növbədə qeyri-neft sahəsinə daha çox sərmayə qoymaq istəyir. Mən Cənubi Qafqaz ölkələrinin Tokioda sərgisini keçirmək qərarınızı alqışlayıram. Hesab edirəm ki, Azərbaycan orada yaxşı təmsil olunacaqdır. Nəzərə alıram ki, artıq dekabrda biz sizinlə kimya kombinatımızda kompleksi işə salacağıq. Başlıcası isə, mənim sizə arzum budur – biz bütün Azərbaycanı sizin qarşınızda açırıq. Sizin üçün hansı sahələr maraqlıdırsa, biz bu sahələrdə sizə işləməyə, onlara sərmayə qoymağa və fayda götürməyə imkan verməyə hazırıq. Mən digər ölkələrlə müqayisədə Yaponiya ilə iqtisadi münasibətlərimizin necə təşəkkül tapdığına xüsusi əhəmiyyət verirəm və çox istəyirəm ki, bu münasibətlər inkişaf etsin, genişlənsin, çünki siz də, biz də hiss etmişik ki, bunun üçün imkan da var, şərait də var. Mən Yaponiyadan Azərbaycana daha çox biznesmen dəvət edirəm və sizin işiniz üçün ən əlverişli şəraitə təminat verirəm.

**V a t a r i A k i r a:** Səmimi sözlərinizə görə sağ olun. Dərin minnətdarlığımızı bildiririk. Biz də Sizinlə məhz bu cür işləməyə çalışırıq.

**V a t a r i A k i r a:** Cənab Prezident! Bu hədiyyə İqtisadi Əməkdaşlıq Komitəsinin adındandır. Bu, Samuray dəbilqəsidir, lakin indi bu döyüş dəbilqəsi müdriklik rəmzinə çevrilmişdir. Ona görə də biz belə hədiyyəni oğlumuza və nəvəmizə, adətən, müdriklik, qüvvət arzuları ilə bəxş edirik. Bu dəbilqə Sizin səhhətinizi qoruyacaqdır. Bizə dedilər ki, balaca bir oğlan nəvəniz var, biz ona da möhkəm cansağlığı arzulayırıq.

**BEYNƏLXALQ MİQRASİYA TƏŞKİLATININ BAŞ KATİBİ BRUNSON MAK KİNLİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*31 oktyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Mənə bildirdilər ki, siz burada bir çox görüşlər keçirmisiniz, çox müzakirələr aparmısınız. Mənimlə də görüşmək arzusunda olmusunuz. Mən sizi dinləyirəm.

**B r u n s o n M a k K i n l i:** Cənab Prezident, çox sağ olun. Bu gün məni və həmkarlarımı qəbul etməklə bizə böyük şərəf verdiniz.

Bu mənim Azərbaycana ilk səfərimdir. Əslində, Beynəlxalq Miqrasiya Təşkilatının Baş katibinin də Azərbaycana ilk səfəridir. Burada olduğumuz zaman bizə göstərilən yüksək qonaqpərvərliyə görə Sizə təşəkkürümüzü bildiririk. Bakıya gəlməmişdən öncə Gəncədə və Naxçıvanda olmuşam. Qısa müddətli səfər olsa da, mən Azərbaycanın müxtəlif guşələri ilə tanış ola bildim, Azərbaycanın problemləri ilə yaxından tanış oldum. Onu da öynərə bildim ki, Azərbaycan çox şanlı tarixə və böyük, parlaq gələcəyə malik olan bir ölkədir. Çox məmnunam ki, Azərbaycanın yaşadığı indiki çətin keçid dövründə təmsil etdiyim Beynəlxalq Miqrasiya Təşkilatı da Sizin bu problemlərin həllinə yardımçı olur.

Mən Sizin hökumətinizin nümayəndələri ilə çox ətraflı danışıqlar apardım. Azərbaycanda kiçik biznesin inkişaf etdirilməsi üçün miqrokreditlərin verilməsindən tutmuş, qaçqınlara yardım göstərilməsi və Dağlıq Qarabağ münaqişəsi başa çatdıqdan sonra bərpa işlərində yaxından iştiraka qədər xeyli məsələləri müzakirə etdik.

Cənab Prezident, hesab edirəm ki, Beynəlxalq Miqrasiya Təşkilatı ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq üçün yaxşı perspektivlər vardır. Azərbaycanda bizimlə əlaqədə çalışan nazirliklər ilə səmərəli görüşlərimiz oldu. Bu görüşlər zamanı gələcək əməkdaşlığımız barədə ətraflı müzakirələr apardıq. Hesab edirəm ki, Beynəlxalq Miqrasiya Təşkilatı da Azərbaycanda keçid dövrünü müvəffəqiyyətlə başa vurmaq üçün lazım olan təsisatların yaradılması işində və Azərbaycan ilə təşkilatımız arasında münasibətlərin daha da inkişaf etdirilməsi sahəsində çox böyük yardımçı ola bilər. Biz Sizinlə bu sahədə uzunmüddətli əməkdaşlığa ümid edirik.

Beynəlxalq Miqrasiya Təşkilatı hökumətlər ilə çalışan və hökumətlərə yardım göstərən bir təşkilatdır. Biz Azərbaycanda olmağımızdan məmnunuq.

Cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür edirəm. Sizin ölkənizin bizim beynəlxalq təşkilatımızla yaratdığı əla tərəfdaşlığa görə də Sizə minnətdarlığımı bildirirəm.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm. Əvvəla, mən çox məmnunam ki, siz Azərbaycana ilk dəfə olaraq gəlmisiniz və söylədiyiniz kimi, bizim ölkəmizlə yaxından tanış ola bilmisiniz. Hətta Naxçıvanda, Gəncədə olmusunuz. Bu çox təqdirəlayiq haldır. Çünki bizim bəzi qonaqlarımız gəlib ancaq Bakını görürlər, ondan sonra geriyə dönürlər. Təbiidir, Bakı paytaxtdır. Bakı böyük şəhərdir. Ancaq Azərbaycanın hər guşəsinin özünəməxsus bir xüsusiyyəti var, problemləri vardır.

Siz dediniz ki, bütün məsələlər ilə əlaqədar bizim rəhbər vəzifəli şəxslərlə görüşmüsünüz, müzakirə etmisiniz. Mən belə anladım ki, siz bu görüşlərdən, danışıqlardan razısınız. Sizin Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycanla əməkdaşlığını da yüksək qiymətləndirirsiniz. Bunu bilmək mənim üçün çox xoşdur. Çünki biz istəyirik ki, bütün beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edək. Sizin təşkilatınız bu baxımdan, təbiidir ki, bizim ölkə üçün vacib bir təşkilatdır. Ona görə də mən sizə təşəkkür edirəm.

Bizim problemlərlə tanış olarkən Azərbaycan torpaqlarının işğal edilməsini yəqin ki, siz gözünüzlə görmüsünüz. İşğal olunmuş torpaqlardan bir milyon azərbaycanlının zorla çıxarılmasını və onların çadırlarda yaşamasını, yəqin sizə deyiblər.

Naxçıvanda olarkən bu Muxtar Respublikanın heç anlaşılmayan səbəblərdən Azərbaycan torpağından ayrı düşməsi və Ermənistan–Azərbaycan münaqişəsi ilə əlaqədar Naxçıvan ilə Azərbaycanın qalan ərazisi arasında hava yolundan başqa heç bir yolun olmaması, Naxçıvana elektrik enerjisi və yaşayış üçün lazım olan başqa şeyləri verə bilməməyimiz bilirsiniz ki, nə qədər ağır vəziyyət yaradıbdır. Təəssüf ki, bəzi beynəlxalq təşkilatlar bunları ya görmürlər, ya da görürlər, amma buna lazımi qiymət verə bilmirlər.

Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Biz neçə illərdir çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək. Müharibəni dayandırmışıq. Ancaq hələ ki, məsələnin həllinə nail ola bilməmişik. Bunun səbəblərindən biri də beynəlxalq təşkilatların bu işə passiv

münasibət gbstərməsidir. Bilirəm ki, sizin təşkilatınız bu məsələni həll edə bilməz. Ancaq hər halda, sizin gördüyünüz və sizin aldığınız məlumatlar beynəlxalq təşkilatlarda müəyyən qədər təəssüratlar yarada bilər.

Dünyada gedən indiki proseslər onu göstərir ki, miqrasiya məsələləri dünyanın problemlərindən biri olubdur. Ona görə bəlkə də sizin beynəlxalq təşkilatın işi indi daha da artıb və bu proseslərə təsir etmək imkanları da çoxalıbdır. Mən sizə bu işinizdə uğurlar arzulayıram. Güman edirəm, bizim respublikada keçirdiyiniz müxtəlif görüşlərinizdə bu məsələni konkret müzakirə etmisiniz. Ona görə də indi mənim sizinlə bu barədə geniş söhbət etməyimə ehtiyac yoxdur. Mən sadəcə, inanıram ki, siz dolğun və obyektiv məlumat almısınız. Bu da Azərbaycanın Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlığı üçün çox vacibdir və çox yaxşı əsas yaradır. Bütün bunlara görə sizə təşəkkür edirəm. Sağ olun.

## ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ ÜÇÜN TİKİLMİŞ YAŞAYIŞ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*Bakı, Qaradağ rayonu, Lökbatan qəsəbəsi*

*1 noyabr 2000-ci il*

Əziz qaradağlılar!
Əziz bacılar və qardaşlar!
Əziz gənclər!
Əziz dostlar!

Mən yenidən sizinlə görüşə, Qaradağ rayonuna gəlmişəm. Mən Qaradağ rayonu üçün yaradılmış Sosial-İqtisadi İnkişaf Fondunun hesabına şəhid ailələri, Qarabağ əlilləri üçün tikilmiş evin təhvilində iştirak etmək üçün təxminən bir il bundan əvvəl burada olduğum zaman sizə söz vermişdim ki, əgər bu iş davam edərsə, yenə də sizin yanınıza, görüşünüzə gələcəyəm və biz belə sevinc gətirən hadisəni bir yerdə qeyd edəcəyik, tikilmiş evin təhvil verilməsində iştirak edəcəyəm.

Mən verdiyim sözə sadiqəm, ona görə də bu gün sizin aranızdayam və bundan çox xoşbətlik hissi duyuram. Sizin hamınızı, Qaradağ rayonunun bütün sakinlərini səmimi-qəlbdən salamlayıram, hamınıza cansağlığı, səadət və bütün işlərinizdə uğurlar arzulayıram.

Müstəqil Azərbaycan dövlətinin qarşısında çoxlu vəzifələr durur. Biz onları həyata keçiririk və bu sahədə xeyli nailiyyətlər də əldə etmişik. Ən böyük nailiyyətimiz ondan ibarətdir ki, biz Azərbaycanın dövlət müstəqilliyini, xalqımızın milli azadlığını qorumuşuq, saxlamışıq. Müstəqil bir dövlət kimi Azərbaycan inkişaf edir, güclənir və qüdrətlənir.

Qayğılarımız çoxdur. Çünki Azərbaycan müstəqil bir dövlət kimi gəncdir. Biz hamımız Azərbaycanın dövlət müstəqilliyinin bəyan edilməsi ilə əlaqədar qəbul olunmuş Konstitusiya Aktının 9-cu ildönümünü bir neçə gün bundan öncə, böyük iftixar hissi ilə bayram etdik.

Təbiidir ki, doqquz il tarixi nöqteyi-nəzərdən o qədər də böyük bir zaman deyildir. Ancaq bu doqquz ildə Azərbaycan çətin bir sınaqdan keçibdir, çoxlu çətinliklərin qarşısını alıbdır, keçid dövrünün əzab-əziyyətinə dözübdür. Xalqımız torpaqlarımızın müdafiəsi uğrunda vuruşubdur, şəhidlər veribdir. Vuruşanların bəziləri xəsarət alıb, indi əlildirlər.

Bununla yanaşı, bu dövrdə, xüsusən ötən yeddi ildə Azərbaycan bəlalardan xilas olub, inkişaf dövrünə qədəm qoyub və ilbəil irəli gedir.

Doğrudur, indiyə qədər əldə etdiyimiz nailiyyətlər hələlik nə bizi, nə də sizi qane etmir. Ancaq eyni zamanda, əsas həqiqət ondan ibarətdir ki, biz müstəqil ölkəmizdə azad yaşayırıq. Biz insanlar üçün rahat həyat şəraiti yaratmışıq. Biz Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etmişik. Biz iqtisadiyyatı inkişaf etdiririk. Biz Ermənistan–Azərbaycan münaqişəsini sülh yolu ilə həll etməyə çalışırıq, işğal olunmuş torpaqların azad edilməsi yolunda daim gərgin iş aparırıq, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi üçün bütün mümkün olan imkanlardan, vasitələrdən istifadə edirik.

Bu gün Azərbaycan dünyada özünəməxsus layiqli yerini tutubdur. Bu hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Bir vətəndaş kimi, Azərbaycanın prezidenti kimi mən iftixar hissi keçirirəm ki, qısa bir zamanda biz bu işləri görə bilmişik və bunlara nail olmuşuq.

Bizim qayğılarımızın içində bir qayğı hamını narahat edir. Bu, torpaqlarımızın müdafiəsində verdiyimiz şəhidlərdir. O şəhidlərin xatirəsi heç vaxt Azərbaycanın tarixindən silinməyəcəkdir. Onların xatirəsi Azərbaycan xalqının qəlbində əbədi olaraq yaşayacaqdır.

Şəhidlər öz canlarını torpaq, vətən yolunda, müstəqil Azərbaycan yolunda qurban ediblər. Onların ailələri xüsusi qayğıya layiqdirlər. Onlara xüsusi qayğı göstərilməlidir və biz bunu edirik.

Azərbaycan torpaqlarının müdafiəsi uğrunda vuruşmuş gənc övladlarımız qəhrəmanlıq, şücaət göstəriblər. Onların qəhrəmanlıq nümunələri bütün Azərbaycan gəncləri, xalqımız üçün örnəkdir, təcrübə mənbəyidir. Ancaq onların bəziləri bu vuruşlarda yaralanıblar, xəsarət alıblar və indi bunun ağrı-acısını çəkirlər. Bəziləri bu səbəbdən istədikləri kimi işləyə bilmirlər, yaxud, ümumiyyətlə, iş qabiliyyətini itiriblər. Ona görə də bu insanlara, bizim bu övladlarımıza, Azərbaycanın bu vətəndaşlarına qayğı göstərmək Azərbaycan dövlətinin əsas vəzifələrindən biridir. Bu, eyni zamanda, hər bir Azərbaycan vətəndaşının, hər bir dövlət və ya qeyri-hökumət təşkilatının vəzifəsidir. Çünki şəhidlər vətən uğrunda qurban gediblər. Torpaq uğrunda vuruşub yaralananlar bu

yaraları vətənin müdafiəsi uğrunda alıblar. İnsanlar bu yaraları alıblar, şəhid olublar ki, ermənilərin təcavüzünün qarşısı alınsın. Əgər onlar olmasaydı, əgər biz bu müharibəni 1994-cü ildə saxlamasaydıq, indi burada, təkcə burada yox, Azərbaycanın hər yerində belə ruh yüksəkliyi ilə yaşayan insanları bəlkə də görməzdik. Ona görə də bir daha qeyd edirəm, şəhid ailələrinə, döyüşlərdə yaralanmış, xəsarət almış vətəndaşlarımıza qayğı, diqqət hamının borcudur.

Mən çox məmnunam ki, Qaradağ rayonunda bu sahədə görülən bütün işlərlə bərabər, son beş ildə mütəşəkkil fəaliyyət də göstərilibdir. Qaradağ rayonunun sosial-iqtisadi inkişafı üçün fond yaradılıbdır. Bu fond ardıcıl surətdə fəaliyyət göstərib, bir çox işlər görülübdür. Qaradağ rayonunda bir çox abadlıq işləri aparılıb, yollar çəkilib, bəzi körpülər bərpa olunubdur.

Nəhayət, bu fondun fəaliyyəti nəticəsində burada şəhid ailələri, müharibə əlilləri üçün gözəl evlər tikilibdir. Keçən ilin yayında mən məhz buna görə gəlmişdim ki, bu evlərin istifadəyə verilməsində şəxsən iştirak edim. Həmin gün mənim həyatımda ən gözəl günlərdən biri idi. Mən bu gün də bundan ötrü gəlmişəm.

Doğrudur, indi önündə durduğumuz bu ev bir neçə vaxt bundan əvvəl hazır idi. Ancaq hamının arzusu o idi ki, mən bu evin istifadəyə verilməsində iştirak edim. Bu ev də, bundan əvvəl tikilmiş yaşayış evi də, başqa işlər də Qaradağ rayonundan Milli Məclisə seçdiyiniz deputat İlham Əliyevin təşəbbüsü, fəaliyyəti nəticəsində, onun yaratdığı Sosial-İqtisadi İnkişaf Fondunun hesabına olmuşdur.

Mən arzu edərdim ki, bu təcrübə geniş yayılsın. Mən arzu edərdim ki, insanlar bu təcrübədən faydalansınlar. Çünki indi Azərbaycanda çətin şəraitdə yaşayan vətəndaşlarımızla bərabər, imkanlı iş adamları, zənginləşmiş insanlar, şəxsi firmaları olanlar vardır. Biz bunu Azərbaycanda bazar iqtisadiyyatının inkişafının nəticələri kimi qiymətləndiririk. Hesab edirik ki, məhz dövlət mülkiyyətini şəxsi mülkiyyətə çevirmək, özəlləşdirmə prosesini aparmaq, sahibkarlara səmərəli iş görmək imkanı yaratmaq vasitəsilə biz iqtisadiyyatımızı inkişaf etdiririk və sosial məsələlərin həll olunması üçün də çox işlər görə bilirik.

İndi dövlətin insanların hamısını yaşayış binaları ilə, yaxud lazım olan bu kimi binalarla və s. ilə təmin etmək imkanı yoxdur. Biz sahibkarlar təbəqəsi yaradırıq, təbiidir ki, onlar iş görürlər, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirirlər. Ancaq bu sahibkarlar anlamalıdırlar ki, biz bu şəraiti yaradaraq, eyni zamanda onlardan öz vətəndaşlıq borclarını yerinə yetirməyi gözləyirik. Yəni bununla onu demək istəyirəm ki, indi Azərbaycanda çox təşkilatlar var ki, onlar hər bir qəsəbə, rayon üçün bax, bu cür sosial-iqtisadi fond yarada, ondan səmərəli istifadə edə, beləliklə də ağır vəziyyətdə yaşayan insanların həyatını yaxşılaşdıra bilərlər.

Mən bugünkü hadisəni çox əlamətdar bir hadisə hesab edirəm. Bildiyiniz kimi, mənim işim çoxdur, hər gün müxtəlif məsələlərlə məşğul oluram. Amma buna baxmayaraq, mən keçən il sizə verdiyim sözü yerinə yetirmişəm və sizin yanınıza gəlmişəm, tikilən bu evə sizinlə bərabər baxmaq, onun təhvilində iştirak etmək istəyirəm.

Bir daha deyirəm, ölkəmizin, dövlətimizin problemləri çoxdur. Ancaq bir şeyə əmin ola bilərsiniz ki, son yeddi ildə, xüsusən ötən beş il müddətində gördüyümüz işlər və əldə etdiyimiz nəticələr tam əsas verir mən sizə bəyan edim, sizin qarşınızda deyim ki, biz bir dövlət kimi Azərbaycanı aybaay, ilbəil inkişaf etdirəcəyik, respublikamızın problemlərini həll edirik və həll edəcəyik, öz vətəndaşlarımızın həyat şəraitini, güzəranını yaxşılaşdıracağıq. Azərbaycan vətəndaşlarının hamısının firavan həyat səviyyəsinə gəlib çatacağı gün də çox uzaqda deyildir.

Bu məsələlərin həll olunmasında çətinlik yoxdur, buna zaman lazımdır. Ancaq hamımızı narahat edən bir məsələ işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi, Ermənistanın təcavüzünə son qoyulması və yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımızın öz yerinə qayıtmasıdır. Bu hamımızın arzusudur. Bu, didərgin düşmüş insanların arzusudur. Bu, eyni zamanda, bütün Azərbaycan xalqının arzusudur. Çünki birincisi, torpaqlarımızın bir hissəsi təcavüz altındadır. İkincisi isə, Azərbaycanın hər bir vətəndaşı tək özü haqqında yox, eyni zamanda ağır vəziyyətdə, qaçqın vəziyyətində, çadırlarda yaşayan insanlar haqqında düşünür və düşünməlidir. Azərbaycanın prezidenti kimi mən, demək olar ki, gecə də, gündüz də bu işlə məşğulam və bu iş məni düşündürür. Azərbaycan dövlətinin prezidenti kimi mənim indi ayrı heç bir dərdim yoxdur. Çünki mən bilirəm ki, biz bütün məsələləri həll edirik, edəcəyik.

Mənim bir dərdim var ki, o da işğal olunmuş torpaqları azad etməkdən, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı öz yerlərinə qaytarmaqdan ibarətdir. Ancaq onu da bilməlisiniz ki, bu, çətin, ağır bir işdir. Soruşarsınız, nə üçün? Çünki vaxtilə Azərbaycana – mən xalqı demərəm, xalqımız qəhrəman xalqdır – rəhbərlik edən bəzi şəxslər, təəssüflər olsun ki, xalqı, vətəni, torpağı düşünə, vətənin qorunmasını təşkil edə bilməyiblər və Ermənistan silahlı qüvvələri əvvəlcə Dağlıq Qarabağı, sonra isə onun ətrafında olan bir neçə rayonlarımızı işğal ediblər. Onlar torpaqlarımızı işğal etdiklərinə, artıq həmin torpaqlarda oturduqlarına görə, təbiidir ki, məsələnin sülh yolu ilə həll olunması üçün çox ağır şərtlər qoyurlar. Biz isə istəyirik ki, bu münaqişəni sülh yolu ilə həll edək. Biz onların qoyduqları şərtlərin çox hissəsini qəbul edə bilmərik.

Mən dəfələrlə demişəm, bu məsələni həll etmək üçün həm Ermənistan tərəfi, həm də Azərbaycan tərəfi müəyyən güzəştlərə getməlidir. Bu danışıqlar davam edir.

Amerika Birləşmiş Ştatlarının çox mötəbər bir nümayəndə heyəti dünən yenə də Azərbaycana gəlmişdi. Onlar bu gün Ermənistana getdilər. Həmin nümayəndə heyəti bu işlə məşğul olur. Bu işlə təkcə onlar yox, bütün beynəlxalq təşkilatlar, ATƏT-in Minsk qrupu, onun həmsədrləri məşğul olurlar. Əgər bütün beynəlxalq təşkilatlar öz qüvvələrini birləşdirə bilməsələr, bunu həll etmək çətindir. Amma bu münaqişəni sülh yolu ilə həll etmək mümkündür və biz bunu həll edəcəyik.

Bəziləri deyir ki, bizim milli ordumuz olmalıdır. Mən bu gün sizə bəyan edirəm ki, 1994-cü ildə atəşkəs dayandırıldıqdan sonra biz orduda olan hərc-mərcliyə, özbaşınalığa son qoymuşuq. Bizim ordumuz bu illərdə böyüyüb, inkişaf edib, indi böyük qüdrətə malikdir. Hazırda Azərbaycanın güclü ordusu vardır.

Amma biz müharibə yolu ilə getmək istəmirik. Çünki biz inanırıq ki, məsələni sülh yolu ilə həll etmək olar. Biz buna inanırıq. Ordumuzun güclü olması da bu inamı bizdə yaradır. Ona görə də heç kəsdə şübhə olmasın ki, ordumuz istənilən vaxtda Azərbaycan torpaqlarını azad etməyə qadirdir.

Mən bu gün bəyan edirəm ki, bu problem Azərbaycan dövlətinin, prezidentinin əsas problemidir. Biz bunu həll edəcəyik, torpaqlarımızı sülh yolu ilə azad edəcəyik, çadırlarda ağır vəziyyətdə yaşayan insanlar öz yerlərinə-yurdlarına qayıdacaqlar. Buna əmin ola bilərsiniz. Bundan sonra Azərbaycanın həyatında böyük, gözəl dəyişikliklər olacaqdır.

Əziz dostlar!

Mən dedim ki, bu gün buraya yalnız sizinlə görüşməyə və burada tikilən gözəl evin istifadəyə verilməsində iştirak etməyə gəlmişəm. Buna görə də sizin vaxtınızı alıb, öz vaxtımı da sərf edib başqa məsələlər haqqında danışmaq istəmirəm. Siz mənim, Azərbaycan dövlətinin həm daxili, həm xarici siyasətini, həm əldə etdiyimiz nailiyyətləri, həm də bizim həll edə bilmədiyimiz məsələləri bilirsiniz. Amma bilin ki, onların hamısı həll olunacaqdır.

Fürsətdən istifadə edib, bir məsələyə də toxunmaq istəyirəm. Bu da qarşıda gələn, noyabrın 5-də keçiriləcək parlament seçkiləridir. Bu işə hazırlıq işləri demokratik şəraitdə gedir və seçkilər demokratik şəraitdə keçəcəkdir. Azərbaycanın prezidenti kimi, mən parlament seçkilərinin tam demokratik, tam azad şəraitdə, tam şəffaf keçirilməsi üçün öz üzərimə düşən vəzifələrin hamısını yerinə yetirmişəm və yerinə yetirəcəyəm.

Mən ötən bazar günü Azərbaycanın bütün şəhər və rayon icra hakimiyyəti başçılarını və bir çox nazirləri müşavirəyə dəvət etdim. Orada onların vəzifələri, onların nəyi edib, nəyi etməmələri haqqında kəskin sözlərimi dedim. Onlar seçki prosesinə lazım olan köməyi göstərməlidirlər, ancaq seçki prosesinə müdaxilə etməməlidirlər. Bu, Mərkəzi Seçki Komissiyasının və yerli seçki komissiyalarının işidir. Bu seçki komissiyaları da Azərbaycanda olan bütün siyasi qüvvələri özündə cəmləyibdir. Onların hamısı orada təmsil olunubdur.

İndi Azərbaycanda demokratiyanın, söz azadlığının ən gözəl nümunəsi odur ki, 14 partiyaya seçkidə iştirak etməyə icazə verilibdir, kim istəyirsə, seçkilərdə iştirak edir. Əgər televizora baxırsınızsa, hər bir partiyanın nümayəndəsi çıxış edir, öz sözünü deyir. Onların doğru, yaxud yalan dediyini siz qiymətləndirməlisiniz. Mən heç bir şey demək istəmirəm. Ancaq sadəcə, onu demək istəyirəm ki, bu seçkiqabağı kampaniya Azərbaycanda demokratiyanın varlığını təsdiq edir. Bilin ki, mən və bütün hakimiyyət orqanları çalışırıq və çalışacağıq ki, noyabrın 5-də Azərbaycanda seçkilər tam demokratik, tam aşkarlıq, şəffaflıq şəraitində keçirilsin. Siz, Azərbaycan vətəndaşları isə gərək, öz seçici fəallığınızı göstərəsiniz. Gərək siz seçkilərdə iştirak edəsiniz. Kimə səs verəcəksiniz, onu özünüz bilirsiniz. Amma mən inanıram ki, siz həqiqətə səs verəcəksiniz. Siz sülhə səs verəcəksiniz. Siz iqtisadi inkişafa səs verəcəksiniz. Siz ictimai-siyasi sabitliyə səs verəcəksiniz. Siz Azərbaycanın müstəqilliyinin indiyə qədər möhkəmləndiyi kimi, bundan sonra da möhkəmlənməsi naminə səs verəcəksiniz.

Mən sizin hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm, bu gözəl yaşayış evinin istifadəyə verilməsi münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sağ olun.

* * *

*Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini, həmin rayondan Milli Məclisin deputatı İlham Əliyevin təşəbbüsü ilə inşa edilmiş 50 mənzilin, növbəti yaşayış binası mənzillərinin orderlərini və açarlarını şəhid ailələrinə və Qarabağ əlillərinə təqdim edən Heydər Əliyev onlara müraciətlə dedi:*

«Təbrik edirəm, xoşbəxt yaşayasınız, sağ-salamat olasınız. Döyüşmüsünüz, vuruşmusunuz, xəsarət almısınız. Həyat yoldaşınızı, qardaşınızı itirmisiniz. Sizə cansağlığı, xoşbəxt günlər arzu edirəm. Bu mənzillərdə xoşbəxt həyat surəsiniz».

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Əlcəzair inqilabı günü münasibətilə Sizi və Əlcəzair Xalq Demokratik Respublikasının dost xalqını səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Əlcəzair arasında dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə getdikcə genişlənəcək və inkişaf edəcəkdir.

Fürsətdən istifadə edib Sizə və ölkənizin bütün vətəndaşlarına cansağlığı və səadət, sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 noyabr 2000-ci il*

## AVTOMATLAŞDIRILMIŞ «SEÇKİLƏR» İNFORMASİYA MƏRKƏZİ İLƏ TANIŞLIQ

*2 noyabr 2000-ci il*

**M ə z a h i r  P ə n a h o v** (*Mərkəzi Seçki Komissiyasının sədri*): Cənab Prezident! Sizi səmimi-qəlbdən salamlayıram. Xoş gəlmisiniz. İcazə verin «Seçkilər» İnformasiya Mərkəzinin rəhbəri İqbal Babayevi Sizə təqdim edim və bildirim ki, mərkəz haqqında məlumatı Sizə o verəcək.

**H e y d ə r  Ə l i y e v:** Onda gəlin oturaq. İndi elə bilin ki, seçki gedir, biz də burada müşahidəçiyik. Yaxud da ki, jurnalistik, buraya gəlmişik.

Mən sərəncam vermişəm və bunun prinsipləri mənə məlumdur. Çünki beynəlxalq təcrübədə bu var, bizdə indiyə qədər yox idi. Ancaq biz istədik olsun. Görürəm ki, burada təmir işləri yaxşı görülübdür. Yəqin ki, rabitə təminatı işləri, kompüterləşdirmə və sair də yaxşıdır. Ona görə də məlumat ver, görək nə iş görmüsünüz.

**İ q b a l  B a b a y e v:** Möhtərəm cənab Prezident, Siz «Seçkilər» İnformasiya Mərkəzinə xoş gəlmisiniz. Sizin 3 sentyabr tarixli sərəncamınıza əsasən dövlət avtomatlaşdırılmış «Seçkilər» informasiya sistemi yaradılmışdır. Bu informasiya sisteminin işini təmin etmək üçün Mərkəzi Seçki Komissiyasının tərkibində informasiya mərkəzi fəaliyyət göstərir.

Noyabrın 5-də – seçkilər günü səhər saat 8.00-dan başlaya raq, seçkinin nəticələri elan edilənə kimi bura fəaliyyət göstərəcəkdir.

**H e y d ə r  Ə l i y e v:** Səhər saat 8-də artıq burada hər şey yerində olacaq, mərkəz fəaliyyətə başlayacaqdır. Yəqin ki, siz ondan bir qədər erkən gələcəksiniz, elə deyilmi?

**İ q b a l  B a b a y e v:** Əlbəttə, buraya beynəlxalq müşahidəçiləri, televiziya işçilərini və digər kütləvi informasiya vasitələrinin nümayəndələrini dəvət etmişik. Yəni buranın qapıları hamının üzünə açıqdır.

**H e y d ə r  Ə l i y e v:** Kim istəyir gələ bilər?

**İ q b a l  B a b a y e v:** Bəli. Burada əsasən səhər saat 8-dən axşam saat 9-a qədər səsvermənin gedişi haqqında məlumat veriləcəkdir. Yəni seçicilərin fəallığı nümayiş etdiriləcəkdir.

Burada üç ekran quraşdırılmışdır. Ekranların hər birində seçicilərin fəallığı nümayiş etdiriləcək və eyni zamanda dövlət televiziyası vasitəsilə birbaşa veriliş gedəcəkdir. Mərkəzi Seçki Komissiyasının «İnternet»dəki səhifəsinə beş dildə məlumat ötürüləcəkdir.

İstərdim ki, bu ekrandakı məlumatı Sizə izah edim. Deməli, burada, ümumiyyətlə, respublika üzrə səsvermənin gedişi haqqında məlumat göstərilmişdir. Hazırda bizdə sınaq rejimidir. Yəni bu rejimdə göstərilən rəqəmlər şərtidir. Biz bu rəqəmləri nümayiş etdiririk.

Məsələn, bu rəqəm – 49 faiz respublikada səsvermənin gedişini göstərir. 52 faiz isə, deyək ki, Şamaxı, Ağsu bölgəsi üzrə dairə seçki komissiyalarının məlumatıdır. Bu isə respublika üzrə olan ümumi məlumatdır.

Bizdə 100 dairə seçki komissiyası vardır. Bunların hər biri də burada göstərilmişdir. Nəticəsi göstərilən dairə komissiyası xəritədə qırmızı rənglə əks olunmuşdur. Qara rənglə göstərilən bölgələr isə erməni işğalçıları tərəfindən zəbt edilmiş ərazilərimizdir. 42 nömrəli dairə seçki komissiyasında seçkilər keçirilmir.

O yerlərin sakinləri respublikanın digər bölgələrində, müvəqqəti məskunlaşdıqları yerlərdə səs verəcəklər.

Bizim ikinci ekranda səsvermənin dinamikası əks olunmuşdur. Yəni səs verənlərin sayı səhər saat 10-dan axşam saat 7-yə kimi hansı ardıcıllıqla artır.

**H e y d ə r  Ə l i y e v:** Seçkilər saat 7-də qurtarır?

**M ə z a h i r  P ə n a h o v:** Bəli, saat 7-də qurtarır.

**İ q b a l  B a b a y e v:** İkinci ekrandan aydın olur ki, bölgələrdə səsvermənin dinamikası müxtəlifdir.

Üçüncü ekranda dairə seçki komissiyaları üzrə məlumatlar verilmişdir. Dairə seçki komissiyasını əks etdirən diaqramda dörd rəng vardır. Boz rəng məlumatın olmadığını göstərir. Tünd yaşıl rəng seçicilərin 10 faizinin, açıq rəng isə 10 faizdən 20 faizə qədərinin səs verdiyini göstərir. Rənglərin getdikcə açıq olması onu göstərir ki, həmin yerlərdə seçicilərin fəallığı daha yüksəkdir.

Cənab Prezident, bu sistemin yaradılmasında bir çox təşkilatların, o cümlədən Elmlər Akademiyasının, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının, Dövlət Elm və Texnika Komitəsinin, ali məktəblərin, müəllim və tələbələrin böyük zəhməti olmuşdur. Biz Avropa və Amerika ölkələrinin, MDB dövlətlərinin seçki sistemlərini öyrənmişik. Mən deyərdim ki, respublikamızda bu sistemin tətbiqini Azərbaycanda informasiya texnologiyasının inqilabı kimi qiymətləndirmək olar. Bizdə elə bölgələr var ki, ilk dəfədir orada müasir tələblərə cavab verən kompüterlər quraşdırılmışdır. Oktyabr ayının 27-dən başlayaraq, biz dairə seçki komissiyalarına 198 kompüter, hər dairəyə iki nəfər operator göndərmişik.

**H e y d ə r  Ə l i y e v:** Hər dairədə var, özü də kompüterləşdirilib. Onu işlədə bilən mütəxəssislə təmin olunub?

**İ q b a l  B a b a y e v:** Bəli, hazırlamışıq. Hər dairədə iki kompüter var. Hər bir proses iki dəfə təkrarlanacaqdır. Telefon xətti ilə ötürüldüyü üçün biz çalışırıq ki, xətaların qarşısını ala bilək. Əsas nümayiş otağı buradır. Bizim digər otaqlarımız da vardır.

**H e y d ə r  Ə l i y e v:** Çox gözəldir. Mən belə təsəvvür edə bilməzdim. Yenə də deyirəm, mən sərəncam vermişdim və hesab edirdim ki, indi dünya təcrübəsindən istifadə edib biz bunlara yaxınlaşmalıyıq. Ancaq sizin burada yaratdığınız sistem, ümumiyyətlə, şərait, xüsusilə bu kompüterləşdirmə çox gözəl təşkil olunubdur. Mən səninlə razıyam ki, bu, inqilaba bərabər bir şeydir. Yəni seçki sistemində bunlardan istifadə olunması baxımından indiyə qədər bizim respublikamızın keçirdiyi seçkilərdən, təbiidir ki, köklü surətdə fərqlənir. Çünki biz bunu heç vaxt tətbiq etməmişik. Amma indi tətbiq edirik. Ancaq görürəm ki, bir var tətbiq etmək, bir də var ki, onu yüksək səviyyədə hazırlamaq. Çox gözəldir. Burada hər şey hamı üçün aşkar olacaqdır. Kim istəyirsə, gəlib burada olacaq və sizin məlumatlarınız da ki, kompüterlər vasitəsilə dəqiq göstəriləcəkdir. Onları dəyişdirmək olmaz.

**İ q b a l  B a b a y e v:** Cənab Prezident, məlumatlar kompüterlər vasitəsilə birbaşa ekrana ötürülür və iki kompüter vasitəsilə təkrar olunur. Rayonlardan hansı məlumat gələcəksə, onlar tabloda öz əksini tapacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Çox yaxşı. Xəritəni yaxşı çəkmisiniz. Mən bir-iki dəfə bizim Geodeziya və Xəritəçəkmə Komitəsinə demişəm ki, mənə bir müasir xəritə versinlər. Onlar hər dəfə köhnə xəritələri gətirib mənə verirlər. Ancaq xəritəni də yaxşı çəkmisiniz.

**İ q b a l  B a b a y e v:** Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında bir mütəxəssis var, Oleq Şelaginov, bu xəritəni o çəkibdir.

**H e y d ə r  Ə l i y e v:** O mütəxəssisdir?

**İ q b a l  B a b a y e v:** Bəli. Baş mütəxəssisdir, bizim işçimizdir. Xəritəni o özü kompütərə salmışdır.

**H e y d ə r  Ə l i y e v:** Miqyası düzdürmü?

**İ q b a l  B a b a y e v:** Bəli. Biz Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarının yerləşdikləri bölgələrin xəritəsini almışıq və onu Azərbaycanın xəritəsində yerləşdirmişik.

Bu monitora plazmalı monitor deyirlər. Bunlar isə adi televizorlardır. Bu televizorlar xüsusi qurğu vasitəsilə kompüterdən informasiya alır. Yəni kompüterlə o televizoru birləşdirən xüsusi qurğu vardır. Bu isə yalnız kompüter üçün olan monitordur. Çox dəyərli bir monitordur. Ona 160 dərəcə bucaq altında baxanda da ekranı görmək olur. Mən buradan durub onu aydın görürəm.

**H e y d ə r  Ə l i y e v:** Bunların hamısı sizin öz gücünüzlə olubdur?

**İ q b a l  B a b a y e v:** Xeyr. Təkcə mənim gücümlə yox.

**H e y d ə r  Ə l i y e v:** Yox, şəxsən səni demirəm. Yəni Azərbaycan mütəxəssislərinin gücü ilə görülüb?

**M ə z a h i r  P ə n a h o v:** Sizin sərəncamınızın hesabına görülübdür.

**H e y d ə r  Ə l i y e v:** Mən sərəncam vermişəm. Amma bunun icrası var. Müasir texnikadır, kompüter sistemidir, monitorlardır, bunlar sadə bir şey deyildir.

**İ q b a l  B a b a y e v:** Sizin sərəncamınızdan sonra Birləşmiş Millətlər Təşkilatı bu işdə bizə yardım etdi. Yəni bu beynəlxalq təşkilatın inkişaf proqramı bizə qrant ayırdı və o qranta görə də avadanlıqlar və sairə alındı.

**H e y d ə r  Ə l i y e v:** Bunların bəzilərini xaricdən almısınız, yoxsa Azərbaycanda istehsal olunur?

**M ə z a h i r  P ə n a h o v:** Xeyr, xaricdə istehsal olunubdur.

**İ q b a l  B a b a y e v:** Bu proqramın da milli əlaqələndiricisi Məleykə xanım Abbaszadədir.

**H e y d ə r  Ə l i y e v:** Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, demək olar ki, Azərbaycanda ilk dəfə kompüter sistemini geniş tətbiq edibdir. Bu çox gözəl bir haldır. Mən bunu bir dəfə demişəm, bu gün bir daha yüksək qiymətləndirirəm. Əlbəttə ki, seçkilər bütün xalqı maraqlandırır. Amma bundan əvvəl elə bizim ali məktəblərə, yaxud texnikumlara və sairəyə tələbə qəbulu dövri–qədimdən Azərbaycanda, demək olar ki, bütün əhalini maraqlandırır. Azərbaycanda elə bir adam tapmazsan ki, uşağı olmasın, əksər hissəsinin də uşaqları orta təhsil alıb ali məktəbə daxil olmaq istəyirlər.

Xatirimdədir, 70-ci illərdə biz qanun pozuntusunun, yaxud da müəllimlərin vəzifədən sui-istifadə etməsinin, rektorların bu işdə «əllərini qızdırması»nın və sairənin qarşısını almaq üçün çox işlər görürdük. Amma o vaxt bizdə belə imkanlar yox idi. Yəni bu texnika, texnologiya, kompüterlər və sairə yox idi. Amma indi var. Dünyada kompüterləşdirmə çox geniş inkişaf edibdir. Bəlkə də bu sahədə Azərbaycan bir az gecikibdir. Sən özün də deyəsən, fiziksən?

**M ə z a h i r  P ə n a h o v:** Bəli, cənab Prezident.

**H e y d ə r  Ə l i y e v:** Ancaq yaxşı haldır ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, Məleykə xanım Abbaszadə bu işin təşəbbüskarı olubdur və bunu edibdir. Avtomatlaşdırılmış sistem seçki prosesinə də tətbiq edilir.

Bu seçkilər keçsin – Ramiz Mehdiyev, mən sənə deyirəm, – Nazirlər Kabineti ilə birlikdə fikirləşin, bu kompüter sistemindən bizim xalq təsərrüfatında, iqtisadiyyatımızda, infrastrukturda, bütün başqa sahələrdə belə

səmərəli istifadə etmək üçün bəlkə yeni bir qərar qəbul etmək, fərman vermək lazımdır. Çünki artıq bizim təcrübəmiz var və onun müsbət nəticəsini də görürük. Bu sistem insanların əməyini nə qədər yüngülləşdirir.

**Ramiz Mehdiyev:** Cənab Prezident, Rabitə naziri də söylədi ki, əvvəllər hər seçkidə 530 məntəqədən, dağlardan maşınlarla, atlarla məlumat yığılırdı. İndi isə buna ehtiyac yoxdur.

**Heydər Əliyev:** Yaxşı ki, atlar vasitəsilə, öküz arabası vasitəsilə yox.

**Ramiz Mehdiyev:** İndi isə müasir texnika bizə imkan verir ki, bunlardan əl çəkək.

**Heydər Əliyev:** Bəli. Yəni bizdə artıq iki təcrübə mövcuddur. Birincisi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında, ikincisi isə seçki sistemində. Təbiidir ki, o da özü üçün çox əhəmiyyətlidir. Bu isə həddindən artıq, fövqəladə əhəmiyyətli bir şeydir. Amma eyni zamanda cığır açır, yol açır ki, bütün başqa sahələrdə biz kompüter sistemini tətbiq edək və işlərimizi də yüngülləşdirək. Ən əsası odur ki, dəqiqləşdirək. O atla, öküzlə gələn informasiyalar bəzən, ola bilər, o qədər də düzgün hesab edilməsin. Çünki gələndə yolda atını saxlayıb bir iş edə bilər. Amma indi heç bir şey etmək mümkün deyildir. Burada nə at var, nə öküz var, nə də avtomobil var, heç «Mersedes» maşını da yoxdur.

Çox yaxşı. Mən çox məmnunam, sizi təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bu işi yaxşı qurmusunuz. Amma gərək seçki günü bundan səmərəli istifadə edəsiniz. Qurmağına yaxşı qurmusunuz, yaratmısınız. Sizin danışığınızdan, sənin məruzəndən mən belə anladım ki, burada hər şey yüksək səviyyədə olacaqdır. Amma eyni zamanda gərək çalışasınız ki, mənim bu təriflərimdən başgicəllənməsi olmasın. Biz bu işlərə əsas qiyməti seçkilərdən sonra verəcəyik. İndi biz hazırlıq dövrünə qiymət veririk. Seçkilər qurtarandan sonra isə əsas qiyməti verəcəyik.

**İqbal Babayev:** Cənab Prezident, hazırda sınaq keçiririk, iki gündür sınaq rejimində işləyirik. Hələlik məlumatlar çox dəqiq daxil olur. Ümidvarıq ki, noyabrın 5-də seçkilər yüksək səviyyədə keçəcəkdir.

**Heydər Əliyev:** Burada əyləşənlər seçki prosesinin gedişini əsas idarə edənlərdir, eləmi? Onlar kompüterçilərdir, proqramçılardır?

**İqbal Babayev:** Televizorda göstərilən məlumatlar bu kompüterlər vasitəsilə idarə olunur.

**Heydər Əliyev:** Yaxşı kadrlarınız var. Gənc insanlardır. Bu göstərir ki, Azərbaycan millətində zehni cəhətdən çox inkişaf etmiş kadrlar var.

**Ramiz Mehdiyev:** Cənab Prezident, Sizə məruzə edən İqbal Babayev «Seçkilər» İnformasiya Mərkəzinin rəhbəridir. O Sizin göndərişinizlə Rusiyada təhsil almışdır.

**Heydər Əliyev:** Nə vaxt, harada təhsil alıb?

**İqbal Babayev:** 1981-ci ildə Kiyev Memarlıq və İnşaat Texnikası Universitetinin avtomatlaşdırılmış idarəetmə sistemləri fakültəsinə daxil olmuşam.

**Heydər Əliyev:** Xatirindədirmi, mən sizi necə yola salırdım?

**İqbal Babayev:** Bəli, xatirimdədir.

**Heydər Əliyev:** Ağ köynək geyinirdiniz. Avqust ayının 30-da Respublika sarayında salona toplaşırdıq. Siz də danışırdınız, amma mən də orada sizə öz tövsiyələrimi, fikirlərimi, məsləhətlərimi verirdim. Mən bunu neçə dəfə demişəm. Bilirsinizmi, o illər Azərbaycanda biz çox iş görmüşük. Təbiidir ki, bunların da əsas təşkilatçısı mən olmuşam. Bütün bu gördüyüm işlər – tikilmiş zavodlar, fabriklər, yollar, elektrik stansiyaları, yaşayış binaları, kənd təsərrüfatı sahələri – hamısı mənim üçün qiymətlidir. Bunlar olmasaydı, indi Azərbaycan bu səviyyədə olmazdı.

Amma kadrların hazırlanmasını mən ömrüm boyu ən yüksək qiymət hesab edirəm. Çünki bilirsiniz ki, fabrik cansız bir şeydir, tikirsən, istifadə edirsən. Zavod da həmçinin. Yaşayış binası tikirsən, orada insanlar yaşayırlar. Bunların hamısı lazımdır. Amma millətimizin ağıl, bilik potensialını artırmaq üçün o illər mənim bu təşəbbüsüm... Özü də ki, bu, sadə bir şey deyildi. O vaxt düşünürdüm ki, biz Azərbaycanın ali məktəblərində yaxşı mütəxəssislər hazırlayırıq, amma bunlardan da yaxşı mütəxəssislər hazırlamalıyıq. Bir də ki, fərq də olmalıdır. Elə hamı Bakı Universitetində, yaxud Sənaye İnstitutunda, yaxud da ki, Politexnik İnstitutunda oxusaydı, bu, dar çərçivə olardı.

Amma görürsənmi, sən Kiyevdə oxumusan, biri Moskvada, o biri Leninqradda, digəri Uralda, bir başqası isə Uzaq Şərqdə oxuyubdur. Hər yerdə təcrübə var. Özü də axı o vaxtlar bu, avtomatlaşdırma sistemi və sair bizdə yox idi. Düzdür, bizim Neft–Kimya İnstitutunda belə bir fakültə yaranmışdı. Amma o fakültənin özündə dərs deyənlərin də o qədər biliyi, təcrübəsi yox idi. İndi görürsünüzmü, bunlar mənim əkdiyim toxumların bəhrəsidir. Belələrini görəndə çox sevinirəm. Hər birinin fəaliyyətinə, bugünkü gününə – əgər onlar bundan səmərəli istifadə edirlərsə – inanın, mən öz doğma övladımın nailiyyəti kimi baxıram.

**İqbal Babayev:** Cənab Prezident, çox sağ olun, minnətdarıq.

**Heydər Əliyev:** Demək, o vaxt gördüyümüz iş hədər getməyibdir. Kadr hazırlamışıq, indi də belə bir yüksək səviyyəli işlər görürlər. Əlbəttə, o vaxt mən düşünürdüm ki, onlar Azərbaycanın gələcəyi üçün lazımdır. Amma, əlbəttə, desəm ki, hər şey dəqiq, düzgündür, bu, doğru olmazdı. Ümumiyyətlə, mən bunu istəyirdim. Onların hərəsi öz yerində Azərbaycana nə qədər xeyir verir və ölkəmizin elm, bilik səviyyəsini, müasir

texnikanı mənimsəmək səviyyəsini yüksəldir. Bu həmin o 70–80-ci illərdə gördüyümüz işlərin gözəl nəticələridir. Sən razısanmı?

**İ q b a l  B a b a y e v:** Çox razıyam, Sizə minnətdaram.

**H e y d ə r  Ə l i y e v:** Orada oxumağından, sənətindən razısanmı?

**İ q b a l  B a b a y e v:** Bəli. Mən oranı bitirəndən sonra aspiranturada qalıb namizədlik dissertasiyası müdafiə etmişəm. 1990-cı ildə respublikaya qayıtdım.

**H e y d ə r  Ə l i y e v:** Orada evlənmədin ki?

**İ q b a l  B a b a y e v:** Xeyr.

**H e y d ə r  Ə l i y e v:** Yadınızdadırmı, o vaxt mən sizi göndərəndə deyirdim ki, gedin oxuyun, əlbəttə ki, oradan vətənə qayıdın, amma ola bilər ki, kiminsə xoşuna gəlsə, orada qalıb davam etsin, kimsə bəlkə evləndi, ona da etirazım yoxdur. Çünki o, yenə də bizimkidir. Məsələn, Moskvada evlənənlər var. Bəzən mən onları görürəm. Evlənibdir, işləyir, özü də ki, yaxşı səviyyədədir və sairə. Bu da bizimkidir, bu da azərbaycanlıdır. Bax, mənim məqsədim azərbaycanlıların, azərbaycanlı gənclərin bu böyük bilik potensialını zənginləşdirməkdir.

**İ q b a l  B a b a y e v:** Sizə minnətdarıq. Çox sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Görün, bu bizim üçün nə qədər mənfəətli olubdur. Respublikadan kənarda təhsil alıb gələn yəqin ki, təkcə bu deyildir.

Sizi təbrik edirəm. Mərkəzi Seçki Komissiyasını təbrik edirəm. Bu komissiyanın rəhbərliyinin dəyişilməsi komissiyaya çox böyük müasirlik gətiribdir. Mən hesab edirəm ki, bu bizim son vaxtlar gördüyümüz dəyərli işlərdən biridir. Amma indi hər şey sizdən asılıdır. Azərbaycanda heç bir məsələyə bu qədər beynəlxalq diqqət cəlb olunmur. Biz böyük tarixi yubileylər keçiririk, insanları dəvət edirik, çoxları gəlir. Amma indi heç dəvət etsən də, etməsən də o qədər gəlirlər ki. Yəni bu, Azərbaycanın həyatında, beynəlxalq aləmdə ən maraq doğuran bir hadisədir. Siz indiyə qədər yaxşı iş aparmısınız, bu cür sistem yaratmısınız və Mərkəzi Seçki Komissiyasının səviyyəsini qaldırmısınız. İndi borcunuz odur ki, noyabrın 5-də imtahan verəsiniz. Sən özün də müəllimsən, bilirsən, gərək «əla» qiymət alasınız.

**M ə z a h i r  P ə n a h o v:** Cənab Prezident, ümid edirəm ki, Sizin rəhbərliyiniz altında hələ çox nailiyyətlər əldə edəcəyik. Mən Sizə bir söz deyim ki, bu kompütерə məlumatlar daxil olandan sonra, bayaq Sizin dediyiniz kimi, heç kim bu məlumatlara müdaxilə edə bilməz. Bu öz yerində. Amma onu da deyim ki, bizim qanunlar əsasında o proseslər elə qurulubdur ki, məntəqədə protokol doldurulandan sonra həmin protokolun bütün surətləri qanunda nəzərdə tutulan 30-a qədər adama verilir. Bu protokollar hətta gəlib dairə seçki komissiyasında kompütерə verilənə qədər orada hansısa, nəsə bir şey etmək mümkün deyildir. Təsəvvür edin ki, bir məntəqədə tərtib olunmuş protokol ən azı 30 nəfərin əlində olacaqdır. Bu 30 nəfər nəzarət funksiyasını yerinə yetirənlərdir.

Ona görə də bu məsələyə əvvəldən axıra qədər, demək olar ki, heç bir müdaxilə ehtimalı yoxdur, bu mümkün deyildir. Yəni bizim burada, ekranda gördüyümüz nəticələrə şübhə ola bilməz, işlər əvvəldən axıradək bu şəkildə qurulubdur.

**H e y d ə r  Ə l i y e v:** Çox gözəl. Mənə bir sözünüz varmı?

**İ q b a l  B a b a y e v:** Cənab Prezident, bizim digər qonaqlarımız üçün qonşu otaqlarda şərait yaradılmışdır.

**H e y d ə r  Ə l i y e v:** Oraya da baxarıq.

Mən dünən bizim dövlət televiziyasının sədrinə tapşırdım ki, onların ekranı seçki günü daim, bütün günü sizin sərəncamınızda olsun. Necə istəyirsinizsə, elə də istifadə edin.

## «BAKI SOS UŞAQ KƏNDİ»NİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

*2 noyabr 2000-ci il*

Əziz uşaqlar!
Əziz analar!
Əziz dostlar!

Mən sizi bugünkü əlamətdar hadisə münasibətilə, Azərbaycanda «SOS Kinderdorf İnternəşnl» təşkilatının təşəbbüsü ilə qısa bir müddətdə yaranmış uşaq şəhərciyinin açılması münasibətilə ürəkdən təbrik edirəm və bu şəhərciyə, Azərbaycan uşaqlarına gözəl xidmət arzulayıram. Bu şəhərcikdə çalışan analara uşaq məhəbbəti, uşaq sevgisi arzulayıram.

Azərbaycanda son illər uşaqlara, gənclərə qayğı daim artır. Biz olan imkanlarımızı uşaqlar üçün, gənclər üçün maksimum istifadə etməyə yönəldirik və bunların da artıq əməli nəticələri xalqımızın gözünün qarşısındadır. Bu təbiidir. Hər bir millət gərək özünün bu günü, gələcəyi üçün uşaqlara, gənclərə qayğı göstərsin. Beləliklə, millətin gələcək illərdə, əsrlərdə yaşamasını təmin etsin. Bu sırada Azərbaycanda kimsəsiz, valideynsiz uşaqlara göstərilən qayğı bizim ən ümdə vəzifələrimizdən biridir. Biz çalışırıq ki, bu qayğı günbəgün artsın. Allaha şükür olsun ki, buna nail ola bilirik.

Həm Bakıda, həm də Azərbaycanın başqa məntəqələrində kimsəsiz uşaqlar üçün gözəl uşaq evləri var. Mən şəxsən o uşaq evlərinin bir neçəsində olmuşam. Özüm bilavasitə və yaxud xaricdən gələn yüksək qonaqlarla bərabər şəraitlə tanış olmuşam, uşaqların istedadı ilə tanış olmuşam, onların tərbiyəsi ilə tanış olmuşam. Sizə deyim ki, məni həyatımda bunun qədər sevindirən heç bir şey olmayıbdır. Ancaq deyə bilmərəm ki, biz uşaqlar üçün, yəni bu kimsəsiz, valideynsiz uşaqlar üçün hər şey edə bilmişik.

«SOS Kinderdorf İnternəşnl» təşkilatının Azərbaycana gəlməsi – burada deyildi ki, artıq bunlar 140-a qədər ölkədə fəaliyyət göstərirlər, onların qurduqları, yaratdıqları uşaq şəhərcikləri vardır – bizim uşaqlara göstərdiyimiz qayğının və Azərbaycanın beynəlxalq aləmdə artan hörmətinin, ölkəmizə olan diqqətin təzahürüdür.

Biz bilirdik ki, belə bir təşkilat vardır. Bilirdik ki, onlar bir çox ölkələrdə fəaliyyət göstərirlər. Amma arzumuz o idi ki, onlar Azərbaycana da gəlsinlər. Gəldilər, mən onları qəbul etdim, görüşdük. Öz təşkilatlarının işi haqqında məlumat verdilər və bizim təklifimizi qəbul edib Azərbaycanda da bu işə başlamaq haqqında bəyanat verdilər. Bu məni çox sevindirdi.

Azərbaycana xarici ölkələrdən indi maraq çoxdur. Azərbaycana gəlib iş görmək istəyən, böyük sərmayələr qoymaq istəyən, əməkdaşlıq etmək istəyən dünyanın müxtəlif məşhur şirkətləri, firmaları, təşkilatları məlumdur. Onların burada son illərdə gördükləri işləri də bilirsiniz. Azərbaycanın iqtisadiyyatına, sosial inkişafına onların nə qədər müsbət təsir göstərdiyini də bilirsiniz.

Bu iş yaxşı təşkil olunubdur və bundan sonra da yaxşı təşkil olunacaqdır. Bildirmək istəyirəm ki, bu böyük şirkətlərin, xüsusən də Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz yataqlarının müştərək işlənilməsi üçün bizimlə müqavilə bağlamış, burada işləyən Qərb ölkələrinin böyük neft şirkətləri özlərinin bilavasitə fəaliyyətləri ilə yanaşı, xeyriyyəçilik işləri də görürlər. İncəsənətə, mədəniyyətə, təhsilə, o cümlədən, uşaqlara, uşaq evlərinə də çox yardımlar göstərirlər. Bu da bizim gördüyümüz böyük işin, yəni uşaqlara, təhsilə, səhiyyəyə yardım işinin bir hissəsidir. Burada xüsusi yeri yenə də uşaqlar və əsasən kimsəsiz uşaq evləri tutur. Ancaq bunlar, təbiidir ki, bizi tam qane etmir. Ona görə də uşaqlara məxsus olan yeni bir beynəlxalq təşkilatın ölkəmizə gəlməsi və qısa müddətdə Azərbaycanda belə gözəl şəhərciyin yaradılması, təbiidir ki, çox əlamətdar hadisədir. Görürəm, sizi də, məni də sevindirir.

Bu təşkilatın təşəbbüsü ilə Azərbaycan Assosiasiyası yaradıldı. Bu barədə burada məlumat verildi. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, bilavasitə bu təşkilat və onun yaratdığı Azərbaycan Assosiasiyası çox iş görübdür. Qısa zamanda belə bir uşaq şəhərciyi yaradıbdır.

Azərbaycanda uşaqların əksəriyyəti çox istedadlıdır. Əgər valideynlər, məktəblərdə müəllimlər, təhsil sahəsində fəaliyyət göstərən bizim vətəndaşlarımız uşaqların tərbiyəsinə, təhsilinə qayğını daha da artırsalar, biz gələcəkdə daha da istedadlı Azərbaycan gənclərinə, vətəndaşlarına malik olacağıq. Mən bu sözləri özümün şəxsi müşahidəm nəticəsində deyirəm.

Birincisi, təbiidir ki, mən Azərbaycanda keçmiş illərdə də, indi də çox işlərlə – həm uşaqların, gənclərin problemləri ilə, təhsil, tərbiyə problemləri ilə məşğul olmuşam. Ona görə də bunu bilirəm. Amma eyni zamanda

bu uşaq evlərini, məktəbləri bəzən ziyarət edərkən bizim uşaqların, gənclərin nə qədər istedadlı olduqlarını görmüşəm.

Yəqin ki, sizə məlumdur, bəzən mən müxtəlif bayramları kimsəsiz uşaqlarla bizim böyük salonlarda – «Gülüstan» sarayında, yaxud Bakı Əyləncə Mərkəzində, başqa yerlərdə bir yerdə keçirmişəm. Çünki bizim bayramlarımızı xüsusən kimsəsiz uşaqlarla keçirmək mənim üçün hər şeydən əzizdir. Mən onu hər bir başqa məclisdən üstün tuturam. Hər dəfə müşahidə etmişəm. Mən sevindiyim kimi, mənim onlarla bir yerdə olmağım da uşaqlara nə qədər sevinc gətiribdir. Bütün bu təmasların nəticəsində mən tam qətiyyətlə deyə bilərəm ki, Azərbaycanda uşaqlar, fərqi yoxdur, anası varsa da, yoxsa da, valideynsiz böyüyürsə də – uşaq evlərində çox yaxşı tərbiyə alırlar – onların içərisində çox yüksək istedada malik olanları vardır. Ona görə biz onlara diqqətimizi artırmalıyıq. Onların istedadlarının açılmasını təmin etməliyik. Onlara gələcəkdə istedadlarının daha da inkişaf etdirmələri üçün şərait yaratmalıyıq, yollar açmalıyıq.

Bura gələrkən bir neçə uşaq məni qarşıladı. Hərəsi bir bənd şeir dedi. Mən diqqətlə qulaq asdım. Şeirlər hansı məzmunda idi? Vətən, torpaq, dövlət, xalq məhəbbəti. Təbiidir ki, bu şeirləri onların müəllimləri yazıblar, onları hazırlayıblar. Ancaq bu uşaqlar uşaq evlərindən olan uşaqlardır, valideynsiz uşaqlardır.

Səni tanıyıram. Uşaq evində çox olmuşam. Bilirəm, çox sağ olun. Yaxşı işləyirsən. Mən gördüm. Bunlar səninkilərdir?

**Z ö h r ə A b d u l l a y e v a** (*Xətai rayonundakı 3 nömrəli uşaq evinin direktoru):* Cənab Prezident, bəli. Siz bunları görmüsünüz.

**H e y d ə r Ə l i y e v:** Mən sizdə olmuşam. Sən onları göstərdin. Onlar sizin uşaqlardır. Mən gördüyüm uşaqlardır. Böyüyüblər. Çox sağ olun. Mənim dediklərimin bir hissəsi sizin uşaq evində gördüklərimin əsasındadır. Yaxud da, xatirinizdədirmi, Bakı Əyləncə Mərkəzində bir yerdə, bilmirəm, yeni ili qarşılayırdıq, ya nə idisə. Onların nəticəsindədir. Elədirmi?

**Z ö h r ə A b d u l l a y e v a:** Bəli.

**H e y d ə r Ə l i y e v:** İndi bax, bu uşaqlar bizim vətənimizə, millətimizə, dövlətimizə, torpağımıza aid olan nə qədər gözəl şeirlər ifa etdilər. Sadəcə, ifa etmədilər, qəlbdən gələn hissiyyatlarla söylədilər. Bax, bunlar dediyim bu sözlərə canlı sübutdur ki, bizim uşaq evlərində kimsəsiz, valideynsiz uşaqların içərisində böyük istedadlar vardır. Biz onları inkişaf etdirməliyik. Ümumiyyətlə, istedadının səviyyəsindən asılı olmayaraq, kimsəsiz uşaqlara qayğı göstərməliyik. Gərək onlar heç vaxt hiss etməsinlər ki, onların atası, anası yoxdur. Onlar hiss etməlidirlər ki, dövlət qayğısı ilə əhatə olunublar. Onların atası da, anası da həmin uşaq evlərində onları tərbiyələndirən bizim fədakar vətəndaşlarımızdır və müstəqil Azərbaycanın dövlətidir. Bu sözləri deyərək, bugünkü hadisəyə xüsusi qiymət verirəm.

Təbiidir ki, son illər bizim uşaq evləri yaxşı təmir olunublar, çox yaxşı avadanlıqla təchiz ediliblər, çox işlər görülübdür. Ancaq bununla bərabər, beynəlxalq standartlara uyğun olan belə bir uşaq şəhərciyinin yaranması çox gözəl haldır və bizim bütün başqa uşaq evləri üçün də nümunədir. Ona görə də mən bu gün buraya gəlmişəm. Mən buraya uşaqların yanına gəlmişəm. Burada işləyən anaların yanına gəlmişəm. Yəqin ki, siz hamınız bu məqsədlə buraya gəlmisiniz.

Burada çıxış edən ana həqiqətən bizi çox hissiyyatlandırdı. Çünki görürsünüz, o nə qədər böyük sevinclə, məhəbbətlə işə gəlibdir və burada tərbiyə etdiyi uşaqları öz doğma övladları kimi hiss edibdir. Bu çox vacib haldır. Əgər doğrudan da uşaq evində hər bir tərbiyəçi uşaqlara ana kimi olsa, uşaqlar onu ana kimi tanısa, onda heç vaxt düşünməyəcəklər ki, onun anası var, ya yoxdur.

Ədilə xanım burada çox gözəl bir söz dedi ki, ana o deyil ki, uşağı dünyaya gətiribdir. Ana odur ki, uşağa tərbiyə verib, böyüdüb, təhsil verib, uşağa vətəndaşlıq vəsiqəsi veribdir. Əminəm ki, bizim bütün uşaq evlərində, xüsusən burada, uşaq şəhərciyində məhz bu prinsiplər əsas götürüləcəkdir və bundan sonra da biz bu işlərlə daha da çox məşğul olacağıq.

Burada bizim nazirliklərin, inşaatçıların xidmətlərini dedilər. Bunlar hamısı var, təbiidir. Onlar bunu etməlidirlər. Bu onların borclarıdır. Çünki hər bir dövlət adamının, hər bir nazirin, hər bir vəzifə sahibinin Azərbaycan xalqı qarşısında, Azərbaycan gəncləri qarşısında, Azərbaycan uşaqları qarşısında borcu var. Mənim də borcum var, onun da borcu var, bunun da borcu var. Əgər hansısa bir işi biz edə biliriksə, demək, borcumuzun bir hissəsini yerinə yetiririk. Amma nə qədər çox etsək, yenə də xalqımıza, millətimizə borcluyuq, borcluyuq, borcluyuq. Mən şəxsən özüm haqqında demək istəyirəm ki, həyatımın son dəqiqəsinə qədər özümü xalqıma borclu kimi hiss edirəm və hər gün, hər dəqiqə o borcumu layiqincə yerinə yetirməyə çalışıram.

Çox sevindirici haldır ki, bu gün biz uşaq şəhərciyinə Azərbaycanda böyük bir siyasi hadisə, Milli Məclisə seçkilər ərəfəsində toplaşmışıq. Noyabrın 5-də ikinci dəfə müstəqil Azərbaycanın parlamenti, qanunverici orqanı, Milli Məclisi seçiləcəkdir. Bilirsiniz ki, biz müstəqillik əldə edəndən sonra 1995-ci ildə Azərbaycanın ilk demokratik Konstitusiyasını qəbul etdik və Milli Məclisə seçkilər keçirdik. Bu Milli Məclis beş il müddətində fəaliyyət göstərdi. Hesab edirəm ki, çox uğurlu fəaliyyət göstərdi. Azərbaycanda dövlətçiliyin inkişaf etməsində öz xidmətlərini göstərdi. Konstitusiyaya görə, onun səlahiyyət müddəti bitibdir və noyabrın 5-də yeni seçkilər keçiriləcəkdir.

Televiziyadan, radiodan, mətbuatdan bilirsiniz ki, biz hamımız çalışmışıq, çalışırıq və ayın 5-nə qədər də çalışacağıq ki, bu seçkilər yüksək demokratiya şəraitində keçsin, ədalətli olsun, şəffaflıq, aşkarlıq şəraitində keçirilsin. Çünki birinci, ona görə ki, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Ona görə ki, biz müstəqil Azərbaycanda demokratiya yolu ilə gedirik və bu bizim daimi, əbədi yolumuzdur. Demokratiyanı təmin etməyin ən əsas vəzifələrindən biri də seçkilərdir. O cümlədən ölkənin parlamentinə, Milli Məclisinə seçkilərdir.

Biz çox iş görmüşük ki, bu seçkilər demokratik şəraitdə keçirilsin. Seçkidə iştirak edən bütün adamlara imkan verilibdir ki, onlar öz istəklərini həyata keçirə bilsinlər.

Bizdə siyasi partiyalar var. 14 siyasi partiya, yəni hansı siyasi partiya Mərkəzi Seçki Komissiyasına müraciət edibsə, o, seçki prosesində iştirak edir. Bilirsiniz, televiziya, radio ilə, mətbuatda öz siyasi baxışlarını bəyan edirlər, öz fikirlərini deyirlər, tənqid edirlər. Hər halda, nə istəyirlər, onu deyirlər. Elə bu, Azərbaycanda söz azadlığının, mətbuat azadlığının, insan azadlığının, demokratiyanın ən gözəl nümayişidir.

İndi kim nə deyir, o onun işidir, onun vicdanının işidir. Ancaq həqiqət ondan ibarətdir ki, ötən beş ildə Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesi sürətlə inkişaf edibdir. Bu da bizə əsas verir ki, Azərbaycanda bundan sonra demokratiyanı daha da inkişaf etdirək. Hesab edirəm ki, noyabrın 5-dəki seçkilər bunu həm ölkəmizin vətəndaşlarına, həm də beynəlxalq aləmə nümayiş etdirəcəkdir.

Seçkilər haqqında bu sözləri deyərkən, mənim sizə bir müraciətim var. Seçkilərdə fəal iştirak edin. Kimə səs verəcəksiniz, o sizin öz işinizdir. Mən bu barədə heç bir şey demək istəmirəm. Hansı partiyaya səs verəcəksiniz, o sizin öz işinizdir. Ancaq seçkidə iştirak etmək təbiidir ki, hər bir vətəndaşın borcudur. Çünki bu o deməkdir ki, vətəndaş təkcə özü haqqında yox, dövləti haqqında düşünür, milləti haqqında düşünür, demokratiya haqqında düşünür. Ümidvaram ki, Azərbaycanda ötən yeddi ildə ardıcıl surətdə yaranmış bu ictimai-siyasi sabitlik, sosial-iqtisadi inkişaf, insanların sərbəst yaşaması üçün şərait, Azərbaycanın gələcəyi üçün indi yaranmış imkanlar, təbiidir ki, seçkilərdə hər bir vətəndaşa nəyə səs verəcəyini bildirəcəkdir. İnanıram ki, Azərbaycanın seçiciləri ölkəmizin müstəqilliyinə səs verəcəklər. Bu müstəqilliyin əbədi olmasına səs verəcəklər. Azərbaycanda ictimai-siyasi sabitliyə səs verəcəklər. Azərbaycanda demokratiyanın inkişafına səs verəcəklər. Azərbaycanda islahatların – həm iqtisadi islahatların, həm sosial islahatların, həm də dövlət quruculuğundakı islahatların davam etdirilməsinə səs verəcəklər. İnanıram ki, Azərbaycan vətəndaşları haqqa, ədalətə səs verəcəklər, bugünkü həqiqətə səs verəcəklər. Mən bu işdə sizin hamınıza uğurlar arzulayıram.

Əziz dostlar, sizi bugünkü əlamətdar hadisə münasibətilə bir daha təbrik edirəm. Sizin hər birinizə cansağlığı, ailə səadəti, işlərinizdə uğurlar arzulayıram. Arzu edirəm ki, hər birinizin övladı müstəqil Azərbaycanda yaxşı təhsil almaq, böyümək imkanı əldə etsin. Arzu edirəm ki, hamı birlikdə uşaqlara və xüsusən kimsəsiz uşaqlara qayğını artırsın.

Bu uşaq şəhərciyinə isə, təbiidir ki, ən xoş arzularımı bildirirəm. Əmin ola bilərsiniz ki, «SOS uşaq kəndləri–Azərbaycan» assosiasiyası, o cümlədən onun prezidenti Sevil Əliyevanın, assosiasiyanın üzvlərinin gördüyü işlərlə bərabər, bu uşaq şəhərciyi daim mənim diqqət mərkəzimdə olacaqdır.

Mən bir şeyi deməmişəm. «SOS Kinderdorf İnternəşnl» təşkilatının prezidentini qəbul edəndə mənə bir qalstuk bağışladı. Mən dedim ki, o şəhərciyi açanda mütləq bu qalstuku geyinib gələcəyəm. Yəqin ki, bunu görürsünüz. Bu qalstukun üzərində başdan-ayağa uşaq şəkilləri vardır. Sağ olun.

## «AZƏRNEFTYAĞ» İSTEHSALAT BİRLİYİNDƏ NƏHƏNG BİTUM QURĞUSUNUN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

*3 noyabr 2000-ci il*

Əziz bacılar, qardaşlar!
Əziz dostlar!
Əziz neftayıranlar, neftçilər!

Mən bugünkü əlamətdar hadisə, yəni bu böyük, çoxsahəli müəssisənizdə bitum qurğusunun tikilib başa çatması və onun istismara verilməsi münasibətilə sizi ürəkdən təbrik edirəm. Sizə, müəssisənizdə çalışan hər bir insana, şəxsə səadət, cansağlığı və bütün işlərinizdə uğurlar arzu edirəm.

Sizin müəssisənin çox böyük tarixi vardır. Azərbaycanda sənaye üsulu ilə neft hasilatına başlandıqdan sonra xarici ölkələrdən olan bir çox şirkətlər Bakıya gəldilər. Onlar neftin hasilatı ilə məşğul oldular və təbiidir ki, bundan faydalanmağa çalışdılar.

Əgər bütün Yer kürəsini götürsək, o vaxtlar bir neçə nöqtədə, yerdə neft çıxırdı. Mən bunu dəfələrlə demişəm ki, ümumiyyətlə, neftin sənaye üsulu ilə hasil edilməsi dünyada ilk dəfə 1848-ci ildə Azərbaycanda, bundan bir neçə il sonra Amerika Birləşmiş Ştatlarında olubdur.

Ona görə də o vaxt, XIX əsrin sonunda Azərbaycanda neft hasilatı genişləndi, ölkəmizə maraq artdı, xarici ölkələrdən gəlib burada iş gördülər. Təbiidir ki, iş görmək istəyən adamların heç biri buraya kiməsə xeyir vermək üçün gəlmirdi. O, birinci növbədə, öz xeyrini düşünürdü. Eyni zamanda, onlar mütəxəssis olduqlarına, Qərbin o vaxt inkişaf etmiş texnikasından, texnologiyasından istifadə edə bildiklərinə görə, təbiidir, Azərbaycanda neft sənayesinin inkişafında xeyli rol oynadılar. Onlar buraya gəldilər, texnikanı, texnologiyanı tətbiq etdilər.

Azərbaycanın öz sahibkarları, yəni neft olan ərazilərin sahibləri yarandı, onlar zənginləşdi. Məsələn, məşhur Hacı Zeynalabdin Tağıyevin zənginləşməsi ona məxsus olan torpaqdan neft çıxdıqdan sonra olubdur. O təbiidir ki, zəngin adam olub, amma eyni zamanda, xalq üçün çox işlər görübdür. İndi biz Bakıda bir çox gözəl binaları görürük. Bu binaları o tikib, yaradıbdır. Doğrudur, o bunları özü üçün tikibdir, amma xalq üçün də tikibdir. Məsələn, o, məktəb, teatr binaları tikibdir. Yəni o, sadəcə, özü haqqında düşünməyibdir. Bakıda Zeynalabdin Tağıyev Teatrı vardı. Oraya hamımız getmişik. Həmin bina bu yaxınlara qədər yaşadı, sonra bir az köhnəldiyinə görə, biz həmin binanı söküb yerində elə ona bənzər gözəl, amma ondan müasir bir bina, Musiqili Komediya Teatrının binasını tikdik.

Demək istəyirəm ki, Azərbaycanda neft sənayesi qədim tarixə malikdir və əgər ilk dövrlərdə nefti hasil edənlər bazara, sadəcə, xam neft çıxarırdılarsa, sonralar onu emal edib, neft məhsulları əldə edib dünya bazarına çıxartdılar. Təbiidir ki, bununla daha da irəliyə getdilər, zənginləşdilər və Azərbaycanda neft emalı sənayesi yarandı. Bir neçə belə müəssisə var idi. Onlardan ən böyüyü bu dayandığımız yerdə olan neftayırma zavodu idi. Sovet hakimiyyəti qurulandan sonra o təbiidir ki, Sovetlər İttifaqının, dövlətin ixtiyarına keçdi. Bir vaxt o zavod Stalinin adına idi. Yadımdadır, sonra onu dəyişdirdilər, XXII partiya qurultayı adını qoydular. Bunlar hamısı veteranlara məlumdur, veteran olduğum üçün mənə də məlumdur.

Ancaq bunlar köhnə texnologiya ilə işləyirdilər. Təbiidir ki, köhnə texnologiya yaxşı məhsuldarlığı təmin etmir. Köhnə texnologiya ilə məhsul baha başa gəlir. Bir də ki, neftayırma sənayesi müxtəlif tullantılarla ətraf mühiti zəhərləyir. Amma o vaxtlar görünür, Azərbaycanın imkanı olmayıbdır ki, köhnəlmiş, köhnə texnologiyaya malik olan neftayırma zavodlarını yeniləşdirsinlər. Deyə bilmərəm ki, istəməyiblər. Görünür, istəyiblər, amma edə bilməyiblər – ya bacarıqları olmayıbdır, ya da imkanları olmayıbdır.

Bax, burada yerləşən neft emalı müəssisələri Bakı şəhərinin bu gözəl hissəsini, Xəzər dənizinin bu gözəl sahilini Qaraşəhərə çevirdi. O vaxtlar hamı Bakının bu hissəsinə Qaraşəhər deyirdi. Qaraşəhər, Qaraşəhər, Qaraşəhər. Nə üçün Qaraşəhər? Çünki burada zavodlardan havaya çıxan həmin o tullantılar, zəhərli maddələr, o hislər torpağı da qara edirdi. O qaranı havada da görürdün və burada evlərin hamısı qara idi. Ona görə də insanlar buna Qaraşəhər deyirdilər.

1970-ci illərdə biz burada işləyəndə, mən Azərbaycana rəhbərlik edərkən çox işlər gördük. Azərbaycanda sənayeni yüksək templərlə inkişaf etdirdik, maşınqayırma sənayesi yaratdıq, başqa sənayeləri yaratdıq. Amma neft sənayesi bizim üçün o vaxt da əsas sahə idi, bu vaxt da əsas sahədir. Çalışırdıq ki, neft sənayesini daha da müasirləşdirək, yeni texnologiya ilə təchiz edək. Beləliklə, məhsuldarlığı artıraq, məhsulun ucuz başa gəlməsini təmin edək, gəliri artıraq. Ancaq bunlar hamısı bizim özümüzün əlində deyildi.

İndi burada mənim dostum, veteran Fərhad Əliyev xatırlatdı. Mən 1971–72-ci illərdə bu neftayırma zavodlarının vəziyyəti ilə tanış olan kimi, düşündüm ki, bu zavodlar belə yaşaya bilməz. Burada yeni zavodlar tikməliyik. Amma sizə bildirmək istəyirəm, bu, asan deyildi, çox çətin idi. Bu gün düzünü, həqiqəti demək lazımdır. Ona görə çətin idi ki, Moskva, adətən, Azərbaycan kimi respublikalardan nefti sorurdu, bizim məhsullarımızı sorurdu, ancaq burada sənayenin bu hissəsini və başqa hissələrini müasirləşdirmək üçün, yeni texnika gətirmək üçün lazım olan vəsaiti vermirdi.

40-cı illərdə Sovetlər İttifaqında əsas neft hasilatı Azərbaycanda idi. Bunu dəfələrlə çox məşhur adamlar deyibdir. Mən də bunu bilirəm ki, 1941–45-ci illər müharibəsi, faşist Almaniyasının Sovetlər İttifaqına hücumu zamanı təbiidir ki, hər şeyi neft həll edirdi. Təyyarə, tank, avtomobil – hamı üçün neft lazım idi. O vaxt Sovetlər İttifaqının bütün neftə olan tələbatının 70 faizini Azərbaycan ödəyirdi. Azərbaycanın tarixi xidməti var. Ona görə ki, Azərbaycan neftçilərinin, Azərbaycan xalqının bir hissəsi cəbhəyə getdi, alman faşistləri ilə vuruşdu, həlak oldu, canlarını qurban verdi. Arxada olan insanlar isə gecə-gündüz, 24 saat işləyirdilər. Bəzən həftələrlə evə getmirdilər. Ona görə ki, istəyirdilər bir tərəfdən, neft çıxarsınlar, ikinci tərəfdən, bu nefti emal edib benzin, başqa məhsullar istehsal edib hərbi texnikanı təmin etməyə göndərsinlər. Ona görə də mən deyirəm ki, Sovetlər İttifaqı Azərbaycandan çox faydalanırdı. Amma buraya vəsait qoymağa o qədər maraqlı olmurdular.

Bunun səbəbini mən bir dəfə demişəm, bu gün də demək istəyirəm. Bu ondan ibarət idi ki, müharibədən sonra, təxminən 50-ci illərdə Rusiyanın bir çox regionunda neft yataqları açıldı. O yataqların açılmasında da, onların genişlənməsində də, oralarda böyük həcmdə neft hasil edilməsində də yenə Azərbaycan xalqının, Azərbaycan neftçilərinin böyük xidməti olmuşdur. Məsələn, o vaxtlar Tatarıstanda neft yataqları açıldı, Azərbaycan mütəxəssisləri orada idilər. Oraya «ikinci Bakı» dedilər. Sonra başqa yerlərdə neft yataqları açıldı, yenə də Azərbaycan mütəxəssisləri ona «üçüncü Bakı» dedilər. Neft yataqları ilə zəngin olan Tümen kimi bir bölgədə də Azərbaycan mütəxəssisləri, Azərbaycan neftçiləri əsas işi gördülər. Ona görə «ikinci Bakı», «üçüncü Bakı», «dördüncü Bakı» o vaxtkı Sovetlər İttifaqının bütün həyatında məlum idi. Düzdür, indi yaddan çıxarırlar, bunu gənclər də bilmirlər. Mən bunları ona görə deyirəm ki, millətimizin, xalqımızın tarixi xidmətlərini, tarixi nailiyyətlərini biləsiniz.

Məsələn, indi Tümendə nə qədər azərbaycanlı yaşayır. Bəziləri deyirlər ki, azərbaycanlıların çoxu Azərbaycandan kənarda yaşayırlar. Onlar orada yaşayırlar. Çünki 30, 40 il bundan öncə gedib orada işləyiblər, indi də işləyirlər, özlərinə yaxşı həyat qurublar. Təbiidir ki, bu da bizim üçün çox əhəmiyyətlidir.

Məsələn, orada neft kəşf edənlərdən biri o vaxtlar Azərbaycandan getmiş gənc mütəxəssis, geoloq Fərman Salmanovdur. O orada nə qədər böyük işlər gördü. Xatirimdədir, mən Azərbaycanda işləyəndə o hərdənbir Azərbaycana gəlirdi. Biz onu böyük qonaq kimi qəbul edirdik. Çünki o bizim Azərbaycan oğlu idi və Tümendə yeni-yeni neft yataqlarının kəşf edilməsində əsas rol oynayırdı. Sonra Moskvada geologiya nazirinin birinci müavini işləyirdi. İndi yenə də Moskvada yaşayır, orada işləyir, elmlə məşğul olur. Yəni bu, bir nəfər deyildir. Mən yalnız bir nəfərin adını çəkirəm. Minlərlə, on minlərlə Azərbaycan neftçisi o vaxtlar gedib Rusiyada neft hasilatında öz xidmətlərini göstərirdi.

Belə halda, yəni Rusiyanın bir çox regionunda külli miqdarda neft hasil olan zaman təbiidir ki, xam nefti emal etmək üçün neftayırma zavodları tikilməli idi. Mən 70-ci illərin əvvəllərində – Fərhad burada adını çəkdi – neft emalı sənayesi naziri Viktor Stepanoviç Fyodorovu bir neçə dəfə Azərbaycana gətirdim. Biz burada neft emalı sənayesinin 100 illik yubileyini keçirdik. Mən ona dedim ki, get, bu zavodlara bax, bunlar artıq belə vəziyyətdə yaşaya bilməzlər.

O vaxt bütün məsələləri onlar, Moskva həll edirdi. Yeni texnologiya, məsələn, «ELOU AVT-6» qurğusu o vaxt var idi, amma onu aparıb Sibirdə, Tatarıstanda, Uralda quraşdırırdılar. Orada heç köhnə zavodlar da yox idi. Bizə isə deyirdilər ki, sizdə zavod var, onu bir az modernləşdirin, düzəldin, hələ ki, dözərsiniz. Ancaq mən dözmədim. Mən həmin Fyodorova nə qədər dedim, o bunu edə bilmədi. Bəlkə Fərhad bunları bilmir. Mən o vaxtlar sonra Nazirlər Sovetinin sədrinə müraciət etdim. Kommunist Partiyasının Baş katibinə dəfələrlə müraciət etdim. Bəzilərini buraya gətirdim, göstərdim və dedim ki, artıq biz belə müəssisələrlə yaşaya bilmərik. Nəhayət, 1973–74-cü illərdə mən «ELOU AVT-6» qurğusunun Azərbaycana gətirilməsinə nail oldum.

Xatirimdədir, 1976-cı ilin əvvəlində Keşlədə – bilmirəm, indi onun adı nədir – «ELOU AVT-6» qurğusunu tikdik. Bu, birinci idi. O vaxt zavodun adı Vladimir İliç Lenin idi, indi «Azərneftyanacaq»dır.

Yadımdadır, ondan sonra orada yüksək keyfiyyətli benzin almaq üçün sovet xəzinəsindən 40 milyon dollar – o vaxtlar dolların qiyməti bundan yüksək idi – ayırdılar. Orada «Reforminq» qurğusu tikdik. Amma bu məni qane etmirdi. Çünki burada vəziyyət ağır idi. Amma onları əldə edəndən sonra mən yenə də təzyiq göstərməyə, tələb etməyə başladım. Nəhayət, mən burada «ELOU AVT-6» qurğusunun tikilməsi haqqında Moskvanın qərarını aldım və bunu tikməyə başladıq.

Doğru xatırlayırlar, mən o vaxtlar buraya gəldim, dənizin kənarına qədər getdim, təsəvvür edə bilməzsiniz, yer qara, divarlar qara, bütün qurğular qara, burada işləyənlərin də üz-gözü qara rəngdə idi. Deyirlər, indi dənizdə balıq tuturlar. Onda mən dənizə baxdım, qapqara neft idi. Dəhşətə gəldim, bizim insanlar belə şəraitdə

işləyir, yaşayırlar. Təbiidir ki, bu cür geridə qalmış texnologiya bizə hər tərəfdən zərər verirdi. Bir tərəfdən, məhsulun keyfiyyəti istənilən səviyyədə deyildi, ikinci tərəfdən, məhsul baha başa gəlirdi, üçüncü tərəfdən, zəhərli tullantılar təkcə bu sahəni yox, bütün Bakının ekologiyasını zəhərləyirdi. Bilirsiniz, mən buna dözə bilmədim. Ona görə də çalışdım və yeni bir qurğu – «ELOU AVT-6» qurğusunu aldıq, gətirdik, onun inşasına başladıq.

Mənim bacılarım burada xatırladılar ki, 1982-ci ilin yanvar ayında – xatirimdədir, qış idi, qar da yağırdı – buraya gəldik, sizin bu toplantı kimi bir toplantı keçirdik, zavodu açdıq, lenti kəsdik və beləliklə, burada xırda-xırda təmizlənmə işləri getdi.

Xatirimdədir, o vaxt, 1976-cı ildə mən Azərbaycanın sənayesinin inkişafı üçün Moskvadan böyük bir qərar almağa nail oldum. O, sənayenin bütün sahələrini əhatə edirdi. Biz onu müzakirə edəndə mən öz nitqimdə bir neçə söz dedim. Dedim ki, biz bu proqramı yerinə yetirəndən sonra Azərbaycanda 100 illərdən bəri Qaraşəhər adlanan şəhər ağaracaq, təmizlənəcək, burada gül-çiçək əkiləcək və bu, Azərbaycanın gözəl bir guşəsinə çevriləcəkdir. Mən bu sözləri 1976-cı ildə demişəm. İndi mən xoşbəxtəm. Ona görə xoşbəxtəm ki, görürsünüz, 24, 25 il bundan öncə mənim qoyduğum səylər, həyata keçirdiyim tədbirlər öz nəticəsini verib və bəyan etdiyim sözlərin hamısı indi həqiqətə çevrilib, bu günün reallığıdır. Ona görə də sizin bu müəssisə mənim üçün doğmadır. Təkcə sizin müəssisə deyil, Azərbaycanda yüzlərlə belə müəssisə vardır. Onların yaranmasında mən, necə deyərlər, canımı qoymuşam. Onlar mənə doğmadır və onların inkişafını hər dəfə görəndə sevinirəm.

Təəssüflər olsun ki, indi bəziləri əvvəlki səviyyədə işləyə bilmirlər. Bunun obyektiv səbəbləri vardır. Bu məni narahat edir, incidir. Amma biz onları da mütləq lazımi səviyyəyə qaldıracağıq. Buna arxayın olun.

Biz neft emalı sənayesinə ikinci nəfəs verdik. Neft emalı sənayesini dirçəltmək və dənizdən neft çıxarmanın, ümumiyyətlə, neft və qaz yataqlarının geniş miqyasda işlənilməsi üçün 1994-cü ildə bağlanan ilk müqavilədən sonra Azərbaycanın neft sənayesi müasir səviyyədədir və bundan sonra da inkişaf edəcəkdir.

İndi biz buraya bitum qurğusunun açılışına toplaşmışıq. Burada doğru dedilər, mən o vaxt «ELOU AVT-6» qurğusunun Azərbaycanda tikilməsi barədə qərar verilməsinə nail olandan sonra bizim mütəxəssislər təklif etdilər ki, Bakıda mütləq bitum qurğusu yaradılmalıdır. Çünki burada bitum istehsal olunurdu. Oradakı fotoşəkillərdə bu görünür. «ELOU AVT-6» təbiidir ki, neft emalı üçündür, amma bitum qurğusunun ayrı xüsusiyyəti vardır. Ona görə də mən 1980-ci ildə bitum qurğusunun tikilməsi haqqında yenə də sovet hökumətinin, Moskvanın qərarının əldə edilməsinə nail oldum.

Çox təəssüflər edirəm ki, 1982-ci ilin sonunda Azərbaycandan getdim, sizdən ayrıldım. Doğrudur, beş ildən çox Moskvada işləyəndə yenə də Azərbaycanın bütün işləri ilə məşğul olurdum. Ondan sonra isə mənim həyatım sizə məlumdur. Ağır bir dövr yaşadım. Ancaq 1993-cü ildə siz məni yenə də Azərbaycanın rəhbərliyinə dəvət etdiniz. Gəldim, o vaxt başlanan işləri, yarımçıq qalan işləri indi başa çatdırmağa və yeni-yeni işlər görməyə çalışıram.

Son illər burada görülən işlər həqiqətən çox sevindiricidir. Müəssisənin direktoru, çıxış edən veteranlar rəqəmlər misal gətirdilər. Məsələn, 1990–1991-ci illərdə müəssisə nə vəziyyətdə idi? Bu cür gözəl müəssisə zərərlə işləyirdi. Əgər sən bunu xüsusi müəssisə etmək istəsən, bu da mümkün deyildi. Mən dəhşətə gəlirəm. Bu cür müəssisə, bütün sistemlərdə, sovet sistemində də, nə bilim, indi yeni sistemdə də, bazar iqtisadiyyatında da gəlirlə işləyə bilər. Vaxtilə gətirib onun içərisində 150 kiçik müəssisə yaradıblar. Bu indi burada deyilən həmin oğurluğu qanuniləşdirmək məqsədi daşıyırdı. Burada kiçik müəssisənin nə işi var? Bu özü böyük müəssisədir və elə bir müəssisədir ki, onun içində kiçik müəssisələr yaratmağa heç bir ehtiyac yoxdur. Kim bunu edibsə, təbiidir ki, öz şəxsi məqsədlərinə nail olmaq üçün edibdir. İndi bunlar hamısı buradan təmizlənib? Yoxdur ki?

**R a m i z   M i r z ə y e v** *(«Azərneftyağ» İstehsalat Birliyinin Baş direktoru)*: Cənab Prezident, bəli, təmizlənibdir.

**H e y d ə r   Ə l i y e v:** Görürsünüz, həmin kiçik müəssisələr indi yoxdur. Siz də indi daha yaxşı işləyirsiniz. Siz o dövrü yaşamısınız, allaha şükür ki, ondan da xilas olmusunuz. Həmin məsələlərdən mənim bir az xəbərim var idi. Sonralar bunları təhlil edəndə bildim ki, iş nə yerə gedir.

Məsələn, xatirimdədir, biz 1995–1996-cı illərdə özəlləşdirmə proqramını həyata keçirməyə başlayanda bəziləri deyirdilər ki, gəlin hər şeyi bir ildə özəlləşdirək, nə varsa hamısını dağıdaq, şəxsi mülkiyyətə verək, onda hər şey yaxşı olacaqdır. Mən isə bunlara yol vermədim. O vaxt bəzi adamlar bu cür müəssisələri, bizim neft sənayesini özəlləşdirmək istəyirdilər. Onlar Azərbaycan xalqının ən böyük sərvətini, bu gün də, 100, 200 il bundan sonra da xalqımıza xidmət göstərəcək və onun sosial inkişafını təmin edəcək neft sənayesini, neft şirkətini özəlləşdirmək istəyirdilər. Başa düşürsünüz? Mən o vaxt bunların qarşısını aldım.

Mən bunu nə üçün deyirəm. Bu cəhdlərin məqsədi o idi ki, demək, bir adam, bir neçə adam murdar fikirlərlə bu zavodu əlinə keçirsin, sonra nə cür istəyirsə istifadə etsin. Mən bu barədə o vaxt da mövqeyimi bildirmişəm və bu gün də deyirəm. Hamı bilsin. Çünki bəzi yerlərdə müxtəlif fikirlər gəzir. Neft sənayesi Azərbaycanda özəlləşdirilə bilməz. Neft sənayesi, neft emalı sənayesi dövlətin əlində olmalıdır. Əgər biz respublikamızın bazar iqtisadiyyatına doğru inkişafını tam təmin edə bilsək, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin səviyyəsinə

qaldıra bilsək – buna hələ çox var – hesab edirəm, gələcək nəsillərə imkan vermək olar ki, bu sahədə də özəlləşdirmə aparsın. Amma indiki dövrdə bunların heç birini şəxsi ələ vermək olmaz. Onu bilin, heç kəsə vermək olmaz.

İndi baxın, bu müəssisə insanlara nə qədər xeyir verir. Burada dedilər, mən də bu rəqəmlərlə tanışam. Orta əmək haqqı 550 min manatdır. Dostum Cahangir Quliyev burada dedi ki, ən az maaş 200 min manatdan artıqdır. Amma bu hələ son hədd deyildir. Burada dedilər, mən də bunu təsdiq edirəm ki, bundan sonra istehsalın keyfiyyəti, məhsuldarlığı artacaqdır, maaşlar qalxacaqdır.

Amma bu müəssisəni bir qrupun ixtiyarına ver, nə cür istəyir, elə də etsin, insanların bir qismini çölə atsın, hər şeyi öz şəxsi məqsədləri üçün etsin. Bu ola bilməz. Vaxtilə həmin o kiçik müəssisələri yaradanlar buranı özəlləşdirmək fikri ilə yaşamışlar.

Bir şeyi də qeyd etmək istəyirəm ki, müəssisənin kollektivindən və aparıcı qüvvə olan mühəndis-texniki işçilərdən, rəhbərlikdən çox şey asılıdır.

Məsələn, mən bir neçə dəfədir ki, buraya gəlirəm. Mən hər dəfə buraya sizin əldə etdiyiniz hansısa nailiyyətlərlə əlaqədar gəlirəm. Amma biz bu zavoddan əvvəl ilk dəfə 1976-cı ildə «ELOU AVT-6» qurğusunu Keşlədə yaratdıq. Dediyim kimi, sonra orada böyük bir «Feforminq» qurğusu tikdik. Ondan əvvəl orada 3 milyon ton həcmində neft emal etmək imkanına malik olan – bəlkə indi o köhnəlibdir – qurğu var idi. Son illər buradakı inkişafı görürəm. Amma o biri müəssisədə bu inkişafı görmürəm.

**N a t i q Ə l i y e v** (*Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti):* Cənab Prezident, orada hazırda müəyyən işlər görülür.

**H e y d ə r Ə l i y e v:** Bəs niyə görmürəm? Yox, demək, bu, kollektivdən, kollektivə rəhbərlik edənlərdən asılıdır. Əgər orada bir nailiyyət olsaydı, siz çoxdan məni oraya aparmışdınız. Ona görə də hesab edirəm, bizim kimi adamların – ölkəyə, xalqa rəhbərlik edən adamların borcu, vəzifəsi ondan ibarətdir ki, qursun, yaratsın, gələcək işlərin əsasını qoysun. Amma siz insanların, mütəxəssislərin, fəhlələrin, müxtəlif sahələrdə işləyən adamların da borcu ondan ibarətdir ki, müəssisəni, texnikanı, texnologiyanı səmərəli işlətsinlər və istehsalı artırsınlar. Mən öz borcumu yerinə yetirmişəm. Siz də öz borcunuzu yerinə yetirirsiniz. Buna nümunə həmin bu bitum qurğusudur.

Mən dedim, vaxtilə sovet hökumətinin bu barədə qərarını aldıq. İşlər bir az başladı, amma sonra yatdı. Gərək ki, bitum qurğusu son iki-üç il ərzində quraşdırılıbdır. Elədirmi?

**A r t u r R a s i z a d ə** (*Azərbaycanın Baş naziri*): Cənab Prezident, bəli, elədir. Bu işə 1997-ci ildən başlanıbdır.

**H e y d ə r Ə l i y e v:** Burada iş 1997-ci ildən başlayıbdır. Təbiidir ki, bu da bizə çox lazımdır. Burada ildə 250 min ton bitum, özü də tam müasir texnologiya əsasında, yüksək keyfiyyətdə istehsal olunacaqdır. Bu bizə lazımdır. Bu, inşaat işləri, yollar çəkilməsi və s. üçün lazımdır. Ancaq mənə verilən məlumatlara görə 250 min ton bitumun – Azərbaycanın tələbatı təxminən 60–70 min tondur – qalanı başqa ölkələrə ixrac olunacaqdır. Demək, biz oradan respublikamıza valyuta gətirəcəyik. Bu qurğu vasitəsilə Azərbaycanın tələbatını ödəyəcəyik.

Əgər səhv etmirəmsə, Azərbaycana keyfiyyətli bitum indi xaricdən gətirilir.

**A r t u r R a s i z a d ə**: Bəli, cənab Prezident. İtaliyadan gətirilir.

**H e y d ə r Ə l i y e v:** Təsəvvür edin, İtaliyadan bura bitum gəlir. Amma indi bizim yüksək keyfiyyətli bitum məhsulumuz olacaqdır. Əlbəttə, bundan Azərbaycanın sənayesinin inkişafında, yenə də deyirəm, həm inşaatda, həm başqa sahələrdə istifadə olunacaqdır. Bu qurğunun istifadəyə verilməsi müəssisənin həyatında yeni bir əlamətdar hadisədir. Buna görə də mənə gəlib bitum qurğusuna baxmaq təklif olunanda – doğrudur, mənim işim çoxdur, bu gün də olduqca çox işim var – bundan imtina etmədim. Mən məmnuniyyətlə buraya gəldim. Çünki birincisi, mən bunun əsasını hələ 1980-ci ildə qoymuşam. İkincisi də bu, Azərbaycanda iqtisadiyyatın, o cümlədən sənayenin inkişafının yeni bir nümunəsidir.

Burada veteranlar çıxış etdilər. İndi Azərbaycanda aşkarlıqdır, demokratiyadır. Kim nə istəyir, onu deyir. Kim istəyir, bildiyini də, bilmədiyini də deyir. Amma təəssüflər olsun ki, ümumiyyətlə, sənayedən, iqtisadiyyatdan xəbəri olmayan adamlar vəziyyəti özləri bildiyi kimi təhlil edirlər. Təhlil də ondan ibarətdir ki, guya hər şey dağılıb, hər şey batıb, hər şey pozulubdur. Guya biz dağıtmışıq, indi kimsə gəlib quracaqdır.

Bilirsiniz, biz qurmuşuq. Onu da deyirəm ki, şəxsən mənimlə bərabər Azərbaycan xalqı bu böyük potensialını 1970-ci ildən başlayaraq qurub, yaradıbdır. Amma 1990-cı ildən bu dağıdılıbdır. Dağıdanlar da məlumdur. Biz 1993-cü ildən bu dağıntının qarşısını almışıq, 1995-ci ildən inkişafa başlamışıq və 2000-ci ildə belə nəticələr əldə edirik. İndi kim qurur, kim dağıdır? Bu, göz qabağındadır. Bunu kim qura bilər? Xalq bunu bilir, siz bilirsiniz. Amma belə şeyləri qurmağı heç yuxuda da görməyən, nə bilim, heç kitabda da oxumayan adamlar indi iddia edirlər ki, onlar gəlib dağıdılanların hamısını quracaqlar. Bu onların öz işidir. Necə deyərlər, «...karvan keçər». Kim nə deyir, onu da desin. Azərbaycanın karvanı gedir və gedəcəkdir.

Mən çox şadam ki, sizinlə görüşürəm. Hamınız xoş əhval-ruhiyyədəsiniz. Allah da bilir ki, bu gün yaxşı gündür. Ona görə bizə belə yaxşı bir hava bəxş edibdir. Çox şadam ki, vaxtilə burada gördüyüm adamlarla yenidən görüşürəm. Əlbəttə, mənim üçün çox gözəl, böyük bir sürprizdir.

Bu bacım vaxtilə çəkilmiş bir şəkli mənə göstərdi. Mən 1982-ci ilin yanvarında buraya gələndə o mənə gül veribdir. İndi də, 18 ildən sonra o yenə də mənə gül verir. Yəqin ki, 20 ildən sonra o yenə mənə gül verəcəkdir. Yaxud da bu bacım. Yenə də deyirəm, bu şəkli ki, sən evində saxlayırsan, böyük xatirə hesab edirsən, bu mənim üçün çox qiymətlidir. Mən bilirəm ki, belə xatirələr Azərbaycan xalqının, vətəndaşlarının evlərində çoxdur. Çünki biz çox işlər görmüşük və o görülən işlərdən xatirələr heç vaxt unudulmaz. Bizim bu gün gördüyümüz işlər də unudulmayacaqdır. İnanıram ki, bir çox illərdən sonra yenə də hamımız burada toplaşacağıq və yeni-yeni qurğuların açılmasında iştirak edəcəyik.

Mən sizi bir də təbrik edirəm. Hamınıza cansağlığı arzu edirəm. İndi buradan sonra gedib yeni tikilən evlərə baxacağıq. Həqiqətən, baxın, Azərbaycanda indi mənzil inşası, yəni yaşayış evlərinin inşası əvvəlki kimi deyildir.

Mən dünən Əhmədli qəsəbəsində uşaqlar üçün «Sos Kinderdorf İnternəşnl» təşkilatının tikdiyi şəhərciyə baxdım, onun açılış mərasimində iştirak etdim. Buradan gəlib gedərkən bu yerlərə baxdım. Dedim, Allah, mən burada 20–30 il bundan öncə də olmuşam. İndi necə gözəlləşibdir! Buradan dönüb Əhmədliyə gedəndə nə düşündüm? Axı orada heç bir şey yox idi. Oralar boş çöl idi. Biz 70-ci illərdən oralarda inşaat aparmağa başladıq. İndi orada nə qədər böyük evlər var, nə qədər insan yaşayır! Onları biz etmişik, biz qurmuşuq, biz yaratmışıq.

Yadımdadır, Əhmədli qəsəbəsində biz ilk evləri tikəndə çoxları deyirdi ki, ora uzaqdır, oraya gedən olmayacaqdır. İndi orada böyük bir şəhər yaranıbdır. Əhmədliyə qədər metro çəkdik. Mənim o da xatirimdədir ki, biz əvvəlcə metronu mərkəzdən 8-ci kilometr qəsəbəsinə çəkdik. Oradan – «Neftçilər» stansiyasından Əhmədliyə qədər davam etdi. Mən bu işlə gecə-gündüz məşğul olmuşam. Hətta Moskvada işləyərkən, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən metro işini aparan nazirliyə rəhbərlik edirdim. Bir çoxuna rəhbərlik edirdim, ona da. O vaxtlar Şərifov da o nazirliyin tərkibində idi. Orada ildə bir dəfə geniş kollegiya keçirilirdi. O kollegiyaya gəlirdim. Oraya SSRİ-nin hər yerindən trestlərin rəhbərləri gəlirdi.

Yadımdadır, metro tikintisinin başçısı Əbdülrəhimov var idi. Şərifov, xatirindədir?

**A b i d Ş ə r i f o v** (*Baş nazirin müavini*): Bəli, cənab Prezident!

**H e y d ə r Ə l i y e v:** Beş yüz, altı yüz, səkkiz yüz adamın içərisindən onu qaldırırdım. Nazir də oturub, başqa adamlar da oturublar. Deyin görüm, metroda işlər necədir, nə problemin var, burada həll edəcəyəm. Həll edirdim, nazirə göstəriş verirdim. Beləliklə, biz metronu tikdik, inkişaf etdirdik. Yəni bunları saymaqla qurtarmaq olmaz. Biz bu işləri görmüşük və bundan sonra da görəcəyik. İndi burada sizin belə bir şəraitdə yaşayış binaları tikməyiniz və işçilərinizi bu binalarla təmin etməyiniz gözəl bir hadisədir. Mən sizi bu münasibətlə də təbrik edirəm.

Sizə bir daha cansağlığı arzu edirəm, xoşbəxtlik arzu edirəm və yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ (AŞPA) ÖLKƏMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏRİ MÜŞAHİDƏ ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 noyabr 2000-ci il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli cənab Qross! Hörmətli qonaqlar!

Mən Avropa Şurası Parlament Assambleyasının belə mötəbər nümayəndə heyətinin Azərbaycana gəlməsindən çox məmnunam. Sizi Azərbaycanda səmimi-qəlbdən salamlayıram.

Sizin Azərbaycana gəlməyinizin və bizim görüşümüzün məqsədi hamıya aydındır. Biz Azərbaycanda neçə aylardır ki, yeni parlament seçkilərinə hazırlıq işləri görürük. Nəhayət, sabah bu seçkilər baş verəcəkdir. Siz isə, bir çox başqa beynəlxalq təşkilatlar kimi, öz mötəbər nümayəndə heyətinizi Azərbaycana gətirmisiniz ki, bizim seçki prosesini müşahidə edəsiniz və ona qiymət verəsiniz.

Azərbaycan bir müstəqil dövlət kimi gəncdir. Demokratik seçkilərin keçirilməsində müəyyən təcrübə toplasa da, hələ bəlkə də yüksək səviyyəyə çata bilməyibdir. Ancaq başlıcası ondan ibarətdir ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən indiyə qədər demokratiya yolunu özünün əsas yolu tutubdur və bundan sonra da tutacaqdır. Biz bu yol ilə gedirik və bundan sonra da gedəcəyik.

Demokratiyanın mühüm atributlarından biri də seçkilərin, xüsusən parlament seçkilərinin keçirilməsidir. Biz beş il bundan öncə müstəqil Azərbaycanın ilk demokratik Konstitusiyasını qəbul etdik və o vaxt da Azərbaycanda ilk parlament seçkiləri keçirdik. Çalışdıq ki, seçkilər demokratik olsun. Hesab edirik ki, biz bu sahədə çox şeyə nail olduq. Çünki indiyə qədər mövcud olan Azərbaycan parlamentində müxtəlif qüvvələr təmsil ediliblər. Başlıcası ondan ibarətdir ki, Azərbaycanın Milli Məclisi, parlamenti ötən beş il içərisində çox məhsuldar işləyibdir. Demək olar ki, Azərbaycanın həyatının bütün sahələrində demokratik prinsipləri yaratmaq, inkişaf etdirmək üçün çoxsaylı və dünya standartlarına uyğun qanunlar qəbul ediblər.

Biz demokratiyanı təkcə seçkilərdə görmürük. Məsələn, Azərbaycanda bazar iqtisadiyyatının həyata keçirilməsi və bunun vasitəsilə iqtisadiyyatın inkişaf etdirilməsi, sosial problemlərin həll olunması da demokratiyanın bir hissəsidir. Yaxud da dövlət quruculuğu prosesi, hüquqi islahatlar, bütün insan azadlıqları, mətbuat azadlığı, vicdan azadlığı, fikir azadlığı. Biz bu prinsipləri dövlətimizin əsası kimi qəbul etmişik. Ancaq onları tənzimləmək üçün, təbiidir ki, müvafiq qanunlar lazımdır.

Mən bu gün cəsarətlə deyə bilərəm ki, bu qanunların əksəriyyəti qəbul olunub və işləyir. Məhz bunların nəticəsində biz bugünkü Azərbaycanda real olan vəziyyətə və uğurlarımıza nail ola bilmişik. Bu nailiyyətlərlə yeni seçkilərə gəldik. Biz belə hesab edirik ki, demokratiyanın əvvəli var, sonu yoxdur. Biz demokratiyanın birinci mərhələsindəyik və hesab etmirik ki, demokratiya, o cümlədən seçkilərin demokratik keçirilməsi sahəsində zirvəyə çatmışıq. Amma əsas şərt odur ki, biz bu yolu gedirik. Müəyyən bir məsafə qət etmişik, təcrübə əldə etmişik. Tam olmasa da, təbii ki, vətəndaşlarımızda demokratik fikirləri yarada bilmişik. İndi istəyirik ki, bu seçkilərdə demokratiya sahəsində irəliyə yeni bir addım ataq. Seçkiqabağı aparılan işlər, hər halda, bunu göstərir. Çünki müşahidəçilər olublar. Bu onu göstərir ki, seçkiqabağı prosesdə, kampaniya demokratiyaya uyğun olan bütün tədbirləri görə bilmişik.

Birincisi, seçkidə iştirak etmək arzusunda olan bütün partiyaların hamısı seçkilərdə iştirak edirlər. Onların bəziləri bizim seçki qanununa görə seçkidə iştirak etmək hüququ əldə edə bilməmişdi, buna baxmayaraq, Mərkəzi Seçki Komissiyası tərəfindən onlara güzəşt olunubdur. Çoxsaylı qəzetlərdə öz fikirlərini, mülahizələrini, bugünkü iqtidara münasibətlərini bildirirlər. Dövlət televiziyası, yaxud da özəl televiziya vasitələri ilə də çoxsaylı çıxışlar ediblər. Bu partiyaların əksəriyyəti bugünkü iqtidara müxalifətdə olan partiyalardır. Bu partiyaların nümayəndələrinin çıxışlarında – mən onları dinləyirdim – bir leytmotiv vardır: bugünkü iqtidarı sağına-soluna tənqid etmək, sübut etmək ki, 7 ildə bugünkü iqtidar Azərbaycanın heç bir problemini həll etməyibdir. Hər partiya bəyan edir ki, bugünkü iqtidar hakimiyyətdən getməlidir və vəd edir ki, biz gəlib Azərbaycanı daha da yaxşı idarə edəcəyik. Bəzən bu 7 il müddətində görülən işlərin hamısını inkar edərək, ortaya qovluqlar qoyurlar ki, bax, bu bizim konsepsiyamızdır. Bunların hamısı Azərbaycanda fikir azadlığının, mətbuat azadlığının – bütün azadlıqların mövcud olduğunu sübut edir.

Məsələn, biz bilirik ki, xalqın əksəriyyəti o çıxışları qəbul etmir, yaxud da bunlara razı ola bilmir. Ancaq onların tərəfdarları yəqin ki, bu çıxışlarla həmrəydirlər. Bu da demokratiyanın təzahürüdür. Bu barədə çox

danışmaq olar. Mən sadəcə, bu sözlərlə onu ifadə etmək istəyirəm ki, seçkiqabağı proses, hesab edirəm, çox açıq, aşkar, demokratik şəraitdə keçibdir. Bu da bizdə bir ümid, inam yaradır ki, sabah seçkilər demokratik şəraitdə keçəcəkdir. Hesab edirəm ki, hər halda, bunun üçün lazım olan hər bir şəraiti yaratmışıq. Siz də müşahidə edəcəksiniz.

Əlbəttə, siz hamınız Avropadan gəlmiş adamlarsınız. Biz də Avropa qitəsində yaşayırıq. Amma Avropa ölkələrinin demokratiya sahəsində təcrübəsi və keçdiyi yol çox böyükdür. Biz də Avropa dəyərlərini Azərbaycanda təbliğ etməyə çalışırıq. Hətta Avropa Şurasına daxil olmaq istəyirik. Ona görə gərək siz bu şeylərə sırf Avropa gözlüyü ilə yox, buradakı reallığı nəzərə alaraq qiymət verəsiniz.

Mən, hər halda, öz fikrimi deyirəm. Amma mən bilirəm, sizin hər birinizin öz fikri vardır. Biz çalışacağıq seçkilər demokratik, aşkar, şəffaf, ədalətli keçirilsin. Müşahidəçilərdən arzumuz odur ki, onlar da ədalətli olsunlar.

Son illər demokratik ölkələrlə, Qərbin bütün demokratik ölkələri ilə bizim əməkdaşlığımız və birgə bir çox işlərimiz onu göstərir və bizi inandırır ki, siz, təbiidir ki, müşahidəçi kimi Azərbaycandakı seçkilərə ədalətli münasibət göstərəcəksiniz. Mən bu yolda sizə uğurlar arzulayıram. Sağ olun.

**A n d r e a s  Q r o s s** (*İsveçrə, nümayəndə heyətinin rəhbəri*): Cənab Prezident, sağ olun. Bizi qəbul etmək üçün ayırdığınız vaxta görə Sizə təşəkkür edir, bunu çox yüksək qiymətləndiririk. Söylədiyiniz xoş sözlərə görə Sizə minnətdarlığımızı bildiririk və eyni zamanda demokratiyanın qurulmasında qətiyyətlilik göstərmək barədəki sözlərinizi məmnuniyyətlə qarşılayırıq.

Bizim nümayəndə heyəti Avropanın 10 demokratik dövlətinin parlamentini təmsil edən nümayəndələrdən ibarətdir. Bu 10 ölkənin hamısı demokratik cəmiyyətlərdir. Lakin onu da yaxşı anlayırıq ki, demokratiyanın özü uzun bir prosesdir. Bu prosesin başlanğıcı var və daim davam edir. Ayrılıqda götürülmüş heç bir demokratiya kamil demokratiya deyildir.

Nümayəndə heyətimizə həmçinin Avropa Şurası Parlament Assambleyası Siyasi Komitəsinin uzvləri də daxildirlər. Bəzilərimiz bu komitədə çalışırıq və son dövrlər Azərbaycanın demokratiyaya gedən uzun yolda əldə etdiyi tərəqqi barədə tez-tez müzakirələr aparmışıq. Hesab edirəm, Avropa Şurası Parlament Assambleyasının iyun ayında Azərbaycanı və Ermənistanı Avropa Şurasına qəbul etmək barədə qərarı onu göstərir ki, bizim mövqeyimiz ədalətli mövqedir və sizin əldə etdiyiniz nailiyyətləri dəstəkləyirik.

Biz Azərbaycanda, eləcə də bütün Avropada demokratiyanın inkişaf etdirilməsi üçün sabahkı seçkilərin əhəmiyyətliliyi barədə sizin söylədiklərinizlə tamamilə şərikik.

Bir məsələyə də toxunmaq istəyirəm ki, tənqid məsələsi və müxalifətin olması ən qədim tarixdən üzü bəri mövcuddur. Tənqid sözünün özü hətta XVI əsrdən bu yana hər zaman işlədilməkdədir. Bəzən müxalifətə, tənqid sözünə bir medalın iki üzü kimi baxırlar və bəzən bu sözlərin arasına bərabərlik işarəsi də qoymaq olar. Yəni bizim partiya daha yaxşı idarə edəcəkdir mənasını verir. Bu, demokratiyanın ayrılmaz bir hissəsidir.

Cənab Prezident, bizim çoxumuzun Sizə sualı vardır. İcazə versəydiniz, o sualları sizdən sorardıq. Əgər belə bir müzakirəyə icazə verirsinizsə, biz buna başlaya bilərik.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, mətbuat lazımdır, yoxsa yox?

**A n d r e a s  Q r o s s:** Cənab Prezident, Siz qərar verin.

**H e y d ə r  Ə l i y e v:** Yox, siz necə hesab edirsiniz?

**A n d r e a s  Q r o s s:** Mətbuat işıq deməkdir. Demokratiyada da heç bir kölgə olmur. Biz heç bir işıqdan qorxmuruq. Ona görə də mətbuatın burada olmasına etiraz etmirik.

**H e y d ə r  Ə l i y e v:** Biz də qorxmuruq. Mən bu sualı ona görə verirəm ki, qəbul etdiyim nümayəndə heyətləri bəzən az sonra xahiş edirlər, mətbuat iştirak etməsin. Mən isə, adətən, mətbuatın bizim danışıqlarda iştirak etməsinin daim tərəfdarıyam. Buyurun.

**A n d r e a s  Q r o s s:** Cənab Prezident, birinci sualı mən verirəm. Adətən, bu ölkələrdə seçki prosesində seçicilər az sayda iştirak edirlər. Məsələn, referendium, seçkilər keçirilərkən bunu muşahidə etmişik. Seçicilərin 30–40 faizinin seçki məntəqələrinə gəlib səsvermədə iştirak etməsini müşahidə edirik. Güman edirik, belə gözlənilir ki, sabahkı seçkidə əhalinin 30–40 faizi iştirak edəcəkdir. Siz əhalinin seçkidə belə az sayda iştirakını necə izah edərdiniz?

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz, mən bilmirəm, neçə faiz gələcəkdir. Hər halda, bizim qanunda yazılıb ki, 25 faiz gəlsə, seçki baş tutmuş hesab olunur. Bildiyimə görə, hətta bəzi ölkələrdə heç faiz də yoxdur. Nə qədər gəlir gəlsin, gələnlərdən kim daha çox səs alır, o da seçilir. Mən hesab edirəm ki, Azərbaycanda seçkilərə maraq çoxdur. Həm əhalidə, həm də müxalifətdə çoxdur. Ona görə hesab edirəm, 25–30, bəlkə də 40 faizdən artıq gəlsinlər.Bəlkə bu işin sirrini siz bilirsiniz? Çünki seçkilərə sizin ölkələrdə də az gəlirlər.

**A n d r e a s  Q r o s s:** Cənab Prezident, biz bunu sonra aydınlaşdırarıq. Növbəti sualı İspaniyanın nümayəndəsi vermək istəyir.

**H e y d ə r  Ə l i y e v:** Buyurun.

**G i l l e r m o  M a r t i n e s  K a s a n** (*İspaniya)*: Cənab Prezident, son bir neçə il ərzində Sizin qarşınızda çox çətin vəzifələr olmuşdur. Bu vəzifələr birinci növbədə ölkənizin müstəqilliyinin qorunub

saxlanması və möhkəmləndirilməsi, ölkədəki ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, dövlətinizdə demokratik təsisatların yaradılması və inkişaf etdirilməsi, Azərbaycanda demokratik standartların bərqərar olunmasıdır. Bu sahədə əldə etdiyiniz nailiyyətləri yüksək qiymətləndiririk. Ola bilər bu, Azərbaycanda parlament seçkilərini müşahidəçi qismində izləməyəcəyimiz axırıncı seçkilərdir.

Siz dediniz, məhz Sizin sayənizdə son beş ildə ölkənizdə parlament fəaliyyət göstərib və dövrünü başa çatdırmağa nail olubdur. Bir çox Avropa dövlətləri sabahkı seçkilərə Azərbaycanda parlamentin fəaliyyəti istiqamətində mühüm bir addımın atılacağı kimi baxırlar.

Bu da bir reallıqdır ki, Azərbaycanda siyasi fəaliyyətin böyük bir qismi məhz Sizin üzərinizə düşübdür, Sizin çiyinlərinizdə, hökumətinizin üzərində olubdur. Ümidvarıq ki, növbəti parlament daha yetkin, daha kamil parlament kimi formalaşacaqdır. Beləliklə də ölkədə demokratiyanın, maddi rifah halının inkişaf etdirilməsinin və sabitliyin qorunub saxlanması kimi siyasi vəzifələrin müəyyən qisminin parlamentdə bölüşdürülməsi üçün vaxt yetişibdir.

**H e y d ə r Ə l i y e v:** Əvvəlcə Azərbaycanda bizim əldə etdiyimiz nailiyyətlərə verdiyiniz müsbət qiymətə görə təşəkkür edirəm.

Siz deyirsiniz ki, bu işlərin hamısı mənim üzərimə düşübdür. Mən bununla razı ola bilmərəm. Çünki sizə dedim ki, bizim parlament çox məhsuldar işləyibdir. Təsəvvür edin, beş ildə 900 qanun qəbul edibdir. Özü də ən çətin qanunlar. Məsələn, bir neçə məcəllələr vardır. İndiyə qədər biz SSRİ-nin məcəllələri ilə işləyirdik. Cinayət Məcəlləsi, cinayət prosessual, mülki, mülki-prosessual məcəllələr, Ailə Məcəlləsi, Vergi Məcəlləsi, İnzibati Hüquqpozmalar Məcəlləsi. Bir qanun var, bir də məcəllələr vardır. Təbiidir ki, qanun müəyyən bir məsələni əhatə edir. Ancaq məcəllələr həyatın bütün sahələrini əhatə edir. Ona görə bu qanunlardan əlavə, məcəllələri də deyirəm. Bunları hazırlamaq, parlamentdə müzakirə etmək, son həddə gətirib cəmiyyətə təqdim etmək – bunlar az iş deyildir. Əgər bu qanunlar, məcəllələr olmasaydı, hökumət də bu işləri görə bilməzdi və bu nailiyyətlər əldə oluna bilməzdi.

Biz hüquqi dövlət qururuq. Hüquqi dövlətin də əsasını təşkil edən qanunlardır. Ona görə bizim hamımızın üzərinə çox vəzifələr düşübdür. Amma hakimiyyətin hər qolu öz vəzifəsini yaxşı həyata keçirsə, demək, bizim ümumi işimiz yaxşı olacaqdır.

Əlbəttə, bir prezident kimi, mən işimi yüngülləşdirməyin əleyhinə deyiləm. Onsuz da işlərim çoxdur və nə qədər mümkündür, bunu edirik. Bundan sonra da edəcəyik.

**A n d r e a s B a r s o n i** (*Macarıstan*): Cənab Prezident, ümidvarıq ki, sabah seçki məntəqələrinə gələcək seçicilərin bir qismi də yerindən-yurdundan köçkün düşmüş yüz minlərlə insanlardır. Onlar Azərbaycanın müxtəlif bölgələrinə səpələniblər. İndi onlar öz yurdlarında, kəndlərində səs vermək hüququndan məhrum olublar. Çünki onların torpaqları qonşu ölkə tərəfindən işğal edilibdir.

Bilmək istərdik ki, Ermənistan ilə Azərbaycan arasında tarixi barışın əldə edilməsi prosesini necə görürsünüz? Həm sizin ölkənizin qarşısında duran əsas problem olan, həm də köçkünlərin ən ciddi, əsas problemi olan bu münaqişənin sülh yolu ilə həll olunması baxımından yaxın müddətdə hansı perspektivləri görürsünüz? Bu barədə fikirlərinizi bilmək bizim üçün maraqlı olardı.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl sualdır. Təşəkkür edirəm. Çünki bu bizim xalqımızın, ölkəmizin ən ağır, ən çətin və ən vacib problemidir. Mən çox məmnunam ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpağının 20 faizini işğal etdiyini siz bilirsiniz. İşğal olunmuş torpaqlardan bir milyona qədər azərbaycanlılar məcburən öz yerlərini tərk ediblər və əksəriyyəti çadırlarda yaşayır. Çadırda bir ay, bir il yaşamaq olar, amma çadırda səkkiz il yaşamaq, təsəvvür edin, nə qədər çətin bir şeydir.

Ona görə də bizim, hamımızın, yəni Azərbaycanın bugünkü hakimiyyətinin, o cümlədən də mənim, Azərbaycan prezidentinin ən əsas vəzifəsi və ən çox vaxt sərf etdiyi məsələ Ermənistan – Azərbaycan münaqişəsini həll etməkdən ibarətdir.

Bilirsiniz ki, 1988-ci ildən 1994-cü ilə qədər müharibə gedibdir. On minlərlə adam həlak olubdur, çoxları yaralanıb, əlil olubdur. Sağ qalanları da işğal nəticəsində bizim ən məhsuldar torpaqlarımız olan rayonlardan, bölgələrdən zorla çıxarılıblar. Vəziyyətdən çıxmaq üçün biz 1994-cü ilin may ayında – bu mənim təşəbbüsüm olmuşdur və Ermənistan da ona qoşulmuşdur – atəşin kəsilməsi haqqında saziş əldə etdik. Ondan sonra sülh danışıqları aparırıq. Dünyada olan bütün beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışırıq.

Bu məsələnin sülh yolu ilə həll olunması üçün ATƏT xüsusi bir Minsk qrupu yaradıbdır. Minsk qrupuna Rusiya, Amerika və Fransa rəhbərlik edirlər. Onlar dünyanın ən böyük ölkələridir. Biz onlarla mütəmadi əməkdaşlıq edirik. Minsk qrupunun bir neçə təklifləri olubdur. Bu təkliflər Azərbaycan üçün o qədər də məqbul olmayıbdır. Amma buna baxmayaraq, sülh əldə etmək üçün, işğal olunmuş torpaqları azad etmək və Dağlıq Qarabağa ən yüksək özünüidarə statusu vermək üçün biz bu təklifləri qəbul etdik. Amma Ermənistan bunu qəbul etmir.

Mən bilirəm ki, sizin ölkənizin Rumıniya ilə buna oxşar problemləri var idi. Elədirmi?

**A n d r e a s B a r s o n i:** Bəli.

**H e y d ə r Ə l i y e v:** Amma siz onu həll etdiniz.

**A n d r e a s   B a r s o n i:** Bəli, sülh yolu ilə həll etdik.

**H e y d ə r   Ə l i y e v:** Sülh yolu ilə həll etdiniz. Mən Rumıniyanın prezidenti ilə və sizin ölkənin prezidenti ilə danışmışam, həll etdiniz. Amma burada Ermənistan tərəfi qeyri-konstruktiv mövqe tutur. O, torpaqları işğal etdiyi üçün öz üstünlüyündən istifadə edir və Dağlıq Qarabağa tam müstəqillik statusu almaq istəyir.

1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə bir sənəd qəbul olundu. Orada Azərbaycanın və Ermənistanın ərazi bütövlüyü, Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində ən yüksək dərəcəli özünüidarə statusu verilməsi prinsipləri var. Amma Ermənistan buna razı olmur. Ermənistan deyir ki, Dağlıq Qarabağa dövlət müstəqilliyi vermək lazımdır. Təbiidir ki, bu da beynəlxalq hüquq normalarına ziddir və Azərbaycanın suveren hüquqlarını, ərazi bütövlüyünü pozur.

1999-cu ilin aprel ayından mən Ermənistan prezidenti Köçəryan ilə mütəmadi bir neçə görüşlər keçirmişəm. Biz bu görüşlərdə bir-birimizi müəyyən qədər anlaya bilmişik. Həm prezident Köçəryan, həm də mən belə fikir irəli sürmüşük ki, hər iki tərəf müəyyən kompromislərə getməlidir. Bu məsələləri ATƏT-in Minsk qrupunun rəhbərləri bilirlər. Ancaq Ermənistan bu danışıqlardan da çəkilibdir. İndi nə edək?

İndi müxalifət bu seçki qabağı məni ona görə günahlandırır ki, yeddi ildə Azərbaycanın prezidenti olaraq bu məsələni həll etməmişəm. Bəziləri də belə çağırışlar edirlər ki, əgər bu məsələ sülh yolu ilə həll olunmursa, müharibə etmək lazımdır. Ölsək də, öz torpaqlarımızı azad etmək lazımdır. Bu da bəzi insanlarda belə əhval-ruhiyyə yaradır. Amma mən isə 1994-cü ildə müharibəni saxlamışam, qan tökülməsini saxlamışam və o vaxtdan indiyə qədər məsələnin yalnız sülh yolu ilə həll olunması mövqeyindəyəm.

Mən inanmıram, Azərbaycanda ikinci bir şəxs ola bilər ki, bu işlə mənim qədər dərin, ətraflı məşğul ola bilsin. Amma mənə qarşı ittihamlar irəli sürən müxalifətin hər biri deyir ki, Heydər Əliyev bu məsələni həll edə bilmir, biz hakimiyyətə gələcəyik, bunu həll edəcəyik. Vəziyyət belədir. Ancaq mən heç də ümidsiz deyiləm. İnanıram ki, biz bu məsələni sülh yolu ilə həll edəcəyik. Güman edirəm ki, Ermənistan da, Azərbaycan da tezliklə Avropa Şurasına daxil olsa, Avropa Şurası öz fəaliyyətini bu barədə daha da fəallaşdıra bilər.

**A n d r e a s   Q r o s s:** Cənab Prezident, çox sağ olun. Sonuncu sözünüzlə əlaqədar onu bildirmək istəyirəm ki, biz bu fikri tamamilə bölüşürük. Hesab edirik ki, Avropa Şurası öz qapılarını hər iki ölkəyə açmalıdır. Bu iki ölkəni Avropa Şurasına üzv qəbul etməklə bu münaqişənin sülh yolu ilə həll olunmasına öz töhfəmizi verə bilərik. Hətta biz Avropa Şurasında artıq başqa ölkələrdə belə müvafiq münaqişələrin tarixini öyrənməyə, həmin ölkələrdə hansı qurumlara muxtariyyət statusunun verilməsi çərçivələri ilə tanış olmağa başlamışıq ki, Siz Avropa Şurasına üzv qəbul olunduqdan sonra bu təcrübəni hər iki ölkəyə təklif edək, münaqişənin həllinə töhfəmizi vermiş olaq.

Növbəti sualı Böyük Britaniyanın təmsilçisi vermək istəyir.

**X a n ı m   C e n n i   C o n s** (*Böyük Britaniya*): Cənab Prezident, mən elə bir ölkəni təmsil edirəm ki, o, demək olar, 100 il bundan öncə bütün insanlara səs vermək hüququ veribdir. Lakin üç il bundan öncə biz ona nail ola bildik ki, əvvəlki illərlə müqayisədə parlamentə qadınlar daha çox seçilə bilsinlər. Xanımların parlamentə üzv seçilməyə ruhlandırılması, onlara kömək göstərilməsi yeni demokratik ölkələr kimi, əski demokratiya şəraitində yaşamış Avropa ölkələrinin də problemidir.

Bu parlament seçkilərindən sonra Siz hansı addımları atmağı və parlamentə necə tövsiyələr verməyi planlaşdırırsınız ki, yeni seçilmiş parlament gələcək seçkilərdə xanımların parlamentə daha çox seçilməsində rol oynasın, onları bu işə ruhlandırsın?

**A n d r e a s   Q r o s s:** Üzr istəyirəm, mənə söylədilər ki, cəmi beş dəqiqəlik vaxtımız qalıbdır. Amma bir-iki adam da sual vermək istəyir. Ona görə sual verənlərin hamısına birlikdə cavab verin.

**H e y d ə r   Ə l i y e v:** Yox, mən cavab verəcəyəm. Bu da çox yaxşı sualdır.

Siz 100 il keçəndən sonra buna nail olmusunuz. Amma indi işini sona çatdıran bizim parlamentdə 120 deputatın 15-i qadındır. İndi görün, sizin parlamentdəki qadınların faizi ilə Azərbaycandakı faiz bir-birinə nisbətdə nə qədərdir.

Bu seçkilərdə də çox qadınlar öz namizədliklərini irəli sürüblər. Partiya siyahısında da qadınlar vardır. Azərbaycanda qadınlara münasibət çox yaxşıdır. İnanıram ki, bu seçkilərdə də qadınlar keçən tərkibdən az olmayacaqlar. Mən şəxsən bunun tərəfdarıyam.

Yenə də deyirəm ki, Azərbaycanda qadınların emansipasiyası hələ 1920-ci illərdə başlayıbdır. Görürsünüz, burada mənə dəqiqləşdirirlər ki, 1918-ci ildə bizim ilk demokratik respublika yarananda qadınlara seçki hüququ verilmişdi. Baxmayaraq ki, Azərbaycanda o vaxt qadınların çoxu çadra altında idi. Bizdə qadınlar çox fəaldır.

Məsələn, mən bir neçə il bundan öncə hökumətin tərkibində Qadın Problemləri üzrə Dövlət Komitəsi, yəni nazirliyi yaratmışam, fərman vermişəm. Professor Zəhra Quliyeva komitənin sədridir. Bundan arxayın ola bilərsiniz.

**V e r a   S k u a r c i a l u p i** (*İtaliya*): Cənab Prezident, bu çox mühüm görüşünüz zamanı çıxış edərkən dediniz ki, seçkilərdə nə qədər adamın iştirak etməsi elə bir əhəmiyyət daşımır. Nə qədər seçici iştirak edə bilərsə, iştirak etsin. Bu bizi bir az narahat edir. O mənada ki, seçicilərin məntəqələrə az gəlməsinin izahatı ola

bilər. Bunlardan birincisi, bu ola bilər ki, insanlar mövcud durumdan narazıdırlar, ikincisi, onların səsinin heç bir əhəmiyyət daşımadığı fikrində ola bilərlər. Üçüncüsü, onlar düşünə bilərlər ki, kimə səs vermələrindən asılı olmayaraq, kimsə onların əvəzinə son qərarı verəcəkdir. Bizim ölkələrimizdə seçicilərin səsverməyə gəlməsi az olurdu. İndi bu artmaqdadır. İstərdim Siz bu məsələyə toxunasınız.

**H e y d ə r Ə l i y e v:** Birincisi, sizi əmin edirəm ki, Azərbaycanda seçkilərə İtaliyadakından çox adam gələcəkdir.

**V e r a S k u a r c i a l u p i:** Cənab Prezident,bizdə 78–80 faiz seçkiyə gəlir.

**H e y d ə r Ə l i y e v:** Sizdə elədir?

**V e r a S k u a r c i a l u p i:** Bəli, bizdə 80 faiz təşkil edir.

**G i l l e r m o M a r t i n e s K a s a n:** Bizdə, İspaniyada da 80 faizdir.

**H e y d ə r Ə l i y e v:** Bizdə neçə faiz olacaq, deyə bilmərəm. Amma mənim bu cavabımın səbəbi nədən ibarətdir?

Keçmişdə seçkiyə çox adam gələndə Avropa təşkilatları deyirdilər ki, onları seçkiyə məcburi gətirirlər. SSRİ vaxtı seçkilərə gələnlər 99,99 faiz olurdu. Siz də buna inanmırdınız. İndi sizdə 80 faiz olur, mən necə inanım? Bəlkə siz də zorla gətirirsiniz? Ona görə hesab edirəm ki, Azərbaycanda seçicilər fəal olacaqlar. Amma deyə bilmərəm ki, nə qədər gələcəklər. Hər halda, çox gələcəklər. Çünki nə mən, nə də hakimiyyət orqanları bunu tənzimləmirik. Gəlin sabah axşamı gözləyək. Onda nəticə çıxararıq.

**A n d r e a s Q r o s s:** Cənab Prezident, sonuncu sözü Azərbaycanla uzun illər əlaqəsi olan və Sizin də yaxşı tanıdığınız Fransanın təmsilçisi cənab Bomelə verirəm.

**H e y d ə r Ə l i y e v:** Buyursun.

**J a k B o m e l** (*Fransa*): Cənab Prezident, bağışlayın, mən fransız dilində danışacağam.

**H e y d ə r Ə l i y e v:** Tərcüməçimiz var.

**J a k B o m e l:** Mən həmkarlarımdan sonra qısa danışacağam.

Bildiyiniz kimi, mən həmkarım cənab Klerfayt ilə birlikdə bu ölkə haqqında məruzə etmək missiyasını üzərimə götürəndən sonra buraya tez-tez gəlmişəm. Biz bunu bir daha təsdiq edirik ki, bu müddət ərzində bu ölkədə çox böyük dəyişikliklər olmuşdur. Arzu edirəm və istəyirəm ki, sabahkı seçkilər Azərbaycanın demokratiya yolu ilə gələcəyə inkişafında yeni və mühüm bir mərhələ olsun. Əlbəttə, bu, Azərbaycanda bir tərəfdən həm sabitliyin, həm də qanuniliyin təminatçısı olacaq və gələcəkdə Azərbaycanın sülh şəraitində inkişafına təkan verəcəkdir.

Ümid edirəm ki, sabahkı seçkilər Avropa Şurasının qayda-qanunlarına və standartlarına tam uyğun olacaqdır. Beləliklə, Avropa Şurasının Nazirlər Komitəsində Azərbaycanın Avropa Şurasına üzv olmasına kömək edəcəkdir.

**H e y d ə r Ə l i y e v:** Hörmətli dostum cənab Bomel. Mən sizin son illərdə Azərbaycanda demokratiyanın inkişaf etməsi üçün göstərdiyiniz xidmətləri çox yüksək qiymətləndirirəm və buna görə təşəkkür edirəm.

Cənab Bomel, sizinlə bərabər bizim də dostumuz cənab Klerfayt ilə birlikdə həqiqətən çox iş gördünüz ki, Azərbaycanda demokratiyanın inkişaf etməsi daha da sürətlənsin və Azərbaycan Avropa Şurasına daxil ola bilsin. Sizə də, cənab Klerfayta da xüsusi təşəkkür edirəm. İnanıram ki, sizin də, bizim də bir neçə ay gördüyümüz işlər gərək sabah öz müsbət nəticəsini göstərsin və nəhayət, biz Avropa Şurasına qəbul olaq.

Mən təşəkkür edirəm ki, Avropa Şurası Parlament Assambleyası Azərbaycanı və Ermənistanı üzv qəbul etmək haqqında hələ iyunun 28-də qərar qəbul edibdir. Çox sağ olun. Amma bunu başa çatdırmaq lazımdır. İnanıram ki, sizin köməyiniz ilə bu, başa çatar və bu günlərdə Avropa Şurasının Nazirlər Komitəsi yəqin ki, öz qərarını çıxarar.

**A n d r e a s Q r o s s:** Cənab Prezident, çox sağ olun. Doğru dediniz, Avropa Şurasının Nazirlər Komitəsi bu məsələyə yaxın zamalarda baxacaq. Onlar bizim hesabatımızı gözləyirlər. Biz də çalışacağıq ki, yazacağımız hesabat həm sizin ölkənizin, həm də bütün Avropanın maraqlarına cavab vermiş olsun. Bir daha çox sağ olun.

**H e y d ə r Ə l i y e v:** Hamınıza əvvəlcədən təşəkkür edirəm. Çox sağ olun.

## ATƏT-in PARLAMENT ASSAMBLEYASININ ÖLKƏMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏRİ MÜŞAHİDƏ ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 noyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli xanım Kokkonen!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz. Mən sizi salamlayıram və ümidvar olduğumu bildirmək istəyirəm ki, sizin missiyanız Azərbaycana bu seçkilərdə, demokratiyanın inkişafında kömək edəcəkdir.

Son illər ATƏT-in Parlament Assambleyası ilə Azərbaycanın əlaqələri inkişaf edibdir. ATƏT-in hazırkı sədri xanım Benita Ferrero-Valdner Azərbaycanı ziyarət etmişdi və biz çox yaxşı görüşlər keçirmişdik. İndi də böyük tərkibdə siz gəlmisiniz. Ümidvaram ki, siz öz müşahidələrinizlə bizə kömək edəcəksiniz.

Güman edirəm, siz bilirsiniz ki, biz bir neçə aydır seçkilərə hazırlaşırıq. Hesab edirik ki, hazırlıq dövrünü yaxşı səviyyədə təşkil edə bilmişik. Seçkilərdə iştirak etmək arzusunda olan 14 partiyanın hamısı bu imkanı əldə edibdir. Baxmayaraq ki, onlardan bəziləri seçkidə iştirak etmək hüququ qazanmaq üçün seçki qanununun şərtlərini yerinə yetirə bilməmişdi. Birmandatlı seçki dairələrində də çox adamların namizədliyi qeydə alınıbdır, orta hesabla bir yerə dörd namizəd var. Ona görə də seçicilərin imkanı var ki, istədikləri namizədə səs versinlər.

Seçkiqabağı təbliğat kampaniyası da tamamilə azad, aşkarlıq şəraitində keçibdir. Bilirsiniz ki, bizdə çoxsaylı qəzetlər var. Bunlar müstəqildir və əksəriyyəti də müxalifət mövqeyində duran qəzetlərdir. Bu qəzetlərdən hamı istifadə edibdir. Elə partiya var ki, 3–4 qəzeti çıxır. Özəl televiziya kanalları var, onlardan istifadə edirlər. Hər bir partiyanın nümayəndəsi dövlət televiziyası ilə dəfələrlə xalqa müraciət etmək imkanı alıbdır. Hərə öz fikrini istədiyi kimi bildiribdir. Ona görə də kimin kim olması seçicilər üçün aydındır.

Bütün bunlara əsaslanaraq mən hesab edirəm ki, seçicilər artıq sərbəst surətdə qərar qəbul ediblər və kimə istəsələr, ona da səs verə bilərlər. Ona görə mən deyirəm ki, Azərbaycanda seçkiqabağı kampaniya demokratik şəraitdə keçmişdir. Amma bunun nəticəsi sabah görünəcəkdir. Siz də məhz bunu müşahidə etmək üçün gəlmisiniz.

Biz demokratiya yolu ilə getdiyimizə görə seçkilərin tam demokratik, aşkarlıq, şəffaflıq şəraitində, ədalətli keçirilməsi üçün əlimizdən gələni etmişik. Biz iddia etmirik ki, hər şeyi edə bilmişik. Çünki Azərbaycan demokratik, müstəqil dövlət kimi gəncdir. Demokratiya bizim üçün yeni bir məfhumdur.

Biz bu yolla gedirik və gedəcəyik. Demokratiyanın əvvəli var, sonu isə yoxdur. Məsələn, ola bilər siz yüz metr məsafə keçmisiniz, biz əlli metr. Amma biz də sizin arxanızca gəlirik. Bəlkə də elə ola bilər ki, arxanızca gələrik, sonra isə sizi keçərik. Bu da ola bilər.

Demək istəyirəm ki, bizim məqsədimiz, məramımız budur. Amma bu o demək deyildir ki, seçicilərin hamısı demokratiyanı biz başa düşdüyümüz kimi anlayır. Ola bilər, bu sahədə qüsurlar, nöqsanlar da olsun. Amma bunlar həlledici xarakter daşımır. Həlledici odur ki, biz bu seçkilərdə demokratiya yolunda yeni bir iri addım atmaq fikrindəyik. Hesab edirəm ki, biz buna nail olacağıq.

Təbiidir ki, sizin obyektiv, ədalətli müşahidəniz da burada çox böyük rol oynayacaqdır.

**P a u l a K o k k o n e n** (*Finlandiya nümayəndə heyətinin rəhbəri, ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi*): Cənab Prezident, çox sağ olun. Nümayəndə heyətimizi qəbul etdiyinizə görə Sizə təşəkkür edirəm. Biz bu görüşə gəlməkdən həm şadıq, həm də böyük qürur duyuruq.

Bilirik ki, indi sizin ölkədə olan yeganə nümayəndə heyəti deyilik. Hazırda Azərbaycana çoxlu nümayəndə heyətləri gəlibdir. Ölkənizdə gedən demokratikləşmə prosesi barədə fikirlərinizlə tanışlıq çox maraqlı oldu.

Biz sizin ölkəyə xoş məramla gəlmişik. Bilirik ki, Siz Qərb demokratiyasına nail olmaq və onu ölkənizdə tətbiq etmək üçün çoxlu səylər göstərmisiniz. Cənab Prezident, biz bu prosesdə Sizin şəxsi rolunuzu da anlayırıq və qiymətləndiririk. Bizim ölkələrdə də demokratiya tam kamil demokratiya deyildir. Demokratiya çox çətin bir idarəçilik üsuludur. Lakin bizim ölkələrin hamısı bu demokratiya yolunda inkişaf edir. Hesab edirəm ki, Sizin belə güclü iradənizdən bizim öyrənəcəyimiz çox şeylər vardır.

Son iki gün ərzində biz ölkənizdə fəaliyyət göstərən əsas iri partiyalar ilə görüş keçirib onları dinləmişik. Kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşmüşük və onları da dinləmişik. Şübhəsiz, anlayırıq ki, onların heç də hamısı eyni havanı çalmır. Ancaq açıq-aşkar görürük ki, Avropa təsisatlarına inteqrasiya edilmək istəyinə, ümumən, hamı şərikdir.

Biz Azərbaycanda qanunvericiliklə yaxından tanış olmuşuq. Bəzi narahatlıqların olduğunu da görmüşük. Mənim üçün ən ciddi narahatlıq bir çox namizədlərin qeydiyyata alınmaması olmuşdur. Bununla belə, onu da anlayırıq ki, daha demokratik prosedurların tətbiq edilməsi istiqamətində irəliyə doğru mühüm addımlar atılmışdır. Əvvəlki seçkilərlə müqayisədə bu daha açıq-aydın görünür.

Cənab Prezident, bizə çox maraqlı olardı, bilək ki, Ermənistan– Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını necə görürsünüz, bu barədə fikirləriniz necədir? Biz həm də Azərbaycanın Avropa təsisatlarına inteqrasiya edilməsi istiqamətində görülən işlər, qarşıdakı parlament seçkilərindən sonra bu proseslərin necə inkişaf edəcəyi barədə fikilərinizlə tanış olmaq istərdik.

Cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür edirəm.

**H e y d ə r  Ə l i y e v:** Müşahidələrinizin, ümumiyyətlə, müsbət xarakter daşıması məni sevindirir. Azərbaycanda demokratiya prosesinin hazırkı mərhələsinə düzgün qiymət verdiyinizə görə də sizə təşəkkür edirəm. Bizim fikirlərimiz eynidir, demokratiya və onun əsas göstəricisi olan seçkilər daim təkmilləşdirilməlidir. Hesab edirik ki, hazırlıq dövründə olduğu kimi, seçkilər keçirilən zaman da biz böyük irəliləyiş əldə edəcəyik.

Siz Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə sual verdiniz. Mən məmnunam ki, bu məsələ sizi maraqlandırır, hətta məşğul edir. Hesab edirəm ki, indi dünyada baş verən və vaxtilə mövcud olmuş münaqişələrlə müqayisə etsək, Ermənistan–Azərbaycan münaqişəsi ən dəhşətli, ən uzunsürən bir münaqişədir. Təbiidir ki, mən Yaxın Şərqdə baş vermiş münaqişəni nəzərdə tutmuram. Onun tarixi çox böyükdür. Amma keçmiş sovet məkanında, yaxud Avropa ölkələrində olan münaqişələrlə müqayisə etsək, Ermənistan–Azərbaycan münaqişəsi ən ağır, ən çətin bir şəkil alıbdır.

Birincisi, bilirsiniz ki, bu münaqişənin 12 yaşı vardır, 1988-ci ildən başlayıbdır. Müharibə olub, qan tökülüb, insanlar həlak olubdur. Bu münaqişə həm Azərbaycanın, həm də Ermənistanın Sovetlər İttifaqının tərkibində olduğu dövrdə başlayıb və davam edibdir. Həmin müddət az deyildir. Bu, 1988-ci ildən 1991-ci ilin sonunadək olan dövrü əhatə edir. Yəni bu münaqişənin 4 ili həm Azərbaycanın, həm də Ermənistanın Sovetlər İttifaqının tərkibində olduğu dövrə təsadüf edir. Həm o dövrdə, həm də Azərbaycan müstəqillik əldə etdikdən sonra müxtəlif obyektiv və subyektiv səbəblərdən Ermənistan silahlı qüvvələri əvvəlcə Dağlıq Qarabağı, sonra isə onun ətrafında olan əraziləri, bütövlükdə götürsək, Azərbaycanın ərazisinin 20 faizini işğal edibdir və artıq səkkiz ildir ki, bu torpaqları işğal altında saxlayır.

ATƏT bu münaqişənin sülh yolu ilə həll olunması üçün 1992-ci ildə Minsk qrupu yaradıbdır. Bu qrupa 12 dövlət daxildir. Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. ATƏT-ə hər il yeni bir ölkə sədrlik edir. ATƏT-ə sədrlik edən hər bir ölkə bizə kömək etməyə söz verir. Amma hələ heç bir nəticə yoxdur.

Biz 1994-cü ilin may ayında atəşi dayandırdıq. İndi müharibə yoxdur, amma sülh də yoxdur. İşğal olunmuş torpaqlardan bir milyondan çox azərbaycanlı zorla çıxarılıbdır və 8 ildir ki, çadırlarda yaşayır.

Qeyd etmək istəyirəm ki, Finlandiya 1996-cı ildə ATƏT-in sədri olan zaman biz keçmiş prezidentiniz Ahtisaari və o vaxt Xarici İşlər naziri, indi isə prezident olan xanım Tarya Halonen ilə bu sahədə bir il əməkdaşlıq etdik. Bu gün mən fürsətdən istifadə edib demək istəyirəm ki, Finlandiya ATƏT-ə sədrlik edəndə biz xeyli nailiyyət əldə edə bildik. 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə münaqişənin həll olunmaçı üçün çox vacib bir sənəd qəbul olundu. Hesab edirəm, ölkənizin dövlət başçısı, həm də Xarici İşlər naziri bu sənədin qəbul olunmasına yaxşı xidmət göstərdilər.

ATƏT-in Lissabon zirvə görüşündə ilk dəfə qəbul olunan bu sənəddəki prinsiplərdən biri Ermənistanın və Azərbaycanın ərazi bütövlüyü idi. Doğrudur, Ermənistanın ərazi bütövlüyü pozulmayıb, amma həmin sənəddə belə yazılmışdır. Digər prinsip münaqişəni yaradan əsas bölgəyə, Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində ən yüksək özünüidarə statusu verilməsi idi.

Bu, münaqişəni sülh yolu ilə həll etmək üçün ən vacib bir sənəddir. Amma Ermənistan bununla razı olmadı. Hətta Ermənistanın keçmiş prezidenti Ter-Petrosyan 1997-ci ilin sonunda anladı ki, artıq bu yolla getmək lazımdır. O bu təklifi qəbul etdiyi zaman onunla bir yerdə işləyən insanlar müxalifətə keçdilər və 1998-ci ilin əvvəlində o, istefa verməyə məcbur oldu.

ATƏT-in Minsk qrupu bundan sonra da bəzi təkliflər veribdir. O qədər məqbul olmasa da, biz onları qəbul edirik. Amma Ermənistan qəbul etmir. Ermənistan silahlı qüvvələri bizim torpaqlarımızı işğal etdiyinə görə özünün müəyyən qədər üstünlüyündən sui-istifadə edərək, yalnız və yalnız Dağlıq Qarabağa müstəqillik statusu əldə etmək istəyir. Təbiidir ki, biz bununla razı ola bilmərik.

1999-cu ilin aprel ayında mən və Ermənistan prezidenti Köçəryan bilavasitə görüşlər keçirməyə başladıq. Bu görüşlər bizi bir qədər irəliyə apardı. Çünki hər iki tərəfdən bəyan edildi ki, məsələni həll etmək üçün müəyyən kompromislərə getmək lazımdır. Təəssüflər olsun ki, 1999-cu ilin sonunda Ermənistan bu təkliflərdən, yəni sülh prosesində əldə olunmuş kiçik nailiyyətlərdən də imtina etdi.

Biz yenə də danışıqlar apardıq. Hesab edirəm ki, bu danışıqlar davam etməlidir, münaqişə sülh yolu ilə həll olunmalıdır. Amma bizim xalqımız çox böyük əziyyətlər içərisində yaşayır. Bir milyondan çox vətəndaşımız 8

ildir çadırlarda yaşayır. İşğal olunmuş torpaqlarda hər şey viran edilib, Azərbaycana çox böyük zərərlər vurulubdur.

Təəssüf edirəm ki, beynəlxalq təşkilatlar da bu məsələdə qəti addımlar atmırlar. Onlar çox halda deyirlər ki, iki dövlət bir-birilə danışsın, hansı razılığa gəlsələr, biz onu dəstəkləyəcəyik. Biz danışıqlar aparırıq, amma razılığa gələ bilmirik. Niyə razılığa gələ bilmirik? Ona görə ki, Ermənistan Dağlıq Qarabağ üçün yalnız müstəqillik statusu istəyir. Deməli, ölkəmizin ərazi bütövlüyü, beynəlxalq hüquq normaları pozulmalıdır və Azərbaycanın ərazisində ikinci erməni dövləti yaradılmalıdır?

Mən ümidsiz deyiləm. Hesab edirəm ki, biz bu danışıqları apararaq bu məsələni sülh yolu ilə həll edə biləcəyik. Ancaq xalqımız artıq bu vəziyyətə dözə bilmir. Bundan istifadə edən müxalifət partiyaları da – dediniz ki, onların bəziləri ilə görüşmüsünüz – iqtidarı, prezident kimi şəxsən məni ittiham edirlər ki, Heydər Əliyev 7 ildir Azərbaycana başçılıq edir, amma bu məsələni həll edə bilmir. Əgər Heydər Əliyev hakimiyyətdən getsə, biz gəlib bu məsələni həll edə bilərik.

Əgər inansam ki, hansısa bir qüvvə gəlib məsələni həll edə biləcək, mən bu gün hakimiyyətdən getməyə hazıram. Ancaq bu bəyanatları verən həmin müxalifət partiyalarının heç bir potensialı yoxdur. Mən dəfələrlə demişəm ki, bu, ümumxalq işidir, bu barədə kimin nə təklifi varsa, gətirib ortaya qoysun. Bəlkə biz bilmədiyimizi siz bilirsiniz, gəlin bu məsələyə birlikdə baxaq. Amma onlar heç bir şey bilmirlər, heç nəyə qadir deyillər. Onlar sadəcə, bundan sui-istifadə edirlər, prezident Heydər Əliyevə ittihamlar irəli sürürlər ki, seçicilərin səsini qazansınlar.

Bəlkə də deməyim yaxşı olmaz, amma mən bu problemi o qədər dərindən bilirəm və bu işlə hər gün o qədər məşğul oluram ki, təsəvvür edə bilmərəm ki, hansısa ölkədə hansısa bir dövlət başçısı belə bir işlə bu qədər məşğul olsun.

Avropa Şurası Azərbaycanı da, Ermənistanı da eyni zamanda Avropa Şurasına üzv qəbul etmək istəyir. Deyirlər ki, seçkilərdən sonra guya bu olacaqdır. Bəlkə Avropa Şurası bu məsələnin həllində bir şey edə bilər. Mən 7 ildir ki, gecə-gündüz bu məsələ üzərində ATƏT, BMT ilə çalışıram. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul olunubdur ki, Ermənistan işğal etdiyi torpaqları azad etməlidir. Amma Ermənistan bu qətnamələri icra etmir.

Bəzi müxalifət qüvvələri belə bir vəziyyətdə bəyan edirlər ki, münaqişə əgər sülh yolu ilə həll olunmursa, biz müharibə etməliyik, ölsək də, nə qədər insan itirsək də torpaqlarımızı azad etməliyik. Mən müharibə etməyi də bacarıram. Amma müharibəyə çağıran adamların heç birisi orduda bir gün də xidmət etməyibdir. Amma mən gənc vaxtlarımdan 26 il hərbi işdə xidmət etmişəm və gəlib general rütbəsinə çatmışam. Ancaq mən hesab edirəm ki, müharibə lazım deyildir. Çünki mən müharibənin nə olduğunu bilirəm. Amma onların heç birisi heç bir şey bilmir, sadəcə, əsgər olublar. Mən xalqı yenidən qırğına apara bilmərəm.

Bu barədə çox danışmaq olar. Güman edirəm, mənim verdiyim məlumat sizin üçün yetərlidir ki, Azərbaycan bu məsələni sülh yolu ilə həll etmək istəyir, Ermənistan isə qeyri-konstruktiv mövqe tutur.

**Paula Kokkonen:** Cənab Prezident, nümayəndə heyətinin üzvlərinə Sizə sual verməyə icazə verirsinizmi?

**Heydər Əliyev:** Buyurun.

**Cenifer Hilton** *(nümayəndə heyətinin üzvü)*: Cənab Prezident, bilmək istərdik ki, ölkənizdə səhiyyənin inkişaf etdirilməsi üçün planlarınız nədən ibarətdir?

Bütün ölkələrdə olduğu kimi, sizin respublikada da yəqin ki, əhalinin kasıb təbəqəsi arasında xəstəliklər vardır. Onlara yardım göstərmək üçün nə kimi işlər görülür?

**Heydər Əliyev:** Biz səhiyyənin inkişaf etdirilməsi üçün çox işlər görürük. Ölkəmizin dövlət büdcəsi o qədər də böyük deyildir. Amma biz səhiyyəyə maliyyə yardımını hər il artırırıq və çalışırıq ki, xidmət yaxşı olsun.

Siz bilirsiniz ki, Azərbaycan 70 il sovet quruluşu sistemində olubdur. Sovetlər İttifaqında səhiyyə xidməti pulsuz idi. Hər il xeyli xəstəxanalar, poliklinikalar tikilirdi. Mən 1970-ci illərdə və 1980-ci illərin birinci yarısında Azərbaycana rəhbərlik etmişəm. İndi Azərbaycanda mövcud olan xəstəxanaların və tibb ocaqlarının böyük əksəriyyəti o dövrdə tikilibdir.

Mən Moskvada Baş nazirin birinci müavini işlədiyim zaman bütün Sovetlər İttifaqının səhiyyəsinə rəhbərlik etmişəm. Xatirimdədir, biz dövlət büdcəsindən səhiyyəyə böyük miqdarda vəsait ayırırdıq. O vaxtdan sonra yeni bir şey az tikilir, səhiyyəyə ayrılan vəsait azdır. İnsanlara pulsuz səhiyyə xidməti göstərmək, dərman vermək imkanları azalıbdır. Bəzi xəstəxanalarda əhaliyə pullu xidmət göstərilir. Amma bu azdır.

Biz sovet sistemindən imtina etdik, o dağıldı. Amma indi yeni bir sistem qurmaq lazımdır. Bunun üçün isə çətinliklər vardır. Amma mən sizə bildirmək istəyirəm ki, bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan Cenevrədə yerləşən Dünya Səhiyyə Təşkilatının üzvüdür. Norveçin keçmiş Baş naziri xanım Brutland həmin təşkilata sədrlik edir. Onların hesablamasına görə, son illər Azərbaycanda bir çox xəstəliklərin qarşısı alınıbdır. Məsələn, ölkəmizdə uşaqlar arasında poliomielit xəstəliyi tamamilə aradan götürülübdür. Vərəm xəstəliyi ilə

çox ciddi mübarizə aparılır və belə xəstələrin sayı azalıbdır. Hər halda, biz xeyli iş görmüşük və bu sahəyə diqqəti ilbəil artırırıq.

**Paula Kokkonen:** Cənab Prezident, biz bu gün vaxtınızı çox aldıq. Burada səhiyyədən danışırıqsa, dərk edirəm ki, Sizə bir az istirahət etmək imkanı verməliyik. Çünki bu gün çoxlu görüşlər keçirirsiniz. Amma icazə verin, bu cənab Sizə sonuncu sualı versin.

**Helmut Rauber** (*nümayəndə heyətinin üzvü*): Cənab Prezident, Siz sabahkı seçkilərdən hansı nəticələr gözləyirsiniz?

**Heydər Əliyev:** Dövlət başçısı, prezident kimi, mən bu seçkiləri Azərbaycanın həyatında və müstəqil Azərbaycanın tarixində çox əhəmiyyətli bir mərhələ hesab edirəm. Biz 9 il bundan öncə dövlət müstəqilliyimizi bəyan etmişik. Bu 9 ilin birinci illəri çox ağır, çətin illər olubdur. Ermənistanla müharibə gedirdi, Azərbaycanın daxilində qanunsuz silahlı dəstələr tüğyan edirdi, hakimiyyət uğrunda silahlı mübarizə aparılırdı. 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlandı. Məhz o vaxt xalq məni Bakıya dəvət etdi. Xalq mənə müraciət etdi ki, bu ağır vəziyyətdə öz üzərimə məsuliyyət götürüm.

Mən bunu etməyə məcbur oldum. Ona görə yox ki, mənə vəzifə lazım idi. Mən vaxtilə uzun illər vəzifədə olmuşdum və çox işlər də görmüşdüm. Azərbaycanda, Bakıda mənim əsərlərimi – zavodları, fabrikləri, yaşayış evlərini, xəstəxanaları, məktəbləri, universitetləri, bunları saymaqla qurtarmaq olmaz – hər yerdə görə bilərsiniz. Azərbaycana ikinci dəfə rəhbərlik etməyə həvəsim yox idi. Ancaq xalqın o ağır vəziyyəti məcbur etdi ki, mən bu məsuliyyəti üzərimə götürüm. 1993-cü ildən 1995-ci ilə qədər mənim vaxtım ancaq müharibəni dayandırmağa, ölkənin daxilində ictimai-siyasi vəziyyəti sabitləşdirməyə həsr olundu.

1995-ci ilin noyabr ayında biz ilk demokratik Konstitusiyamızı qəbul etdik və parlamentimizə seçkilər keçirdik. Bu, demokratiyanın inkişafı üçün böyük bir mərhələ idi. Son beş ildə parlamentimiz çox məhsuldar işləyibdir, 900-dən çox qanun qəbul edibdir. İndi biz qanunlarla, müstəqil, demokratik ölkənin qanunları ilə yaşayırıq. Sovet hökumətinin qanunları ilə yox.

İndi yeni parlament seçkiləri gəlir. Bu, bütün xalqımız, dövlətimiz, Azərbaycan prezidenti kimi mənim üçün çox əhəmiyyətli bir mərhələdir. Bu, demokratiyanın inkişaf etdirilməsi üçün böyük bir mərhələdir. Ona görə də mən bunu bizim üçün böyük bir hadisə hesab edirəm.

**Paula Kokkonen:** Cənab Prezident, bizə vaxt ayırdığınıza görə Sizə minnətdarlığımızı bildiririk. Arzu edirik ki, Sizin bütün arzularınız həyata keçsin.

**Heydər Əliyev:** Mən sizin familiyanızı siyahıda oxuyanda Finlandiyanın keçmiş prezidenti Urho Kekkonen yadıma düşdü. Bəlkə siz onun qohumusunuz?

**Paula Kokkonen:** Onun familiyası Kekkonen idi, mənim familiyam isə Kokkonendir. Mən bu sualla tez-tez rastlaşıram. Amma deyim ki, yaxşı mənada bu mənim həyatımı asanlaşdırır. Yəni insanlar mənim familiyamı asan yadda saxlayırlar.

**Heydər Əliyev:** O mənim dostum idi. Azərbaycanda ziyarətdə olmuşdu, biz onunla görüşlər keçirmişdik. O çox müdrik insan idi, ona görə də yadıma saldım.

**Paula Kokkonen:** Cənab Prezident, çox sağ olun.

**Heydər Əliyev:** Sağ olun. Mən də sizə təşəkkür edirəm, zəhmət çəkib Azərbaycana gəlmisiniz. Ümidvaram ki, siz bu seçkilərdə ədalətli müşahidə aparacaq və öz raportlarınızla bizi sevindirəcəksiniz.

**Paula Kokkonen:** Əlimizdən gələni edəcəyik.

**Heydər Əliyev:** Sağ olun.

## ABŞ MİLLİ DEMOKRATİYA İNSTİTUTUNUN ÖLKƏMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏRİ MÜŞAHİDƏ ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 noyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz. Adətən, siz seçkidən-seçkiyə gəlirsiniz.

**N e l s o n L e d s k i** (*nümayəndə heyətinin başçısı, institutun Avrasiya üzrə regional Baş direktoru, səfir*): Mən buna etiraz edirəm.

**H e y d ə r Ə l i y e v:** Mən də elə ona görə deyirəm. Əgər başqa vaxtlar da gəlsəniz, onda Azərbaycan haqqında daha da çox təəssüratınız olar. Seçki vaxtı çox mürəkkəb vaxtdır. İndi sizin ölkədə də seçkilər gedir. Bilmirəm, siz orada müşahidə edəcəksiniz, yoxsa yox.

Mən hörmətli səfirə dedim ki, ABŞ-da keçirilən seçkilərə bizi müşahidəçi kimi nə üçün çağırmırsınız? Biz də gələk, görək sizdə prezident seçkiləri necə keçir – ədalətli, ya ədalətsiz.

**N e l s o n L e d s k i:** Yaxşı fikirdir. Gələcəkdə gərək bunu təşkil edək. Siz dörd il gözləmək istəyirsiniz ki, sonra növbəti prezident seçkilərində gələsiniz, yoxsa iki ildən sonra bizdə Konqresə seçkilər olacaq, onda?

**H e y d ə r Ə l i y e v:** Hansına dəvət etsəniz, gələrik.

**N e l s o n L e d s k i:** Məmnun olardıq.

**H e y d ə r Ə l i y e v:** Güman edirəm ki, bizim seçkiqabağı apardığımız işlərdən sizin xəbəriniz var. Hesab edirik ki, biz çox iş görmüşük. Düşünürük ki, bu dəfə seçkiqabağı dövr ötən dəfəkindən daha yaxşı keçmişdir. Bu da seçkilərin daha da demokratik şəraitdə keçirilməsini təmin edə bilər. Bilirəm ki, siz Azərbaycandan daim məlumat alırsınız, burada daimi nümayəndəniz vardır, amma bilmirəm, oturanlardan hansıdır.

**N e l s o n L e d s k i:** İndi nümayəndəmiz iki nəfərdir.

**H e y d ə r Ə l i y e v:** İki nəfər. Bir az da artırın.

**N e l s o n L e d s k i:** Ofisimizi genişləndiririk.

Hər şeydən öncə vaxt tapıb bu gün bizi qəbul etdiyinizə görə Sizə təşəkkür edirəm. Bu həftənin əvvəlində cənab Ramiz Mehdiyevin bizimlə brifinq keçirməsini çox yüksək qiymətləndirdik.

Vaşinqtondan telefonla danışarkən, Sizə söylədiyim kimi, biz bu seçkilərdə müşahidəçi kimi iştirak etmək üçün əsasən avropalılardan və amerikalılardan təşkil olunmuş ədalətli bir komanda hazırlamışıq.

Biz seçkilərdən sonra ədalətli bir hesabat hazırlamağı planlaşdırırıq və burada gördüklərimizin hamısını əks etdirəcəyik. Nümayəndə heyətimizə Azərbaycanın bir sıra dostlarını da daxil etmişik. Onlardan biri mənim sol tərəfimdə əyləşir. Türkiyə parlamentinin keçmiş, çox mötəbər üzvü olubdur. Biz onunla birgə Türkiyə parlamentində islahatlar aparılması məsələlərində birgə çalışmışıq. Bizim nümayəndə heyətimizə həmçinin Şimali Kipr Türk Respublikasının keçmiş Xarici İşlər naziri, hörmətli Kənan Atakol da daxildir. Bu onun Azərbaycana ilk səfəridir. O özü ilə bərabər xanımını da gətirib və sabah da müşahidəçi qismində seçkilərdə iştirak edəcəkdir.

Mənim sağ tərəfimdə əyləşmiş cənab Sornberi keçmişdə Birləşmiş Millətlər Təşkilatında çox yüksək vəzifədə çalışmış şəxsdir. O bir çox seçkilərdə bizimlə müşahidəçi kimi iştirak edibdir, o cümlədən Ermənistanda olan son seçkilərdə də nümayəndə heyətimizin tərkibində idi.

Mən Sizi əmin edirəm ki, 35 nəfərdən ibarət nümayəndə heyətimiz sabah seçkilərin nəticələri ilə əlaqədar ədalətli və düzgün hesabat yazacaqdır.

Nümayəndə heyətimizin üzvlərinin əksəriyyəti artıq Bakını tərk edərək müvafiq rayonlara getmişlər. Onlar bir gün öncə o rayonlara gedərək, orada yerli dairə seçki komissiyalarının sədrləri ilə görüşlər keçirəcəklər. Bir də müşahidələrini həyata keçirəcəkləri məntəqə seçki komissiyaları ilə tanış olacaqlar. Onların hamısı sabah səhər erkən, sizin seçkilər başlanmazdan ən azı yarım saat əvvəl məntəqələrdə olacaqlar.

Cənab Prezident, bundan daha əhəmiyyətlisi odur ki, onlar noyabrın 5-də işlərini başa çatdırdıqdan sonra, biz ikinci gün öz ilkin hesabatımızı ictimaiyyətə çatdırdıqdan sonra da, qarşıdakı illər ərzində də ölkənizlə əməkdaşlığımızı davam etdirmək, genişləndirmək istəyirik.

Sizin ölkənizdə fəaliyyət göstərən siyasi partiyalarla əməkdaşlıq etmək istəyirik. Onların arasında iqtidarda olan partiya da vardır. Səfərimiz zamanı iqtidarda olan partiya ilə də görüşümüz olubdur və gələn həftənin birinci, ikinci, üçüncü günləri belə görüşlər keçirməyi planlaşdırırıq.

Şübhəsiz ki, müxalifət partiyaları ilə də birgə çalışmalarımızı davam etdirmək istəyirik. Ölkənizdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyətləri ilə də birgə işləmək istəyirik. Bu ümidlə biz həmin

təşkilatlarla çalışırıq ki, məhz cəmiyyətin o təbəqəsini də inkişaf etdirək. Deyim ki, onlar da hər bir demokratik cəmiyyətin mühüm tərkib hissəsidir. Başqa sözlə desək, bu məmləkətin sosial-iqtisadi inkişafında iştirak etmək istəyən bütün təbəqələrin təmsilçiləri ilə çalışmaq istəyirik.

Nəhayət, biz istəyirik ki, sizin parlamentdə də iş aparaq, yeni seçiləcək Milli Məclisin üzvləri ilə işləyək. Biz o ümidlə bu işlərə qoşulmaq istəyirik ki, həmin orqanı – Milli Məclisi gücləndirək. Parlamentin komitələrinin strukturlarını gücləndirək.

Hökumət və müxalifət qruplarını bir araya gətirmək sahəsində fəaliyyət göstərək. Beləliklə, parlamentin üzvlərini bu ölkədə idarəçiliyin fəal və bərabərhüquqlu üzvünə çevirməyə çalışaq. Biz belə bir işi Gürcüstanda da həyata keçirmişik. Gürcüstan parlamentinin sədri ilə, xüsusilə parlamentdə islahatlar məsələsi ətrafında çox çalışmışıq. Biz Ukrayna parlamentində də bu istiqamətdə iş görmüşük. Hesab edirəm ki, Ukraynadakı fəaliyyətimizin nəticələrini görməkdəyik. Ona nail olmağa çalışırıq ki, həmin qanunverici orqan icra orqanının səmərəli tərəfdaşına çevrilsin. Bütün bunları biz sakitliklə edirik. Biz anlayırıq ki, bunların hamısı irəliyə doğru atılmış kiçik addımlardır. Hesab edirik ki, bunlar kiçik olsa da, plüralist cəmiyyətin qurulması istiqamətində mühüm addımlardır.

Ona görə istəyirəm biləsiniz ki, biz buraya noyabrın 5-də yalnız bir hadisəni müşahidə etmək üçün gəlmişik. Biz institutumuzun Azərbaycandakı fəaliyyətini daha geniş çərçivədə görürük. Görəndə ki, Siz dediyiniz kimi, xeyli tərəqqi əldə etmisiniz, biz bunu deyəcəyik, qeyd edəcəyik.

İkinci gün dərc edəcəyimiz hesabatda biz seçkiqabağı dövrdə ölkənizdə əldə olunmuş tərəqqini qeyd edəcəyik. Çatışmazlıqların olduğunu da göstərəcəyik. Biz bunları tapmışıq və bir ümidlə onları qeyd edəcəyik ki, gələcəkdə Siz bizə imkan verəcəksiniz ki, o problemlərin aradan qaldırılmasında sizinlə birlikdə çalışaq. Belə məsələlər üzərində işləmək üçün seçkidən-seçkiyə deyil, bunların arasındakı müddətdə də ölkənizi ziyarət etmək barədə verdiyiniz bəyanata görə Sizə təşəkkür edirəm.

**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Təşəkkür edirəm.

Əvvəla, seçkiqabağı dövr haqqında sizin müsbət fikirləriniz məni sevindirir. Çünki biz çalışmışıq və gördüyümüz işləri hansı tərəfdənsə qiymətləndirəndə, bu, insanlara daha da çox inam, ruh verir. Amma çalışırsan, nəyəsə nail olursan, hansısa irəliləyişi əldə edirsən, onu görməyəndə, yaxud ona ədalətsiz müasibət göstəriləndə, insan ruhdan düşür.

Mən sizinlə bir neçə dəfə söhbət etmişəm. Hər dəfə demişəm və bu gün də demək istəyirəm ki, Azərbaycan demokratiya yolu ilə gedir və ölkəmizin başqa yolu yoxdur. Demokratiya yolu ilə ona görə getmir ki, bunu Qərb demokratiyası istəyir, yaxud Amerika Birləşmiş Ştatlarının demokratiyası istəyir, yaxud da ki, sizin institut istəyir. Bu, məcburi olardı və heç vaxt nəticə verməzdi.

Biz özümüz bu yolla gedirik. Çünki Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra biz bu yolu özümüz üçün daimi yol seçmişik. Nə qədər məsafə gedə bilmişik, indi bunu deyə bilmərəm. Amma çox getmişik. Amma hesab etmirik ki, biz demokratiyanı tamamilə mənimsəmişik və demokratiya hər yerdə tətbiq olunubdur. Ona görə də bizim nailiyyətlərimiz də, çatışmazlıqlarımız da vardır. Sadəcə, biz dostlarımızdan – müşahidəçiləri özümüzə dost hesab edirik, o cümlədən Amerika Birləşmiş Ştatlarından gəlmiş müşahidəçiləri, çünki ABŞ-la bizim xüsusi dostluq, strateji tərəfdaşlıq əlaqələrimiz vardır – o cümlədən sizin institutla gördüyümüz işlərə ədalətli münasibət istəyirik.

Siz sabah müşahidə edəcəksiniz. Mən arzu edərdim ki, sizin müşahidəniz obyektiv olsun, bəyan edəcəyiniz fikir ədalətli olsun. Mənim İcra Aparatımın başçısı Ramiz Mehdiyev sizinlə çox ətraflı söhbətləri barədə mənə məlumat veribdir. Mən məmnunam ki, sizin bu söhbətiniz qarşılıqlı anlaşma şəraitində keçib və belə bir şəraitdə sona çatıbdır. Mən arzu edirəm ki, bizimlə sizin institut arasında bundan sonra da qarşılıqlı anlaşma olsun. Ona görə də sizin gələcək planlarınız haqqında verdiyiniz məlumatları nəzərə alıram. Demokratiyanın inkişaf etməsinə kömək edən hər bir təklifi biz məmnuniyyətlə qəbul edirik.

Ancaq, təbiidir ki, Azərbaycanın reallıqları da həmişə nəzərə alınmalıdır. Azərbaycan MDB dövlətləri arasında yeganə ölkədir ki, ərazisinin, torpaqlarının 20 faizi işğal edilibdir. Bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan didərgin düşüb, çadırlarda yaşayır. Münaqişə indiyə qədər həll olunmayıbdır. Bu, ölkəmizdə sosial-iqtisadi, siyasi vəziyyəti nə qədər mürəkkəbləşdirir – bunu siz təsəvvür edə bilərsiniz. Amma belə bir şəraitdə demokratiyanın inkişafı üçün biz yenə də əlimizdən gələni edirik. Sizin obyektiv, ədalətli münasibətinizə ümid bəsləyirik.

**N e l s o n  L e d s k i:** Bu sözlərinizə görə Sizə çox təşəkkür edirəm. Doğrudur ki, mənim institutum demokratiya axtarışına birtərəfli yanaşır. Biz hökumət olmadığımız üçün deyək ki, təhlükəsizlik məsələlərinin gücləndirilməsinə və əməkdaşlığın genişləndirilməsinə məcbur deyilik, nə də iqtisadi əlaqələrin genişləndirilməsinə biz cavabdeh deyilik. Bu baxımdan bizim bəxtimiz gətiribdir. O mənada ki, bizim qarşımızda bir məqsəd vardır. O da demokratiyanın genişləndirilməsi və inkişaf etdirilməsidir. Mən bilirəm ki, sizin işiniz bu baxımdan belə deyildir. Başqa sözlə desək, Siz məsələlərə geniş yanaşırsınız.

Eyni sözləri mən dostum, ABŞ-ın səfiri barədə də deyə bilərəm. Şübhəsiz ki, o da fəaliyyətində təkcə demokratiyanı amil tuta bilməz. Onun iş cədvəlində, gündəliyində daha geniş məsələlər vardır. Biz bunları

anlayırıq. Eyni zamanda bunlar məni o fikirlərimə inandırır, inamımı bir daha artırır ki, Azərbaycan kimi bir dövlətin özünün təhlükəsizlik problemlərini həll etmək üçün, qonşuları ilə sülh şəraitində yaşaması üçün XXI əsrdə öz iqtisadiyyatını inkişaf etdirmək, plüralist cəmiyyət qurmaq üçün yeganə yolu demokratiyanın inkişaf etdirilməsidir.

Hesab edirəm ki, Sizin qarşılaşdığınız bir sıra məxsusi problemlərin elə həlli yolu da məhz demokratiyadır ki, o da hökumətlərə yardımçı alət rolunda çıxış edir. Mən qısaca da olsa, dörd il üzərində birgə çalışdığımız Azərbaycandakı Vətəndaş Cəmiyyəti barədə də söz demək istəyirəm. Düzdür, sizin qanunvericiliyiniz həmin o, qeyri-hökumət təşkilatını noyabrın 5-də seçkilərdə müşahidəçi kimi çıxış etməkdən məhrum edibdir. Biz bir neçə ildir ki, bu təşkilatla birgə çalışırıq. Mən sizə demək istəyirəm ki, bu, yaxşı təşkilatdır. Üç mindən çox üzvü vardır. Onlar ölkənin bütün yerlərinə yayılıbdır. Bu təşkilat açıq hökumət qurulmasına sadiqdir.

Bu elə bir təşkilatdır, elə bir qurumdur ki, sizin ölkənizdə məhz belə qurumlara ehtiyac vardır. Bu qurumları kimin maliyyələşdirməsi məsələsini Sizinlə müzakirə edə bilərik. Beynəlxalq təşkilatlar müxtəlif növ belə qurumları maliyyələşdirirlər. Bu qurumlar indi cəmiyyətinizin mənafeyinə uyğun olaraq fəaliyyət göstərirlər. Onlara hardansa dəstək olmasa, ayaq üstə dura bilməzlər. Onlara az miqdarda verdiyimiz dollarlar çox da əhəmiyyətli deyildir. Bu pulun verilməsini dayandırsaq, biz məğlub olarıq. Mənim təklifim ondan ibarətdir ki, bu cür qurumları Sizin dəstəkləməyiniz lazımdır. Hesab edirəm ki, dediyim qurumları sizin hökumət ilə biz bu proseslərə, müzakirələrə cəlb etməliyik. Danışıqlar aparmalıyıq ki, onların inkişaf yolları nədən ibarətdir, necə inkişaf edə, hökumətə necə yardımçı ola bilərlər. Cəmiyyətdə pluralizmin artmasında hansı rolu oynaya bilərlər.

**Heydər Əliyev:** Doğru dediniz ki, demokratiyanı inkişaf etdirmək üçün sizin bir belə vəzifələriniz vardır. Eyni zamanda özünüz qeyd etdiniz ki, bizim vəzifəmiz çoxdur. O cümlədən, hörmətli səfirin də vəzifəsi çoxdur. Elə bu sözləriniz onu təsdiq edir ki, sizinlə bizim əməkdaşlığımız, təbiidir ki, demokratiyanın inkişafı naminə olmalıdır. Amma eyni zamanda hər bir ölkənin, konkret olaraq Azərbaycanın reallığını nəzərə almalıdır.

Dünyada bir-birinə bənzər iki ölkə yoxdur. Məsələn, bizim qonşular – Gürcüstan, Ermənistan, yaxud siz Ukraynanı misal gətirdiniz, bu ölkələrin hər birinin özünəməxsus problemləri vardır. Bilirəm ki, bu ölkələrin – Ermənistan bizimlə münaqişədədir, amma Gürcüstan, Ukrayna ilə bizim dost əlaqələrimiz vardır – dostum Eduard Şevardnadzenin nə qədər problemləri var. Bilirəm ki, dostum Leonid Kuçmanın nə qədər problemləri var. Amma bu ölkələrdə daxili ictimai-siyasi vəziyyət də bir-birindən fərqlidir. Ona görə də demokratiyanın inkişafı istər-istəməz, gərək daxili ictimai-siyasi, sosial-iqtisadi vəziyyətlə bağlı olsun. Təkcə demokratiya ilə insanın qarnı doymur. Ona görə insanın qarnını da doyurmaq, iqtisadiyyatı da inkişaf etdirmək, terrorizmin, cinayətkarlığın qarşısını da almaq, indi gördüyünüz bu ictimai-siyasi sabitliyi də təmin etmək lazımdır.

Amma 5–6 il bundan əvvəl Azərbaycanda belə vəziyyət yox idi. Azərbaycana ilk gəldiyiniz vaxtla bu günü müqayisə edə bilərsiniz. Ona görə də sizinlə bizim səylərimizi birləşdirmək lazımdır. Biz bilməliyik ki, sizə demokratiya lazımdır, siz də bilməlisiniz ki, bizə demokratiya lazımdır. Amma demokratiya ilə bərabər, bizim başqa işlərimiz də lazımdır.

Mən yenə də deyirəm ki, hər bir ölkənin xüsusiyyətlərini nəzərə almaq lazımdır. Bir sözlə, bizim fikir ayrılığımız yoxdur. Sadəcə, bu məsələlərin, proseslərin həyata keçirilməsi məsələsi vardır.

Mən sizinlə razıyam ki, qeyri-dövlət təşkilatları olmalıdır. Güman edirəm, bu barədə Ramiz Mehdiyev sizinlə ətraflı danışıbdır.

Biz buna etiraz etmirik və sizinlə əməkdaşlıq etmək istəyirik. Amma siz də bizimlə əməkdaşlıq etməlisiniz. Siz bizimlə əməkdaşlıq etmirsiniz. Siz özünüz yaradırsınız, özünüz həmin o dediyiniz dollarları verirsiniz. Onlar kimdirlər, siz bunu bilmirsiniz, bilə də bilməzsiniz. Hətta Mərkəzi Kəşfiyyat İdarəsinə tapşırsanız, onlar da bilə bilməyəcəklər. Amma biz burada olan adamları sizdən yaxşı bilirik. Ona görə də əməkdaşlıq ondan ibarətdir ki, bizim istəyimiz, şəraitimiz nəzərə alınsın.

Azərbaycandan gəlib sizin instituta şikayət edən hər bir adamı elə normal adam kimi qəbul etməməlisiniz. Ona görə də burada əməkdaşlıq gərək səmimi olsun. Bu məsələni sonra müzakirə edərik, Ramiz Mehdiyev sizinlə danışıbdır və burada konsensus tapmaq mümkündür.

**Nelson Ledski:** Çox gözəl. Əminəm ki, anlaşma tapa bilərik. Mən elə adamlar istəyirəm ki, o adamlar problemləri xalçanın altında gizlətməsinlər. Problemləri olduğunu görüb onlara qarşı açıq surətdə mübarizə aparsınlar, onlarla məşğul olsunlar. Vətəndaş Cəmiyyəti ilə apardığımız iş açıq, şəffaf olubdur. Burada heç bir gizli, məxfi fəaliyyət yoxdur. Bu qrupların üzvləri barədə də heç bir məxfilik mən görmürəm.

Mən çox istərdim ki, ölkənizdə sivil cəmiyyət quruculuğu işində sizə yardımçı olaq. Bu barədə dialoqa başlayaq. Beləliklə, sizin qurduğunuz demokratiya işində də sizə yardımçı olaq. Hesab edirəm ki, biz ümumi anlaşma tapa bilərik.

**Heydər Əliyev:** Dialoq, doğru dediniz, amma sizin indiyədək etdikləriniz dialoqsuz olubdur. Onu unutmayın. Mən də sizinlə razıyam ki, elə adamlar lazım deyil ki, məlumatı xalçanın altında gizlətsin. Bu, medalın bir tərəfidir. Amma onun ikinci tərəfi də vardır. O da ondan ibarətdir ki, elə adamlar lazım deyildir ki, nəyisə uydursun, yalan məlumatlar versin. Gərək olan reallığı desin. Yaxşını-yaxşı, pisi-pis. Qərəzlilik olmasın. Biz hesab etmirik ki, Azərbaycanda hər şey idealdır. Elə sizin ölkədə də ideal deyildir. Təbiidir, mən

Azərbaycanı sizin ölkənizlə müqayisə etmək istəmirəm. Çünki sizin səviyyənizə gəlib çatmaq üçün bizə çox illər lazımdır.

Hər halda, bu məsələləri dialoq vasitəsilə həll etmək olar. Biz də sizinlə dialoq aparmaq istəyirik. Nə biz birtərəfli fəaliyyət göstərməliyik, nə də siz. Birlikdə etməliyik.

**N e l s o n   L e d s k i:** Cənab Prezident, bir daha çox sağ olun. Mən bu cür işləməyə söz verirəm. Sizinlə yenidən görüşüb danışmaq imkanı əldə etdiyimə, yenidən sizin ölkənizə gəlmək fürsəti əldə etdiyimə görə çox şadam. Bu seçkilər çox mühüm, əhəmiyyətli seçkilər olacaqdır. Çox sağ olun.

**H e y d ə r   Ə l i y e v:** Sağ olun. Mən də sizinlə görüşməkdən çox məmnunam.

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN DEPUTATI, QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI PARLAMENT ASSAMBLEYASININ ÜZVÜ NECATİ ÇƏTİNQAYANIN RƏHBƏRLİYİ İLƏ ÖLKƏMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏRİ MÜŞAHİDƏ ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 noyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz, öz vətəninizə xoş gəlmisiniz! Çox məmnunam ki, bizim dost, qardaş Türkiyənin Böyük Millət Məclisindən belə mötəbər nümayəndə heyəti gəlibdir və seçkilərdə müşahidəçi olacaqdır. Sizin əldə etdiyiniz demokratiyadan biz nə qədər istifadə edə bilmişik, onu görəcəksiniz. Bizə nəyisə öyrədəcəksiniz, biz nəyisə sizdən öyrənəcəyik. Ona görə sizin ölkədən, Türkiyədən belə mötəbər heyətin gəlməsi bizim üçün xüsusilə əhəmiyyətlidir. Təşəkkür edirəm.

**N e c a t i Ç ə t i n q a y a:** Hörmətli prezidentim, səmimi qəbula görə Sizə təşəkkür edirəm. Demokratiyanın ən gözəl örnəklərindən biri olan parlament seçkiləri ilə əlaqədar Bakıya gəlmişik. Öz vətənimizdə olduğu kimi, bizi səmimi qəbul etdiyiniz üçün Sizə bütün həmkarlarım adından ehtiramımı ərz edirəm.

Sizin söylədiyiniz kimi, həqiqətən, biz bir millət, iki dövlətik. Bizdə və qardaş Azərbaycanda belə bir atalar sözü var. Ət dırnaqdan ayrılmaz.

**H e y d ə r Ə l i y e v:** Doğrudur.

**N e c a t i Ç ə t i n q a y a:** Biz ətlə dırnaq kimiyik, bir-birimizdən ayrılmağımız mümkün deyildir. Buna heç kim inanmaz. Onun üçün sizin məsələləriniz, Azərbaycanın problemi bizim məsələmizdir, problemimizdir.

İstədik ki, bu imtahanda sizinlə bərabər olaq. Qardaş Azərbaycan demokratiyanın bu çox önəmli qapısını açarkən və XXI əsrə girərkən bütün həmkarlarım və türk xalqı adından deyirəm və inanıram ki, sabah Azərbaycan bu imtahanı çox demokratik və gözəl verəcəkdir. Bu, xalqın getdikcə demokratikləşməsi sahəsində və Azərbaycanın gələcəyi üçün son dərəcə önəmli bir imtahandır. Dünəndən bəri görürük ki, sabah hər tərəfdə vətəndaşlar rahatlıqla, heç bir əngəl olmadan səs verməyə gedəcəklər, öz borclarını yerinə yetirəcəklər.

Təbiidir ki, bu Sizin təcrübəniz, gərgin əməyiniz nəticəsində yaratmış olduğunuz bir şəraitdir. Buraya gələrkən Böyük Millət Məclisinin sədri hörmətli Ömər İzginin, bütün partiya sədrlərinin ayrı-ayrı salamlarını və ehtiramlarını sizə gətirmişəm. Xahiş edirəm, qəbul edəsiniz.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm.

**N e c a t i Ç ə t i n q a y a:** Bu gün buraya sabahkı günü görmək üçün gəlmişik. Buraya Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasından, ATƏT-dən və Avropa Şurasından, müxtəlif ölkələrdən nümayəndə heyətləri gəlmişlər. Sabah nümayiş ediləcək demokratiya ilə Azərbaycandakı inkişafın nə şəkildə olduğu görünəcəkdir. Məhz bu demokratiya Sizin memarı olduğunuz, öndərliyinizlə qorunub möhkəmlənmiş, 9 il müstəqil olan Azərbaycanın inkişafını bütün dünyaya nümayiş etdirəcəkdir. Sabah Azərbaycandakı inkişafı, demokratiyanı müşahidə edəcəyik.

Demokratiya insan həyatında son dərəcə önəmli rol oynayır. Dünya ölkələrində, Müstəqil Dövlətlər Birliyi ölkələrində demokratiya ayaq açıbdır. Amma qardaş olan bir ölkədə bu bizim üçün daha da gözəl hadisədir.

Cənab dəyərli prezidentim, Sovetlər Birliyinin dağılmasından sonra yaranmış dost və qardaş cümhuriyyətlərin, xüsusilə Azərbaycanın bu günə gəlməsində Sizin böyük zəhmətiniz vardır. Biz buraya hər gəlişimizdə bunu müşahidə edirik.

Altı ay bundan öncə buraya gəlmişdik, bizi qəbul etmişdiniz. Cənab İhsan Doğramacı ilə də gəlmişdik. Hər gəlişimizdə gözəl işlərin şahidi oluruq. Bakıda, Azərbaycanda həqiqətən iqtisadi sahədə fövqəladə inkişafı görürük. Bu önəmli inkişaf zati-alilərinizin çox böyük təcrübəsinin və göstərdiyi aydın yol ilə xalqın hərəkət etməsinin nəticəsidir. Bunlar Sizin qardaşlarınızı da son dərəcə məmnun edir. İstəyimiz Qafqazda inkişaf edən bu qardaş ölkənin günəş kimi parlamasıdır. Bunu qəlbən istəyirik. İnşallah, zati-alilərinizin liderliyi ilə bunu Azərbaycan, hamımız və bütün dünya görəcəkdir. Bunu görmək hamımızın arzusudur. Çünki Azərbaycan nə qədər inkişaf edirsə, qardaşları o qədər məmnun olacaqdır. Azərbaycanın birinci qardaşı Türkiyədir. Ona görə də, inşallah, bu gözəl günləri qısa zamanda görməyi Allah bizə nəsib edəcəkdir. Bu yolda Sizə cansağlığı, səadət, uzun ömür diləyirik ki, Azərbaycan bunları qısa zamanda görsün.

Türkiyə hər sahədə sizin yanınızdadır. Türkiyə Qarabağ məsələsinin zati-alilərinizin düşündüyü kimi həll olunmasına tərəfdardır. Siz necə düşünürsünüzsə, biz də elə düşünürük. Soyqırım məsələsi tamamilə

uydurmadır, saxtadır. Keçmişi ortaya qoyaraq olmamış şeyləri göstərmək əsl həqiqəti dünyaya göstərməmək deməkdir. Bu gün Azərbaycanın bir çox yerlərini haqsız şəkildə işğal edən Ermənistan həmin yerləri boşaltmayınca, bizim onları işğalçı kimi tanımağımızı, Azərbaycanın və Türkiyənin haqlı olduğunu bütün dünya bilir.

Çünki ədalətsizliyə görə bu qədər insan – bir milyona yaxın qaçqın və məcburi köçkün yerinə-yurduna, evinə-eşiyinə, bağına-bağçasına, doğulduğu torpaqlara həsrətdir. Dünya bunu görməlidir və işğalçı qüvvələrin XXI əsrə getməsinə yol verilməməlidir. Həmin torpaqlar öz sahiblərinə, qardaş Azərbaycan qaçqınlarına qaytarılmalı və onlar geri dönməlidir.

Hörmətli prezidentim, iki qardaş ölkə dünyanın gözü qarşısında siyasi sahədə həqiqətən çox gözəl şəkildə, çiyin-çiyinə hərəkət etmişdir. Son illər ticarət sahəsində bir zəifləmə baş verdi. İnanıram ki, yenə də Sizin diqqətiniz bu məsələni həll edəcəkdir. Yəni digər dünya ölkələri ilə müqayisədə, bizim iqtisadi əlaqələrimizdə zəifləmə meylləri görünür. İnanırıq ki, bu sahədə mövcud olan bəzi problemləri həll edəcəksiniz.

İndiyədək 20 neft müqaviləsi imzalanıbdır. Bunun içində Türkiyənin yüzdə dörd faiz payı vardır. Bu da zati-alilərinizin tərəfindən edildi. Amma bunu daha da artırmaq olar. Çünki biz iqtisadi baxımdan bir-birimizə bağlı olmalıyıq. Zati-alinizin qarşısında bunları söyləməyi lüzumsuz hesab edirəm. Çünki Siz bu sahədə fövqəladə təcrübəyə maliksiniz. İki qardaş ölkənin bir-birinə dəstək verməsi Azərbaycan ilə Türkiyənin qısa zamanda daha da inkişafına səbəb olacaqdır.

**H e y d ə r  Ə l i y e v:** Amma yüzdə dörd faiz deyil, yüzdə otuz beş, otuz altıdır. 1994-cü ildə müqavilə hazırlanarkən Türkiyənin payı 1,75 faiz idi. Müqavilə imzalanandan sonra mən Azərbaycanın payından 5 faiz Türkiyəyə verdim. Beləliklə, birinci müqavilədə 6,75 faiz oldu. Ondan sonrakı müqavilələrdə, məsələn, «Şahdəniz»də – orada böyük qaz ehtiyatı var – Türkiyənin payı 10 faizdir. Başqa müqavilələrdə də var, hamısı birlikdə 35–36 faizdir. Görün, 1,75 faizdən haraya qaldırdım.

**N e c a t i  Ç ə t i n q a y a:** Hörmətli cümhur başkanım, bunların hamısı Sizin qayğınızla olmuşdur, inşallah, yenə də böyük diqqət və dəstəyinizlə Bakı–Tbilisi– Ceyhan boru xətti də qısa zamanda gerçəkləşəcəkdir. Bunun gerçəkləşməsi Azərbaycan neftinin dünyaya daşınmasını təmin edəcəkdir. Bu da iqtisadi baxımdan böyük canlanmaya səbəb olacaqdır.

Azərbaycanda, Bakıda ticarətlə məşğul olmaq, buraya sərmayə qoymaq istəyən digər türk iş adamları da Azərbaycan iqtisadiyyatına faydalar vermək istəyirlər. Bu, iki ölkə üçün yararlı olacaqdır.

Siz bunları çox yaxşı bilirsiniz. Mən bunu təkrar demək istəyirəm. Bu sahədə bizə göstərdiyiniz dəstəyə görə təşəkkür edirik. Qardaş ölkənin hörmətli cümhur başkanı Heydər Əliyevin adı Türkiyədə hər kəsin ürəyində sevinc yaradır və öz ölkəsinin prezidenti kimi sevgi bəsləyirlər.

Sizin məsələniz bizim məsələmizdir. Sizin inkişafınız bizi məmnun edər. Sabah göstərəcəyiniz demokratiya havası Azərbaycanın XXI əsrə güclü bir ölkə kimi qədəm qoyacağını təsdiqləyəcəkdir. Sabah keçiriləcək parlament seçkilərinin Azərbaycan xalqına xeyirli olmasını, bu ölkənin XXI əsrə daha güclü, demokratik bir ölkə kimi daxil olmasını arzulayıram.

Cənab Prezident, bizi qəbul etdiyinizə görə bütün həmkarlarım, xalqımız adından Sizə bir daha təşəkkür edirəm, hörmət və ehtiramımı bildirirəm.

**H e y d ə r  Ə l i y e v:** Təşəkkür edirəm. Sizin Azərbaycana gəlməyinizdən bir daha məmnun olduğumu bildirmək istəyirəm. Siz – dost, qardaş Türkiyənin nümayəndələri, təbiidir ki, həmişə olduğu kimi, indi də, Azərbaycan dünya qarşısında imtahan verdiyi zaman da bizim yanımızdasınız. Mən bunu çox yüksək qiymətləndirirəm.

Azərbaycan gənc dövlətdir. Biz doqquz il bundan öncə müstəqilliyimizi bəyan etmişik. Ancaq doqquz ildə Azərbaycan çox ağır, çətin yollar keçibdir və beş il bundan öncə biz ilk Konstitusiyamızı qəbul edə bildik. Beş il bundan öncə müstəqil dövlətin birinci parlamentini, Milli Məclisini seçə bildik. Beş il ötübdür. Yeni parlament seçirik. Bu, böyük hadisədir. Yəni müstəqil dövlətik, müstəqilliyimizi gücləndirmişik, möhkəmləndirmişik, parlament demokratik seçilib, öz işini sona çatdırıbdır. İndi yeni parlament seçilir.

Təbiidir, qısa müddətdə demokratiyanın hamısını mənimsəmək olmaz. Demokratiya elə bir şey deyil ki, haradasa var, götür, istifadə et. Ya bir avtomobildir, get al, istifadə et. Yaxud da bahalı evdir, paltardır, filandır. Demokratiya insanların beynində psixoloji dəyişiklik deməkdir. Əgər səhv etmirəmsə, sizin ölkə 50 ildir demokratiya yolu ilə gedir. Elədir, yoxsa yox?

**N e c a t i  Ç ə t i n q a y a:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** İndi sizin ölkə çox demokratik ölkədir. Seçkiləriniz də demokratik keçir. Amma tez-tez seçkilər edirsiniz. Biz beş ildən bir edirik, siz bəzən iki ildən bir edirsiniz. Bu da sizin xüsusiyyətinizdir. Təbiidir. Bunların hamısını normal qiymətləndiririk. Ancaq bir var 50 il, bir də var 9 il yox, 5 il. Ona görə də bu reallığı bilmək lazımdır. Siz bu reallığı bilirsiniz. Çünki biz bir-birimizə çox yaxınıq, millətimizin mentalitetini, xüsusiyyətini, mənəvi dəyərlərini, adətlərini, ənənələrini çox yaxşı bilirik. Çünki bunların əksəriyyəti eynidir. Siz bunu yaxşı bilirsiniz. Amma bəzi Qərb ölkələri, hansının ki, 2000 illik demokratiya tarixi var, bəzi adamlar, müşahidəçilər hesab edir ki, Azərbaycanda da belə olmalıdır. Bu, mümkün deyildir.

Keçmiş Sovetlər İttifaqının 15 müttəfiq respublikasının indi hamısı müstəqildir. Heç biri hələ o səviyyəyə gələ bilməz. Amma biz bu yol ilə gedirik. Başqa yolumuz yoxdur. Başqa yol da olmayacaqdır. Əsas budur.

Mən bu gün dörd-beş saatdır bütün nümayəndə heyətləri ilə görüşürəm. Ona görə görüşləri bir saat etmirəm, yarım saat da çox olur. Ona görə siz də orada gözləməli oldunuz. Çox ölkələrdən adamlar gəlibdir. ATƏT-dən 200 adam gəlibdir. Ondan əlavə, Avropa Şurasından adamlar gəlib, ATƏT-in Parlament Assambleyasından gəlib, Amerika Birləşmiş Ştatlarının Demokratiya İnstitutundan böyük bir dəstə gəlibdir. Bundan əlavə, Rusiyadan, Müstəqil Dövlətlər Birliyindən bir dəstə gəliblər. Hətta İrandan da gəliblər. Biz bunu müsbət qiymətləndiririk. Çünki gəlsinlər, görsünlər. Bir var görmədən, haradasa, Qərb ölkəsində yazırlar ki, Azərbaycanda demokratiya yoxdur, filandır, filandır. Amma qoy gəlsin, görsün!

Doğrudur, görənlərin bəzisi obyektiv, ədalətli olmur. Ancaq necə də olsa, bir hissəsi obyektiv, ədalətli olur. Ona görə biz müşahidəçilərin gəlməyinə çox şadıq, sevinirik və sizin gəlməyinizə xüsusi sevinirik.

Mən dəfələrlə demişəm ki, Azərbaycan müstəqil dövlət kimi bütün sahələrdə Türkiyənin tarixi nailiyyətlərindən təcrübə götürməlidir. Atatürkdən təcrübə götürməlidir. Ondan sonrakı dövrdən təcrübə götürməlidir. Çünki hər bir yeni dövlət özü heç bir şey icad etmir. Dünyada mövcud olan dövlətlərin sistemindən bəhrələnir.

Məsələn, biz demokratiya yolu ilə gedəndə təcrübə üçün bir var Fransa, bir var İngiltərə, bir var İtaliya, yaxud Amerika, bir də var Türkiyə. Bizim dilimiz, dinimiz, tariximiz, kökümüz birdir. Yəni bizim xalqlarımızın mentaliteti birdir. Ona görə də sizin ölkədən təcrübəni götürmək bizim üçün daha realdır və daha da faydalıdır, nəinki başqa bir ölkədən. Təbiidir, o ölkələrin təcrübəsindən də istifadə edirik. Amma Türkiyənin cümhuriyyət dövrünün inkişafı – bu günlərdə 77-ci ildönümünü bayram etdik – Azərbaycan üçün əsas təcrübə mənbəyidir və örnəkdir. Ona görə də siz həm müşahidə edəcəksiniz, həm də bizə kömək edəcəksiniz. Baxacaqsınız, harada nə qüsurlarımız var. Sonra onları bizə deyəcəksiniz ki, gələcəkdə nə etmək lazımdır, onu bilək.

Mən heç də iddia etmirəm ki, seçkilərdə demokratiyanın zirvəsinə çatacağıq. Yox. Ancaq böyük bir addım atacağıq. Biz də istəyirik ki, o addımla ölkəmizdə demokratiyanın inkişafı təmin olunsun. İkincisi də başqa ölkələr görsünlər ki, bəli, biz irəliyə böyük addım atdıq. Zaman lazımdır ki, yenə də bir addım ataq. Buna zaman lazımdır.

Türkiyə – Azərbaycan münasibətləri elədir ki, bunun haqqında saatlarla danışmaq olar. Amma bəzən düşünürsən ki, heç danışmağa da ehtiyac yoxdur. Çünki o qədər məlumdur, o qədər dostluq əlaqələri vardır.

Məsələn, son vaxtlar bizi, Türkiyəni daim narahat edən Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsidir. Bu bizim ölkənin əsas problemidir. 12 il bundan öncə Ermənistan Azərbaycana təcavüz edibdir. Sovetlər Birliyinin içərisində olduğumuz son dörd ildə Ermənistan Azərbaycanın torpaqlarını işğal edibdir. Azərbaycan müstəqillik əldə edəndən sonra, 1993-cü ilə qədər bu torpaqların işğalı davam edibdir. Biz 1994-cü ildə müharibəni dayandırdıq, atəşkəs sazişi imzaladıq. Məsələni sülh yolu ilə həll etmək istəyirik. Amma indiyə qədər həll edə bilməmişik. Çünki Ermənistan bu barədə qeyri-konstruktiv mövqe tutur. Ermənistan torpaqlarımızı işğal edibdir. Ona görə də üstünlüyündən sui-istifadə edir və elə tələblər ortaya qoyur ki, biz bunu qəbul edə bilmərik. Dağlıq Qarabağa müstəqillik statusu istəyirlər. Biz bunu edə bilmərik.

Bütün bu dövrdə, əvvəldən indiyə qədər Türkiyə həmişə Azərbaycanla bir yerdədir. Yəni Azərbaycanın bu problemi eyni zamanda Türkiyənin problemidir. Türkiyənin bu barədə dəstəyi, köməyi həmişə bizim üçün böyük bir şeydir. Ona görə də bütün beynəlxalq təşkilatlarda məsələlər müzakirə olunan zaman Türkiyə bizim yanımızdadır, bizim istədiyimizə səs verir.

Ermənilər indi soyqırım məsələsini ortaya çıxarıblar. Bu, uydurma bir şeydir. Bu yalandır. Amma erməni lobbisi, erməni diasporu o qədər güclüdür ki, məsələn, Amerika kimi böyük bir dövlətin Konqresinə təsir edirlər. Orada müzakirələr gedəndə biz burada çox böyük təlaş içində idik. Mən açıq etirazlar bildirdim ki, heç bir soyqırım yoxdur. Əksinə, həmişə ermənilər türkləri qırıbdır. Azərbaycanda nə qədər qırğınlar etdilər. 1905-ci ildə, 1918-ci ildə, elə indi 12 ildir bu qırğınları edirlər. Bizim torpaqlarımızı işğal ediblər.

Amma orada, Amerikada deyirlər, nə bilim, Azərbaycanda bir adamın hüququ pozuldu. Bir şəxsin hüququnun pozulması da, təbiidir ki, olmamalıdır. Amma burada bütün xalqın hüququ pozulubdur. Millətin hüququ pozulubdur. Bir milyon insanın hüququ pozulubdur, onlar evindən, torpağından məhrum olublar, çadırda yaşayırlar. Dünya buna qiymət vermir, indi ədalət yoxdur. Çünki ədalət olsa, gərək Amerika Konqresi bizi dəstəkləsin. Amma əksinə, 1992-ci ildə Amerika Konqresi Azərbaycana qarşı ayrı-seçkili qərar – 907-ci düzəliş qəbul edibdir. Guya Azərbaycan Ermənistanı blokadaya alıbdır. Ona görə də Amerikanın Azərbaycana hər cür yardımına qadağan qoyulubdur. İndi Ermənistan, Gürcüstan yardım alır. Orta Asiya ölkələri, Ukrayna yardım alır, amma biz almırıq. İş bu yardımda deyildir. Bu illər yardımsız da yaşamışıq. Amma iş bunun siyasi mənasındadır. Həmin 907-ci düzəlişin müəllifi, onu Konqresdə keçirən konqresmen Smit indi də soyqırım haqqında layihənin müəllifidir.

O, layihəni əvvəlcə yardımçı komitədən keçirdi, sonra da Konqresin müzakirəsinə çıxardı. Allaha şükür olsun ki, orada müzakirədən çıxarıldı. Amma mən dünən bildim ki, indi buna Fransa parlamenti baxmaq istəyir.

Türkiyə çox ciddi təkzib veribdir. Mən televiziya ilə dinlədim. Hörmətli cümhur başkanı Əhməd Necdət Sezər bəyanat veribdir. Digər hökumət nümayəndələri də bəyanatlar veriblər.

Ermənilər, görürsünüz, orada alınmadı, burada etmək istəyirlər, burada alınmadı, orada etmək istəyirlər. İndi bunları hər yerdə dəstəkləyirlər. Demək, ədaləti dəstəkləmirlər. Bilirsiniz, ədaləti dəstəkləmirlər. Ona görə də Azərbaycan və Türkiyə bu barədə eyni vəziyyətdədir. Ona görə də bizim bir yerdə olmağımız həm Türkiyə üçün, həm Azərbaycan üçün ən əsas məsələdir. Biz bir yerdəyik, bir yerdə də olacağıq.

Məsələn, Bakı–Ceyhan neft boru kəmərini həyata keçirmək üçün altı ildir çalışırıq. Nə qədər çətinliklər, nə qədər təzyiqlər oldu. Ancaq əvvəldən dedim, məsələni axıra qədər də çatdırdıq. Bunun böyük iqtisadi əhəmiyyəti vardır. Xəzər dənizindən neft çıxarılacaq, miqdarı da çox olacaqdır. Bunların hamısı Gürcüstan ərazisindən keçib Türkiyəyə gedəcək və Aralıq dənizinə çıxacaqdır. Türkiyə özü bündan istifadə edəcəkdir. Təbiidir ki, o, dünya bazarına da çıxaracaqdır.

İndi böyük bir qaz yatağı kəşf etmişik. O yataq var idi. Orada bir neçə şirkətlərin, o cümlədən «Türk Petrolları» şirkətinin də 10 faiz payı vardır. Oradan bir trilyon kubmetrdən artıq qaz alınacaqdır. Məsələn, biz ildə 30 milyard kubmetr qaz ixrac edə biləcəyik. Bunu da birinci növbədə Türkiyəyə etmək istəyirik. Bir-iki ildən sonra bu, mümkün olacaqdır. İndi Türkiyə bəzi yerlərdən qaz alır. Siz Rusiyadan «mavi axın» xətti çəkirsiniz. Bilmirəm, «mavi axın» xətti olacaq, ya olmayacaqdır. Şəxsən mən buna o qədər də inanmıram. Ancaq edirsiniz edin, öz işinizdir. Amma qazımızı Türkiyəyə verəndə artıq bu, etibarlı olacaqdır.

Məsələn, Türkmənistanın çoxlu qazı var. O istəyir ki, bir neçə bazara çıxarsın. Amma Rusiya onu istənilən vaxt bağlayır. Heç yerə çıxa bilmir. Bilirsiniz ki, anlaşma var idi. Biz onu 1998-ci ildə Ankarada imzaladıq. Türkmənistan prezidenti ilə Türkiyənin prezidenti imzaladılar ki, qaz borusu buradan, Xəzərdən, Azərbaycandan, Gürcüstandan keçib Türkiyəyə gəlsin. Amma sonra bunu etmədilər. Çünki Türkmənistana mane oldular, o da bunu etmədi. İndi bilmir bu qazı hara çıxarsın. Bizə də mane olmaq istəyənlər, bizə də təzyiq etmək istəyənlər var idi. Biz öz iradəmizdən dönmədik. Demək, bax, bunlar bizi daha da bağlayacaqdır.

Bunlar təkcə iqtisadi məsələ deyildir. Bunlar bizi bir-birimizlə əsrlər boyu bağlayacaqdır. Bu, eyni zamanda bölgədə təhlükəsizliyi təmin edəcəkdir. Bir çox başqa məsələləri də demək olar. Ona görə də əlaqələrimiz dostluq, qardaşlıq əlaqələridir. Bu əlaqələr əbədidir. Bunu heç kəs sarsıda bilməz. Erməni xalqına qarşı heç bir soyqırım olmayıbdır. Əksinə, ermənilər türkləri, azərbaycanlıları qırıbdır.

Mən Ərzrumda, İqdırda olanda vaxtilə ermənilərin qırdığı türklərin məzarlarını gördüm. İqdırda bir abidə də ucaldılıbdır.

Həqiqət bundan ibarətdir.

Biz də burada Türkiyənin şəhidlərinə – 1918-ci ildə türk qardaşlarımız şəhid olmuşlar – onların şərəfinə böyük abidə ucaltmışıq.

**N e c a t i Ç ə t i n q a y a:** Cənab Prezident, getdik, gördük.

**H e y d ə r Ə l i y e v:** Onlar nə üçün şəhid olublar? Onlar gəlib Azərbaycanı ermənilərdən xilas edirdilər. Azərbaycanı ermənilərdən qoruyurdular. Ona görə də canlarını verdilər, həlak oldular. Əgər ermənilər bizə hücum etməsəydilər, onlar bizi qırmasaydılar, buna ehtiyac yox idi. Demək, onlar soyqırım ediblər.

Məsələn, bilirsiniz, Xocalı Qarabağda şəhərdir. Ermənilər orada bir gecənin içində insanların hamısını qırıblar. Uşaqlara da, qadınlara da imkan verməyiblər ki, çıxsınlar. Soyqırım budur. Özü də bu, 1992-ci ildə olan soyqırımdır. Amma onlar 85 il bundan öncəki, özü də olmayan bir məsələni ortaya atırlar. Bu məsələdə biz sizinləyik. Heç nə ola bilməz. Siz də bizimləsiniz.

Bir sözlə, sizin gəlməyinizdən çox məmnunam. Çox təşəkkür edirəm. Hesab edirəm ki, siz çox faydalı iş görəcəksiniz. Həm bizim demokratiyaya qiymət verəcəksiniz, həm də bizə kömək edəcəksiniz.

**İRAN İSLAM RESPUBLİKASI PARLAMENTİNİN – İSLAM ŞURASI MƏCLİSİNİN ÖLKƏMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏRİ MÜŞAHİDƏ ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*4 noyabr 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Mən sizi görməkdən çox məmnunam. Siz Azərbaycanda parlamentə, Milli Məclisə keçiriləcək seçkilərdə müşahidəçi olmaq istəyirsiniz. Müşahidə etmək istəyirsiniz ki, Azərbaycanda seçkilər necə – ədalətli, yaxud ədalətsiz keçir.

Hesab edirik ki, seçkilərin ədalətli, doğru-düzgün keçirilməsi üçün seçkiqabağı bir neçə ayda çox iş görmüşük. Bilirsiniz ki, bizdə çoxlu partiyalar vardır. Onların da tam əksəriyyəti müxalifət mövqeyində duran partiyalardır. Həmin partiyaların üzvləri qəzetlərdən, televiziya və radiodan istifadə edir, öz fikirlərini deyirlər. Allah bilir onların fikirləri nədir. Allah onu yaxşı bilir, çünki Allah hər şeyi yaxşı görür. Onların hamısının fikri ondan ibarətdir ki, Heydər Əliyev iqtidarı hakimiyyətdən getməlidir. Bu adamların hər biri deyir ki, biz hakimiyyətə gəlməliyik. Çünki Heydər Əliyev və onun partiyası Azərbaycanı idarə edə bilmir, neçə illərdir ki, problemlər həll olunmur. Biz seçkilərə hazırlıq dövrünü, bax, belə bir demokratik, aşkarlıq şəraitində keçirmişik. İndi əsas iş noyabrın 5-dədir.

Ölkəmizə çoxlu müşahidəçilər – ATƏT-dən 200 nəfər, Avropa Şurası Parlament Assambleyasından 40 nəfər gəlibdir.

Mən bu gün saat on ikidən nümayəndələri qəbul edirəm, hələ bundan sonra da qəbul edəcəyəm. 400-ə qədər müşahidəçi vardır. Çox məmnunam ki, onların içərisində siz varsınız. Güman edirəm ki, müşahidə edib, görüb, öz xoş münasibətinizi bildirəcəksiniz. Sizə bir daha xoş gəlmisiniz deyirəm. Buyurun.

**H ə s ə n Ə l m a s i** (*nümayəndə heyətinin başçısı, İİR parlamenti – İslam Şurası Məclisinin üzvü)*: Çox sağ olun. Mən Sizə təşəkkürümü bildirirəm. Seçki ərəfəsində, yəni 5 noyabr parlament seçkisi ərəfəsində vaxt tapıb bizi qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildiririk.

(*Cənab Həsən Əlmasi nümayəndə heyətinin üzvlərini dövlətimizin başçısına təqdim etdi*).

**H e y d ə r Ə l i y e v:** Bunların hamısı bizim yaxın qonşularımız, dostlarımızdır. Çox gözəl, yaxşı tərkibdir. Təşəkkür edirəm.

**H ə s ə n Ə l m a s i:** Bu, seçki ərəfəsində Azərbaycana mənim ikinci səfərimdir. İki il bundan əvvəl prezident seçkilərində mən cənab Qəzayi ilə birlikdə buraya müşahidəçi kimi gəlmişdik. Bir neçə gün Azərbaycanda olduq. Bu gün isə digər bir nümayəndə heyətinin tərkibində parlament seçkilərində iştirak etmək üçün ölkənizə gəlmişik. Çox xoşhalam ki, ikinci dəfə buraya gəlirəm. Azərbaycanın həyatında mühüm hadisə olan bu seçkilərdə iştirak etmək üçün ölkənizə səfərimdən çox məmnunam.

Biz Azərbaycana gələn kimi Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovla görüşdük. O, seçki qanunları ilə əlaqədar bizim suallarımıza cavab verdi. Avtomatlaşdırılmış «Seçkilər» İnformasiya Mərkəzi və bu seçkilərdə siyasi partiyaların iştirakı barədə ətraflı məlumat aldıq.

Dünən Milli Məclisin sədri ilə görüşdük. Parlament seçkiləri barədə geniş söhbətimiz oldu. Deməliyəm ki, ötən seçkilərlə müqayisə etdikdə builki parlament seçkilərində böyük inkişaf vardır. Bir sıra qanunlarınızı təkmilləşdirmisiniz. Hesab edirəm ki, bunlar səsvermədə müsbət rol oynayacaqdır. İstədiyimiz budur ki, seçkilər açıq-aydın, aşkarlıq şəraitində keçsin.

Mən İran – Azərbaycan dostluq qrupunun üzvü kimi, ölkənizdə baş verən bütün dəyişiklikləri izləyirəm. Arzumuz budur ki, Azərbaycanın heç bir problemi olmasın. Ölkəniz həmişə səadət və xoşbəxtlik içərisində yaşasın, inkişaf etsin.

Azərbaycan xalqı böyük xalqdır. Arzumuz budur ki, o, çətinlik görməsin. Azərbaycan və İran qonşu dövlətlərdir. Biz həm qonşuyuq, bəlkə həm də qohumuq. Əslində biz bir dost və qonşu kimi yaşamışıq. Sağ olun.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl, yaxşı sözlər dediniz. Mən hamısı ilə razıyam. Mən çox məmnunam ki, siz Azərbaycan dilində, bizim ləhcəmizdə yaxşı danışırsınız. Çünki İranda Azərbaycan ləhcəsi bizim ləhcədən bir az fərqlidir. Amma deyirsiniz ki, cəmi iki dəfə burada olmusunuz. Görürəm ki, doğrudan da İran – Azərbaycan dostluq qrupunda siz Azərbaycanı yaxşı öyrənmisiniz. Seçmək olmur ki, siz iranlısınız, yoxsa azərbaycanlısınız.

Məmnunam ki, siz bu məsələlərlə maraqlanırsınız. Mərkəzi Seçki Komissiyasında görüş zamanı bizim bu seçkilərə hazırlığımızın daha yüksək səviyyədə olduğunu görmüsünüz. Ümidvaram ki, bu seçkiləri siz də müşahidə edib öz fikrinizi deyəcək, Azərbaycanda demokratiyanın inkişaf etməsində bizə yardım göstərəcəksiniz.

Biz demokratiya yolu ilə gedirik. Ona görə də ölkəmizdə çoxlu partiyalar, müxalifət qəzetləri, özəl televiziyalar vardır. Bu televiziyalar bütün müxalifətçilərin çıxışlarını verir. Biz hamıya söz, mətbuat, vicdan azadlığı vermişik. Biz bu yolla gedirik və gedəcəyik. Bu yol yeni yoldur. Avropada bəzi ölkələr vardır ki, 200–300 illik demokratiya tarixinə malikdirlər, amma onlarda hələ də tam kamil demokratiya yoxdur. Amma biz gənc dövlətik, hesab edin ki, onların yanında cocuğuq. Amma fərasətli cocuğuq, uşağıq. Biz o səviyyəyə onlardan tez gəlib çatacağıq. İstəyirik ki, bunu seçkilərdə nümayiş etdirək. Ancaq məqsədimiz sadəcə bunu göstərmək deyil. Məqsədimiz parlamentə ən dəyərli adamları seçməkdir. Kimliyindən asılı olmayaraq – iqtidar partiyasındandır, yaxud müxalifət partiyasındandır, bunun heç bir fərqi yoxdur – dəyərli adamlar, xalqın istədiyi insanlar seçilsin. Xalq kimi istəyir onu seçsin. Çünki xalqın istədiyi adam yəqin parlamentdə ən yaxşı deputat ola bilər. Amma xalqın istədiyi adam olmasa, sadəcə, hansı bir yolla seçilsə, o, xalqa yaxşı xidmət edə bilməz.

Ona görə də biz öz işimizi bu prinsiplər əsasında qurmuşuq və quracağıq və siz də bizə kömək edəcəksiniz. Seçkiləri haralarda müşahidə edəcəksiniz?

**H ə s ə n Ə l m a s i:** Deyə bilərəm ki, müşahidəçilərimizin bir hissəsi burada, digər hissəsi isə Azərbaycanın şimalında, başqa bir qrup isə cənubunda, iki qrup isə Bakıda seçki məntəqələrinə baş çəkməlidir. Cənab Prezident, Siz yaxşı fikirlər söylədiniz. İqtidarda olan hər prezidentin, hər hökumətin borcu bütün partiyalara seçkilərdə iştirak etmək imkanı yaratmaqdır. Millətin də borcu parlamentə layiqli deputat seçməkdir. Siz öz borcunuzu yerinə yetirirsiniz, əminik ki, camaat da seçkilər günü yaxşı deputatlar seçəcəklər.

Cənab Prezident, mən onu da deməliyəm ki, Azərbaycanda Sizin 1981-ci ildən çəkdiyiniz zəhmət xalqınız tərəfindən heç vaxt unudulmayıbdır.

**H e y d ə r Ə l i y e v:** 1981-ci ildən yox, 1969-cu ildən.

**H ə s ə n Ə l m a s i:** Bəli, 1969-cu ildən.

**H e y d ə r Ə l i y e v:** 1982-ci ilin sonunda mən buradan Moskvaya getdim.

Mən 1969-cu ildə Azərbaycanın başçısı oldum. 1982-ci ilin sonuna qədər Bakıda oldum. Həmin ilin son ayında – biz dekabr ayı deyirik, bilmirəm, siz nə deyirsiniz – məni Moskvaya apardılar. Mən Moskvada Kremldə otururdum, Siyasi Büronun üzvü və böyük Sovetlər İttifaqı Baş nazirinin birinci müavini idim. Amma beş ildən sonra orada yola getmədik. İstefa verdim, çətin bir dövr yaşadım. Orada, burada məni təqib etdilər. Ona görə də Naxçıvana, doğulduğum yerə getdim, İranla da çox yaxşı əlaqələr yaratdım. İranın Naxçıvana köməyi oldu.

1993-cü ildə burada Azərbaycan ağır vəziyyətə düşəndə xalq əlini mənə uzatdı, dartıb bura gətirdi.

**H ə s ə n Ə l m a s i:** Cənab Prezident, Azərbaycanda bütün sənayenin inkişafında Sizin əməyiniz görünür. Bunu bütün Azərbaycan xalqı görür. Qurduğunuz, yaratdığınız işləri gələcək nəsillər unutmayacaqdır.

Onu da deməliyəm ki, İranda inqilabdan bu günə qədər 20 dəfədən çox seçki keçirilibdir. İran İslam Respublikası seçki sahəsində böyük təcrübəyə malikdir. Ona görə də biz ikinci dəfədir ki, sizin ölkənizə müşahidəçi kimi gəlmişik. Biz həm Milli Məclisin sədri, həm də Mərkəzi Seçki Komissiyasının sədri ilə söhbət edərkən dedik ki, İran seçki sahəsindəki təcrübəsini Azərbaycanla bölməyə hazırdır.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl. Mən bunu bir neçə dəfə demişəm, sizdə son prezident seçkiləri, ağayi Xatəmi tam demokratik şəraitdə prezident seçilmişdir. Ondan sonra parlament seçkiləri demokratik şəraitdə keçmişdir. Bir neçə namizədlər var idi. Açıq yarış keçdi. Xalq kimə çox səs verdisə, o da seçildi. Ona görə də mən İranda demokratiyanın son illərdəki inkişafını həmişə qeyd edirəm. Qərbdə bəzən deyirlər ki, İranda, yaxud müsəlman ölkələrində demokratiya yoxdur. Amma böyük səhv edirlər. İranda demokratiya çox yaxşı inkişaf edibdir. Sizin təcrübənizdən biz də istifadə etməliyik.

**H ə s ə n Ə l m a s i:** Cənab Prezident, biz İranda bələdiyyə seçkiləri də apardıq. Kəndlərdə və şəhərlərdə seçki çox dəqiq keçirildi.

Azərbaycanda keçirilən bu seçkilərdə bütün partiyaların iştirakına görə biz Sizi təbrik etmək istədik. Ümid edirik ki, gələcək seçkilərdə də bütün insanlar, müxtəlif fikirli adamlar sərbəst iştirak edə biləcəklər. Tənqid də, tərif də etmək olar. Hesab edirəm ki, biz Azərbaycanda azad, sərbəst, şəffaf və demokratik şəkildə keçirilən seçkilərin şahidi olacağıq.

**H e y d ə r Ə l i y e v:** Mən də buna inanıram.

**H ə s ə n Ə l m a s i:** Cənab Prezident, bizə vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm. İnşallah, Sizin İrana səfərinizi gözləyirik və ondan sonra cənab Xatəmi Azərbaycana gələcəkdir. Əminik ki, İran – Azərbaycan münasibətləri, ölkələrimizin siyasi və iqtisadi əməkdaşlığı yüksək səviyyəyə qaldırılacaqdır.

**H e y d ə r Ə l i y e v:** Bunu mütləq bu yaxınlarda edəcəyik. Sağ olun.

## MDB ÖLKƏLƏRİ PARLAMENTLƏRARASI ASSAMBLEYASI ŞURASININ, RUSİYA FEDERASİYASI FEDERASİYA ŞURASININ VƏ DÖVLƏT DUMASININ ÖLKƏMİZDƏ MİLLİ MƏCLİSƏ SEÇKİLƏRİ MÜŞAHİDƏ ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 noyabr 2000-ci il*

**H e y d ə r   Ə l i y e v:** Mən sizi salamlayıram. Xoşdur ki, siz bizə, Azərbaycana gəlmisiniz. Özü də Azərbaycan parlamentinin növbəti seçkilərinə MDB Ölkələri Parlamentlərarası Assambleyasından və Rusiya parlamentindən – Federasiya Şurasından, Dövlət Dumasından müşahidəçilər kimi gəlmisiniz. Vaxt tapıb bizə təşrif gətirdiyinizə görə sizə təşəkkür edirəm. Müşahidəçilər çoxdur, amma siz də bu müşahidəçilərin bir hissəsisiniz. Sabiq Sovetlər İttifaqının bütün respublikalarında, MDB ölkələrində seçkilərin keçirilməsi sahəsində böyük təcrübə toplanmışdır və bu təcrübə müxtəlifdir. Biz Azərbaycanda parlament seçkilərini ikinci dəfə keçiririk. Bu ilk dəfə 1995-ci ildə olmuşdur. O vaxt biz özümüzün ilk Konstitusiyamızı da qəbul etdik. İndi parlamentin səlahiyyət müddəti bitir və biz ikinci dəfə olaraq parlament seçkiləri keçiririk. Biz hamımız, o cümlədən də Azərbaycan demokratiya yolu ilə, plüralizm yolu ilə, bazar iqtisa diyyatı yolu ilə, söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı yolu ilə gedirik. Bax, bütün bunlar Azərbaycan parlamentinə seçkilər üzrə ideologiyamızın əsasını təşkil edir. Biz bu fikirdəyik ki, Konstitusiyamızı qəbul edəndən, parlamentimizi seçəndən sonra böyük yol keçmişik. Biz hesab edirik ki, parlamentimiz çox səmərəli işləmiş, 900 qanun qəbul etmişdir, həm də bir çox məcəllələr – cinayət, cinayət-prosessual, vergi məcəllələri qəbul olunmuşdur. Qəbul etdiyimiz qanunlar arasında torpaq islahatı haqqında qanun – biz bu qanunu, demək olar, artıq beş ildir həyata keçiririk – özəlləşdirmə haqqında qanun xüsusilə əhəmiyyətlidir. Bütün sahələrə aid qanunlar qəbul edilmişdir. Biz məhkəmə sistemində islahat aparmışıq, ölkəmizdə iqtisadi islahatlar ardıcıl surətdə həyata keçirilir.

Bizim siyasi həyatımızda azadlıq var. 40-adək partiya fəaliyyət göstərir. Seçkilərdə 14 partiya iştirak edir. Doğrudur, seçkilər haqqında qanunumuza uyğun olaraq, hər bir partiyanın Mərkəzi Seçki Komissiyasından seçkilərə qoşulmaq hüququ alması üçün 50 min imza toplaması tələb edilirdi. Bəzi partiyalar bu imzaları topladılar. Bəziləri isə toplaya bilmədi, ona görə də Mərkəzi Seçki Komissiyası onları seçkilərə buraxmamaq haqqında qərar qəbul etdi. Amma onlar hay-küy qalldırdılar. Həmin vaxt mən Birləşmiş Ştatlarda idim. Bildiyiniz kimi, mənə orada soyuq dəymişdi, pnevmoniya ilə xəstələnmişdim, bir müddət müalicə edildim. Təəssüf ki, Rusiya qəzetləri mənim vəfat etdiyim barədə xəbərlər yaydılar. Budur, indi mən sizin qarşınızda əyləşmişəm. Mən iki həftə orada oldum, qayıdıb gördüm ki, belə vəziyyət yaranıb, şikayətlər var. Beynəlxalq təşkilatlar deyirlər, siz niyə onları seçkilərə buraxmırsınız. Amma qanun qanun olaraq qalır. Problem olmasın deyə, mən məktubla Mərkəzi Seçki Komissiyasına müraciət etdim ki, 50 min, 40 və ya 20 min imza toplayıb-toplamamasından asılı olmayaraq, bütün partiyalar seçkilərə buraxılsın. Odur ki, seçkilərə qatılmaq niyyətində olduğunu bildirmiş bütün partiyalar indi seçkilərdə iştirak edir.

Partiyaların böyük əksəriyyəti bizim rejimə və partiyamıza müxalif olan partiyalardır. Seçkiqabağı kampaniya istər dövlət televiziyası ilə, istərsə də özəl telekanallarla çox açıq şəkildə aparılır. Onlar çıxış edib istədiklərini danışırlar. Qəzetlər çoxdur. İndi bizdə dəbdir, az-çox imkanı olanlar qəzet buraxır. Elə müxalifət partiyaları var ki, 4–5 qəzet nəşr edir. Düşünürsən ki, onlar işləməyə-işləməyə hansı vəsait hesabına yaşayır, «Mersedes»lərdə gəzirlər, hər birinin də prezidentdən çox cangüdənləri var. Bizim müxalifət belə müxalifətdir. Onlar öz qəzetlərində çox şey yazırlar. Amma siz orada hökumətin, dövlətin, prezidentin fəaliyyəti barədə heç nə tapa bilməzsiniz. Əvəzində hər bir nömrədə iftira, yalan, hər cür uydurmalar görərsiniz. Əsasən də iqtidar haqqında, iqtidarın birinci şəxsi haqqında, prezident haqqında. Təkcə mənim vəfat etməyim barədə xəbər vermək ağıllarına gəlməyibdir. Bu baxımdan Moskvanın hansısa bir qəzeti onları qabaqlayıbdır.

Sabah biz seçkilərə, bax, belə bir şəraitdə başlayırıq. Yəni demək istəyirəm ki, bizdə seçkiqabağı dövr çox sərbəst, çox açıq-aşkar keçmişdir. Buna görə də ümidvaram ki, bu, seçkilərin demokratikliyinin təmin edilməsi üçün yaxşı zəmindir. Əlbəttə, biz belə bir iddiada deyilik ki, demokratiya sahəsində çox böyük nailiyyətlər qazanmışıq. Mən bu gün saat 12-dən müxtəlif müşahidəçiləri qəbul edirəm, özü də fasiləsiz olaraq. Bunu təkcə onlara deyil, demokratiyadan çox danışan təşkilatlarla görüşlərimdə də deyirəm. Deyirəm və qəti olaraq belə bir fikirdəyəm ki, demokratiya göydən düşmür, demokratiyanı mağazadan almaq olmaz, demokratiya bir prosesdir. Onun başlanğıcı var, amma sonu yoxdur. İndi elə bir ölkə tapmaq çətindir ki, orada tam və mükəmməl demok-

ratiya olduğunu söyləmək mümkün olsun. Ümumiyyətlə, meyarın nə olduğunu və bunu kimin müəyyənləşdirdiyini, bunun qanunvericisinin kim olduğunu söyləmək çətindir.

Əlbəttə, biz qətiyyən belə düşünmürük ki, artıq tamamilə demokratik bir ölkəyə çevrilmişik. Amma biz demokratiya prinsiplərinin bərqərar olması üçün, siyasi plüralizmin bərqərar olması üçün, insan hüquqlarının təmin edilməsi üçün, iqtisadi islahatların aparılması üçün çox işlər görmüşük. Yəni bütün bunlar müasir demokratik, azad ölkənin atributlarıdır. Bu baxımdan nə qədər irəli getdiyimiz, hansı mərhələdə, hansı məsafədə olduğumuz barədə danışmaq istəmirik. Bununla bərabər, biz deyə bilmərik ki, MDB-də kimdənsə geri qalırıq, yaxud kimisə qabaqlayırıq. Biz bunu istəmirik. Biz nə qədər mümkünsə, bir o qədər də irəliləmişik. Özü də davam edirik və bundan sonra da irəliləyəcəyik. Ona görə yox ki, bunu kimsə bizə qəbul etdirir, ona görə ki, biz bu qərarı müstəqilliyə qovuşduqdan sonra qəbul etmişik.

MDB-nin bütün ölkələrinin müstəqilliyinin 9 illik tarixi var. Onların hamısı 1991-ci ildə, o cümlədən də 1991-ci ilin oktyabrında Azərbaycan öz müstəqilliyini bəyan etmişdir. Rusiya öz suverenliyini bizdən əvvəl elan etmiş və başqa respublikalara nümunə göstərmişdir. Doğrudur, bizim ilk illərimiz çox ağır olmuşdur. Hakimiyyət bir neçə dəfə dəyişmişdir, Ermənistanla müharibə gedirdi, daxili siyasi vəziyyət olduqca mürəkkəb idi. 1993-cü ildə vətəndaş müharibəsi başladı, amma biz bütün bunların qarşısını ala bildik, ölkədə sabitliyi təmin edə və müharibəni dayandıra bildik. 1994-cü ildə biz atəşkəs haqqında saziş bağladıq və artıq 1995-ci ildə bu qərara gəldik ki, indi Konstitusiyamızı qəbul edə, parlamentimizi seçə bilərik. Həyatımızın tarixi, bax, belədir. Bu tarix zaman baxımdan qısadır, lakin həmin dövrdə mümkün olan hər şeyi etməyə çalışmışıq. Bununla belə, biz qarşıda böyük yol olduğunu görürük, bu yolla da gedirik və gedəcəyik. Hesab edirəm ki, siz obyektiv müşahidəçilərsiniz. Mən bunu ona görə deyirəm ki, biz birtərəfli, qərəzli mühakimə yürüdən müşahidəçilərlə tez-tez rastlaşırıq.

Ağa qara, qaraya ağ deyirlər. Lakin mən hesab edirəm ki, MDB-də, o cümlədən Rusiyada müşahidəçilər obyektiv olmalıdırlar, bizdə baş verən hadisələri qərəzli deyil, obyektiv qiymətləndirməlidirlər. Ona görə də belə düşünürəm ki, siz demokratiyanın və xüsusən seçki işlərinin inkişafında nəyə nail olduğumuzu nümayiş etdirmək üçün bizə kömək göstərəcək və bizi dəstəkləyəcəksiniz. Mən sizə bunları deyə bilərəm.

**A l e k s a n d r   P o p o v** (*Federasiya Şurasının MDB Ölkələri üzrə Komitəsi sədrinin müavini, Rostov Vilayət Qanunvericilik Məclisinin sədri*): Hörmətli cənab Prezident, səmimi qəbula görə Sizə təşəkkür edirəm. Hər şeydən öncə, Rusiya Federal Məclisi palatalarının rəhbərləri Yeqor Semyonoviç Stroyevin və Gennadi Nikolayeviç Seleznyovun salamlarını Sizə yetirmək istəyirəm. Əlbəttə, bizim buraya səfərimiz Azərbaycan parlamentinə seçkilərlə bağlıdır. Biz bu bəxtiyar torpağa ancaq xoş məramla və Sizin dediklərinizin bu gün nə dərəcədə real olduğunu görmək niyyəti ilə gəlmişik. Şübhəsiz ki, Rusiya parlamenti tərəfindən bizə həvalə olunmuş vəzifəni obyektiv surətdə nəzərə çatdırıram, obyektiv surətdə yerinə yetirəcəyik. Zənnimcə, digər müşahidəçilərlə müqayisədə bizim üzərimizə daha böyük məsuliyyət düşür, ona görə ki, biz lap bu yaxınlaradək bir ölkədə yaşamışıq, bir olmuşuq. Amma indi tale elə gətirib ki, biz müxtəlif ölkələrdə yaşayırıq. Ancaq bu o demək deyil ki, biz bir-birimizdən uzaqlaşmışıq. Buna görə də biz Azərbaycanda islahatların necə getdiyini maraqla izləyirik, bu islahatların uğurlarına sizinlə birlikdə sevinirik, əgər hansısa nöqsanlar varsa, onlara görə həyəcan keçiririk. Biz gözəl başa düşürük ki, seçkilər qarşısında siyasi vəziyyət kifayət qədər gərgindir, o, kəskinləşə bilər. Bu gün biz seçkilər haqqında qanunda nəzərdə tutulan şərtləri yerinə yetirib-yetirməməsindən asılı olmayaraq, bütün siyasi partiyaların seçkilərə qoşulmasına icazə vermək xahişi ilə Mərkəzi Seçki Komissiyasına müraciət etmək haqqında prezident kimi Sizin qəbul etdiyiniz qərarı müzakirə etdik. Zənnimcə, bu qərar barəsində hələ düşünüb-daşınmaq lazımdır, ümumiyyətlə, biz onu müsbət qiymətləndiririk.

Demək istədiyim ikinci məsələ belədir. Sabah biz seçki məntəqələrində olacağıq. Burada vəziyyətlə ilk tanışlıq göstərir ki, xeyirxahlıq şəraiti yaradılmışdır. Hərçənd, seçkilərdə iştirak edən partiyalar arasında siyasi mübarizə gedir. Biz görürük ki – bu gün şəhərdə də olduq – sabitlikdir, əmin-amanlıqdır. Belə düşünürəm ki, sabah seçkilər yaxşı keçməlidir. Əlbəttə, siyasi xətt baxımından biz Azərbaycan parlamentinin necə olacağına biganə deyilik. Bununla belə, mən bu fikirdəyəm ki, bir prezident kimi, şəxsən Sizin gördüyünüz işlər onu deməyə əsas verir ki, seçkilərin yekunu müsbət olacaq, parlament formalaşdırılacaq və əvvəlki parlamentin gördüyü işləri və ya fəaliyyət istiqamətlərini, yəni demokratik islahatları bu gözəl ölkədə – Azərbaycanda davam etdirəcəkdir.

Əlbəttə, bizim üçün normal iş şəraiti yaradılmışdır və buna görə Sizə minnətdarıq. Kifayət qədər gec olmasına baxmayaraq, bizi qəbul etməyə, dinləməyə vaxt tapdığınız üçün də minnətdarıq. Həmkarlarımın sualları olub-olmayacağını bilmirəm, amma mən müşahidəçilər kollektivimizin adından arzu etmək istərdim ki, sabah seçkilər həqiqətən demokrativ əsasda keçsin, bu və ya digər namizədə, yaxud partiyaya səs vermək istəyənlərin hamısı bunu azad surətdə edə və bununla da öz iradəsini ifadə edə bilsin.

Mən burada regionu – Rostov vilayətini təmsil edirəm. Çıxışımı bitirərək, bir-iki kəlmə demək istəyirəm ki, biz Sizin Rostov torpağına gəlişinizi xatırlayırıq, o vaxtlar Taqanroq yaxınlığındakı Sambek təpələrində abidəni sizinlə birlikdə açmışdıq. Orada insanlar Sizin bu səfərinizi xatırlayırlar. Sizə deməliyəm ki, bu abidə yaxşı vəziyyətdədir və biz Sizi qələbə günü münasibətilə növbəti şənliklərə dəvət edirik.

**He y d ə r   Ə l i y e v:** Abidə yerindədirmi?

**A l e k s a n d r   P o p o v:** Bəli, əlbəttə, yerindədir. Biz ona qulluq edirik. Hər il Taqanroqun azad edilməsi günündə oraya olduqca çox adam toplaşır. Orada şənliklər, mitinqlər keçirilir. Orada Azərbaycan diviziyası təsvir edilmişdir, orada çoxlu insan həlak olmuşdur.

Ümumiyyətlə, biz burada gördüyümüz vəziyyətdən məmnun qaldıq. Bu gün hökumətdə görüşlər oldu. Biz sizin Baş nazirlə çox açıq danışdıq. Biz təkcə Azərbaycanda deyil, həm də ölkələrimiz arasında, MDB ölkələri arasında mövcud olan bütün problemləri də müzakirə etdik. Ölkələrimiz arasında iqtisadi əməkdaşlıq problemlərini də müzakirə etdik və qeyd olundu ki, Azərbaycanın ölkəmizin konkret regionları ilə əməkdaşlığa daha böyük səylər göstərməsi, hər halda, doğru olardı. Mən də bu fikirdəyəm. Bilirəm ki, bu cür praktika var, müqavilələr sistemi mövcuddur. Bizim təkliflərimiz var, başlıcası isə, biz, güman ki, yaxın vaxtlarda belə bir müqavilə imzalayacağıq. Seçkilərlə bağlı problemləri də müzakirə etdik. Hökumətdə keçirdiyimiz görüşlərdən məmnunuq.

Parlamentdə də görüşlər keçirildi və seçkilərə dair qanunvericilik barəsində də fikir mübadiləsi aparmaq imkanına malik olduq. Mərkəzi Seçki Komissiyasında görüşlər oldu. Bizə lazım olan bütün informasiyanı aldıq. Sabah biz Azərbaycan parlamentinə seçkilərin necə getdiyini açıq ürəklə, açıq qəlblə müşahidə etməyə hazırıq.

**H e y d ə r   Ə l i y e v:** Mənə xüsusilə xoşdur ki, siz Sambek təpələrini və 416-cı Taqanroq diviziyasının hünərinə həsr olunmuş bu nəhəng abidəni xatırladınız. Bu diviziya Azərbaycanda təşkil olunmuşdu və məhz orada qəhrəmanlıq göstərmişdi. O vaxtlar biz bu abidəni Rostov Vilayət Partiya Komitəsi ilə birlikdə ucaltdıq. Heykəltəraşı Elcan Şamilov azərbaycanlıdır, o, artıq həyatdan köçmüşdür, memarları isə, məncə, ata və oğul Qriqoryevlərdir. Deməliyəm ki, bu abidə tamamilə Azərbaycanın vəsaiti hesabına yaradılmışdır. O gün çox unudulmaz bir gün idi, ona görə ki, ora həqiqətən gözəl bir yerdir, abidənin özü də çox əzəmətlidir, çox görkəmlidir. Olduqca çox adam toplaşmışdı. Mən oraya müharibə veteranlarının böyük bir qrupu ilə gəlmişdim. Bu abidəni birlikdə açdıq. Bu, xatirimdə qalmışdır, çox şadam ki, siz bunu xatırladınız. Sağ olun.

**A l e k s a n d r   P o p o v:** Demək istədiyim axırıncı məsələ barəsində. Bilirəm ki, prezidentimiz Vladimir Vladimiroviç Putinin ölkənizə səfəri planlaşdırılır. İstərdik ki, aparacağınız danışıqlar ölkələrimiz arasında münasibətləri həqiqətən irəlilətsin.

**H e y d ə r   Ə l i y e v:** Biz onun səfərini gözləyirik, o, söz verib ki, noyabrın axırlarında buraya gələcəkdir. Mən də ümidvaram ki, məhz belə olacaqdır. Bu, Rusiya Federasiyası prezidentinin Azərbaycana ilk səfəri olacaqdır.

**A l e k s a n d r   P o p o v:** Amma Boris Nikolayeviç buraya işgüzar səfərə gəlmişdi...

**H e y d ə r   Ə l i y e v:** Xeyr. Boris Nikolayeviç Yeltsin burada 1991-ci ildə, hələ SSRİ-nin dağılmadığı dövrdə Nazarbayevlə birlikdə olmuşdu.

Onlar Dağlıq Qarabağ üstündə Ermənistan – Azərbaycan münaqişəsinin həlli üçün vasitəçilik xidməti göstərmək istəyirdilər. Əlbəttə, onların buraya gəlməsi yaxşı idi, amma bu səfər məsələni həll etmədi. Biz hamımız müstəqillik əldə edəndən sonra isə səfər olmadı. Georgi İvanoviç, siz nəsə demək istəyirsiniz?

**G e o r g i   T i x o n o v** (*Rusiya Federasiyası Dövlət Dumasının MDB işləri və həmvətənlərlə əlaqələr komitəsi sədrinin müavini*): Cənab Prezident, müsaidənizlə, sadəcə olaraq, hörmətli Heydər Əliyeviç!

Bu gün mən Dövlət Dumasının deputatı olsam da, MDB Parlamentlərarası Assambleyasının müşahidəçilər qrupuna başçılıq edirəm. Bu hətta xoşdur. Bilirsiniz ki, burada biz hamımız – Gürcüstan, Ukrayna, Moldova, Belarus nümayəndələri bir yerdəyik. Amma biz ilk dəfə müşahidəçilik etmirik. Bu yaxınlarda Belarusda seçkilərdə olduq, bundan əvvəl yoldaşlarımın bir qismi Ukraynada seçkilərdə olmuşdur. Axı bu heç də təkcə müşahidəçilik deyildir, həm də keçmişdə deyildiyi kimi, təcrübə mübadiləsidir. Biz nəyin harada və necə getdiyini müşahidə edirik. Axırıncı dəfə Belarusda seçkilərdə olmuşduq. Bilirsinizmi, sizin seçki komissiyasında söhbət əsnasında nə gördük? Eşitdik ki, ATƏT seçkilər haqqında qanunda 83 bəndin dəyişdirilməsini təklif etmişdir. Bu, ağır təsir bağışladı. Deməliyəm ki, ATƏT bu məsələləri Belarusda qaldıranda və Aleksandr Qriqoryeviç Lukaşenko onların əslində hamısını həll edəndən sonra da ATƏT-in münasibəti, qəribə olsa da, subyektiv idi. Odur ki, ATƏT nümayəndələrinin və Avropa üçlüyü təmsilçilərinin iştirakı ilə mətbuat konfransı keçirilən bir çox deputatlar – Fransadan, Finlandiyadan gəlmiş və qeyri-obyektivlikdə qınaya bilmədiyimiz müşahidəçilər bizimlə həmrəy olduqlarını bildirdilər. Bir qədər kəskin desək, biz ATƏT-in mövqeyini pislədik. Eyni şərtləri ATƏT-in sizə də təklif etməsi bizə xoş təsir bağışlamadı. Sizə deməliyəm ki, bu gün gördüyünüz işlər – hər hansı qanun hətta bir qədər pozulsa da, müxalifətin seçkilərə getməsinə imkan vermək üçün gördüyünüz işlər həqiqətən şərqlilərə xas müdrik addımdır. Axı Aleksandr Qriqoryeviç Lukaşenko da çox ağıllı addım atmışdı. Yadınızdadırsa, axırıncı şənbə günü o, müxalifətə küçələrə çıxmağa icazə vermişdi və müxalifət küçələrə çıxdıqda bir nəfər də olsun milis işçisi görmədi, artıq bu onlar üçün məğlubiyyət idi.

Sizin müdrik bir qərar, indiki halda şərqlilərə xas qərar qəbul etməyinizi biz çox düzgün sayırıq. Əlbəttə, seçkilərə gəlmək həddinin nə üçün 25 faizə endirildiyini bilmirəm. Yəqin ki, sizdə seçkilərə gələnlər 60 faizdən çox olacaqdır.

**H e y d ə r   Ə l i y e v:** Öz aramızdır, bu, müxalifətin təklifi ilə və bəzi beynəlxalq təşkilatların təkidi ilə edilmişdir. Seçkilərə nə qədər adamın gəlməsi isə bizdən asılı deyildir.

**G e o r g i  T i x o n o v:** Biz nədənsə belə bir qənaətə gəlmişik ki, bu göstərici 60 faizdən çox olacaqdır. Çox xoşdur ki, Siz məhz belə mövqe tutmusunuz. Siz ən təcrübəli adamlardan biri olaraq qalmısınız. Biz çox şadıq ki, bu gün Sizinlə görüşürük. Rəyimiz belədir ki, hər şey normal keçəcəkdir. Sabah biz respublikanın müxtəlif rayonlarına gedəcəyik, axşam yekun vuracaq və yoldaşlarımızla bir yerə toplaşacağıq. Biz seçki komissiyasında onun sədri ilə görüşərkən müxalifətin nümayəndəsi ilə də görüşdük. Gərək ki, o sizdə komissiyanın katibi vəzifəsindədir. Deyilənləri dinlədik və deməliyəm ki, normal, sakit bir söhbət oldu.

Siz nə qədər ki, fəal işləyirsiniz, xəstələnməyəcəksiniz. Biz hamımız bundan şadıq.

**X a t u n a  X o p e r i y a** (*Gürcüstan parlamentinin deputatı*): Zati-aliləri, cənab Prezident!

Mən Gürcüstanı təmsil edirəm. Sadəcə, müşahidəçilərə və Sizə müraciət etmək istəyirəm ki, biz Rusiyada və ya Gürcüstanda, yaxud da Azərbaycanda seçkilərin parlamentarizmin vətəni olan İngiltərədəki kimi keçiriləcəyi barəsində xülyalara qapılmırıq. Biz zənn etmirik, bilirik ki, həm sizdə, həm də bizdə olduğu kimi, hansısa pozuntular olacaqdır. Amma bu gün mən Xalq Cəbhəsi Partiyasının – o isə radikal müxalifətdir – nümayəndələrindən biri olan cavan oğlanla danışarkən məni təəccübləndirdi. Dedi ki, 1995-ci illə müqayisədə o hətta təsəvvürünə belə gətirə bilməzdi ki, seçkilər haqqında qanunda bu cür dəyişikliklər baş verə, indiki kimi tərkib seçkilərdə iştirak edə bilər. 14 partiyadan əslində 7-si radikal müxalifət partiyasıdır. Mən küçələrdə camaatla görüşüb söhbət etdim, təcrübəm var, ona görə də camaatın nə düşündüyünü öyrənməyə çalışırdım. Xalqın fəallığı çox yüksəkdir, bu isə belə şəraitdə ən başlıca amildir. Ona görə mən də bu fikirdəyəm ki, seçkilər yaxşı keçəcəkdir. Biz öz sözümüzü sonra deyəcəyik.

İndi isə Gürcüstanın nümayəndəsi və öz nəslimin nümayəndəsi olaraq Sizə müraciət etmək və demək istəyirəm. Mən bunu öz prezidentimizə də demişəm. Bilirsinizmi, xalq hərəkatları tez-tez bəyan edirlər ki, azadlığımızı və müstəqilliyimizi onlar gətirmişlər. Doğrudur, o vaxtlar biz Tbilisidə də, Bakıda da çox haray-həşir salır, mübarizə aparırdıq, amma bu gün dövlətçiliyə malik olmağımız Sizin xidmətinizdir. Dövlətçiliyimizə təminatı Siz və mənim prezidentim yaratmısınız. Buna görə sağ olun.

**A l e k s a n d r  P o p o v:** Bəlkə cənab səfir...

**H e y d ə r  Ə l i y e v:** Səfir istənilən vaxt danışa bilər, əlbəttə, arzu edirsə. Xüsusən də ona görə ki, o, Mərkəzi Seçki Komissiyasının sədri olmuşdur. Biz ondan çox şey öyrənmişik. Bizim adamlar ondan çox şeyi soruşublar. O, Rusiyada seçkiləri uğurla keçirib və yüksək qiymət alıbdır.

**N i k o l a y  R y a b o v** (*Rusiyanın Bakıdakı fövqəladə və səlahiyyətli səfiri*): Mən heç nə demək fikrində deyildim, ona görə ki, Siz MDB ölkələrinin, o cümlədən Rusiyanın parlamentlərindən olan müşahidəçilərlə görüşürsünüz. Buna baxmayaraq, mən MDB ölkələrindən olan həmkarlarımı dəstəkləmək və demək istəyirəm ki, Azərbaycanda indiki parlament seçkilərinin keçirilməsi üçün olduqca böyük iş görülmüşdür. Şübhəsiz, bu böyük iş, Siz başda olmaqla, bu ölkənin xalqının və rəhbərliyinin nail olmağa çalışdığı nəticəni verəcəkdir. Düzdür, xəstəlikdən sonra bu az müddət ərzində Sizə rahat nəfəs almağa macal vermədilər, amma Siz çox irəli getmisiniz. Bu isə həqiqətən heyranedicidir. Allah hər şeyi görür. Ona görə də nəticə bu ölkədə göstərilmiş səylərə, şübhəsiz, müvafiq olacaqdır. Belə bir gərgin iş cədvəli olmasına baxmayaraq – indi Sizin üçün necə çətin olduğunu başa düşürəm – MDB ölkələri parlamentlərinin nümayəndələrini qəbul etdiniz. Söz yox ki, bu görüş onların xatirəsində qalacaqdır, xüsusən də ona görə ki, o, Azərbaycan üçün belə bir mühüm hadisə ərəfəsində keçirilir. Bu, sadəcə olaraq, seçkilər deyildir, Avropa Şurasına açılan pəncərədir. Zənnimcə, Siz bu səddi uğurla dəf edəcəksiniz və biz hamımız Sizin tərəfinizdəyik, Sizi fəal dəstəkləyirik. Azərbaycan Avropa Şurasında olmalıdır və olacaqdır.

## Q E Y D L Ə R

**1. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon $km^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 5-77,92–103,104,115,116,126,136,142,162,164,169,173,194,200,203,247,249,250, 263–267,279–283,,304–309,312,324,325,327–335,372,394,404,411–420, 427.

**2. Nyu-York** – ABŞ-ın ən mühüm iqtisadi, maliyyə, siyasi və mədəni mərkəzlərindən biri. Əsası 62-cı ildə Yeni Amsterdamadı ilə hollandiyalılar tərəfindən qoyulmuşdur. 5 inzibati rayona bölünür. Sahəsi 816 $km^2$ (o cümlədən quru hissəsi 768 km2), əhalisi 7 milyon (ətrafı ilə birgə 16 milyondan) nəfərdən çoxdur. Ölkənin 7 əsas bankından 6-nın iqamətgahı bu şəhərdədir. – 5–40,55,92,98,104,112,113,126,160,179,241.

**3. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

1992-ci ildən Azərbaycan Respublikası BMT-nin üzvüdür. – 5–47,93, 107,136,235–241,408,412.

**4. Hafiz Paşayev,** H a f i z M i r C ə l a l o ğ l u (d.1941) – diplomat. Fizika-riyaziyyat elmləri doktoru. 1992-2006-cı illərdə Amerika Birləşmiş Ştatlarında Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikası xarici işlər nazirinin müavini və Diplomatiya Akademiyasının rektorudur. – 5.

**5. Eldar Quliyev,** E l d a r Q u l a m o ğ l u (d.1939) – şərqşünas, diplomat, fövqəladə və səlahiyyətli səfir. Birləşmiş Millətlər Təşkilatı yanında (1994–2001) Azərbaycan Respublikasının daimi nümayəndəsi olmuşdur. Hazırda Rusiyada fəaliyyət göstərən «Azərbaycan konqresinin» icraçı direktorudur. – 5.

**6. Kofi Annan** (d.1938) – 1997–2006-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. Nobel mükafatı laureatı. – 5,100.

**7. Klinton Bill,** U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992–2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 5,16,21,25,34,56,73,100, 101,107,113,114,126,194,200,273,280,281,282,283,324,328,331,332.

**8. ÇUÖAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 6–10.

**9. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 6–10,418.

**10. Şevardnadze** E d u a r d A m v r o s i y e v i ç(d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın Birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri, 1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 6–10,112,204,283.

**11. Luçinski Petru** (d.1940) – Moldovanın siyasi və dövlət xadimi. 1971-ci ildən 1989-cu ilə qədər dövlət və partiya işlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1997-2002-ci illərdə Moldova Respublikasının prezidenti olmuşdir. – 6–10.

**12. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 7,13,132,143,144,312,313,330,333,400–410,408,422,426.

**13. TRASEKA,** T r a n s x ə z ə r n ə q l i y y a t d ə h l i z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 7,9,12,66.

**14. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi – AVRO-ya) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 8,132.

**15. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici işlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt–Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 8,10,18,65,85-86,124,131,137,140,141,144, 176,183,211,252,253,257,266,305,355,416,423,427,438–449.

**16. İsrail** – Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentidir, onu birpalatalı parlament (knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 10,23,29.

**17. Ehud Barak** (d.1942) – İsrail hərbi və dövlət xadimi. 1991–95-ci illərdə İsrail Baş ştabında rəis, 1999–2001-ci illərdə İsrailin Baş naziri. – 10, 23,27,28,29.

**18. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 13,14,31,53,240.

**19. Cənubi Afrika Respublikası** – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 41,7 milyon nəfərdir. İnzibati ərazisi 11 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlament (Senat və Milli Məclis). Paytaxtı Pretoriyadır. – 15,16,67,68.

**20. Nelson Mandela** (d.1918) – görkəmli siyasi və dövlət xadimi 1994-1999-cu illərdə CAR-ın prezidenti. Afrika Milli Konqresinin (AMK) rəhbəri, aparteidə qarşı barışmaz mübariz. Dəfələrlə həbsə məruz qalmış, 1964-cü ildə isə ömürlük həbs edilmişdir. 1990-cı ildə azad edilmiş. Nobel mükafatı laureatı. – 15.

**21. Tabo Mbeki (d.1942)** – Afrika Milli Konqresinin görkəmli nümayəndəsi. 1997–2007-ci illərdə Afrika Milli Konqresinin sədri, 1999–2008-ci illərdə Cənubi Afrika Respublikasının prezidenti olmuşdur. – 15.

**22. Madlen Olbrayt** (d.1937) – ABŞ-ın tanınmış diplomatı və dövlət xadimi. 1989-cu ildən ABŞ-ın Milli Siyasət Mərkəzinin prezidentidir. 1993-cü ildə ABŞ-ın BMT-də daimi nümayəndəsi təyin edilmişdir. 1997–2000-ci illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 18,25,100,103,114,126, 328,331.

**23. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853,874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 18,19,32,34,51,52,53,54,55,67,111,112,114, 217,265,280,330,394,403,404,405,406,423,428.

**24. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdı. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 18,19,20,31,33,47,54,115,312,325,330,333,349,394,395,404, 405.

**25. Henri Kissincer** (d.1923) – tanınmış Amerika dövlət xadimi, politoloq. 1952-ci ildən Beynəlxalq Harvard Seminarının icraçı direktoru olmuşdur. 1969-75-ci illərdə prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi vəzifəsində işləmişdir. 1973-77-ci illərdə ABŞ-ın Dövlət Katibi olmuşdur.

Beynəlxalq problemlərə dair bir sıra kitabın müəllifidir. Nobel mükafatı (1973-cü il) və bir sıra digər mükafatların laureatıdır. – 19.

**26. Metropoliten-muzey** – ABŞ-ın ən böyük incəsənət muzeyi. 1870-ci ildə Nyu-Yorkda əsası qoyulmuş, 1872-ci ildə açılışı olmuşdur. Ekspozisiyasını başlıca olaraq muzeyə hədiyyə verilmiş şəxsi kolleksiyalar təşkil edir. Muzeydə Şərq xalçaları, o cümlədən Azərbaycan xalçaçılıq sənətinin nadir nümunələri də var. – 21.

**27. Sevil Əliyeva,** S e v i l H e y d ə r q ı z ı (d.1955) – şərqşünas, ictimai xadim, tarix elmləri namizədi. Prezident Heydər Əliyevin qızı. Bəstəkarlıq fəaliyyəti göstərir, bir sıra musiqi əsərlərinin müəllifidir. Sevil Əliyeva 1990-cı illərin birinci yarısından fəal ictimaiyyətçi, müstəqil Azərbaycanda qadın hərəkatının təşkilatçılarından biri kimi fəaliyyət göstərir. «Sevil» Azərbaycan Qadınlar Məclisinin sədri, «SOS uşaq kəndləri – Azərbaycan assosiasiyası»nın prezidentidir.

Sevil Əliyevanın İngiltərə–Azərbaycan ictimai-mədəni əlaqələrinin genişləndirilməsində də xidmətləri var. – 21.

**28. Senat** – ABŞ-da (Konqresin) yuxarı palatası nəzərdə tutulur. – 25,26,38,39,113,304–309.

**29. Konqres,** A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a r ı K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 25,39,55,56,57,75,112,113,249,250, 305,428,429.

**30. Kinq Piter** (d.1944) – 1973–93-cü illərdə müxtəlif vəzifələrdə olmuş, 1992-ci ildə Nyu-York ştatından Konqresin üzvü seçilmişdir. Respublikaçıdır. – 25.

**31. «907-ci maddə» –** ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir. Buna baxmayaraq, istər Bill

Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasiyası bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 25,26,34,39,40,56,114,115,429.

**32. Braunbək Sem** (d.1956) – hüquqşünas. ABŞ Konqresi Nümayəndələr Palatasının üzvü, 1996-cı ildən senator, Xarici Əlaqələr Komitəsinin üzvü. – 25,26,36–40,113.

**33. İpək yolu**, B ö y ü k  İ p ə k  y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 26,36–40, 66,70,113.

**34. Sendi Berger** – 1992-1993-cü illərdə ABŞ Dövlət Departamentinin siyasəti planlaşdırma şöbəsi direktorunun müavini və V.Klintonun xarici işlər üzrə böyük müşaviri işləmişdir. 1993-1997-ci illərdə prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisinin müavini, 1997-2000-ci illərdə isə ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi olmuşdur. – 26.

**35. Bjezinski Zbiqnev** (d.1928) – Amerikanın siyasi və dövlət xadimi, politoloq. 1977–81-ci illərdə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri, 1981-ci ildən Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəridir. 1987–91-ci illərdə ABŞ prezidentinin xarici kəşfiyyat üzrə müşavirlər komitəsinin üzvü olmuşdur. 1989-cu ildən Con Hopkins Universitetinin Nitse adına Dərinləşdirilmiş Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəri, Amerika–Azərbaycan Ticarət Palatasının fəxri müşaviridir. – 26,109,115,179,305,306,307,334.

**36. «Eksson» korporasiyası** – dünyada ən iri və ən qocaman sənaye müəssisələrindən biri. Mənzil-qərargahı Texas ştatının Dallas şəhərində yerləşir. 1882-ci ildə Con Rokfeller tərəfindən yaradılmışdır. Xaricdəki ilk filialı 100 il əvvəl təsis edilmişdir. Hazırda dünyanın 90-dan çox ölkəsində fəaliyyət göstərir. Korporasiyada 95 min adam işləyir. 18 ölkədə yerləşən 30 neftayırma müəssisəsinin tam və ya şərikli sahibidir. – 29.

**37. Supsa** – Qara dəniz sahilində liman. 1996-cı il martın 8-də Bakıdan Supsa limanına neft kəmərinin çəkilməsinə dair beynəlxalq saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də Bakı–Supsa ixrac boru kəməri, Supsa yerüstü terminalı istifadəyə verilmişdir. Açılışda Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etmişdi. – 29.

**38. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min $km^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 29,32,45,46,54,61,112,113,163,168,198–204,223,250, 251,320–326,412,421–431.

**39. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 29,34,60,75,115,116,198–204,280,281,282,324,325,331, 332,424,430.

**40. «Motorolla»** – beynəlxalq şəbəkələr sistemi. Dünyanın bütün qitələrini əhatə edən 110 ölkədə şirkətin nümayəndəlikləri var. 1928-ci ildə fəaliyyətəbaşlamışdır. İldə 38 milyard dollardan artıq dövriyyəsi var. Azərbaycanda da fəaliyyət göstərən «Motorola» şirkəti respublikamızda texniki mərkəz yaradılmasına, buraya azərbaycanlı mütəxəssislərin cəlb edilməsinə də böyük maraq göstərir. – 29.

**41. Vəhhabislər,** V ə h h a b i l i k,  v ə h h a b i z m – ortodoksal islamda yaranmış dini-siyasi cərəyan. XVIII əsrin axırlarında Nəcddə yayılmışdı. Banisi Məhəmməd ibn Əbdül-Vəhhabdır. Başlıca ehkamı vahid

Allaha inamdır. Vəhhabilər Quranı qəbul etsələr də, islam dinində müqəddəslərə pərəstişi, dərvişliyi rədd edir, cihada böyük diqqət verirlər. Səudiyyə Ərəbistanında hakim ideologiya olan vəhhabilik Hindistan, Əfqanıstan, İndoneziya və bəzi Afrika ölkələrində də yayılmışdır. – 30,68.

**42. İslam Kərimov,** İslam Əbduqəni oğlu (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 30.

**43. Ben Laden,** Usama Bin Məhəmməd (d.1957) – «əl-Qaidə» terrorist təşkilatının rəhbəri. ABŞ və başqa ölkələr tərəfindən bir nömrəli terrorist kimi tanınmışdır. Dünyada törədilən bir çox terror aktlarına başçılıq etmişdir. Ben Ladenin başçılıq etdiyi «əl–Qaidə» təşkilatı, əsasən Əfqanıstan və Pakistanda fəaliyyət göstərir. – 30,68.

**44. Rusiya,** Rusiya Federasiyası – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı – Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 31,37,47,61, 68,69,70,77,81,94,105,111,112,124,163,175–183,226,263–267,271,294, 305,308,312,325,375,376,394,404,427,430,442,447,448.

**45. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 31,47, 54,160,161,184–193,221–222,312,325,394,398.

**46. Atəşkəs rejimi** – 1994-cü il mayın 12-də Moskvada Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə, müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 33,248,312,428.

**47. Yerusəlim bax:** Qüds

**48. Qüds** – Fələstində şəhər. Əhalisi 283,1 min nəfərdir. Müsəlman, yəhudi və xristianların «müqəddəs şəhəri» adlanır. Qüds haqqında ilk məlumat e.ə. 2-ci minilliyin ortalarına aiddir. Qüds müxtəlif vaxtlarda müxtəlif dövlətlərin hakimiyyəti altında olmuşdur. 1920-47-ci illərdə İngiltərənin Fələstin mandatlıq ərazisinin inzibati mərkəzi idi. 1947-ci ildən isə BMT-nin idarəsi altında xüsusi rejimli müstəqil inzibati vahid oldu. 1948-49-cu illər Ərəb-İsrail müharibəsindən sonra Qüds iki hissəyə bölündü: qərb hissəsi İsrailə, şərq hissəsi isə İordaniyaya verildi. 1950-ci ilin yanvarında İsrail qeyri-qanuni olaraq Qüdsün qərb hissəsini dövlətin paytaxtı elan etdi. 1967-ci ildə İsrail Qüdsün şərq hissəsini də işğal etdi. Qüds qədim müsəlman, yəhudi və xristian abidələri ilə zəngindir. – 33.

**49. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1993-cü ildə Türkiyə Kassasiya Məhkəməsinin, 1988-ci ildə isə Türkiyə Konstitusiya Məhkəməsinin üzvü seçilib. 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 35,112,204,325.

**50. İran,** İran İslam Respublikası – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 35,69,70,252–262,294,427,432–437.

**51. Xatəmi Seyid,** Məhəmməd Xatəmi (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın mədəniyyət və islam orijentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 35,256,257,260,436.

**52. «Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 37,73,199,281.

**53. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 37,59,75.

**54. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 37,59,75,281,282.

**55. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 38,66,227,335-339.

**56. Corc Buş Herbert** (1924) – Amerikanın görkəmli dövlət xadimi. 1980-89-cu illərdə ABŞ-ın vitse-prezidenti, 1989-92-ci illərdə ABŞ-ın 41-ci prezidenti olmuşdur. – 41–47,108,110.

**57. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 42,111.

**58. Brent Skoukroft** (d.19.3.1925) – ABŞ-dakı Beynəlxalq Xarici Siyasət Forumunun prezidenti, ehtiyatda olan aviasiya general-leytenantı. «Pennzoyl» şirkətinin direktorlar şurasının üzvüdür. – 42,44,46.

**59. Lari** (Lourens) İqlberger (d.1930) – Amerika dövlət və siyasi xadimi, prezident Corc Buş Herbert zamanı Dövlət katibi (1992-93). 2007-ci ildə sabiq Dövlət katibi Lari Amerika Konqresini erməni soyqırımını tanımamağa çağırmışdır. – 43,44,46.

**60. Amerika Mərkəzi Kəşfiyyat İdarəsi** – Amerika Birləşmiş Ştatlarında mülki və hərbi kəşfiyyat işlərini idarə edən idarə. 1947-ci ildə yaradılmışdır. – 44,50–71.

**61. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Süleyman Dəmirəlin siyasi fəaliyyətinin mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 45, 112,163,283,322,323,324,325.

**62. Turqut Özal,** Ö z a l T u r q u t (1927–1993) –Türkiyənin görkəmli dövlət və siyasi xadimi. 1980–82-ci illərdə Dövlət naziri, 1983–89-cu illərdə Türkiyənin Baş naziri, 1989–93-cü illərdə Türkiyənin prezidenti olmuşdur. – 46.

**63. Amerika–Azərbaycan Ticarət Palatası.** 1996-cı ildə yaradılmışdır. Özəl, qeyri-kommersiya təşkilatıdır. 160 üzvü var. – 48–49,93,107,108, 306,307.

**64. «Eksson Mobil»** – amerikan şirkəti. Dünyada ən böyük özəl neft şirkətlərindən biri. Neftin çıxarılması, istehsalı və paylanması ilə məşğuldur. – 48,56,116.

**65 «Şevron» –** dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən «Şevron»un dünyanın 100-ə

qədər ölkəsində 450 filialı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41000 işçisi var. 1879-cu ildə «Pasifik Kost Oyl Kompani» adı ilə fəaliyyətə başlamışdır. – 48,59,71.

**66 «BP–AMOKO»** – dünyada ən böyük neft və neft-kimya korporasiyalarından biri. «BP–AMOKO» dünyada neft-qaz hasilatı, xam neft satışı, neftin emalı və neft məmulatlarının ticarəti, həmçinin neft-kimya məhsulları istehsalı və satışı üzrə ixtisaslaşmış nəhənd şirkətdir. – 49,75.

**67 «B r i t i ş  P e t r o l e u m»,** – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *BP* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 49,75.

**68 «Şell»** – infrastrukturların formalaşdırılmasında, neft və kəmərlərin çəkilməsində, onların layihələrinin həyata keçirilməsində fəaliyyət göstərən korporasiya. Dünyanın 100-dən çox ölkəsində şirkətləri var. Dünyanın 34 ölkəsində 53 neftayırma zavodu tam və ya qismən «Şell»ə məxsusdur. – 49.

**69 «Koka–Kola»** – şirkət alkoqolsuz içkilərin nəhəng istehsalçısıdır. «Koka-Kola», «Fanta», «Sprayt» və «Layf» içkiləri burada istehsal oluur. 1997-ci ildən fəaliyyət göstərir. – 49.

**70. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məslisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 53,160,179,407.

**71. ATƏT-in Lissabon sammiti** – 1996-cı il dekabrın 2–4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Lissabon Zirvə toplantısında müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan–Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyevin qəti, prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın statusunun yalnız Azərbaycan Respublikasının tərkibində müəyyən olunması öz əksini tapdı. – 54,312,313,394,404.

**72. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min $km^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur (Kəngərli) bölünmüşdür; 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 56,130, 257,259,294,323,342.

**73. 1993-cü il iyun hadisələri** – Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlə, xalqın tələbilə Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 57,216,286,441.

**74. ATƏT-in İstanbul Zirvə görüşü** – 1999-cu il noyabrın 18–20-də Türkiyənin İstanbul şəhərində ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə keçirildi. Bu, ATƏT-in son toplantısı idi. İstanbul sammitində 3 sənəd qəbul olundu. Birincisi – İstanbul xartiyası – dünyada sülhün və təhlükəsizliyin təmin olunması, ölkələrin ərazi bütövlüyünün qorunması, baş vermiş münaqişələrin sülh yolu ilə həll olunması və s. İkinci sənəd Avropada adi silahlar haqqında idi. Üçüncü sənəd isə siyasi bəyannamə idi. – 61,114,200,324.

**75. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ)** –1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 61,115,200,204.

**76. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 61.

**77. Qazaxıstan Respublikası** – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 61,69,70,124,200,217,219–220,231,280,283,290,324.

**78. Çeçenistan (İçkeriya) –** Rusiya Federasiyasında respublika. Paytaxtı Qroznı şəhəridir.

Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. – 67,68.

**79. Viktor Kalyujnı** (d.1947) – neftçi mühəndis, diplomat. 1999-2000-ci illərdə Rusiya Federasiyası yanacaq və energetika naziri, 2000-ci ilin avqustundan 2004-cü ilə qədər xarici işlər nazirinin birinci müavini və Prezidentin Xəzər dənizi statusunun həlli üzrə xüsusi nümayəndəsi işləmişdir. 2004-cü ilin sentyabrından Rusiya Federasiyasının Latviyada fövqəladə və səlahiyyətli səfiridir. – 70.

**80. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 72–77,130,137,200,204,351,381.

**81. «Türk petrolları»,** T ü r k i y ə p e t r o l l a r ı – 1954-cü ildə Türkiyənin neft və qaz sənayesinin inkişafı üçün yaradılmışdır. Karbohidrogen istehsalı və emalı sahəsində Türkiyənin ən böyük şirkətidir. TRAO hazırda MDB, Şimali Afrika və Orta Şərqdə fəaliyyət göstərir. Azərbaycana gələn ilk xarici neft şirkətlərindəndir. – 72-77,430.

**82. «AMOKO» –** dünyanın ən böyük neft və qaz istehsalçılarından biri. 1989-cu ildə yaradılmışdır. Müxtəlif ölkələrdə 42.000 işçisi var. Şirkət energetika, neft və qaz emalı, kimya və neft-kimya sahələrində də fəaliyyət göstərir. – 75.

**83. «Arko»** – neft şirkəti. 1865-ci ildə Filadelfiyada yaradılmışdır. Neft yataqlarının kəşfiyyatı, neft hasilatı və emalı, neft və neft məhsullarının satışı fəaliyyətinin əsas sahələridir. Şirkətin prezidenti və direktorlar şurasının sədri Mayk Boulindir; Bakıdakı nümayəndəliyinə Uoren Mak Fatter başçılıq edir. – 75.

**84. Klivlend** – ABŞ-da şəhər. Klivlend ABŞ-ın sənaye, maliyyə-ticarət və mədəni mərkəzlərindən biri kimi tanınır. – 77,92–97,101,102, 103,109,112,126,162.

**85. Braziliya,** Braziliya Federativ Respublikası – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon km$^2$, əhalisi 157,9 milyon nəfərdir. Braziliya fedarasiyası 26 ştata və federativ (paytaxta) mahala bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Braziliyadır. – 78.

**86. Kordoso Fernando** (d.1931) – sosiologiya elmləri doktoru. Braziliya Respublikasının 34-cü prezidenti (1995-2003). Braziliya Sosial-Demokrat partiyasının yaradıcılarından biri. 2001-ci ildən bu partiyanın fəxri sədridir. – 78.

**87. Koreya Xalq Demokratik Respublikası** – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradılmışdır. Sahəsi 121,2 min km$^2$, əhalisi 23,9 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Pxenyan, Kesson şəhərləri əyalət hüququndadır. Dövlət başçısı prezident, ali qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyandır. – 79.

**88. Kim Çen İr** (d.1941 və ya 1942) – Koreya Xalq Demokratik Respublikasının başçısı, Koreya Əmək Partiyasının Baş katibi, Koreya Xalq Ordusunun Baş komandanı, KXDR-in Dövlət müdafiə Komitəsinin

sədri, «dahi rəhbər» Kim İr Senin oğlu. Atasından fərqli olaraq «sevimli rəhbər» titulu var. Ona çox vaxt «sərkərdə» də deyirlər. – 79.

**89. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 5705 min nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə. – 80.

**90**. **İmaməli Rəhmonov,** İ m a m ə l i Ş ə r i f o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. 1992-ci ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. – 80.

**91. Valentina Matviyenko,** V a l e n t i n a İ v a n o v n a (d.1949) – Rusiya dövlət xadimi. 1998-2003-cü illərdə Rusiya Federasiyası Baş nazirinin birinci müavini, 2003-cü ildən Sankt Peterburqun qubernatoru. – 81.

**92. Çili,** Ç i l i R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub-qərbində dövlət. Sahəsi 756,9 min km$^2$, əhalisi 14,4 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı ikipalatalı parlament (Senat və Deputatlar Palatası). Paytaxtı Santyaqodur. – 82.

**93. Eskobar Rikardo** (d.1938) – Çilinin 33-cü prezidenti (2000-2006). 1990-cı illərdən bir sıra nazirliklərdə yüksək vəzifələrdə çalışmış, təhsil naziri, İctimai İşlər naziri olmuşdur. – 82.

**94. İrina Arxipova,** A r x i p o v a İ r i n a K o n s t a n t i n o v n a (d.1925) – rus müğənnisi. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Beynəlxalq Musiqi Xadimləri İttifaqının prezidenti. Dövlət və Lenin mükafatları laureatı. – 83.

**95. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1958,2 min km$^2$, əhalisi 91,1 milyon nəfərdir. Meksika federasiyası 31 ştatdan və Mərkəzi Federal Vilayətdən ibarətdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqres Deputatlar Palatası və Senat). Paytaxtı Mexikodur. – 84.

**96. Mali,** M a l i R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 1240 min km$^2$, əhalisi 9,2 milyon nəfərdir. İnzibati ərazisi 8 vilayətə və Bamako rayonuna bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclis. Paytaxtı Bamakodur. – 87.

**97. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Piyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 88,89.

**98. Fəhd Bin Əbdüləziz,** A l S ə u d (1922–2005) – 1982-2005-ci illərdə iki müqəddəs ocağın xidmətçisi və Səudiyyə Ərəbistanının kralı. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 88.

**99. «ANS» televiziyası** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. – 92-97.

**100. İlham Əliyev**, İ l h a m H e y d ə r o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, siyasi elmləri doktoru, professor. 2003-cü ildən Azərbaycan Respublikasının prezidenti. Prezident Heydər Əliyevin oğlu. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən birinci vitse-prezidenti. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi, İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin yüksək mükafatlarına layiq görülmüşdür.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi, İlham Əliyevin böyük xidmətləri var. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın digər rayonlarında dünya standartlarına cavab verən böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

İlham Əliyevin doğma Azərbaycanımızın inkişafında müstəsna xidmətləri var. Onun dövründə ölkə iqtisadiyyatı, qeyri neft sektoru sürətlə inkişaf etmiş, eyni zamanda ölkəyə qoyulan xarici investisiyalar xeyli artmışdır.

İlham Əliyev tərəfindən irəli sürülmüş «Regionların inkişafı haqqında dövlət proqramı»na əsasən respublikanın şəhər və rayonlarında onlarla sənaye müəssisəsi açılmış, yüz minlərlə iş yerləri yaradılmış və böyük abadlıq işləri görülür.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1–2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru», Rusiya və Ukraynanın ali ordenləri ilə təltif olunmuşdur. Bir çox xarici akademiyaların və universitetlərin fəxri üzvüdür. – 92,124,125,212,244,245,347,351.

**101. Dövlət Departamenti** – ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi. Dövlət katibi başçılıq edir, prezidentin və Konqresin hazırladığı xarici siyasi xətti həyata keçirir. – 93.

**102. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Səbail rayon partiya komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da təşkilat-partiya şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da ideologiya üzrə katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi və ictimai problemlərə, dövlət quruculuğuna aid bir çox kitab monoqrafiyaların və məqalələrin müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvü. – 94,95,96, 110,125,126,127–136,137,141,144,146, 147,149,301,358,360,415,418,419.

**103. Sergey İvanov** (d.1953) – Rusiya dövlət və hərbi xadimi. 1998-ci ildə Federal Təhlükəsizlik Xidməti İdarəsində direktor müavini, 1999-cu ildə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi, 2001-2006-cı illər isə Rusiyanın Müdafiə naziri olmuşdur. Hazırda Rusiya Federasiyasında Baş Nazirin müavinidir. – 94.

**104. Putin,** Vladimir Vladimiroviç (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975-97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998-99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında yenidən Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 94,99,100,112,114, 263,264,445.

**105. Murtuz Ələsgərov,** Murtuz Nəcəf oğlu (d.1928) – Azərbaycanın dövlət xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın əməkdar hüquqşünası. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1993-cü ildə Bakı Dövlət Universitetinin rektoru olub. 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 95,126,142–145.

**106. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 95,126,136–142,148,310,338, 382.

**107. İTAR – TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. – 98–100,162.

**108. Mixail Qusman, Mixail Solomonoviç** (d.1950) – jurnalist. İTAR-TASS informasiya agentliyi Baş direktorunun müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatı. – 98.

**109. Albert Qor** (d.1948) – Amerikanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1992–2000-ci illərdə ABŞ-ın ABŞ-ın vitse-prezidenti olmuşdur. Nobel mükafatı laureatı. – 100,102,126.

**110. Rusiya İctimai Televiziyası (ORT)** – Rusiya İctimai Televiziyası. MDB ölkələrinin 98 faizdən çox əhalisi üçün verilişlər aparır. Müxbir məntəqələri Rusiyada, MDB –də və dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. – 104–105,106,111.

**111. Pnevmoniya** – ağ ciyər iltihabı. – 105,109,126.

**112. Ayaz Mütəllibov,** A y a z N i y a z i o ğ l u (d.1938) – 1989–90-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990-92-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi, Azərbaycan Respublikasının prezidenti olmuşdur. Ayaz Mütəllibov işində ciddi səhvlərə yol vermiş, nəticədə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan azərbaycanlı əhalini çıxarmış və ərazini işğal etməyə nail olmuşlar. – 111.

**113. Elçibəy,** Ə l i y e v Ə b ü l f ə z Q ə d i r q u l u o ğ l u (1938–2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. 1992–ci ilin iyunundan 93-cü ilin iyununa qədər Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 114,250.

**114. Rəsul Quliyev,** R ə s u l B a y r a m o ğ l u (d.1947) – 1993–96-cı illərdə Milli Məclisin sədri olmuşdur. – 114,250.

**115. İsa Qəmbərov,** İ s a Y u n i s o ğ l u (d.1957) –1990-95-ci illlərdə Milli Məclisin deputatı, 1992-93-cü illərdə parlamentin sədri olmuşdur. 1992-ci ildən Müsavat partiyasının rəhbəridir. – 114,250.

**116. Nazim İmanov,** N a z i m M ü z ə f f ə r o ğ l u (d.1955) – iqtisadçı, iqtisad elmləri doktoru, professor. Azərbaycan Milli İstiqlal partiyasının sədr müavini, Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 114,250.

**117. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı – parlamentdən – bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 117,118,179.

**118. Rau Yohannes** (1931-2006) – Almaniya dövlət xadimi. 1999-2004-cü illərdə Almaniyanın federal prezidenti olmuşdur. Almaniya Sosial Demokrat Partiyasının liderlərindən biri. – 117.

**119. Şröder Ç e r h a r d** (d.1944) – Almaniyanın ictimai və siyasi xadimi. 1980-cı ildən Almaniya Bundestaqının üzvü, 1990–98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir-prezidenti, 2000–06-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 118.

**120. Qvineya,** Q v i n e y a R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 246 min km$^2$, əhalisi 6,9 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Konakri. – 119.

**121. Lesoto,** L e s o t o K r a l l ı ğ ı – Cənubi Afrikada dövlət. Sahəsi 30,4 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 10 mahala bölünür. Lesoto konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlament (Mili Məclis və Senat). Paytaxtı Maserudur. – 120.

**122. Letsiye III** (d.1963) – 1997-ci ildən Lesoto kralı. Kral təntənəli mərasimlərdə iştirak edir, boş vaxtlarında isə kənd təsərrüfatı ilə məşğul olur. – 120.

**123. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı – Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 121,162.

**124. Tszyan Tszemin** (d.1926) – Çinin partiya və dövlət xadimi. 1989-cu ildən Çin KP MK-nın Baş katibi, 1993–2005-ci illər Çin Xalq Respublikasının sədri olmuşdur. – 121.

**125. Nigeriya,** N i g e r i y a  F e d e r a t i v  R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 103,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abusadır. –122.

**126. Əbülfəs Qarayev,** Ə b ü l f ə s  M ü r s ə l  o ğ l u (d.1956) – fəlsəfə elmləri namizədi. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Respublika Olimpiya Komitəsinin birinci vitse–prezidentidir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmişdir. – 124,210.

**127. Fatma Abdullazadə**, F a t m a  H ü s e y n  q ı z ı (d.1948) – fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı humanitar siyasət şöbəsinin müdiri. 1995–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 125.

**128. Rəfael Allahverdiyev,** R ə f a e l  X a n ə l i  o ğ l u (1945-2009) – 1993–2001-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. 1995–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. – 125,145–146.

**129. Namiq Abdullayev** (d.1971) – sərbəst güləş ustası. SSRİ və Azərbaycanın Əməkdar idman ustası. 1994–95-ci illərdə Avropa çempionu, 1996-cı il Atlanta Olimpiya Oyunlarında gümüş, 2000-ci ildə Sidney Olimpiya Oyunlarında isə qızıl medal qazanmışdır. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 126,208.

**130. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 130,311,315.

**131. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 130,137,311,312.

**132. TASİS** – 1991-ci ildə Avropa Şurası tərəfindən MDB dövlətlərinə texniki cəhətdən kömək etmək üçün yaradılan proqram. Proqram 2 hissədən – hər bir ölkəyə, o cümlədən Azərbaycana, region ölkələrinə texniki köməkdən ibarətdir.

Azərbaycan Respublikası TASİS proqramına 1992-ci ildə daxil olmuşdur. – 130,137,311,315.

**133. İNOQEYT** – neft və qazın Avropaya ixracı proqramı. – 130.

**134. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatında birləşən 180 min üzvü var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 131,145,351.

**135. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər

Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 132,133, 134,144,269–278,189,395,396,398,399,406,431,449.

**136. Avropa Şurasının Parlament Assambleyası** (AŞ PA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞ PA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 134,269–278,386–399.

**137. Beynəlxalq Amnistiya Təşkilatı** – beynəlxalq hökumətlərarası təşkilat. Məqsədi insan haqlarının qorunması, diskriminasiyaya yol verməmək, vicdan və söz azadlığına toxunmamaq, fiziki və psixoloji təsir göstərməməkdir. Əsası 1961-ci ildə Böyük Britaniyada qoyulmuşdur. Mənzil-qərargahı Londondadır. Gördüyü işlərə görə Beynəlxalq Amnistiya Təşkilatı Nobel mükafatına layiq görülmüşdür. – 134.

**138. Fikrət Məmmədov,** F i k r ə t F ə r r u x o ğ l u (d.1955) – Azərbaycan Respublikasının Ədliyə naziri, III dərəcəli Dövlət ədliyyə müşaviri. Respublikada aparılan hüquqi islahatlarda, qanunvericiliyin təkmilləşdirilməsində fəal iştirak edir. – 135.

**139. Fuad Ələsgərov,** F u a d M u r t u z o ğ l u (d.1959) – hüquqşünas. 1994-cü ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiridir. – 135.

**140. Əli Həsənov,** Ə l i Ş a m i l o ğ l u (d.1948) – mühəndis –mexanik. 1998-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin sədridir. 1996–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 143.

**141. «Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 143.

**142. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul Zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 144,421–431.

**143. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4526 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə və 40 rayona bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı parlamentdır. Paytaxtı Bişkek. – 151, 290.

**144. Əsgər Akayev** (d.1944) – Qırğızıstanın dövlət xadimi. 1989–90-cı illərdə Qırğızıstan EA-nın prezidenti, 1990–2005-ci illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. – 151,303.

**145. YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 151.

**146. Xəyyam Mirzəzadə,** X ə y y a m H a d i o ğ l u (d.1935) – bəstəkar. Azərbaycan Respublikasının xalq artisti. Bakı Musiqi Akademiyasının professoru, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı. Müasir kompozisiya texnikasının milli musiqi ilə üzvi əlaqəsinə əsaslanan Mirzəzadənin yaradıcılığı dinamizmi ilə fərqlənir. X.Miirzəzadə Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 152–153.

**147. Qara Qarayev,** Q a r a Ə b u l f ə z o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Qarayevin müsiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı idi. – 152.

**148. Bakı Musiqi Akademiyası** – Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyası 1921-ci ildə yaradılıb. Bakı Musiqi Akademiyası Azərbaycanda ilk musiqi tədris müəssisəsidir. Buranın 4 fakültəsi var. Təhsil iki pilləlidir - bakalavr və magistratura. Bakı Musiqi Akademiyasının tərkibində Opera studiyası və musiqi məktəb studiyası fəaliyyət göstərir. – 152.

**149. Vatikan** – Avropada Papa dövləti – şəhər. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma papasıdır. – 154.

**150. İohann Pavel II,** d ü n y ə v i  a d ı  K a r o l  V o y t u l a  (d.1920-2007) – ilahiyyat elmləri doktoru. 1523-cü ildən bəri qeyri-italyan mənşəli (polyak) ilk Roma papasıdır. Sülh və beynəlxalq gərginliyin zəifləndilməsində böyük xidmətləri var. II İoann Pavel 1978-ci ildə Roma papası seçilmişdirdır. Dünyanın bir çox ölkəsində, o cümlədən prezident Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Azərbaycanda rəsmi səfərdə olmuşdur. – 154.

**151. Ekvatorial Qvineya,** E k v a t o r i a l  Q v i n e y a  R e s p u b l i k a s ı – Ekvatorial Afrikada Atlantik okeanı sahilində dövlət. Sahəsi 28,1 min km$^2$, əhalisi 406 min nəfərdir. İnzibati ərazisi 7 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Xalq Nümayəndələr Palatasıdır. Paytaxtı Malabodur. – 155.

**152. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 39,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı korteslərdir (ikipalatаı parlament). Afrikanın şimal sahilindəki Seuta və Melilya şəhər rayonları da İspaniyanın mülküdür. Paytaxtı Madriddir. – 158,159,161,391.

**153. Xuan Karlos I** (d.1938) – İspaniya kralı. İtaliyada anadan olmuşdur. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. – 158.

**154. Aznar Xose Maria** (d.1953) – 1996-2004-cü illərdə İspaniyanın Baş naziri olmuşdur. 2008-ci ildən Avropa Şurasında Tolerontlıq və beynəlxalq təşkilatların monitorinq zamanı Avropada Tolerantlığa hörmət komissiyasının üzvüdür. – 159.

**155. Rostropoviç** Mstislav Leopoldoviç (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violençelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ xalq artisti. Bakı Musiqi Akademiyasının fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 160–164, 165–166,170.

**156. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri olmuşdur. 1974–76-cı illərdə qollistlərin Respublikanın Müdafiəsi naminə Demokratik İttifaqı Partiyasının Baş katibi, 1976-cı ildən Respublikanın Müdafiəsi naminə Birlik Partiyasının sədridir. 1995-ci ildən Fransa Respublikasının prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 160,180.

**157. Dvorjak Antonin** (1841-1904) – çex bəstəkarı. Çex klassik musiqisinin banilərindən biri. Dvorjaka «Himn» kantatası eləcədə slavyan rəqsləri şöhrət qazandırmışdır. Simfoniyaları və instrumental əsərləri dünya musiqi mədəniyyətinin görkəmli nümunələrindəndir. – 161.

**158. Tofiq Quliyev,** T o f i q  Ə l ə k b ə r  o ğ l u (1917-2000) – görkəmli Azərbaycan bəstəkarı. Azərbaycan Respublikasının xalq artisti. Tofiq Quliyev Azərbaycan estrada musiqisinin yaradıcılarındandır. Onun lirik mahnıları sadə, aydın və milli koloritlidir. 1973 ildən ömrünün axırınadək Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 161.

**159. Zərifə** Əliyeva, Z ə r i f ə  Ə z i z  q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, prezident Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anası. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə Rusiya Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 161.

**160. Yelizaveta II** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqin ölümündən sonra taxt-taca sahib olmuşdur. – 161.

**161. Filipp** (d.1921) – Böyük Britaniya kraliçası II Yelizavetanın əri, 1947-ci ildən Edinburq hersoqu. – 161.

**162. Marqrete II** (d.1940) – 1972-ci ildən Danimarkanın kraliçası. Kral IX Frederikin qızıdır. – 161.

**163. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının xalq artisti. 1988–2005-ci illər Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiyada fövqəladə və səlahiyyətli səfiridir. – 163.

**164. Çaykovski,** Pyotr İliç (1840-1893) – böyük rus bəstəkarı. Çaykovski musiqili dramaturgiyada zərif psixoloq, ustad simfoniyaçıdır. O musiqidə insanın daxili aləmini açmış, operada, baletdə, simfoniyada məşhur obrazlar yaratmışdır. Onun «Füsunkar qadın», «Yevgeni Onegin», «Mazepa» «İolanta» operaları, «Yatmış gözəl», «Qu gölü», «Şelkunçik» baletləri və bir sıra simfoniyaları onu dünyada məşhurlaşdırmışdır. – 166.

**165. «Boinq»** – Amerika korporasiyası. Dünyanın ən böyük aviasiya, kosmos və hərbi texnika istehsalçılarından biri. Bu korporasiyanın tərkibinə bir sıra nəhəng korporasiyalar daxildir. Korporasiyanın əsası 1916-cı ildə mühəndis Corc Konrod Vestervelt tərəfindən qoyulmuşdur. Mənzil qərargahı Çikaqodadır (İllinoys ştatı, ABŞ).

Kompaniya geniş həcmli mülki və hərbi aviasiya texnikasının, həmçinin ən böyük airobusların istehsalçısıdır. Bundan əlavə «Boinq» hərb üçün geniş masştablı aviasiya-kosmos texnikası buraxır. Geniş həcmli kosmos proqramları həyata keçirir. Dünyanın 67 ölkəsində «Boinq» zavodu var. Dünyanın 100 ölkəsinin 5200 tədarükçüsü ilə əməkdaşlıq edir. – 169–173.

**166. Polşa,** Polşa Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min $km^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 174.

**167. Aleksandr Kvasnevski** (d.1954) – Polşanın siyasi və dövlət xadimi. 1991–95-ci illərdə Polşa Seyminin deputatı olmuşdur. 1995–2005-ci illərdə Polşa Respublikasının prezidenti olmuşdur. – 174.

**168. Aleksandr Veşnyakov** (d.1952) – 1999-2007-ci illərdə Rusiya Federasiyasında Mərkəzi Seçki Komissiyasının sədri olmuşdur. Hazırda Rusiya Federasiyasının Latviyada Fövqəladə və Səlahiyyətli səfiridir. – 175–183.

**169. Trotski Lev Davıdoviç** (əsl familiyası Bronşteyn) – Rusiyanın siyasi və dövlət xadimi. 1905-07-ci illər inqilabında fəal iştirak etmişdir. 1917-ci il Oktyabr çevrilişindən sonra bir çox mühüm vəzifələrdə çalışmışdır. 1929-cu ildə SSRİ-dən sürgün edildi. Dördüncü İnternasionalın (1938) yaradıcılarından biri olmuşdur. 1940-cı ildə Meksikada qətlə yetirilmişdir. – 178.

**170. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 186.

**171. «Elf Agiten»** – Fransada ən böyük neft korporasiyası. 80 ölkədə fəaliyyət göstərən 833 şirkətdən ibarətdir. Karbohidrogenlərin kəşfiyyatı, hasilatı və satışı, kimya və neft-kimya sənayesi, farmokologiya və kosmetologiya sahələri şirkətin əsas fəaliyyət istiqamətləridir. Elmi-tədqiqat fəaliyyətində 8 min elmi işçi çalışır. – 186.

**172. Koreya,** Koreya Respublikası – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min $km^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və 6 mərkəzi tabe şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 195.

**173. Kim De Çynn** (d.1926) – 1997–2003-cü illərdə Koreyanın prezidenti. Milli Konqres Yeni Siyasətdə partiyasının lideri. 2000-ci ildə Kim Day Çunqa Cənubi Koreyada və Şərqi Asiyada demokratiya və insan hüquqlarının müdafiəçisi, həmçinin Şimali Koreya ilə sülh və barışığa görə Nobel mükafatı verilmişdir. – 195.

**174. Macarıstan,** M a c a r ı s t a n   R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Dövdət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 196,393.

**175. Ferents Madl** (d.1931) – Macarıstan siyasi və dövlət xadimi. Macarıstan Akademiyasının akademiki. 2000–2005-ci illərdə Macarıstanın prezidenti olmuşdur. – 196.

**176. Zambiya,** Z a m b i y a   R e s p u b l i k a s ı – Mərkəzi Afrikada dövlət. Sahəsi 752,6 min km$^2$, əhalisi 9,7 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı parlament (prezident və birpalatalı Milli Məclis). Paytaxtı Lusakadır. – 197.

**177. Devid Vuqvord** (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «BP–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Ərəb əmirliklərində, Norveç, Rusiya və ABŞ-da «BP» şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail və Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 203,204.

**178. Ecevit Bülənd** (1925–2006) – Türkiyənin siyasi və dövlət xadimi. 1974,1978–79 və 1997–2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri olmuşdur. 1972–80-ci illərdə Respublika Xalq Partiyasının, 1978–88-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi idi. – 204, 326.

**179. Zemfira Meftahəddinova** (d.1963) – stend atıcısı. 1986-88,1990, 1993,1997-ci illərdə Avropa çempionu, 1995-ci ildə dünya çempionu, 2000-ci ildə Sidney Olimpiya oyunlarının çempionu, Qahirədə XXI əsrin ilk dünya çempionatında birinci yeri tutmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 208.

**180. Vüqar Ələkbərov** (d.1981) – idman ustası, boksçu. 2000-ci ildə Rumıniyada keçirilmiş «Qızıl qurşaq» boks turnirinin qalibi və Sidney Olimpiya Oyunlarında 76 kq çəkidə 3-cü yerin (bürünc medal) qalibi. – 208,237.

**181. 1994-cü il oktyabr hadisələri** –oktyabrın 3-də Gəncə və Qazaxda, həmçinin Bakıda Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən dövlət çevrilişi cəhdi nəzərdə tutulur. Həmin gün Bakıda fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etmişdi. Gecə olmasına baxmayaraq Bakı və ona yaxın yerlərdən yüz minlərlə insan Prezident Sarayı qarşısına toplaşaraq milli və vətəndaşlıq həmrəyliyi nümayiş etdirərək Heydər Əliyevin siyasətini dəstəkləmişlər. – 212.

**182. 1995-ci il mart hadisələri** – martın 12–13-də Qazax və Agstafa, martın 16–17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvünün silahlı çıxışı nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu. – 212.

**183. Xalq Cəbhəsi,** A z ə r b a y c a n   X a l q   C ə b h ə s i (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 215,216,244.

**184. Müsavat partiyası** – 1911-ci ildə Bakıda yaranıb. 1920-ci ildə Bakıda fəaliyyəti qadağan edilib. 1992-ci ildən yenidən fəaliyyətə başlayıb. – 215.

**185. 1990-cı ilin 20 yanvarı** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 215,216.

**186. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 km$^2$, əhalisi 58 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 216.

**187. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 219–220,232.

**188. Türküstan** – Qazaxıstanda şəhər. Əhalisi 73 min nəfər. Qazaxıstanın ən qədim şəhərlərindəndir. Türküstanda XIV əsrin sonuna aid Xoca Əhməd Yasəvi türbə kompleksi qalmışdır. Kompleksə tağlı darvazası, dəbdəbəli salonu olan əzəmətli bina, məqbərə, məscid, kitabxana və s. daxildir. Kompleksin günbəzlə, fasadları kufi yazılarla, interyerləri kaşi, stalaktit və ornamental rəsmlərlə bəzədilmişdir. – 219–220.

**189. Xoca Əhməd Yəsəvi** (1105-1166) – özbək şairi. Cığatay dilində süfi şeirinin görkəmli nümayəndəsi. – 219.

**190. Türkiyə Böyük Millət Məclisi (TBMM)** – Türkiyənin ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. – 223,421–431.

**191. «ABB Alstom Pover»** – bu ABB ilə Alstom enerji kompaniyalarının 50-50-yə prinsipi əsasında yaradılmış birgə müəssisədir.

«ABB Alstom Pover» kompaniyasının istehsal etdikləri pər turbinləri demək olar ki, 640 QBT təşkil edir ki, bununda gücünü bütün stansiyalarda 20 ekvivalent təşkil edir. Bu stansiyalar bütün dünyada işləyir. 100 ilə yaxındır ki, bu müəssisə pər turbinlərini hazırlayır, qürur və işlədir. Bu müəssisə böyük təcrübəyə və biliyə malikdir. – 224–230.

**192. Avstriya,** Avstriya Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Milli Şura və Federal Şura) parlamentdir. Paytaxtı Vyanadır. – 231.

**193. Tomas Klestil** (d.1932) – Avstriyanın prezidenti. 1987–92-ci illərdə XİN-nin Baş katibi olmuşdur. – 231.

**194. Türkmənistan,** Türkmənistan Respublikası – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 488,1 min km$^2$, əhalisi 4574 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 233,430.

**195. Saparmurad Niyazov,** Saparmurad Ata oğlu (1940–2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi, 1990-cı ildən Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 233.

**196. Çexiya,** Çexiya Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 234.

**197. Vatslav Havel** (d.1936) – Çexiyanın görkəmli siyasi və dövlət xadimi, dramaturq. Kommunist rejimi zamanı ölkədə hüquq müdafiəçilərinin liderlərindən biri olmuşdur. Dəfələrlə həbs edilmişdir. 1989-cu ildən «Vətəndaş forumu» hərəkatının başçısı idi. 1989-92-ci illərdə Çexoslovakiyanın, 1993-cü ildən isə Çexiyanın prezidentidir. – 234.

**198. YUNİSEF,** BMT-nin Uşaq Fondu – 1946-cı ildə təsis edilmişdir (1953-cü ildən indiki adı ilə adlanır). BMT-nin müəssisəsi olub uşaqlar üçün proqramlar üzrə fəaliyyəti əlaqələndirir, başlıca olaraq inkişaf etməkdə olan ölkələrə yardım göstərir. Maliyyə təsisatlarının mənbələrini hökumtlərin könüllü üzvlük haqları, ictimai təşkilatların, xüsusi şəxslərin və başqalarının ianələri təşkil edir. Fondun rəhbər orqanında – İdarə heyətində 41 dövlət təmsil olunur. Katibliyi Nyu-Yorkda, şöbələri Avropa üzrə Cenevrədə, regionlar üzrə bir sıra inkişaf etməkdə olan ölkələrdə yerləşir. Nobel sülh mükafatı laureatıdır. – 235–241.

**199. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç,

Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 250,305.

**200. Həzrəti Peyğımbər Salavatullahın merac günü** – Məhəmməd salavatullahın Büraq adlı əfsanəvi qanadlı heyvanın belində Məkkədən Qüdsə, oradan da Allahın göydəki məskəninə ecazkar səyahəti. Həmin hadisələrin şərəfinə qəməri təqvimi ilə rəcəb ayının 27-də dini bayram kimi qeyd edilir. Son illərdə merac tez-tez insanın kosmosa yiyələnməsinin mümkünlüyünü göstərən hadisə kimi təsvir edilir. – 252.

**201. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 256.

**202. Vasif Talıbov,** V a s i f Y u s i f o ğ l u (d.1960) – dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, 1995-ci ilin dekabrından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 258,259.

**203. Xərrazi Seyid Kamal** (d.1945) – İranın siyasi və dövlət xadimi, pedaqoji elmləri doktoru, professor. 1998–2005-ci illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. Hazırda İran İslam Respublikasının Ali Məsləhət Şurasının üzvü və Strateji Tədqiqatlar Mərkəzinin rəhbəridir. – 260.

**204. Vilayət Quliyev,** V i l a y ə t M u x t a r o ğ l u (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1996–2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999–2004-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiridir. – 265.

**205. Yeqor Stroyev,** Stroyev Yeqor Semyonoviç (d.1937) – 1996-2001-ci illərdə Rusiya Federasiya Şurasının sədri olmuşdur. – 265,266,442.

**206. Lujkov Yuri Mixayloviç** (d.1936) – Rusiyanın istimai və dövlət xadimi. 1992-ci ildən Moskva şəhərinin meridir. Moskva şəhəri ilə Azərbaycan arasında iqtisadi və mədəni əlaqələrin güclənməsi və möhkəmləndirilməsində yaxından iştirak edir. – 265,266,267.

**207. Qorbaçov,** M i x a i l S e r g e y e v i ç (d.1931) – 1985–91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990–91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin təşkilatçısı və günahkarıdır. – 265,266.

**208. Qromıko Andrey Andreyeviç** (1909-1989) – Rusiyanın dövlət və siyasi xadimi, diplomat. Müxtəlif illərdə SSRİ-nin ABŞ-da səfiri, SSRİ Xarici İşlər nazirinin müavini və eyni zamanda SSRİ-nin BMT-nin Təhlükəsizlik Şurasında daimi nümayəndəsi, Böyük Britaniyada səfir. SSRİ xarici işlər naziri, SSRİ Ali Sovetinin sədri vəzifələrində çalışmışdır. – 266.

**209. Aşıq Kamandar,** K a m a n d a r Ə f ə n d i y e v (1929-2000) – Gürcüstanda yaşamış Azərbaycan aşığı, «Borçalı laylası», «Bənövşə», «Mən ellər aşığı xan Kamandaram» kimi kitabları nəşr olunmuşdur. – 268.

**210. Oktyabr inqilabı,** B ö y ü k O k t y a b r s o s i a l i s t i n q i l ab ı – müasir tarixşünaslıqda Oktyabr çevrilişi adlanır. 1917-ci il oktyabrın 24-dən 25-nə (noyabrın 6-dan 7-nə) keçən gecə V.İ.Leninin başçılığı ilə bolşeviklər silahlı üsyan edərək Müvəqqəti hökuməti devirdilər. Bunun nəticəsində, V.İ.Lenin başda olmaqla, Rusiyada sovet hökuməti – Xalq Komissarları Soveti yarandı. – 270.

**211. Totalitar rejim** – dövlətin bütün cəmiyyət üzərində tam nəzarəti. Totalitar rejim bütün leqal təşkilatların milliləşdirilməsi, hakimiyyətin diskresion səlahiyyəti, demokratik hüquqların və azadlıqların ləğvi, ictimai həyatın hərbiləşdirilməsi, mütərəqqi qüvvələrə divan tutulması ilə səciyyələnir. Totalitar rejim XX əsrdə Almaniyanın və İtaliyanın əsas ideologiyası olmuşdur. Keçən əsrdə SSRİ-də də totalitar rejim hökm sürmüşdür. – 273,275.

**212.Mühafizəkarlar partiyası** – İngiltərədə iki aparıcı partiyadan biri. 1867-ci ildə topilər partiyası əsasında yaradılmışdır. İkinci dünya müharibəsindən sonra 1951-64,1970-74,1979-97-ci illərdə hakimiyyətdə olmuşlar. – 274.

**213. Almaniya Sosialist Partiyası,** bax: Almaniya Vahid Sosialist Partiyası.

**214. Almaniya Vahid Sosialist Partiyası** – 1946-cı ildə Almaniyada Kommunist Partiyası ilə Sosial Demokrat Partiyasının birləşməsi nəticəsində yaranmışdı. 1990-cı idən Sosialist–Dekmokrat Partiyası adlanır. – 274.

**215 Liberal –Demokrat Partiyası –** Yaponiyada siyasi partiya. 1955-ci ildə yaradılmışdır. – 274.

**216 Xristian Demokrat İttifaqı** – Almaniyada siyasi partiya. 1950-ci ildə yaradılmışdır. Bundestaqda Xristian Sosial İttifaqı ilə birlikdə vahid fraksiyada çıxış edir. – 274.

**217. Svetlana Qasımova,** S v e t l a n a Ç i n g i z q ı z ı (d.1938-2009) – riyaziyyatçı. Müxtəlif illərdə məsul vəzifələrdə çalışmışdır. 2000-ci ildən 2009-cu ilə qədər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiya sədrinin müavini olmuşdur. – 295.

**218. Raykin Arkadi İsaakoviç** (1911-1987) – rus estrada artisti. SSRİ xal artisti, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı. 1939-cu ildən Leninqrad Miniatür Teatrının əvvəlcə artisti, sonradan bədii rəhbəri və quruluşçu rejissoru olmuşdur. – 296.

**219. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 310–318,389.

**220. Kaspar Villiger** (d.1941) – İsveçrə Baş naziri. 1995-2002-ci illərdə İsveçrənin prezidenti olmuşdur. – 310–318.

**221. Milli Bank,** Azərbaycan Dövlət Milli Bankı – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. – 315.

**222. «Mərmərə» qrupu» Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 319.

**223. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881-1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk Prezidenti (1923–38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 320,325.

**224. «Həsrət» körpüsü,** «Ü m i d» k ö r p ü s ü, – Araz çayı üzərində körpü (uz.286 metr). Türkiyə ilə Azərbaycan arasında sərhəddə (Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələri) iki qardaş dövlət və ölkəni birləşdirir. 90-cı illərin əvvəllərində Naxçıvan MR-nin keçirdiyi iqtisadi çətinliklərin, xüsusilə nəqliyyat blokadasının ləğvində körpünün müstəsna rolu olmuşdur. – 323.

**225. Beynəlxalq Atatürk Sülh mükafatı** – Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün «Yurdda sülh, cahanda sülh» prinsiplərinə uyğun olaraq regionda, beynəlxalq aləmdə və ölkələrarası münasibətlərdə sülh, dostluq, anlaşma və xoş məramlı əməkdaşlıq yaradılmasına xidmət edən görkəmli şəxsiyyətlərə verilir. Mükafat 1986-cı ildə təsis edilmişdir. – 326.

**226. «Niçimen»** – yapon şirkəti. Azərbaycanda 1993-cü ildən fəaliyyət göstərir və 1997-ci ildə Bakıda öz nümayəndəliyini açmışdır. Şirkət, əsasən qara metallurgiya, yanacaq, elektrotexnika, kimya və yüngül sənaye sahələri ilə məşğuldur. – 336.

**227. Əlcəzair,** Əlcəzair Xalq Demokratik Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 2381,7 min km$^2$, əhalisi 29 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 352.

**228. Əbdüləziz Buteflik** – 1999-cu ildən Əlcəzair prezidenti. – 352.

**229. Məzahir Pənahov,** Məzahir Məhəmməd oğlu (d.1951) – fizik. Fizika-riyaziyyat elmləri doktoru, professor. 2000-ci ildən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədridir. – 353–363,433.

**230. İqbal Babayev,** İ q b a l A l ı c a n o ğ l u (d.1964) – mühəndis, texnika elmləri doktoru, gömrük xidməti polkovniki. 2000-2008-ci illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası nəzdində «Seçkilər» İnformasiya Mərkəzinin direktoru olmuşdur. Hazırda Azərbaycan Respublikası Gömrük Komitəsinin Statistika və İnformasiya Texnologiyaları İdarəsinin rəisidir. – 353–363.

**231. Məleykə Abbaszadə,** M ə l e y k ə M e h d i q ı z ı (d.1953) – riyaziyyatçı. 2000-ci ildən Tələbə Qəbulu Dövlət Komissiyasının sədridir. – 358.

**232. Bakı Sos Uşaq Mərkəzi** – Bakının Xətai rayonu ərazisində Avstriyanın «Sos Kinderdorf İnternəşnl» təşkilatının təşəbbüsü ilə yaradılmışdır. 1997-ci ildə «Sos Kinderdorf İnternəşnl» təşkilatı ilə Azərbaycan Respublikası hökuməti arasında əldə olunmuş razılaşmaya əsasən ilk layihə olan «Bakı Sos Uşaq Kəndi»nin tikintisi üçün 4,5 hektar ayrılmış və əlaqələndirmə işləri Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinə tapşırılmışdı. Assosiasiyanın sədri Sevil Əliyevadır. – 364–371.

**233. «Sos Kinderdorf İnternəşnl» təşkilatı** – 1949-cu ildə Avstriyanın İmst şəhərində görkəmli humanist pedaqoq Herman Qmayner tərəfindən yaradılmışdır. – 364–371,384.

**234. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur messenat, maarifpərvər, «millətin başçısı, atası», Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə, kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin azərbaycancaya tərcümələri çap etdirir. 1905–1l-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» borusunu çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 373.

**235. Mirzəyev Ramiz** (1954-2007) –mühəndis. «Azərqaz» sistemində müxtəlif rəhbər vəzifələrdə çalışmışdır. 1997-2007-ci illərdə «Azərneftyağ» İstehsalat Birliyinin Baş direktoru olmuşdur. – 380.

**236. Natiq Əliyev,** N a t i q A g a ə l i o ğ l u (d.1947) – 1993-2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 381.

**237. Zəhra Quliyeva,** Z ə h r a T a h i r q ı z ı (1923–2005) – oftalmoloq, tibb elmləri doktoru, professor. Tədqiqatı, əsasən, traxoma, gözün refraksiyası, rəng duyğusu və ona müxtəlif amillərin təsirinə həsr olunmuşdur. Quliyeva 1972–1983-cü illərdə Azərbaycan Dövlət Tibb Universitetinin rektoru olmuşdur. SSRİ Ali Sovetinin deputatı olmuşdur. Əməkdar elm xadimi adına layiq görülmüşdür. 1998-ci ildən Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsində çalışmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 397.

**238. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Mənzil–qərargahı Kopenhagendədir. Assambleyanın daimi əməkdaşları 14 nəfərdir. – 400–410,427.

**239. D ü n y a S ə h i y y ə T ə ş k i l a t ı** (ÜST)–BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 408.

**240. Şimali Kipr Türk Cümhuriyyəti** – 1974-cü ildə Yunanıstanda hakimiyytə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə-Kipr administrasıyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk dövləti (ŞKTR) – Kıbrıs elan etdi. – 412.

**241. İhsan Doğramacı** (d.1915) – türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, elmlər doktoru, professor. 1963–65-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun direktoru, 1977–93-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə fəxri prezidenti, 1968–73-cü illərdə Pediatorların Tibb Assosiasiyasının prezidentidir. 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvüdür. İki dəfə Bilkənd Universitetinin sədri və rektoru olmuş, 1975-ci ildən isə universitetin fəxri rektorudur. İ.Doğramacı Azərbaycan MEA-nın fəxri üzvü, Azərbaycan Dövlət Tibb Universitetinin fəxri doktorudur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 423.

**242. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 431.

**243. D ö v l ə t D u m a s ı** – 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 438,445.

**244. Federasiya Şurası** – 1990-cı il RusiyaFederasiyası Konstitusiyasına əsasən yaradılan qanunvericisi orqanın yuxarı palatası. – 438.

**245. Lukaşenko Aleksandr Qriqoryeviç** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 446.

## Şəxsi adlar göstəricisi


| | |
|---|---|
| **Abbaszadə Məleykə** | – 358 |
| **Abdullayev Namiq** | – 126,208 |
| **Abdullayeva Zöhrə** | – 367 |
| **Abraham** | – 26 |
| **Ağayev Mirşahin** | – 92-97 |
| **Akayev Əsgər** | – 151,303 |
| **Akira Vatari** | – 335–339 |
| **Al Saud Abdulla** | – 89 |
| **Al Saud Əbdüləziz** | – 88 |
| **Allahverdiyev Rəfael** | – 125,145–146 |
| **Annan Kofi** | – 5 |
| **Arxipova İrina** | – 83 |
| **Atakol Kənan** | – 412 |
| **Atatürk M K** | – 320,325 |
| **Aznar Xose** | – 159 |
| **Babayev İqbal** | – 353–363 |
| **Barak Ehud** | – 10,23,27,28,29 |
| **Barsoni Andreas** | – 393,394 |
| **Ben Laden** | – 30,68 |
| **Berger Sendi** | – 26 |
| **Beyker** | – 26 |
| **Bikdeli Əlirza** | – 252–262 |
| **Bjezinski Yan** | – 304–309 |
| **Bjezinski Zbiqnev** | – 26,109,115,179,305,306,307,334 |
| **Bomel Jak** | – 398,399 |
| **Braunbək Sem** | –25,26,36–40,113 |
| **Brutland** | – 408 |
| **Buş Corc Herbert** | – 41–47,108,110 |
| **Buş Corc** | – 42,111 |
| **Buş Nil** | – 42 |
| **Buteflik Əbdüləziz** | – 352 |
| **Cerodyan** | – 30,31 |
| **Cons Cenni** | – 396 |
| **Conson Rassel** | – 144 |
| **Cohəri Nəcməddin** | – 323 |
| **Çaykovski** | – 166 |
| **Çətinqaya Necati** | – 421–431 |
| **Çuluba Frederik** | – 197 |
| **Dan Maryaşin** | – 30–31 |
| **De Leon Ernesto** | – 84 |
| **De Vel Gi** | – 133,134 |
| **Devis Terri** | – 143 |
| **Dəmirəl Süleyman** | – 45,112,163,283,322,323,324,325 |
| **Doğramacı İhsan** | – 423 |
| **Doul Pop** | – 26,113 |
| **Dvoryak Antonin** | – 161 |
| **Ecevit Bülənd** | – 204,326 |
| **Elçibəy Əbülfəz** | – 114,250 |
| **Eskobar Rikkardo** | – 82 |
| **Əlmasi Həsən** | – 432–437 |
| **Ələkbərov Vüqar** | – 208,237 |
| **Ələsgərov Fuad** | – 135 |

**Ələsgərov Murtuz** – 95,126,142–145
**Əliyev Fərhad** – 374
**Əliyev İlham** – 92,124,125,212,244,245,347,351
**Əliyev Natiq** – 381
**Əliyeva Sevil** – 21
**Əliyeva Zərifə** – 161
**Ferrero–Valdner Benita** – 400
**Filipp** – 161
**Fyodorov Viktor** – 376
**Hadçison Key Beli** – 72–77
**Halonen Tarya** –404
**Havel Vatslav** – 234
**Helms** – 305,307,308,309
**Həmidov İsgəndər** – 244
**Həsənov Əli** – 143
**Hilton Cenifer** – 400–410
**Xərrazi Kamal** – 260
**Xatəmi Məhəmməd** – 35,256,257,260,436
**Xirose** – 337
**Xoperiya Xatuna** – 438–449
**Xuan Karlos I** – 158
**İqlberger Lari** – 43,44,46
**İmanov Müslüm** – 227,229
**İmanov Nazim** – 114,250
**İohann Pavel II** – 154
**İvanov Sergey** – 94
**İzgi Ömər** – 223,422
**Kalyujnı Viktor** – 70
**Kamandar** – 268
**Kasan Gillermo** – 391,392
**Kastel Pyer** – 184–193
**Kavano Kerri** – 18,327–334
**Kərimov İslam** – 30
**Kim De Çyunn** – 195
**Kim Çen İr** – 79
**Kinq Piter** – 25
**Kinli Brunson** – 340–343
**Kissincer Henri** – 19
**Klestil Tomas** – 231
**Klerfayt Corc** – 134,399
**Klinton Bill** – 5,16,21,25,34,56,73,100,107,113, 114,126,194,200,250,273,280,281, 282,283,324,328,331,332
**Kokkonen Paula** – 400-410
**Konari Əlfa Ömər** – 87
**Konte Lansana** – 119
**Kordoso Fernando** – 78
**Koştinitsa Boislav** – 167
**Kotti Flavio** – 313,314
**Köçəryan Robert** – 19,20,21,31,32,55,111,114,313, 395
**Kuçma Leonid** – 6–10,418
**Kvasnevski Aleksandr** – 174
**Qarayev Əbülfəs** – 124,210
**Qarayev Qara** – 152
**Qasımova Svetlana** – 295
**Qəmbərov İsa** – 114,250
**Qəzayi Əhəd** – 260
**Qreem** – 72–77
**Qor Albert** – 100,102,126

**Qorbaçov Mixail** – 265,266
**Qromıko Andrey** – 266
**Qross Andreas** – 386–399
**Quliyev Eldar** – 5
**Quliyev Rəsul** – 114,250
**Quliyev Tofiq** – 161
**Quliyev Vilayət** – 265
**Quliyeva Zəhra** – 397
**Qusman Mixail** – 98
**Lanfranki Jan–Rol** – 184–193
**Ledski Nelso** – 411–420
**Letsiye III** –120
**Luçinski Petru** – 6–10
**Lujkov Yuri** – 265,266,267
**Lukaşenko Aleksandr** – 446
**Madl Ferens** – 196
**Makkeyn** – 26,329
**Malk Olm** – 28
**Mandela Nelson** – 15
**Marqrete II** – 161
**Matske Riçard** – 48,55,59,71
**Matviyenko Valentina** – 81
**Mbasoqo Obianq** – 155
**Mbeki Tabo** – 15
**Meftahəddinova Zemfira** – 208
**Mehdiyev Ramiz** – 94,95,96,110,125,126,127–136, 137,141,144,146,147,149,301,358, 360,412,415,418,419
**Məmmədov Fikrət** 135
**Mirzəyev Ramiz** – 380
**Mirzəzadə Xəyyam** – 152–153
**Mütəllibov Ayaz** – 111
**Nazarbayev Nursultan** – 219–220,232
**Netanyahu** – 29
**Niyazov Saparmurad** – 233
**Obasanco Olusequn** – 122
**Obrayan Filipp** – 235–241
**Olbrayt Madlen** – 18,25,100,103,114,126,328,331
**Özal Turqut** – 46
**Paşayev Hafiz** – 5
**Pənahov Məzahir** – 353–363,433
**Piter Kinq** – 25
**Piter Rozenblatt** – 27–28,33
**Polad Bülbüloğlu** –163
**Popov Aleksandr** – 438–449
**Putin Vladimir** – 94,99,100,112,114,263,264,445
**Rasizadə Artır** – 95,126,136–142,148,310,338,382
**Pay Yohannes** – 117
**Rauber Helmut** – 400–410
**Raykin Arkadi** – 296
**Rəhmonov Emoməli** – 80
**Robinson Meri** – 15–17
**Rod Jak** – 242,247
**Rostropoviç Mstislav** – 160–164,165–166,170
**Ryabov Nikolay** – 175–183,263–267,438–449
**Rzayev Əli** – 144
**Saqdeyev** – 38
**Salmanov Fərman** – 376
**Sarbones** – 26

**Sarkisyan Vazgen** – 31
**Seleznyov Gennadi** – 442
**Sestanoviç Stefan** – 18,327–334
**Sezər Ə N** – 35,112,204,325
**Skuarcialupi Vera** – 397
**Skoukroft Brent** – 42,44,46
**Smit Dadli** – 269–278
**Smit Doul** – 113,115,249,250
**Sornberi** – 412
**Spitzer Robert** – 169–173
**Stivens** – 72–77
**Stroyev Yeqor** – 265,266,442
**Şamilov Elcan** – 444
**Şelaginov Oleq** – 356
**Şevardnadze Eduard** – 6–10, 112,204,283
**Şərifov Abid** – 318,385
**Şirak Jak** – 160,186
**Şröder Gerhard** – 118
**Studman Jerar** – 132
**Tağıyev Hacı Zeynalabdin** – 373
**Talıbov Vasif** – 258,259
**Ter-Petrosyan Levon** – 31,54
**Tixonov Georgi** – 438–449
**Tixonov** – 266
**Trotski** – 178
**Tszemin Tszyan** – 121
**Uilson Ross** – 279– 283,304–309,327,328
**Vahidov Əlişir** – 6
**Vesfal Maykl** – 304–309
**Veşnyakov Aleksandr** – 175–183
**Vəziri Rza** – 48
**Villiger Kaspar** – 310–318
**Vudvord Devid** – 203,204
**Vulçanov Nikolay** – 132
**Vulfenson** – 160
**Yelizaveta II** – 161
**Yeltsin Boris** – 99,264,445
**Yəsəvi Xoca Əhməd** – 219
**Yurgens Erik** –134

## Coğrafi adlar göstəricisi


**Abxaziya** – 68
**Afrika** – 306
**Ağsu** – 354
**Almaniya** – 117,118,179
**Amerika (*qitə*)** – 355
**Amerika Birləşmiş Ştatları** – 5–77,92–103,104,115,116,126, 136,142,162,164,176,179,194,200,203, 247, 249,250,279–283,304–309,304–309,312,324,325,372,394, 404,411–420,427
**Ankara** – 282,332,430
**Aralıq dənizi** – 29,430
**Atlanta** – 123
**Avrasiya** – 90
**Avropa** – 8,10,38,40,62,66,70,140,247,274, 278,352,389,392,399,402,403,434
**Asiya** – 40,62,70
**Avstraliya** – 92,123,205–218
**Avstriya** – 231
**Bakı** – 8,23,24,31,44,57,66,74,77,78,79, 80,81,82,83,84,85,90,91,97,98,99, 105, 110,117,118,119,120,121,122, 130,145,146,150,151,153,154,155,157,158,159,167,168,194,195,196,197,220,223,231,232,233,234,260,268,273,303,318,332,337,341,344,352,372,373,374,379,409,423,448
**Belarus** – 124,217,290,446
**Biləsuvar** – 258
**Bilgəh** – 108
**Bolqarıstan** – 66
**Böyük Britaniya** – 176,396
**Braziliya** – 78
**Cenevrə** – 17,21,32,313
**Ceyhan** – 29
**Cənubi Afrika Respublikası** – 15,16,67,68
**Cənubi Qafqaz** – 14,28,37,38,68,210,276,337,338
**Culfa** – 258,259,261
**Çeçenistan** – 67,68
**Çexiya** – 234
**Çexoslovakiya** – 29
**Çili** – 82
**Çin** – 121,162
**Dağıstan** – 30,68
**Dağlıq Qarabağ** – 18,19,32,34,51,52,53,54,55,67, 111,112,114,217,265,280,330,394, 403,404,405,406,423,428
**Davos** – 17,310,314,317
**Ekvatorial Qvineya** – 155
**Ədən** – 194
**Əfqanıstan** – 30,68,274,306
**Əlcəzair** – 352
**Ərzurum** – 431
**Fərqanə** – 30
**Finlandiya** – 402,404
**Fransa** – 31,47,54,160,161,184–193,221-223,312,325,394,398,404
**Gəncə** – 292,293,340,341
**Gürcüstan** – 6–10,37,57,61,66,144,200,201, 203,268,280,282,283,290,324,414, 418,430,447

**Hindistan** – 306
**Hollandiya** – 292
**Xəzər dənizi** – 12,18,25,26,34,37,40,46,58,60, 62,65,69,70,71,186,199,279,280, 282,336,365,374
**İqdır** – 431
**İngiltərə** – 179
**İran** – 35,69,70,252–262,294,427,432–437
**İrlandiya** – 17
**İspaniya** – 158,159,161,391
**İsrail** – 10,23,29
**İstanbul** – 283
**İsveçrə** – 310–318,389
**İtaliya** – 382
**Karyer–Su–Ruası (*Fransada şəhər*)** – 221–222
**Kennibunkport** – 41
**Kəlbəcər** – 216
**Kəpənəkçi (*Gürcüstanda kənd*)** – 268
**Kiyev** – 361
**Klivlend** – 77,92–97,101,102,103,109,112, 126,162
**Kopenhagen** – 161
**Koreya** – 195
**Koreya XDR** – 79
**Qafqaz** – 10,34,40,66,68,90,91,168,264, 306,423,428,
**Qax** – 129
**Qara dəniz** – 29,37
**Qazaxıtan** – 61,69,70,124,200,217,219–220, 231,280,283,290,324
**Qəbələ** – 129
**Qətər** – 256
**Qırğızıstan** – 28,30,68,151,290
**Quba** – 23,24,31
**Quds** – 33
**Qvineya** – 119
**Leninqrad** – 361
**Lesoto** – 120
**Lissabon** – 314
**London** – 94,100,104–105,163,275
**Macarıstan** – 196,393
**Mali** – 87
**Marneuli** – 268
**Maştağa** – 108
**Meksika** – 84
**Meksika (*körfəz)*** – 58
**Mərkəzi Asiya** – 30,37,38
**Moldova** – 6–10,446
**Moskva** – 11,123,180,185,253,254,256,263, 264,266,267,289,361,362,374,376, 377,378,379,408,435
**Naxçıvan** –265,340,341,436
**Naxçıvan M R** – 56,130,257,259,294,323,342
**Nigeriya** – 122
**Norveç** – 143,408
**Nyu-York** – 5–40,55,92,98,104,112,113,126, 160,179,241
**Ohayo (*ABŞ-da ştat*)** – 98–100,104
**Oğuz** – 23
**Orta Asiya** – 10,57,66,68,168,295
**Oş (*Qırğızıstanda şəhər*)** – 151
**Özbəkistan** – 28,30,68,218,290,324
**Pakistan** – 306

**Pekin** – 162
**Polşa** – 139,174
**Portlend** – 41–47,108
**Rostov(*RF-da vilayət*)** – 442,443
**Rumıniya** – 38,66,394
**Rusiya** –31,37,47,54,61,68,69,70,77,81,94, 105,111,112,124,163,175–183,226, 263–267,271,294,305,308,312,325, 375,376,394,404,427,430,442,447,448
**Səudiyyə Ərəbistanı** – 88,89
**Sibir** – 59
**Sidney** – 123,125,205–218,242,243
**Sumqayıt** – 245,291,293,336
**Şamaxı** – 129,154
**Şanxay** – 162
**Şəki** – 23
**Şərqi Avropa** – 308
**Şərqi Azərbaycan** –259
**Şimal dənizi** – 58
**Şimali Kipr** – 412
**Şimali Qafqaz** – 67,68
**Tacikistan** – 28,30,68,80,290
**Taqanroq** – 443,444
**Tatarıstan** – 375
**Tayvan** – 162
**Tbilisi** – 144,201,282,324,332,448
**Tehran** – 262
**Texas (*ABŞ-da ştat*)** – 42
**Təl-Əviv** – 33
**Tokio** –338
**Türkmənistan** – 233,430
**Tümen** – 375,376
**Türkiyə** – 29,32,45,46,54,61,112,113,163, 168,198–204,223,250,251,294, 320–326, 412
**Türküstan** – 219–220
**Ukrayna** – 6–10,124,218,290,414,418,446
**Ural** – 361
**Uzaq Şərq** – 361
**Vatikan** – 154
**Vaşinqton** – 21,25,32,43,48–77,92,98,104, 107,108,114,179,305,306,334,412
**Vyana** – 333
**Yaxın Şərq** – 403
**Yalta** – 32
**Yaponiya** – 38,66,227,335–339
**Yerusəlim** – 33
**Yuqoslaviya** – 167
**Zaqatala** – 129
**Zambiya** – 197
**Zəylik** – 292
**Zuğulba** – 206

| | |
|---|---|
| **Kitabı çapa hazırlayan** | ***Tofiq Babayev*** |
| **Rəssamı** | ***Fuad Fərəcov*** |
| **Texniki redaktoru** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 32,0.
Uçot vərəqi 32,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2, ev 3.
"Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.